**E.M.HACIZADƏ**

# SOSIALLAŞAN İQTİSADİYYAT

**Bakı - Elm - 2006**

# SOSIALLAŞAN IQTISADIYYAT

*Bakı. Elm. 2006*

## MÜNDƏRİCAT

**ÖN SÖZ** 04

**GİRİŞ** 06

**I FƏSİL**
**SOSİAL-İQTİSADİ FİKİR TARİXİ KONSEPSİYALARI**

1.1.İlkin təsərrüfatçılıq kompazisiyası 09
1.2.Konfessial iqtisadi sistemlər 13
1.3.Orta əsrlər iqtisadi təfəkkürü və utopizm fəlsəfəsi 16
1.4.İqtisadi-nəzəri şəcərənin elmi təşəkkülü 18
1.5.İqtisadi fikirin konseptual kamilləşməsi mərhələsi 25
1.6.Yeni metodoloji keyfiyyət və neoliberal missiya 34
1.7.Ekonometrik modelləşmə və laureatlaşantədqiqatlar 40

**II FƏSİL**
**SİVİLİZASİYA PARADİQMALARI**

2.1.Cəmiyyət həyatının inkişaf silsiləsi elmi yanaşmalar və baxışlar çevrəsində 44
2.2.İndustrial cəmiyyət və inkişafın növbəti senariləri 46
2.3.Sivilizasiyalar konsepsiyasına təbii resurslar kontekstində təhlili baxış 48
2.4.Qlobal neft sivilizasiyası 50
2.5.Metan epoxası 55
2.6.Atom əsri 60

**III FƏSİL**
**İQTİSADİ VƏ SOSİAL VƏHDƏT**

3.1.Ekonomika 64
3.2.Sosiologiya 66
3.3.Soial iqtisadiyyat və İqtisadi sosiologiya 68
3.4.Sosial statistika 70

**IV FƏSİL**

## QLOBAL, REGİONAL, LOKOL

4.1.Planetin resurslar bazası və istehsalın konstruktiv paylaşması 75
4.2.Ölkələr tipologiyası: mahiyyət və əhəmiyyət diapozonunda 77
4.3.Lokal iqtisadi rayonlaşma 80
4.4.Qlobal və lokal konsensus: qlokalizasiya gerçəklikləri 82
4.5.Regional inteqrasiya prinsipləri 84
4.6.Dünya bazarı və transmilli korporasiyalar 87
4.7.İnformasiya texnologiyaları və innovasiya nailiyyətləri 89

## V FƏSİL
## DEMOQRAFİYA VƏ MƏŞĞULLUQ

5.1.Demoqrafik təbəllüdatlar 92
5.2.Əmək bazarı və məşğulluğun optimal təminatı 96
5.3.Yoxsulluq və əhalinin marginallaşması problemləri 99

## VI FƏSİL
## TƏKİMLLƏŞƏN MENECMENT VƏ OPTİMAL GƏLİRLƏR BÖLGÜSÜ

6.1.Elmi və tətbiqi menecment 103
6.2.Yerli özünüidarəetmə 107
6.3.Kadr menecmenti 109
6.4.Sosial siyasətin imperativləri 111
6.5.Gəlirlərin funksional bölgüsü 116
6.6.Sosial təminatlar şəbəkəsi və əlverişli social infrastruktur 120
6.7.Sosial müdafiə və effektli pension təminat 123

## VII FƏSİL
## SOSİALLAŞAN BİZNES STRATEGİYASI

7.1.Əlverişli biznes mühitinin adekvat şərtləri 125
7.2.Sahibkarlıq fəaliyyətinin prinsipial tələbləri 127
7.3.Yeniləşən biznes strategiyası 128
7.4.Biznes diversifikasiyası və genişlənən inkubasiya prosesləri 131
7.5.Azad İqtisadi Zonalar, ofoşor və onşor 134

## VIII FƏSİL
## SOSİUM SOFTLAŞMA ORBİTİNDƏ

8.1.Açıq cəmiyyət ideyası və softizasiyaya keçid zərurətləri 139
8.2.Konstitusiya iqtisadiyyatı 141
8.3.Sosial ekologiya və ekologiyalaşan iqtisadiyyat 143
8.4.Seçim rasionallığı və onun sosial-iqtisadi səmərəsi 146
8.5.Futuroloji məntiq və sosial proqnozlar 148
8.6.Sosial bazar iqtisadiyyatı 151

## IX FƏSİL

## SOSİAL KONSENSUS: İSLAM İQTİSADİYYATI

9.1.İslam iqtisadiyyatı nəzəriyyəsi tarixindən 156
9.2.Müsəlman təsərrüfat etikası 157
9.3.Müasir islam iqtisadi konsepsiyası və İslam maliyyəsi 159
9.4.İslam bankları yeni tərəqqi müstəvisində 161
9.5.«Üçüncü yol» fenomeni və ya İslam sosializasiyası 164

**NƏTİCƏLƏR** 166

**ƏLAVƏLƏR** 168

**SOSİAL İQTİSADİ VƏHDƏTDƏ ANLAŞILAN TERMİNLƏR LÜĞƏTİ** 192

**SOSİAL-İQTİSADİ HƏYATI TƏCƏSSÜM ETDİRƏN AFORİZMLƏR** 216

**QAYNAQLAR** 218

**İXTİSARLA YAZILMIŞ SÖZLƏR** 222

**РЕЗЮМЕ** 223

**SUMMARU** 224

# ÖN SÖZ



***İqtisadiyyatın*** sosial mahiyyətliliyi əzəli tarixi köklərə bağlı olsa da, cəmiyyətin müasir inkişaf mərhələsində o yüksəlişlər əldə edərək daha çox sosiallaşmaya məruz qalmaqdadır. Dünyanın inkişaf etmiş ölkələri yeni iqtisadi inkişaf strategiyasını indi artıq yalnız dövlətin qüdrətlənməsi, iqtisadi təhlükəsizlik, dayanaqlı büdcə, məhdud infilyasiya indikatorları ilə yanaşı, bəşəri ehtiyacları dolğun ödəyərək geniş sığorta və ictimai təminatları ifadə olunan sosiallaşan xətt üzərində qururlar. Üstün servis təyinatlılığı ilə fərqlənən bazar iqtisadiyyatının bu yüksək fazasında iqtisadi yaranışlar səhiyyə, elm, təhsil, incəsənət, mədəniyyət, idman və bütünlükdə bütün sivilizasiya dəyərləri ilə ümumi vəhdət təşkil edir.

İqtisadiyyatın sosiallaşması prosesi dönməzdir. O, qloballaşaraq daha geniş tətbiq sferasına daxil olmaqdadır. Bu reallıq isə ümumi tələblərlə yanaşı, yeni sosial-iqtisadi sistemin formalaşmasının nəzəri əsaslarını, metodoloji aspektlərini, praktiki nəticələrini geniş təhlil predmetinə çevirir. Problemin aktuallığını nəzərə alaraq iqtisad elmləri namizədi Elşən Hacızadə tədqiqatçılar, alimlər və geniş oxucu kütləsinin mühakiməsinə verdiyi «Sosiallaşan iqtğisadiyyat» adlı monoqrafiyasında bu tələblərdən irəli gələn məsələlərin cavablandırılmasına cəhd etmişdir.

Monoqrafik tədqiqatın ana xəttini iqtisadi və sosial vəhdət təcəssüm etdirir. Müəllif göstərir ki, bu vəhdət təsərrüfat həyatının təşəkkülü ilə eyni vaxtda yaranmışdır. Fikri əsaslandırmaq üçün o, iqtisadi və sosial paralelliyi sosial və iqtisadi fikir tarixi konsepsiyaları baxımından şərh edir. Burada maraqlı cəhət ondan ibarətdir ki, bu elmi-təhlili şərhdə bəşər sivilizasiyasının təşəkkül və inkişaf prosesi makroregional aspektdə verilmiş və müəllif iqtisadiyyatı və sosial həyatın konfessial mahiyyətliliyini əsaslandırmağa meyl etmişdir. Bununla belə tədqiqatda göstərilir ki, sivilizasiya paradiqmaları kontekstində təsərrüfat həyatı daş-metal predmetliyi kimi, energetik quruluş mahiyyətliliyinə də malikdir. Çünkü enerji təminatı iqtisadiyyatın bütün guşələrində əsas irəliləyiş faktoru olmuş və qalmaqdadır. Buna görə də müəllifin fikrincə sivilizasiyalar konsepsiyasına təbii resurslar təməlindən də yanaşılmalıdır. Bu yanaşmanı isə müasir mərhələdə faktiki olaraq daha sürətlə dəyişən industrial və postindustrial sistemlərin tərkib hissələri - neft sivilizasiyası, metan epoxası və nüvə sintezi mərhələləri əks etdirir.

İqtisadi və sosial vəhdət problemini araşdıran müəllif bu baxımdan iqtisadiyyat və sosioloji elmlərin predmet və obyektlərinin əlahiddəliyi və uyğunluğu da təhlil edir. İqtisadiyyatın sosiallaşmasına güc verən qlobal, regional və lokal aspektləri bir araya gətirərək qiymətləndir. Müəllif haqlı olaraq göstərir ki, bütün sivilizasiya yaranışları insan faktoruna, onun kapital dəyərinə istinad edir. Bu gerçəklikdən çıxış edərək vurğulayır ki, iqtisadiyyatın sosial yönümlülüyinün təminatında insan kapitalının hərtərəfli inkişafı üçün məşğulluq probleminin həlli, yoxsulluğun aradan qaldırılması və ümumilikdə mobil sosial infrastrukturun yaradılması vacib şərtlidir.

İqtisadiyyatın sosiallaşması problemi bütün təsərrüfat obyektləri və subyektlərinin menecment sisteminin də təkmilliyini tələb edir. Bu aspektdə menecment problemini önə çəkən müəllif dövlətin, korporasiyaların, ayrı-ayrı fərdlərin rolunu qiymətləndirərək iqtisadiyyatın və sosial sferanın idarə olunmasında sosial siyasətin imperativləri sistemləşdirir. Artan sosial məsuliyyət çərçivəsində gəlirlərin optimal bölgüsü, sosial təminatlılığın artırılması, servis işinin inkişafını mühüm amil hesab edir. Müəllifin fikrincə sosial iqtisadiyyat quruculuğunda biznes strategiyası da yeni məzmun mahiyyətdə formalaşmalı və o, üstün sosial yönümlülüyü ilə fərqlənməlidir.İqtisadiyyatın sosiallaşmasını labüd proses hesab edən müəllif müasir dünyada

mövcud real və nəzəri sosial-iqtisadi sistemləri: açıq cəmiyyət, konstitusiya iqtisadiyyatı, sosial bazar iqtisadiyyatı və digərlərinin başlıca xüsüsiyyətlərini apardığı təhlil əsasında fərqləndirir, lakin bununla onların hansının üstün olduğuna tam dəqiqliklə təyinat vermir. Bununla belə o, prinsipial olaraq hesab edir ki, iqtisadiyyatın sosiallaşmasının ən təminatlı alternativ sistemi kimi İslam iqtisadi modeli çıxış etməlidir. Bu baxış onunla əsaslandırılır ki, müasir qlobal iqtisadiyyatda hakim iqtisadi modellər böhranlı xarakterlidirlər və onlar mütəmadi təkmilləşməyə məruz qalsalar da kifayət edici ədalətli gəlirlər bölgüsünü və sosial paritetliyi dolğun təmin etmirlər. Bu təminatlığı isə o, mükəmməl sosial ədalət və təsərrüfatçılıq etikasına malik İslam iqtisadiyyatında görür. İslam iqtisadiyyatının bəşəri mahiyyət və prinsiplərini yeni reallıqlar baxımından təhlil edən müəllif, həm də haqlı olaraq göstərir ki, bu sahədə nəzəri araşdırmalar yeni dövriyə yığmaqdadır və prosesin önündə Azərbaycanlı professor M.X.Meybullayevin tədqiqatları dayanır.

Monoqrafiyanı oxuyarkən belə qənaətə gəlmək olur ki, müəllif məqsədli olaraq qarşıya qoyduğu iqtisadiyyatın sosiallaşması probleminin əsas meyar və konturlarını müəyyənləşdirməyə və sistemləşdirməyə cəhd etmiş və bir çox hallarda buna nail olmuşdur. Burada daha bir maraqlı cəhət ondan ibarətdir ki, əksər məsələlərin təhlilində müəllif konkret nəticələr formalaşdırmamış, problemin fundomentallığını önə çəkərərək onu bu istiqamətdə tədqiqatlarını genişləndirənlərin mühakiməsinə buraxmışdır.

Monoqrafiiyada mübahisəli və ayrı-ayrı hallarda ziddiyytli məqamlara da rast gəlinir. Bunu isə problemin çox geniş əhatə dairəsinə malikliyi və təhlil sferasında çoxsaylı istiqamətlərin mövcudluğu ilə bağlamaq lazımdır.

Nəşr edilən monoqrafiyanın oxunaqlığını və mənimsənilmə imkanlığını artırmaq üçün kitabda uyğun illüstrasiyalar, təsərrüfat həyatına aid aforizmlər, iqtisadiyyat sahəsində Nobel laureatları haqqında məlumatlar, sosial və iqtisadi anlayışları ifadə edən əsas istilahlar lüğəti əksini tapmışdır.

Müəllifin uzun illər apardığı tədqiqatını qiymətləndirərək ona bu istiqamətdə elmi yaradıcılığının daha da genişləndirilməsini arzulayırıq.

***Akdemik Z.Ə.Səmədzadə***



Bol sevgi diləkli, cəfakeş,
anam Bəyimxanım Sadıq qızına itihaf olunur

# GİRİŞ

Fövqündə bəşəri dəyərlər və haqlar dayanan inkişaf etmiş ölkələrə geniş təcəssümlü sığorta və ictimai təminatları ifadə edən sosiallaşmış bazar iqtisadiyyatı xasdır. Bazar iqtisadiyyatının yüksək fazası kimi, servis təyinatlı yeni sferanın hakimliyi ilə xarakterik olan sosial iqtisadiyyatın diqqət mərkəzində tələb və qiyməti ilə insan varlığı durur. Burada təsərrüfatın bazar metodları iqtisadiyyatın sosialyönümlü dövlət tənzimlənməsi ilə uzlaşır. Səhiyyə, elm, təhsil, incəsənət, mədəniyyət, bədən tərbiyəsi və idmanın da daxil olduğu sosiallaşan bazar iqtisadiyyatının leytmotivini də bazar mexanizminə və sosial dirçəlişə köklənən iqtisadiyyat təşkil edir.

İstiqaməti sosial təyinatlı bazar iqtisadi modeli iqtisadi azadlıq, iqtisadi artım, iqtisadi təhlükəsizliyə istinad olunan tam məşğulluq, qiymət stabilliyi, sosial sabitlik və ədalətli vergiqoyma kimi mühüm komponentlərdən ibarətdir. Aktuallığı yüksələrək sosiallaşan iqtisadiyyat müasir sivilizasion transformasiyada prioritet alternativ ampulada çıxış edir. Bu aktuallaşan reallıqları əsaslandıraraq yeni sosial-iqtisadi sistemin formalaşmasının konseptual bazisinin, metodoloji aspektlərinin, nəzəri və praktiki iqtisadi həll mexanizmlərinin təhlili mövcud monoqrafik tədqiqatda araşdırma predmetinə çevrilmişdir.

İdrakı təkamül, sosial-iqtisadi tərəqqi, elmi-texnoloji nailiyyətlər və əks qütbdə ki, yaranışlar - müharibələr, təbii fəlakətlər, iqtisadi böhranlar, sosial kataklizmlər sivilizasion transformasiyanı reallaşdıranda empirik analizin aparılması ictimai tələb və sifarişləri formalaşdırmışdır. Hər bir yeni yaranış və təbəllüdat klassik iqtisadi təlim korifeylərindən müasir iqtisadi-sosioloji lider nümayəndələrə qədər sivilizasiya hadisələrinin xronoloci məntiqdə elmi araşdırılmasını tədqiqat mövzusunun hədəfi etmişdir. İnsanın sosial və təsərrüfat həyatının inkişaf problemlərinin praktiki və nəzəri çevrədə müxtəlif növ mülkiyyət formaları aspektindən izahı verilmiş, yeni instansiyaya keçidin şərtləri, perspektivin hipotezləri elmi əsaslandırılmışdır. Bu həlqədə iqtisadiyyatın sosiallaşması, onun daha dolğun bəşəri xarakter alması istiqamətində də tədqiqat və araşdırmalara intəhasız bilgi materialı sərf edilmişdir. Paralel olaraq sosial-iqtisadi problemlərin tədqiqi də müasir məqamda mütəmadi izlənərək modifikasiya olunan elmi araşdırma meydanına çıxmışdır. Sosial məsuliyyətin yüksəldiyi bazar formatlı iqtisadi quruculuq dövründə aparılan müvafiq tədqiqatların paradiqması isə köklü dəyişmələrə uğramış, daha sivil və mütərəqqi məzmun almışdır.

Miqyaslı toplum təşkil edən müvafiq araşdırmaları yüksək dəyərləndirərək, onun elmi-empirik bazasında mövcud monoqrafik tədqiqatda məqsədli quruluş və genetik elmi əsaslandırma rakusundan iqtisadiyyatın sosiallaşması konsepsiyasına fərqli yanaşma təzahürlü təyinat verilmişdir. Bu fərqlilik sosial və iqtisadi uzlaşma kontekstində tədqiqatın inteqrir struktur düzümündən, fəlsəfi ahəngli mahiyyətindən, elmi-təhlilin institusional motivli metodik yanaşma və trendlilik aspektindən sezilir.

İqtisadiyyatın sosiallaşmasına aparan yolun tədqiqində məqsədlər toplumunun ön sırasına retrospektiv araşdırma predmetini əks etdirən sosial-iqtisadi fikir tarixi konsepsiyalarının təhlili çıxarılmışdır. Təsərrüfatçılığın yaranışı, konfessial iqtisadi sistemlər, intibah dövrünün iqtisadi təfəkkürü, utopizm fəlsəfəsi, nəzəri-iqtisadi şəcərənin elmi təşəkkülü və cəmiyyət həyatının bütün sivilizasion inkişaf mərhələlərinin kompleks tədqiqi elmi yanaşmalar və baxışlar çevrəsində ilkin araşdırma mövzuları şəbəkəsini təşkil etmişdir.

Monoqrafik tədqiqatın ən ümumi prinsipial sücet xəttini iqtisadi və sosial vəhdət kompozisiyası tərənnüm edir. Sosial iqtisadi uzlaşma təyinatından öncə iqtisadiyyatın və sosioloji elmlər sferasının mahiyyət və prinsipləri konstatasiya olunur, nisbi metodik və predmetik cəhətlər araşdırılaraq sosiallaşan iqtisadiyyatın başlıca indikatorları, statistik

göstəricilər sistemi və bu inkişaf trayektoriyasının genişlənməsini əsaslandıran və eyniyyətlə də məhdudlaşdıran amillər şəbəkəsinin təhlili aparılır. Xüsusi vurğu sosial və iqtisadi birliyin artıq ayrıca tədqiqatlar sistemində formalaşmış elmi «İqtisadi sosiologiya» və «Sosial iqtisadiyyat»ın fərqlilik aspektlərinə yönəldilir.

İqtisadiyyatın dərinləşən sosial xarakter alması məxsusi komponent və atributlar dairəsində vüsətlənir. Sosial və ya iqtisadi olması fərqinə varmadan bütün sivilizasion yaranışlar insan faktoru üzərində pərvəriş tapır. Demoqrafik situasiyanın, onun struktur mobilliyinin dəyişkənliyi, məşğulluğun təminatı, əmək bazarının seqmentasiyası və bu proseslərin aktiv, davamlı tənzimlənməsi sivilizasion irəliləyişlərlə müşaiyət olunur. Tədqiqatda bu əsnadan çıxış edərək bir daha təməlli olaraq göstərilir ki, iqtisadiyyatın sosial yönümlülüyünün təminatında insan kapitalının hərtərəfli inkişafı məşğulluq probleminin optimal həllini reallaşdıraraq yoxsulluğun mülayimləşməsi və təcridinin, ümumilikdə əhalinin marginallaşmasının qarşısının alınmasına sipər çəkir.

Müasir və perspektivli iqtisadiyyat və həmçinin sosial həyat bütövlükdə planetin mineral-xammal bazasının, material və mənəvi resurslar şəbəkəsinin optimal yerləşməsi və səmərəli istifadəsi prinsiplərindən qaynaqlanır. Çağdaş sivilizasiyanın həyat təkərini energetik biçimli mühərriklər hərəkətə gətirir. Enerji problemi bütün yaranışların substansiyasında dayanaraq çeşidli energetik sivilizasiya paradiqmalarını formalaşdırır. Tədqiqat prosesində iqtisadi və sosial proseslərdə müvafiq enerji dominantlığına rəğmən planetin resurslar bazasının təsnifat və parametrləri, energetik sivilizasiyaların mahiyyəti, məzmun və formaları, onların trasformasiya labüdlüyü ayrıca təhlil blokunda araşdırılmışdır.

İnsanın təsərrüfat həyatı və sosial proseslər daim idarəolunmaya və tənzimlənməyə məhkumdur. Müasir menecment də bütün səylərini müvafiq proseslərin kataklizmlərsiz, rəvan irəliləyişinə kökləyir. Tədqiqatda iqtisadiyyatın sosiallaşması istiqamətində idarətmə və tənzim vermənin üstün obrazını dəyərləndirərək texnoloji və kadr menecmentinin əhəmiyyət diapazonu yeni və klassik səpkidə araşdırılır. Bu şəbəkədə dövlətin, korporasiyaların, ayrı-ayrı fərdlərin rolu qiymətləndirilərək iqtisadiyyatın və sosial sferanın idarə olunmasında sosial siyasətin imperativləri sistemləşdirilir. Gəlirlərin bölgüsü, sosial infrastruktur, sosial müdafiə və pensiyon təminat, xidmət və servisin yüksəldilməsi ümumi sintezdə tədqiqat sferasının məqsəd və vəzifələr blokunun növbəti mövzularını ifadə edir.

Yaşadığımız çağdaş zamanda planetin sivilizasion səmtinin postindustrial təsərrüfata köklənməsi və bu əsnada güclənən qlobal axın hər bir ölkənin siyasi oriyentasiyasından asılı olmayaraq, onun sosial-iqtisadi tərəqqisində əksini tapmadadır. Məhz bu baxımdan təhlilinə təşəbbüs edilən problemin daha dolğun çərçivədə çözülməsi qəti olaraq meqaekonomik tendensiyanın nəzərə alınmasını şərtləndirir. Dünya təsərrüfatının, beynəlxalq bazarın strukturu, qlokolizasiya, regionlaşma aspektləri, coğrafi sosial-iqtisadi modelləşmə, informasiyon texnologiyalar və innovasion nailiyyətlər gücü və bu ümumi gerçəkliklərdən irəli gələn faktorlar tədqiqat predmetinin aksesuarlarına çevrilmişdir.

Biznes strategiyası, biznesin inkubasiyası, əlverişli biznes mühiti, onun azad və səmərəli təşkilati iqtisadi yaranış zonaları, softizasiyanın inkişaf perspektivləri, açıq icma və vətəndaş cəmiyyəti quruculuğu, konstitusiya iqtisadiyyatı təməlçiliyi, sosial ekologiya və neosferanın mahiyyət prinsipləri, rasional seçim, futuroloji məntiq, sosial-iqtisadi proqnozlar şəbəkəsi sosial bazar iqtisadiyyatının formalaşması attraktorları və qərarlaşmasına təsir edən amillər konfiqurasiyası kimi dəyərləndirilərək tədqiqat prosesinin nəticəlik oriyentasiyasını istiqamətləndirir.

İqtisadiyyatın sosial modernləşməsinin mühüm alternativ varyasiyası kimi tədqiqatın ideyalar çevrəsində yekun olaraq yeni dövriyyə yığmış və dinamik güc toplamış İslam iqtisadiyyatına geniş məkanlı meydan ayrılır. Bu genişlik onunla əsaslandırılır ki, müasir qlobal iqtisadiyyatda əslində yəhudi-xristian məkfurəsini əks etdirən modellər hakimdir. Müvafıq modellər isə böhranlı xarakterli olaraq sosial bərabərsizlikləri ilə fərqlənirlər. Sosiallaşan iqtisadiyyatın AvroAtlantik modelləri nə qədər təkmilləşməyə məruz qalsalar da yetərli ədalətli

gəlirlər bölgüsünü və real sosial paritetliyi dolğun təmin etmək iqtidarında deyildirlər. Bu mənada yeni iqtisadi modellərin axtarış strategiyasında, «üçüncü yol» konsepsiyasında İslam maliyyəsi və sosializasiyası mühüm alternativ konsensus kimi sınanmalı və kompleksli reallaşmalıdır.

Sosiallaşan iqtisadiyyat konsepsiyasının mövcud monoqrafik tədqiqat sferasında araşdırılması məxsusi elmi yenilikli və praktiki əhəmiyyətli cəhətləri səciyyələndirilir. Belə ki, sosiallaşan iqtisadiyyat konsepsiyasının tədqiqat mexanikası ilk dəfə olaraq sosial-iqtisadi olmaqla yanaşı, həm də konfessial və fəlsəfi çevrədə komplekslilik əldə edir. Yeni dayanaqlı sivilizasion paradiqmalı cəmiyyət quruculuğunda, iqtisadi sistemin sosiallaşan bazar iqtisadiyyatı prinsiplərinə adaptasiyasında İslamın üstün sosial ədalət və təsərrüfatçılıq prinsipləri alternativ tam kimi önə çəkilir.

Çağdaş sivilizasion transformasiyada ən mühüm həyati məsələ olaraq sosial və təsərrüfat həyatının energetik təchizat problemi və onun perspektivlik imkanlar diapazonu fərqlənir. Tədqiqat işində qlobal energetik təchizatın müxtəlif inkişaf senariləri bir araya gətirilir, enerji faktorları qiymətləndirilərək təhlil edilir və onların xronoloci əvəzlənməsi hipotetik düzümdə təqdim olunur. Energetik epoxaların amplitudasının məntiqi, aksimotik təyinatı özü-özlüyündə milli energetik strategiyaların formalaşması və təkmilləşməsi aspektində praktiki istifadə təyinatlı materiala çevrilir. Ümumilikdə iqtisadiyyatın sosiallaşması konsepsiyası və onun yeni rakuslu tədqiqat prosesi tam bir emprizmi şərtləndirərək gələcək istifadənin informatik bazası çıxışında bulunur. Bu aspekt açıq vətəndaş cəmiyyəti quruculuğunda, sosiumun inkişaf problemlərinin araşdırılmasında qlobal demoqrafik potensialın təbii sərvətlərə uzlaşma optimallığının təyinatına, sosial və ekoloji məsuliyyətin yeni postulatlarının formalaşmasında, rasional seçimli, futuroloji məntiqli sosial-iqtisadi proqnozlarda istifadə gərəkliyini yüksəldir.

Tədqiqatın obyektlər silsiləsində aydınlıqların artması, təəssüratların daha da genişləndirilməsi mütəfəkkir portretləri, illüstrasiyaların, cədvəl və qrafik materialların təqdimatı ilə həllini tapmışdır. Məxsusi olaraq Azərbaycan oxucusu üçün 1969-2005-ci illərdə iqtisadiyyat sahəsində Nobel laureatlarının nailiyyətlər kontekstində təsnifat siyahısı verilmişdir. Kitabda təsərrüfat həyatına aid məhşur kəlamlar, aforizmlər və habelə ayrı-ayrı homo ekonomikusların qısa fikir və mülahizələrini əks etdirən xüsusi bölmə təqdim olunmuşdur. Ədəbiyyat siyahısında hər bir nəşriyyat məhsulu tədqiqatın konkret araşdırma və təhlil məqamları ilə rəqəmli işarələrlə uzlaşdırılmışdır. Tədqiqat sonluğunda abreviaturaları mənalandıran müvafiq açıqlama verilmiş, iqtisadi və sosial elmi vəhdəti ifadə edən əsas anlayış və istilahların ən mümkün lakonik interpretasiyada lüğəti əks olunmuşdur. Nəticələr ümumiləşərək sistem halına gətirilmiş, monoqrafik tədqiqatın rus və ingilis dillərində annotasiyalarına ayrıca təqdimat verilmişdir.

# I FƏSİL
# SOSİAL-İQTİSADİ FİKİR TARİXİKONSEPSİYALARI

## *1.1. İlkin təsərrüfatçiliq kompozisiyasi*

Sosiallaşan iqtisadiyyat quruculuğunun motivasiyası təsərrüfatçılıq ukladlarının təşəkkül və bəşəri iqtisadi fikir tarixinə ekskursu şərtləndirir. Praqmatik orbitin sakinləri aydın dərk edirlər ki, hər bir yeni yaranışın empirik rişələri vardır. Bu baxımdan təsadüfü olmayaraq sosiallaşan iqtisadiyyat paradiqması da direktiv və proqnoz sintezini ehtiva edən təyin olunmuş məqsədli quruluş və genetik elmi əsaslandırma diapazonunda pərvəriş tapır, perspektiv təyinatlı olaraq retrospektiv köklərdən qaynaqlanır.

Ən əski zamanlara köklənərək insanların təsərrüfat həyatının tarixi, bəşəri ibtidai iqtisadi baxışlar çevrəsinin yaranışı cəmiyyət inkişafının müxtəlif mərhələlərində formalaşan obyektiv şərtlər, tələb və maraqlar təməlində ərsəyə yetmişdir.

İqtisadi düşüncənin formal kökləri ibtidai insan həyatının ən dərin guşələrinə nüfuz edir. Elmə məlumdur ki, ibtidai insanlar belə primitiv iqtisadi biliklərə, təsərrüfat münasibətləri haqqında müəyyən praktik vərdişlərə və təəssüratlara malik olmuş, həyatı istehlak nemətlərinin istehsalını, bölgüsünü və mübadiləsini reallaşdırmağı əxz etmişlər. Lakin bu yaranışlar sərbəst bilik sahəsinə ayrılmayaraq ictimai şüurun tərkib hissəsi çərçivəsində, dini dünyagörüşün həlqələrində cərəyan etmişdir.

Ümumi götürdükdə bütün bəşəri sivilizasiya boyu iqtisadi fikrin yaranış və təşəkkül tarixi aşağıdakı üç mühüm mərhələdən keçmişdir:

**I.*Qədim dünya iqtisadi fikri;***

**II.*Qədim Şərq sivilizasiyasının iqtisadi fikri;***

**III.*Antik dünyanın iqtisadi fikri.***

Qədim dünyanın Şərq qütbündəki ilk sinfi icmaların yaranışı, sonradan padşah-məbəd təsərrüfatının meydana gəlməsi təşkilati problemlərin həlli və dövlətin idarə olunmasında iqtisadi düşüncənin daha konkret zəmində formalaşmasını labüd etmişdir. Elə bu həlqədən də iqtisadi elmin təşəkkül özəklərini əski dünyanın ilkin sivilizasiya məkanı Qədim Şərqin mütəfəkkir baxışlarında, ayrı-ayrı hökmdarların idarəetmə sistemini ehtiva edən kitabələrdə axtarmaq gərəkli hesab olunur.

Müqayisəli aspektdən çıxış edərək qeyd olunmalıdır ki, paralel zamanlarda Avropa qitəsi ayrı-ayrı ovçu məntəqələri istisna olmaqla büsbütün bəşəri mədəniyyətdən kənarda qalmışdır. Buna görə də həmən çoğrafi məkanın müqabil illərdə iqtisadi fikir tarixində rolu istisna edilir.

Bizim eradan əvvəl IV minillikdə Qədim Şərqdə artıq quldarlıq quruluşu intişar mərhələsinə qədəm qoymuşdu. Bu cəmiyyət formasının yaranışı isə öz növbəsində natural təsərrüfatçılıqdan əmtəə-pul münasibətlərinə keçidə rəvac vermiş, icma, dövlət və şəxsi mülkiyyətin qarşılıqlı ünsiyyətini yeni inkişaf mərhələsinə yüksəltmişdi.



Qədim Şərqin quldarlıq cəmiyyəti antik quldarlıqdan köklü fərqlənirdi. Bu fərq üstün səciyyədə qulun cəmiyyətdə əsas istehsal gücünə malikliyi ilə daha qabarıq təzahürlü olmuşdur. Belə ki, müvafiq sistem çərçivəsində kənd təsərrüfatı və əkinçilik formal olsa da azad insanlara məxsus idi. Digər nisbət isə torpağın dövlətin və ya dövləti icmanın əlində qalması fərqində seçilirdi. Qədim Şərqdə dövlətin təsərrüfat həyatında xüsusən də əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı klassik və spesifik istehsal üsulunun yaranışını təyinatlı etmişdir. Bu istehsal nümunəsi iqtisad elmi tarixinə ***«Asiya istehsal üsulu»*** kimi pərçimlənmişdir.

«Asiya istehsal üsulu»nun ilk elmi şərhi K.Marks və F.Engelsin yazışmalarında verilmişdir. Onun ayrı-ayrı cəhətlərinin təhlili isə K.Marksın «Kapital» əsərində əksini tapmışdır.

XIX-XX əsrlərdə marksist ədəbiyyatlarda «Asiya istehsal üsulu»nun tədqiq prosesi, xüsusən Q.V.Plexanovun, V.İ.Leninin əsərlərində inkişaf etdirilmişdir [22-25, 127].

Toplanmış tədqiqat materiallarına görə «Asiya istehsal üsulu»nun mahiyyətcə əsas əlamətlərini təsərrüfat həyatının nizamlanmasında dövlətin aparıcı rolu, şəxsi əmlakın toxunulmamazlığı, ticarət məhdudluğu, xüsusi istismar üsulunun mövcudluğu kimi komponentlər təşkil edir. Lakin bununla belə qeyd olunmalıdır ki, «Asiya istehsal üsulu»nun mahiyyəti fundomental kontekstdə tam açılmamış qalmaqdadır.

***Qədim dünyanın*** iqtisadi baxışlar sisteminin başlanğıcını əsasən əski Misir təsərrüfatçılığına görüntü verən «Heraklepol padşahının oğlu Merikaranın nəsihətləri» /b.e.ə. XXII/ və «İpuserin ifadələri» /b.e.ə. XVIII/ abidələrinin yaranışından hesab etmək olar. Birinci abidədə dövlətin funksiyaları, təsərrüfatın idarəetmə metodları ön plana çəkilsə də, ikinci də sosial çevriliş, idarəetmənin mərkəzi sisteminin dağılması və onun nəticələrinin təssürat və təsəvvürləri əksini tapmışdır [60, 127].

Çarlığı bizim eradan əvvəl 1792-1750-ci illərə təsadüf olunan Babilistan tiranı Hammurapinin qədim Mesopatamiyada sosial-iqtisadi münasibətlərin prinsiplərini şərtləndirən, daş kitabələrə köçürülmüş 282 maddəni əhatə edən qanunlar məcəlləsi də iqtisadi baxışlar sisteminin yaranışının ön sıralarında qərar tutur. Miladdan 1760 il öncə yazılaraq Hammurapi qanunları kimi tarixi yaddaşa köçürülmüş müvafiq idarəetmə «rituallarında» quldarın qul üzərindəki hakimiyyəti təqdis olunur, məmur maraqları önə çəkilərək şəxsi əmlak müdafiə edilirdi. Bu isə öz növbəsində qədim Babilistanda ticari-pul münasibətlərinin əhəmiyyətli ölçüdə inkişafından xəbər verir [60, 95].



Siyasi iqtisad kontekstində menecmentlə bağlı traktatların yazılması proseslərinin erkən təşəkkül tapdıqları regionlar sırasında Çinin məxsusi yeri vardır. Qədim Çin filosofları 24 əsr öncə Si padşahlığının Siziya akademiyasında dövlətin idarə edilməsini ilk mükəmməl kodeksini hazırlamağa müvəffəq olmuşlar. Uzun hazırlıqlardan üç yüz il sonrası - b.e.ə. 26-cı ildə ölkənin sosial-iqtisadi həyatını nizamlayan müvafiq qanunlar toplusu son variantda Lyu Syan tərəfindən tam külliyat halına salınmışdır. Bu mühüm traktat Si padşahının /b.e.ə. ? - 645/ baş vəziri olmuş, özünün siyasi, sosial-iqtisadi islahatları ilə məhşurlaşmış, görkəmli filosof Quan-Tszının şərəfinə adlandırılaraq ilk dəfə XIII əsrdə nəşr edilmişdir.. Padşahlıq mütləqiyyətini qətiyyətli tərənnüm edən baxışları, sosial-iqtisadi rasional praktiki əməlləri ilə tanınan Quan-Tszının nüfuz yüksəlişi o zamanlarda qədim Çində məlum olan fəlsəfi məktəblərin prioritetlərinin məhz onun simasında unifikasiyasını təmin etmişdir.



«Quan-Tszı» traktatı öncə daosizm əsasında ixtisaslaşsa da, sonradan daha sosial əsaslı leqizm cərəyanında intişar tapmışdır. Traktatın müəllifləri dövlətin varlı, xalqın isə barış içində olması ideyasını ali məqsəd kimi qarşıya qoymuşlar.

«Quan-Tszı» təlimində sərvət anlamında qızıl və mirvarinin üstünlüyü zəminində bazarda əmətəə dəyəri mübahisə doğurmayan bütün material nemətlər əsas götrülürdü. Qızıl isə burada valyuta formasında mübadilə qalığının ödənişi funksiyanı yerinə yetirirdi. Traktata diqqətli nəzər yetirdikdə, onun zamanlı analoqlarından bazar mexanizminin qavrayışlılıq aspektinə maliklilik fərqini sezməmək mümkün deyildir. Müvafiq bazar funksionallığının dərki və qəbulunda isə tənzimləmə aparmaqla tələb və təklif tarazlığı yaratmaq və bu istiqamətdə dövlət tədarükü, pul buraxılışı mexanizmlərindən istifadə etmək kimi fəaliyyətlər dayanır [89, 110, 127].

Erkən iqtisadi düşüncə tarixində qədim Çin filosofu Konfutsinin - Kun-tszı /b.e.ə. 551-479-cu illər/ təlimlərinin də əhəmiyyətli yüksəkdir. Dövlət patriarxal-paternalist konsepsiyasını inkişaf etdirən alim özünün məhşur «Lun-yun» /*Söhbətlər və deylimlər*/əsərində dövləti böyük ailə adlandıraraq hesab edirdi ki, əmək sabit cəmiyyət quruculuğunu tənzimləyərək sərvətləri artırır, ailə münasibətlərini möhkəmləndirir. Onun fikrincə hakimiyyət sərvətlərinin bərabər

bölgüsü, kənd təsərrüfatı işlərinin nizamının, vergilərin məhdudlaşdırılması və insanların mənəvi təkmilliyinin qaygısını çəkməlidir. Konfutsinin bu iqtisadi-etik normaları nə qədər bəşəri-tarixi əhəmiyyətli olsa da, vətən patriarxal ailə icmasının və Çin dövlətinin ictimai quruluşunun möhkəmlənməsinə xidmət edirdi.

Qanunlar və cəza əsasında deyil, adi insani haqlar çərçivəsində idarəetməni rəhbər tutan, ağır vergiləri təcrid edən «Konfutsianlıq» adlanan bu əxlaqi-siyasi dünyagörüş Çinin ictimai-siyasi həyatında dərin iz buraxaraq iki min ildən artıq bir dövrdə, b.e.ə 136-cı ildən 1911-ci ilədək - Sinxay burcua inqilabına qədər rəsmi hakim doktrina kimi qalmışdır. «On min nəslin müəllimi adını daşıyan Konfutsinin təlimi ayrı-ayrı fraqmentlər kontekstində indinin özündə də milli mentalitetin, şüurun, icma fəaliyyət tərzinin ayrılmaz hissəsinə çevrilmişdir [106, 110].



İqtisadi fikir tarixinin ilk çağları ilə bağlı hadisələr məkanı sırasında qədim Hindistanın da məxsusi yeri vardır. Qədim hindlilər dövlətçilik sivilizasiyasının erkən çağlarında təsərrüfat həyatına düzüm verənlərin ön çərgələrində yer almışlar. Davranış və gündəlik həyat tərzini etik obrazda tənzimləmədə «dxarmaşastrak» külliyyatları və bu sırada qabarıq mövqedə dayanan «Manu qanunları» daha geniş arealı əhatə edirdi.



Qədim hind dilində «Manu» insan deməkdir. Saskrit dialektində yazılan «Manu qanunları» 12 bölmədə olmaqla 2650 misranı birləşdirir.

«Manu qanunları»na görə ölkədə başlıca mülkiyyt padşah, icma və şəxsi fondlara ayrılan torpaqdır. Öhdəliklərin sarsılmazlılığı, varisliyi qətidir. Mülkiyyət müqafilələr əsasında alqı-satqıya məruz qalır. Pis kefiyyətli və çəkisi azaldılmış əmtəənin satışı qanunla sanksiyalaşdırılır [37, 60].

Qədim Hindistanda «Manu qanunlarıı» ilə yanaşı b.e.ə. IV-III əsrlərdə paralel müstəvidə çar Çandraquptın müşaviri olmuş Kautilyanın təsərrüfat həyatının və iqtisadi düşüncənin bir sıra məqamları dolğun əks etdirən, məzmunca siyasi-iqtisadi, fəlsəfi-hüquqi motivliliyi ilə fərqlənən «Artxaşastra» külliyyatı da işlək olmuşdur /*atrxa - təlim*, *şastra - gəlir*/ Maddi material marağa: torpağın alınmasına, vergilərə, ticari mənfəətə, faizlərə və bu kimi iqtisadi seqmentlərə həsr olunan traktatda quldarlıq cəmiyyəti sərvətlərin yığımının təbii mənbəyi kimi qiymətləndirilir. Burada göstərilir ki, dövlətin əsas iqtisadi siyasətini vergilərlə xəzinənin doldurulması, düzgün idarəetmənin məqsədini isə əhalinin əməyi nəticəsində sərvətlərin artımı təşkil etməlidir. Bu və ya digər analitik mahiyyətlər təzahürlü olaraq qədim Hindistanda iqtisadi münasibətlərin inkişafına və iqtisadi düşüncənin sistemləşdiyinə bir daha aşkarlıq gətirir [3, 89].

Qədim dünyanın təsərrüfat və sosial həyatının prinsip və normaları sonrakı mərhələdə antik filosofların iqtisadi baxışlarında məzmunlu ifadəsini tapır. Antik dünya təsərrüfatçılığının təhlilinə vararkən bir daha vurğulanmalıdır ki, ***antik iqtisadiyyat*** ilə Asiya istehsal üsulu mahiyyətcə fərqli səciyyə daşıyırlar. Quldarlıq quruluşunu təşviq və təqdir etməsinə baxmayaraq antik iqtisadiyyat «despotlu» Asiya cəmiyyətindən demokratik hesab edilir.

Antik iqtisadi fikir tarixi klassik mərhələdə, bizim eradan əvvəl V-IV əslərdə məhşur filosof Sokratın tələbəsi olmuş Ksenofontun /b.e.ə. 430-354-cü illər/, Platon /b.e.ə. 424-347-ci illər/ və Aristotelin /b.e.ə. 384-322-ci illər/ əsərlərində geniş təcəssüm olunaraq yüksəliş tapmışdır.









**Ksenofont** **Platon** **Aristotel**

Natural təsərrüfat quruculuğunun prinsipial tərəfdarı kimi tanınan Ksenofont özünün «Ekonomikas» traktatında ticarətin səmərəli aparılması, cəmiyyətdə əmək bölgüsünün problemlərinin elmi izahını vermişdir. O əsərlərində quldarlıq cəmiyyətinin hüquqiliyini dəstəkləyərək istismarının stimullaşdırıcı metodları üzrə müvafiq məsləhət və tövsiyyəli təkliflərlə çıxış etmişdir. Ev təsərrüfatçılığının təhlili şərhini verərək Ksenofont bununla, həm də ilk dəfə dünya elminə *«Ekonomika»* terminini bəxş etmişdir [34, 131].

Antik dünyanın məhşur filosofu Platon isə ideal dövlət modelinin nəzəri yaradıcılarından hesab olunur. Platon özünün «Dövlət» və «Qanunlar» dialoqunda siniflərin və mülkiyyət bərabərsizliyinin aradan qaldırılması üsulunu vətəndaşların ictimai funksiyalarının dəqiq bölgüsünü reallaşdırmaqda görürdü. Onun fikrincə filosoflar və hərbiçilər idarəetmə aparatını yaradırlar, torpaq sahibləri sənətkarlar və tacirlər təsərrüfatla məşğuldurlar, ağır işləri isə qullar görməlidirlər [127].

Platon fəlsəfəsində şəxsi mülkiyyət ittiham olunaraq hər şeyin dövlətə məxsusluğu təqdir edilirdi. Təyin edilmiş minimumdan artıq mülkiyyət dövlətə verilməli, insanların azadlığı məhdud, qanunlar sərt, ailə dövlətin nəzarəti altında olmalıdır.

İlk utopiyalardan olan Platonun dövlət modeli total və demokratik kasad idi. Əslində bu utopizm mahiyyətcə primitiv kommunizm təsərrüfatı verirdi.

Antik dünyanın nəhəng mütəfəkkiri Aristotel «Politika» və digər əsərlərində iqtisadi qanunları təqqiq etməyə cəht etmişdir. Dövlətin mahiyyətini ümumi rifaha nailolma təşkil edilir. O sinfi qarşıdurmanı təcrid etməli, «orta» - sahibkar vətəndaşa istinad verməlidir. Qulu danışan silah hesab edən Aristotel natural quldarlıq təsərrüfat maraqlarını müdafiə edərək quldarlığı təbii sanmışdır. Mübadilə qanunlarını anlamağa cəht edən filosof əmtəənin ikili: istehlak və mübadilə dəyər malikliyinə təyinat vermişdir [8, 35].

Quldarlıq təsərrüfatının idarə olunmasının və təşkilati problemlərinin həlli istiqamətində qədim romalılar müəyyən nailiyyətlər əldə etmişlər. Daha yüksək və geniş motivasiyada bu problemlər Roma aqronomu porsilər nəslinin görkəmli nümayəndəçsi Mark Porsi Katonun /b.e.ə. 234-149/ «Torpaqçılıq haqqında» əsərində şərh olunmuşdur. O, bu əsərində Roma imperiyasında hakim quldarlıq quruluşunda torpaqların, ümumilikdə kənd təsərrüfatının idarə olunmasının təşkilati problemlərinin həllini açmağa səy göstərmişdir [34, 39].



Qədim Romanın mütəfəkkirləri Mark Terensi Varron /b.e.ə. 116-27/ «Kənd təsərrüfatı», Lyusi Yuni Moderat Kolumelli /b.e.ə. I əsr/ «Kənd təsərrüfatı haqqında» əsərlərində və Qay Pliniyın /b.e.ə.24-79/ ensiklopedik yazılarında da quldarlıq təsərrüfatının idarə olunmasının və təşkilati problemlərinin həlli istiqamətləri şərhini tapmışdır. Şəxsi mülkiyyət problemlərinin dərin təhlili Roma hüquqşünasları Georginin, Qayanın, Germogenin və digərlərinin əsərlərində əks olunmuşdur. Bununla belə qeyd olunmalıdır ki, antik iqtisadi fikrin işləmə verdiyi əsas istiqamət quldarlıq problemi olmuşdur [39, 127].

İlkin təsərrüfatçılıq dövrü daha çox şəxsi maraqlarda və dövləti obrazda çıxış etsə də onun təşəkkül və inkişaf proseslərinin sosial görüntüsünü inkar etmək olmaz. Əslində insanın təsərrüfat həyatı onun sosial qayğılarına xidmətdə bulunur. Təsərrüfat həyatının ilkin formalaşma

məqamlarında da bu xətt kortəbii, dərin bərabərsizlik şərtli olsa da yaşanmış və sonrakı sivilizasiya paradiqmalarında təkmilləşərək nisbi təsisatlı xarakter almışdır. Primitiv sosial təyinatlar «Asiya istehsal üsulu»nu sınayanlar cərgəsində və antik cəmiyyət sferasında da məhdud quruluşda təzahür etmişdir. Qədim dünyanın bütün dövlətlərində və yarımdövlətlərində ilkin konstitusiyan şərtlər, hüquqi aktlar gerçəkdən bəşər övladının iqtisadi və sosial həyatının normallaşdırılmasına yönəlmişdir.

## *1.2. Konfessial iqtisadi sistemlər*

Təsərrüfat həyatının öyrənilməsində, sosial qayğının hesablanmasında başlıca mənbə olaraq dini kanonlara əsaslanan konfessial iqtisadi sistemlərin rolu da mühüm əhəmiyyətli olmuşdur. Məhz dini aspekt bu və digər miqyasda ayrı-ayrı dövlətlərin, regional coğrafi ərazilərin və xalqların təsərrüfat həyatının, iqtisadi strukturunun formalaşmasında, sosial dirçəlişin inkişafında mühüm rol oynamışdır. Ümumilikdə konfessiyalar, dini yaranışlar bütün məkanlarda və zamanlarda sivilizasiyanın inkişafının ən fundomental qaynaq elementlərindən biri və qətiyyətli olaraq birincisi olmuşlar. Din və dövlət vəhdəti vahidləşən sintezdə iqtisadi modelin nümunəsinə çevrilmişdir.



Din dünyagörüşlər vəziyyətinin məcmui və bu çevrədən çıxış edən praktiki hərəkətlər sistemidir. Dini dünyagörüşdə ehtiva olunan mənəvi-əxlaqi dəyərlər təsərrüfat ukladının paradiqmasını ərsəyə yetirmiş, sosial təkamülü irəliləyişlərə səfərbər edərək, onun sonrakı inkişafında da öz strateci xəttini qoruyub saxlamışdır.

Tarixi spektrdən yanaşdıqda yəqinliklə görünür ki, elə əski dövrlərdən xalqların təsərrüfat həyatlarında dini aspekt aparıcı təsirliliyi ilə dominantlıq təşkil etmişdir. Bu təsirliliyi müxtəlif konfessiyaların ali dini kitablarından aydınlıqla sezmək mümkündür.

Qədim fələstin torpaqlarında yaşayan xalqların formalaşan iqtisadi münasibətlər sisteminin motivlərinin «İncil»də, ***iudaizmə*** sitayişdə bulunan qədim yəhudilərin sosial həyatında insan haqlarını tərənnüm edən təsərrüfat etikasının prinsiplərinin «Tövrat»da geniş səpkidə əksi faktı belə fikirlərə daha dərin əsaslılıq verir. Bu kanonlardan qaynaqlanaraq qədim yəhudilərin sosial və iqtisadi həyat tərzi və məxsusi təsərrüfat etikası ənənəsini formalaşdırmış, ticarət sferasında pullardan faizlər alınması əməliyyatlarının aparılması fərqli iudey faiz kapitalının yaranışını təmin etmişdir.



İncil»də göstərilir ki, geyim, mənzil, əmək, istirahət və yaşayış haqları ədaləti ehtiva edir. Bütün sərvətlər tanrıya məxsusdur. İnsan öz torpağının, malqarasının və əmlakının sahibi deyil, onu idarə edəndir. Bununla belə bu təsərrüfat sistemində prinsipial olaraq borcların dövrü bağışlanması, qulların azad edilməsi, girov qoyulmuş torpaqların qaytarılması tələbli idi. Bu və ya digər müvafiq tələblərə riayət edərək təbii yolla varlanmış insanın sərvətləri ədalətli hesab olunurdu [20].

Avropa xalqlarının da iqtisadi dövlət modeli ***xristianlıq*** və onun təriqətləri zəminində nəzəri və empirik xarakter almışdır. Məhz xristianlıq dininin çevik çevrədə dövlətin siyasətə qatılması yeni iqtisadi bazisi formalaşdırmışdır.



Erkən xristian ədəbiyyatlarında sosial qeyri-bərabərlik, təsərrüfatsızlıq mənəvi mühakimə olunur, ədalətli cəmiyyət yaranışının qaçılmazlığı göstərilirdi. Bu baxımdan qeyd olunmalıdır ki, xristianlıqın ilkin çağlarının radikal anlarını utopizm baxışlı meyarlar əks etdirirdi**.** Bərabərlik hüquqi ideyası ümumi əmək öhdəliyinin təsdiqliyi ilə bağlanır, əmək insanların həyati yaşayışının əsasında dayanırdı. Elə bu gerçək bilinən yanaşmadan da bölgü əmək müqabilində aparılmalı prinsipi formalaşmışdı [89, 130].

Katolik, provaslav, protestant kimi baş təriqətlərə bölünən böyük xristianlıq dini hər bir müvafiq cərəyana müqabil lokal və regional iqtisadi sistemin əsas komponentinə çevrilərək yeni tipaclı iqtisadi münasibətləri yaratmışdır. İqtisadi spektrdə lakonik interpretasiyada xristianlıq özünün industrial təsərrüfatçılıq obrazı ilə seçilərək fərqlənmişdir.

Qədim dünya xalqlarının daha çox məskun olduqları Asiya qitəsində əkinçiliyin vüsətləndiyi zamanlarda ayrı-ayrı dini dünyagörüşlər, konfessial cərəyanləar dövlətin təsərrüfat həyatının davaranış normalarının ayrılmaz hissəsini təşkil etmişdir. Mərkəzi Asiyada geniş yayılan atəşpərəstlik - zərdüşlik dini burada mövcud dövlətlərin siyasi-iqtisadi və sosial sisteminin beşiyində dayanmışdır. Atəşpərəstliyin baş kitabı «Avesta»da iqtisadi etikanı tərənnümü geniş əksini tapmışdır [89].

Qədim Şərq mədəniyyəti ictimai hökmranlıqla yanaşı, həm də təbiət hakimiyyətindən, həyatın özünün sərt qanunlarından qurtulmaq istiqamətində daha radikal təlimlərin yaranışına zəmin olmuşdur. Təsadüfü deyil ki, bu təlimlər əksərən qədim hind torpağında təşəkkül tapmışdır. Bu prinsipiallığa ümumi vəhdətdə hind təbiəti və onun sosial quruluşunun xüsusiyyətləri səbəb olmuşdur.

Qədim Hindistanda iqtisadi-ictimai münasibətləri reqlamentasiya edən nəzəri hüquqlar sisteminin mənbəyi dini etik normalardan qaynaqlanmışdır. Flora və fauna zənginliyi ilə yanaşı bol isti, fəsli dəyişən tropik leysanlar, cunqliya yırtıcılarının, zəhərli ilanların izafiliyi insanları təbiət qüdrətinin möhtəşəmliyi qarşısında sıxıntı və məyusluqlara düçar etmişdi. Belə reallıq təbiət qüvvələrinin tanrısal obrazlarının insan təxəyyülündə bütləşmiş yaranışının təcəssümünə gətirmişdir. Nəticəli olmaq etibarı ilə bu məkanda ***brahmanizm, buddizm, caynizm, induizm*** fəlsəfəsi və dünyagörüşü dini çərçivədə pərvəriş tapmışdır. Bu dünyagörüşün elastizmi və universallığı isə onun tez bir zamanda bütün dünyada yayılmasına rəvac vermişdir. Brahmanizim-induizm bütün Cənubi Asiyada reqionyaradıcı faktora çevrilərək bir çox etnosların birləşməsini təmin edərək yeni iqtisadi reallıqları ərsəyə gətirmişdir. Bu dinidünyagörüş Hindistinda buddizmi sıxışdıraraq hakim konfessiyaya çevrilmişdir. Hazırda o xalis formada yalnız Şri-Lankada qalmaqdadır



Buddizm Şərq fəlsəfəsi, mədəniyyəti və hərb sənətində oyandığı rolu ilə birlikdə burada məskun xalqların təsərrüfat həyatında da mühüm izlər qoymuşdur. Lakin bununla belə xüsusi olaraq vurğulanmalıdır ki, Qədim Şərqdə buddizmə sitayiş edən xalqların təsərrüfat həyatı bu və ya digər nisbətdə «Asiya istehsal üsulu»na mütənasiblik təşkil etmişdir [3, 89].

Böyük Çin vadisində də xalqların iqtisadi həyatında dini dünyagörüşün rolu və əhəmiyyəti yüksək olmuşdur. Tarixən bir sıra ideoloji sistemlərin dəyişməsinə baxmayaraq Çində erkən formalaşan dini cərəyanlar və təriqətlər daim möhtəşəm dövlətin iqtisadi siyasətinin prioritetlərini müəyyən etmişdir. Bir-biri ilə balanslaşaraq Çində müxtəlif dini-fəlsəfi cərəyanlar ***daosizm***, ***konfutsianlıq***, ***moizm, leqizm*** irearxial paternalizmin ideoloji, fəlsəfi və nəhayət iqtisadi təməlinə çevrilmişdir. Qədim Çin təsərrüfatçılığının sürəkli kodeksi olmuş «Quan-tszı» traktatının da başlıca ideya xəttini müvafiq dini dünyagörüşlərin motivləri təcəssüm etdirir. Belə ki, traktatın fundomental bəndlərini - tanrının seçdiyi zəngin təbəqə olmadan ölkə heç bir gəlir əldə edə bilməz imperativi rövnəqləndirir. Bununla belə müxtəlif dini fəlsəfi cərayanların hakim kəsildiyi Qədim Çində iki - legizm və konfutsiyanlıq dövləti idarəetmədə və xalqın təsərrüfat həyatında daha dərin iz buraxmışdır. B.e.ə. IV əsrdə leqizmin «konstitusiyası»



sayılan «Şan vilayətinin hakiminin kitabı» traktatında Çin dövlətçiliyin siyasi-iqtisadi prinsiplərinin sosial tərənnümü əksini tapmışdır [89, 110].

Çin təsərrüfatçılığının iqtsadi formasının düzümündə buddizm yetərli iştirakı da danılmazdır. Dini çoxsaylılığı ümumi iqtisadi, sosial və siyasi həyatda bərabərləşdirmək üçün qədim Tan imperiyası üç təlim padişahlığı elan olunmuşdur. Bu proses isə öz növbəsində onların böyük bir makroregionda - Koreya və Yaponiyada da yayılmasını şərtəldirmişdir.

Müsəlman dünyasnın da təsərrüfat sisteminin özəkləri adekvat olaraq **İslam** dininin təməlləri üzərində qurulmuşdur. Belə adekvatlıq bu və ya digər çalarda, buddizm, iudaizm və başqa irili-xırdalı dinlərin areal zonasında da mövcud olsa da İslamda öz sosial, iqtisadi və hüquqi tutumluğu ilə köklü fərqlənmişdir. Bu ilk növbədə İslamın iqtisadi etikasının bəşəriliyindən irəli gəlmişdir. Müsəlman xalqların təsərrüfat həyatının və sosial mədəniyyətinin formalaşmasında İslami etik dünyagörüşü bütün çevrələrdə hakim olmuşdur.



Daha gənc din olan İslamın təsərrüfatçılıq prinsiplərinin mahiyyəti müqəddəs «Qurani Kərimdə» aydın və geniş şərhini tapmışdır. İslamın iqtisadiyyatının praktiki müstəvidə gerçəkləşən mahiyyətini isə empirik materiallarda axtarmaq gərəklidir. Müqəddəs kitabda ikram olunan qaydalar şəriət toplumunda şərh olunaraq aydınlığını artırmışdır. Şəriət müsəlmanın hüquqlarının, sosial-iqtisadi həyatının normallaşması mexanizmi kimi İslam dövlətlərinin konstitusiya dayaqlarını təşkil etmişdir [1].

Dinin iqtisadi və sosioloji aspektdən tədqiqi sahəsində tam bir araşdırma sistemi formalaşmışdır. Lakin burada sosioloqlar iqtisadçılardan daha məhsuldar olmuş, konfessial sistemlərinin sosial mahiyyətinin açılışında davamlı səylər göstərmişlər.

Dinlərin sosioloji aspektdən tədqiqi sahəsində geniş fəaliyyəti ilə alman sosioloqu Maks Veber /1864-1920/ fərqlənmişdir. M.Veber ötən yüzilliklərin qovşağında fəaliyyət göstərmiş nəhəng sosioloqlardan hesab olunur. Onun tədqiqat şəbəkəsi yalnız sosiologiyanı deyil, həm də



fəlsəfəni, siyasi iqtisadı, hüquq və tarixi əhatə edir. Neokantçılığa, neopozitivizmə yaxın olaraq marksizmin əlehinə çıxış edən M.Veberin sosialogiyanı təmsil edən əsərləri sırasında dini sosiumla bağlı tədqiqatları daha çox diqqəti cəlb edəndir. Bu toplumda «Dünya dinlərinin təsərrüfat etikası», «Siyasət peşə qabiliyyətidir» və «Elm sənət və peşədir» kimi əsərlər alimə daha çox məhşurluq gətirmişdir. Onun metodologiyası burcua sosiologiyası və fəlsəfəsinin inkişafına böyük təsir göstərmiş, təftişçiliyin ideya-nəzəri mənbələrindən olmuşdur [60, 127].

Dini dünyagörüşün sosial interpretasiyasında M.Veberlə eyni zamanlarda yaradıcılıq edərək eyni sırada dayanmış digər nəhəng düha fransız mütəfəkkiri Emil Dyürkqeyminin də /1858-1917/ müvafiq xidmətləri əzəmətli olmuşdur. Alimlərn dininin sosioloji prizmadan şərhində fərqli baxış nümayiş etdirmələrinə baxmayaraq onlar müqabil olan eyni məqsədləri izləmişlər. E.Dyürkqeym cəmiyyətin əsasını əmək bölgüsü təşkil edən qənaəti ilə dini cərəyanların sosial-iqtisadi həyatdakı rolunu dəyərləndirən baxışları ilə daha üstün olmuşdur. Onun «İctimai əməyin bölgüsü», «Dini həyatın elementar formaları» əsərləri bu sferada ona uğurlar gətirmişdir [89].

Konfessial sistemlərin sosial sferada və təsərrüfat həyatında rolu yalnız Avropa sentiristlərinin əsərləri ilə məhdudlaşmır. Hər bir dini dünyagörüş özünün etik, sosial, iqtisadi və başlıca olaraq bütün bü keyfiyyətləri ümumiləşdirən hüquqi normalarını birləşdirən din şərhçiləri



və alimlər yetirmişlər. Bu baxımdan dinin sosial və iqtisadi aspektinin ilkin yaradıcı dəyər mənbələrini də həmən dinlərin bütün qanun və rituallarına əməl edərək sitayişində bulunan almilərin tədqiqatlarında axtarmaq daha səmərəli və məhsuldardır.

Tədqiqat araşdırması bir daha analitik yəqinliklərlə əlavə edir ki, konfessiyalar xalqların iqtisadi həyatında, rifahın təminatında

ukladlarının formalaşmasında mühüm izlər qoymuşdur. Bu izlər çağdaş zamanda da hakim olan iqtisadi model və mexanizmlərdə aydınlıqla sezilir. Onların təməl motivləri isə orta əsrlər intibahının iqtisadi təfəkküründən ətalətlənmişdir.

Müasir dünya iqtisadiyyatına nəzər yetirdikdə görərik ki, istənilən iqtisadi modelin genetik kökləri və prinsipləri konfessial faktorlardan azad deyildir. Aparıcı iqisadi inkişaf etmiş ölkələrə hakim kəsilən və qloballaşma kontekstində planetar məzmun alan postindustrial cəmiyyətin formalaşmaqda olan iqtisadi paradiqması da dini etika üzərində təkamül etməkdədir. Artıq bu cəmiyyətə total transformasiyada iqtisadi etik prinsip və standartlar alternativləri sırasında İslamın əsaslı yer tutacağı görünməkdədir.

## *1.3.Orta əsrlər iqtisadi təfəkkürü və utopizm fəlsəfəsi*

Quldarlıq cəmiyyətlərinin çökməsi ictimai həyatın yeni şərtləri zəminində feodal epoxasının iqtisadi dönüşünü formalaşdırdı. Feodal iqtisadiyyatının bazisini kəndli və sənətkarların xırda istehsalı, feodalların torpaq mülkiyyəti və xarici iqtisadi əlaqələr zərurəti təşkil edirdi. Bununla belə natural təsərrüfatın hökm sürdüyü feodal iqtisadiyyatı məxsusi xarakterli olaraq ruhanilərin yaranış verdikləri dini-ideoloji çərçivədə formalaşmışdı. Dini aspekt dünyanın müxtəlif guşələrində feodal cəmiyyətlərinin sosial, iqtisadi və hüquqi normalarını müəyyən edərək eyniyyətlər qədər də fərqlilikləri yaratdı. Bu oxşar və fərqlilik qlobal quldarlıq quruluşlarının feodal həyat tərzi ilə əvəz olunan çağlarında bir-birindən xəbərsiz iki: Roma və Çin imperiyalarında və onların təsir sferasından kənarda da müvafiq təyinatlı idi.

Erkən orta əsrlər fikir tarixinin təfərrüatları ilkin olaraq xristian teoloqu Avreli Avqustinin /354-430/ əsərlərində əks olunmuşdur. «Dini inam olmadan bilik də, həqiqət də yoxdur» prinsiplərinə əsaslan A.Avqustinin baxışları sxolastik mənbəli idi. O, əsərlərində, xüsusən də «Tanrı şəhəri haqqında» traktatında dünya tarixi barədə xristian konsepsiyasının inkişafına bir daha yeni səylər göstərmiş, dini dünyagörüşün motivasiyasını təbliq edən iqtisadi fikirlər irəli sürmüşdür A.Avqustinin iqtisadi baxışlar aşağıdakı istiqamətlərdə toplum olunur:

- əqli və fiziki əmək növləri eyni qiymətli olduğundan insanın cəmiyyətdəki vəziyyətinə təsir etməməlidir;
- zəhmətsiz qızıl-gümüş yığımı, faiz və ticari mənfəət qəbahətlidir;
- «ədalətli qiymət» əmtəənin istehsal xərclərinə müqabil qiymətidir.

A.Avqustinin bu düşüncələri əslində heç bir məxsusi iqtisadi effektivlik təşkil etməyərək zamanın xristian təyinatlı feodal baxışlarına mütənasib idi [60, 89].

Orta əsrlər Avropasının nüfuzlu ideoloji avtoriteti, filosof-ilahiyyatçı, sxolastikanın sistemləşdiricisi və *tomizmin* banisi kimi tanınan Foma Akvinat - Akvinski /1225-1274/ əsərlərində katolikizmi təbliq edərək iqtisadi və sosial təyinatlı baxışları ilə fərqlənmişdir. Ona daha çox iqtisadi məzmunluğu ilə də seçilən «Teologiyanın məbləği» adlı traktatı geniş şöhrət gətirmişdi [114]. Bu əsərdə F.Akvinat iqtisadi kateqoriyanın əxlaqi etik xarakteristikası, dini və təbii qiymətləri verilmiş, istehlak ödənişinin zəruri ilkin kateqoriyası kimi əməyin prioritetliyi önə çıxarılmışdı. Onun fikrincə cəmiyyət əmək bölgüsünə məruz qalaraq mübadilə tələb edir. Bu mübadilə isə öz növbəsində şəxsi istehlak və mənfəətin alınması formasında təzahür olunur. Birincisi təbii, ikincisi isə insanı mənəvi əxlaqi təmin etmədiyinə görə qeyri-təbiidir. F.Akvinat pullara dəyər və tədavül vasitəsi kimi baxır və İslamda olduğu kimi ondan müamilə alınmasını tənqid edirdi. Bu baxış sələfi M.Avqustinidə də müvafiq nümayişini tapmışdı. Lakin bu İslami təməli prinsip Avropa iqtisadi həyatında real tətbiqli əksin tapmamışdır.



Kapitalın ilkin yığımı, ictimai şüurun çevrilişi XV-XVII-ci əsrlərdə Avropada dərin təbəllüdatları genişləndirdi. Belə yaranış kapitalizmin tarix müqəddiməsinə çevrildi. Feodalizmin tənqidi ilk növbədə katolik kilsəsini hədəf seçdi. Bu məqamda islahat nəzəriyyəçiləri ***lüteranlıq***

təriqətinin banisi Martin Lüter /1483-1546/ və protestanlıq məzhəblərindən biri ***kalvinizm*** yaradıcısı Can Kalvin /1509-1564/ burcua sahibkarlığını əsaslandırmaq üçün ilkin xristianlıq ideyalarından istifadə etdilər. Onlar katolik etikasından fərqli olaraq yeni təsərrüfat əxlaqı formalaşdırdılar. Yeni təsərrüfat etikasının ideya xəttini insanların iqtisadi davranış normalarında düzgünlük, mötədillik, ehtiyatlılıq, qənaətçilik prioriteti, yaxşı işləmə hesabına varlanmaq, xərclər heç zaman gəlirləri aşmamalı, pullar daim dövriyyədə olmalı, şübhəli sazişlər və özünü doğruldmayan risklərdən çəkinmək, aylıq hesablamalarla iş qurmaq kimi prinsipial tələblər təşkil edirdi. Bu isə o demək idi ki, aktiv partnyorlar seçimində ehtiyatlı, ağıllı riskə hazır olan yeni işgüzar insan tipi formalaşır [60].

İqtisadi fikir tarixinə bəşəri yaşayışın ədalətli sistemi haqqında arzuları ifadə edən ***utopik*** düşüncə də hakim kəsilmişdir. Fərqli olaraq utopik düşüncə dünyanı dolğun dərk etmədən praktikanın dəyişməsinə səfərbərdir.

«Utopiya» miqyaslı anlayışdır. Hərfi işarə *«u»* yunanca qeyri, *«topos»* isə torpaq deməkdir. Söz birləşməsində isə bu anlam heç yerdə olmayan torpaq mənasını verir.

İqtisadi və utopik düşüncəni biri-birindən ayırmaq zərurəti vardır. İqtisadi fikir təsərrüfat həyatının nəticələrinin praktiki tətbiqinə yönəlmiş məqsəd anlamını daşıyır. Utopik sistem isə iqtisadi nəticələri nəzərə almayan humanist baxışları ifadə edən bəşəri yaşayışın rövnəqləndirilməsi arzularıdır.

Utopiyanın iki formasını fərqləndirirlər. Birinciyə görə ədalətli cəmiyyətin uzun tarixi proses - *xiliastik* tipi formasında qurulmalı, ikincidə isə müvafiq quruculuq qısa müddətdə dövlət hakiminin və ya partiyanın köməyi ilə - *siyasi* tipdə qərarlaşmalıdır.



Utopik ideyalar əslində daha dərin keçmişdə, «qızıl əsr» soraqlı arzularda təşəkkül tapmışdır. Şərq şairlərinin İslam intibahı epoxasında yaratdıqları poetik-fəlsəfi əsərlərində utopik cəmiyyət quruculuğunun bir sıra bədii mod elləri tərənnüm olunmuşdur.

Dahi Azərbaycan şairi və filosofu Nizami Gəncəvi /1141-1209/ əsərlərində «sosial utopiya»nın ən nümunəvi obrazlarından birini yaratmışdır. Şair qəhrəmanı İskəndər fatehi azad cəmiyyət münasibətlərin hökm sürdüyü səadət ölkəsinə gətirərək göstərir ki, bəşəri dirçəliş ədalətli şah konsepsiyası ilə deyil, maddi və mənəvi ideyaların tərənnümü ilə bağlıdır [27].

Utopik cəmiyyət quruluşu dolğun kompazisiyada orta əsrlər Avropasında Tomas Morun /1478-1535/ «Utopiya» və Tommazo Kampanellanın /1568-1639/ «Günəş şəhəri» əsərlərində geniş əksini tapmış və XIX-cu əsrdə Sen-Simon /1760-1825/, Şarl Furye /1772-1837/ və Robert Ouenin /1771-1858/ tədqiqatlarında yüksəliş zirvəsinə yetmişdir.





**T.Mor** **T.Kampanella**

Orta əsrlər utopizmi əksərən ədalətin şaquli hakimiyyət kontekstində təşviqinə əhəmiyyət vermişdir. T.Kampanella «Günəş şəhəri» əsərində ali başçıya müqqəddəs ruhani təyinatı verərək onu Günəş adlandırmışdır. Parafraz olaraq isə bu məqama metafizika da deyilmişdir. «O, bütün mədəni və mənəvi başçıdır, bütün mübahisəli məsələlərə son qərar verəndir. Onun qarşısında üç hökümdar: Po, Sin və Mor /*Güc, Müdriklik və Sevgi*/ var» [111. səh 146].

Son utopizmin nümayəndələri içərisində fransız sosialist-utopisti Sen-Simonun təlimi özünün təkamüllü və tarixi yanaşması ilə fərqlənir. Onun nəzəriyyəsinə görə bəşəriyyət öz inkişafında quldarlıq, feodal, kapitalizm və industrializm /*sosializm*/ epoxalarından keçir. Sosializmdə dövlət məhv olacaq, hamı işləməyə öhdəli məruz qalacaq, bölgü əməyə görə təyin ediləcək və «hər kəsin qabiliyyətinə, işinə görə» prinsipi cəmiyyətə hakim kəsiləcəkdir [68].







**Sen Simon** **Ş.Furye** **Robert Ouen**

Utopizm cərəyanı rövnəqləndirən digər fransız iqtisadçısı, sosialist-utopisti Şarl Furye isə öz həmyerlisi Sen Simondan fərqli olaraq bəşər tarixinə vəhşilik, *patriarxal, varvarlıq* və *sivilizasiya* /*kapitalizm*/ təsnifatlı bölgü vermişdir. Sivilizasiya fabrik istismar əməyinin quruluşunda təşəkkül tapdığı üçün yaxşılaşa bilməz. O labüdən məhv olmalıdır. Yeni ədalətli cəmiyyət şəxsi mülkiyyəti ləğv edərək əmək yoldaşlığı - *flanqa* çərçivəsində kollektivçiliklə əvəz olunmalıdır. Flanqistlər hər işi birlikdə görürlər: yaşayır, işləyir, əylənir, əmlaka sahib çıxır və uşaqları tərbiyə edirlər.

Son utopizmin üçüncü görkəmli nümayəndəsi hesab olunan Robert Ouen isə kommuna təşviqatçısı kimi tanınır. Onun iqtisadi baxışları D.Rikardonun əmək-dəyər nəzəriyyəsinə əsaslanır. Bu ondan irəli gəlir ki, fəhlə öz əməyi nəticəsində hasil olunan dəyəri tamılıqla mənimsəmir. R.Ouenin fikrincə burada nöqsanlı funksiyanı pullar ifadə edirlər. Gərək süni material dəyərindən təbii - əmək qiymətləndirilməsinə keçid edilməlidir. Puldan imtina olunmalı, mübadilə üçün əmək vahidi təyin edilməlidir. Ədalətli mübadiləyə rəğmən şəxsi mülkiyyət və kapitalizm sistemi ləğv olunmalıdır [127].

Utopik baxışlar sistemi yalnız orta əsrlər dövrü ilə məhdudlaşmadı. Bəşəri yaranışlı bu dünyagörüş məhdud miqyasda yeni çalar alaraq ayrı-ayrı məkanlarda və zamanlarda təzahür etdi və sivilizasiyanın daha kamil düşüncəli çağlarında təkmil elmi düşüncənin sobasında əriyərək yeni düşüncələrin materalları sırasına qatıldı. Yaranışı insanın ilk arzusu qədər qədim və erkən olan topizm fəlsəfəsi sosial təkamülü izləyən insan şüurunun çağdaş çağlarında da mövqeyini nümayiş etdirməsidir. Bitməyən, tükənməyən sosial romantika öz enerjisini utopik meyarlardan faydalandırır.

## *1.4. Iqtisadi-nəzəri şəcərənin elmi təşəkkülü*

İqtisadi-nəzəri şəcərənin elmi təşəkkülü XVII əsr Avropasında cərəyan edən iki mənbədən: merkantilizm və fiziokratiyadan başlanğıc alır. Yaranış anlarında yaş fərqliliyində o qədər də böyük zaman ölçüsü olmasına baxmayaraq merkantilizm fiziokratiya öncəli salnamə tarixinə malikdir.

***Merkantilizm*** siyasəti və ideologiya olaraq Qərb aləminin orta əsrlər iqtisadi həyatında mühüm yer tutmuşdur. İtalyanca sətri mənası *tacir* anlamını verən, ilkin kapital yığımının qanunauyğunluqlarını öyrənən merkantilizm iqtisadi münasibətlərin dövlət tənzimlənməsi tərəfgirliyindən çıxış edir. Bu baxımdan geniş şərhdə merkantilizm milli ticari kapitalı təmin edən xaricdən pul axınını şərtləndirən, güclü mərkəzi dövlət yaranışında ehtiva olunan iqtisadi siyasətdir. Məhdudiyyətlərlə müşayiət olunan merkantilizmə Fransada daha çox riayət

olunmuşdur.

Merkantilizmin ideologiyasına görə sərvətlərin mahiyyətini qiymətli metallar ifadə etdirir. Əmək o zaman məhsuldardı ki, o ixraca işləyir və bu baxımdan dövlət ixracı stimullaşdırmalıdır. Milli kommersantlar hesabına inhisar təmin edilməli və rəqabət təcrid olunmalıdır. Əhali artımı isə mənfəət yüksəlişinə və əmək haqqının aşağı səviyyəsinin saxlanmasına xidmət etməlidir [45,60].

Merkantilizm mərhələli olaraq erkən və son merkantilizmə bölünür. Böyük coğrafi kəşflərdən əvvəl, XVII-ci əsrə qədərki mərhələni əhatə edən *erkən merkantilizmdə* ölkənin pul balansı siyasəti, başqa sözlə qızıl və gümüşün idxal və ixracı üzərində qurulan pul axınının təminatı prinsipləri dayanırdı. Buradan da onun başlıca müddəası - müvafiq «pul nəzəriyyəsi» formalaşmış və onu çox zaman da monetar sistem də adlandırmışlar. Böyük kəşflər nəticəsində ticarət burcuaziyasının iqtisadi gücünün artığı XVII-XVIII əsrlər qovşağında isə ticarət balansı sisteminə keçidlə əlaqədar *son merkatilizm mərhələsi* formalaşmış və təşəkkül tapmışdır. Manufaktura sistemi kimi xarakterizə olunan son merkantilizmin başlıca ideyası «Əlavə dəyər və mənfəət əldə etmək üçün ucuz alıb baha satmaq» tezisinə bağlı idi. Bununla belə müstəmləkə siyasəti güdən son merkantilizm beynəlxalq əmək bölgüsünün genişlənməsini hədəf seçməklə, həm də proqressiv olaraq ticarəti, sənaye və gəmiçiliyin inkişafını təşviq edirdi.

Erkən merkantalizmin görkəmli nümayəndələri sırasında U.Stafford /1554-1612/, A.Monkretyen /1575-1621/, C.Kolber /1619-1693/ kimi məhsur iqtisadçı alimlər dayanır.

Son merkantilizmin aparıcı ideoloqu isə «Ost-Hind» kompaniyasının direktoru, «London Siti» adlanan korporasiyanın nüfuzlu üzvi, nəhəng ingilis taciri Tomas Man /1571-1641/ olmuşdur. T.Man «İngiltərə sərvətləri xarici ticarətdə və ya bizim xarici ticarət balansı bizim sərvətlərin tənzimləyicisidir» əsərində merkantilizmin geniş şərhini vermişdir [60, 127]. Bu əsərlə o iqtisad elmi tarixində «Ticarət balansı nəzəriyyəsi»nin banisi kimi də yer tutmuşdur. K.Marksın təbirincə T.Manın bu əsəri daha yüz il merkantilizmin «İncil»i olaraq qalmışdır. XX əsrin məhşur iqtisadçısı C.Keynizin də merkantilizm haqqında tənqidi baxışları diqqəti cəlb edəndir. C.Keyniz qeyd edir ki, «Ümumiyyətlə desək, müasir iqtisadçılar təkcə onu təsdiq etməmişlər ki, əməyin beynəlxalq bölgüsündən, bir qayda olaraq, merkantilist praktikanın çox iddiasında olduğu faydalarını ölçüb-biçmək üçün kifayət edən uğurlu balans vardır. Onlar həm də göstərmişlər ki, merkantilist arqumet əvvəldən axıra qədər intellektual dolaşıqlığa əsaslanmışdır» [21. səh 380].

Tədavül sferasına daha çox diqqət yetirən merkantilistlər kapitalist istehsalının daxili qanunlarını da tənqid hədəfi seçmişlər. Lakin kapitalizmin inkişafı ilə merkantilizm əsas müddəaları köhnəlmiş və dövriyyəyə yeni iqtisadi nəzəriyyələr çıxarılmışdır.



Təbii hakimlik anlamını verən ***fiziokratiya*** iqtisadi cərəyan olaraq klassik siyasi iqtisadda XVII-ci əsrdə yaranmışdır. Bu məktəbin banisi fransız alimi Fransua Kene /1694-1774/ hesab olunur. F.Kene makroiqtisadi modelin yaradıcısı kimi özünü iqtisadçı adlandıran ilk alim olmuş, iqtisadi tədqiqatı tədavül sferasından istehsal sferasına gətirərək kapitalist istehsal sisteminin elmi təhlilinin əsasını yaratmışdır.

Fiziokratizmin ideya çələngini iqtisadi liberalizm təşkil edir. Başlıca tezis isə *«Laissez faire, laissez passer»* - «İnsanlara öz işlərini özlərinin etməsinə, işlərin öz ahəngində getməsinə imkan verin» və yaxud da sadəcə - «mane olmayın» devizinə əsaslanırdı. Bu həm də o demək idi ki, dövlət iqtisadiyyata müdaxilə etməməlidir.

Fiziokratların ikinci təməl prinsipi torpağın sərvətlərin yeganə mənbəyi olmasına köklənmişdi.

Üçüncü prinsip olaraq əməyin xalis məhsul yaradan istehsal və xalis məhsul yaratmayan qeyri-istehsal bölgüsünə malikliyi və eyni zamanda cəmiyyətin siniflərə bölünməsi idi [45, 127].

Feodal münasibətlərin dağılması kapitalizmin meydana gəlməsi ilə XVII-XVIII əsrlərdə iqtisadi fikir tarixində ***«klassik məktəb»*** adlanan istiqamət formalaşdı. Müvafiq təşəkkül

prosesinin ilkin mərhələsində feodalizmlə merkantilizmin mübarizəsi təzahür etdi, ikinci mərhələdə isə kapitalist iqtisadiyyatının fəaliyyət mexanizminin qanunauyğunluqları formalaşdı. Klassik siyasi iqtisad məktəbinin ümumi xarakteristikasına görə iqtisadi proseslər insan təbiətindən və onun şəxsi maraqlarından doğur. Cəmiyyət ayrı-ayrı fərdlərin məcmusu olaraq onların maraqlarını əks etdirir. Tarixin hərəkətverici qüvvəsi təbii güclərdən qaynaqlanır. Əmək bütün iqtisadi proseslərin əsası, istehsal nəzəriyyəsi mübadilə nəzəriyyəsini doğurur. İqtisadiyyatın inkişafı prosesində demoqrafik faktora istinadən sərvətlər özləri sərhədləri müəyyən edirlər [45,60].



İqtisadiyyatın ortodoksal elmi məzmun alması prosesi Avropa müstəvisində orta əsrlərdən start götürür. İlk peşəkar iqtisadçı olaraq siyasi statistikanın yaradıcısı, iqtisadiyyatın «kaşif Kolumbu» sayılan ingilis Ulyam Petti /1623-1689/ fərqlənmişdir. U.Petti özünün «Vergi və yığım traktatı», «İrlandiyanın siyasi anatomiyası» və «Siyasi hesab» adlı əsərlərində merkantilistlərdən fərqli olaraq dövlətin sərvətləri təkcə qiymətli metal və daşlar deyil, həmçinin digər əmtəələr, torpaq, ev, gəmilər, mal-qara və sairə yaratdığını əsaslandırmışdır. «Əmək sərvətin atası və aktiv prinsipi, torpaq isə onun anasıdır» fikri U.Pettiyə məxsusdur [127].

Klassik siyasi iqtisadın Fransadakı təməlçiləri sırasında Pyer Lepezan Buaqilber /1646–1714/, Şarl Lui Monteskye /1689–1755/, Ann Rober Cak Tyurqo /1724–1781/ şəxsiyyətləri də görkəmli yer tuturlar.

P.Buaqilber özünün «Fransanın ittihamı», «Pulun nadirliyinin tədqiqi» əsərlərində və digər tədqiqatlarında ölkəsi və xalqının düşdüyü ağır iqtisadi vəziyyətin təhlilini vermiş, mövcud təsərrüfatın depressiyasının səbəblərini göstərmişdir. Nəzəri planda P.Buaqilber həmçinin istehsal edilən və reallaşdırılan nemətlərin məcmui olan milli sərvət anlayışını, alqı-satqı pariteti mübadilə tarazlığını və vergilərin təbiətini təhlil etmişdir. Onun elmi yaradıcılığında mühüm tezis olaraq təsərrüfat inkişafının gedişini tənzimləməkdə dövlət deyil, təbiətin ali hakim rolunun çıxışı göstərilmişdir [45].

Fransız mütəfəkkiri, filosof və hüquqşünası Ş.Monteskye ictimai düşüncənin bütün



sferalarını əhatə edən «Qanunların ruhu» əsərində iqtisadiyyat sahəsinə də yer verərək hər şeyin təbii qanunlar çərçivəsində inkişafını vurğulamışdır. Onun fəlsəfəsinə görə idarəetmənin yaxşı növü vətəndaşlar tərəfindən tənzimlənən demokratiyadır. Dövlət torpağın və sənaye müəssisələrinin mülkiyyətçisi ola bilməz. İnsan azad olmalı, ədaləti dəyərlər yalnız rəqabətlə təyin edilir, millətin rifahı təsadüfi xarici amillərdən deyil, sənayenin, əkinçilik və ticarətin inkişafından asılıdır [60].



Fransız fiziokrat məktəbinin görkəmli nümayəndəsi, ölkəsinin maliyyə naziri olmuş iqtisadçı alim A.Tyurqo «Sərvətlərin yaranışı və bölgüsü haqqında düşüncələr» əsərində bir sıra fiziokratik düşüncələri dərinləşdirərək müvafiq doktrinadan kənara çıxan yeni yanaşmalar formalaşdırmışdı. O, hesab edirdi ki, xalis məhsul təbiətin bəxşişi yox, sadəcə məhsuldar əməyin nəticəsidir və onun üçün zəruri kapital ehtiyaclıdır [127].

Merkantilistlər və fiziokratlar sisteminin prinsipial özəlliklərindən bəhrələnərək Şotland alimi Adam Smit /1723-1790/ iqtisad elmində inqilab edərək klassik siyasi iqtisadın fundomental təməlçisinə çevrildi. David Rikardo /1772-1823/, Tomas Maltusun /1766-1834/ simasında isə təməlləşmiş iqtisadi fikir şəcərəsi sağ və sol qollara ayrıldı. D.Rikardo təlimi həm marksist və həm də neoklassik nəzəriyyənin istiqamətləndirici vektoru olaraq yeni iqtisadi fikir paralellərinin yaranışına təminatlar açdı. İqtisadi fikrin genoloji şəcərəsi inkişafını davamlandıraraq növbəti situasiya mərhələdə sosialist iqtisadiyyatı və keçid iqtisadiyyatı əlaqəsində yaxınlıq əldə etdi.





**A.Smit** **D.Rikardo** **T.Maltus**

Fiziokrat və merkantilistlərdən fərqli olaraq A.Smit və onun tərəfdarları sərvətlərin mənbəyini spesifik məşğuliyyətdə deyil, bütün peşə sahiblərinin ümumi əməyində axtarışlığını lazımi bilmişlər. Özünün məhşur «Xalqların sərvətlərinin səbəbləri və təbiətinin tədqiqi» əsərində A.Smit iqtisadi baxışların yeni sistemini işlədi [53. 127].

A.Smit tədqiqatlarının metodu məntiqi abstraksiyaya və kateqoriyalar vəhdətinə əsaslanan üstün analitik xətt üzərində qurularaq əsas prinsiplərini fiziokratlar tərəfindən bəslənilən «təbii düzüm» və «təbii haqlar» ideyası təşkil edirdi. Bu nəzəriyyə konkret istiqamətli olaraq kapitalist iqtisadi sistemindən doğan proseslərin daxili səbəb və rabitəliyini, hadisələrin mahiyyət və qanunauyğunluqlarının açılışını hədəf seçmişdi.

A.Smit demək olar ki, bütün iqtisadi proseslərin izahına cəhdlərdə bulunmuşdur. Onun doktrinasının mərkəzi ideyası əməyin bütün sərvətlərinin mənbəyi olmasını təşkil edirdi. Kapital yalnız əməyə məşğuluq gətirən ölçüdə mühümdür. Cəmiyyətin sərvətləri əhalinin məhsuldar əməkdə məşğulluğundan və əmək məhsuldarlığından asılıdır. Bununla belə A.Smit ikinci faktorun daha əhəmiyyətli olduğunu müəyyən etmişdir.

İqtisadi hadisələrə sosial yanaşmada A.Smitin «Robinzonada» metodu diqqəti cəlb edir. Bcyük quru parçasından - əsas dünyadan təcrid olunmuş Daniel Defo qəhrəmanı Robinzonun yaşayış sistemindən A.Smit təsərrüfatçılığın müəyyən qanunlarını ayırmağa cəhdlər göstərmişdir [5, 127].



A.Smitin formalaşdırdığı «mütləq üstünlüklər» nəzəriyyəsinə rəğmən yəhudi əsilli, məhşur ingilis iqtisadçısı David Rikardo «nisbi üstünlüklər» nəzəriyyəsini yaratmış və bununla da, iqtisad elmində yeni istiqamətin təməlini qoymuşdur. Müasiri və həmvətəni ingilis iqtisadçısı, sosioloq və filosof, etik utilitarizmin banisi İeremiya Bentam /1748-1832/ kimi, təzahürlərin yalnız gərəklilik, faydalılıq mahiyyətinə bağlılığını əks etdirən *utilitarizm* prinsiplərini rəhbər tutaraq D.Rikardo 1817-ci ildə «Siyasi iqtisadın və vergiqoymanın başlanğıcı» əsəri ilə münbitlilik mahiyyətinə əsaslanan nəzəriyyə ilə renta münasibətlərinin tədqiqini apogeyə yüksəltmişdir [113. 127]. D.Rikardonun elmi metodikasına mücərrədliyin yüksək səviyyəsi xasdır. Onun düşüncəsi ciddiyyət, yüksək dəqiqlik və riyazi məntiqliyi ilə fərqlənirdi. İqtisadi nəzəriyyədə A.Smitin «etik» yanaşmasından fərqli olaraq D.Rikardo həm də «mühəndis» yanaşma metodunu formalaşdırmışdır. A.Smit doktrinasında sistem yaradıcı prinsip əmək qənaətçiliyidirsə, D.Rikardo nəzəriyyəsində isə əmək xərcləridir [45, 127].

A.Smit, D.Rikardo klassizm üçbucağını qapayan Tomas Robert Maltus iqtisadi fikir tarixinə cəmiyyət inkişafının bir sıra kəskin problemlərinin həllinə yönəlmiş baxışları ilə daxil olmuşdur. Xüsusi olaraq onun metodlar şəbəkəsini cəmiyyətdə baş verən sosial və iqtisadi problemlərin təbii qanunlarla həll olunması təşkil edirdi. T.Maltus daha çox iqtisad aləmində «Əhali artıqlığı» qanunu işləməklə şöhrət tapmışdır. Onun fikrincə bitki və heyvanat aləmində olduğu kimi, insan cəmiyyətində də öz sərəncamında olan qidanın kəmiyyətinə varmadan istifadəsini təmin etmək instinki vardır. T.Maltus təsdiqləyirdi ki, əhali həndəsi */1,2,4,8,16,32,64 və sair/* silsilə, yaşayış vasitələri isə ədədi */1,2,3,4,5,6,7 və sair/* silsilə ilə tərəqqi edir. Onun

fikrincə iki yüz ildən sonra bu nisbət 256-nın 9-a, üç yüz ildən sonra isə 1096-nın 13-ə ekvivalentində olacaqdır. Buradan daha bir fikir də hasil olunurdu kı, əgər əhali artıqlığı qanunu təbiidirsə, onda yoxsulluğu heç bir sistem bölgüsü xilas etməyəcəkdir [127].

Klassik iqtisad məktəbinin görkəmli nümayəndələri sırasında fransız iqtisadçısı Can Batist Sey /1767-1832/ və ingilis iqtisadçısı Con Styuart Mill /1806-1873/ tam bir nəzəri məktəb yaratmışlar.



**C.Sey**



**C.Mill**

Sey və Mil cütlüyü iqtisadi proseslərin təyinatında «xalis kapitalizm» adlanan sistemin qanunauyğunluqlarının və mühüm prinsiplərinin açılışına dair müvafiq metodika işləmişlər. Onların aşkarladığı və çıxardıqları nəticələr real həyat müşahidələrinə əsaslanan məxsusi postulatlar üzərində qurulmuşdur. Bu postulatların mühümləri aşağıdakılardır:

- ✧ bazar düzülüşü təbiidir;
- ✧ bazar iqtisadiyyatı özünü tənzimləyən hərəkətlidir;
- ✧ təbii azadlıq zəruri və labüddür;
- ✧ iqtisadi liberializm şəksiz, dövlətin rolu minimaldır;
- ✧ təsərrüfat davranışı, maraqlar, stimullar kodeksini əhatə edən «iqtisadi insan» konsepsiyası;
- ✧ maraqların maksimal dərəcədə təmin edilməsində danışıq aparan tərəflərin bərabərliyi;
- ✧ bazarda resurslar axıcılığını, qiymət və əmək haqqı hərəkətini təmin edən azad rəqabət mövcuddur [60. 127].

C.Sey Britaniya xaricində A.Smit doktrinasını inkişaf etdirən ilk iqtisadçı alim olmuşdur. İqtisad elmi C.Seyə *«Üç faktor»* və *«Sey qanunu»* adlanan ideyalara görə təşəkkürdə bulunmalıdır. C.Sey «Üç faktor» nəzəriyyəsində Smit mövqeyindən çıxış etsə də, fərqli olaraq hər bir gəliri müvafiq istehsal faktoru ilə bağlamışdır. Belə ki, əmək haqqı əməklə, mənfəət kapitalla, renta isə torpaqla uzlaşdırılmışdır. «Üç faktor» nəzəriyyəsi neoklassik məktəbdə bir qədər fərqli mahiyyətdə, müvafiq faktorların daha səmərəli kombinasiyasının axtarışı kontekstində istehsalın faktor analizi metodikasının inkişafına rəvac vermişdir.

«Sey qanunu» isə böhran problemlərinin həllini hədəf seçmişdir. Bu qanun «Əmtəələr əmtəələrlə mübadilə olunurlar» formatındadır. Belə ki, istənilən istehsal özü gəlirlər yaradır. İqtisadiyyatda məcmui tələb məcmui təklifə bərabərdir. Bu meyarlıqdan çıxış edərək C.Sey hesab edirdi ki, disproporsiyalar qismən meydana çıxa bilər və onların tənzimlənməsi böhran öncəsi mümkündür. İstehsal ünsürləri üzrə məcmui əməyin düzgün olmayan bölgüsünü isə qiymət mexanizmi vasitəsi ilə bazar özü nizamlayacaqdır. Bu qanunu D.Rikardo və C.Mill postulat olaraq qəbul, T.Maltus, K.Marks və C.Keyniz isə əksinə onu inkar etmişlər. Uzun müddət «Sey qanunu» son nəticə etibarı ilə nə təsdiq, nə də inkar olunmamışdır. Yalnız 1952-ci ildə iki amerikalı alim C.Bekker və U.Baumol «Sey qanunu»nun özündə iki müxtəlif qanunu ehtiva etdiyini müəyyənləşdirmişlər. Onlar birincini *Sey eyniyyəti*, ikincisini isə *Sey tarazlığı* adlandırmışlar. Birinci qanun ümumi olaraq istehsal artıqlığının qeyri mümkünlüyünü təsdiqləyir. O, ümumi təklifin ümumi tələbi üstələmədiyi barter iqtisadiyyatında hərəkət edir. İkinci qanun isə əmtəə-pul təsərrüfatında hərəkətə gəlir. Burada «Sey tarazlığı» onu ifadə edir ki,

əmtəə təklifi və pul tələbi eynən bərabər deyil. Onlar arasında ümumi istehsal artıqlığını ifadə edən məsafə mövcuddur. Bununla belə mövcud situasiya xroniki ola bilməz. Beləliklə «Sey eyniyyəti» və tarazlığı nəzəri modelin mahiyyətidir.

D.Rikardonun üstün dəyərləndirilən görkəmli tələbəsi, klassik iqtisad məktəbinin son nəhəngi hesab olunan C.Milin əsas tədqiqat əsəri «Siyasi iqtisadın əsasları» adlanır. Bu traktatda o, Avropa cəmiyyətinin həm iqtisadi və həm də sosial inkişafın yollarını aramağa, sosial islahat proqramlarının nəzəri əsasını işləməyə təşəbbüslər göstərmişlər. «Siyasi iqtisadın əsasları»nın kompozisiya düzümündə üç ön kitab kapitalist istehsalının statikasına, istehsal, bölgü və mübadiləyə, dördüncü kitab tərəqqinin istehsal və bölgüyə təsirinə, beşinci kitab isə klassik məktəbə ənənəvi xas olan dövlətin iqtisadiyyatdakı roluna həsr olunmuşdur [127].

Klassik məktəbin yaranışında iqtisadi məsələləri tədqiq edən filosoflar İngiltərədə Tomas Qobbs, Con Lokk, David Yum, Fransada Qelvesiy, Kondilyak, İtaliyada Bekkaria mühüm rol oynamışlar. Vurğulandığı kimi, bir sıra tacirlər, iş adamları T.Man, C.Lo, D.Nors, R.Kandilon, P.Buaqilber, A.Tyurqo, A.Qurne yeni iqtisadi yaranışların praktiki və nəzəri müstəvidə əməli fəaliyyətləri ilə zənginləşdirmişlər. İqtisadiyyat bir sıra digər intellektual peşə sahiblərini və hətta Qaliani, Taker, Maltus kimi ruhani mənsubiyyətli görkəmli şəxsləri də öz sıralarına çəkmişdir.



Klassik iqtisadi fikir tarixində kiçik burcuaziyanın maraqlarını təmsil edən iqtisadi düşüncənin ***iqtisadi romantizm*** qolu da təşəkkül tapmış və müəyyən inkişaf yolu qət etmişdir. Dövri sənaye çevrilişləri və burcua inqilablarından qaynaqlanan iqtisadi romantizmin təməlçisi Can Simondi /1773-1842/ hesab edilir. Bu təməlçilik onun 1819-cu ildə yazdığı «Siyasi iqtisadın yeni başlanğıcı» əsəri ilə dövriyyə çıxmışdır. Kapitalizmə tənqidi yanaşaraq C.Simondi siyasi iqtisadı əxlaqi elm adlandırmış və onun fövqündə insan faktorunun dayandığını bəyan etmişdir [100, 119].



Kiçik burcuaziya siyasi iqtisadının digər görkəmli ideoloqları sırasında Pyer-Cozef Prudondnun /1809-1865/ fərqlənir. P.Prudon baş elmi əsəri «Mülkiyyət nədir» traktatında mülkiyyət əlehinə çıxış etməyərək ondan sui-istifadə tənqid hədəfinə tutmuşdur. O, formalaşdırdığı iqtisadi modeldə əmtəə-pul təsərrüfatının qorunmasını pulsuz, faiz və kapitalsız çevrədə qorunmasını irəli sürmüşdür. P.Prudonun kiçik burcua sosializminin sonradan bakuninçilər əxz etmişlər [127].

İqtisadi fikir tarixin formalaşmasında Avroatlantik məkan üstün fərqlənsə də bütün tarixi proseslərdə yalqız qalmamışdır. Orta əsrlər təsərrüfatçılığı və müqabil iqtisadi fikir sferası müsəlman şərqində xüsusən Osmanlı imperiyası və İranda, Asiyanın bir sıra digər iri dövlətlərində də məhsuldar olmuşdur. Bu sırada Cənub-Şərqi Asiya ölkələri - Çin, Yaponiya və Hindistanın tövhələri də yüksək dəyərləndirilir.



Çin ölkəsi erkən iqtisadi biliklərin ən mühüm yaranış məkanlarından hesab olunur. Burada vurğulandığı kimi müvafiq tarixin yaşı min illərlə ölçülür. Bununla belə yaxın ötən əsrlərdə də çinlilər iqtisad elminə, onun sosiallaşmasına çoxlu empirik material vermişlər. Feodalizmin cövlan etdiyi zamanlar da 1850-1864-cü illər Taypin üsyanı zamanı istehsal və bölgü sahəsində bərabərçilik əsasında yeni ədalətli ictimai quruluşun yaradılması ideyası hakim olmuşdur. Sonradan XIX əsrin sonlarında ölkədə reformistlər cərəyanı yaranmış və o sosialist Çin Xalq Respublikasının iqsiadi obrazının yarnışında, ölkə lideri Mao Tszedunun apardığı islahatlar çevrəsində əhəmiyyətli rolunu göstərmişdir [28. 127].



Kapitalist sisteminin formalaşdığı XIX əsrdə Yaponiyada ölkə iqtisadçıları bu sistemin özəlliklərinin öyrənilməsinə, onun mütərəqqi cəhətlərinin inkişafına diqqət yönəltmişlər. Sonrakı mərhələdə isə artıq iqtisadi fikir tarixində lokal modelləşmələr işlənilmişdir. Burada əsas

yerlərdən birini «Faydalıq həddi nəzəriyyəsi» tutmuşdur [60].

Hindistanda iqtisadi fikir tarixinin orta əsrlər dövrü əsasən praktiki təsərrüfat prinsiplərinə rağmən pərvəriş tapmışdır. Böyük irəliləyişlər isə XIX əsrdə Böyük Britaniya müstəmləkəçiliyi illərində dövriyyə yığmışdır. Hindistanda iqtisadi fikir tarixində nailiyyətlər də ingilis modelinə əsaslanmışdır. Lakin burada müstəqil olan hind burcua iqtisadi məktəbinin yaranışı da təzahür etmişdir. İstiqlala qovuşduqdan sonra ölkədə öyrənilən iqtisadi problemlər dairəsi xeyli genişlənmiş, hind iqtisadçıları hətta digər ölkələrin də iqtisadiyyatlarını təhlil edən əsərlər yazmışlar. Bu reallığın bariz nümunələrindən biri olaraq Hind iqtisadçısı V.Mehtanın SSRİ zamanlarında /1982-ci il/ «Sovet iqtisadiyyatı. Azərbaycanın inkişafı» adlı monoqrafiyası da göstərilə bilər.



Klassik iqtisadi fikir tarixinin formalaşmasında rus alim və mütəfəkkirlərinin də fəaliyyəti dəyərləndirilir. Bu sırada xüsusi olaraq A.N.Radişev /1749-1802/, P.İ.Pestel /1793-1826/, N.Q.Çernışevski /1828-1889/ və xalqçılar - M.A.Bakunin /1814-1876/, P.N.Tkaçev /1844-1886/, P.L.Lavrov /1823-1900/ və digərləri fərqlənirlər.





**A.N.Radişev** **P.İ.Pestel** **N.Q.Çernışevskiy**

A.N.Radişev 1790-cı ildə yazdığı «Peterburqdan Moskvaya səyahət» əsəri ilə daha da məhşurlaşmışdır. Bu əsərində feodal quruluşunu və təhkimçilik hüququnu açıq mühakimə edən A.N.Radişev kiçik biznesi və şəxsi mülkiyyət prioritetində iqtisadi quruluşun formalaşması ideyası ilə çıxış etmişdir. Məhşur dekabristlər üsyanın görkəmli nümayəndəsi P.İ.Pestelin isə iqtisadi baxışlarında kapitalizmdə bir acıqlıq görərək təhkimçilik hüququnun ləğvini, dövlət qanunlarının insanların təbii haqlarına müvafiqləşməsini mühüm iqtisadi amil hesab etmişdir. İqtisad elmində «kəndli sosializmi» nəzəriyyəsini yaradan digər rus mütəfəkkiri N.Q.Çernışevski kəndli icmasının sosializmin təməli olduğu ideyası ilə çıxış etmişdir. Rus xalqçılarının ideoloqları M.A.Bakunin, P.N.Tkaçev, P.L.Lavrov da azadlıq mübarizəsini məhz kəndli qiyamlarına bağlı edərək labüd sosial-iqtisadi dəyişikliklərin yaranacağına ümüd bəsləmişlər [60. 127].





**M.A.Bakunin** **P.N.Tkaçev** **P.L.Lavrov**

Klassik məktəb də zamani amillər təzadlarından hali olmamışdır. Mümkün nöqsanlar isə öz növbəsində iqtisad elminin inkişafına, təkmil yeni nəzəriyyələrin yaranış labüdlüyünə rəvac vermişdir. C.Keyniz özünün məhşur «Məşğulluq mənfəət və pulun ümumi məruzəsi» əsərində klassik nəzəriyyənin qüsurluluğuna rəğmən qeyd etmişdir: «Klassik nəzəriyyənin qeyri-adi nailiyyəti «təbii insan» inanclarına üstün gəlməsində və eyni zamanda səhv olmasında idi» [21. səh.399]. Bununla belə vurğulanmalıdır ki, klassik məktəb bütün elmi gerçəklikləri ilə yanaşı,

həm də əmək-dəyər nəzəriyyəsini işləmiş, tələb və təklif sferasında bazar mexanizmi konsepsiyasını yaratmışdır. Gəlirlər, kapital, pul dövriyyəsi təkrar istehsal, renta, əhali artıqlığı nəzəriyyələri də klassik məktəbin məhsulları sırasındadır.

## *1.5. Iqtisadi fikirin konseptual kamilləşməsi mərhələsi*

XIX əsrin ortalarında Almaniyada ***iqtisadi nəzəriyyənin tarixi məktəbi*** adlanan yeni forması yaradıldı. Klassik məktəb mücərrəd və deduktiv metodlardan istifadə edərək ümumi və universal nəzəriyyə yaratmağa cəht göstərirdisə, tarixi məktəb konkret induktiv tarixi metoddan istifadə etmişdir. Digər elmi interpretasiyada «tarixçilər» klassik məktəbi tənqid edərək siyasi iqtisadda mahiyyəti bütün xalqlarda iqtisadi hadisə və prosesləri müqayisə etməyə yönələn tarixi metod yaratmışlar. Bu nəzəriyyə klassik nəzəriyyədən fərqli olaraq həm də milli iqtisadi inkişaf konsepsiyasına üstünlük verirdi.

Tarixi nəzəriyyənin sələfləri A.Müller /1779-1839/ və F.List /1798-1846/ idi. Onlar hesab edirdilər ki, öz həyati prinsipləri, fərdiliyi ilə tarixi mövcudluqda formalaşan hər bir millət xüsusi orqanizmdir. Tarixi nəzəriyyəçilər beynəlxalq ticarətdə qeyri-məhdud azadlıq prinsipini tənqid edir, onun əvəzində «millətin sənaye tərbiyəsi» prinsipini irəli sürürdülər [45, 60, 127].

Tarixi məktəb özündə bir sıra mərhələləri əhatə etmişdir. Onun görkəmli nümayəndələri V.Roşer /1817-1894/, K.Knist /1821-1898/, B.Qildebrant /1812-1878/, Q.Şmoller /1838-1917/, L.Brentano /1844-1931/, K.Blüxer /1847-1930/, A.Vaqner /1835-1817/, V.Zombart /1863-1941/ və M.Veber /1864-1920/ olmuşlar.



Məhşur alman iqtisadçısı Verner Zombartın metodologiyası özünə məxsus dualizmi ilə fərqlənir. Bu dualizmin mahiyyəti ondan ibarətdir ki, ayrıca götürülmüş hər bir problemin tədqiqi empirik və nəzəri bölgüdə effektlidir. Ümumi iqtisadi inkişafın təhlilində bu təsnifat «təsərrüfat sistemi» və «təsərrüfat epoxaları»na ayrılmada təzahür edir. V.Zombarta görə təsərrüfat sistemi xalis mücərrəd-nəzəri düzümdür və onun köməyi ilə realist-empirik tədqiqin obyekti təsərrüfat epoxasına görüntü verilir. Təsərrüfat epoxası daxilində alim «iqtisadi texnika» səviyyəsində dövrilik təsnifatı aparır. Müvafiq təkamül meyarlarına əsaslanaraq hər bir təsərrüfat epoxası ilkin təsərrüfat, kulminasion faza və sonrakı təsərrüfat bölgüsündə əsaslanır [127].

Avropa mərkəzi ilə məhdudlaşmayan tarixi metod bir sıra digər ölkələrdə də yayılmışdır. Onun inkişafında Rusiya alimləri keyfiyyətli qədər də kəmiyyətli əmək sərf edərək dəyərli tədqiqatları ilə onu bir daha zənginləşdirmişlər. Başqaları ilə birlikdə İ.İ.Kaufman /1848–1916/, A.İ.Savin /1873–1923/, M.İ.Tuqan-Baranovski /1865-1919/, İ.M.Kulişer /1878–1934/ tarixi iqtisadi nəzəriyyənin Rusiya qolunun görkəmli nümayəndələri sırasında olmuşlar [60. 92].





**İ.İ.Kaufman** **M.İ.Tuqan-Baranovski** **İ.M.Kulişer**

İqtisadi düşüncə tarixində yəhudi əsilli alman iqtisadçısı, sosioloq və filosofu Karl Marksın /1818-1883/ məxsusi yeri vardır. Bütün ictimai elmləri: iqtisadiyyat, tarix, sosiologiya, fəlsəfə və politologiyanı özündə əhatə edən beynəlxalq ***kommunizm*** banisinin təlimi geniş həcmli dörd hissəli «Kapital» əsərində tam ifadə olunmuşdur. Kapitalizmin ən sərt məsələlərini elmi təhlilini

verən K.Marksın elmi irsi mübahisə və diskusiyaların predmeti olaraq çoxsaylı müdafiəçilər və rəqiblər yetişdirmişdir.

Elmi metodologiyası dialektiv materiyalizm adlanan alimin tarixi konsepsiyası «ictimai-iqtisadi formasiya» anlayışına əsaslanır. Burada aksent siniflər mübarizəsində istehsal üsuluna, material amilinin roluna vurulur. K.Marks nəzəriyyəsinin leytmotivini istismar - *izafi dəyər* nəzəriyyəsi təşkil edir [23]. İqtisadi düşüncənin inkişafında K.Marksın xidmətləri böyük əhəmiyyətli olmuşdur. Marksizmə rəğmən sosial-iqtisadi faktorların inkişafı və sosial təzadlığın mahiyyətinin açılmasına cəhdlər artmış, bazar mexanizminin konfliktliyinin təhlili aparılmışdır. Onun istismar nəzəriyyəsi cəmiyyətdə humanist və mütərəqqi islahatların aparılmasına zəmin yaratmışdır. Nəzəriyyəsində mübahisə və təzadların olmasına baxmayaraq bir sıra aparıcı tədqiqadçılar ədalətli olaraq K.Marksı iqtisadi fikrin ən nəhəng simalarından sayırlar.

Marksizmin ən görkəmli nümayəndələri sırasında alman tarixçisi və filosofu Fridrix Engels /1820-1895/ və kommunist-proletar inqilabı nəhəngi Vladimir İliç Lenin /1870-1924/ şəxsiyyətləri dayanır.





**K.Marks** **F.Engels** **V.Lenin**

Elmi kommunizmin baniləri sayılan bu üçlüyün fəaliyyəti nəticəsində planetin çox mühüm hissəsində siyasi-iqtisadi sistemin yeni tipi praktiki məzmun və formatda uzun müddət bərqərar olmuşdur [6, 22-25]. Ötən əsrin sonlarında kommunist recimlər əksərən çöksələr də onun bariz formaları Çində, Şimali Koreyada, Kuba və Veytnamda hələ də yaşanmaqdadır.

I və II Cahan savaşları arasında marksist iqtisadçılıq zəmində xeyli işlər görülmüşdür. Bu zamanlarda marksimz bir çox ictimai edmləri ağuşuna almış, onların ənənəvi paradiqmasını dəyişmələrə məruz qoymuşdur. Bu zamanlarda revanş qazanan marksizm ***«neomarksist məktəbin» - «radikal siyasi iqtisadın»*** dirçəlişinə rəvac verdi. Faşizmin və «qırmızı təhlükə»nin gücləndiyi çağlarda ABŞ-ın özündə belə bir çoxları Marksın iqtisadçı olduğunu ununtdular. 1940-cı illərdə bir çox ingilis dilli iqtisadçılar K.Marksın yaradıcılığına çox ciddi yanaşmaları ilə fərqləndilər. Bu baxımdandır ki, marksizmin özünün çox zəif intişar tapdığı ABŞ-da da iqtisadi problemlərin müvafiq baxışlar sistemini nəzəri mövqedə tədqiq edən görkəmli iqtisadçı simalarına rast gəlinir. Bu simalar içərisində isə məhşur amerikan iqtisadçısı və publisisti Ceyms Alen /1906/ daha çox fərqlənərək beynəlxalq inhisarçılığı, bazar problemlərini zəhmətkeşlərin hüquqları çərçivəsindən həll etməyi üstün bilmişdir. Bununla belə vurğulanmalıdır ki, elmi müsətəvidə marksizm nəzəriyyəsinin tam iflasa uğradığı qənaətinə də gəlmək olmaz. Bu möhtəşəm toplumun materialları hələ də digər nəzəriyyələrin inşaasında istifadə olunur və yeni yanaşmaları istiqamətləndirir [79, 127].

XIX-cu əsrin son məqamları ərəfəsində klassik siyasi iqtisad məktəbi böhranlı vəziyyətə düşmüşdü. Belə ki, bu nəzəriyyə sərvətlərin xərclər şərhinə əsaslanaraq iqtisadiyyatın bir sıra çətin problemlərini izah edə bilmirdi. Onun zəif yeri tamılıqla istehsalçıya əsaslanaraq istehlakçıya böyük əhəmiyyət verməsində idi. Bu böhranlı vəziyyətdən çıxışı ***marcinalistlər*** tapdılar. XIX-cu əsrin son onilliklərində yaranış tapan marcinalizm sisteminin mərkəzində öz tələbləri ilə subyekt dayanırdı. Marcinalizm fransız köklü söz *marja* - son hədd mənasını ifadələndirir.

İqtisadi fikir tarixində marcinalizm prinsipi XIX əsrin son onilliklərində bir sıra iqtisadi kəşflərin və nəzəri yaranışların nüvəsini təşkil edərək *marcinal inqilab* kimi elm sferaya daxil

olmuşdur. Marcinal inqilab iki mərhələdə təzahür edərək ikinci mərhələdə neoklassik adlanışlı təyinat almışdır. Belə ki, bir sıra alimlər marcinal inqilabı başlayaraq sonradan daha dərin olan neoklassik nəzəriyyənin yaranışını təmin etmişlər. Marcinal inqilabın görkəmli nümayəndələri K.Menqer /1840-1931/, F.Vizer /1851-1926/, E.Bem-Baverk /1851-1914/ U.Cevonos /1835-1982/, F.Ecuort /1845-1926/, L.Valras /1834-1910/, C.Klark /1847-1938/, A.Marşal /1842-1924/ və başqaları hesab edilirlər. «Son hədd analizinin» banisi İ.Tyunen /1783-1850/, A.Kurno /1801-1877/ və Q.Qossem /1810-1858/ isə macinalizmin sələfləri sırasında dayanmışlar [60, 113, 127].

Marcinal inqilab mahiyyətcə təhlil metodikasınıda ağırlıq mərkəzinin xərclərdən son nəticəyə keçməsi prinsipini ilə təminat tapmışdır. Marcinalistlərin inqilabiliyi bir də onda nəzərə çarpmışdır ki, onlar dəyərləri faydalıq effektində, istehlak təminatlığı dərəcəsində görmüşlər. Klassiklər iqtisadi artım, ictimai sərvətin yüksəlişi və sair bu kimi dinamik məsələlərinə istinad etdikləri halda, marcinalistlər qısa müddətləri əhatə olunan, dəyişməyə macal tapmayan proseslərə üstünlük vermişlər [119].

Marcinal nəzəriyyə bir-birindən xəbər tutmayaraq eyni zamanda üç mütəfəkkir: Avstriyada K.Menqer, İngiltərədə U.Cevonos və İsveçrədə L.Valras tərəfindən yaradılmışdır. Bundan sonra avstriya, ingilis, lozanna və amerikan məktəbləri təşəkkül tapmışdır.





**K.Menqer** **U.Cevonos** **L.Valras**

Avstriya məktəbi adlanışından irəli gələn avstriyalı görkəmli iqtisadçı Karl Menqer və onun yetirmələri olan həmyerliləri Fridrix Vizer və Yevqeni Bem-Beverklə təmsil olunur. Bu alimlər pleyadası iqtisadi liberalizmə oriyentasiya olunaraq sosializmi inkar edərək məntiqi düşüncədə riyazi metodu üstünlük vermişlər [53. 72].

K.Menqer fundomental elmi səciyyə daşıyan «Siyasi iqtisadın əsası» adlı əsərində fərd səviyyəsində mikroiqtisadi təhlil apararaq «robinzonada» abstraksiyası üzərində sonhədlilik prinsipini işləmişdir. K.Menqer hesab edirdi ki, müxtəlif intensivlik çevrəsində hər şey insanın tələblərindən yaranır. İstehlak tələbləri üçün nemətlər, istehsal üçün isə yardımçı olan istehsal resursları vacibdir.



K.Menqerin xəttinə təmas edərək F.Vizer dəyərin subyektiv nəzəriyyəsini «İqtisadi dəyərlərin mənşəyi və əsas qanunları haqqında», «Təbii dəyərlər» və «İctimai təsərrüfat nəzəriyyəsi» əsərləri ilə zənginləşdirmişdir. O, elmi dövriyyəyə «Son faydalıq», «Qossen qanunları» «həvalə etmək və ya öhdələndirmək» kimi anlayışlar gətirmişdir. Onun tərəfindən resurslardan alternativ istifadə imkanlarını ehtimal edən alternativ xərclər nəzəriyyəsi də işlənlənmişdir. İctimai təsərrüfata baxış keçirərək F.Vizer belə bir qənaətə gəlmişdir ki, özəl təsərrüfatçılıq düzümü ictimai iqtisadi ittifaqın tarixi olan vahid və sınanmış metodudur. O ümumi tabeçiliyi təcəssüm etdirən direktiv təsərrüfatdan daha səmərəlidir [127].



Y.Bem-Baverk marcinal metodikanı «Kapital və mənfəət» əsəri, «Kapitalın pozitiv nəzəriyyəsi» və «Təsərrüfat rifahı dəyərlərinin əsas nəzəriyyəsi» əsərləri ilə daha da dolğunlaşdırdı. O, bölgü probleminə istehsal faktorlarının qiymət təyinatı bucağından yanaşaraq tədqiqat sferasına bazarın vəhdətliyi kateqoriyasını gətirmişdir. Y.Bem-Baverkin tədqiqatlarında

mərkəzi ideya xəttini kapital üzərində mənfəət yaranmasını təşkil edən «Gözləmə nəzəriyyəsi» mühüm yer tutur [53, 60].

İngilis marcinal məktəbinin görkəmli nümayəndəsi məntiqçi, iqtisadçı və statistik Uilyam Stenli Cevons «Siyasi iqtisadın nəzəriyyəsi» və «Elmin prinsipləri» əsərlərində geniş riyazi aparatın köməyi ilə marcinalizm ideyalarını yeni aksesuarlarla zənginləşdirdi. O, tədqiqatlarında bölgü nəzəriyyəsini inkişaf etdirərək «bölgü tənliyinin» köməyi ilə faydalığın son həddinin azalan qanununu işləyib formalaşdırdı [127].

Lozan məktəbinin təməlçisi, İsveç iqtisadçısı, riyazi məktəbin banisi Leon Mari Espri Valras iqtisad tarixinə son faydalılıq nəzəriyyəsinin ilk yaradıcılarından biri kimi daxil olmuşdur. Onun bu aspektdə «Xalis siyasi iqtisadın elementləri» əsəri mühüm əlamətliliyi ilə diqqəti cəlb edir L.Valras hədli faydalılığa istehlak olunan nemətlər kəmiyyətindən azalan funksiya təyinatı vermişdir. Öz tələblərini təmin edən istehlakçılar maksimuma yetişdikləri zaman tarazlıq yaranır. Bu təyinatla məhdudlaşmayaraq L.Valras bazarın ümumi iqtisadi tarazlığının riyazi modelini də işləmişdir [113].



İngilis iqtisadçısı və statistiki, siyasi iqtisadda riyazi məktəbin görkəmli nümayəndəsi Frensis İsidro Edcuort «Riyazi psixika» əsəri ilə U.Cevons ideyalarını inkişaf etdirərək faydalılığın ölçülməsi və tarazlığın riyazi təyinatını problemlərinə diqqət yetirmiş, istehsal artımına təyinat verən qanun işləmişdir. F.Edcuort iqtisad elminə «*biganələr əyris*i» anlayışını gətirmişdir. Bu anlayış özü-özlüyündə öncə mövcud kəmiyyətli faydalıq nəzəriyyəsinə /«kardinal»/ əks olaraq qaydalı faydalıq nəzəriyyəsinin /«ordinal»/ kimi çıxış etmişdir [127].



Neoklassik nəzəriyyənin Amerika qütblü marcinalist məktəbinin banisi Con Beyts Klark «Sərvətlərin fəlsəfəsi», «Sərvətlərin bölgüsü» və «İqtisadi nəzəriyyənin mahiyyəti» əsərlərində sərvətlər bölgüsünün yeni formatlı izahını vermişdir. Onun fikrincə iqtisadi nəzəriyyədə öncül yeri ictimai sərvətin bölgüsü problemi təşkil edir. C.Klark siyasi iqtisadı universal iqtisadiyyat, iqtisadi statika və iqtisadi dinamikaya olan üç hissəyə ayırmışdır. Universal iqtisadiyyat resursların nadirliyi, azalan faydalılıq həddinin, əmək və kapitalın məhsuldarlığının gödəlməsi, əhali artıqlığı qanunu və digər təsərrüfat fəaliyyətinin ümumi qanunlarını əhatə edir. C.Klarkın statika nəzəriyyəsi isə ilk öncə dəyərlər problemininin araşdırılmasına yönəlmişdir. Statika nəzəriyyəsinin şərhində, o modifikasiya etdiyi son faydalıq nəzəriyyəsinə istinad verir. «Asiya Amerikadan maşın və fabrik qismində qəbula vararkən bu hərəkət bütün dünyada istehsalın unifikasiyasına çevrilir. Proses dünya istehsalına tarazlıq meyli gətirir. Bu nöqteyi nəzərdən bu statistik prosesdir» [73. səh.357]. Dinamik iqtisadiyyatda isə bütün faktorlar inkişaf müstəvisində hərəkətdədirlər. Texniki tərəqqi iqtisadi göstəricilərə ahəgdarlıq verir. C.Klark hesab edirdi ki, iqtisadi nəzəriyyədə başlıca yeri ictimaii məhsulun bölgüsü problemini tutur.

XIX-cu əsrin sonlarında ***neoklassik nəzəriyyəsinin*** simasında yeni metodologiya formalaşdı. Bu metodoloji aspektlər Alfred Marşalın 1890-cı ildə yazdığı «İqtisadiyyatın prinsipləri» əsərində daha geniş təzahürünü tapdı. Neoklassik məktəb XX-ci əsrin 30-cu illərinə qədər iqtisadi nəzəri və praktiki həyatda hakim mövqedə dayandı.

Neoklassizmi təcəssüm etdirən ***neoklassik məktəb*** XX əsr iqtisadi fikrinin əsas magistral xətlərindən biridir. Vurğulandığı kimi, o marcinal inqilabdan yaranmışdır. Son faydalıq və son məhsuldarlıq konsepsiyalarının yaranması neoklassik məktəbin mükəmməl rəqabət sferasında bazar sahibkarlığı təsərrüfatının nəzəriyyəsinin işlənməsinə zəmin olmuşdur. Xüsusən azad rəqabət və qiymət yaranışı mexanizmlərinin təkmilləşən xətti neoklassikləri şəxsi və ictimai tarazlıq konsepsiyasını formalaşdırmağa müəssər etmişdir. XX əsrin ilk onilliklərində neoklassik məktəb dəyər, qiymət, kapital nəzəriyyələri, pul sisteminin rolunu, onun iqtisadi həyata təsirinin daha dəqiq təəssüratlarının formalaşması, qiymət yaranışı və bazarın monopol konsepsiyasının genişlənməsi, iqtisadi nəzəriyyədə məhsuldar funksiyaların tətbiqi və nəhayət rifah

nəzəriyyəsinin təşəkkülü kontekstində yeni təlimat və konsepsiyalarla daha da zənginləşmişdir. Neoklassiklərin səyləri nəticəsində II Cahan müharibəsi öncəsi makroiqtisadi təhlilin mükəmməlliyi təmin edilmiş, sonrakı mərhələdə neoklassik sistemin ictimai tarazlığın keyniziyan makroiqtisadi nəzəriyyə ilə zənginləşməsi «*neoklassik sintez*»in yaranışına rəvac vermişdir.

İngilis iqtisadçısı Kembric məktəbinin banisi A.Marşalın iqtisadi nəzəriyyəyə verdiyi töhfələr müstəsna elmi əhəmiyyətli olmuşdur. O bazar tələb və təklifini kəsişən əyrilər formasına salaraq iqtisad elmində məhşur «marşal xaçı» anlamını yaratmış, dəyərlərin təyinatında istehsal xərclərinin rolu və funksionallığına yeni yanaşma gətirməklə klassikləri reabilitə etmişdir. A.Marşalın fikrincə istehsal xərcləri, tələb intensivliyi, məhsulun qiyməti və istehsalın son həddi qarşılıqlı olaraq bir birini tənzimləyirlər. İqtisadi analizdə vaxt faktorunun tətbiqi, uzun və qısa müddətli anlayışlar da A.Marşala məxsusdur. O, iqtisadi tarazlıq nəzəriyyəsini «son hədd», «əvəzləmək» konsepsiyaları ilə zənginləşdirmişdir. «Son hədd» anlayışını «faydalıq» anlayışdan kənarda tarazlıq nöqtəsini istənilən mövcud iqtisadi faktor şəraitində, «əvəzləmək» anlayışını isə tarazlığın itməsi və bərpasını xarakterizə etmək üçün yaratmışdır. Faydalığın azalması qanunun təhlili A.Marşalı «elastiklik» ideyalı xətti işləməyə səfərbər etmişdir. Bununla belə A.Marşal iqtisad elminə qrafik metod təhlilini gətirərək A.Smit kimi, ayrıca bir sahənin mikroiqtisadi statika təlimini yaratmışdır. Siyasi iqtisadın əvəzinə yeni elmi A.Marşal sadəcə *economics* - iqtisadiyyat adlandırmışdır [53, 88].



Neoklassik nəzəriyyədə mühüm axınlardan birinə də H.Sidcvik /1838-1900/ və A.Piqu /1877-1959/ başçılıq edirlər. Alimlər yaratdıqları, populyarlaşmış rifah nəzəriyyəsi ilə neoklassik təlimi sosial aspektlərlə bir daha zənginləşdirmişlər.

İngilis filosofu və iqtisadçısı Henri Sidcvik «Siyasi iqtisadın prinsipləri» adlanan traktatında klassiklərin sərvətlər haqqında anlamını, onların «təbii azadlıq» doktrinasını tənqid edərək göstərmişdir ki, şəxsi və ümumi maraqlar heç də üst-üstə düşmür, azad rəqabət sərvətlərin səmərəli istehsalını təmin etsə də, o ədalətli bölgü vermir. «Təbii azadlıq» sistemi özəl və ictimai maraqlar arasında konfliktlər yaradır. Bununla belə adekvat konfliktlər ictimai marağın içərisində də, cari anla gələcək nəsillərin maraqları kontekstində baş verir. Qeyd olunmalıdır ki, iqtisad elmi H.Sidcvika qarışıq iqtisadiyyat haqqında doktrina yaradıcısı kimi təşəkkürlüdür [127].





Ön iqtisadi əsəri «Rifahın iqtisadi nəzəriyyəsi» olan ingilis iqtisadçısı, rifah nəzəriyyəsinin banisi, professor Artur Sesil Piqunun təliminin mərkəzində milli dividend - gəlir anlamı dayanır. O, milli dividendi yalnız ictimai istehsalın effektivliyi kimi deyil, həm də ictimai rifah ölçü olaraq dəyərləndirmişdir. A.Piqu «xalis mümkün məhsul» anlayışından istifadə edərək qarşısında bölgü problemi aspektində fərdin və ictimaiyyatin iqtisadi maraqlarının qarşılıqlı rabitəsinin araşdırması məsələsini qoymuşdu. Piqu konsepsiyasının başlıca prioritetini ayrı-ayrı insanların iqtisadi qərarlarının nəticəsi olaraq şəxsi maraqlar və xərclər, digər tərəfdən ictimai maraqlar və xərclər rabitəliyinin biri-birinə keçən pay proporsiyasını şərtləndirən *divergensiya* /aralıq, çatlam/ anlayışı təşkil edir [21, 127].



Neoklassik nəzəriyyədə əhəmiyyətli xidmətlərdən biri də digər amerikan iqtisadçısı İrvin Fişerin /1867-1947/ adı ilə bağlıdır. Onun 1930-cu ildə yazdığı «Faiz nəzəriyyəsi» əsəri neoklassik təlimdə məxsusi yeri tutmuşdur. İ.Fişer C.Klark kimi kapitala xidmət yaradan və gəlir gətirən ehtiyat kimi baxmışdır. Öncə kapitalın məhsuldarlığını dəyərləndirərək sonradan İ.Fişer onu «investisiyon

imkanlar» anlayışı ilə əvəzləmişdir. Kapital gəlirin diskontlaşmış axını, faiz isə kapitalın faydalılığıdır. Faydalılıq və xərclərin toqquşması suda kapitalı bazarında baş verir. Pul tələb və təklif tarazlığının bazar faizidir [60].



Neoklassiklərin görkəmli simaları sırasında İsveç neoklassik məktəbinin banisi, tsikllər, kredit-pul tənzimlənməsi nəzəriyyələrinin yaradıcısı Knut Viksellin /1851-1926/ tədqiqatları da əhəmiyyətli mövqedə dayanır. «Dəyər, kapital və renta», «Faiz və renta» əsərləri ilə K.Viksell təhlilin riyazi metodlarına əsaslanaraq gəlirlər bölgüsü hər bir istehsal faktorunun həmən faktorların son məhsuldarlığına yardımçı olan məhsul payı ilə əvəzlənməsi şərtliliyinə isbat vermişdir. Bununla belə o hesab edirdi ki, kapital yığımı miqyasında onun məhsuldarlığı azalır. Bu zaman əmək haqqı və rentanın payının artması ilə ümumi məhsulda mənfəət payı da azalacaqdır [127].



Neoklassik istiqamətin ən görkəmli nümayəndələrindən biri də Avstriya iqtisadçısı Yozef Aloiz Şumpeter /1883-1950/ olmuşdur. O özünün «Nəzəri siyasi iqtisadın mahiyyəti və əsas məzmunu», «İqtisadi təhlilin tarixi», «İqtisadi tsikllər», «İmperializmin sosiologiyası», «Kapitalizm, sosializm və demokratiya» adlı elmi əsərlərində iqtisadiyyatın üç mühüm probleminə: *iqtisadi təhlilin tarixi və metodologiyası, iqtisadi dinamika nəzəriyyəsi* və *ictimai inkişaf konsepsiyasına* olan sədaqətini saxlamışdır.

K.Marksın baxışlarına tənqidi yanaşan alimin kapitalizmin mütərəqqiliyini, onun dinamizmi sahəsində artımın baş verdiyini və bununla da mütəmmadi sosiallaşdığını vurğulayırdı. «İqtisadi inkişaf nəzəriyyəsində» Y.Şumpeter makrogenerasiya ideyasını irəli sürmüşdü. O, iqtisadiyyata spesifik kombinasiyalar dünyası kimi görüntü verərək onların hər birini vahid məhsul yaradan məhsuldar qüvvələrin birləşmə üsulu kimi xarakterizə edirdi. Y.Şumpeterin 1912-ci ildə yazdığı «İqtisadi inkişaf nəzəriyyəsi» əsəri ilə ilk dəfə olaraq innovasiya terminini dövriyyəyə çıxaran almin bu əsərində hər bir innovasiyanın bahaçılıq dalğası yaratdığını qeyd etmişdir. [53, 60, 100].

İqtisadi fikir konsepsiyalarının fundomental formalaşdığı zamanlarda sosial və hüquqi təsisatlı iqtisadi sistem formatları da ərsəyə gəlmişdir. Bu sırada daha mükəmməl və qabaritli nəzəriyyə kimi institusioalizm çıxış etmişdir. İnstitusional-təkamül nəzəriyyəsi XIX və XX əsrin qovşağında ABŞ-da təşəkkül tapmışdır. İnstitusionalizmin mənşəyi və sələflərini alman tarixi məktəbi, maksizm, sosial şərtlənmiş və tarixi məhdudlaşmış qanunlar, norma, adət və steoratiplər fundamentinə istinad edən ictimai sistemi haqqında M.Veber və K.Menqerin təlimləri, E.Dyurkxeymanın baxışları təşkil edir. Köhnə institusionalizmin nümayəndələri T.Veblen /1857-1929/, C.Kommonos /1862-1945/ və U.Mitçell /1874-1948/ hesab edilir.



**T.Veblen**



**C.Kommonos**



**U.Mitçell**

İqtisadi münasibətlərin subyektlərini, şəxsi maraqlarını öyrənməyə etiraz edən ***institusionalizm*** ictimai motivlərə, insanların davranışlarına üz tutur və bazarın avtomatik tənzimlənməsi konsepsiyasına tənqidi yanaşır. Burada iqtisadi qərarların qəbulunda institutlar, dövlət, qanunçuluq, ictimai təşkilatlar, strukturlar, ənənə və sair müvafiqliklər iqtisadi, qeyri-iqtisadi xarakterli təsisatlar mühüm rol oynayaraq iqtisadi münasibətlər şəbəkəsində

əhəmiyyətini nümayiş etdirir İnstitusionalizmin metodoloji prinsiplərini neoklassik nəzəriyyəyə məxsus abstraksiyanın yüksək səviyyəsi və statistik xarakterin qeyri-təminatı, iqtisadi nəzəriyyənin dəgər iqtisadi elmlərə inteqrasiyası və nəhayət iştimaiyyətin biznes üzərində nəzarətinin gücləndirilməsi tələbləri təşkil edir. Neoklassiklərdən fərqli olaraq institusionalistlər iqtisadi sistemə bir-birindən təcrid olunmuş fərdlərin mexaniki vəhtədi - «atomizm» və bu sistem elementləri arasında rabitənin mühümlüyü formatında baxırlar. Belə yanaşma «xomizm» /*bütövlük*/ və ya «orqanizm» anlamını verir [42, 81].

İnstitusionalizmin banisi amerikan alimi Torsteyn Veblen hesab olunur. İnstitusional ideyalar alimin 1899-cu ildə yazdığı «Veyl sinifin nəzəriyyəsi» əsərində daha qabarıq obrazda təzahür etmişdir. T.Veblen elmi dövrəyə - *«institusiya»* /*adət, idarə edilən qaydalar və düzüm*/ və *«institut»* /*təsisat və ya qanun formasında möhkəmlənmiş nizam*/ anlayışlarını gətirmişdi. O, həm də istitusionalizmində texnokratik istiqamətin banisi hesab olunur. T.Veblen kapitalist cəmiyyətini təhlil edərək «İndustrial» sistem konsepsiyasını yaratmışdır. Bu nəzəriyyəyə görə kapitalizm *sahibkar* və *maliyyəçi hakimliyi* adlanan iki pilləli inkişafdan keçir. Səfaləti müalicə etmək üçün T.Veblen «Tənzimlənən kapitalizm» nəzəriyyəsini də yaratmışdır. Onun fikrincə iqtisadi həyatı tənzimləmək, biznes və industriya arasındakı təzadları aşmaq üçün korporasiyalar birliyinin yaradılması mühüm zərurətlidir [91].

Amerikan iqtisadçısı, institusionalizmin sosial-hüquqi istiqamətinin başçısı Con Kommons 1924-cü ildə «İnstitusional iqtisadiyyat» adlı kitab nəşr etdirərək insanların iqtisadi davranışının tənzimləyicisini hərəkətdə olan *kollektiv institut* anlayışını dövriyəyə buraxdı. C.Kommons düşüncəsində institusional iqtisadiyyat prinsipial olaraq kapitalizmi tənzim edən iqtisadiyyatdır. T.Veblen təliminin inkişaf etdirərək o, iqtisadi fəaliyyətin ilkin konstruktiv elementi olaraq bir şəxsdən digərinə hüquqi nəzarətin ötürmə növi kimi transaksiyon nəzəriyyəsini işləmişdir [100, 113].

Mübadilə konsepsiyasının inamlı tərəfdarı kimi, amerikan iqtisadçısı Uesli Mitçell «İqtisadi tsikllər», «İqtisadi tsiklərin ölçülməsi», «İqtisadi tsikllər zamanı nə baş verir» adlı əsərlərində müxtəlif iqtisadi tsikllər fazasında insanların davranışnı geniş təhlil etmişdir. Tsiklliyi o, başlıca olaraq istehsalda deyil, tədavül sferasında /*qiymətlərin və səhmlər kursunun artıb azalması*/ yarandığı mövqedən çıxış edirdi. Y.Şumpeter və digərləri onu iqtisadi nəzəriyyəyə deyil empirizmə bağlılıqda ittiham etmişlər. U.Mitçell institusionalizmin iqtisadiyyatda sosial nəzarətin gücləndirilməsi olan başlıca ideyasını bölüşürdü. O amerikan iqtisadiyyatına indikativ planlaşdırmanın tətbiq tələbini irəli sürmüşdü.



Fransız sosioloqu, institusional sosiologiya istiqamətinin banisi Fransua Perruya /1903-1987/ ənənəvi Qərb siyasi iqtisadının mücərrəd mikroanaliz məhdudluğunu aşan müasir kapitalist nəzəriyyəsini yaratmaq xidmətləri məxsusdur. Bu məqsədlə F.Perru dominant iqtisadiyyat nəzəriyyəsini yaradır, indikativ planlaşdırma prinsiplərini işləyir, elmi dövriyəyə «dominant vahid» terminini buraxır. «Dominant vahid» özü mənfəət artımı şəraiti yaradır, aktiv olaraq digər firmalara və istehlakçılara təsir göstərərək onları oyun qaydalarını qəbul etməyə vadar edir. «Dominant vahid» güclü «effekt artımı»nda özündə ehtiva olunaraq məxsusi olan «artım müsbəti» təqdim edir. Bu reallıq da öz növbəsində mövcud məkanda bütün fəaliyyət növlərinin bir-birini ümumən tamamlayan «aqlomerasiya effektini» yaradır. Firma, sahə, kompleks anlamını verən «artım müsbəti» güclü «effekt genişlənməsi»nə malik olaraq ölkə və regionda «inkişaf zonaları» formalaşdırır. F.Perru hesab edir ki, dövlətin vacib iqtisadi siyasət məsələlərindən biri müvafiq «artım müsbət»lərinin yaradılması və genişləndirilməsi ilə bağlı olmalıdır [60, 127].

İlkin institusionalizm iqtisad elmində öz təsirlərini XX əsrin 30-cu illərində sadələşdirdi. Təhlil sahəsində institusionalizmin neoklassik nəzəriyyəyə həyatqabiliyyətli alternativ yarada bilmədi. XX əsrin 60-80-ci illərində R.Kous /1910/, O.Ulyamson /1932/, D.Nort /1920/, M.Olson /1932-1998/ və başqaların elmi yaradıcılığında ***yeni institusionalist nəzəriyyə***

formalaşdı [109, 127]. Onlar transaksiyon xərclər nəzəriyyəsini, mülkiyyət hüququ, makroqenerasiya, formaların populyasiyası və digər müvafiq nəzəri işləmələr yaratdılar. Yeni institusionalizm Y.Şumpeterin firmaların təkamül davranışı ideyası bazasında inkişaf tapdı və sonrakı mərhələdə özünün sosial sistem nəzəriyyəsi prinsipləri əsasında tədqiqat sferasını genişləndirdi. Burada xüsusi yerdə F.Xayekin /1899-1992/ yaratdığı təkamül nəzəriyyəsini qərar tutur. Yeni istitusionalizm K.Eyrosun /1891-1972/ mədəniyyətin və təsərrüfat fəalliyətinin qarşılıqlı rabitəsi prinsipi, C.Qelbreytin /1908/ nəhəng korporasiyaların təsiri ilə bazar sisteminin modifikasiyası, Q.Myürdalın /1898-1987/ sosial sistemlərin təhlili və Y.Kornainin /1928/ tarazlıq prinsipinin tənqidinə yönəlmiş tədqiqatlarda daha mütəşəkkil vəhtədini tapdı [78-79, 93, 102].

İnstitusionalizm postsosialist transformasiyasının nəzəri mənbəyi kimi də xüsusi dəyərləndirilir. Keçid iqtisadiyyatında institusionalizm özəlləşdirmə, sahibkarlıq, maliyyə-sənaye qruplarının yaradılması və biznesin digər sahələrində təxirəsalınmaz tətbiqini tapır. Uzun tarixi yol qət edən institusionalizm müasir mərhələdə ənənəvi müxtəlifliyi ilə texnoloji baza əsasında yanaşmada daha çox texnoloji determinizmlə fərqlənən neoinstitusionalizm intişar tapır. Polşa «şok terapiyasının» müəllifi Leşek Balseroviç /1947/ postsosialist keçidini institusional dinamikanın xüsusi hadisəsi hesab edir. İqtisadi gerçəkliklərə institusional yanaşma böyük faktiki materialın tədqiqinə, o cümlədən, mülkiyyət dəyişiklikləri ilə yanaşı, yeni strukturların yaradılması, mikrosəviyyədə professional və sosial qrupların hərəkət və motivlərini təhlil etməyə imkan verir [127].



Yüz ildən çox keçdiyi tarixi yol ərzində institusionalizm neoklassik nəzəriyyə ilə konsensus əldə etməyi ilə yanaşı, həm də əlahiddə böyük metodoloji potensial yaratmışdır. Köhnə institusionalizmi vahid metodologiya və dəqiq anlayışlar sistemi yaratmamaqda günahlandırırlar. Lakin vurğulanmalıdır ki, məhz bu istiqamətin nümayəndələri tərəfindən müasir iqtisad elminin keçə bilmədiyi iki mühüm mövzu: insan hərəkətlərinin institutlarla şərtliliyi, institutların təhlildə mümkün əsaslılığı irəli sürülmüşdür.

Neoklassik məktəbin müasir nümayəndəsi, amerikan iqtisadçısı, Nobel laureatı Ronald Kouzun firmanın inkişaf konsepsiyasının başlıca prinsiplərini transaksiyon xərclərin rolu ideyası təşkil edir. R.Kouz qeyd edir ki, hər bir sövdə də danışıqlar aparılmalı, qarşılıqlı rabitə yaradılmalı, nəzarət təmin edilməli**,** narazılıqlar aradan qaldırılmalıdır. Bu isə o deməkdir ki, «bazar mexanizminin istifadə xərcləri» yaranacaqdır ki, onu da nəzərə almaq gərəklidir. Firma o zamana qədər mövcud olur ki, firma daxili administrativ xərclər bazar sövdəsinə nisbətdə azlıq təşkil edirlər. Bu uzlaşma rəqabətin köməyi ilə təqib olunur. Üçüncü tərəf effekti prinsipi alimin nəzəriyyəsinin adı ilə bağlı elmi sferaya «Kouz teoremi» kimi daxil olmuşdur. Burada mahiyyət ondan ibarətdir ki, informasiyon assimetriyanın yoxluğu şəraitində ətraf mühitin problemləri daha effektivli olaraq mülkiyyətçilər arasında özəl sazişlər əsasında həllini tapa bilər.[53, 71, 127].

XIX əsrin sonlarında iqtisad elminin Rusiya guşəsində də bir sıra müvafiq məktəblər formalaşmışdı. Marcinalistlər Kiyev universitetində, sosial tarixçilər Moskvada, marksistlər isə Peterburqda toplaşmışdır. Rus iqtisadi fikir tarixində və praktiki müstəvisində V.İ.Lenin /1870-1924/, Q.V.Plexanov /1856-1918/ P.B.Struver /1870-1944/, S.N.Bulqakov /1874-1944/, V.K.Dimitryev /1868-1913/, A.V.Çayanov /1888-1937/, Y.Y.Suliski /1880-1948/, N.D.Kondratyev /1892-1938/, L.V.Kontaroviç /1912-1985/, və başqaları olmuşdular [54, 127].



Rus iqtisadçısı və eyni zamanda şair və yazıçı kimi də məşhurlaşmış Aleksandır Vasilyeviç Çayanov ensiklopedik təfəkkürlü tanınmış alimlərdən olmuşdur. Kooperasiya ideyalarının davamlı təmsilçisi A.V.Çayanov həm də rus-sovet elitasının 1937-ci il qurbanlarındandır. Onun müvafiq istiqamətdə əsas elmi araşdırma və tədqiqatları «Kəndli təsərrüfatının

təşkili», «Kooperasiyanın qısa kursu», «Kənd təsərrüfatı kooperasiyasının başlıca formaları və ideyaları» əsərləri təşkil edir. A.Çayanovun kooperasiya nəzəriyyəsinin konseptual istiqamətlərini təşkilati planlılıq və müəssisənin istehsal xərclərinin ölçülərində təcəssüm olunan diferensial optimumları ehtiva edir. Adminstrativ kolxoz formasının əlehidarı kimi çıxış edən A.Çayanov daha sərfəli sovxoz modelinə üstünlük verirdi. Alimin fikrincə burada mexaniki texnikanı və aqrar elminin nailiyyətlərini daha asan və mükəmməl tətbiq etmək mümkün idi. Bu səbəblərdən də siyasi rəhbərlik A.Çayanovun plan və proqramlarına qəzəbli baxaraq onu represiyaya məruz qoymuşdur [92, 102].



Pus iqtisadçısı və filosofu beynəlxalq sosial-demokrat hərəkatının görkəmli nümayəndəsi Georgi Valentinoviç Plexanov marksist ideyaların tərənnümçüsü kimi XX əsr iqtisadi fikir tarixinin məhşur simalarından biridir. O, Rusiyada ilk marksist təşkilat «Əmək azadlığı» qrupunun yaradıcısı kimi müvafiq istiqamətdə tanınmış məhşur sosialist həmkarlarından da irəli getmişdir. «Sosializm və siyasi mübarizə», «Bizim ixtilaflarımız», «Tarixə monist baxışın inkişafını məsələsinə dair» və digər əsərlərində xalq liberal iqtisadi konsepsiyanı tənqid edərək müasiri V.Lenindən fərqli olan marksist dünyagörüşü nümayiş etdirmişdir [102, 127].

Dünya iqtisadiyyat elmi tarixində rus sovet iqtisadçısı Nikolay Dimitreviç Kondratyev müxtəlif ölkələrin 100-150 statistik məlumatlarını təhlil etmiş təsərrüfat konyukturasında böyük silsilələr «Tsikllər» nəzəriyyəsinin müəllifi kimi tanınmışdır. Özünün «Dünya təsərrüfatı onun indiki və müharibədən sonrakı konyukturası» və «İqtisadi konyukturanın böyük silsilələri» məruzəsində alim müxtəlif sənaye dövrləri haqqında ideyaları inkişaf etdirərək dalğalı silsilələr modelini işləyib hazırlamışdır. Bu silsilələri alim müvafiq zaman nisbətlərinə: fəsli /*bir ildən az*/, qısa /*3-3,5 il*/, orta silsilə /*7-11 il*/ və böyük silsilələrə /*48-55 il*/ bölmüşdür. İ.A.Şumpeter sonuncu böyük silsiləni «Kondratyev» silsiləsi adlandırmışdır. Bu nəzəriyyəni sonradan ingilis iqtisadçısı X.Klark və amerikan iqtisadçıları U.Mitçela və A.Byornes inkişaf etdirmişlər. Böyük silsilələr nəzəriyyəsi 50-60 illik dövrü əhatə edərək hər biri 25-30 illik aralıq dövr-fazaya bölünərək «kapital aclığı» və «kapital doyumu» mərhələləri olan enmə və yüksəlişlə xarakterizə olunurlar. İlk növbədə «kapital aclığı» dövrü iqtisadi templərin inkişafı, sərmayə qoyuluşları ilə müşahidə olunur. Sonradan investision tələb azaldıqca o öz yerini «kapital doyumu» dövrünə verir ki, bu da templərin aşağı düşməsi, işsizliyin artması, kapital idxalının azalması ilə nəticələnir. X.Klark bu iki fazanın qovşağında əmtəə qiymətlərinin titrəyişinin və tərəddüdünün baş verdiyini qeyd edir.

Riyazi metodların tətbiqi ilə N.D.Kondratyev fundamental qanunauyğunluqlar taparaq müəyyən etmişdir ki, bazar silsiləsinin inkişafında dalğavarilik xarakterikdir. Böyük silsilələr nəzəriyyəsinin nümayəndələri dünya iqtisadiyyatının XX əsrin ikinci yarısından indiyə qədər iki böyük silsilədə olduğunu qeyd edirlər. Başqa bir fikirdə müvafiq dövr ərzində mübahisəli olsa da dünya iqtisadiyyatının 4 uzun «Kondratyev dalğası»ndan keçdiyi fərz olunur. Bir çox tədqiqatçılar müasir zamanda dünya təsərrüfatında aparıcı mərkəzin beşinci kondratyev silsiləsinə qədəm qoyduğunu qeyd edirlər. Yeni dövrə keçid yetkin innovasiyaların, robotların, mühəndis dühasının nailiyyətlərinin və makroproseslərin geniş tətbiqi ilə izah edilir. «Uzun dalğalar» nəzəriyyəsi ilə yanaşı böyük dövr ərzində sənayenin və ümumi təsərrüfatın yerləşməsində «məhsul-istehsal silsiləsi» nəzəriyyəsi də elmdə geniş yer almışdır [106, 127].



İqtisadi fikrin konseptual kamilləşməsi mərhələsində iqtisadi biliklər çevrəsi tam sistem halına gələrək daha çox sosial monomental təzahürdə cərəyan etmişdir. İqtisadi fikrin tarixi inkişafının bu növbəti dönüş mərhələsində bir sıra iqtisadi və sosial baxışların ixtilaf problemləri çözülərək iqtisad elminin əsas nəzəri-metodoloji dayaqları qurulmuşdur. Bu gerçəklik isə daha geniş spektrial bilgilərin və modellərin axtarış və quruluşuna növbəti senarik material vermişdir.

## *1.6. Yeni metodoloji keyfiyyət vəneoliberal missiya*



Amerikan iqtisadçısı Eduard Çemberlenin /1899-1967/ 1933-cü ildə yazdığı «İnhisarçı rəqabət nəzəriyyəsi» əsəri ilə ənənəvi iqtisadi elmi düşüncə yeni bir çağırış gətirdi. O, bazar sisteminin tərkib hissəsi kimi inhisarın xüsusi növünün mövcudluğunu aşkarladı, bununla da o, monopolist rəqabət nəzəriyyəsinin əsasını qoydu. E.Çemberlen inhisahçı rəqabət modelində bazarın strukturu rəqabət ilə inhisarçı elementləri birliyi obrazında tərənnüm edərək neoklassik qiymətqoyma nəzəriyyəsini yeni prinsiplərlə dolğunlaşdırdı.



Elə həmən məqamlarda və konkret ildə ingilis iqtisadçısı Coahan Vayolet Robinson /1903-1983/ «Qeyri-təkmil rəqabətin iqtisadi nəzəriyyəsi» əsəri ilə dünyəvi şöhrət zirvəsinə yüksəldi. O, bu əsərində öz istehsalı üzrə inhisarçılıq şəraitində qiymətin formalaşması mexinizmini təyin etdirərək qeyri-təkmil rəqabət nəzəriyyəsinin əsasını qoydu. C.Robinsonun fikrincə iqtisadiyyatda qiymətlərin artımında dövlətin qaçılmaz müdaxiləsi labüddür. «Qiymət diskriminasiyası» anlayışını da C.Robinson elmi dövriyyə çıxarmışdır [53. 127].

İqtisadi nəzəriyyədə E.Çemberlen və C.Robinson «çevrilişlərindən» sonra daha radikal iqtisadi nəzəriyyələrin formalaşması start götürdü. XX ərin 30-cı illərində Con Meynard Keynizin /1883-1946/ simasında iqtisadi düşüncədə ***keynizçilik*** cərəyanı yarandı. C.Keyniz 1936-cı ildə yazdığı «Məşqulluq mənfəət və pulun ümumi nəzəriyyəsi» əsərində iqtisad elminə *yeni metodoloji keyfiyyət* verən daha radikal inqilabi dəyişiklik gətirdi [21, 60]. Əgər neoklassiklər iqtisadi prosesləri və hadisələri mikrosəviyyədə təhlil edirdilərsə, C.Keyniz tədqiqat sahəsinə makro yüksəliş gətirdi, pul və gəlirlər nəzəriyyəsindən o mübadilə və istehsal məcmusunda ehtiva olunan ictimai təkrar istehsal nəzəriyyəsinə keçid etdi. C.Keyniz klassik və neoklassik məktəbin üç ayrılmış: əmək, əmtəə və pul bazarında formalaşan təsnifatını kənar edərək onların vahid və qarşılıqlı rabitəli bazar əsasını yaratdı. O, vahid bazarı təcəssüm etdirmək üçün *ümumi tələb, ümumi təklif, qiymətlər səviyyəsi* və digər bu kimi aqreqat kateqoriyalar götürdü.



C.Keyniz nəzəriyyə xarakterli, makroiqtisadiyyatı tənzimləyən əsərlər yazdı. Onun tədqiqat nəticələri iqtisadi siyasətin mühüm prinsiplərinə çevrildi. C.Keyniz öncə pul siyasəti, faizlərin tənzimlənməsi haqqında tövsiyyələr vermişdir. Keyniz mühakimələrinin ümumi nəticəsinə görə tələb və təklifin kortəbii oyunu istehlak tələbinin dolğun ölçüsünü, daimi və tam məşğulluğu yaradan müvafiq investisiyaları təmin edə bilmir. Onun nəzəriyyəsinin ana xəttində mütəmmadi vurğulanan gerçəklik belədir ki, bazar mexanizmi özü böhran və işsizliyi avtomatik aradan qaldırmağa qabil deyildir. Buna görə də C.Keyniz praktiki nəticələrə vararaq israrla dövlətin iqtisadi tənzimlənməsini reallaşdıraraq, onu üç amilə: istehlaka, *kapitalın son effektivliyinə* və *faizlər normasına* istinadlıq nümayiş etdirməsi mövqeyindən çıxış edirdi. İstehlak tənzimlənməsində əmtəə və xidmətlərin dövlət alışı, faizlər kontekstində başlıca kredit təşkilatların pul kəmiyyətinin tənzimlənməsində onların aşağılıq həddi təmin etməyi, kapitalın son effektivliyinə rəğmən əlverişli investisiyon mühüt yaratmağı məsləhətli bilirdi. C.Keyniz tam məşğulluğa nail olmaq üçün investisiya artımını stimullaşdıran qiymətlərin sistematik yüksəlişi üçün mötədil inflyasiya tələbini qoyurdu [21, 100].

Belə bir həqiqət mövcuddur ki, keyniz nəzəriyyəsi 1929-30-cu illərdə baş vermiş «Böyük depresiyanın» təsirindən qaynaqlanmışdır. Bu məntiqlik həm də C.Keyniz yaradıcılığını zirvəyə yüksəltmiş, onu bir sıra ölkələrin iqtisadi həyatında tətbiqinə rəvac vermişdi. Belə ki, keynizçilik 1930-cu illərdən 1970-ci illərin ortalarına qədər bir çox kapitalist dövlətlərin siyasi iqtisadi

kursunda əksini tamışdır. C.Keynizin nəzəriyyəsini bir sıra tanınmış alimlər E.Xansen /!887-1976/, C.Xiks /1904-1989/, S.Xarris /1897-1967/, R.Xarrod /1890-1978/, E.Domar /1914/ və başqaları davam etdirmişlər.

Amerikan keynizçilərinin lideri məhşur ABŞ prezidenti Franklin Ruzveltin müşaviri Elvin Xansen «Monetar nəzəriyyə və fiskal siyasət», «İqtisadi tsikllər və milli gəlir» əsərləri və əməli fəaliyyəti ilə dövlət tənzimlənməsinin qətiyyətli tərəfdarı kimi tanınmışdır. Onun mərkəzi



tədqiqat hədəfini *tirtəmələrin tsiklliyi* və *antitsklərin tənzimlənməsi mexanizmləri* təşkil etmişdir. E.Xansen mahiyyətcə həmkarı C.Xikslə müştərək olaraq keyniziyan tskillər nəzəriyyəsinin yaradıcıları hesab olunurlar. E.Xansen multiplikator və akselerator alətindən istifadə edərək təsdiqləyirdi ki, artım mexanizmi onların hər ikisindən asılıdır. Bir tərəfdən investisiya artımı gəlir, məşğulluq və «effektiv tələb» artımını */multiplikator/*, digər tərəfdən gəlir, məşğulluq və «effektiv tələb» artımı investisiya yüksəlişini */akselerator/* yaradır. E.Xansen yeni təbii resursların mənimsənilməsinin yekunu, ETT-nin tükənməsinin mümkünlüyü və əhali artımının səngiməsi ölçüsündə kapitalizm staqnasiyasının ümumi meyl konsepsiyasını da irəli sürmüşdü [72, 127].

İngilis iqtisadçısı Con Riçard Xiks ümumi tarazlıq, dəyər, faiz, ticari tsikl nəzəriyyələrinin inkişafına böyük tövhələr vermişdir. «Dəyər və kapital» əsəri alimin yaradıcılığında böyük reputasiya yaratmışdır. Burada başlıca yeri makroiqtisadi nəzəriyyə məsələləri tutur. C.Xiks K.D.Errou ilə birlikdə tarazlığın ümumi nəzəriyyəsi və rifah nəzəriyyələrinə yenilik tövhələri verməkdə 1972-ci ildə Nobel mükafatı almışlar. C.Xiks əmtəə və pul bazarlarının qarşılıqlı təsirini təhlil edən aparat - «investisiya-əmanət-likvidlik üstünlüyü-pullar» modeli yaratmış, iqtisadi təhlildə «***IS-LM****-əyriləri*», «müvəqqəti tarazlıq» termini, uzunmüddətli faiz stavkasının formalaşması prosesinə müqabil «gözləmə nəzəriyyəsi»nin əsaslarını gətirmişdir. C.Xiks keyniziyan konsepsiyaya müvafiq olaraq tələb həcmini mütləq elastik olduğunu vurğulayır. P.Samuelson tərəfindən 1939-cu ildə yaradılmış multiplikator və akseleratorun qarşılıqlı təsiri modelini C.Xiks modifikasiya edərək müştərək işgüzar tsikl Samuelson-Xiks modelini yaratmışdır. Burada titrəyiş konyukturunun mexanizmi akselerasiya prinsipi və multiplikator konsepsiyası bazasında təcəssüm olunur [119].

Tsikllər sxemini konstatasiya edərək C.Xiks dörd fazanın mövcudluğunu irəli sürür:

I. Tarazlığın depresiya fazasında olan başlanğıc nöqtəsindən məhdudluq «tavanı»na kimi istehsalın genişlənməsi müddətində yüksəliş;
II. İstehsalın məhdud trayektoriya boyunca hərəkətində son bum;
III. İstehsalın enişi;
IV. İstehsalın davam edən enişi son nöqtəyə çatdıqda depresiya fazası başlanır və nəhayət iqtisadi güclərin tarazlığı təyinat tapır.

C.Xiks ilk dəfə olaraq 1937-ci ildə elmi dövriyəyə ***«neoklassik sintez»*** anlayışını gətirmişdir. O, özünün «Keyniz və klassiklərin təqdim edilən interpretasiyası» məqaləsində keyniziyan makronəzəriyyəni neoklassik mikronəzəriyyə ilə vahid nəzəri sistemdə birləşdirmək cəhdi ilə kompromis variantlı ideya irəli sürmüşdü. Beləliklə «neoklassik sintez» yaranmışdır.

«Neoklassik sintez» sistemində bir sıra iqtisadçılar nəsli yetişmişdir. Onlar arasında 1970-ci ildə Nobel laureatı olmuş ilk amerikan iqtisadçısı, ABŞ prezidenti F.Kennidinin iqtisadi məsələlər üzrə məhləhətçisi vəzifəsində çalışmış, Vilyam Nordxausla müştərək geniş populyarlıq əldə etmiş «Ekonomika» dərsliyinin müəllifi Pol Entoni Samuelson /1915/ məxsusi yer tutur. P.Samulson iqtisadi fikrin dolğunlaşması sahəsində yeni elmi tövhələri və iqtisadi aforizmləri ilə məhşurdur. Onun «iqtisadiyyat təzadlar və ziddiyyətlərlə zəngin bir fəlsəfi obyektdir, burada daimi təyin edilmiş həqiqətlər mövcud deyildir», «iqtisadiyyat incəsənətlə elm arasında orta mövqe tutur» fikrləri ilə iqtisad elmində mücadiləyə fundomental qoşulanların devizləri sırasındadır [53, 127].

II-ci Cahan müharibəsindən sonra keyniziyan nəzəriyyə tənqidlərə məruz qaldı. Tənqid predmeti kimi başlıca olaraq bir sıra iqtisadçılar onun iqtisadi dinamikaya, iqtisadi artım

problemlərinə xüsusi diqqət göstərilməməsini qeyd edirdilər. Bu məqamda C.Keynizin statistik təhlilini dinamik təhlillə doldurulması tələbi yaradıldı. Keyniziyan təlimi O.Domar və R.Xarrot iqtisadi dinamika bucağından inkişaf etdirərək ***neokeynizian*** nəzəriyyənin təməlçilərinə çevrildilər. C.Robinson, K.Kurrixar və başqaların simasında Keynizian nəzəriyyənin yeni islahatçı variantı olan ***solçu keynizçilik*** yarandı. Onun sosial mövqeyi inhisarlaşmamış sahibkarlığın və zəhmətkeş maraqlarının müdafiyəsinə əsaslanırdı. Solçu keynizçilər müasir kapitalizmin acılarının köklərini «effektiv tələbin» çatışmasızlığında görürdülər. Bu səbəblərdən də onların fikrincə işsizlik və böhranlar yaranır. Solçu Keynizçilər hərbi xərclərin sosial ehtiyac məsrəfləri ilə əvəzlənməsini tələb edirdilər. Onların mövqeyincə dövlət tənzimlənməsi cəmiyyəti böhranlar, inflyasiya, işsizlik və hakimiyyət monopolizmdən təcrid edə bilər. Bir sıra solçu Keynizçilər K.Marksın bəzi baxışlarını da bölüşür, maksizmlə Keynizçiliyi birləşdirməyə cəhd edirdilər [100, 127].

İngilis iqtisadçısı Roy Xarrod /1900-1978/ iqtisadi artım, pul nəzəriyyəsi və beynəlxalq ticarət üzrə görkəmli mütəxəssis hesab olunur. R.Xarrhd 1948-ci ildə nəşr etdiyi «İqtisadi dinamika nəzəriyyəsinə görə» əsərində uzunmüddətli perspektivdə inkişafın davamlı templərinin mümkün əsaslandırılması, iqtisadi artım konsepsiyasını işləmişdir. Bu konseptual ideyalar nisbi fərqlərlə amerikan iqtisadçısı Yevsey Domar /1914/ tərəfindən də işlənmiş və eyni zamanda elmi dövriyəyə çıxarılmışdır. Konkret olaraq Y.Domar və R.Xarrodun akselerasiya modeli müqabilində multiplikasiya prinsipinə əsaslanan eyniyyətli model yaranmışdır. Biri-birini tamamlayan bu modellər məntiqi olaraq «*Artımın Domar və Xarrod modeli*» adlanır.





**R.Xarrad** **Y.Domar**

R.Xarrod ekspansiya zamanı yaranan qarşılıqlı münasibətə baxışa, əsas üç element kontekstində yanaşır:

1. işçi qüvvəsi;
2. məhsul buraxılışı;
3. əldə olan kapitalın ölçüsü.

R.Xarrod modelinə görə yığımın lazımi normada təyinatı, qeyri-məhdud dövr üçün dayanaqlı iqtisadi artımı təmin edəcəkdir.

Y.Domar modeli isə biçimli artım norması təyin edilmiş nisbətlərdə gəlirlər artımı və investisiyalardan asılıdır prinsipini ehtiva edir. O, özünün «İqtisadi artım nəzəriyyəsinin oçerkləri» əsərində investisiyaların ikili funksiyalığı haqqında tezis irəli sürmüşdür. Y.Domarın nöqteyi nəzərincə tam məşğulluqda dayanaqlı artımın təminatında gəlirlər artımı istehsal güclərinin artımına müvafiq olmalıdır [72, 100. 113, 119].

İlkin kapitalizmin yaranışı vaxtından cəmiyyət maraqların ***iqtisadi liberalizm*** nəzəriyyəsini əks etdirirdi. Liberallar azad rəqabəti məxsusi güc hesab edir, onun iqtisadi inkişaf və tarazlığın avtomatik qurulmasında, maksimum tərəqqi və sərvətlərin yaranmasında imkanlığını vurğulayırdılar. Onlar dövlətə «gecə keşikçisi» rolunu ayırırdılar. Bu baxışlar XX əsr inhisarçı kapitalizmin yaranışına, bazar iqtisadiyyatının özünü tənzimləməyə qadir olmadığının aşkarlanmasına qədər hakim idi [93, 127].

XX-ci əsrin 30-cu illərində iqtisad elmində və təsərrüfat praktikasında yeni dövlətçilik - ***etatizm*** ideologiyası sürət götürdü. Fransızca *«eta»* sözündən yaranan, «etatizm» dövlət

mənasını ifadə etməklə siyasi-iqtisadi müstəvidə *«dövlətçilik»* anlamı kimi tətbiqini tapır. Termin olaraq etatizm ilk dəfə XIX əsrin sonunda İsveç konfederasiyasının 1881 və 1887-ci illərdə prezidenti Nyuma Dro /1844-1899/ tərəfindən elmi ədəbiyyata gətirilmişdir. İlk başlanğıcda dövlət mərkəziyyətçiliyi prinsipi mənasında, sonradan, imperializm dövründə burcua dövlətinin iqtisadi funksiyalarının güclənməsi ilə əlaqədar olaraq kapitalist ölkələrinin təsərrüfatının inkişafında dövlətin iqtisadi siyasətinin rolunu səciyyələndirən istilah kimi istifadə olunmuşdur [60].

Etatizm cərəyanının genişmiqyaslı təşəkkülünə əslində iqtisadi böhranlar, «qaynar» və «soyuq» müharibələr səbəb olmuşdu. Belə cərəyan mütərəqqiliyi ilə yanaşı öz növbəsində bazar funksionallığını məhdudlaşdırdı, rəqabətin və təsərrüfatlaşan subyektlərin təşəbbüskarlığını azaltdı. Etatizm ideologiyasına reaksiyada bulunan ilk cərəyan olaraq ***neoliberalizm*** dayandı. Neoliberallar adətincə iqtisadi azadlıq və rəqabət prinsiplərinə sadiqliyini nümayiş etdirdilər. Neoliberalizm yeni gənc iqtisadi tarixi məktəb, neoklassiklər və ənənəvi liberalizm ideya bazasının sintezində xalq təsərrüfatı haqqında məxsusi bir təlim yaratmağa cəhd etmişdir. Metodoloji aspektdə neoliberalizm ictimai inkişafın ləng və təkamüllü prosesini xarakterizə edən K.Blyuxer və V.Zombrant çalışmaları çevrəsində yeni tarixi məktəb prinsiplərinə yaxın idi.

Mahiyyətcə neoliberalizm iqtisad elmində və praktiki təsərrüfat fəaliyyətində iqtisadiyyatın özünün tənzimlənməsi prinsipi ilə məhdud dövlət tənzimlənməsinin vəhtədi əsaslı iqtisadi inkişaf modelidir. Neoklassiklərdən fərqli olaraq neoliberalizmdə marcinalizm mərkəzi yerdə dayanmır. O, yalnız nəzəri fənn və tədqiqat aləti kimi bu sferada iştirak edir. Neoliberalizm bir tərəfdən dövlətin iqtisadi həyata təsir strategiyası və taktikasını tərənnüm edir, digər tərəfdən isə bazar iqtisadiyyatının əsaslarını onun dağıdıcı təsirindən aktiv müdafiəyə səsləyirdi. Bu isə o, deməkdir ki, neoliberallar A.Smitdən başlanan iqtisadi azadlıq və rəqabət prinsiplərinə sədaqət göstərir və bazar iqtisadiyyatını C.Keynizdən gələn dövlət tənzimlənməsi köməkliyini də müdafiə edirdilər. Neoliberalizm öncə istehsal vasitələri üzərində şəxsi mülkiyyəti möhkəmləndirən fərdi azadlıq ideyalarını tərənnüm edir.

Neoliberal missiya F.Xayekin simasında *London*, V.Oyken və L.Erhardın baxışlarında *frayburq* və M.Fridmenin tədqiqatlarında *çikaqo* məktəblərinə təsnif olunmuşdur.

Müasir liberalları konseptual əsaslar deyil, metodoloji ümumiyyət birləşdirir. Onların bir qismi sağçı təmayüllü prizmadan mütləq azadlığın carçılarını, dövlət əlelhidarlarını, digərləri, solçular isə dövlətin iqtisadiyyatda iştirakçılıq zərurətini müdafiə edirlər.

Avstriya iqtisadçısı F.Xayek /1899-1992/ çoxsayı dəyərli əsərlər müəllifi olaraq elm tarixində neoliberal baxışları təmsil edən məhşur iqtisadçı və filosof kimi daxil olmuşdur. İnsan azadlığı prioritetini Xayek başlıca prinsip kimi tərənnüm edir. Onun fikrincə azadlıq fərdiyyəçiliyin inkişafına təkan verir. <u>Fərdiyyəçilik isə Avropa sivilizasiyasının əsasıdır və o özünü sevmək, eqoizm deyildir. O, hər bir insanın dünyada özünü reallaşdırmanın mütləq prioritetidir.</u> Latın mənşəli bölünməzlik mənasını ifadə edən fransız sözü *individualizm* - fərdiyyəçilik mahiyyətcə son hesabda cəmiyyətə qarşı qoyulmuş ayrıca fərd mövqeyini şərtləndirən dünyagörüşüdür. Onun nəzəri əsasını şəxsiyyətin muxtariyyətini və hüquqlarının tanınmasını təşkil edir.

F.Xayekin zənnicə sosial düzüm şüurlu hərəkətin məhsulu ola bilməz. O, bazar tərəfindən şərtlənmiş təbii hərəkətlərin nəticəsidir. Liberal demokratik cəmiyyət intihasızlığının baxışlarında hədəf seçən F.Xayek dövlətin pulların buraxılış inhisarının da əleyhinə idi. O, əsərlərində emissiya funksiyasını rəqabət aparan özəl banklara verilməsini təkid edirdi. Bu funksionallığa rəğmən F.Xayek göstərirdi ki, mərkəzi emissiya bankı daim siyasi təsir və nəzarət çevrəsindədir. Bu məqam isə davamlı bazar təminatını əldə etməkdə dövriyyədə olan pulların tənzimlənməsini məhdudlaşdırır [100, 127].

Neoliberalist missiyanın mühüm qollarından biri olaraq Alman məktəbi fərqlənir. Alman neoliberalist məktəbinin fərqləndirici əsaslarında Keynizçilikdə olduğundan daha çox dövlət tənzimlənməsi və bazar rəqabəti mexanizminin müdafiəsi dayanır. Bu məktəbin ən görkəmli nümayəndələri sırasında isə Valter Oyken /1891-1950/ və postfaşist almaniyasının praktik

memar-konstruktoru Lüdviq Erxard /1897-1977/ simaları durur.



Alman neoliberalizminin banisi Valter Oyken özünün 1940-cı ildə nəşr etdirdiyi «Milli iqtisadi nəzəriyyənin əsasları» əsərində alman sosioloqu, tarixçi, iqtisadçı və hüquqşünası M.Veberin «ideal tiplər» metodologiyasının bazası üzərində təsərrüfatın iki: «azad bazar» və «mərkəzi idarəçilik» tiplərinin mövcudluq vəziyyətini irəli sürmüşdü.

Birinci tip V.Oykenə görə azad qiymətlər mexanizmi ilə təqdim olunan bazar vasitəsi ilə idarə edilən daha mükəmməl iqtisadiyyatdır.

İkinci tip isə bazar mexanizmini təcrid edən, istisnalı olaraq mütləq iqtisadi komandalı formadadır. Bununla belə heç bir təsərrüfat tipi «xalis formada» mövcud ola bilməz. Onlar yalnız real iqtisadiyyatın təyinedici keyfiyyəti prinsipində çıxış edə bilərlər. İstənilən konkret təsərrüfat əmək bölgüsü, kredit, mənfəət, faiz, əmək haqqı kimi iqtisadi elementlər yığımından ibarətdir. Bununla belə, bu elementlər hər dəfə hakim mərkəzi və qeyri-mərkəzi prinsiplər və tarixi reallıqlar əsasında yeni səpkidə uzlaşırlar [127].



V.Oyken inhisarın cilovlanmasında baş problem olaraq dövlət tənzimlənməsinin sərt sisteminin aradan qaldırılmasını görürdü. Onun konsepsiyası azad və mütəşəkkil bazara hesablanmış yeni dünyagörüşün formalaşmasının güclü vasitəsinə çevrilmişdi. Bu konsepsiya Lüdviq Erhardın II Cahan müharibəsindən məğlub çıxmış Almaniyanı böhrandan çıxarmağın iqtisadi siyasətinin ana xəttinə çevrildi. Onun əməli fəaliyyəti və səyləri nəticəsində aparılan effektli iqtisadi siyasət artımın yüksək templərini və *sosial bazar təsərrüfatı* orientasiyasına keçidi təmin etdi. L.Erhardın təmayülündə bulunduğu sosial bazar təsərrüfatının fərqləndirici cəhətləri aşağıdakılardır:

I. *Dövlətin sosial-iqtisadi həyatda xüsusi rolu*. Təsərrüfat sisteminin əsasını azad bazar iqtisadiyyatı və rəqabətli bazar təşkil edir. Ancaq o, özbaşına təşəkkül tapmır. Onu dövlət yaradır. Dövlət davranış qaydalarını müəyyən edərək onu aktiv həyata keçirir və təsərrüfat-istehsal fəaliyyəti ilə məşğul olmur;

II. *Dövlətin başlıca funksiyasını spesifik sosial siyasətin seçimini və reallaşdırmasını təşkil edir*. Bu siyasət iqtisadi, sosial və siyasi qaydalığın təyinatına istiqamətlənmişdir. Sosial siyasət məşğulluğun təminatı, gəlirlər səviyyəsində regional müxtəlifliyin təcridi, tam sosial təminatlılıq, fəhlələrin müəssisələrin idarə olunmasında iştirak formasının təkmilləşdirilməsi ölçüsündə bərqərar olmalıdır;

III. *Sistem düzümünün başlıca amili kimi, rəqabətin hərtərəfli inkişafı*. Bunun üçün kiçik və orta biznesə kömək məqsədi ilə inhisarçılıqla zəruri mübarizə aparılmalıdır. Hər bir insana bacarığını və bağlı imkanlarını açmağa şərait yaradılmalıdır. Rəqabət iqtisadi tərəqqini, məhsuldarlıq artımını, təsərrüfat müstəqilliyini təmin edən alətə çevrilməlidir.

L.Erhardın qənaətinə görə «qatılmış deyil, həqiqi yarış ən yaxşı əlverişli seçim prinsipini özündə ehtiva edir». Beləliklə sosial bazar təsərrüfatının nəzəriyyəsi dəqiq qanunvericiliklə, əmək və sosial təminatlarla, ağıllı xarici iqtisadi siyasət aparmaqla şüurlu, konstrativ konkret mexanizmləri özündə birləşdirir [119, 127].

Çikaqo məktəbi çərçivəsində ABŞ-da neoliberalizmin ***monitarizm*** cərəyanı formalaşmışdır. Bu məktəbin mərkəzində pul kütləsi ilə istehsalın həcmi arasındakı rabitə problemi dayanır. Monitarizm əslində ötən əsrin 50-ci illərində yaranmışdır. Bu Keynizian metodlarda qüsurların aydınlaşan görüntüləri vaxtlarına təsadüf etmişdir.

Keynizianlıq məktəbinin təməl nöqtələrində məşğulluğun və iqtisadi artımın təminatı dayanırdısa, monitarizmdə ilkin vəzifə olaraq inflasiyanın tənzimlənməsi prosesi qarşıya qoyulur. Belə reallıq isə iqtisadçılar arasında «Smitə doğru geriyə» şüarını yaratmış və populyarlaşmışdır. Bu həm də müdaxilə və tənzimlənmənin aktiv metodlarından imtina edərək yeni doktrina, *«təklif iqtisadiyyatı»* - monitalizmin dəstəklənməsi demək idi. Elə buna görə də

elmdə «Keynizian inqilaba qarşı monitar əks inqilab» haqqında danışıqlar geniş təzahür etdi və nəticəvi olaraq iqtisadi siyasətdə *neokonservatizm* qalib çıxdı.

Monitalizmin banisi, amerikan iqtisadçısı, Çikaqo məktəbinin nümayəndəsi, Nobel laureatı, 1912-ci il təvəllüdlü Milton Fridmendir. M.Fridmen «Tetçerizm» və «Reqonomika»nın ideya ruhlandırıcısı hesab olunur. O həmdə ABŞ-da, İngiltərədə, İzraildə, Çilidə və bir sıra digər ölkələrdə dövlətin sosial-iqtisadi tənzimləmə sisteminin «demontacına» yönələn praktiki proqramların müəllifidir. Onun «Pulun kəmiyyətli nəzəriyyəsi» və «Kapitalizm və azadlıq» əsərləri monitar fikrin təbliq konsepsiyasını təşkil edir [55, 115, 127].

Monitarizmin başlıca postulatları aşağıdakılardır:

- ✦ Bazar iqtisadiyyatına, stabilliyə can atan, özünü tənzimləyən dayanaqlılığa xasdır;
- ✦ Pul faktorları prioritetlidirlər;
- ✦ Tənzimləmə cari vəziyyətə deyil, uzunmüddətli tapşırıqlara istinad etməlidir;
- ✦ İnsanların davranış motivlərinin öyrənilməsi zəruridir.

Fridmen konsepsiyası pul kəmiyyətinə istinad edir. Monitaristlərin fikrincə pullar başlıca funksiyada iqtisadi inkişafın mühüm stimulyator rolunda ifadə olunaraq onun maliyyə əsasını təşkil edir. Monitaristlər pul dövriyyəsini dolğun təhlil edərək təyinat vermişlər ki, inflasiyanın əsas səbəbi pul kütləsinin çoxluğundadır. Belə ki, dövriyyədə əmtəələr az, pul kütləsi isə çoxdur. İnflyasiyanı ikili formada fərqləndirən monitaristlər onu gözlənilən - *normal* və gözlənilməyən - *proqnozlaşdırılmayan* növlərə bölünürlər.

Ötən əsrin 70-ci illərinin sonunda 80-ci illərinin əvvəllərində ABŞ iqtisadçıları ***neokonservatizm*** nəzəriyyəsini formalaşdırdılar. Əsas struktur komponentləri təklif nəzəriyyəsi və monetarizm olaraq formalaşmış iqtisadi fikrin neoklassik sistem istiqamətlərindən biri kimi neokonservatizm dövlət funksionallığına xüsusi önəm verməklə problematik mərkəzə bazar iqtisadiyyatının optimallaşması üçün antiinfilyasion siyasəti və ETT-ni qoydu. İnsanın bazar iqtisadiyyatında rasional davranışı, azad rəqabət modeli neokonservatistlərin postulatlarına çevrildi. Praktiki çevrədə neokonservatorlar inkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsi sistemini dəyişməklə uğuru təstiqləyici nailiyyət əldə etdilər. 1980-ci illərdə bazarın yaradıcı potensialını mobilləşdirməklə praktiki olaraq bütün inkişaf etmiş dövlətlər neokonservatizm prinsiplərini rəhbər tutaraq yeni iqtisadi sistem formalaşdırdılar. Bu iqtisadi siyasət əsasında köhnə istehsal əsaslı olaraq yeni texnologiyalarla silahlandı. Məhşur ABŞ prezidenti R.Reyqan administrasiyası iqtisadi təbəllüdatlar konsepsiyası neokonservatizm prinsiplərindən qaynaqlanmışdır.

Neokonservatizmin inkişaf tapdığı ölkələrldə yanaşı həmən məqamlarda Şərqi Avropa ölkələrində neoliberal əsaslara söykənən intensiv, xüsusən də Polşada klassik formada «şok terapiyası», Çin və Macarıstanda təkamüllü evalyusiya «qradualizm», MDB məkanında, o cümlədən, Azərbaycanda da /1992-1993-cü illərdə/ «şok terapiyası» yönümdə bazara tez radikal keçid tendensiyası təzahür etmişdir [55, 113, 127].



İqtisad elmində XX əsr resananslari eyforik görünən nəzəriyyələrə də yol açdı. İngilis iqtisadçısı Lord Layonel Robbins /1898-1984/ «İqtisadi fikir tarixində iqtisadi inkişaf nəzəriyyəsi» əsirində ötən əsrin ortalarında tərəqqi edən «İqtisadi imperializm» konsepsiyasıenın irəliləyişlərini təmin etdi.

***«İqtisadi imperializm»*** təhlilin iqtisadi alətlərinin digər ictimai elmlərdə /*sosiologiya, politologiya, psixologiya, hüquq və sairdə*/ tətbiqi ilə onun digər metodlardan üstünlüyünün bəyan edilməsinə əsaslanır. «İqtisadi imperializm»in əsasında L.Robbinsın qoyduğu iqtisadi nəzəriyyənin müxtəlif alternativlər arasındakı seçim təhlilinin konsepsiüası dayanır. Müəyyən dəstək və inkişaf malik olaraq «İqtisadi imperializm» ayrı-ayrı iqtisadçı mütəfəkkrirlə tərəfindən o qədər də alqışlanmadı. Bu münasibət onun metodik imkanlığının digər elmələrdən hörəməsiz olaraq birmənalı üstünlüyünün nümayişindən irəli gəldi. Bütün bunlara baxmayaraq bu nəzəriyyə indidə açıq olaraq gündəmdə durur.

## *1.7. Ekonometrik modelləşmə və laureatlaşan tədqiqatlar*

İqtisad elminin inkişafı onun riyazi-statistik modellərlə, alqoritmik hesablamalarla zənginləşməsi prosesini gerçəkləşdirdi. Sivilizasion nailliyyətlər nəticəsində iqtisadi elmi-tədqiqatlar daha mobil ölçüdə, ekonometrik diapazonda pərvəriş tapdı. Vurğulandığı kimi, ingilis iqtisadçısı F.Edcuort, italyan iqtisadçısı V.Pareto və başqaları artıq XIX əsrin sonlarında siyasi iqtisadda riyazi məktəbin əsaslarını yaratdılar. ETT-nin sürətli axını isə XX əsr iqtisad elminin ən mühüm nailiyyətlərinin riyazi başlanğıclarda aradı. Təsadüfü deyildi ki, iqtisadiyyat üzrə Nobel mükafatı təsis olduqdan sonra onun laureatları sırasında riyazi modelləşmə və metodologiya xiridarları üstünlük təşkil etdilər.

XX əsrin əvvəllərində iqtisad elmi tətbiq xarakterliyini ekonometriya elminin təşəkkülündə qəti sınaqdan keçirdi. İqtisadi fənn olaraq *ekonometriya* tətbiqi iqtisadi obyekt və proseslərin qarşılıqlı rabitəsini riyazi-statistik və model kontekstində öyrənir. Hər dəyişən ekonometrik modelə təyin olunmuş statistik indikator xasdır və onun köməyi ilə bu və ya digər dəqiqlik ilə təsərrüfat mexanizminin hər hansı bir tərəfi ölçülür. Belə mexanizmlər üzərində qurulmuş modellər yüksək praktiki dəyərləndirilərək dövlətin iqtisadi siyasətinin qurulmasında, firmanın bazar strategiyasında istifadə olunur.

Ekonometrik axının görkəmli nümayəndələri iqtisadiyyat sahəsində ilk Nobel laureatları: norveçli Raqnar Friş /1895-1973/, Yan Tinberqen /1903-1994/ və amerikalı Vasiliy Leontyev /1906-1998/ hesab edilirlər. V.Leontyevin «xərclər-buraxılış» modeli, R.Friş və Y.Tinberqenin bu çevrədəki tədqiqat nəticələri, amerikan riyaziyyatçısı Çarlz Kobb ilə amerikan iqtisadçısı Pol Qovarl Duqlasın /1892-1976/ müvafiq «Kobb-Duqlasın istehsal funksiyası» və digər miqyaslı ekonometrik işləmələr orta və uzun müddətli həcmli makro modellərin fundamental əsasını təşkil edir.

Rus əsilli amerikan iqtisadçısı V.Leontyev ötən əsrin 30-50-ci illərində iqtisadiyyatın strukturunun sahələrarası rabitəliyinin və sahələrarası balansın tərtibi istiqamətində riyazi-iqtisadi analiz metodlu *«xərclər-buraxılış»* modelini işləyib hazırladı. O, 1953-cü ildə «Amerikan iqtisadiyyatının strukturunun tədqiqi» əsərində cəbri-xətti metodun köməyi ilə bütün əmtəə bazarlarının tarazlığına təyinat verən sahələrarası proporsiyalar müəyyən etdi. Sonradan isə alim bu təyinatını təsdiqləmək üçün ABŞ dövlətinin müvafiq statistik materialları əsasında onu empirik yoxlanışdan keçirdi. Bu model praktiki olaraq bir çox sahələrdə: iqtisadiyyatın proqramlaşdırılması və proqnozlaşdırılması istiqamətində geniş tətbiq olunmaqdadır. 1970-ci illərdə V.Leontyev «Xərclər-buraxılış» metodunun «Gələçək dünya iqtisadiyyatının» inkişaf senarisində tətbiqi üzrə müvafiq məruzənin hazırlanmasında BMT ekspertlər qrupuna rəhbərlik etmişdir [62, 74].

XX əsrin əvvəllərində isveçli iqtisadçılar Xekşer Eli Filip /1879-1952/ və Bertil Olin /1899-1979/ A.Smitin və D.Rikardonun mütləq və nisbi üstünlüklər nəzəriyyəsinin müddəalarına əsaslanan istehsal faktorlarının müqayisəsi nəzəriyyəsini işləmişlər. Qeyd etmək lazımdır ki, D.Rikardo 1817-ci ildə ölkənin beynəlxalq ixtisaslaşmasının zəruriliyini sübut edərək onu müqayisəli üstünlük qanunu adlandırmışdır. Ötənlərdən fərqli olaraq E.Xekşer və B.Olinin nəzəriyyəsinə görə burada bir deyil, iki: kapital və əmək amili iştirak edir. Onların fikrincə, hər bir ölkənin bu iki istehsal faktoru ilə müəyyən dərəcədə bağlılığı vardır və bu hal beynəlxalq ticarətdə iştirakçıdan asılı olaraq həmin ölkələrdə qiymət nisbətində müxtəliflik törədir. Kapitalın qiyməti faiz dərəcəsi, əməyin qiyməti isə əmək haqqında əks olunur. Burada alınan nəticə ondan ibarətdir ki, əməyin və kapitalın müqayisəli qiymətlərinin səviyyəsi kapital artıqlığı olan ölkələrdə əmək ehtiyatları və kapital defisiti olanlara nisbətdə azdır. Öz növbəsində bu hal eyni malın müqayisəli qiymətlərinin müxtəlifliyinə səbəb olur və hər bir ölkə nisbətən daha çox faktorlar tələb edən əmtəə istehsalını ixtisaslaşdırmağa çalışır. Beynəlxalq ticarətin təsiri altında dünya mal dövriyyəsində iştirak edən əmtəələrin müqayisəli qiymətləri eyniləşməyə meyl edirlər. Bu isə müxtəlif ölkələrdə həmin əmtəələrin yaradılmasında istifadə edilən istehsal

faktorlarının qiymət nisbətinin bərabərləşməsinə səbəb olur. Xekşer-Olin nəzəriyyəsinin postulatları əsasında bu qarşılıqlığı ABŞ iqtisadçısı P.Samuelson aşkarlamışdır. Xekşer-Olin-Samuelson adı altında təsdiqini almış teoremə görə, xarici ticarətə qoşulmadıqda əmək və kapitalın qiyməti hər ölkədə fərqlənəcək, izafi faktorun qiyməti nisbətən kiçik, defisitli faktorun qiyməti nisbətən yüksək olacaqdır. Kapitaltutumlu əmtəə ilə ölkənin ixtisaslaşması və beynəlxalq ticarətdə iştirakı ixracat sahəsində kapitalın axınına gətirir.

İstehsal faktorlarının müqayisəsi nəzəriyyəsi empirik yoxlanışlar, konkret statistik məlumatlara əsaslanaraq təftişə məruz qalmışdır. İqtisadçı alimlər ayrı-ayrı ölkələrdə iqtisadiyyatın kapital və əmək bolluğu sahələrinin, onların idxal və ixrac strukturunun korrelyasiyon asılılığının mövcudluğunu aydınlaşdırmağa səy etmişlər. Daha sanballı nəticəli təyinata isə qeyd olunduğu kimi V.Leontyev ölkəsinin II Cahan müharibəsindən sonrakı ilk illərinin xarici ticarət strukturunu təhlil etməklə nail olmuşdur. İstehsal faktorlarının müqayisəli nəzəriyyəsinin əksinə olaraq aparılmış tədqiqat ABŞ-da idxalın ixracata nisbətdə 30% çox olaraq kapital tutumluluğunu aşkarlamışdır. Bu nəticə «Leontyev paradoksu» kimi məhşurdur. Nəticə-paradoks bir neçə istiqamətdə şərh edilsə də, əsas fikir üstünlüyü ondan ibarətdir ki, ABŞ digər inkişaf etmiş ölkələrə nisbətdə elmtutumlu əmtəə istehsalında üstünlüklər qazanmış və bu səbəbdən də, ixracatda daha çox ixtisaslı əmək tələbli, idxalda isə xammal xarakterli və böyük kapitaltutumlu xərcli əmtəələr çox olmuşdur. «Leontyev paradoksu» Xekşer-Olin nəzəriyyəsinin praktiki məqsədlərdə düzxətli və sadələşmiş istifadəsindən artıq aludəçiliklə ifadədən çəkindirməyə xidmət edir [56. 85].

Milli iqtisadiyyatın məhsullarının xarici ticarətdə iştirakını dəqiqləşdirən iqtisadçılar ticarət olunan və ticarət olunmayan əmtəə və xidmətlər konsepsiyasını yaratmışlar. Konsepsiyaya görə beynəlxalq mübadilədə iştirak edən əmtəə və xidmətlər *ticari,* öz yerində beynəlxalq ticarətin obyekti olmayanlar isə *qeyri-ticari* adlanır. Praktikada əksər əmtəələr, o cümlədən neft və qaz resursları ticari əmtəə kateqoriyasına aiddir. Belə bölgü şərti xarakter daşıyır və elmi-texniki nailiyyətlər nəticəsində dəyişkənliyə məruz qala bilər. Polyak köklü ingilis iqtisadçısı T.M.Rıbçinski Xekşer-Olinin istehsal faktorlarının müqayisəsi nəzəriyyəsinin nəticələrini dəqiqləşdirərək isbat etmişdir ki, dünya qiymətlərinin dəyişməzliyində və iqtisadiyyatın iki sektorunun mövcudluğu şəraitində bir izafi faktordan istifadənin genişlənməsi digər əmtəənin istehsal və buraxılışının ixtisarına gətirir [119].

Xekşer-Olinin nəzəriyyəsinə əsaslanan iqtisadi fenomen praktik müstəvidə böyük neft industriyası yaratmış bir sıra ölkələrdə, daha qabaritli formada isə Niderlandda *«Holland sindromu»* adlanan təzahürdə empirik sınaqdan keçmişdir. Bu azar ayrı-ayrı zamanlarda müxtəlif səviyyədə Norveç, İngiltərə, Meksikada gerçəkdən yaşanmışdır.

Şimal dənizində Hollandiyanın 1960-70-ci illərində təbii qaz hasilatına başlayaraq, sonradan artıq qazın ixracatını reallaşdırmış, ölkə büdcəsini və iqtisadiyyatını bilmərəkdən təbii qazın inhisarına buraxmışdır. Təbii qaz hasilatı ilə bağlı yerdəyişməyə məruz qalmış gəlir artımı qeyri-ticari əmtəənin istehsal tələbi və artımının genişlənməsinə gətirmiş, ənənəvi ixracatyönümlü emal sənayesi sahələrində istehsalın məhdudlaşdırılmasını və ölkədə çatışmayan əmtəələrin idxalının yüksəlişinə səbəb olmuşdur. Dünya bazarına çıxış və ondan aslılıq şəraitində qiymət meylləri ölkəni çətin vəziyyətə düçar etmişdir. Böyük sosial problemlərlə müşayiət olunan vəziyyət əhalinin gəlirlərinin aşağı düşməsi ilə müşayət olunmuşdur. Böhranlı vəziyyətdən qurtulmada isə yenidən qeyri-ticari əmtəə istehsalının məhdudlaşmasına, resursların xammal ixracatı sahəsindən əks axını, əvvəlki vəziyyətə qayıdışa istiqamət götürülmüşdür [16, 119].

Amerikan alimləri Ç.Kobb və P.Duqlasın adları ilə bağlı yaratdıqları «Kobb-Duqlas funksiyası» da ekonometrik nailiyytlərin ən geniş tətbiq məhsullarındandır. ABŞ-ın XX əsrin 20-ci illərində emal sənayesinə hesablanan «Kobb-Duqlas funksiyası» istehsal həcminin istehsalın əsas faktorları əmək və kapitaldan asılılığını ifadə edir. Bu funksiyaya görə istehsal həcmi iki faktorla istifadə edilən istehsal vasitələri kapital və əməyin miqdarı ilə təyin olunur. «Kobb-Duqlas funksiyası» asanlıqla aqreqatlaşır, xalq təsərrüfatı proseslərinin modelləşmə vasitəsinə

çevrilə bilir. O, statistik modellərə giriş verərək cari resursların xərcləri ilə istehsal nəticəliyinin nisbətinin təyinatını imkanlı edir, müəssisənin fəaliyyətinin öyrənilməsində geniş istifadə tətbiqini tapır [72, 119].

İqtisad elminin nəzəri və empirik çərçivədə görkəmli iqtisadçıların adları ilə bağlı geniş tətbiqini tapan funksiyalar, modellər və digər metodik standartlarla zənginliyi geniş miqyaslıdır. Bu kəhkəşanda Leon Valrasın «Transaksion xərclər», Bem-Baverkin «Təklif olunmuş əmək və ehtiyat kapitalında faizin hesablanması», Con Keynizin «Makroiqtisadi tarazlıq», macar əsilli amerikan riyaziyyatçı-iqtisadçısı Con Neymanın /1903-1957/, «İqtisadi sistemin mümkün artım tempi», ingilis riyaziyyatçı-iqtisadçısı Roy Corc Duqlas Allenin /1906/ riyazi-statistik modelləri geniş praktik nəticəlidir. Bununla belə vurğulanmalıdır ki, ekonometrik tərəqqi planetin digər makroregionunda, müsəlman şərqində, Çində, Yaponiyada və Rusiyanın simasında məxsusluğu ilə inkişaf tapmışdır [60, 92, 127].

Ekonometrik nailiyyətlər iqtisad elmi sahəsində Nobel laureatlarının da tədqiqatlarında məxsusi yer tutur. Müvafiq cəbhənin müsəlləh döyüşçüləri sırasında məhşur iqtisadçı və riyaziyyatçılar: L.Kantoroviç /1912-1985/, T.Xavelmo /1911-1999/, L.Kleyn /1920/, D.Fadden /1937/, C.Hekman /1944/ daha üstün mövqedə dayanırlar. Bununla belə müasir iqtisad elmi öz inkişaf oriyentirlərini daha çox sivilizasion tələblər üzərində quraraq yeni stimullara möhkəmləndirilir, nəzəri aspektlərini gücləndirərək elmi nəticələrinin kommersiyalaşdırılmasını genişləndirir. Bu uğur vektorunda son yarım əsrdə Nobel komitəsinin xidmətləri də müstəsnalı olmuşdur.



Kapital zənginliyinin yetərli payını Bakı neftindən qaynaqlandıran İsveçli məhşur ixtiraçı və sərmayədar Alfred Berenhard Nobel /1833-1896/ 27 noyabr 1896-cı il tarixində sərəncam imzalayaraq varidatının əksər hissəsini adı ilə bağlı mükafat fondunun təsisinə yönəldilməsini vəsiyyət etmişdir. İlkin şərtlənən hesablamalarda A.Nobelin əmlakı 33 233 792 isveç kronu /*indiki kursla 120$-130$ milyon*/ təşkil etmiş, varislərə iki milyon civarında ödənişdən savayı bütün varidad fonda köçürülmüşdür. Vəsiyyət məramnaməsinə görə A.Nobelin kapitalı qiymətli kağızlara çevrilərək əldə edilən gəlirlər bəşəri elmi-əməli fəaliyyətin, ədəbi yaradıcılıq və sülh carçılığını ehtiva edən beş istiqamətdə: fizika, kimya, təbabət, ədəbiyyat və sülh sahəsində ən sanballı nailiyytlərə yönəldilir.

Mükafat A.Nobelin əksi olan qızıl medal, fəxri diplom və böyük həcmli məbləği ehtiva edən bank çekindən ibarətdir. Onun məbləği Nobel fondunun cari vəziyyətindən asılı olaraq 1-1,2$ milyon həcmindədir. 1901-ci ildən başlayaraq bu ali mükafatlandırma aksiyası bir əsrdən çoxdur ki, icra olunmaqdadır. Mükafatlandırma İsveç Kral Akademiyası tərəfindən paytaxt Stoqolmda Alfred Nobelin vəfat günündə - 10 dekabrda təqdim edilir.

Nobel mükafatı sülh mükafatında kollektivlərə şamil olunan istisnalardan savayı milliyyətindən, irqindən, cinsindən, dinindən asılı olmayaraq, yalnız fərdi qaydada təqdim olunur. Nobel mükafatı özünün təkrar mükafatlandırma tarixini də yaşamışdır. Mariya Skoldovskaya Küri /*1903 və 1911-ci illərdə*/ Laynusu Polinq /*1954 və 1962-ci illərdə*/ və Con Bardin /*1956 və1972-ci illərdə*/ bu mükafata iki dəfə layiq görülmüşlər.

1968-ci ildə İsveç Bankı Nobel pentoqramda təcəssüm olunmayan iqtisadiyyat istiqamətli yeni nominasiyalı mükafat növü təsis etdirmişdir. Bu təsisat dəqiq olaraq «İqtisad elmi üzrə Alfred Nobelin xatirəsinə İsveç Bankının mükafatı» adlanır. İqtisad elmi sahəsini əhatə edən Nobel mükafatı iqtisadçılar arasında qlobal dünyanın ən nüfuzlu təltif çələngi hesab edilir. Bu mükafatın digər səciyyəvi xüsusiyyəti onun yalnız elmi dairələrdə deyil, həm də geniş ictimaiyyatin nəzər və diqqətində alim reytinqinin son ali pilləsi olaraq dəyərləndirilməsi ilə bağlanılır [127].

Xüsüsi olaraq vurğulanmalıdır ki, görkəmli iqtisadçılara beynəlxalq mükafatlar verilməsi istəkləri ötən əsrin bütün tarixi dönəmlərində gündəlikdə durmuşdur. Bu sırada 1947-ci ildə Amerika iqtisadçılar assosiasiyasının məhsur statistik Frensis Amasa Uolkerin /1840-1897/

şərəfiinə təsis etdiyi medal - mükafat xüsüsi yer tutur. Bu mükafat hər beş ildən bir təqdim olduğu üçün bir qədər geniş effektivlik qazana bilməmişdir. Bütün tarixi ərzində mükafat cəmi 7 dəfə ünvana yetişmiş, son təltifat isə məhşur iqtisadçı Nobel laureatı Saymon Kuznesə nəsib olumuşdur. Ötən əsrin 80-ci illərində Nobel mükafatı ilə rəqabətə davam gətirməyən mükafat özünün mövcudluğuna son qoymuşdur.

Nobel mükafatı beynəlxalq səciyyə daşıyaraq bənzərsiz brend olmaqla yanaşı, həmçinin də siyasi bir alətdir. Hər il təqdim edilən bu mükafatın qazanılmasında bir sıra faktorlar və nüanslar nəzərədə tutulur. Mühüm olaraq canr pariteti, növbəlilik və siyasi koorektivlik kimi amillər bu çevrədə ön sırada dayanır. Konyuktur və mövcud situasiyon vəziyyət isə sıraya pozuntu gətirə bilər. Təbii ki, bütün bu faktorlar kommulyativ olaraq son final nəticədə özünü göstərir. Manipulyasiya cəhtləri, paritetlərin düzülüşü, aksentlərin vurğusu mükafatın devalvasiyasına aparır. Formalaşan gerçəklik isə öz növbəsində sferanı müəyyən dairələrin müxtəlif məsələ və hadisələr üzrə mövqe nümayişinin poliqonuna çevrilir. Üstün oyun şərtlərinin, alternativlərin yoxluğu şəraitindən qaydalar düzülüşü çoxlarına xoş gələ bilər. Lakin bütün bunlara baxmayaraq Nobel laureatı adını qazanmaq elm adamları üçün ən yüksək zirvə, fəth obyekti olaraq qalır. Eyniyyətlər yetərli olsa da iqtisadaçılar üçün bu dairə də fərqli sektorlar mövcuddur. Belə ki, Nobel laureatlığına yetişmə iqtisadçılara dünya iqtisadi siyasətinin formalizasiyasında iştirak imkanlğı yaradır, onların elmi-əməli fəaliyyətinin qlobal kontekstdə reallaşmasını təmin edir. */Əlavə 1-2-də 1969-2004-cü illərdə iqtisadiyyat sahəsində Nobel laureatlarının nomenklatur siyahısı və statistikasını əks etdirən məlumatlar verilmişdir/*

# II FƏSİL
# SİVİLİZASİYA PARADİQMALARI

## *2.1. Cəmiyyət həyatinin inkişaf silsiləsi elmi yanaşmalar və baxişlar çevrəsində*

Təsərrüfat həyatının tarixi inkişaf mərhələrinin tədqiqi tam bir nəzəri toplum formalaşdırmışdır. Tarixçiləri daim qət olunmuş təsərrüfat həyatının inkişaf mərhələlərinin keçid və təsnifat qanunauyğunluqları, görünən bölgülərin obyektivləşmiş sərhədləri maraqlandırmışdır. Nəzəri müstəvidə müvafiq bölgüləşmənin müxtəlif baxışlar bucağından strukturlaşması bu və ya digər siyasi, sosial-iqtisadi əsaslara söykənərək işlənmiş və konseptual olaraq ictimai fonda təqdim edilmişdir.

Müasir dünyada ayrı-ayrı ölkələrdə insanın təsərrüfat həyatının inkişaf mərhələlərinin əsasını səciyyələndirən tədqiqat modeli olaraq nəzəri və metodoloji ilkin şərtlər vəhdətini təşkil edən /*paradiqmal* bölgü daha geniş yayılmış nümunələrdəndir. Bu təsnifat ən dar çevrədə aşağıdakı iki əsas strukturda ehtiva olunur:

- Formasiya paradiqması;
- Sivilizasiya paradiqması.

***Sosial-iqtisadi formasiya nəzəriyyəsi*** XIX əsrin ortalarında gənc heygelçilər və digər idealistlərə zidd olaraq K.Marks və F.Engels tərəfindən işlənmişdir. Bununla bərabər K.Marks və F.Engels tarixin materialistcəsinə anlayış nəzəriyyəsini formalaşdıraraq müvafiq sistem əsasında ictimai münasibətlərin yeni konsepsiyasını yaratmışlar.

Formasiya paradiqmasının əsasında ictimai-iqtisadi formasiya kateqoriyası dayanır. O, özündə müvafiq struktur çərçivəsində material nemətlərin istehsal üsulunu, istehsal gücləri, istehsal vasitələri olan - bazisi və müvafiq siyasi oriyentasiya - üstqurumu birləşdirir. Mahiyyətcə bu yanaşma beş ictimai-iqtisadi formasiyada təcəssüm olunur:

- İbtidai icma;
- Quldarlıq;
- Feodalizm;
- Kapitalizm
- Kommunizm - /*iki fazada: Sosializm və Kommunizm*/.

Formasiya yanaşmasında hər bir cəmiyyət tipinin öz inkişafında bütün bu müvafiq pilələrdən keçid labüdlüyü şərtləndirilir. İctimai-iqtisadi formasiya kateqoriyalı paradiqma 70 ildən çox bir müddət ərzində SSRİ dövlətinin sistem prinsipləri çərçivəsində hakim mövqedə dayanmış, təkcə sovet cəmiyyəti nümunəsinin nəzəri və metodoloji aspektlərini deyil, həm də onun ideoloji keyfiyyətini tərənnüm etdirmişdir. Belə məqam isə öz növbəsində müvafiq ehkamlılıq oriyentasiyasını doğurtmuşdur. Bu və ya digər ziddiyyətli cəhətlərinə və görkəminə görə formasiya paradiqması daim tənqidlərə məruz qalmışdır. Belə tənqidlər daha çox şərqşünaslar tərəfindən ifadə olunmuşdur.

Tarixi təbəllüdatlar ərşin böyük bir hissəsini əhatə edən sosialist ölkələri düşərgəsinin dağılması və nəhəng Sovetlər İttifaqının çökməsi ilə əlaqədar təsərrüfat həyatına baxışlar çevrəsində formasiya paradiqmasını bir qədər arxa plana çəkmiş və hazırda bu məkanda tədqiqat foksunda müvafiq yanaşmanı əsaslı olaraq svilizasiyalı yanaşma paradiqması əvəz etmişdir. Vurğulanmalıdır ki, bu yanaşmaların köklü fərqinə baxmayaraq onların ümumi olan simaları da sezilәndir. Belə ki, formasiya yanaşmada sosializm və kapitalizm qarşıdurması hakim idisə, sivilizasiya paradiqmasında bu tarixi dilemma Qərb və Şərq spektrində «sivilizasiya» və «mədəniyyət» kateqoriyaları kontekstində dayanmaqdadır.

Sovetlər İttifaqının süqutu həm də iki fövqəl dövlət mövcudluğundan birqütblü «*pax americana*» sistem yaratması ilə də müşayiət olunmuşdur. Bu reallıq da yanaşmalar əvəzliyində izsiz ötüşməmişdir.

Sivilizasiya anlamı XVIII əsrdə varvarlıq anlayışına əks olaraq fransız mütəfəkkirləri yaratmışlar. Bu zamanlar düşüncə obyekti olaraq ***sivilizasiya*** ilk interpretasiyada qədim tarixin



vəhşilik, varvarlıq mərhələsindən sonrakı - III dövrü ifadə edirdi. Onun nəzəri təəssüratları amerikan arxeoloqu və etnoqrafı Levis Henri Morqanın /1818-1881/ 1877-ci ildə yazdığı «Q ədim cəmiyyət» kitabında daha dərin təzahürünü tapmışdır. Tədqiqata görə burada *vəhşilik* dövründən *varvarlıq* dövrünə transformasiya baş vermiş və o ovçuluq, yığıcılıq təsərrüfatının əkinçilik və maldarlıqla əvəzlənməsi və digər mənada təbiətdən hazır həyatı sərvətlərin götürülməsindən material sərvətlərin istehsalına keçidlə əlaqədar yaranmışdır. Sivilizasiya epoxasina keçid isə yazının yaranması, başqa sözlə əldə olunmuş nailiyyətlərin növbəti nəslə verilməsi məqamından başlanğıc alır. Müvafiq çevrədə təqdim olunan sivilizasiya mərhələsini digər əlamətdar cəhətlərlə: metallurgiyanın, riyaziyyat və astronomiyanın, uzaq ticari rabitənin yaranışı, əmək bölgüsü, sosial stratifikasiya və şəhərlərin təşəkkülü, dövlətçiliyin, idarəetmənin formalaşması ilə də bağlayırlar.

Sivilizasiya tam ilkin anlayışda olmasa da, onun mahiyyət və məzmununu əks etdirən nəzəri baxışlar İslam mütəfəkkirlərinin tədqiqatlarında da elmi forma almışdır.

Müasir zamanda sivilizasiya termini özünün ilkin mənasını praktiki olaraq itirmiş və o, hazırda yüksək tarixi və coğrafi mədəniyyətlər məcmusunu ifadə etməkdədir. Bu baxımdan yeni reallıqlardan çıxış edərək ismin tək halında «*sivilizasiya*» anlayışı ilə cəm hallı «*sivilizasiyalar*» məfhumlarını da fərqləndirmək gərəklidir.

Sivilizasiya cəmiyyəti primitivdən oturaq, şəhər və maarifli cəhətləri ilə fərqlənmişdir. Sonradan sivilizasiya haqqında müxtəlif sivilizasiyaların yaranışı ilə bağlı olaraq cəm halında danışmağa başlamışlar.

Sivilizasiya paradiqması - «*insan tarixi - sivilizasiyalar tarixidir*» mahiyyəti ilə bağlanır. Svilizasiya bəşəri mədəni qruplarının dil, tarix, din, ənənə, institutlar və insanların subyektiv özünün identifikasiyasının ümumi obyektiv elementlərində təyinat tapır.

Sivilizasiyalar əbədi deyildir. Bununla belə sivilizasiyalar dinamik, sürəkli yaşantıya malik olaraq yüksəliş və eniş, birləşmə və ayrılma yoxolma tendensiyalarını yaşayırlar. Onların təkamül bazaları müxtəlif nəzəriyyələrdə müxtəlif cür təyinatlandırılır. Bununla belə bu nəzəriyyənin hamısında sivilizasiyaların çətinliklər və konfliktlərdən keçdiyi, universal dövlətə doğru hərəkəti, enişə və dezinteqrasiyaya düçar olduğu göstərilir. Sivilizasiyalar siyasi deyil mədəni dəyərlidir, buna görə də onlar bir yox, bir neçə siyasi vahidi birləşdirir [45, 47, 105].

Liberal dəyərləri prioritet qəbul edən müasir iqtisadi-demokratik sistemlər məhz sivilizasiyalı struktur nümunəli cəmiyyət quruculuğuna ehtiram nümayiş etdirirlər. Müvafiq sivilizasiyalı yanaşma cəmiyyətin inkişafını üç tipik formada təsnif etmişdir:

- Ənənəvi;
- İndustrial;
- Postindustrial.

Əsas resursları torpaq və təbii xammal olan, primitiv əl texnologiyası üzərində qurulan ***ənənəvi*** cəmiyyət kapitalizmə qədər dövrü əhatə edərək neolit epoxasındakı aqrar inqilablar zamanında yetişmişdir. Əl əməyini sıxışdıran maşın mexanizmlərin əmələ gəlməsi, genişlənən və çoxçeşidli emal prosesi, texnoloji inqilablar kapital dünyasının hakim kəsildiyi ***industrial*** yeni tipli cəmiyyət ənənəvi ictimai quruluşu əvəz etmişdir. Çağdaş zamanda isə ötən əsrin sonlarında qloballaşma kontekstində formalaşan, mühüm mənəvi energetik resursu insan biliyi və informasiyada ehtivada bulunan yeni ***postindustrial*** cəmiyyət quruculuğu həyatımıza daxil olmuşdur. Xidmətin sferasının genişlənməsi, istehsalın müəyyən məhdudlaşması, deindustrializasiya, deurbanizasiya ilə müşayiət olunan yeni tipik cəmiyyət obrazlı deyimdə Teylorun əməyin təşkili formasını daha mülayim məşğulluğa çevirərək texniki dünyanı sosial dünya ilə əvəz etməyə istiqamət götürmüşdür [127].

Elmdə qədim icmaların, xüsusən də Şərqdəki ictimai və təsərrüfat quruluşunu öyrənmək üçün *iqtisadi-antropoloji yanaşmadan* istifadə olunur. ***İqtisadi-antropoloji*** yanaşmanın əsasını «Asiya istehsal üsulu» təşkil edir. İnsanların təsərrüfat həyatını formalizasiyasında yeni baxışlar

şəbəkəsində iqtisadi-antropoloji yanaşma ilə eyni strukturda iqtisadi faktorlara əsaslanan - *iqtisadi,* tarixi reallıqları əks etdirən - *tarixi* və dialektik təzahürü önə çəkən - *proqressiv* yanaşmalar tipologiyası da təsnifatlandırılır.

***İqtisadi yanaşma*** iqtisadi antropoloji yanaşmadan fərqlənir. Burada təhlil üçün müasir iqtisadi sistem götürülür. Ayrıca təyin olunmuş konsepsiya işlənir və bu konsepsiya əsasında retrospektiv baxış keçirilir. Bu zaman iqtisadi antropoloji yanaşmada təhlil üçün əsas olaraq qədim icmalar götürülür və onları müasir qeyri-bazar iqtisadiyyatı ilə paralel aparılır.

İqtisadi yanaşma «plan-sosialist iqtisadiyyatının» normativ konsepsiyası inkar edildikdən sonra sovet iqtisadi sisteminin mahiyyəti və onun perspektivlərinin cavabını axtarmağa səfərbər olunmuşdur. Bu yanaşmanın içərisində bir neçə: «inzibati komanda» sistemi, «bürokratik bazar», «defisit iqtisadiyyatı» konsepsiyaları hazırlanmaşıdır. İnzibati komanda iqtisadiyyatının heç bir sferası defisitdən azad deyildir. Bu hal xronikidir və müvafiq xroniklilik daim müşahidə edilir. Ümumi xroniki intensiv defisit yaranan sistem isə defisit iqtisadiyyatı kimi də adlandırılır.

***Tarixi yanaşma*** keçmiş təsərrüfat inkişafına rəğmən formalaşmış konseptual baxışlara əsaslanır. Müvafiq analitikada gerçək tarixi mərhələlər araşdırılır.

***Proqressiv yanaşmada*** isə prinsipial olaraq tarixi inkişafın birxətli tərəqqi ideyası dayanır.

İnsan cəmiyyətinin bütün yeni inkişaf mərhələləri texniki-texnoloji innovasiyaların yaranışı ilə xarakterikdir. Sənayecə inkişaf etmiş dövlətlərin təsərrüfatlarının tədqiqi zamanı alimlər innovasion proseslərin gedişində uyğun dövrülüyün mövcudluğunu aşkar etmişlər. Müvafiq tədqiqatlar nəticəsində müxtəlif hipotez-nəzəriyyələr meydana çıxmışdır.

## *2.2. İndustrial cəmiyyət və inkişafin növbəti senariləri*

İqtisadi fikir tarixi XX əsrdə riyazi kamillik və mötədillik dövrünü də keçərək daha fərqli nümunəli elmi-texnoloji tutumlu tədqiqatları, inkişaf senariləri və nəzəriyyələri hədəf seçdi. Texnoloji, sosial, ekoloji təsirlərin gücləndiyi çağdaş sivilizasion mərhələdə idarəetmə daha sistemli elmi məzmun aldı. Bu sferada ötən əsrin 40-cı illərində ***«İndustial cəmiyyət»*** nəzəriyyəsinin formalaşması iqtisad elminin sosiallaşması aspektində yeni mərhələ açdı.

«İndustial cəmiyyət» nəzəriyyəsinin banisi amerikan iqtisadçısı, sosioloqu və biznes filosofu Piter Draker /1909/ hesab olunur. XX əsrin industrial sosiologiyanın əsas təməlçilərindən biri kimi, P.Draker menecmentdə situasiyon yanaşmanın əsaslarını formalaşdırmış, düzgün idarəetmə qərarlarının verilməsində mövcud vəziyyətin təhlilinə arxalanmasını tövsiyyə etmişdir. XIX əsr kapitalist cəmiyyətini industrialdan qabaq adlandıran P.Draker industrial cəmiyyətin yaranışını XX əsrdə korporasiyanın yüksəlişi ilə bağlayır. O, situasiya nəzəriyyəsinə ümumiləşdirici konsepsiya kimi baxaraq bunu idarəetmə təfəkkürünün əsas prinsipinə çevrildiyini yəqin etmiş və göstərmişdir [124,127].



Ötən əsrin 50-ci illərində industrial cəmiyyət konsepsiyası amerikan sosioloqu və iqtisadçısı U.Rostou, fransız sosioloqu R.Aron və amerikan iqtisadçısı C.Qelbreytin tədqiqatlarında geniş intişar tapır.

Amerikaya köç etmiş Rusiya yəhudisi, ABŞ prezidentləri Con Kennedi və Lindon Consonun məsləhətçisi vəzifəsində çalışmış məhşur Uolt Uitiman Rostou /1916-2003/ özünün «Neokommunist manifesti» əsərində industrial cəmiyyətinin tarixi inkişaf mərhələlərinə yeni təyinat verir. Müəllif baxışları marksizm təliminə əsaslanan cəmiyyət tarixinin inkişaf konsepsiyasını dəyişdirərək onu aşağıdakı təsnifatda təqdim edir:



- ənənəvi cəmiyyət;
- yüksəliş və qalxınmaya hazırlıq;
- yüksəliş və qalxınma;
- yetkinliyə hərəkət;
- yüksək kütləvi istehlak erası [127].



İndustrial cəmiyyət tipləri yəhudi əsilli fransız iqtisadçısı və sosioloqu, kosmopolit Raymon Aronun /1905-1983/ «İndustrial cəmiyyət haqqında 18 mühazirə» və «İndustrial epoxanın üç oçerki» əsərlərində geniş təhlil süzgəcindən keçir. Alim bu tipikliyə aşağıdakı təsnifatlı struktur verir:

müəssisənin ailədən tam ayrılması;
müəssisədə əməyin texnoloji bölgüsü;
kapital yığımının zəruriliyi;
iqtisadi hesablama;
fəhlələrin konsentrasiyası.

R.Aron göstərir ki, yetkin industrial cəmiyyətdə istehsal vasitələri üzərində mülkiyyət təyinedici funksiya daşımır. O sosializmlə kapitalizmə industrial cəmiyyətin iki müxtəlif tipi spektrində yanaşır. Bu fikrini onunla əsaslandırır ki, II Cahan müharibəsindən sonra Avropa iqtisadiyyatı sosiallaşmışdır [41, 80].

Qətiyyətlə demək olar ki, müasir iqtisadiyyat yeni informasiya fazasına daxil olur. İndustrial iqtisadiyyat epoxasının statistikasında əks olunan prinsipləri yeni gerçəkliklərlə uzlaşmır. Maddi məhsulun buraxılışının yerini daha çox informasiyon məhsul tutur. Bu vəziyyət isə artıq statistiklərin diqqət çevrəsinə daxil olmuşdur. Yaranmış reallıqlar, aparılan diskussiyalar, debatlar BMT-nin statistika komissiyasını da virtual məhsul ölçüsünə yanaşmada yeni axtarışlara sövq edir.



Müasir kapitalizmi yeni industrial cəmiyyət adlandıran Con Kennet Qelbreyt /1908/ isə bu formatı nəhəng korporasiyalar sistemi kimi təsəvvür edir. O, idustrial cəmiyyətin sosialist və kapitalist təsərrüfatlarının yaxınlaşacağını və birləşəcəyini ehtiva edən *konvergensiya* ideyasını irəli sürür. Vurğulanmalıdır ki, Sovetlər İttifaqı zamanında *konvergensiya strategiyası* kapitalist və sosialist cəmiyyətlərinin barışığını tərənnüm edən sürəkli bir ideya olmuşdur. Həyatı gerçəkliklər belədir ki, nəhəng Sovetlər İttifaqı çökmüş, sosialist düşərgəsi dağılmış və sonda müvafiq ideya gerçək tətbiqni tapmamışdır. Bununla belə C.Qilbreytin industrial cəmiyyət nəzəriyyəsini zənginləşdirən tədqiqatları və hipotetik konvergensiya konsepsiyası elmi-təcrübi toplum kimi əhəmiyyətini daim saxlacaqdır [41].

«İndustrial cəmiyyət» nəzəriyyəsi ilə yanaşı «postindustrial cəmiyyət» konsepsiyası da geniş intişar tapmışdır. Onun nəzəri əsaslarını Z.Bcezinski, D.Bell və E.Toffler yaratmışlar. Kənd təsərrüfatı, sənaye və xidmətlər sferasından sonra dördüncü - iqtisadiyyatın informasiya sektorunun yaranışı *postindustrial cəmiyyətin* xarakterik cəhətlərindəndir. Əsasını kapital və əmək təşkil edən industrial cəmiyyət yerini informasiya və bilik çevrəsində ehtiva olunan postindustrial cəmiyyətə verir. İnformasiya texnologiyaların inqilabiləşən hərəkəti nəticəsində postindustrial cəmiyyətdə siniflərin sosial diferensiallaşmayan «informasiyon» birliklər əvəzləyir.

Amerikan futroloqu, iqtisadçı və sosioloqu Elvin Toffler /1928/ XX-ci əsrin 80-ci illərində işlədiyi «Üçüncü dalğa» əsərində köhnə cəmiyyət sistemlərinin interpretasiyası ilə yanaşı yaranacaq yeni sivilizasiyanın ümumi mənzərəsini canlandırmışdır. Əsərdə şərh edilən məqamlar XXI-ci əsin çağdaş mərhələsində də aktuallığını qorumuşdur. Bu yeni sivilizasiya o qədər dərin inqilabıdır ki, o köhnə ənənəvi quruluşun bütün komponentlərinə çağırış etmişdir. E.Tofflerin fikrincə köhnə düşüncə tərzi və ideoloji prinsiplər mövcud praktika ilə uyğunlaşa bilmir. Hadisələrin sürətli inkişafı gerçəkləşən geosiyasi münasibətlər, innovasiya nailiyyətləri, yeni təkmil ideyalar tələb edir. E.Toffler göstərir ki, *ilk dalğada* «kənd təsərrüfatı sivilizasiyası» formalaşmış, 300 il öncə isə sənaye inqilabi - *ikinci dalğa* bütün yer üzünü əhatə etmişdir. XX-ci əsrin ortalarında birinci dalğa səngiyərək yer üzündə industrial sivilizasiyanı formalaşdırmış, ikinci dalğa isə texnosferanı dəyişdirərək sosiosferanı inqilabiləşdirmişdir. Bu dalğada həmçinin ailənin forması dəyişmiş, insanların maşın əməyinə uyğun olan hazırlıqlığı formalaşmış, nəhəng korporasiyalar yaranmış, dövlətin, həmkarlar təşkilatların, siyasi partiyaların rolu güclənmişdir.

E.Tofflerin fikrincə hər bir sivilizasiyanın vahid plan üzrə qurulan bütün həyati sferaları

əhatə edən qaydalar sistemi və prinsipləri vardır. Bu prinsiplər aşağıdakı kimidir:



- standartlaşma;
- ixtisaslaşma;
- sinxronlaşma;
- təmərküzləşmə;
- maksimallaşma;
- mərkəzləşmə.

Haradakı ikinci dalğa bərqərardır, orada hakimiyyətin dağınıq və simasız texnokratiyası və ya parçalanmış cəmiyyəti vahid sistemə yığan inteqratorlar yaranmışdır. Onlar iş bölgüsü aparır, mükafatlandırır, planlar hazırlayır, reallaşmaya nəzarət edir və istehsalçılar arası rabitəni təmin edirdilər. Burada güclü inteqrir mühərrik kimi dövlət çıxış edirdi. İkinci dalğanın ümumi hakimliyi uzun sürəkli olmadı. Dünya yeni dalğanı - *üçüncünü,* özü ilə yeni institutlar, münasibətlər və dəyərlər yaradan sistemi çağırdı. E.Tofflerin fikrincə yeni dünyanın iqtisadi əsasları elektron sistemlərdə, kosmosun fəthində, okean dərinliklərində və bioindustriyada yüksəliş tapacaqdır. Üçüncü dalğada aqrar və sənaye inqilabları tamamlanacaq, XX-ci əsrin sonlarında insanlar obyektiv proses olaraq yeni quruluşa keçəcəklər. Bu nə kapitalizmdir, nə də sosializm. Burada əsas norma əməkdaşlıq və sazişdir və mülkiyyətin müxtəlif formaları qarşılıqlı rabitədədir. Bununla belə, üçüncü dalğanın sivilizasiyası hələ ki, tam formalaşmamışdır. E.Toffler qeyd edir ki, üçüncü dalğa industrial cəmiyyətin bir başa davamı deyil, keçmişi təmamilə inkar edən, radikal dönüşdür. Bu dalğada da 300 il öncə olduğu kimi, köklü dəyişikliklər bərqərar olacaqdır [132].

İqtisad elmi yeni epoxial mərhələnin, iqtisadi sinergetikanın astanasındadır. XX əsrin sonlarında elmdə formalaşan postqeyri-klassik paradiqma mürəkkəb sistemlərin özünütəşkil nəzəriyyəsi - ***sinergetikaya*** ictimai elmlərin artan marağı müşahidə olunmuşdur. Özünütəşkil prinsiplərinə əsaslanan mürəkkəb açıq sistemlərin təkamül nəzəriyyəsi sinergetikada ehtiva olunur. Qeyri-xətti elm sinergetika analizi deyil, sintezi ehtiva edir. İndi iqtisadiyyatda məhdud resursların optimal bölgüsünü ifadə edən klassik xətti yanaşma mühiti kimi baxışın özü də məhdudlaşmış, çağdaş zamanda neoklassik və institusional yanaşmanın imkanları tükənmişdir. Müasir dünyada iqtisadi siyasətlə praktikanı birləşdirən təhlil metodologiyasının dəyişkənliyini tələb edən yeni körpü kimi sinergetika çıxış etmədədir. Səbəb-nəticə əlaqəli xətti modeli qeyri-xətti yanaşmalar əvəzləyir. Burada iqtisadiyyat özünü təşkil prinsiplərinə əsaslanan təkamül sistemli vəziyyətdə dayanan mürəkkəb struktur sahələr və avtonom sektorlu şəbəkə kimi qəbul edilir. Obyektiv olan kortəbii primatı subyektiv primat, istehsal**,** real kapital primatını isə maliyyə kapitalı əvəzləyir [38, 116].

Sivilizasiyanın, iqtisadi tərəqqinin inkişaf senarilər spektri rəngarəng çeşidlidir. Bu çeşid zənginliyini isə ümumi vektorda sosiallaşma prioriteti işıqlandırır. Bütün səylər də məhz bu obyektiv reallıq üzərində qurulur. Açılan, növbəti səfərə çıxdığımız yol uzun və intəhasız, ağrılı və mürəkkəb dönüşlü, risklərə sığınan, elmi əsaslandırmalar, ekspermentlər tələb edən çətinliklidir. Lakin zamanla irəli getməyə məhkum insan varlığıda bu çətin yollarda ümüd amalını çıraq edərək ardıcıl və davamlı irəliləyişini gerçəkləşdirəcəkdir.

## *2.3. Sivilizasiyalar konsepsiyasina təbii resurslar kontekstində təhlili baxiş*



Bəşər cəmiyyətinin sivilizasilar tarixinin elmi interpretasiyasını təqdim edən Qərb alimləri ona elə çox zaman ümümi tarixi inkişaf xronolgiyası aspektində də quruluş vermişlər. Əlbəttdə burada inkişaf prosesi sosial-iqtisadi faktorlarla da uzlaşdırılmış, təhlil diapzonu digər alətl və mexanizmlərlə dolğunlaşdırılaraq genişləndirilmişdır. Avropa sentristlərinin araşdırmalarında sivilizasiyalvar tarixi daha çox maddi və mənəvi təzahürlərin

ümumi toplumu şəklində izah olunmaqdadır.

Kürreyi ərzin yaranışına müasir məqamada 4,6 milyard yaşlı tarix verilir. 4.3 milyar il öncə ayrılmış od parçası olan Yer planeti soyuyur və ilk yağışlar başlayır. Canlı orqanizmlərə 3,5 milyard, insanın yaranışına isə 2 milyon il zaman kəsiyi buraxılır. Bu tarix geoloji araşdırmalar nəticəsində milyon illərdən başlayaraq son bir neçə əsrdə on dəfələrlə yaş artımına məruz qalmışdır. Lakin kainatın, Yer planetinin yaranışı, həyat evalüsiyası tarixilərinin dəqiq yaşını qəti müəyyən etmək hələ ki son təsdiqdə mütləq həllini tapmamışdır.

Günümüzdə əldə olunan tədqiqat toplumu Yer planetin təkamülünün geoloji eralar bölgüsünü həyatdan əvvəlki dövr - *azoy*, həyatın ilk yaranış dövrü - *proterzoy*, qədim həyat dövrü - *paleazoy*, orta həyat dövrü - *mezazoy* və yeni həyat dövrü - *kaynazoy* olan təsnifatda təqdim edir. Bu təsnifat da özü-özlüyündə obyektiv olaraq struktur subtəsnifata məruz qalır. Geoloji elmi aləm, stratiqraflar, palentoloqlar, geofiziklər mütləq əksəriyyətlə fəaliyyətlərində bu konsepsiyanı əsas götürürlər.

Mövcud nəzəriyyə görə insan yaranışı kaynazoy erasında baş vermişdir. İnsan evalyusiyasının tədqiqində antropoloji qalıqlar və sintetik analiz şüur təkamülünü aşağıdakı mərhələdə formalaşması qənaətini təqdim edir:

1.avstrolopitek;
2.bacarıqlı insan;
3.düz yerişli insan;
4.neandertal;
5.ağıllı insan.

Bürada şüur yüksəkliyli ilk insanların sosial-iqtisadi həyatının inkişaf pilləri *paleolit, mezolit* və *neolit* olan üç ardıcıl mərhələdən keçən *daş,* sonrakı məqamda, *mis-daş - enolit, tunc* və *dəmir* dövrlərində keçildiyinə yəqinlik verilir. Maldarlığın, əkinçiliyin inkişafı və dövlətin yaranması ilə əslində bu konsepsiyarar sonuclanaraq estafeti digərlərinə ötürmüşdür. Bununla belə indi ki zamanda da daş, mis və dəmirlə bağı təsərrüfatçılıq prosesi səngiməmiş, inkişafını



daha təkmil istiqamətdə davam etdirməkdədir. Bü mütənasiblik aqrar sahədə, maldarlıq və əkinçiliyin inkişafında, o, cümlədən ibtidai insanların iqtisadi həyatlarında üstün olmuş digər predmetlər və ənənələr təsərrüfatında da dərinləşmiş və sürəkliliyin qoruyub saxlamışdır. Əgər ibtidai insanın təsərrüfat həyatında hakim olan resurslar palitrasına bir daha diqqət yetirsək aydınlığı ilə heç bir şeyin itmədiyini görərirk. Bu isə belə bir qənaətə açılış verir ki, daş, mis və dəmir dövrləri heç də bitməmişdir. Sadəcə bu həyati predmet və vasitələr digər resurs və yaranışlarla zənginləşmişdir[106, 127].

Məhşur ingilis təbiətşunası, təbii seçmə yolu ilə heyvan və bitki növlərinin təkamül təlimi və üzvü aləmin *darvinizm* adlanan inkişaf nəzəriyyəsinin banisi Çarlz Robert Darvin də /1809-1882/ insanın evalyusiyasını bu oxşarlıq kontekstində tədqiq etmişdir. Ç.Darvin elmi biologiyanın yaranışında, idalizmə, teologiya və metafizikaya qarşı mübarizdə bütöv bir təlim yaratmışdır. Lakin darvinizm tam istiqlalda bütün planetin tarixi təkamül prosesinin əzəl və son təlimi kimi statusunu qoruya bilməmişdir. Əksər böyük dinlərini aspektində isə insan təkamülündə şüursuzluq, heyvani davranış obrazı yoxdur. İslam dini insan yaranışını babamız peyqənbər Adəm və onun zövcəsi Həvvanın simasında başqa planetdən - cənnətdən gəldiyini tərənnüm edir. Bu gerçəklik darvinizmdən əvvəl və sonrakı tədqiqat sferasını da əhatə edir [6, 106].

Qərb elmi 30 min il öncə insanların mağaralardan çıxdığını və əmək və ov alətləri yaratdıqlarını səciyyələndirir. Bütün sonrakı proseslər isə qədim dünya tarixinə qədər əmək vasitələrini materal əsası üzərində təsnifatla pərvəriş tapır. Sonrakı, mərhlələr isə məlum sivilizasiyalara bağlanılır.

Tarixin bu baxışlar çərçivəsindən şərhində daha ümümi olan reallıqlar tam təyinatda əksini tapmamış, bəşər cəmiyyətinin təkamül prosesi sosial-iqtisadi faktorlar konteksində ardıcıl və

kompleksli təhlil olunmamışdır. Ümumiyyətlə götrüldükdə ayrı-ayrı epoxalara bölünmüş bəşəri sivilizasiyanı unifikasiya edən təmas nöqtələri bulunmamışdır.

Zənnimicə bəşərin iqtisadi və sosial həyatının incilər kimi bir həlqədə düzülüşündə ümumi material resursu kimi energetika çıxış edə bilər. Bu fikir təzahürü haradan gəlir? Onun elmi-analitik əsasları hansılardır? Təbii olan bu sualların cavabını da təbiətin özündən axtarış etmək kərəklidir. Belə ki, insan təkamülünü bütün mümkün obrazda götürdükdə onun çılpaq vəziyyətdə, heç bir material resursu olmadan vəhşi təbiətlə birbaşa təmasda qaldığını yəqin edərik. Yaşamaq uğrunda mübarizədə isə əzəl ehtiyac yemək, su və isti yataqdır. Bütün bunlar isə ibtidai insan üçün bədən balansının tepraturunu və təzyiqini saxlamaq ötrü lazımdır. Vegetarian təamlar, isti iqlim şəraiti, axar sular, yumuşaq otlar ilk baxışda bu ehtiyacların ilkin təminatçısı kimi çıxış edə bilər. Vəhşi təbiətdən meyvələr yığıb yemək, şirin su tapıb bir başa içmək və təbii uyğuya getmək üçün rahat yöndəmli guşə seçmək heç bir əlavə maddi resurs tələb etmir. Lakin bütün bunlar da əbədi və sonsuz ola bilməz. Balansı saxlamaq üçün gec-tez əlavə istilik enerjisi tələb olunacaq. Bu baxımdan bütün bəşəri təkamül nəzəriyyələrində insanın ilk kəşfləri sırasına odun aşkarlanmasını qatırlar. Anlamaq çətinliyi mövcuddur ki, odu ram etməklə ilk primitiv aləti yaratmaq arasında zaman nisbəti hansı ölçüdədir. Lakin belə bir xronoloci reallığı əxz etmək mümkündür ki, insanın müəqqəti yaşayışı üçün öncə üç təqdim: yemək və suyu ehtiva edən qida, hava və torpaq olmuşdur. Sürəklilik üçün dördüncü primat od verilmişdir. Dünyamızın quruluş toplumuna elə bu gün də nəzər yetirsək görərik ki, planetin əksər guşələrində təbii qida, su, hava və torpaqla yanaşı odun da olması ən çılpaq şüurlu insanlar üçün ilk yaşayış kifayətləridir. Deməli milyon illər öncə olduğu kimi insan yaşayışı üçün mütləq şərt olmayan dördüncü tərəf - enercetika ilk yaradılmış və tapılmış varlıq əlavəsi resursudur. Vurğulanmalıdır ki, təbiətdəki müxtəlif proseslərin və qarşılıqlı təsirlərinin ümumi ölçüsü kimi dəyərləndirilən enerji - yunanca *enerqiya, iş, fəaliyyət* deməkdir. Latınca *elektrum,* yunanca *elektrom - kəhraba* adlan elektrik isə bu gün də həyatımız ayrılmaz hissəsini təşkil edir. Elə bu reallıqdan da çıxış edərək bizim tədqiqatda bəşər sivilizasiyalarını ümumiləşdirən ümumi sosial-iqtisad qanaq kimi energetik amilə yer ayrılır. Bu təsinaftı epioxal düzümdə ardıcıl olaraq aşağıdakı kimi qəralaşdırmaq olar:

- ✧ oduncaq və biokütlədən geniş istifadə mərhələsi;
- ✧ ilk faydalı qazıntlar /*daş kömür torf və digər yanar bərk maddələr xammal*/ zamanı;
- ✧ neft dövrü;
- ✧ təbi qazla bağlı zaman;
- ✧ nüvə sintezi mərhələsi;

## *2.4. Qlobal neft sivilizasiyasi*

İqtisadiyyatın total-kütləvi pərvərişi, inkişaf dinamikası daim müvafiq iexniki-texnoloji yaranışların formalaşmasını şərtləndirmişdir. Son iki yüz ildə isə iqtisadi həyat karbohidrogen resursları fonunda texniki enerji imkanları əldə edərək sivilizasiyanın industrial obrazının miqyaslı formalaşmasını təmin etmişdir. Bu zamanlardan başlayaraq bəşər cəmiyyəti özünün daha mükəmməl olan texnoloji inkişaf çağlarına qədəm qoymuş, yeni sivilizasion mərhlə mexanikidən avtomatlaşmaya transfert olunmuşdur. Karbohidrogen resurslarının texnikanın qaynaq elementinə çevrildiyi məqamlardan yeni sivilizasion mərhələ - ***karbohidrogen erası*** təşəkkül taparaq ümümibəşər mədəniyyət toplumunu bütüt həlqələrdə əsaslı təbəllüdatlara uğratmış, sosial-səmərəli keyfiyyət dəyişiklərini stimullaşdırmışdır [17, 40].

Tarixi tsikllər prosesini tədqiqat müstəvisində məhdud çevrədə karbohidrogen erası ötəri tam kimi təqdim olunur. Bu təqdimat sadəcə olaraq karbohidrogen resursunun neft və qaz vəhdətli planetar gücündən irəli çıxır. Lakin bununla belə eyni kateqoriyalı hər iki resursun keyifiyyət çeşidində olduğu kimi zaman yayımında da fərqlər diapazonu mövcuddur. Belə ki, insanlar neftlə bağlı əksər potensial dəyərləri ram etsələr də, təbii qaz müsətəvisində bu

nailiyytlər tam açılış və intişar sonluğuna yetişə bilməmişdir. Yaşadığımız XXI əsr karbohidrogen rusursarı fərqində ikincinin yetərli dinamizmi ilə irəliləməkdədir. Təbii qazla bağlı digər mühüm konseptual cəhətlər də mövcuddur ki, bu barədə monoqrafik tədqiqatda ayrıca bir təhlil aparılmışdır. Butun bunlara rəğmən zənnimizcə ümumi karbohidrogen erası adlanan müvafiq sosial və texniki mədəniyyət dövrü konkret olaraq bir-birinə təmaslanmış və o qədər də asan ayrılmayan iki eranı ehtivasında birləşir:

- Neft sivilizasiyası.
- Metan epoxası.

Karbohidrogen erasının ilk mərhələsini təzahür etdirən ***neft sivilizasiyasının*** qaynaq elementi neftin çox min illər öncə insanlara bəlli aşkarlığı onu sənaye epoxasına qədər miqyaslı istehlakını şərtləndirməmiş və axtarışını xüsusi maraq obyektinə çevirməmişdir. Neftin mövcudluğu haqqında ilk məlumatlar İncil hekayətlərində, Herodotun, Plutraxın, digər alim və tarixçilərin əsərlərində əksini tapmış, praktiki olaraq isə qədim sivilizasiyanın əksər mühüm areallarında: mağaralarda, açıq çuxurlarda, palçıq vulkanlı ərazilərdə, mərcanlı zolaqlarda rast gəlindiyi tarixi yaddaşlara köçürülmüşdür. Antik dünyada «yunan atəşi» adlanan neftdən hərbi əməliyyatlarda, orta əsrlərdə isə məişətdə və şəhər təsərrüfatında, konkret olaraq Sisiliyada çıraqların yandırılmasında, XVIII əsrdə Genuyada küçələrin işıqlandırılmasında istifadə olunmuşdur. Şimali Amerikada Hindu qəbilələrinin dərin olmayan quyulardan çıxardıqları «Seneki», boylar ölkəsi Bohemiyada «Kvirinus» adlanan neftli yağlar isə tətbiqini müalicəvi vasitə kimi təbabətdə tapmışlar. Bütün bu olaylar neftin bəşəri sivilizasiyaya xidmət etməsindən xəbər versə də, onu eksklyuziv bir sivilizasiya yaranışlı təzahürünə gətirməmişdir.



Neftlə bağlı ədəbiyyatlarda və ensiklopediyalarda onun yaratdığı əlahiddə sivilizasiyanın məkan və zaman tarixinin öncüllüyünü qəti əks etdirən məlumatlara rast gəlinmir. Lakin bunlara baxmayaraq neft sivilizasiyasının qlobal çevrədə geniş təşəkkülünün XIX yüzilliklə bağlılığı yəqinlik doğuran bir gerçəklikdir. Məhz XIX əsrdə Avroatlantik məkanda cərəyan edən inqilabi texniki tərəqqi stimulları neft sivilizasiyasının industrial obrazda yaranışının attraktoruna çevrilmişdir.

Neftin özünün sənaye baxımından dəyərləndirilməsində isə mühüm amil olaraq 1826-cı ildə ABŞ-da duz axtarışı üçün qazılan quyunun neft verməsi hadisəsi göstərilir. Bu hadisəni də yalnızlıqda neft sivilizasiyasının başlanğıc məqamı kimi qiymətləndirmək olmaz. Duz əvəzinə neft kəşfi epopeyasından bir neçə onillik sonra neftin energetik gücünün dərk həlqəsinin genişlənməsi onun böyük axtarışını daha dərin mətləbli maraqlara cəlb etmişdir. 1859-cu ildə Qərbi Penselvaniya düzündə amerikan polkovniki Dreyk artezan üsulu ilə qazma apararaq miqyaslı neft aşkarlamış və nəticəvi olaraq bu olay neft adlanan həyəcanda yeni sivilizasion mərhələnin başlanğıc nöqtəsinə çevrilmişdir. Rus neft tarixinin tədqiqat səhifələrində bu hadisəyə paralel qeyd edilir ki, həmən müvafiq ərəfədə Kuban çayı hövzəsində başqa bir polkovnik - Novaselyevin mexaniki qazdığı quyunun məhsul verməsi ölkədə neft erasının yaranışına gətirmişdir. Bununla belə, neft sivilizasiyasının industrial kaskadda hasilat-emal-istehlak kontekstində təşəkkülünə XIX əsrdə fransız fiziki və mühəndisi N.Karnonun /1826/, onun həmvətəni E.Lenuarın /1860/, alman mühəndisləri N.Ottonun /1876/ və R.Dizelin /1897/ daxiliyanma mühərrikinin kəşfi və təkmilləşməsi, həmçinin məhsul assortimentinə genişlik gətirən krekinq prosesindəki nailiyyətlər, enerjitutumlu sənaye komplekslərin yaranışı kimi təzahürlər rəvac vermişdir.

Təkamül erasını sənaye inqilabları əvəz edən iki əsrdən də az tarixi mərhələyə qədər neft başlıca olaraq primitiv rakusda *tikinti materialı, işıq, istilik enerjisi mənbəyi*, *hərbi* və *əzcazçılıq məhsulu* kimi keyfiyyətlərdə insanların xidmətində durmuşdur. Ortodoksal olaraq neftdən xalqların təsərrüfat həyatında geniş və miqyaslı konturda istifadə məkanı və zamanında isə Azərbaycan ərazisi üstün fərqlənmişdir.

Azərbaycanın neft sivilizasiyasının beşiyi olması faktları beynəlxalq elmi ictimaiyyətə

məlum bir aydınlıqdır. Əlavə tədqiqat aparmadan da neft tarixinin Azərbaycan reallıqları müvafiq iolan qənaətə gəlməyə əsas verir. Belə ki, eramızdan əvvəl VII-VI əsrlərdə Azərbaycanda, xüsusən Abşeron torpağında neftdən istifadənin mövcudluğu haqda dəyərli məlumatlar vardır. Tarixi faktlar bəyan edir ki, diyarın «Odlar yurdu» adlanışı müvafiq arealda yerin təkindən özbaşına çıxan təbii yanar qazların və mövcud neftli ərazi genişliyindən qaynaqlanır. Burada hasilatın erkən orta əsrlərdə artıq sürəkli və miqyaslı xarakter alındığı müsəlman Şərqinin alimləri ilə yanaşı Qərb səyyahları, alim və mütəfəkkirləri tədqiqatlarında təstiqləmişlər. Çoxsaylı əlyazmalarda XV əsrdə Bakıda 500-dən çox quyunun mövcudluğunu, hasil edilən neftin karvanlardan savayı hətta gəmilərlə daşınmasını diqqətə gətirən məlumatlar vardır. Bu isə o demək idi ki, artıq həmən zamanlarda neft qazıntısı və istimarı sənətkarlıq səviyyəsinə yüksəlmiş, onun istehlakı isə intensiv xarakter almışdı. Bu zamanlarda neft tikintidə və bu çevrədən də fiskal mexanizm kimi xəzinədarlıqda tətbiqini tapmışdır. XIV əsrdə inşa edilən Bakı Cümə məscidinin minarəsi divarlarında əks olunan yazılar bu mövcudluğa aydınlığı ilə körüntü verir. Bir qədər sonra XVII-XVIII əsrlər qovşağında Bakıda ilk olaraq neftçi peşəsinin formalaşdığı və bununla belə neftin xalqın təsərrüfat həyatının ayrılmaz hissəsinə çevrildiyi yəqinləşir. Tarixi mənbələrdə 1729-cu ildə Abşeronda neft quyularının xəritəsinin tərtib olunduğu diqqətə gətirilir və Bakı neftinin geniş çeşiddə çar I Pyotr zamanında Peterburq apteklərində satıldığı bildirilir. Həmən ildə Bakını ziyarət etmiş rusiyalı həkim-səyyah İ.Lerxe isə yazılarında Bakıda müxtəlif çeşiddə neft məhsullarından istifadə olunması təəssüratlarını yazmışdır. Bu qeydlər isə öz növbəsində Azərbaycanda hələ iki yüz il öncə neftin emal prosesinin mövcudluğunu bəyan edir. Bakının neft mədənlərinin 1806-cı ildən Rusiyanın inhisarına keçməsi ilə isə neft hasilatı uçot-hesabat göstəricisinə çevrilməsi prosesi dərinləşir. 1848-ci ildə isə tarixdə ilk dəfə olaraq ABŞ-dan 11 il öncə Bakıda mexaniki üsulla neft quyusu qazılmışdır .

XIX yüzilliyin sonlarında artıq dünyanın müxtəlif guşələrində neft hasilatı təşəkkül tapmışdı. Bir sıra nüfuzlu statistik mənbələrdə sənayeləşən neft hasilatının XIX əsr palitrasında yataqların Bakıda 1821, Rumıniyada 1857, ABŞ-da 1859, Meksikada 1887, İndoneziyada 1893-cü illərdə aşkarlanma və istismar düzümü göstərilir. Lakin o zamanlar kürreyi ərzin iki qütbündə - ABŞ-da Pensilvaniyada, Rusiyanın Bakı əyalətində hasilat yüksək rentabelli silsilədə, fontanla müşayiət olunaraq neft sənayesinin təmərküzləşməsi və inhisarlaşması prosesinə rəvac vermiş, ilk sahəvi sindikatları, biznes qaydalarını, qeyri-kommersiya yönümlü neft cəmiyyətlərini ərsəyə gətirmişdi. Okeanın o tayında, ABŞ-da fontan vuran quyular neft erasının tam sürətlə irəliləyişinə təkan verməkdə və eynən ahəngdə inkişaflı proseslər Bakıda da kordinal dəyişmələri qaynaqlandırmada idi. Norveçli iş adamları Nobellərin Azərbaycan neftinin istismarı ilə əlaqədar Bakıda 1879-cu ildə təşkil etdikləri «Nobel qardaşları» kompaniyası isə komplekslilik baxımından xeyli fərqli statusda çıxış etmiş və dünya neft tarixinə ilk şaquli inteqrasiyalı şirkət kimi daxil olmuşdur. Azərbaycan neft sənayesində sahibkar funksionallığına əsaslanan müvafiq neft təsərrüfatı yarım əsrə qədər davam etmiş və Azərbaycan Xalq Cümhuriyyəti mərhələsində də, özəl biznes formatında qalmışdır.

XIX əsrin sonunda Azərbaycanın neft potensialını daha da genişləndi. Bakıdan Rusiyadakı əsas istehlakçılar - Moskva, Sankt-Peterburqla yanaşı Hindistan, Türkiyə, Misir, Çin, Yaponiya və hətta daha uzaqlara - Avstraliyaya da ixrac məhsulları göndərilməyə başlandı. Dünya neft hasilatında 1898-1901-ci illərdə Bakı lider mövqedə dayandı və XX əsrin əvvəlində planetdə hasil edilən 20 milyon ton neftin yarıdan çoxu onun payına düşdü. Bakı Avropanın neft industriyasının mərkəzi sivilizasiya məkanına çevrildi. 1904-cü ildə İngiltərənin ağ neft tələbatının 71,1 %-ni Bakı reallaşdırdı. 1881-ci ildə Bakıda 9,2 milyon, 1900-cu ildə isə 87,9 milyon manatlıq məhsul istehsal olunmuşdu ki, bu da bütün Qafqaz sənaye məhsulu dəyərinin $^{1}/_{3}$-ni təşkil edirdi. 1912-ci ildə isə Zaqafqaziya fabrik-sənaye məhsulun 68,5%-i, 1915-ci ildə isə 88,6%-i təkcə Bakının payına düşmüşdür. Lakin bütün bu keyfiyyətlər 1900-1903-cü illər dünya iqtisadi böhranı ilə dəyişikliklərə uğradı. Böhranın ilk çağlarında Azərbaycan nefti bir neçə il əvvəl əldə etdiyi dünya neft hasilat birinciliyi yenidən ABŞ-a verdi. Bu proses əksər

parametrlərdə düz 75 il ABŞ-ın dünya neft industriyasında on cəbhədə duruşu mərhələsi ilə müşayiət olundu [11, 17, 33, 69, 128].

Neftin sənaye epoxasının ilk yarıməsrlik mərhələsinin hasilat tarixinə nəzər yetirdikdə görərik ki, böyük tərəqqi ilə müşayiət olunan bu illər ərzində 122 dəfədən çox artım qeydə alınmışdır. Neft hasilatının qərarlaşan göstəricilərinə istinadən XIX əsrdə dünyada 400 milyon ton neftin hasil edilmişdir ki, bunun da 140-150 milyon tonu Azərbaycanın payına düşmüşdür. Sovet hakimiyyəti illərində yenidən qurularaq möhtəşəm dövlətin mühüm energetik bazasına çevrilən Azərbaycanda neft hasilatı yeni tutumlu dinamik inkişaf trayektoriyasına çıxış etmişdir. Bu dinamizm 1940-cı ildə dünya neft hasilatının mərkəzi Karib hövzəsindən Fars körfəzinə keçəndən sonra, II Cahan savaşı bitənə qədər də davamlı olmuşdur. Ümumiyyətlə Azərbaycan XX yüzilliyin ilk 30 ilində dünyada neft hasilatının adambaşı və ərazi vahidi üzrə təsnifat göstəricilərində tam mənada lider bir məkan olmuşdur. Xəzərin yeni karbohidrogen yataqlarının ötən əsirin 90-cı illərindən genişlənən istismarının başlanması ilə 150 il öncə neft industriyası yaratmış Azərbaycan qlobal enerji səhnəsində təkrarən əsas rollardan birininin ifaçısına çevrilmişdir [10-11]. /*Əlavə 3-də XX yüzilliyin ilk 30 ilində dünyada neft hasilatının adambaşına düşəşən və ərazi vahidi üzrə təsnifat göstəricilərini əks etdirən cədvəl verilmişdir*/

Karbohidrogen erasının təşəkkülündən bəri neft-qaz resursları potensialı dünya siyasətində başlıca strateci hərbi və diplomatik qüvvə, siyasi-iqtisadi strategiyanın formalaşması mənbəyi, milli gücün mühüm faktoru hesab edilməkdədir. Böyük dövlətlər, xüsüsən ən nəhəng neft idxalçısı ABŞ qlobal neft resurslarının bölgüsü üzərində nəzarət rəqabəti formalaşdırmış, iqtisadi təhlükəsizliyinin qorunmasında neft faktorunu mühüm prioritet kimi önə çıxartməşdər. Məhşur Belçika curnalisti Mişel Kollon neft arqumentinə rəğmən yazır: «Dünyanın harsında neft və qaz varsa ABŞ hesab edir ki, bu onun mülkiyyətidir. Buna görədə o həmən yerlərdə hərbi bazalarını açmağa tələsir və öz maraqları çərçivəsində müharibələri təhrik edir və qızışdırır» [127]. Müasir zamanda bu realıq ABŞ dollarının möhkəmləndirilməsi ilə bağlı İrak müharibəsində özünü bariz təzahür etdirir.

Neft və qaz müasir zamanda zəruri istehsal, iqtisadi-maliyyə resursu olmaqla sənaye potensialını əsas energetik komponentdir. Sosial gücü, şəhəryaratma və aqlomerasiya effekti mühüm olan bu resursa istinadən bəşər cəmiyyəti ayrılıqda və həmçinin iqtisadiyyatın bütün sahələrində özünü lazımi enerji ilə təmin etmiş olur. Karbohidrogen resursları müasir zamanda bəşəriyyətin təsərrüfat həyatının substansiyasında dayanır. Bu gün dünya iqtisadiyyatının varlığını neft və qaz ehtiyatları olmadan təsəvvür etmək çətindir. Kənd təsərrüfatı, sənaye, nəqliyyat müvafiq resurslaraın stimulları əsasında dövr edir, planetin elektrik stansiyalarının yarıdan çoxu neft və qazla işləyir. Çağdaş sivilizasion reallıq belədir ki, karbohidrogen təyinatlı resursların iqtisadi dövriyyədən çıxışı və ümumilikdə yoxluğu qlobal energetik aclığa müşaiyət olunma təhlükəsi yaradar, nəqliyyat dayanar, təyyarələr uçmaz, meqopolislər zülmət və soyuğa qərq olar, neft tərkibli yolların asfaltı belə dağılar. Bu isə bir daha obrazlı deylimdə o, deməkdir ki, neft-qaz resursları onun yaratdığı kompleks çevrəsində iqtisadiyyatın investisiya istiliyini təmin edən ən güclü və rahat sektor funksiyasi rolunu yerinə yetirir. Məhşur amerikan neft tədqiqatçısı Danel Erqin neftin bu möhtəşəm qüdrətnə rəğmən söyləmişdir. «Neft bənzərliyində dağ-mədən sənayesinin heç bir sahəsində analoci yüksək inkişaf templəri müşahidə olunmamışdır» [64, səh 17].

Dünyanın neftə olan tələbi 1859-cu ildə min tonlarla ölçüldüyü halda, artıq XX əsrin əvvəllərində 20 milyon, XXI əsrin başlanğıcında isə 2,5 milyard tona bərabər olmuşdur. Ötən əsrin 70-ci illərində müdhiş planetar neft böhranında kommulyativ ehtiyatlar 600 milyon barrel hesablanırdı. Dünya iqtisadi artımına qeyri-adekvat olan belə toplum yeni neftli yataqların kəşfini sürətləndirdi və 1980-ci illərdə ehtiyatlar kəskin artaraq 700 milyard barrel təşkil etdi. Əsrin sonunda isə dünya neft ehtiyatları bir trilyon barrellik həddi ötüb keçdi. Mütəxəssis hesablamalarına görə dünya neft ehtiyatlarının maksimal potensialı 310-315 milyard ton təşkil edə bilər. İndiki zamanda isə kəşf olunmuş ehtiyatlar 156,5 milyard tona bərabərdir [13, 15].

XX əsrin ilk ilində 21,2 milyard tona bərabər dünya neft hasilatının 50%-dən çoxu

Azərbaycanın payına düşmüşdür. Qlobal sənayeləşmənin sürət aldığı dövrlərdə - 1900-1970-ci illər kəsiyində hər 10 il ərzində dünya neft hasilat iki dəfə artmışdır. Tam bir əsr ötdükdən sonra XXI əsrin əvvəlində ümumi konturda bu yüksəliş 158 misli aşaraq 3,34 milyard tona bərabər olmuş, 1900-cu ildə 13 mövcud neftçıxaran ölkə sayı müasir zamanda 100-ü ötüb keçmişdir. Hazırda neftli ərazilər 28 mindən çox yatağı əhatə edərək yer səthinin 9%-nə bərabər 45 milyon $km^2$ coğrafi landşafda bir milyon buruq hesabına yetişən səpkidədir [18].

Neftin enerji təlabatlılığı artdıqca onun sünü usullarla alınması axtarışları da genişlənmişdir. Dünyada ilk dəfə sintetik neft problemi Almaniyada qabarıqlaşmışdır. I dünya müharibəsi gedişində kayzer Almaniyası qlobal neft mənbələrindən ayrı düşmüşdü. Orduya isə küllü miqdarda neft lazım idi. Bu zamanlarda alman alimləri sintetik neft alınması istiqamətində tədqiqatlarını genişləndirirdilər. İlkin axtarışlar nəticəsində qonur kömürdən maye qazın alınması işi reallığa çevrildi. Müvafiq məqsədlər üçün geniş istehsal kompleksləri yaradıldı. Müharibə bitdikdən sonra isə xam neftin qiymət enmələri süni neft istehsalını arxa plana keçirdi. II Cahan savaşı zamanı da lokal çərçivədə analoci problem yarandı və eyniliklə də müharibə sonrası əhəmiyyətini itirdi. Uzun müddət sintetik neft istehsalı demək olar ki, tarixi səhnəni tərk etdi. Lakin enerji qıtılığı təhlükəsi ilə üzləşəcəyimiz perspektivlər yenidən sintetik neft emalı prosesini aktuallaşdırmışdır.

Müasir elmi-texnoloji tədqiqatlar göstərir ki, nefti elə havanın özündən də almaq mümkündür. Alimlər hesab edirlər ki, belə texnoloji strategiya atmosferdə izafi karbon anhidridi yaratmaqla ekoloji gərginlik törədə bilər. Hazırda nəhəng miqdarda məsrəf olunan yanacaq hesabına hər il atmosfera milyardlarla ton karbon qazı buraxılır. Bunun isə yalnız 10%-i bitkilər tərəfindən udulur. Nəticədə atmosferdə korbon qazının konsentrasiyası kəskinliklə artır.

Sintetik neftin havadan fəsadsız alınması istiqamətində çıxış yolu kimi alimlər dondurulma mexanizmi təklif edirlər. Havanın dondurulmasının təqdim olunan texnoloji prosesi ilə korbon anhidridli ammoniumun alınması və onun sonrakı neft sintezi üçün materiala çevrilməsi nəzərdə tutulur. Lakin belə reaksiya miqyaslı enerji məsrəfləri tələb edir. Məsrəfliyi optimallaşdırmaq üçün nüvə reaktorlarında katalizatorların köməyi ilə 5000 $^oS$ temperaturda əməliyyat aparılması kərəklidir. Belə əməliyyat nəticəsində karbon oksidi hidrogenlə sintezləşərək «hava» nefti yaradır.

Havadan neftin geniş alınması işi gələcəyə aiddir. İndi sünü nefti yenə də daşdan almaq səmərəli hesab edilir. Əlbəttə söhbət burada adi daşdan deyil, yanar şistlərdən gedir. ABŞ-ın geoloji xidmətləri dünyanın yanar şist və qumdaşı neft ehtiyatlarının 700-800 milyard ton civarında olduğunu bəyan edirlər. Bu ölkənin «Qayalı dağlar» silsiləsində konsentrasiya olunan suxurlarda 270 milyard ton neftə bərabər toplumun olduğu göstərilir ki, bu da dunya neft ehtiyatlarında azı 2 dəfə çoxdur. Açılan mənzərə yəqinlik gətirir ki, yanacaq dalanından çıxış qlobal həllinə qovuşmuşdur. Əslində burada da yenə rentabellik faktoru kəskin daynır. Hesablamalara görə neftin bir tonunun 100-120$ hududlarında olması zəminində belə texnoloji fəaliyyət rentabelli sayıla bilər. Buna görə də yanacaq böhranına qədər yanar şistlər və qumdaşı neft elmalı prosesi praktiki fəaliyyət mövzusu ola bilməz.

İnkişaf etməydə olan ölkələrdə nəhəng karbohidrogen yataqlarının aşkarlanması bu və ya digər səbəbdən həmən dövlətlərdə yanlış təsəüratlar yaradır. Bu hal öz növbəsində siyasi qeyri-stabilliyə səbəb olaraq dünya neft bazırına da təsir edir. Yataqın aşkarlanmasından ilk gəlirin əldə edilməsinə qədər azı 5-7 il vaxt tələb olunur. Əgər neft ölkəsinin əhalisi çoxdursa və neft onların əsas gəlir mənbəyidirsə həmən ölkələrdə sindromlar labüddür. Belə ki, bu ölkələrdə neft gəlirlərinin mütləq əksəriyyəti zəif instusional duruma rəğmən əsasən imtiyazlı təbəqənin əlində cəmləşərək koorüpsiyaya səbəb olur digər sahələrdə staqnasiya yaradır. Vətəndaşlar elə bilirlər ki, neft varsa onlar varlı yaşayacaqlar. Buna görəd də inkişaf etmiş dövldətlər, aparıcı qlobal neft konpaniyaları müvafiq ölklərdə enerji etibarlılığını sosial konsensu yönəldilməsinə daha çox maraq göstəməlidirlər.

Altı minillik yaş tarixinə baxmayaraq XIX əsrdə sənaye xarakteri almış «neft» məhz XX yüzillikdə yetərli bir yüksəliş yolu keçmişdir. Bu əsrdə dünya səthində 260 milyard ton neft kəşf

edilmiş, yerin təkindən 121 milyard ton neft hasil olunmuşdur. Hazırda hasilat artımı templəri istehlakı templərini üstələsə də mövcud dünya neft ehtiyatlarının istifadə müddəti 40 ildən bir qədər çox vaxta hesablanır. Buna görə də müasir zamanda neft sənayesinin fəaliyyəti qədər neft sivilizasiyasının bitməsi problemi də əzm və düşüncələrə hakim kəsilmişdir. Tükənmə prosesi industrial dövlətlərin energetik siyasətində, milli təhlükəsizlik konsepsiyasında dərin əks olunmaqdadır. İndi hər gün planetimizdə 10,3 milyon ton neft hasil olunur. Çox yaxın vaxtlarda bu rəqəmin 11,2-11,5 milyon tona yüksələcəyi gözlənilir [14, 17-18].

Müasir dünyada tanınmış çoxsaylı neft proqnozçuları vardır. Bunlar içərsində son dərəcə



məhşur olanı geofizik, Şell kompaniyasının uzun müddət baş məsləhətçisi işləmiş, neft resursları, kəşfiyyatı və tükənməsi üzrə mütəxəssis, doktor Kinq Xubbertdir /1903-1989/. Onun hələ 1949-cu ildə açıqladığı proqnozlar bu gün də «çin çıxır». Xubbert 1956-cı ildə bütün neftçilər üçün özünün neft hasilatını proqnozlaşdıran məhşur qrafikini dərc etdirmişdir. Həmin ildəcə alim, «Xubbert qanunu» adlanan qaydanı formalaşdırmışdır: «Neftdən enerji mənbəyi kimi o zamanlara qədər istifadə ediləcəkdir ki, onun hasilatı ondan alınan enerjidən ucuz olacaqdır. Bundan sonra neft hasilatı onun «pul-kredit qiymətindən» asılı olmayaraq dayanacaqdır.

K.Xubbertə görə 1965-ci ildən 2023-cü ilədək - 58 il ərzində bəşəriyyət 89% dünya ehtiyatlarını istehlak edəcəkdir. Bu dövr isə bəşər sivilizasiyasının üstün pik çağları olacaqdır.

Neft proqnoztikasının digər görkəmli nümayədələrindən bir də məhşur doktor Kolin Kempelldir /1930/ K.Kempell müasir dünyanın nəhəng neft mütəxəsissi olaraq ABŞ dövlətinin və bir sıra iri neft kompaniyalarının qlobal neft ehtiyatları üzrə aparıcı məsləhətçisi kimi tanınır. Alimin fikrincə dünya neft ehtiyatlarının kommulyativ həcmi 1800 qiqabarel təşkil edir ki, onun da yarısına qədəri artıq hasil olunmuşdur. Bəşəriyyət hazırda hər il 22 qiqabarael neft istehlak edir və bunun 20-25%-i müqabilində kəşfiyyat məhsulu alınır. K.Kempellə görə neft piki artıq yaşadığımız 2005-ci ildə başlanamışdır. Qarşıdakı dövrlərdə isə illik tükənmə faizi 2-yə bərbər sürətlə dövr edəcəkdir.



ABŞ dövlətinin və bir sıra iri neft kompaniyalarının qlobal neft ehtiyatları üzrə məsləhətçisi qismində çalışmış digər bir neft mütəxəssisi professor Ayvenqonun fikrincə isə artıq Yer kürrəsində bütün neft aşkarlanmışdır. Tələbin təklifi üstələcəyi «kritik vaxt» isə alimin proqnozuna görə 2000-2010-cu illər arası müşahidə ediləcək və həmən zamandan sonra hasilat səngiyərək enmə labüd olacaqdır. Bir sıra çağdaş nəsil nümayəndələri bu hadisələrin canlı şahidinə çevriləcəklər. Sonra isə qlobal enerji böhranı baş verəcək ki, bunu da hər bir planet sakini ciddiliklə hiss edəcəkdir [40, 57, 70].

Dünya neft hasilatının tarixi inkişaf mərhələsini iki dövrə bölən akdemik V.N.Şelkaçov 1920-ci ildən başlayaraq 1970-ci illərə qədər dünya neft hasilatı hər 10 il ərzində 2 dəfə artımla müşayət olunduğunu və 1970-ci ildən isə onun artım tempinin enməyə məruz qaldığına diqqəti çəkir və tükəmənin labüdlüyünü əsaslandırır [127

Müasir digər hesablamalara görə dünyada hasilat rekordu 2010-2012-ci illərdə baş verəcək və sonradan bu templər tədricən reqressiv zolağa keçəcəkdir. Elə bu pik vəziyyəti də neft sivilizasiyasının tükənməsinin başlanğıc tarixi kimi də qiymətləndirmək olar. */Əlavə 4-də qlobaol neft sivilizasiyasının əks etdirən ən mühüm tarixi məqamların xronologiyası verilmişdir/*

## 2.5. Metan epoxası

Neftlə yanaşı təbii qazın da tarixi qədim və zəngindir. Məlum olduğu kimi, erkən sivilizasiya çağlarından insanlar yerin təkindən qazın çıxmasının şahidi olmuşlar. Hələ eramızdan da bir neçə min il öncə Abşeron yarımadasında, Xəzərin şimal-qərb sahillərində təsadüf olunan «əbədi atəşlər» dənizə şölə saçmış, keçid edən gəmilərin mayakına çevrilmişlər.

Hind və Çində, İranda, Malay adaları arxipelaqında, Amerikanın Eri gölü ətrafında yanar qazların davamlı püskürməsi inac və ibadət yeri kimi bu məntəqələri daha da məşhurlaşdırmışdır. Atəşpərəstlər isə sönməz ocaqları hifz edərək ətraf ərazilərdə məbədlər ucaltmışlar. Bununla belə yanar qazların mistik obrazı ənənəvi çərçivəsindən çıxaraq son iki yüz ildə industrial və məişət müsətəvisinə trasformasiya olunmuşdur. Belə ki, ilk olaraq 1830-1840-cı illərdə İngiltərədə daş kömürün termik emal ilə tərkibində olan metan və digər qaz qarışıqlarını ayrılması texnologiyası mənimsənilmiş və bu tapıntı geniş istifadə dövriyyəsinə çıxış etmişdir. XIX əsrin sonlarında Moskva və Peterburq şəhərlərində də daş kömürdən qazın alınmasını reallaşdıran çoxsaylı zavodlar fəaliyyət göstərmiş və müvafiq emal qazından iri sobaların yandırmada və nisbətən də evlərin qızdırılmasında istifadə olunmuşdur. İllər ötdükcə insanlar yanar qazların təbii anoloquqları metan qazlarının da energetik gücünü, yanacaq növü kimi əhəmiyyətini dərk etmiş, onları ram edərək istifadəsini genişləndirmişlər. Artıq XX əsrin ortalarında digər yanar qazlarla yanaşı, metan strukturlu təbii qazdan da sənayedə, məişətdə istifadə olunmağa başlanılmışdır [17, 40].

Tarixi mənbələr təbii qazdan geniş istifadənin ABŞ-da təşəkkül tapdığını diqqətə gətirir. Bu prosesə geniş şəbəkədə ölkədə iri qaz yataqlarının kəşfi ilə əlaqədar başlanılmışdır. 1831-ci ildə Kanaua manafakturalarında yanacaq kimi, təbii qazdan istifadə hadisəsi isə ABŞ-da qaz sənayesinin başlanğıcı tarixi hesab edilir. Sonralar burada boruyayma sənayesində istifadəsinə və məişətdə təbii qazın geniş istehlakına başlanılmışdır. XIX əsrin sonunda ölkədə 2 milyard $m^3$ qaz hasil edilmiş və bu göstərici 1920-ci ildə 23 milyard $m^3$-ə yüksəlmişdir. Dünya qaz statistikasında ABŞ 1940-cı ilə qədər demək olar kı, yeganə mövcud təbii qaz istehsalçısı ölkə kimi qalmışdır.



Karbohidrogen erasının ən mühüm zonalarından olan Azərbaycanda da qazdan istifadə imkanlarının genişlənməsi XIX yüzilliyin ortalarından başlanğıc götürür. 1859-cu ildə Suraxanıda fəaliyyət göstərən zavodda ilk dəfə olaraq buxar əldə etmək üçün təbii qazdan yanacaq kimi istifadə edilmişdir. 1902-ci ildə isə elə müvafiq ərazidə qazılan quyulardan biri qaz fontanı vurmuş, sutkalıq debiti 57 min $m^3$ olan bu əlahiddə quyu Azərbaycanda ilk qaznəqletmə sisteminin yaranmasına rəvac vermişdir. Həmən illərdən başlayaraq təbii qazdan yanacaq kimi neft hasilatında sobaların və quyuların qızdırılmasında da istifadə olunmuşdur. 1907-ci ildə Azərbaycanda artıq 130 milyon $m^3$ qaz hasil edilmişdir. Sonradan Suraxanıda quyularda küclü qaz fontanlarının yaranması ilə əlaqədər təbii qazın hasilatı və istismarının kəskin aşağı düşmüşdür. Problematik məsələ isə ondan ibarət idi ki, hasil edilən qazın həcmi onun aşağı olan istehlak tələbini xeyli üstələmişdi və bu böyük həcmdə qazdan dolğun istifadə etmək mümkün deyildi. Artıq qaz isə sadəcə olaraq havaya buraxılırdı. Bunla belə həmən illərdə yüksələn siyasi çaxnaşmalar, təbii qazdan geniş istifadənin texnoloji həllinin tapılmaması və mövcud texniki-iqtisadi çətinliklər hasilat dinamikasına təsir etmişdi. Təbii qazla bağlı bu depressiya çox uzun bir müddətdə əhatə olunaraq davamlı qalmış, bu və ya digər səbəblərdən 1919-cu ildə hasilat 48 milyon $m^3$, 1920-1921-ci illərdə 34 milyon $m^3$-ə kimi enmişdir.

Təbii qazın texniki-iqtisadi parametrlərinin diapazon genişliyi aşkarlandıqca onun istehlak proporsiyası da dəyişkənliklərə uğradı. Müəyyən olundu ki, qaz yanacaq kimi məişətdə və sənayedə son dərəcə əvəzsiz istehlak xammalıdır. Sadalanan üstünlükləri ilə yanaşı təbii qazın digər keyfiyyət çalarları, ondan müxtəlif sintetik madddələrin: maye spirt, üzvi həlledici, plastik kütlə, süni kauçuk, lif, gübrə, partlayıcı maddə alınması da aşkarlandı. Enerji istehsalında və xalq təsərrüfatının digər sahələrində təbii qazdan istifadə geniş intişar tapdı.

XX əsrin ikinci yarsında isə planetin əksər sivilizasion regionlarında təbii qazdan istifadə adi reallığa çevrildi. Bu çevriliş yaşantısı daha genişlənəcən ***metan epoxasının*** təşəkkül məqamlarına görüntü verir. Həmən zamanlardan başlayaraq təbii qaz istehsalı tam sənayeləşmə mərhələsinə daxil oldu. Təbii qaz kimya sənayesində geniş tətbiqini tapdıqca onun istilik, energetik primatı da mülayimləşmişdir. Lakin bununla belə təbii qazın istehlakında energetik və kimyəvi müstəvidə paritetlik qəti müəyyən olunmamışdır. Ehtiyat potensialı və istehlak tələbləri

müxtəlifliyinə baxmayaraq XX əsr boyu təbii qaz əsasən daha çox istilik və energetik təzahürdə bəşəri xidmətdə bulunmuşdur. Onun kimyəvi xammal imkanları isə müvafiq sənaye sahələrinin təşəkkül tapdığı ölkələrdə gerçəkləşmişdir. Beləliklə, çoxəsirlik mistik və primitiv isitmə libasını dəyişərək ötən əsrin başlanğıcında təbii qaz industrial cəmiyyətin əsas enerjidaşıyıcıları sırasına qətiyyətlə daxil olmuşdur. Real görüntülər və aydın proqnozlar baxımından qədəm qoyduğumuz XXI yüzilliyin energetik tələblərinin daha yüksək dərəcədə qaz resurslarına bağlanacağı perspektivi şübə doğurmamaqdadır. Metan qərinəsi yüksək sürətlə irəliləməkdə və geniş coğrafiyaları fəth etməkdədir.

XXI əsrdə təbii qazın dominant enerjidaşıyıcısına çevrilməsi bir çox amillərlə uzlaşdırılır. Bu prespektivi sivlizasiyon yüksəliş gerçəkliyi, ətraf mühitin qorunmasına köklənən intizam məsuliyyəti, qazla işləyən mexanizlərdə tətbiq edilən texnoloji nailiyyətlər, infarmasiyon mühütün genişlənməsi, internet və elektron biznesin vüsəti və digər sosal-iqtisadi əhəmiyyət artımı daha ümidli edir. Elmi-texnoloji nailiyyətlər, artan ekoloji tələblər, iqtisadi transformasiya enerjidaşıyıcılar bazarında yeni meyllərin təzahürnə rəvac verir. Postneft epoxasında nüvə enerji sisteminə böyük keçiddə təbii qazın aralıq mövqeydə qərarlaşması nəzərə çarpır. Ekoloji intizamın güclənməsi, rentabellik aspektləri təbii qazın digər energetik resurslara zəfər çalmasını müşahidə etdirir.

Təbii qaz yanacaq növü kimi ekoloji üstünlüyü ilə yanaşı, həm də əksər texniki-iqtisadi imkanları, energetik qüvvəsi ilə də digər karbohidrogen resurslarına nisbətdə fərqli mövqeydədir. Yanarkən hiss verməməsi, tüllantı yaratmaması, məşəlinin asanlıqla tənzim olunması, müxtəlif görüntü hallarına salınması və bu baxımdan da atmosferə, ətraf mühitə zərərlər gətirməməsinin minimallığı onun ekoloji aspektdə cəlbediciliyini artıran xüsüsiyyətidir. Rəngsiz və çox zaman da qoxusuz olan bakir, doğal təbii qazın texniki-iqtisadi parametrləri müqayisəli təhlil obyektinə çevrildikdə ekoloji və energetik keyfiyyətlərilə bərabər, bu, üstünlüyü işıqlandıran fiziki xüsusiyyətləri də önə çəkilir. Karbohidrogenli əqrabaları arasında ən yüksək istiliktörətmə qabilliyyətliliyilə fərqlənən təbii qaz müvafiq gücü torf və yanar şistlərdən 3-4 dəfə, oduncaq və daş kömürdən 1,5 dəfə, neftdən isə orta hesabla 1000 kilokalori artıq miqdarlıdır. Konkret olaraq təbii qazın istiliktörətmə gücü orta göstəricidə 12000 *kkal/kq* hesablanır. Qazın 2000 dərəcə selsili yüksək istilikvermə qabilliyyəti onun keyfiyyətli energetik və texnoloji səmərəli yanacaq növü kimi geniş tətbiqini təmin etmişdir. Təbii qaz fiziki-kimyəvi spektrdə yanar qazlar silsiləsinə daxil olduğundan anoloqları kimi də paralel adekvat funksional cəhətlərə malikdir. Onun gizli, açıq xassələrinin öyrənilməsi də məhz bu konteksdə aydın təzahürlü və geniş analitik imkanlıdır [16].

Yer planetində təbii qaz sərvətlərinin ən çox ehtiyat və hasilat payını sırf qaz yataqlarında olan resurlar təşkil edir. Bu sırada səmt qazının da çəkisini qənaətbəxş hesab etmək olar.

Neftli qazın əhəmiyyəti 1973-1974-cü illərin energetik böhranında daha çox sınandı. Bu vaxta qədər o, əksərən məşəllərdə yandırılırdı. Enerjidaşıyıcıların bu məqamdakı qiymət artımı neftli qaza olan tələblərin yüksəlişi ilə müşaiət olundu. Bir çox hasilatçı ölkələrdə onun məşəllərdə yandırılmasının miniuma endirilməsi tədbirləri həyata keçrilməyə başlandı.

Qaz sənayesinin monoməhsullu çağları arxada qalmışdır. İndi təbii qazdan xeyli çeşidli məhsullar alınır. Qaz məhsulları polad, şüşə, yun, ipək, ağac və taxılı əvəz edir. Bir ton sintetik kauçukun alınması üçün ayrı-ayrılıqda 2 ton etil spirti, 9 ton taxıl, 22 ton kartof, 30 ton şəkər çuğunduru və ya 5 ton sıxılmış qaz tələb olunur. İqtisadi həlqənin bütün dövriyyəsində də təbii qaz fərqli səmərəli aspektlərə malikdir. Qaz hasilatında fondverimi əmsalı neft və daş kömürə nisbətdə 6 dəfə çoxdur. Burada əmək məhsuldarlığı daş kömürdən 55, neftdən 6 dəfə yüksəkdir. Maya dəyəri isə daş kömürə nisbətdə 33 dəfə azdır. Metal sənayesində təbii qazın tətbiqi məhsuldarlığı 10 dəfə yüksəldir, avtomobil nəqliyyatında isə enerji sərfini 2 dəfə azaldır. Qazın beynəlxaq təsərrüfat çevrəsində vergi yüklənməsi 40% təşkil edir. Neft üzrə isə bu göstərici 50%-dən də çox ölçülür. Qiymətqoymada qaz ən ucuz enerjidaşyıcısı hesab edilir [57, 118].

Qaz təchizatı da neft təchizatından bir çox üstünlükləri ilə fərqlənir. Nəql edilən təbii qaz standartlaşma məqsədi ilə cüzi kosmetik emala məruz qalmaqla tam hazır məhsul kimi

istehlakçıya çatdırılır. Bu sənaye müəssisələri və fərdi istehlakçılar üçün də eyniyət təşkil edir. Təbii qazdan fərqli olaraq isə nəql edilən neft bir çox mürəkkəb müxtəlif köməkçi proseslərindən keçir. Yataq müxtəlifliliyi aspektində neftə nisbətdə də təbii qaz xassəvi xüsusiyyətinə görə daha eynicinsli və keyfiyyətli olur.

Neftin və qazın nəqli xərcləri də fərqlidir. Avtomobil nəqliyyatında təbii qazdan istifadədə müəyyən keçici çətinliklər mövcuddur. Yaxın gələcəkdə ikili yanacaq növündə istismar edilən hibrid avtomobillərin istehsalı da bu sahədə istehlak artımına səbəb olacaqdır. Təbii qaz prespektivdə hidrogen yanacağında işləyən nəqliyyat vasitələrində ehtiyat materialı kimi istifadəsini də sınayacaqdır. Belə ki, atmosferə karbon qazı: $SO_2$-nin buraxılışının məhdudlaşması, təbii qazdan müvafiq yanacaq növünün alınması oriyentasiyasının gerçəkləşməsini təmin edəcək, hidrogen yanacağının yanacaqdoldurma stansiyalarında istifadəsini genişləndirəcəkdir. Digər tərəfdən maye qaz bazarının inkişafı da müvafiq sənaye sahələrinin prespektivliyini şanslı edəcəkdir. Ekoloji qayğının liberallaşması, dünya rəqabətinin, elektron rabitənin artım tendensiyası yaxın prespektivdə təbii qazın energetik sistemdə liderliyində təcəssüm olunacaqdır. Bir neçə mərhələdən keçən dünya enerji sistemi uğurla metan epoxasına daxil olacaqdır.

Liberal iqtisadiyyatı fonunda standart yanaşmalarda qaz sənayesi son dərəcə qeyri-münasib spesifik sahə kimi də fərqlənir. Qərbin inkişaf etmiş ölkələr də daxil olmaqla qaz sənayesi tərəqqi tapdığı bütün məmləkətlərdə nailiyyətlərlə yanaşı problemlər də az deyildir. Müasir qaz sistemlərinin yaradılması, təkmilləşdirilməsi, onların işlək və texnoloji yeniləşməyə hazır vəziyyətdə saxlanması öncədən böyük ehtiyat potensialının mövcudluğu şəraitində rentabelli və səmərəlidir. Böyük investisiya tələbində bulunan müvafiq layihələrin işlənməsi bu sahədə ixtisaslaşmış nəhəng transmilli kompaniyalar və yaxud da dövlət stimullarının yüksək təminatı ilə həllini tapır.

XXI yüzilliyin sosial-iqtisadi yüksəliş templəri daha çox təbii qaz tələbində bulunur. Aparılan təhlil və müşahidələr real əsas verir ki, texniki-iqtisadi parametrləri ilə fərqlənən təbii qaz korbohidrogen erasının yenilməz enerjidaşıyıcısı kimi energetik reytinqini əldən verməyərək formalaşmış lider titulunu uzun müddət qoruyacaqdır. Hazırda kompleksləşmə, formalaşma mərhələsini bitirmiş dünya qaz industriyası yeni mütərəqqi epoxal müstəviyə transformasiya olunmuşdur. Ayrı-ayrı region və ölkələr iqtisadi inkişafa, istehlak ehtiyaclarına müvafiq olan struktur və infrastrukturlar yaratmışlar.

Təbii qaz istehlakına neftə nisbətdə böyük yüksəliş templəri xasdır. Hər il təbii qaz industriyası və müvafiq olaraq da təbii qaz bazarı inkişafını sürətləndirir. Ötən ildə neft istehlakındakı 1% artıma rəğmən təbii qaz istehlakı 4,8% yüksəlişlə müşaiət olunmuşdur. Yaxın 20 ildə qaz istehlakının mühüm regionlarından biri kimi Asiya və Sakit okean regionları fərqlənəcəklər. Proqnozlar göstərir ki, ABŞ-da yaxın iki onillikdə enerji istehsalında təbii qaz daş kömürü sıxışdıraraq ümümi balansda 60%-lik paya malik olacaqdır. MDB məkanında isə son on ildə azalan qaz istehlakının 2020-ci il üçün 50% və ondan daha çox artacağı ehtimal olunur. Yüksək illik artım 7-8% Cənubi və Mərkəzi Amerikada da gözlənilir. Ümumilikdə qaza olan tələb liberal iqtisadiyyat quran ölkələrdə nisbi yüksək artımla müşaiət olunacaqdır. Bu sektorda sürətlənən artım meylləri daş kömürlə işləyən bir çox elektrik stansiyalarını və qismən nefttutumlu nəhəng energetik qurğularının təbii qazla işləmə prosesinə qovuşmasını daha da genişləndirəcəkdir.

Təbii qaz sektorunda artım tendensiyası avtonom enerji təchizat şəbəkələrinin işlənməsinə təkan verəcək, qənaət və səmərəlilik enerji itkiləri ilə mübarizədə yeni texnologiyaların tətbiqini artıracaq, daha aztutumlu energetik sistemlərinin təşəkkülünü labüd edəcəkdir. Dünya qaz sənayesinin inkişaf senarisi planetin energetik sisteminin tərəqqisi ilə bağlılıqda onun strukturunun dəyişməsini, dövlətin qaz və enerji təchizatına müdaxiləsini artıracaq, tərəqqi templəri intellektual sistemlərin, kompyütor, internet və qlobal naviqasiyanın inkişafı ilə müşaiət olunacaqdır. Təbii qazla bağlı qazmanın da genişlənməsi gözlənilir. Bu təminat üçün isə yeni qazma qurğuları və texnologiyalarının mənimsənilməsi gərəkdir. Qaznəql sistemində də

yüksələn templər davam edəcəkdir. Qeyd etmək lazımdır ki, neft kəmərlərinin inşaasına nisbətdə tikiləcək qaz kəmərlərinin uzunluğu 3 dəfə çoxdur. Tərəqqi edən nəql sistemində Xəzər regionu boru kəmərlərinin aktiv inşaası gözlənilən məkanlardan olaraq qalır. ETT-nin inkişafı qaz hasilatına və qaz sənayesinə güclü təsir etməkdədir. Artıq Şimal dənizində, Meksika körfəzində Cənub-Şərqi Asiya regionunda sualtı qazyığım sistemləri tikilir ki, bunun da əvvəllər gerçəkləşməsi çox uzaq olmayan keçmişdə mümkün deyildi. Eyni zamanda Şimali Afrikada və İspaniyada daha dərin sualtı qaznəqletmə şəbəkəsi layihələşdirilir. Avstraliyaya Koreya, Sinqapur, Yaponiya və digər Cənub-Şərqi Asiya ölkələrindən keçməklə nəhəng sualtı qazötrücü nəqletmə şəbəkəsinin yaradılması isə texniki və texnoloji həllini gözləməkdədir. Xəzərhövzəsi bölgədə və Rusiyada qaz hasilatının arımı Avropa bazarı ilə yanaşı Asiya regionu üçün də yeni istehlak perspektivləri açır. Rusiyada mövcud izafi qazın yaxın zamanlarda Şərq istiqamətdə Yamal-Koreya magistralı ilə ötürülməsi nəzərdə tutulur [96].

Təbii qazın mütərəqqi kəşfiyyat metodlarının mənimsənilməsi, dəniz şelfində iri qaz yataqlarının aşkarlanması, habelə güclü təzyiqli, iri diametrli borularla qazın nəqli, qazın sıxılmış halda iri qazdaşıyıcı tankerlərlə daşınması təbii qazdan istifadənin artımına yeni impuls vermişdir. Elm və texnologiyada əldə olunan nailiyyətlər hasilat rentabelliyini daha mülayim məcraya gətirmişdir. Tədqiqatlar göstərir ki, planetimiz ehtiyatlar potensialı 176 trilyon $m^3$ istehlak həcmi 2,5 trilyon $m^3$ hesablanan təbii qaz potensialı ilə yanaşı, hələ kəşf olunmamış yataqlar zənginliyi ilə də seçilir. Geoloji hipotezlər təbii qaz perspektivinin daha ümüdlü olduğuna yəqinlik verir. Xüsusən yerin daha dərin qatlarında, 10-12 kilometrlərdə böyük miqdarda qaz ehtiyatlarının mövcudluğu mübahisə doğurmur. Lakin qazma ilə bağlı çətinliklər, investisiya problemləri bu prosesi daha da çətinləşdirir. Əlçatmaz hesab edilən dərinliklərdən qazın çıxarılmasını heç şübhəsiz ki, gələcək nəsillər təmin edəcəkdir.

Son 30 ildə sıxılmış qazın istehsalı ilə bağlı tam bir industriya fəaliyyət göstərir. Sıxılmış qaz istehsalının dünya enerji sistemində genişlənən istehlakı, təbii qazın iqtisadi və ekoloji özəllikləri və hasilat həcminin artması ilə şərtləndirilir. Onun orta illik istehsalı çağdaş zamanda 100-120 milyard $m^3$ həcmində tərəddüd edir. Liviya, Əlcazair, Nigeriya, Malaziya və İndoneziyanın yüksək ixracatlı təbii qaz potensialı ABŞ, Yaponiya, Qərbi Avropaya xeyli miqdarda xüsusi dəniz tankerləri vasitəsi ilə sıxılmış qaz axınını təmin edir. Proqnozlara görə, dünya ticarətində sıxılmış qazın həcmi 2010-cu ildə 150 milyard $m^3$-dən çox olacaqdır.

Karbohidrogen resurslarının tükənməsi problemi qeyri-ənənəvi enerjidaşıyıcılarının axtarışı prosesinin sürətlənməsinə təkan vermişdir. Günəş, termal, külək enerjisindən istifadədə yeni texnologiyaların tətbiqinin genişlənməsi, okean sularının qabarma və çəkilməsindən daha sərfəli enerji alınması imkanlarının açılması yüksələn perspektivli müstəviyə keçid edir. Artan istehlak tələbləri, ekoloji şüurun yüksəliş meyli, bir sıra neft mədənlərinin enerji fermalarına transformasiyasını və buradan etonol alınmasının sürətlənən perspektivinin keniş xarakter alacağına stimullar gətirir. Bununla belə yeni karbohidrogen resurslarının, xüsusən də bitumlaşmış qum daşı, okean dibində kristallaşan hidrat hasilatının səmərəli məcraya yönələcək inadlı görünüş alır. Bu baxımdan hidrat qazların tapıntısı böyük maraq doğurur. Bütün kürreyi ərzdə qaz hidratlarının mümkün ehtiyatları 100 mindən terafut $m^3$-ə /$T=10^{12}$/ qədər hesablanır. Bu nəhənglik daha çox akademik maraqlar doğurusa da, onunla bağlı tədqiqatlar ilbəil yüksəlişə məruz qalır. Lakin onun hasilatının əlverişli iqtisadi həlli tapılarsa bu, ehtiyatların yüzdə biri belə dünya energetik balansına əsaslı təsir edəcəkdir [18].

Alternativ enerji mənbələrinin axtarışında bir sıra alimlər məhsuldar qatlarda neftveriminin artırılması üzərində baş sındırdıqları zamanda, digərləri yanar şistlərdən rentabelli yanacağın alınması istiqamətində tədqiqatlar aparırlar. Üçüncülər isə «dədə-baba» qaydasında olduğu kimi oduncağdan səmərəliliklə istifadənin axtarış imkanlarını sınayırlar. Bunun üçün ABŞ alimləri tez bitən ağac növlərinin /*qızıl ağac, plantan*/ yetişdirilməsinə üstünlük verirlər. Belə plantasiyalarda 1 hektardan 40 ton oduncaq almaq mümkündür. Ağacların kəsimindən sonra isə yerə tökülmüş yarpaqlar kübrə rolunu oynayır və 3-4 il ərzində həmən sahədə eyni məhsuldarlığı inkişaf etdiri. Ərazisi 125 $km^2$ olan sahə hesabına 80 minlik şəhər əhalisinin enerji təçləbatını ödəmək

mümkündür.

ABŞ alimlərinin digər bir qrupu isə tezyetişən qonur yosunlardan enerji alınması problemi ilə məşquldurlar. Bu yosunlardan bakteriyaların köməyi ilə metan və ya neft xüsulu maddənin alınması təklif olunur. Mütəxəssis hesablamalaraına görə 40 min hektar okean sahəsində yaradılan analoci ferma 50 minlik şəhər əhalisininin enerji təçləbatına müqabildir. Eyni fikirlə fransız alimləri də çıxış edirlər. Onlar bu məqsədlər üçün birhüceyrəli yosun - botriokokkidən istifadəni tövsiyyə edirlər. Beləki botriokokkiləri şüşə bankələrdə karbon qazı və mineral duzlarla yemləməklə müntəzəm olaraq karbohidrogen almaq mümkündür.

Belçikada isə artıq bir neçə onillikdir ki, enerji bahalığı kontekstində kağız, kardon qalıqları - maklaturadan istifadə olunur. Briket şəklinə salınan maklatura sobalar da 8 saat ərzində yanaraq yetərli istilik yaradır. Bununla belə o tamamilə yanır və atmosfreə sıfra bərabələşən miqdarda tulantı verir. Müvafiq oriyentsiya effektli hesab edilirr. Belə ki, 1 kiloqram müqabil oduncaq kolorilik baxımından 10 dəfə maye yanacaqdan az dəyərlidir.

Təbii yanacaq doldurma stansiyaları Cənubi Amerika tropiklərində və Filippində aşkarlanmışdır. Bir sıra lian bitki növləri və tropik ağac olan Xanqa özündə yağlı maye saxlayır. O, heç emala verilmədən belə avtomobillərdə yanaraq benzindən də az toksiklik yaradır. Eyni məqsədlər üçün palma yağı da yararlı hesab edilir. Ondan asanlıqla qazoyl almaq mümkündür. Almaniyanın Şverborn məntəqəsində isə zibillikləri xususi qurğular vasitəsi ilə qapamaqla ondan metan alırlar. 1 kiloqram məişət tullantısı 200 litir qaz hasil edir. Hindistanın Kerala ştatında isə anoloci texnologiyanın xammalı kimi təzək çıxış edir. Xüsusi quyulara yığılan təzəyin ağzı möhkəm bağlanılaraq qıcqırma hesabına qaz hasil olunur. İndiki zamanda bu ölkədə müvaiq bioqaz sistemlərin 53 modeli sınaqdan çıxarılmışdır.

Yanacağın məişət tullantılarından alınması prosesi də bir sıra ölkələrdə geniş sınanmaqdadır. Təcrübələndirmələr daha çox ABŞ və Böyük Britaniya labratoriyalarında test edilir. Fransada isə benzini qarğıdalının quru oduncağından alırlar. Ölkə də hazırda belə texnologiya ilə ildə 20 milyon ton benzinin alınması layihələri işlənilir.

İnsan sosiumunun tərəqqisi şübhəsiz ki, bütün parametrlərdə təbii qazdan da dəyərli enerji mənbələrinin aşkarlanma və icadını təmin edəcyi ehtimalı sonsuzdur. Bununla belə, yeni imkan çeşidli alternativ yanacaq növlərinin axtarışı nə qədər vüsətlənsə də, təminatlı proqnozlara görə təbii qaz yaşadığımız əsr boyu energetik keyfiyyətini saxlayaraq hidrakorbonlu anoloci yanacaq növləri arasında praktiki üstün alternativ imkanları ilə daim seçiləcək, metan epoxası daha qızğın fazaya daxil olacaqdır.

## *2.6. Atom əsri*

Yunaca bölünməzliyi ifadələndirən atom istilahı yalnız bütövlük, tamlıq mənasında deyil, müasir bəşəri həyatın geniş qatlarında yeni yaranışlara aqreqativ kompleksdə çağdaşlıq, perspektivlik və mobillik verən qayəyə çevrilmişdir. Bu diapazonda atomla bağı sivilizasiya seqmentləri sosiallaşan iqtisadiyyat komponentləri ilə ümumən üst-üstə düşür. Yeni epoxol mərhələnin həqiqətdə bölünməzliyinin təminatı da atom energetikasına əsaslanan texnoloji inqilabın bərqərar olması ilə uzlaşacaqdır. Atom əsrinin leytmotivi də məhz müvafiq energetik potensial üzərində qurulmuşdur.



İstiliknüvə - atom reaktorunun yaradılması sahəsində ilk yaxın addımları məhşur italyan alimi, nüvə və neytron fizikasının yaradıcılarından biri Nobel laureyatı Enriko Fermi /1901-1954/ yerinə yetirmişdir. ABŞ-a mühacirət etmiş E.Fermi 1942-ci ildə ilk nüvə reaktorunu inşa etmiş və onda müvafiq nüvə reaksiyasını keçirmişdir. Lakin istilik nüvə texnologiyasınən təşəkkülünü və inkişafını yalnız onun adı ilə bağlamaq da düzgün olmazdı. E.Fermi ilə yanaşı bu sahədə həm birlikdə və həm də ayrı-ayrılıqda çoxlu elmi simalar fəaliyyət göstərmiş XX əsrin böyük tarixi dönüş reallığını bəşəriyyətin ümümi xidmət və

istifadəsinə təqdim etmişlər [80, 95].

Atom energetikasına əsaslan ilk sənaye əhəmiyyətli enerji qurğusu isə 1954-cü ildə SSRİ-də, Obinsk şəhərində 5MVt gücündə AES-in istifadəyə verilməsi ilə təşəkkül tapmışdır. Artıq ötən əsrin 80-ci illərində dünyada bu tip reaktorların sayı 300-ü ötmüş, gücü 200 QVt-ı haqlamışdır. Artıq XXI əsrin astanasında 33 ölkədə ümumi gücü 350 QVt olan 2300 milyarad kvt/saat enerji istehsal edən 436 atom təyinatlı enerji blokları fəadliyyət göstərmiş və bu say indilərdə 500-ə yüksəlmişdir. Hazırda qlobal nüvə energetikasının pay hesabına yanacaq-energetika balansının 6%-i və istehsal olunan elektrik enerjisinin 17%-i düşür. AES-lərin gücünün aratması prosesii davam edir, «Nüvə energetik klubunun» üzvlərinin sayı artır. Bununla belə BMT-nin atom enerjisi üzrə agentliyi - IAEA-nın proqnozlarına görə AES-lərin inkişaf sürəti yaxın onillikdə o qədər də yüksək olmayacaqdır. Lakin bu proses addımlarını irəliyə doğrü qətiyyətlə genişləndirəcəkdir. Bu təyinatın isə öz özəllikləri vardır. Əgər dünya AES-lərini daş kömürllə işləyən stansiyalar əvəz etsə, onda 600 milyon ton əlavə daş köm ür lazım olacaq və ətraf mühit 2 milyard ton karbonat qazı, 30 miyon ton azot oksidi, 50 milyon ton kükürd və 4 milyrn ton üçan kül alacaqdır. AES-lərin istismarı hər il 400 milyon ton neftə qənət etməyə imkan verir [14].



Atom enerjisi ilə bağlı vəziyyət ötən əsrin 90-cı illərində məyusedici idi. Bu məyusluğun da da yetərli əsasları olmuşdur. Bəşəriyyət Çernobıl faciəsinin müdhiş qorxuntusunu yaşamış, AES-lərə olan inam səngimiş, atom enerjisindən dolğun istifadə perspektivinə kölgəyə sürüklənmişdir. Lakin son zamanların tədqiqatları atom enerjisi spektrində ümidverici effektli keçidi təmin edərək onu yeni sivilizasiyanın ən başlıca enerji mənbəyinə çevriləcəyinə yəqinlik gətirmişdir. Müvafiq keçid atom enerjisinin istehlak yaşından da çox sənələr görmüş bərpa olunan enerji mənbələri sferası: külək və günəş enerjisindən istifadə çevrəsində isə reallaşmamışdır.

Sürətli neytron əsaslı reaktorların inkişafı çərçivəsində atom enerjisi energetik resurs olaraq praktiki tükənməzdir. Mövcud atom energetikası həm də təbii resurslardan asılı olmayan, iqtisadi səmərəli potensiala malikdir. Araşdırmalar göstərir ki, atom enerjisi rəqabəətqabiliyyətli ilə gələcəyin tövhəsidir. Bu reallıq isə bizi *atom əsri* adlanan yaşadığımız uzun yeni bir dövrün, növbəti intibah zamanın ərəfəsində olmasına yəqinlik gətirir. Belə bir perspektivin açılışı qəfil yaranışlı olmamışdır. Bəşəriyyət atom enerjisini ram etmədə çox səylər göstərmiş, uzun bir ekspremental məsafəə qət etmişdir [106].



XX yüziiliyin sonlarında fiziklər istiliknüvə reaksiyasının kedişində onun əsas parametirlərinin qaldığı plazmanı yaradaraq boyun olduqları nailiyyətin nümayişini keçirdilər. Məhşur rus nüvə fizikçisi «Kürçatov institutu» elmi mərkəzinin prezidenti, akademik Yevqeni Pavloviç Velixovun /1935/ təbirincə «bu nailiyyətə yetişmədə kompyuterlərin köməyi cüzü olmuş, əsas işi empirik başlanqıcda nəhəng təcrübi qurğular həll etmişlər. Bu gərgin əməyli, müdhiş səyli mərhələ dünya vergi ödəyicisinə 30$ milyarda başa gəlmişdir» [133].



Alimlər nüvəistilik enerjisinin alınması prosesində çətin tədqiqatlara rəğmən müəyyən etmişlər ki, müvafiq layihələri heç bir dövlət təkbaşına yüerinə yetirə bilməz və burada hökmən ümum səylər və birgə elmi-texnik və maliyyə potensialı ortaya qoyüulmalıdır. Buna görə də hazırda nüvəistilik enercntikası sferasında beynəlmiləl olan atom energetikasının tullantılarını əsasında helimun alınması şərtli «Beynəlxalq ekspremental istiliknüvə reaktoru» - BEİR layihəsi üzrə fəaliyyət reallaşmaqdadır. Bu miqyaslı layihə ABŞ, Kanada, Rusiya, Yaponiyanın kimi möhtəşəm ölkələrin və AB-nin potensialını birləşdirərək 10 milyard avro həcmində olmaqla 30 ilə hesablanmışdır. Artıq layihə üzrə aparılan təcrübələr *kvar-qlyuan* adlanan plazmanın kəşifini imkanlı etmişdir. Hazırda isə bu və ümimi tədqiqat çevrəsində maddənin yeni aqreqat - *subnüvə halı* üzərində tədqiqatlar aparılır.

***İstiliknüvə sintezi*** Günəş və ulduzlaran enerjisini ehtiva edərək yüngül atomların əzəmətli

qravitasiya gücü ilə yaranır. Burada hidrogen nüvəsi toqquşaraq misilsiz səviyyədə enerji ayrılmasına səbəb olur. Onun Yer planetində cilovlanması intəhasız enerji təchizatının yaradılmasına imkanlar açacaqdır.

İstilik nüvə reaksiyasının müasir prespektivli qurğusu kimi *tokomak* qurğusu çıxış edir. BEİR layihəsi üzrə qurğu da tokomaq analoqludur. Müvafiq qurğularda plazmanı 100 milliyon dərəcə səviyyəsində qızdırmaq mümkündür. Əvvələr belə hərarətin alınması ağılasığmaz idi. İndi isə bu miqyas fəth və qət edilmişdir. Artıq müasir dünyada 300-dən çox tokomak qurulmuşdur. Onların isə yalnız 10%-i işləməkdədir.

Tokomak prinsipcə təhlükəsiz bir qurğu hesab olunur. Ənənəvi İES-lərdən yüz min dəfə az xamal tələbində bulunaraq il ərzində yalnız bir neçə yüz kiloqram litium maddəsi sərf edən bu qurğuları əhalinin sıx məskün olduğu məntəqələrdə belə quraşdırmaq təhlükə törədmir. Litium xammalını isə çox geniş bir məkanda əldə etmək mümkünatlıdır. Passiv təhlükəsizliyə malik istiliknüvə reaktorunda Çernobıl AES-ində olduğu miqyasda qəzanın törənməsi imkanlı deyildir. Burada reaksiyon konstruksiya qəzanın özübaşına sovuşması şərtliliyinə əsaslanır. Digər tərəfdən müvafiq reaktorda yanacaq həcminin cüzülüyü: bir partiyanın 10 ilə hesablanan həcmi də fəsadı təhlükə fəsadını məhdudlaşdıran amillə sırasındadır.

Dünyanın heç bir yerində hələ istiliknüvə xüsüslü elektirk stansiyası fəaliyyət göstərmir. Bu prosesin ekspermental dövriyyəsinin tam başa çatmaması, tamamlanmayan texnoloji mükəmməlik faktoru və rentabellilik aspekti ilə bağlanılır. Lakin buna baxmayaraq istilik nüvə perspektivi reallıqdır. Proqnozlara görə nüvəistilik təyinatlı ilk elektrik stansiyası XXI əsrin 40-cı illərində fəaliyyətə başlayaraq dünya energetik bazarını köklü təbəlludatlara uğradacaq, sonra kı onilliklərdə isə sivilizasiyanın bütün guşələrində yeni texnoloji inqilabi dəyişikliklərə səbəb olacaqdır. Energetik inqilab neftinin dünya təsərrüfatındakı hegemonluğunu sarsıdaraq iqtisadiyyatın trasformasiyasını sürətləndirəcək, korporotiv çevrilişləri qaçılmaz edəcəkdir [106, 133].



İstiliknüvə enerjisinin inkişaf perspektivləri onun təkcə energetik gücü ilə fərqlənmir. SES-lər yaradan çaylar, termal enerji mənbələri məhdud, külək enerjisi cüzüdür. Ekoloqların təmiz sandığı Günəş enerjisinin batereyaları - fotoelementlər istehsalı isə ekoloji çirkli texnoloji proseslə bağlıdır. Elektormobillərin geniş miqyaslı istehsalı isə hələ ki, mifik olaraq qalmaqdadır. Bu görüntü isə akkumlyator batareyalarının qeyri-adekvatlığı ilə uzlaşdırılır. Bir cəhəti də xüsüsi olaraq vurğulamaq lazımdır ki, nəqliyyatla təsərrüfat həyatının digər sahələrinin energetik istehlak payı yetərli fərqlidir. Belə ki, bütün avtomobillər elektrik stansiyalarında istehsal olunan enerjidən iki dəfə çox enerji istehlak edirlər. Məhz bu amildən çıxış edərək ABŞ prezidenti kiçik Corc Buş /1948/ «azad avtomobil», «azad yanacaq» ideyalarına əsaslan hidrogenlə işləyən avtomobillər üzərə elmi-tədqiqatlara 2$ milliyard həcmində pul vəsaiti ayrılmasına sərəncam vermişdir. Nə üçün müvafiq qərar avtomobillərin hidrogen yanacağında işlənməsi ilə məhdudlaşmışdır. Bu məntiqilik ilk növbədə avtomobillərin lokol enerji mənbəyinə malikliyindən irəli gəldir. Digər tərəfdən hidrogen avtomobil konstruksiyasının yenidən qurulması prosesini tələb etmir. Sadəcə mürərriki benzin əvəzinə hidrogen hərəkətə gətirəcəkdir. O, həm də istiliktörətmə qabiliyyətinin üstünlüyü və ekoloji təmizliyi ilə fərqlidir. «Ceneral motoros» firması artıq «Hidrogen-3» adlanan müvafiq tipli avtomobil hazırlanmışdır. Proqnozlara görə yaxın 10 il ərzində ABŞ-da 10 min sayda hidrogen yanacaq doldurma stansiyasının fəaliyyət göstərəcəyi ehtimal olunur. Avropada da müvafiq işlər rəğmən 5 milyard avro həcmində vəsait ayrılmışdır. Çin isə 2010-cu il üçün bir neçə milyon hidrogen yanacaqlı avtomobil istehsal edəcəyini planlaşdırır.

Məlumdur ki, hidrogen kainatda ən geniş yayılmış maddədir. Planetdə intəhasız həcmdə geniş yayılmış suyun əsas tərkib komponentini də hidrogen təşkil edir. Bu həqiqət isə ən primitiv kimyəvi bilikləri olan insanlara suyun hidrogen və oksigen atomlarından ibarət olaraq $H_2O$ formullu təyinatından tanışdı. Hidrogen enerjisindən istifadə əslində praktiki olaraq sudan elektrik almaq deməkdi. Reallıq belədir: bir stəkan su da bir çəllək benzin əvəz edəcək qədər

enerji toplumu vardır. Lakin bu enerji sudan qoparmaq da asan məsələ deyildir. Onun alınması hələ ki, mürəkkəb və daha tutumlu digər enerji sərfi ilə mümkünatlıdır. Hazırda bu sayaq işlər: hidrogen nüvəsinin birləşməsindən enerjinin ayrılması prosesi hidrogen bombasında tətbiq olunur. Hidrogenin istehsal rentabelliyi həllini taparsa, o üzvi yanacaqları: daş kömürü, nefti və qazı energetik dövriyyədən tam çıxaracaq, «qara neft sivilizasiyasını» həqiqətdə «ağ üzlü hidrogen sivilizasiyası» əvəz edəcəkdir [133].

Alimlər Yer kürrəsinin «qaz nəfəsli» olduğuna çoxdan diqqət yetirmişlər. Bu yer səthinə helium və hidrogen çıxışında daha çox müşahidə olunmuşdur. Məsələnin beləliyi alimlərin bu qazların harada konsentrasiya olduğuna nəzərlərini yönəltmişdir. Sovet geoloqu professor V.N.Larin hələ ötən əsrin 70-ci illərində Yer nüvəsinin dəmir-nikel təyinatlı klassik nəzəriyyəsindən fərqli olaraq, onun hidrid tərkibliliyi haqqında yeni hipotezi irəli sürmüşdür. Hidrogen konsentrasiyasının ən mühüm çıxış məntəqələri kimi isə riftogenezin - yer qabığının zərif qatlarında, uğurlu məntəqələr kimi isə Baykal gölü. İslandiya, İsrail, Kanada, ABŞ-ın Nevada ştatıı zonaları müəyyən edilmişdir. Müvafiq nəzəriyyə görə planetin bu zəif nöqtələrində qazma işləri aparmaqla 10 $km^2$ zonada il ərzində 100-200 milliyon ton şərti y1anacaq almaq mümkündür. Mobil nəql sistemi qurmaqla isə bütün planetitəmin hidrogen yanacağı ilə təmin etmək olar.

Atom enerjisi milliyon dəfələrlə çox enerji konsentrasiyasına malikliyi ilə praktiki sarıdan tükənməz energetik mənbə rolunda çıxış edərək digər anoloqlarına nisbətdə prinsipal strateci mahiyyət daşıyır. Bu prinsipiallığı siyasətçilər də bölüşürlər. Onun ehtiyatlar və material tutumu da fərqli aspektlidir. Ənənəvi AES-lərin xamalı uranın əsas planetar ehtiyatları Şimali Amerika, Avstrvliya, Braziliya və Cənubi Afrikadadır və xeyli miqdarda da Rusiyada cəmləşməklə 1,5 milyon ton hesablanır. Daha 0,9 milliyon ton onun əlavə ehtiyatın olması təxmin edilir. Atom enerjisi tullantıları da nisbi az həcm tutur və onun lokallaşması imkanları da genişdir. AES-lərdən həm də suyun şirinləşdirilməsi üçün istifadə edilir. Bəlli ki, planet əhalisinin 30%-inin şirin su ilə təchizatı normal səviyyədə deyildir. Bir sıra ölkələrdə şirin su problemli mühüm bioloji-sosial məsələ olaraq qalmaqdadır. Suyun şirinləşdirilməsi və nəqli prosesi yetərl olaraq enerjitutumludur. Alimlər hesab edirlər ki, yaxın gələcəkdə praktiki variant olaraq suyun şirinləşdirilməsi prosesində nüvə-istilik enerjisi daha dolğun çıxış edəcəkdir.

Müasir dünyada energetik sistemlərin ümümiləşməsi, vahidləşmiş mərkəzlərdən generasiya olunması prosesi gedir. Proqnozlara görə yaşadığımız XXI əsrin 60-70-ci illərində qlobol energetik şəbəkələr tam təşəkkül tapacaq, bu reallıq isə öz növbəsində enerji ucuzluğu ilə nəticələnəcəkdir. Lakin bu perspektivi gözləmədən öncə iqtisadi bazasını möhkəmləndirmək istəyində olan dövlətlər öz milli eneregetik strategiyalarının təkmilləşdirilməsi qayğısına qalmağa daha çox önəm verməlidirlər. Burada isə energetikanın ekoloji varisliyinin təminat verən, xammal qənaətçiliyi və dayanaqlı rentabellik üzərində qurulan və mümkün olduqca tükənən resursdan asılı olmayan, antropogen-bərpaolunan istiliknüvə enerjili energetik təhlükəsizlik sistemi yaradılmalıdır. Bununla belə hansı xammal və material mənbəyindən qaynaqlanmasına baxmayaraq perspektiv dünya energetikası sosiallaşan iqtisadiyytın xidmətində bulunmalıdır.

# III FƏSİL
# İQTİSADİ VƏ SOSİAL VƏHDƏT

## *3.1. Ekonomika*

İqtisadiyyat elm olaraq məhdud ehtiyatların faydalı əmtəələr istehsalında və onların insanlar arasında bölgüsündə ictimaiyyatin mümkün həcmdə istifadəsini tədqiqat predmeti seçmişdir. ***İqtisadiyyat*** iki spesifik ideya sintezində: «resurslar məhduddur, tələblər intəhasız» elmi-təcrübi mahiyyətini təcəssüm etdirir. Praktiki kontekstdə iqtisadiyyat təsərrüfat həyatının motivasiyasını şərtləndirir. Terminoloci müstəvidə isə onun ismi kökdə ərəbcə «*tədbir*» mənasını ifadələndirən iqtisad istilahı ilə uzlaşır.

İqtisad və iqtisadiyyat anlayışları qlobal sferada başlanğıcını antik yunan filosofu Ksenofontun «Ekonomikas» traktatından başlanğıc alır və qeyd lunduğu kimi bir başa ev təsərrüfatçılığı mənasını ifadə edir. Bir elm olaraq o, öz predmeti çevrəsində cəmiyyətin və onun yaratdığı sistemlərin təsərrüfat proseslərini tədqiqat hədəfi seçmişdir. İnkişaf tapan iqtisad elmi cəmiyyət inkişafının bütün mərhələlərində son məqsədini insanların həyat şəraitinin yaxşılaşdırılmasına səfərbər edərək iqtisadi qanunlarnı, problemlərin təhlil və tədqiqi əsasında fundomental prinsiplərini formalaşdırır.

İqtisadiyyat empirik bir elmdir. O faktlara və müşahidələrə əsaslanır. Burada məqsədlərin fbvqündə faktları bir aryaya gətirərək sistem yaratmaq missiyasi dayanır.

İqtisadi nəzəriyyə ingilis iqtisadçısı L.Robbinsin tərifində «Müxtəlif istehlak imkanları olan maraqlar və məhdud vasitələr nisbəti arasında insan davranışlarını öyrənən elmdir» kimi səslənmişdir.

Bütün dövrlərdə iqtisadiyyat *hansı* əmtəələri, *necə* və *kim üçün* istehsal etmək olan üç prioritet prinsipdən yan keçə bilməmişdir.

İnsalara bioloji və sosial tələblər xasdır. Hamı yemək, geyim, mənzil əmtəə və xidmətləri birləşdirən rahat həyat istəyindədirlər. Bu yüksək tələbləri müqabilində isə iqtisadi resurslar məhduddur. İstehlak tələblərinin məcmui mövcud resursların istehsal imkanlarını üstələyir. Bu fakt iqtisadiyyat elminin təyinatında əsas götürülür. Buna görə də iqtisad elmi insanların maksimal istehlak tələbləri müqabilində məhdud resurslardan səmərəli istifadə və onların idarəedilməsi ilə bağlı məsələləri tədqiq edir. Dünyanın çağdaş lokal və qlobal problemləri: qeyri-bərabərlik, ətraf mühit, infilyasiya, işsizlik, korrupsiya, yoxsulluq öz kökləri ilə məhdud resursların səmərəli istifadə prinsipallığına əsaslanır.

Resurslar *torpaq, kapital, əmək,* və *sahibkar bacarığı* olmaqla əsasən döğrd qismə bölünür. Buraya *insan biliyi* və informasiyanı da daxil edirlər. Təsərrüfat fəaliyyəti nəticəsində iqtisadi münasibətlər yaranır və bu münasibətlər istehsal, bölgü, mübadilə və istehlakda təcəssüm olunur. İqtisadi münasibətlərin daşıyıcıları isə insanlar, onların birlikləri, şirkətlər və dövlətdir[46, 81].

İqtisadiyyat sistemləşmə baxımından aşağıdakı əsas qrupları ifadə edir:



- *Xalis kapitalizm;*
- *Komanda iqtisadiyyatı;*
- *Qarışıq sistem;*
- *Ənənəvi iqtisadiyyat.*

Sahəvi obrazda iqtisadiyyatın əsas tədqiqat obyektləri aşağıdakılardır:

- ***Makro iqtisadiyyat*** - tam halda ümumi /dövləti obrazda/ iqtisadiyyat;
- ***Mikroiqtisadiyyat*** - təsərrüfat prosessinin fərdl vahidlərin davranışı kontektindəki iqtisadiyyat;
- ***Mezo iqtisadiyyat*** - regionlar və sahələr iqtisadiyyatı;
- ***Meqa və ya inter iqtisadiyyat*** - dunya iqtisadiyyatı.

Hər bir iqtisadiyyat sahəsi ümumi olmaqla yanaşı həm də özünün məxsusi göstəricilər

sisteminə malikdir.

İqtisadi problemlərin həlli müxtəlif institusional strukturların təyin və tənzimləyici mexanizmləri vasitəsilə reallaşır. Bu baxımdan ölkələrin industrial inkişafı iki cəhət xüsusunda - *istehsal vasitələri üzərində mülkiyyət və iqtisadi fəaliyyətin idarəedilməsi koordinsiyası üzrə* müəyyənləşir.

İqtisad elminin tədqiqat metodu aşağıdakı şəbəkədə akkumlyasiya olunur:

- ***Eksperimental metod*** - iqtisadi sistemin bütövlükdə və ya onun ayrı-ayrı stuktur hissələrini eksperimentlər vasitəsi ilə tədqiq edir;
- ***İnduktiv metod*** - faktlardan prinsiplər çıxartaraq nəzəriyyə yaratmağı, xüsusidən ümumiyə gediş etməyi ifadələndirir;
- ***Hipotetik-deduktiv meto*d** - makro və mikro səviyyədə ayrı-ayrı iqtisadi proses və hadisələrin təhlilinə istinad edən hipotez və uzlaşmalara əsaslanır;
- ***Statistik-zaman təhlili*** - myəyyən zaman kəsiyində vəziyyət mahiyyətinə görə həmcins olan kütləvi iqtisadi hadisələrin və obyektlərin ümumi tədqiqat metodikasını ehtiva edir;
- ***Tarixi-model yanaşma*** - öyrənilən gedişatın funksional təkrarlığı və tarixi konteksti şəraitində iqtisadi proseslərin model obrazında təqdimatını şərtləndirir;
- ***Riyazi metod*** - iqtisadi hadisələrin öyrənişinin riyazi əlamət və simvollarla yazılış motivasiyasına əsaslanır;
- ***Mücərrədləşmə metodu*** - iqtisadi prosesləri tətqiq edərkən təsadufi xarakter daşıyan hadisələrin istisnası üzərində qurulur.

Müasir iqtisadi düşüncəni aşağıdakı iqtisadi sistem və modellər ehtiva edir:

- XIX əsrin 40-ci illərində Almaniyada təşəkkül taparaq fəhlə sinfinin maraqlarını ifadələndirən və sosializmin qələbəsinin labüdlüyünü şərtləndirən *marksizm*;
- XX əsrin 90-cı illərində iqtisadi liberializm və sistemli marcinal analiz prinsipləri əsasında formalaşan *neoklassizm*;
- XX əsrin 50-60-cı illərində C.M.Keynizin nəzəriyyəsini təkrar istehsal prosesinə gəlir artımının təsiri - akselerasiya prinsipi ilə dolğunlaşdıraraq dövriyyə çıxarılan *neokenziyançılıq;*
- Ötən əsrdə formalaşan cəmiyyətin sosial həyatında iqtisadi proseslərin əhəmiyyətini izahlandıraraq, onları müasir texnikanı dərindən bilən - texnokratların aslılığına verən *neoinstitusionalizm;*
- Sahibkarlıqın azad rəqabətinə nail olmaqla və digər iqtisadi elementlər vasitəsi ilə təsərrüfat proseslərini dövlət tərəfindən tənzimlənməs ifadə edən *neolibiralizm*

İqtisadiyyat özü-özlüyündə vəhdət təşkl etsə də onun sektorial bölgüsü və sahəvi təsnifatı vardır. Qənaətə gəlinmiş iqtisadi nəzəriyyədə iqtisadiyyatın sektorlara bölgüsü aşağıdakı konfiqurasiyadadır:

- *Birinci sektor* - kənd və meşə təsərrüfatı, ovçuluq, balıqçılıq;
- *İkinci sekto*r - sənaye və tikinti;
- *Üçüncü sektor* - xidmətlər, icarət, nəqliyyat, rabitə, təhsil, elm və sair.

Çox vaxt birinci və ikinci sektorlar *material istehsal* sektoru adlanır. Bununla belə sektorların real və maliyyəyə bölümü də təsnifatlandırılır. *Real sektor* əmtəə və xidmətləri əhatə edir. *Maliyyə* sektorunu isə maliyyə-kretik qrupları birləşdirir.

Bununla belə iqtisadi həyatda rəqəmlərdə ifadə olunan sektorial bölgünün digər təsənifat forması da təcrübələndirilir:

- *Birinci sektor* - dövlət;
- *İkinci sektor* – kommersiya;
- *Üçüncü sektor* - qeyri-hökümət.

İqtisadi düşüncənin sistemləşdirilməsində bir sıra metodoloji yaranışlar çıxış edirlər:

Latınca əsas, başlanğıc mənası ifadələndirən prinsiplər hipotetik teorem, nəzəri konseptual modeli ifadə edərək iqtisadi qanunauyğunluğu ümumiləşdirir. Fərziyyələr təsdiq

olunanda teorematik məzmun alır. Qanunlar və prinsiplər iqtisadi nəzəriyyələri qaynaqlandıran nəzəri konsepsiyaları, doktrinaları formalaşdırır. Bununla belə, konsepsiyalar fərziyyə və nəzəriyyə arasında orta mövqedə çıxış edir. Nəzəriyyənin əsasında iqtisadi sxemlər və modellər yetkinləşir. Nəzəriyyə və konsepsiyadan fərqli olaraq isə doktrina əvvəlcə qoyulmuş prinsiplərdən real hadisə, proses və faktorlardan irəli gəlir [17, 46].

İqtisadi əlamətlərə - fontomlara: illuziya, mistika, fiksiya aid edilir.

İqtisadi hadisələrdə hissi qavrayış - fenomen /*qeyri-adi hadisə*/, ağılla dərk edilənlər isə noumen /*ikili bölgüdə - qanunlar və sair*/. Pul münasibətləri fenomen, konkret siması olmayan qanunlar, trend, meyllər və sairlər isə noumenləri ifadə edir.

İqtisadi məntiqi araşdırmaq üçün müxtəlif yanaşmalardan istifadə olunur. Bunlar arasında statistik analizin tətbiqi ilə yanaşma daha yenidir. İqtisadçılar buna uyğun olan ekonometriya adlanan müvafiq xüsusiləşdirilmiş metodika işlənib hazırlamışlar. Vurğulandığı kimi, ekonometriya iqtisadi problemlərə statistik yanaşmanı həll edir.

İqtisadi münasibətlərin son dərəcə mürəkkəbliyinə rəğmən hadisələrin dəqiq təyinatında müəyyən istisnalara yol verilməsi də mümkündür. İqtisadi düşüncələrdə aşağıdakı istisnalara yol verilməsi ehtimalı vardır:

- bundan sonrakı bunun nəticəsidir - səbəb və nəticə sindromu;
- müəyyən vəziyyətlərin sabitliyi və dəyişməzliyi;
- ayrı-ayrı elementlərin xüsusiyyətlərinin ümumiliyə şamil edilməsi səhv yekundur.

İqtisadi hadisələr analitik baxımından ideoloji köklərə və ideoloji məzmuna malikdirlər. İqtisadi təhlil haqqında mübahisələr uzun illərdir ki, davam edir. Bu məsələ fəlsəfənin və sosial biliklərin mühüm mərkəzi mövzularından biridir.

Prinsip etibarı ilə iqtisadi təhlili ideologiyadan potensial azad hesab etmək olar. Elmdən fərqli olaraq ideologiya faktiki təsdiqə və yoxlaşına məruz qalmır. İqtisad elminin mərkəzi problemlərinin təyinatı da öz-özlüyündə ideoloji xarakter daşıyır. Neoklassik məktəb, keynizçilik, monitarsizm, marksizm, institusionalizm və digər iqtisadi istiqamətlər böyük və kiçik ölçüdə ideologiya sistemində funksionallıq təcəssüm etdirirlər. Fərdi, kollektiv metodoloji yanaşmalar özü də ideoloji element daşıyıcıları sırasındadırlar. Bu mənada sosializm, kapitalizm kimi anlayışlar da ideoloji səciyyəlidirlər [12, 72, 81].

İqtisadi obyektin mərkəzində insan faktoru dayanır. Bilik, ixtisas, səriştə, təhsilə əsaslanan insan kapitalı və ya iqtisadi interpretasiyada insanın gələcək əmək gəlirlərinin çıxılmış dəyəri yeni iqtisadi dəyişiklərin mühüm amilini təşkil edir.

İqtisadiyyatda hər hansı yeniləşmə psixoloci faktoru nəzərə almadan mümkün deyildir. İnstitusional təbəllüdatlar təkcə təbii inkişaf axını ilə deyil, həm də əhəmiyyətli dərəcədə subyektiv faktorun təsir çevrəsindən keçir.

İqtisadiyyat bütün məzmun, forma və prinsip çalarlarına baxmayaraq daim sosial örtüklü olmuşdur. Nəticəvi olaraq onun son məqsədini də insanların rifah halının optimallaşdırılması təşkil etmədədir.

## *3.2. Sosiologiya*

İctimai mənasını anladan latın mənşəli *sosial* termini ilə interpretasiyada ərəb iqtisad, yunandilli ekonomika istilahları o, qədər də fonetik uzlaşma yaratmasalar da, onların leksik vəhdəti yaşadığımız zamanın həyat hadisələrinin ən müxtəlif guşələrində təyinatlı harmonik ifadə tapmışdır. Bununla belə adlanışca sosial və iqtisad köklü elmlər geniş yayılsa da, ictimai sferada daim təkrarlanan sosial-iqtisadi terminli ifadə ayrıca elmi məzmun və mahiyyət daşımır. İqtisad iqtisadiyyat, sosial sosiologiya kimi, bir sıra klassik və müasir elmlərin titulunu səciyyələndirir. Təsərrüfat aləmi obrazında çıxış edərək geniş mədəni, hakimiyyət və sair sosial münasibətlər bazasında təşəkkül tapan iqtisadiyyatı cəmiyyət həyatı ilə çoxlu qırılmaz tellər bağlayır.

***Sosiologiya*** ümumi elmi bilikdər sisteminiə qoşularaq özünün ciddi təyinatlı məkanı ilə fərqlənir. O, cəmiyyətin ümumi məxsusi sahələrinin tədqiqi ilə yanaşı, həm də onun ayrı-ayrı element və hissəciklərini öyrənir. Cəmiyyət isə özü-özlüyündəo qədər mürəkkəb bir sistemdir ki, onu yalnız bir elm çevrəsində öyrənmək qeyri-mümkündür.

Sosial biliklərin elmlərarası matrisası yaxın və oxşar sosial fənlərin məcmüi və onların qarşılıqlı rabitəliyini ehtiva edir. Bu matrisada sosiologiya fəlsəfə, tarix, psixoloqiya, iqtisadiyyat, antropoloqiya, etnoqrafiya və bir sıra siyasi elmlərlə konfiqurasiyaya gələrək müvafiq elmi biliklərin sosial kontekstdə sistemaltısını yaradır.

İqtisadiyyat vurğulandığı kimi istehsalı, əmtəə və xidmətlərin istehlakını, tələb və təklif, insanın iqtisadi davranışı, pul və kapitaldan istifadənin problemlərini tədqiqini məşğuliyyət etmişdir. Sosiologiyanın isə əsas makroobyekti müasir cəmiyyətin mənəvi mədəniyyət problemlərinin araşdırılması, müxtəlif qrupların sosial davranış modelinin işlənməsi, insan həyatına təsir göstərən sosial-iqtisadi gücün tədqiqində əks olunur. Beləliklə, sosiologiyanı çeşidli iqtisadi hərəkətlərdə insanın sosial davranış xüsusiyyətləri maraqlandırır. Sosiologiyanın bu xüsusiləşmiş sahəsi iqtisadi sosiologiya adlanır.

Sosiologiya nisbi gənc elmdir. Onun geniş dövriyyəyə çıxış məqamı ötən əsrin 90-cı illərinin əvvəllərinə təsadüf edir. Artıq ali məktəbə qədəm qoymuş sosiologiya fənni geniş nüfuzu ilə gənclərin də marağına səbəb olur. Özünü kiçik tanıtma dövründə o, Qərbdə tapdığı əhəmiyyətini artıq Şərqədə də yaymaqdadır.

Müasir sosiologiya insan düşüncəsinin çox mühüm nailiyyətidir. Siyasi fəaliyyətin nəzəri tərənnümdə ictimaiyyatin mövcudluğu müasir sosiologiyasız təsəvvür edilmir. Elmi oriyentir kimi sosiologiya ictimaiyyatin demokrotizasiyası şəraitində daha kəskin mövqedə dayanır. Məhz müasir sivilizasion şəraitdə hər kəsin taleyi hakimiyyət strukturları, institutlar, dövlət mexanizmləri və siyasi qərarların xüsusiyyətinin funksional səviyyəsindən asılı olur. Siyasi və sosioloji biliklər konstruktiv güclərin imkanlarını təyin edir [97, 103, 134].

Sosiolojiya sosial təbəqələşmə məzumununu da əhatə edir. Sosial təbəqələşmə yeni əhali qatlarının yaranışı prosesidir. Bu prosesin başlanğıc nöqtəsini əmlak və sosial vəziyyətlərinə görə fərqlənməyən eynicinsli cəmiyyət təşkil edir. Sosial təbəqələşməni elmdə *stratifikasiya* termini ifadələndirir. Stratifikasiya nəzəriyyəsinin banisi rus əsilli amerikan sosioloqu P.A.Sorokin /1889-1968/ hesab olunur.



Stratifikasiya təsbitini yalnız əhali qütbləşməçsinin kasıb və varlılara bölünməsi ilə tapmır, həm də cəmiyyətdə orta sinfin yaranışında təbəqələşmənin nəticəsi kimi çıxış edir. Stratifikasiya cəmiyyətin sosial qeyri-bərabərliyini ehtiva edərək onu yoxsul və varlı, imtiyazlı və qeyri-imtiyazlı bölgüyüə məruz qoyur. İbtidai-icma sistemli cəmiyyətdə qeyri-bərabərlik əhəmiyyətli səviyyəli olmadığından burada sosial stratifikasiya demək olar ki, görünməmişdir.

Bəşəri fəaliyyət sferasını tədqiq edən sosiologiya öz tədqiqat orbitində ictimai elmlər sırasında bir qədər ümumi istiqamətə malik elm kimi fərqlənir. Bununla belə sosiologiyanın antropologiyanın «sosial antropologiya» adlanan hissəsi ilə yaxınlığı daha qabarıtlidir [134].

İnsanın fiziki və bioloji cəhətlərini öyrənən antropologiyadan fərqli olaraq sosial antropologiya insanın mental imkanlarının, onun mədəni aspektlərinin təyinatının tədqiqi ilə məşğul olur. Bu baxımdan sosial antropologiya ilə sosiologiya eyniyyət təşkil edir. Lakin

müvafiq yaxınlıqda hər hansı bir metodoloji uyğunlaşma istisnadır. Müvafiqlik gətirən məqamlar digər oxşar elmlərdə də mövcuddur.

Ənənəvi olaraq sosiologiya ilə iqtisadiyyatın rabitəsi dərindir. Karl Marks və Alfred Veber bu qarşılıqlı əlaqəliyin öyrənilməsində ən məhsuldar tədqiqatçılar hesab olunurlar. Tarixi reallıq belədir ki, bir sıra sosioloqlar keçmiş sosialist düşərgəsi ölkələrində iqtisadi sferadan çıxmışdır.

İqtisadi effektivlik kateqoriyasında həmişə bu və ya digər dərəcədə sosial faktorlar nəzərə alınmışdır. Buraya «Pareto optimallıqı», «Sosial portnyorlug», «Sosial bazar təssərufatı» kimi nümünələr daxildir.

Sosial-iqtisadi yanaşmadan bəhs edərkən onun iki struktur tərkib - sosial və iqtisadi komponentliliyi önə çəkilir. Sosial quruluş anlamında adətən hisslərənin qarşılıqlı düzümü dərk edilir. Burada hər bir hissə bütövlük çərçivəsində digəri ilə münasibətdə olur. Sosial quruluş ümumiləşmiş *keyfiyyət* xarakterinə, material rifah və xidmətlər, mənəvi siyasi situasiya ruhi ehtiyacların ödənişi, ətraf mühüt şəraiti, sosial konfort və bu kimi kateqoriyalara əsaslanır. İqtisadi quruluş isə öncə ümümiləşmiş *kəmiyyət* xarakterinə - sosial-iqtisadi sistemin təssərufat və qeyri-istehsal sferasının vəziyyətinə, resurlardan istifadənin mümkün alternativliyinə, xərclər və nəticəliyin iqtisadi səmərəliyinə, məqsədli funksiyaların maksimallaşmasına istinad edir. Sosial-iqtisadi yanaşma böyük ölçüdə sistem prinsipinə məqbuldur, nəinki əlahiddə sosial və iqtisadi kateqoriyalara.

İnstitutlar problematikası iqtisadiyyatda olduğu kimi sosiologiyada da mühüm yer tutur. Sosiologiyada institusionalizmin nəhəng sosioloq E.Dyurkqeym təmsil edir. O nəzəriyyəsində institutlara sosiologiyanın predmeti keyfiyyətində yanaşır.

İnsan tarixən əmək bazarında peyda olmadan məşğulluq sferasına maddi nemətlər istehsal etmək imkanında olmuşdur. Bu xüsusi sfera «bürokratik dövlət» və «azad bazar»dan kənarda fəaliyyət göstərərək indi daha geniş spektrdə əhəmiyyətini nümayiş etdirir. Uzun illər əsl iqtisadi qiymətini almayan, tədqiqatı və statistikası kölgədə qalmış ev təsərrüfatı 1960-cı illərdə elmi və praktiki dövriyyəyə çıxış əldə edərək mühüm soial-iqtisadi komponentə çevrildi. Ötən əsrin sonlarından isə sosial-iqtisadi fenomen kimi BMT də bu göstəricini nomenklaturaya saldı. Hazırda iqtisadçılar ev təsərrüfatına öz rifahını iki məhdud çevrədə - pul və zaman büdcəsində maksimallaşdıran vahid kimi yanaşırlar. Alternativ xərclər kontekstində vaxt məhdudluğu ev təsərrüfatının bazar məşğulluğu ilə əvəzlənməsi meylinə təsir göstərir.



Oksford lüğətinə görə inkişaf etməkdə olan cəmiyyət yoxsul primitiv ölkə olaraq sosial-iqtisadi inkişaf mərhələsinə qədəm qoymuş hesab edilir. Digər tərəfdən inkişaf etməkdə olan digər cəmiyyət klassik kapitalizmin geridə qalmış variantıdır.

## *3.3. Sosial iqtisadiyyat və iqtisadi sosiologiya*

Dünya təcrübəsi postindustrial iqtisadiyyatın quruculuğu ilə əlaqədar son onilliklərdə insanların həyat səviyyəsinin köklü dəyişikləiklərə uğradığını diqqətə gətirir. Lakin insan tələblərinin yüksək səviyyəli istehlakı yalnız müasir iqtisadiyyatın inkişaf ilə bağlı deyildir. Bu ahəng, həm də ümümilikdə idrakı düşüncənin və müvafiq həlqədə insan sosiumunun tərəqqisi ilə funksionaldır. Buna görə də müasir iqtisadiyyat öz təbii prinsiplərindən asılı olmadan humanitar obraz almadadır. Empirik reallıqlar göstərir ki, müasir iqtisadiyyatın inkişaf dayanaqlılığının təminatı insanların özünün bacarıq və yaradıcı potensialında, ən ümdə mənəvi və maddi istehlak tələblərində bulunan hərtərəfli və geniş humunizasiyasını gerçəkləşdirmədən səmərəsizdir. İndi ictimai istehsalın inkişafının və onun təbii istehlakçısı olan insanların tələblərinin maksimal stimullaşdırılması məqamı yetişmişdir. Buna görə də sosial sferanının dayanaqlı inkişaf problemlərinin geniş və hərtərəfli öyrənilməsi və tədqiqi daha aktual səciyyə almışdır.

Sosial sferanının dayanaqlı inkişafının təmin edilməsi, rifahi yüksəliş problemləri yalnız dövləti qayğılar sistemində reallaşmır. Bu sahədə əldə olunan yetərli elmi-empirik nailiyyətlər

dayanaqlı inkişaf konsepsiyası, resursların istifadəsinin sistemli təhlili, onların korrelyativ və proporsionalılıq nəzəriyyəsi çevrəsində ayrıca - «Sosial iqtisadiyyat» adlanan bir elmin ərsəyə yetməsinə rəvac vermişdir.

Elm olaraq ***«Sosial iqtisadiyyat»*** makro və mikro iqtisadi proseslərin, sosial faktorlarla iqtisadi inkişafi uzlaşmanın nəzəri modelləri ilə tanışlığı ehtiva edir. Onun aktuallıq çevrisi cəmiyyətin inkişaf tarixində sosial və iqtisadi qarşılıqlı rabitənin təbiətinin açılışı ilə müəyyənləşir. İqtisadiyyatın hüqüq, etika, siyasət, ekologiya ilə əlaqəliliyi «Sosial iqtisadiyyat»a sosial status gətirərək onu müasir iqdisadi düşüncənin inkişaf problemlərinin tədqiqinə səfərbər edir.

«Sosial iqtisadiyyat» elmi predmetini insanların rifah halının artımının, sistemli olaraq onların potensialından iqtisadiyyatın və sosial sferanının davamlı inkişafının təmin edilməsindəki rolunun öyrənilməsindən keçirir. Müvafiq konturlar konteksində «Soisal iqtisadiyyat»ın nəzəri və metodoloji formalaşması problemləri tədqiq olunur, sosial-iqtisadi inkişafın təşkilati, kadr, sahibkarlıq və müvafiq proseslərin idarə edilməsinin texnoloji, resurs faktorları və onların proqnozlaşdırılması şərhini tapır. Sosial-əmək potensialından istifadə problemləri, yeni iş yerlərinin açılması, iqtisadi aktiv əhalinin işküzar və yaradıcı təşəbbüskarlıqnın artırılması, əməyin sosial təşkili, kimi məsələlər də «Sosial iqtitisadiyyatın» tədqiqat sferasını əhatə edir [47, 97, 101].

Sosial-iqtisadiyyatda «bərabərlik» və «yoxsulluq» anlayışları baza səciyyəlidir. Onların əsasında dövlət yoxsulluqu azaltmaq, bərabərliyi bərqərar etmək kimi sosial müdəfiə və sosial təminat strategiyasını qurur. Bərabərlik və yoxsulluq məqamlarının sərhədləri isə konkret balansa balik deyildir. Belə ki, yüksək qeyri-bərabərlilik cəmiyyətində yoxsulluq çox kiçik və ya əksinə yetərli böyük də ola bilər. Buna baxmayaraq yoxsulluq birmənalı olaraq siyasətçilər və iqtisadçılar düşüncəsində mənfi hal hesab olunur və onunla qəti mübarizə qaçılmazdır. Bu konkretliyin bərabərliyə şamil etmək olmaz. Bərabərlik özü mücərrəd anlayış olduğundan onun optimal təyinatını vermək çətindir.

Sosial tənzimlənmədə başlıca yer dövlətə məxsusdur. Dövlət müvafiq istiqamətdə apardığı siyasəti sosial təminatlar və sosial xidmətlər proqramı mexanizmləri ilə reallaşdırır. O, qanunçuluğu, hüquqi əsasları təmin edərək müvafiq olan ümumi sosial siyasət konsepsiyası işləyir. Bununla belə sosial problemlərin həllində dövlətlə yanaşı ayrı-ayrı müəsissə və təşkilatlar, ictimai, siyasi və həmkarlar birlikləri də qərarlar qəbul edirlər.

İctimai istehsal həmişə müəyyən təyinatllı sosial funksiyalarla müşaiyət olunmuşdur. Bu funksiyalar öz-özlüyündə zaman-zaman müvafiq sosial məqsədləri hədəf seçən insanların əmək və iqtisadi fəaliyyətində stimul və antistimullara təyinat vermişdir. Bu aksiomatizm sosial-iqtisadi nəzəriyyənin kökündə dayanır.

Sosial-iqtisadi hadisələrin tədqiqnin digər qütbündə «İqtisadi sosiologiya» elmi daynır. Uzun illər burcua elmi kimi tədqiqat prizmasının perefiriyasında təhlil edilən ***«İqtisadi sosiologiya»*** yeni situasion mərhələdə daha aktuallaşan xarakter almışdır. Əmək məhsuldarlığı, istehsalın xüsusi tələbləri natural, mübadilə, rifah və xidmətlər əmtəə istehsalı formasında təsbit olunan vəhdəti təzahürə malik ictimai istehsal sosial həyatın mühüm qaynaq elementini təşkil edir. İctimai istehsal iqtisadi fəaliyyəti istehsal, bölgü, mübadilə və istehlak təsnifatına sintez etdiyi kimi, istehsal, bazar, bölgü, mənfəət və sair adekvat iqtisadi kateqoriyaları «İqtisadi sosiologiyada» ehtiva olunmuşdur.

«İqtisadi sosiologiya» tədqiqatın sərbəst bir sahəsi kimi sosioloji yanaşmalar kontekstində yetərli bir arsenal toplamışdır. Özünün bu arsenalı ilə o, iqtisadi nəzəriyyədə baş verənləri diqqətlə izləmək imkanı əldə etmiş, sosial-iqtisadi prosesləri bazara, dövlətə, ev təsərrüfatına və ya ayrı-ayrı insanlara aidliyyətindən asılı olmadan bütün geniş həlqədə tədqiqat üfiqləri yaratmışdır. «İqtisadi sosiologiyanın» tədqiqat araşdırmasında göstəricilər analizinin ən müxtəlif metodlarından istifadə olunur. Bu sırada özünə məxsusluğu ilə yalnız sosioloqların ixtirası sayılmayan ilkin sosioloji informasiyaların təyin edilmiş prinsiplər əsasında, suallar formatında respondentin cavablarına köklənən tədqiqat proseduru sorğu metodu fərqlənir. Müasir məqamda

insanların hərəkət və düşüncələrinin nədən ibarət olduğunu bilməyin yeganə üsulınu da məhz sosial slrğu rövnəqləndirir [97, 101].

Empirik metodoloji əsaslara malik təlim olmaqla «İqtisadi sosiologiyada» iqtisadi funksiya və tarixi fenomen kimi daha qabaritli məzmunda sahibkarlıq çıxış edir. Sahibkarlığın səhmdar əməkdaşlıq düzümündə kollegial formalaşması bazar təsisatlı cəmiyyətlərdə sosial stimullaşdırmanın lokomotivinə çevrilir. Tənzimləyici əllərini sahibkarlığa uzadan dövlət sosial sferanın qayğılarını əsl partnyorlarla bölüşmüş olur.

İqtisadçılar və sosioloqlar gerçək olaraq çağdaş zamanda eyni meydanın oyunçularına çevrilmişlər. «İqtisadi sosiologiya» və «Sosial iqtisadiyyatın» fərqlilik aspekti tədqiqat predmetinə yanaşma mexanizmləridə ifadəsini tapır. Onların niyyətli məqsədləri - meyl və intensiyası onunla bağlanılır ki, «Sosial iqtisadiyyat» mütəmmadi reduksiya yaradır, «İqtisadi sosiologiya»nın isə törənişi problematikləşdirir.

«Sosial iqtisadiyyat» təsbit olunmuş modellərin yaxşılaşdırılmasına, «İqtisadi sosiologiya» isə interpretasiyalara köklənmişdir.

«İqtisadi sosiologiya»nın predmeti metodoloji indivudualizm mövqeyindən çıxış edən veberian ruhda açılış tapır, «Sosial iqtisadiyyat» isə iqtisadi hərəkətləri sosial davranış aspektində öyrənir.

Digər bir prinsipial fərqləndirici xüsüsiyyət də ondan ibarətdir ki, «İqtisadi sosiologiyanı» müşahidə olunan davranış deyil, təsərrüfat aqentinin sübyektiv mövqeyi və motivləri, situasiyanın təyinatı, insanların hasil etdikləri nəzarət konsepsiyası maraqlandırır.

«İqtisadi sosiologiyanın» və «Sosial iqtisadiyyat»ın fərqəndirici xüsüsiyyətlərinə baxmayaraq onların metodoloji aspektdə təmas nöqtələri seziləndir. Belə ki, «İqtisadi sosiologiya» və «Sosial iqtisadiyyat» ənənəvi iqtisad nəzəriyyəsinin təqdim etdiyi insan modelinə istinad edir. «İqtisadi insan» isə digərlərindən təcrid olunmuş yetərli xudbin, ölçüsüz rasional və informasiyalıdır.

## *3.4. Sosial statistika*

Statistikanın bir elm kimi yaranış məkanı və zamanı XVII əsr İngiltərəsinə aid olunur. O. zaman latın mənşəli *status* sözündən qaynaqlanan statistika dövlətin siyasi vəziyyəti anlamını ifadə edirdi. Sırf elmi termin olaraq isə statistikanı biliklər məbləğində təcəssüm etdirən istilah kimi XVIII əsrdə alman alimi Qottfreid Ahenval /1719-1772/ dövriyyəyə çıxartmışdır. Bununla belə statistik uçotun kökləri daha qədim əyyəamlara gedib çıxır. Lakin statistika yalnız XX əsrdə iqtisadiyyatda və cəmiyyətin təsərrüfat həyatının müxtəlif sahələrində geniş aksent edilməyə başlamışdır.

Təkamül etmiş statistika öz təbiətindən doğan bir çox struktur bölmələr, subelmi sahələrinin formalaşmasını şərtləndirmişdir. Bu sırada sosial-iqtisadi əhəmiyyətdə kütləvi sosial hadisə və proseslərin keyfiyyət tərəfi ilə kəmiyyət tərəfini də özünə predmet seçən sosial statistika daha çox məhsuldarlığı ilə fərqlənmişdir. «***Sosial statistika***» dövlət quruluşu, iqtisadi və siyasi sistem, sosial struktur, şəxsi və ailə məsələləri, cəmiyyətin sosial həyat problemləri, gəlirlər səviyyəsi, material rifaz və əhaliyyə xidmət, ticarət, məişət, nəqliyyat, sosial təminat, mədəniyyət, idman və digər anoloci sfera hadisələrini tədqiqat obyekti seçmişdir. «Sosial statistika»nın məlumatları əsasında cəmiyyət inkişafının, insanların həyat fəaliyyətinin təhlilində sosial dioqnostika təmin olunur.



«Sosial statistika» yalnız elmi interpretasiyada anlaşılmır. Onun praktiki fəaliyyət tərəfi də geniş intişarlıdır. Elm olaraq «Sosial statistika» sosial hadisələr haqqında rəqəmli informasiyalarının toplanması, emalı və təhlili metodları sistemini ehtiva edirsə, praktiki sferada onun fəaliyyət dairəsi dövlət statistika orqanları və digər müvafiq strukturların sosial

prosesləri xarakterizə edən ədədi materialların toplanması və ümumiləşdirməsinə əsaslanır [107-108].

Hadisə və proseslərin kəmiyyət və keyfiyyət tərəflərinin öyrənilməsində «Sosial statistika»da da göstəricilər sistemindən istifadə edilir. Həcmli və geniş tətbiq edilən statistik göstərici «Sosial statistika»da mühüm kateqoriya hesab olunur. Konkret müstəvidə statistik göstərici tam təyinatda aşağıdakı struktur elementlərini birləşdirir:

- ✦ kəmiyyət təyinatı;
- ✦ keyfiyyət təyinatı;
- ✦ məkan təyinatı;
- ✦ zaman təyinatı.

İqtisadi həyatda göstərici və indikatorların qismi fərqlilik diapozonu mövcuddur. Bu fərqlilik indikativ idarəetmə və planlaşdırma şəbəkəsində daha kəskin mövqeyi ilə fərqlənir. Belə ki, *indikatorlar* dayanaqlı fəaliyyət və inkişaf kontekstində sistemin təşkilati mexanizmləri - texnoloji rabitə, material və maliyyə axınlarının sərhədlərinin parametrlərində təyinat alır. Kəmiyət konstatasiyasında əks olunan *göstəricilərdən* fərqli olaraq indikatorlar vektorial səciyyə daşayır. İndikatorlar çoxresurslu sistemlərin inkişaf recimində maksimum və minimum çevrədə sərhəd astanalarına malikdirlər. Burada xüsüsi yeri sərhədlərin təyinatı və istifadəsində obyektin idarəedilməsində kritik vəziyyətin yaxınlaşmasını, inkişaf strategiyasının dəyişməsi lüzumunu siqnallaşdıran *requlyatorlar* da əhəmiyyət daşıyırlar.

Hər hansı bir ölkənin iqtisadi inkişafı təyin olunmuş hesabatlanmadan keçir. Bir çox ölkələr öz səviyyəsini ABŞ-la müqayisə etməyə meyillidirlər. Bu kimi müqayisələr təhlil qammasını tam ifadə etmədiyindən qüsurlu sayılır. Buna görə də ümumi təsbit olunmuş iqtisadi meyarlardan istifadə olunur.

- ❑ adambaşına düşən ÜDM;
- ❑ milli iqtisadiyyatın sahəvi strukturu;
- ❑ əsas məhsul növlərin adambaşına düşən həcmi;
- ❑ iqtisadi səmərəlilik göstəricisi;
- ❑ əhalinin həyat səviyyəsi və keyfiyyəti;

Bütün bu sadalanan iqtisadi göstəricilər bir-biri ilə qarşılıqlı rabitə və asılıqlıdır. Bu göstəricilər arasında *ÜDM* indikatoru şərtsiz olaraq lider mövqeydə dayanır. Növbəti mühüm göstərici isə sahəvi təsnifatda ÜDM əsasında aparılan *milli iqtisadiyyatın sahəvi strukturunun* təhlilini ifadə edir. *Əsas məhsul növləri istehsalının adambaşına bölgüsü* milli iqtisadiyyatın inkişafının mühüm bazis göstəricisi hesab olunur. *İqtisadi səmərəlilik* göstəriciləri isə iqtisadi inkişafın səviyyəsi, onun keyfiyyəti, ölkənin əsas və dövriyyə kapitalından istifadə şəraiti və əmək resursları ilə müəyyənləşdirilir.

İqtisadi səmərəliliyə daha mühüm sayılaraq aşağıdakı təsnifatı ümumiləşdirməsi kimi baxılır:

- ➢ əmək məhsuldarlığı;
- ➢ konkret məhsul növünün ÜDM-də kapitaltutumu vahidi;
- ➢ əsas fondların fondverimi;
- ➢ konkret məhsul vahidi ÜDM-də materialtutumu vahidinin həcmi.

Ölkə *əhalisinin həyat səviyyəsi* ÜDM strukturundan istifadə ilə xarakterikdir. Əhalinin həyat səviyyəsinin təhlili «istehlak səbəti» və «yaşayış minumumu» göstəriciləri ilə təhlil olunur və daha geniş spektrdə aşağıdakı meyarlarla səciyyələndirilir.

- ➢ əmək ehtiyatlarının vəziyyəti /*orta həyat müddəti, əhalinin təhsil və maarifçilik səviyyəsi, adambaşına düşən əsas ərzaq məhsulların kalori proporsiyası, ÜDM-də təhsil xərclərinin həcmi*/;
- ➢ xidmətlər sferasının inkişafı /*həkimlərin sayı, xəstəxana çarpayılarının miqdarı, əhalinin mənzil və məişət cihazları ilə təminatı*/.

Sosial rifah göstəriciləri sistemində təhsil və mədəniyyətlə bağlı göstəricilər də mühüm əhəmiyyət kəsb edir. Sosial sferanın mühüm göstəricilər sistemi sosial müdafiə də əksini tapır.

Sosial müdafiənin ən mühüm elementlərini *pensiya təminatı, tibbi, işsizlik* və *təbii fəlakətlərdən* qorunmanı əhatə edən sosial sığorta təşkil edir. İqtisadi inkişaf və dövləti struktur keyfiyyətindən asılı olaraq sosial müdafiə elementləri üzrə konfiqurativ düzüm müxtəlif səpkidə formalaşır.

Sosial sferanın təcəssüm indikatorlarının statistik şəbəkədə məxsusi təsnifatı mövcuddur. Göstərici çeşidi və forma müxtəlifliyinə baxmayaraq burada prinsiplər mahiyyətcə ümumidir. Bununla belə yaşadığımız məkanda müvafiq göstəricilər sisteminin özünə məxsusluğu da nəzərdən qaçırılmamalıdır. Azərbaycan Dövlət Statistika Komitəsi bu şəbəkədə əməklə bağlı göstəricilərin təhlilində onların təsnifatını və şərhini aşağıdakı kimi verir:

*Əmək ehtiyatları* anlayışı altında əhalinin işləmək qabiliyyəti olan hissəsi başa düşülür. Onların tərkibinə təkcə iqtisadi cəhətdən fəal deyil, həm də hazırda işləməyən və iş axtarmayan əmək qabiliyyəti şəxslərin digər kateqoriyaları, o cümlədən, istehsalatdan ayrılmağa təhsil alanlar daxil edilir. İqtisadi cəhətdən fəal əhali bütün işləyənlərin və işsizlərin məcmusunu əks etdirir. İqtisadiyyatda məşğullara muzdla işləyənlər, habelə muzdsuz işləyənlər aid olunur. Daimi, müvəqqəti, mövsümi, təsadüfi və ya birdəfəlik iş olmasından asılı olmayaraq *muzdla işləyənlər* istənilən mülkiyyət formasındakı müəssisə, idarə və təşkilatın rəhbəri və ya ayrıca şəxslə fəaliyyətin şərtləri barədə yazılı əmək müqaviləsi, kontrakt baglanmış və ya şifahi razılaşma əldə edilmiş, bunun əsasında pul və ya natura şəklində mükafat alan şəxsləri özündə birləşdirən çoxsaylı işçilər qrupunu səciyyələndirir. *Muzdsuz işləyənlər* isə müstəqil olaraq özlərini işlə təmin edən şəxslərdir. Həmişə muzdlu işçilərin əməyindən istifadə edən işverənlər, fərdi əsasda işləyənlər və əməyi ödənilməyən ailə işçiləri bu kateqoriyaya aid edilir.

*Əhalinin miqrasiyası* haqqında məlumatlar daxili işlər orqanları tərəfindən verilən əhalinin yaşayış yeri üzrə qeydiyyatdan keçirilməsi zamanı tərtib gəlmə və getməyə dair statistik uçot sənədlərinin işlənməsi nəticəsi ilə müəyyələşdirilir. *Qaçqınlar və məcburi köçkünlər* haqqında informasiya Azərbaycanın rayon və şəhərlərinin icra hakimiyyəti orqanlarının məlumatlarına istinadən dərc olunur.

Bir sıra dövlətlərin statistikasında əmək resurslarının strukturunda işçi qüvvəsi göstəricisi tətbiq edilir. «*İşçi qüvvəsi*» iqtisadi aktiv əhalinin və əmək bircalarında qeydiyyatdan keçmiş işləmək arzusunda olanların məcmusunu kimi anlaşılır.

Sosial göstəricilər sisteminin önündə insan faktoru dayanır. Bu faktor ilk öncə özünün say tərkibi parametrləri ilə xarakterikdir. Buna görə də sosial situasiyanın dəyərləndirilməsi öncə əhali sayının təyinatından qaynaqlanır. Əhali haqqında məlumatların əldə edilməsi üçün ilk mənbə əhalinin siyahıya alınmasıdır. Əhalinin siyahıya alınması zamanı sorğu olunan hər bir şəxs milliyətini və ana dilini özü müəyyən edir. Uşaqların milliyyəti və ana dili valideyinlərin dediklərinə əsasən yazılır. Əhalinin sayının cari hesablanması əhalinin son siyahıya alınmasının yekunları əsasında aparılır. Hər il bu ərazidə doğulanların və buraya gələnlər əhali sayına artırılır və ölənlər və buradan köçənlər isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalınmanın yekunlarına əsasən əvvəlki siyahıya alınmalar arası dövrdə əhalinin sayı dəqiqləşdirilir [98, 103].

Statistik metodologiyada əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisi qisminində təsnifləşdirilir. Bu halda qanunvericilikləridə müəyyənləşdirilmiş qaydada şəhərlər kateqoriyasına aid edilən yaşayış məntəqələri şəhər yerləri hesab olunur və qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır. Doğum, ölüm, nigah və boşanmalar haqqında məlumatlar Vətəndaşlıq Aktlarının Dövlət Qeydiyyatı orqanları tərəfindən tərtib olunan doğum, ölüm, nigahın bağlanması və pozulması haqqında müvafiq məlumatların statistik cəhətdən hər il işlənib hazırlanması əsasında əldə edilir. Doğulanların sayına yalnız diri doğulmuşlar daxildir. Ölümün səbəbləri haqqında informasiya mənbəyi ölümə səbəb olmuş xəstəlik, bədbəxt hadisə, qətl, özünəqəsd kimi ölüm haqqında şəhadətnamələrindəki qeydlərdən ibarətdir. Bu sənədləri ümumiləşdirilmək üçün ölüm haqqında akt qeydləri ilə birlikdə dövlət statistika orqanlarına göndərilir. Doğum və ölüm göstəriciləri təyin olunmuş müvafiq əmsallar vasitəsi ilə təhlil edilir:



*Doğum və ölüm səviyyəsinin ümumi əmsalları* - təqvim ilində,

müvafiq olaraq doğulanların /*diri*/ və ölənlərin sayının əhalinin orta illik sayına nisbəti əhalinin hər 1000 nəfərinə hesablanır.

*Təbii artım əmsalı* - doğum və ölümün ümumi əmsallarının fərqidir və əhalinin hər 1000 nəfərinə hesablanır.

*Nigah və boşanmalarının ümumi əmsalları* - təqvim ilində qeydə alınmış nigah və boşanmaların sayının əhalinin orta illik sayına nisbətdir və ümumi əmsallar kimi onlar da əhalinin hər 1000 nəfərinə hesablanır.

*Ölümün səbəbləri üzrə ölüm əmsalı* - göstərilən səbəblərdən ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir. Ölümün ümumi əmsallarından fərqli olaraq o, əhalinin 1000 nəfərinə deyil, 100000 nəfərinə hesablanır.

*Körpə ölümünün əmsalı* - bir yaşadək ölənlərin sayının həmin ildə doğulanların ümumi sayına nisbətidir və hər 1000 diri doğulana hesablanır.

Sosial statistikanın ən sayılan və dəyərləndirilən göstəriciləri sırasında həyat səviyyəsini ölçü indikatorları mühüm əhəmiyyət kəsb edir. *Həyat səviyyəsi* - əhalinin zəruri material rifah və xidmətlərlə təminatı, onların istehlakının nail olunmuş həddi ilə xarakterikdir. Analoci mahiyyət sovet statistikasında «xalqın rifah halı» kimi səciyyələndirilmişdi.

Həyat səviyyəsi kontekstində sosial statistika aşağıdakı vəzifələri qarşıya məqsəd qoyur:

- əhalinin həyat səviyyəsini hərtərəfli xarakterizə edən göstəricilər sisteminin işlənməsi və təkmilləşdirilməsi;
- həyat səviyyəsini dinamikasının təhlili;
- həyat səviyyəsini dəyişkənliyinə təsir edən amillərin, qanunauyğunluğunun müəyyən olunması;
- əhalinin regionlar, sosial-demokrafik qruplar üzrə həyat səviyyəsi differensasiyasının təhlili;
- əhalinin material rifah və xidmətlərlə təminatının rasional normalara müvafiqlinin qiymətləndirilməsi.

Həyat səviyyəsi həyat dəyəri və həyat keyfiyyəti kimi sosial indikatorları birləşdirir. *Həyat dəyəri* təsbit olunmuş zaman çərçivəsində rifah və xidmətlər istehlakının pulla qiymətləndirilməsi, *h*əyat *keyfiyyəti* isə ümumi iqtisadi, huquqi və sosial cəhətləri sinez edərək əhalinin öz həyatının müxtəlif istehlak və maraqlar nöqteyü-nəzərindən təminatlığı və razılığı kimi anlaşılır.

Həyat səviyyəsinin və onun keyffiyyətinin yüksəldilməsi iqtisadi artımla müəyyən edilir. *İqtisadi artım* cəmiyyətin məqsədlərinin mühüm indikatoru kimi əmtəə və xidmətlərin təsbit olunmuş vaxt ərzində həcm yüksəlişidir. İqtisadi artımın keyfiyyət və templəri onun tipindən aslıdır. Burada ekstensiv və intensiv tiplər fərqləndirilir.

Ekstensiv artım tempi resursların keyfiyyətini və texnoloji səviyyəni saxlamaqla istehsala əlavə resurslar cəlb edilməsi ilə xarakterikdir.

İntensiv artım tipi məhsuldarlığın texnoloji təkmilləşməni və resurs keyfiyyətini artırmaqla təmin olunur. Hər iki tip eyni zamanda mövcud olaraq müxtəlif mərhələlərdə bir-birinə üstün gəlir.

İqtisadi ədəbiyyatlarda həyat səviyyəsi bir sıra spesevik indikatorları birləşdirir və bu sıraya daha çox aşağıdakılar daxil edilir:

- *firavanlıq* - insan inkişafını hərtərəfli təmin edən rifahlardan istifadəetmə;
- *normal səviyyə* - insanın fiziki və intelektual gücünü rasional, elmi əaslandırılmış normalarda bərpa edilməsi;
- *əmək qabiliyyətinin və işçi qüvvənin təkrar istehsalının müvafiq kasıblıq həddində saxlanılması*;
- *yoxsulluq və səfalət* - rifah və xidmətlərin minimal bioloji meyarlarında əks olunan insanın həyat qabiliyyətinin saxlanılması.

Həyat səviyyəsini xarakterizə edən yuxarıda nəzərdən keçirilən sosial-iqtisadi göstəricilərlər ayrı-ayrılıqda müəyən rifahi mənzərəni canlandırsa da, təbqiqat və inormatik

sferada daha ümümi inteqrir göstəriciyə ehtiyac duyulur. Müasir zamanda belə göstərici qismində «***İnsan potensialının inkişaf indeksi***» /İPİİ/ və ya sadəcə olaraq «İnsan inkişafı» indeksi çıxış edir. İPİİ-nin hesablanmasında gözlənilən orta ömür, əhalinin təhsil səviyyəsi, paritet istehlak qabiliyyətində milli valyutada ÜDM-in adambaşına düşən bölgüsü göstəriciləri şərtləndirilir. Müasir zamanda maksimal ömür 85 il, minimal isə 25 il standart götürülür. Son zamanlar avropalının yaşayış davamiyyəti 80-nə yüksəlmişdir [98, 108].

Müqabil diapazonda təhsil səviyyəsi 0%-100% arası tərəddüd edir. ÜDM-in adambaşına düşən bölgüsünün real səviyyəsi isə 100$ - 40000$ miqyasında müəyyən olunur. Bundan başqa İPİİ səhiyyə təminatı göstəicisində dolğunlaşır. 1990-cı ildən başlayaraq BMT müxtəlif ölkələr üzrə İPİİ-nin səviyyəsi haqqında məlumat və hesabatlar dərcini reallaşdırır.

*Tədqiqatlar müəyyənləşdirmişdir ki, müasir insan ona buraxılan həyat müddətində 22 min kilometr məsafə qət edir, 1,5 il avtomobil sükanı arxasında durur, telefonla 2,5 il danışır, 6 ay yuyunur, 41 milyon dəfə gözünü qırpır və 12 il tam olaraq televizorun qarşısında dayanır. Bu müddət ərzində 8 il işə gedir. Hər 10 nəfərdən yalnız 6-sı öz həyat yoldaşı ilə axıra qədər ömür sürmək imkanında olur.*

Sosial statistika sosiallaşan bazar iqtisadiyyatını material toplumu ilə təhciz edir. Onun informasiyaları və inldikatorlar sisteminin araşdırmadan sosial bazar iqtisadiyyatının mahiyyət və prinsiplərinin anlaşılması mümkünsüzdür. Məhz buna görə də sosiallaşan iqtisadiyyata gedən yolların aydınlığı üçün onun informasiya təminatı öncədən hesaba alınmalıdır.

# VI FƏSİL
# QLOBAL, REGİONAL, LOKOL

## *4.1. Planetin resurslar bazasi və istehsalin konstruktiv paylaşmasi*

İnsan cəmiyyətinin inkişafı dünya iqtisadiyyatı sahələrinin və ayrı-ayrı ölkələrin təsərrüfatlarının yerləşməsinin təbii, ictimai amillərinin əlaqəliliyi və uzalaşması ilə şərtləndirilir. Beynəxalq geosiyasətdə təbii resursları faktoru müstəsna əhəmiyyət daşıyır. Ölkənin təbii resurslar diapazonu kəmiyyət və keyfiyyət çeşidində onun siyasi müstəqilliyinin, iqtisadi təhlükəsizliyinin və dirçələşin təməl bazasını təşkil edir. Yer kürəsində iqlim panaramı, tektonik proseslər həlqəsi, geoloji dövrlərdə faydalı qazıntıların yaranma şərtləri və digər amillərlə bağlı reallıqlar təbii ehtiyatların planetimizdə bölgüsü və yerləşməsi son dərəcə qeyri-bərabər düzülüşdə səciyyələndirmişdir.



Ölkələrin xarakterik xüsüsiyyətlərinin araşdırılması əhali və sahəvi parametrlərdən başlanır. Sonrakı yerlər isə təbii resurslar bazasının ölçüləri konteksində koorelyasiya olunur. Lakin təbii və ictimai faktorlar düzümü bəzən bu parametrələrin konfiqurasiya toplanışını heç də oxşar etmir. Məlumdur ki, ilk iki parametr - ərazi və əhali ölçüsündə kiçikliyi ilə seçilən Küveyt, Qatar və BƏƏ izafi neft ehtiyatlarına malikdirlər. Ərazi və əhali resursları kiçik olan digər bir Yamayka da boksit ehtiyatların çevrəsində liderlik edir. Yeni Kaledoniya isə metal filizi sarıdan ən izaifi bol ölkələr sırasında yer alır. Tarixi reallıqlar belədir ki, ərazi genişliyi inkişafı təkəmüllü xəttlə aparır, kiçik ərazilər isə resursların intensiv və ekstensiv hasilatı ilə müşaiyət olunur.

Təbii resusrlar tərəqqinin mühüm təsir komponenti olsa da, nəqliyyatın və məhsuldar qüvvlərin inkişafı nəticəsində onların yerləşmə aspektindəki nüfuz dairəsi zəifləməkdədi. Sosial-iqtisadi inkişafın artım tendensiyasına təbii resurslarla yanaşı həm də bu gerçəklikdə ehtiva olunan və ondan irəli gələn istehsalın təşəkkülü, formalaşması və yerləşməsi kimi amillərin də təsir dairəsi genişdir [106, 117].

Yerləşmə amillərində prinsipial əhəmiyyəti bölgü kateqoriyası təyin edir. Öz-özlüyündə yerləşmə amilləri *təbii* və *ictimai* olmaqla iki qismə bölünür. Təbii amillər sənaye coğrafiyasında təbii ehtiyatlar və təbii şərait ilə şərtləndirilir. İctimai amillər də isə əsasən ictimai inkişafın qanunları əhəmiyyət daşıyır. İctimai xarakterli amillər arasında sənayenin yerləşməsinə ən çox təsir edənlər - əmək resursları və materiallaşmış kapitaldır. Son zamanlar informasiya resursları, elmi texniki nailiyyətlərin və digər amillərin təsir dairəsi də bu çevrədə tutumunu artırmaqda, həcmini genişlənməkdədir. Bu sferadakı inteqrasiya və dezinteqrasiya proseslərində əhəmiyyətli rolu dövlətin tənzimləyici funksiyası yerinə yetirir.

Təbii faktorlar bütün təbii resursları əhatə edir. Buraya enerji, xammal aqroiqlim, torpaq, su və bu kimi resurslar aiddir. Resurslar *bərpaolunan* və *bərpaolunmayan* təslifata malikdir. Onların çeşidi spektri də ayrı-ayrı iqtisadiyyat sahələri üçün müxtəlifdir. Planetin təbii resurslar bazasına ən ümumi formatına aşağıdakı komponentlər aid edilir:

- ❋ energetik resurslar;
- ❋ su resursları;
- ❋ torpaq resursları;
- ❋ mineral resurslar;
- ❋ flora və fauna resursları;
- ❋ iqlim və rekreasiya resursları;
- ❋ məkan və zaman resursları.

*/Əlavə 5-də planetin resurslar bazası kəmiyət və keyfiyyət xarekteristikasını ifadə edən cədvəl verilmişdir/.*

Məlum faktdır ki, dünya iqtisadiyyatında mineral xammal sektoru ilk növbədə sənaye məhsulunun istehsalının bazasını təşkil edir. Beynəxalq ticarətdə xammalın hasilatı və istehlakı ayrı-ayrı ölkələrin sosial-iqtisadi durumuna təsir etməklə yanaşı, həm də qlobal xarakter

daşıyaraq bütövlükdə dünyadakı resursların vəziyyətində təsbit olunur.

Ehtiyatlar koteqoriyası olduqca dinamik meyllidir. Onların ölçüləri ETT nəticəsində təbəlludatlara uğrayır. Hələ ki, bu proses inkişaf istiqamətlidir. Bu da planetin təbii resurslar bazasının son yetərli öyrənilməməsi faktorundan irəldi gəlir. Belə ki, dəmir, marqans, mis, kobalt və digər minerallar ehtiyatlarının əksəriyyəti okeanların dibində cəmləşmidir. Bununla belə əksər inkişaf etməkdə olan ölkələrdə ehtiyatlar potensial zəif öyrənilmiş və hesablanılmışdır. Bir qisim tədqiqatçılar müvafiq resurslar bazasının mütləq əksəriyyətinin kəşf olunduğunu, digərləri isə bu sahədə hələ çoxlu işlər görüləcəyin qeyd edirlər. Reallıq isə ondan ibarətdir ki, planetin resurslar bazasının son kəmiyyət və keyfiyyət ölçüləri qətiləşməmiş qalmaqdadır.

Real həyatda əlavə resursların cəlb edilməsi xərclər artımına və bahalaşmaya gətirərək istehsal artımının səmərəsizliyi ilə müşayiət olunur. İstifadə olunan resursların xalis mexaniki artımı istehsal faktorlarının azalan verim qanunu ilə ziddiyyət təşkil edir. Digər mənada əlavə istehsal faktorunun tətbiqi ilə onun məhsuldarlıq həddi azalır. İstifadəsiz resurslar izafiliyi də iqtisadi artıma təsir edir. Belə ki, əmək resursların Afrika və Asiya ölkələlərdə dinamizmıı kapital ilə müşayiət olunmur. Bu da öz növbəsində sosial proqramlara tələb olunan xərcləri yüksəldir. Alınan gəlir istehlaka məsrəf olunur, yığım və investisiyaların səviyyəsi isə artımı təmin edə bilmir. Kapital bolluğu izafi güc formasını alaraq xərcləri və informasiya artımını stimullaşdırır.

Beynəxalq əmək bölgüsü sistemində bir qayda olaraq inkişaf etmiş ölkələr xammal resurslarının istehlakçısı, inkişaf etməkdə olan ölkələr isə onların istehsalçısı və ixracatçısı kimi çıxış edirlər. Eyni iqtisadi məkanda təbii ehtiyatların mövcudluğu sənaye istehsalının, ümumiyyət isə iqtisadiyyatın əlavə inkişafına səbəb olur. Bununla yanaşı təbii ehtiyatların bol olduğu ölkələrdə çox hallarda onlardan israfçılıqla istifadə edilir. Ək qütbdə isə, yəni təbii resursların qismən məhdudluğu məkanında ETT-nin geniş inkişafına rəğmən resusrlardan səmərəli istifadəyə strategiyası hakim kəsilmişdir. Bu da həmin ölkələrdə iqtisadi inkişafın səviyyəsi ilə şərtlidir. Müvafiq reallığa əyani nümunə kimi lazımı mineral xammalın ABŞ-da 15-20%-nin, Qərbi Avropa ölkələrində 70%-ə qədərinin, Yaponiya isə 90%-dən çoxunun idxal potensialına əsalandığını göstərmək olar [77].

Göründüyü kimi, iqtisadi artım yalnız resursların nağdlılığı yox, onlardan səmərəli istifadə kombinasiyaları qurmaq təşkil edir. Hər bir resurslar digərindən aslı olaraq dəyişkənliyə məruz qalır. ETT-nin inkişafı az xammal, material və enerji tutumlu texnologiyaların yaranışı, yeni enerji və xammal növlərinin mənimsənilməsinə və başlıca olaraq məhdud təbii ehtiyatlardan geniş istifadəyə rasional yanaşma ənənəsi gətirir. Bu xüsusiyyət iqtisadi tərəqqi etmiş çox azsaylı ölkələrə xasdır.

Dünya iqtisadiyyatında təkamüllü formalaşma kontekstində təbii resursların yerləşməsi aspekti ilə yanaşı istehsalın yerləşməsi nəzəriyyəsinin də əhəmiyyəti mühümdür. Bu nəzəriyyənin iki yüzillik salnamə tarixinə malikliyəinə baxmayaraq onun əsl intibah zamanı ötən əsrə təsadüf edir.

Alman iqtisadçısıları Yoqan Henrix Tyunen /1783-1850/, Karl Vilhelm Fridrix Launxardt /1832-1918/, alman şərqşünansı Albert Fridrix Veber /1868-1958/ tərəfindən əsası qoyulan istehsalın yerləşməsi nəzəriyyəsi XX əsrin birinci yarsında intensiv davamlılıq əldə etdi.





H.Tyunen V.Launxardt A.Veber

İstehsalın yerləşməsi nəzəriyyəsi müvafiq intensiv davamlılıq aspektində əsaslı olaraq üç

istiqamətə ayrılır:

- ✦ klassiklərin ənənəsini davam etdirən «təmiz» /*dəqiq, nəzəri konstruksiya*/ nəzəriyyənin qurulması;
- ✦ yeni amil, şərt və aspektləri əhatə edən daha geniş nəzəriyyənin yaradılması;
- ✦ iqtisadi tarazlıq müstəvisinin modelləri əsasında yerləşmə nəzəriyyəsinin konstruksiyalaşdırılması.

*«Təmiz» yerləşmə nəzəriyyəsi* üçün nisbi sadə situasiya və problem seçimində dərin kəmiyyətli analiz xarakterikdir. Bu analiz riyazi düsturlana əsaslan məkanın hədəsi ölçüləri və iqtisadi davranışın dəqiq qaydalarının təyinatı ilə səciyyəvidir. Qeyd olunmalıdır kı, təmiz yerləşmə nəzəriyyəsi Y.Tyünenin «Təcrid olunmuş dövlət» və V.Launxardtın «Sənaye müəsissənin yerləşməsi» konsepsiyalarından quruluş almışdır.

Yeni amil, şərt və aspektləri əhatə edən *daha ümümi nəzəriyyəsi* isə əlavə olunana və ümumləşdirilən yanaşma və nəticələri birləşdirir. Bu nəzəriyyə üçün dəyişən qiymətlər, renta, tələb və təklif funksiyaları və digər dinamik elementlər tətbiq etməklə xərclərin minimumlaşdırılması, gəlir və mənfəətin maksimallaşdırılması strategiyası xarakterikdir.

*İqtisadi tarazlıq müstəvisinin modeli nəzəriyyəsi* digərləri ilə müqayisədə fövqaladə mürəkkəbliyi ilə fərqlənir. Belə model yerləşmənin bütün özəl nəzəriyyələrini sintez edərək hərtərəfli riyazi qaydalılıq və hesablama tələblidir [82, 117].

Təbii şərait və resurslar mövcudluğu istehsalın yerləşməsini şətləndirən mühüm amildir. Məhz bu konfiqurik vəhdət təbii resurslarla istehsal yerləşməsinin mobtlliyini artıraraq onu balaslaşdırır və uyğun mülayim həddə yetirir.

Sosiallaşan iqtisadiyyat nə qədər insan idrakına arxalansa da onun reallaşması digər iqtisadi resursların da mövcudluğunu tələb edir. Burada hipotetik görüntü deyil, real varidat dominantdır. Bütün maddi və mənəvi resurslar insan idrakının elmi-emprik kombinasiyalarına söykənərək inkişaf mexanizmi əldə edir. Buna görədə sosiallaşan iqtisadiyyatın formalizasiyası və onun tədqiq analizi resurslar nağdlığının təhlili ilə uzlaşdırılmalıdır.

## *4.2. Ölkələr tipologiyasi: mahiyyət və əhəmiyyət diapozonunda*

Müasir dünyada müəyyən ərazidə məskunlaşmış beynəlxalq hüququn subyekti kimi de-yuro və de-fakto qəbul edilmiş, dövləti sənədləşmiş müstəqil və ya özünü idarə edən insan birlikləri 230-dan çox dövlətdə cəmləşmişdir. Bunlardan 184 dövlət BMT-nin üzvüdür /*01.01.2004*/ Yer kürəsinin bu ilk makrokosmik tərkib hissələri öz sahəsi, əhalisi, iqtisadi-mədəni inkişafı, etnik, milli xüsusiyyətləri və yerləşməsinə görə də müxtəlif çalarlıdırlar. Bundan başqa obyektiv olaraq bu dövlətlər tarixən təşəkkül tapmış onlara məxsus inkişaf xarakterinə, xüsusiyyətlərinə, bəşəri tarixinin indiki mərhələsindəki və dünya təsərrüfat sistemindəki roluna, yerinə müvafiq olaraq da təsnifata məruz qalmışlar. Ölkələrin rancir və reytinq düzümü müxtəlifliyi ilə fərqlənir.

Dünya bankının və BMT-nin ticarət və inkişaf konferensiyası YNKTAD-a görə ölkələrin reytinq düzümü əsasən bu dövlətlərdə adambaşına düşən ÜDM ilə ölçülür. Lakin buna baxmayaraq heç bir göstərici ölkələrin tipoloci xüsusiyyətlərin ayrılıqda tam əks etdirə bilməz. Mükəmməl tipologiya göstəricilərin və onların unikal əlaqələndirilməsinin maksimal diferensiyasını tələb edir. Çox məsələlər isə bu ölkələrdəki sivilizasiyanın dayanaqlılıq xüsusiyyətlərinin təsiri ilə xarakterizə edilir. Ölkə inkişafının real səviyyəsinin görüntü aydınlığı onun digər ölkə ilə



müqayisəsində anlaşılır. Burada yalnız ÜDM səviyyəsi kamillik şərti kimi qəbul olunmur. Yeni məhsul istehsalının dövriyyəsi, emalın ölçüləri, industrial səviyyə, aqrar sektorun inkişafı, nəqliyyat-kommuniukasiya optimallığı, infrastruktur, xidmət və sofitizasiya amilləri mühüm əhəmiyyət daşıyırlar. Ölkə də istehsal məhsuldarlığı və onun yeni assortimentlər yaratması, elmi-texniki, innovasion məhsul verimi, idxal və ixrac potensialı və onun balaslılığı kimi göstəçricilər

də reytinq düzümünü formallaşdırır. Sonda bütün məhsulldarığın adambaşına düşən ölçüsü bütün şərtləri daha da kəskin və effektivli edir.

İnkişaf etməkdə olan ölkələrə yadım məsələsində BMT-nin ixtisaslaşdırılmış təsisatlarından biri kimi Dünya Bankı fəal iştirak edir. Bu bankı bəzən Beynalxalq Yenidənqurma və İnkişaf Bankı və Beynalxalq İnkişaf Assosasiyası da adlandırırlar.

Aşağı gəlirlərə malik ölkə hökümətləri DB-dən qrantlar, faizsiz borclar və texniki yardımlar alırlar. Bu borclar 35-40 illik müddətləri əhatə edir və həmin müddətin 10 ili güzəşli dövr kimi qəbul olunur. Belə maliyyə resurslu yardımları dünyada mühüm maliyyə institutu olan BİA-da təqdim edir. BİA-nın kreditləri DB tərəfindən ayırılan maliyyə yardımının ¼ təşkil edir. BYİB-dən borc alan ölkələrin isə kommersiya banklarına nisbətdə kredit qaytarma imkanı daha uzun müddəlidir. Bu kreditlər 3 ildən 5 ilə qədər güzəşli dövrü əhatə etməklə 15-20 il müddətinə verilir. Muvafiq borcları alan ölkə həmən vəsaitləri konkret proqramlar əsasında, xüsusən yoxsulluqun aradan qaldırılması, sosial xidmətlərin göstərilməsi, ətraf mühitin qorunması və iqtisadi artım templərin yüksəldilməsinə məsrəf edirlər. Praktiki olaraq BYİB öz resurslarını dünya maliyyə bazarlarında səfərbər edir.

«AAA» reytinqinə malik olaraq DB sonradan aşağı faizlərlə kreditlər vermək üçün maliyyə resurslarını səfərbər edən istiqrazlar buraxır. DB-nin tərkibinə BYİB və BİA-dan başqa daha üç təşkilat daxildir:

- Özəl sektora investisiyalar cəlb edərək yüksək risklə bağlı olan ölkə və sahələrə yardım verən Beynəlxalq Maliyyə Korporasiyası;
- İnvestor və kreditorları siyasi riskdən sığortalayan İnvestisiya Təminatları üzrə Çoxistiqamətləi Aqentlik;
- Beynəlxalq investorlarla onları qəbul edən ölkələr arasında mübahisələrin həlli ilə məşqul olan İnvestisiya Mübahisələrini Tənzimləyən Mərkəz.

DB müxtəlif ölkə tiplərinə kreditləri təyin edilmiş təsnifat və meyarlar üzrə verir. Burada əsas göstərici kimi UDM-in müvafiq Atlas metodu ilə hesablanan adambaşına düşən nisbəti götürülür və kredit vermədə DB aşağıdakı ölkələr qrupunu təsnifləşdirir:

- Kiçik gəlirli ölkələr - /745$-ə qədər/;
- Gəlirləri orta səviyyədən yüksək olan ölkələr - /2975$-9205$/;
- Yüksək gəlirli ölkələr - /9206$-dan çox/.

DB-də ölkələr və reqionlar üzrə gəlirlər toplusu hər il 1 iyul tarixinə hesablanaraq hazırlanır. Bu rəsmi analitik tətifatlandırılma 30 iyun tarixində bitən DB-nin maliyyə ilində təsbit olunur. Borclar təsnifatına görə isə hər il yanvar ayının sonuna korrektələr aparılır.

Ölkə tipinin müasir strukturu tarixi təkamülün şərtləri fonunda təşəkkül tapmışdır. Onun sistem mükəmməliyi daha çox kapitalizmin inkişafı ilə bağlıdır. Məhz kapitalist münasibətlərinin inkişafı yeni kardinal tipli dövlət modelinin yaranışına rəvac vermişdir. Müasir zamanda model sistemi daha qabarıq ahəng almışdır. Buna görə də yeni reallıqlar fonunda ökələrin iqtisadi inkişafı onların seçdiyi iqtisadi modellərdə də xarakterizə edillir [121].

Dövlətin büdcəsinin, ticarət və tədiyyə balansının formalaşması, portnyorluq, xarici ticarət əlaqələrinin tənzimlənməsi və digər bu amillər dairəsinin əlaqələndirilməsi, iqtisadi inkişafın strategiya və taktikası dövlətin subyektiv seçimdə əks olunur. İqtisadi model yaxın müddətli məqsəd və gözlənilən inkişaf seçimindən asılı olaraq hakimiyyət keçidləri ilə əlaqədar da müvafiq dəyişikliklərlə məruz qalır. Model ölkə tempinin təkamülünə təsir etsə də ondan asılığı o qədər də ciddi deyildir. Buna misal olaraq indi dəbdə olan monitar, neoliberal iqtisadi modellər aktiv olaraq yüksək inkişaf etmiş və həm də geridə qalmış, xüsusən də keçmiş sosialist ölkələrində tətbiq edilməkdədəir.

Qəbul olunmuş qaydaya görə bütün ölkələr dünya iqtisadiyyatında və beynəlxalq münasibətlərdə mövqeyinə görə əsasən 3 qrupa bölünür:

I. İqtisadi inkişaf etmiş dövlətlər;
II. Orta inkişaf səviyyəli və aralıq qrup ölkələr;
III. Zəif inkişaf etmiş ölkələr /*BMT-nin adlandırğığı kimi inkişaf etməkdə olan ölkələr*/.

**İqtisadi inkişaf etmiş dövlətlər** haqqında mülahizə yürüdərkən qeyd olunmalıdır ki, bu dövlətlər demək olar ki, hamılıqla postindustrial inkişaf mərhələsinə qədəm qoymuşlar. Burada kənd təsərrüfatının ÜDM-də xüsusi çəkisi stabilləşmiş, sənayeləşmə həcmi optimal həddə çatmış, xidmətlər sferası 60-70% həcmlərini fəth etmişdir. Xarici iqtisadi əlaqələrdə bu dövlətlər çox yüksək diversifikasiyalı ixraca nail olmuşlar. Bütün bu ölkələr iqtisadi parametrlərə görə də öz qrupları içərisində fərqli mövqe tuturlar.

- Baş ölkələr;
- İqtisadi inkişaf etmiş kiçik ölkələr;
- «Köçürmə kapitalizmi» ölkələri.

*Baş ölkələr* sırasına böyük altılar: ABŞ, Yaponiya, AFR, Fransa, İtaliya, İngiltərə daxildirlər. Dünyanın nəhəng 500 qeyri-maliyyə korporasiyalarının 80%-u bu ölkələrin payına düşür Qeyd etmək lazımdır ki, beynəlxalq altılıq özünün beynəlxalq siyasi institutunu yaratmış, ziddiyyətlərin həlli, strateci perspektivlərin işlənib hazırlanması məqsədi ilə yüksək səviyyədə müntəzəm görüşlər keçirən bir təşkilata çevrilmişdir. Statistik məlumatlara görə böyük 6-larda istehlak olunan ilkin enerji daşıyıcılarında neftin xüsusi çəkisi Yaponiyada 54%, ABŞ-da 38%, İngiltərədə 37%, Almaniyada 43%, Fransada 42%, İtaliyada isə 55%-dir.

Böyük altılar birliyinə neytrallaşdırıcı və balanslaşdırıcı element funksiyalarını yerinə yetirən, ABŞ-la sıx siyasi-iqtisadi əməkdaşlıqda olan Kanada da cəlb edilmişdir. Bu yolla altılıq yeddiliyə çevrilmişdir. Lakin Kanada öz tarixi xüsusiyyətləri insan, sənaye potensialı və xarici iqtisadi əlaqədar kompleksinə görə, digər tip dövlətlərə aid edilir. Məsələn, «Beş yüzlər» klubunun kapital iştirakında altıların sonuncusu İtaliyadan 5 dəfə və eyni zamanda müəyyən qədər də İsveç, İsveçrə, Avstraliya, Cənubi Koreyadan da geri qalır.

Sovetlər İttifaqının süqütundan sonra onun varisliyi rolunda çıxış edən Rusiya dünya arenasına yeni keyfiyyətdə konseptual-nəzəri görüntüdə demokratik və bazar prinsiplərini qəbul etmiş bir ölkə kimi daxil olmuş, ABŞ və Qərblə yaxınlaşmada iqtisadi əməkdaşlıq kursu götürülmüşdür. Rusiyanın böyük iqtisadi potensialı, hərb-siyasi çəkili dövlət olduğu və digər bu kimi mühüm cəhətlərini də nəzərə alaraq 7-lər klubunun müəyyən işlərində onun iştirakı təmin edilmiş və beləliklə, 7-lər formal olaraq 8-lərə çevrilmişdir. Bu gün 6-lar qrupu daha çox 8 formatında çıxış etməyə başlamışdır. Lakin 8 bücaqğılıq daha çox siyasi birliyi ehtiva edir. Buna görə də onun iqtisadi kökləri kövrək təməllidir.

*İqtisadi inkişaf etmiş kiçik ölkələr* qrupunu əsasən Qərb Avropanın İçveçrə, Avstriya, Belçika, Hollandiya, Skandinaviya ölkələri, Finlandiya və digər dövlətlər təmsil edirlər. Ümumi toplumda nəzərdən keçirilən ölkələr kiçik istisnalar olmaqma əksərən mühüm beynəlxalq, hərbi-siyasi, maliyyə-iqtisadi təşkilatlarda, o cümlədən, «İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı», kreditor ölkələrin qeyri-formal birliyi - «Paris klubu», kommersiya banklarının, kreditorların rəsmi borc alanlarla danışıqlar aparan təşkilatı - «London klubu», Şimali Atlantika - NATO hərbi siyasi bloku, Avropa Birliyi, ATƏT və sair təşkilatlarda birləşmişlər.

*«Köçürmə kapitalizmi» ölkələr* qrupunu əsasən Kanada, Avstraliya, Yeni Zellandiya, Cənubi Afrika Respublikası və İsrail təmsil edirlər. İlk dörd ölkə Böyük Britaniya kalonizasiyasının törəmələridirlər. Faktiki olaraq bütyün bu ölkələr feadol qurluşu keçmədən immiqrantlar hesabına öz dövlətlərini yaratmışlar. Hazırda bu ölkələrdə nəhəng sənaye potensialı formalaşmış, onlar bir sıra nüfuzlu TMK-ların ana ölkələrinə çevrilmişlər. Bu ölkələrin səciyyəvi xüsusiyyətlərini isə başlıca olaraq /*İsraildən savayı*/ müstəmləkə mərhələsində olduğu kimi, yenə də dünya iqtisadiyyatında xarici ticarətdə aqrar xammal ixtisaslaşmasını ilə fərqlənməsi təşkil edir.

**Orta inkişaf səviyyəli və aralıq qrup ölkələr** qrupu geniş nomenklaturlu deyildir. Lakin geniş olmayan bu tipoloci strukur da müvafiq subtəsnifata malikdir:

- Qərbi Avropanın orta inkişaf etmiş ölkələri;

✯ Mərkəzi və Şərqi Avropanvın orta inkişaf etmiş ölkələri.

Qərbi Avropanın orta inkişaf etmiş ölkələri sırasına İspaniya, Portuqaliya, Yunanıstan və İrlandıya daxildirlər.

Mərkəzi və Şərqi Avropanvın orta inkişaf etmiş ölkələri sırasını isə əksərən postsosialist dövlətləri təmsil edirlər.

Yeni inkişaf templəri bu konfiqurasiyanın sərhədlərini yumaq ərəfəsindədir. Belə ki, Avropanın birləşməsi prosisi bu qütbülüyü mülayimləşdirmişdir. Artıq 2000-2004-cü illər ərzində AB və NATO-nün sərhədləri genişlənmiş və ölkə tiplərinin fərqlilik diapozonu bu çevrədə daha da daralmışdır.

**Zəif inkişaf etmiş ölkələr** tipi ən böyük toplumu əhatə edir. Müvafiq siyahıya planetin 75% əhalisini cəm edən Asiya, Afrika, Latın Amerikası və Okeaniyanın çeşidli ölkələri daxildirlər. Bu ölkələrdə kapitalist münasibətlərinin inkişafı xeyli ləngimiş və onların əksəriyyəti müstəmləkə zonasını əhatə etmişlər. Lakin bu sırada tam hamar deyildir. İqtisadi, ölkənin əhali və sahə həcmi parametrləri onlarında fərqliliyinin əsaslandırmışdır. Burada *əsas ölkələr* tipini - Braziliya, Çin, Hindistan, Pakistan, Türkiyə və Meksika kimi dövlətlər təmsil edirlər. Digər təsnifatda isə *kapitalizmin yetkin inkişafı* ərəfəsində olanlar yer tuturlar. Buraya isə aşağıdakı tipoloji bölgü xasdır:

- ilkin asılı kapitalizmin köçürülmüş ölkələri - Argentina, Uruqvay;
- kapitalist inkişafın nəhəng anklav ölkələri - Venesuella, Çili, İran, İrak, Əlcəzair;
- xarici inkişaf oriyentirli ölkələr - Kolumbiya, Peru, Misir, Tunis, Filippin;
- plantasiya təsərrüfatdan asılı kiçik ölkələr qrupu - Kuba, Nikaraqua, Qnduras;
- konsessiyalı inkişafın kiçik ölkələri - Yamayka, Suriam, Qabon, bostvana;
- kiçik və balaca ölkələr - Böyük Kayman, Yeni Kolidoniya, Malta, Kipr;
- böyük olmayan neft ixracatçısı ölkələri - BƏƏ. Qatar, Səudiyyə Ərəbistanı, Bruney;
- nəhəng kiçik gəlirli ölkələr - İndoneziya, Banqladeş, Nigeriya.

Bununla belə ölkələr ictimai-siyasi oriyentasiyasına görə də fərqlənirlər. Bu sırada tipik olaraq kommunist recimli ölkələr daha çox təsnifat çələnginə ahəng gətirir. Bir partiyüalı kommunist recimlər Şimali Koreya, Kuba, Vyetnam və Çində təzahürlərini qorumaqdadırlar [76, 82, 120].

Hər bir ölkənin səciyyəvi cəhətlərinin təhlili iki əlamətdar göstərici - sahə və əhali parametrləri ilə ölçülür. Müasir iqtisadi inkişaf diapozonunda bu parametrlər xüsüsi əhəmiyyət daşıyırlar. Sahə və əhali sayı ölkə manevrliyinin və mobiliyinin trasformasiyasında ən mühüm vektorial kefiyyət və kəmiyyəti xarakterizə edir.

Sahə təbii resursların çeşidi geosiyasi və hərbi düşərgəlik imkanlarını artırır, dövlətə yeni təbəllüdatlarda inkişaf və transformasiya üçün imkanlar açır.

Əhali sayı əmək resurslarının, daxili bazarın və hərbi potensialın ölçülərində əks olunur. Müasir reallıqlar belədir ki, çağdaş zamanda, indiki şərtlər və şərait kontekstində heç bir ölkə azı 50 milyon əhalisi olmadan «nəhəng dövlət» roluna iddia edə bilməz.

## *4.3. Lokal iqtisadi rayonlaşma*

Fransız mənşəli istilah olaraq *rayon* hərfi mənada şua, qövs anlamlarını ifadələndirir. Təcrübələnən geniş interpetasiyada isə rayon hər hansı bir ərazi bölgü sistemində taksonomik vahidi səciyyələndirən qenesiz və qarşılıqlı rabitəli komponentlər vəhdətində akvatoriyanın da şamil olunduğu bütöv terretorial məkanı təcəssüm etdirir. «*Rayon*» və «*reqion*» anlayışlarının sinonimatik əlaqəliliyinə nəzərən praktikada geniş diapozonda daha çox reqion kateqoriyası tətbiq olunur.



Ölkələr birliyində ehtiva olunan regional vahid, dövlətdaxili regionalaşmadan bir sıra spesifik cəhət və xüsusiyyətləri ilə fərqlənir. Ölkənin daxili strukturuna uyğun olaraq regional

sistem nəzəri və empirik aspektdə əksərən iqtisadi rayonlaşma kimi təcəssüm olunur.

***İqtisadi rayonlaşma*** xalq təssərüfatının ixtisaslaşmış hissələri və onlar arasında qarşılıqlı rabitədən törənən istehsal güclərinin ərazi strukturda quruluşunu ehtiva edir. Bu proses ölkənin inzibati-ərazi sistemi ilə sıx əlaqədar olaraq əməyin coqrafi bölgüsünün nəticəsində istehsal, resurs, sosial və siyasi xarakterli faktorların məcmu təsirindən formalaşır. Burada təyinedici amil kimi ixtisaslaşma çıxış edir. İxtisaslaşma ölkənin ayrı-ayrı hissələrinin malik olduqları məxsusi təbii, tarixi, sosial-iqtisadi xüsusiyyətlərinə nəzərən əmək bölgüsündə məhsul və xidmətlərin istehsalının müəyyən növləri üzrə təyinatda dövlət əhəmiyyətli sahələrin reqional üstünlükdə irəliləyişinə təkan verir.

İqtisadi rayonlaşma aşağıdakı üç əsas formatik vəhdətdə quruluş alır:

I.iqtisadi. - *ölkənin vahid xalq təssərufatının müəyyən yardımçı və xidmətedici istehsallarını əhatə edən ixtisaslaşmış ərazi hissəsi kimi*;

II.milli: - *rayonun əhalisinin milli tərkibinin tarixən ənənələşmiş əmək, mədəniyyət, məişət və sonrakı yeni yaranışlarının birləşdirən kontekstdə*;

III.inzibati: - ölkənin inzibati-ərazi quruluşunu və iqtisadi rayonlaşma vahidliyini təyin edərək müstəqil səmərəli inkişaf və ərazi əmək bölgüsündə rolunu möhkəmləndirən aspektdə.

Daha geniş təsnifatda iqtisadi rayonlaşma aşağıdakı prinsiplər üzrə təsnifat tapır:

- *müstəqillik prinsipi* - hər bir region iqtisadi və sosial suverenitetə, ərazinin sosial-iqtisadi və siyasi inkişafının strateci və taktiki məsələlərinin həllində nisbi müstəqilliyə malik olmalı;
- *özünüinkişaf prinsipi* - regionların inkişafı daxili təzadlar və əksliklər əsasında yerli potensialdan istifadədə təmin edilməli;
- *özünütəminat prinsipi* - ilk vacib tələbat malları və əmətəələrin başqa bölgələrdən alınması ilə yanaşı, üstün nisbətdə daxili istehsala əsaslanan regional bazarın formalaşdırılması zəminində təchiz olunma;
- *nümayəndəlik prinsipi* - aşağı taksonomik ranqlara malik rayonlar yuxarı instansiyalara idarəetmənin ayrı-ayrı funksiyalarını deyil, həm də ərazinin əlahiddə obyekt və hissələrini də həvalə edirlər;
- *özünüidarəetmə prinsipi* - hər bir regionda təsbit olunmuş hüquq və funksiyalara müvafiq olan sərbəst idarəetmə orqanları yaradılimalı;
- *özünümaliyyələşdirmə prinsipi* - regionun daxili büdcəsi başlıca olaraq ərazi mənbələri hesabına formaladırılmalı;
- *sosial qanunluluq prinsipi* - hər bir insanın hüquqlarının və bütün təsərrüfat obyektlərinin fəaliyyətinin aktiv formada reallaşdırılması, nümayəndəlik, icra hakimiyyəti və bələdiyyələrin üçün ərazi inkişafı təmin edən bütün müvafiq qərarlar paketində təcəssüm olunmalı.

İnzibati-ərazi qurumlarda sosial-iqtisadi proseslərin tənzimlənməsi daim mürəkkəb məsələlər sırasında olmuşdur. Müasir industrial sistemin təşəkkülü və irəliləyişi müstəvisində də qlobal inkişaf senarisinə, sosial tərəqqi templərinə uyğun bitkin palitralı yerli resurslar bazasına maliklik və siyasi-iqtisadi potensiallılıq faktorları yer almışdır. Müqabil meyarlar və elementlər şəbəkəsində olmaqla iqtisadi rayonlaşma həmçinin reallaşma aspektində də adekvat tələblər ehtiyacında bulunur. Bu tələblər isə başlıca olaraq tənizmləmə və idarəetmə vektorları ilə bağlanılır. Bütün müasir iqtisadi sistemlərdə olduğu kimi iqtisadi rayonlaşma şəbəkəsində də dövləti müdaxilə və tənzimlənmə dolayı /*iqtisadi*/ və birbaşa /*inzibati*/ olan iki mühüm metod əsasında reallaşır [66, 76, 106].

Əlbəttə ki, bazar təsisatlı recimlərdə maliyyə-kredit strategiyasına əsaslanan iqtisadi metod prioritet mövqedə dayanır və bu çevrədə onun əsas alətlərini pul-kredit siyasəti, mütləq ehtiyatlar norması, banklararası faiz və uçot stavkası, Milli Bankın qiymətli kağızlar bazarında dövlət istiqrazları ilə apardığı əməliyyatlar toplumu təşkil edir. İqtisadi metodlarla tənzimləmə iqtisadi rayonlaşma çevrəsində bazar təbiətindən irəli gəlsə də, heç də optimallığı tamılıqla şərtləndirmir. Bu sıra da inzibati metodlarla tənzimləməyə də yer ayrılır. Belə zərurət xüsusən dövlət

inhisarının hakim olduğu, direktiv planlaşdırma, xərclər və qiymət nisbətlərinin üstün mövqedə dayandığı ümumi və zonal iqtisadi mühitdə əhəmiyyətini nümayiş etdirir. Bununla belə iqtisadi rayonların menecmenti prosesinin müasir spektrində iqtisadi təhlil, plan və proqnozlaşdırma, təşkilati, uçot, nəzarət kimi əlahiddə texnoloji funksiyanallığa da əhəmiyyət verilir.

## *4.4. Qlobal və lokal konsensus: qlokalizasiya gerçəklikləri*

Yaşadığımız çağdaş zamanda iqtisadi sferada baş verən təbəllüdatlar sivilizasiyanın ən dərin guşələrinə nüfuz edərək yeni ümum geosiyasi və geoiqtisadi gerçəklikləri inteqrasiya dövriyyəsinə çıxartmışdır. Kürreyi ərzin müxtəlif guşələrində yaşamaqlarına baxmayaraq müasir mərhələdə insanlar qarşılıqlı asılılıq və daha sıx təmaslar sistemində hərəkət etmək zorunda qalmış, *gürəsəlləşmə* - *qloballaşma* adlanan yeni məzmunlu planetar orbitə qoşulmuşlar.



Dünya təsərrüfatının əmtəə və xidmətlərin, kapitalın, işçi qüvvəsinin, daha çox isə maliyyə, informasiya və biliyin təcəssümündə vahid bazara çevrilməsi prosesi olaraq qloballaşma müsbət və mənfi cəhətləri ilə sürətlə həyatımıza daxil olmaqdadır.

Qloballaşma kommersiya və bütün insani fəaliyyəti tənzimlənməyə imkanlar yaradan vahid maliyyə-informasiya məkanını formalaşdırır. Yaşadığımız sivilizasion mərhələnin ən mühüm sosial-inteqrir amilinə çevrilmiş informasiya resursları isə qloballaşma prosesində də dominantlığı ələ almışdır. Müasir zamanda planetin informasiyalıq səviyyəsi elm və texnikanın, enerji, tele-radio-kommunikasiya və peyk rabitəsində ehtiva olunan yüksək texnologiyalarla müəyyən olunur.

Qloballaşmanın axın gücünə vararaq dünya iqtisadiyyatı istənilən ölkənin milli təsərrüfatına əhəmiyyətli təsir göstərir. Hazırda bu proses ümumdünya məhsulunun 60%-ni verərək 70-80% həcmində xarici ticarət və beynəlxalq maliyyəni əhatə edir. Beynəlmilləşmənin yüksək fazası olmaqla qloballaşma həm də neqativ təzahürlüyü ilə ictimai şüurda, iqtisadi və mədəniyyət təfəkküründə dəyişikliklərə rəvac verir, cəmiyyət adaptasiyası üçün çətinliklər, yeni sosial-iqtisadi problemlər yaradır. Dünya bazarının qloballaşması daha çox iqtisadi inkişaf etmiş dövlətlərin mənafelərinə xidmət edərək əks qütbdə olan zəif təsərrüfatlı ölkələrin yüksək tərəqqi əldə etməsinə mane olur. Bu xüsusiyyətinə rəğmən qloballaşma dünyanın bir sıra regionlarında antiqlobal proteslərlə müşaiyət olunaraq milli məhsul istehsalına keyfiyyət və möhkəmlik gətirən vətənpərvər fərdiyyəçilərin simasında məhdudiyyətlərə və təcridə məruz qalır. Qloballaşmanın mənfi meylinə ayrıca götürülmüş sosial-iqtisadi məkanlar sferasında sipər çəkilməsi regionlaşma konsolidasiyasını yeni konturlarla möhkəmlədir. Məhz buna görə də müasir dünyanın sosial-iqtisadi həyatı yalnız qlobal axın sürətində deyil, həm də lokal artım tendensiyasında təyinat tapır [63, 66, 102].

Lokallıq aspektini avtonom fəaliyyət müstəvisi tərənnüm edir. Yunan mənşəli istilah olaraq avtonomiya özüm - *autos* və qanun - *nomos* sözlərinin sintezindən yaranmış və məxsusi qanunauyğunluq mənasını ifadələndirir. Avtonomiyanın Azərbaycan dilindəki parafrazı muxtariyyət isə ərəb mənbəli *muxtar* - ixtiyarı olan, müstəqil, azad və sərbəst sinonimləri ehtiva edir. Ensiklopedik interpretasiyada muxtariyyət-avtonomiya - ümumdövlət konstitusiyası çərçivəsində, daxil özünü idarəetmə hüququ kontekstində dövlətin hər hansı bir hissəsinin dövlət-regional məsələlərinin müstəqil həll edilməsini şərtləndirən lokal inzibati-ərazi qurumu kimi anlaşılır.



Müasir dünyamızda tam avtonom fəaliyyətin iskirini yaratmaq müşkül bir işdir. Daha doğrusu bu sevda heç baş tutan da deyildir. Lokal avtonom fəaliyyət strategiyasında addımlamaq nə qədər də milli və iqtisadi təhlükəsizlik təminatlı olsa da qloballaşma prosesi onun dayaqlarına daim zərbələr edirəcəkdir. Yaşadığımız məqamlarda ölkə və birliklərin qarşılıqlı rabitəsi və dərinləşən inteqrasiyası yeni sosial, geosiyasi və geostrateci əsasda reallaşmaqdadır. Və bu bir

reallıqdır. Sosial-ekoloji faktorlar ön sırada olan geosiyasi gerçəklikləri sıxışdıraraq onu ikinci plana yuvarlatmış, bununla da dünya prioritetlərini təbəllüdatlara uğratmışlar.

Müasir qloballaşma prosesi bütün planeti əhatə edən yeni mümkün ümumi siyasi-iqtisadi, sosial-ekoloji sistem axtarışındadır. Belə bir qlobal strateci sistem layihəsi olaraq «Kontinentlərin böyük qovuşması» konsepsiyası gündəmə gəlmişdir. Müvafiq universal konseptual layihə Roma klubunun «Artım sərhədləri», BMT-nin «Dayanaqlı İnkişaf Proqramı», Rusiyanın Qloballaşma Problemləri İnstitutunun «Qloballaşmanın praktikası» və digər fundomental tədqiqatlardan qaynaqlanaraq YUNESKO-nun dəstəyi ilə bir qrup müstəqil alimlər tərəfindən işlənmişdir. Bu konsepsiyanın əsasında bütün kontinentlərin kommunikasiyasını tam qammada əhatə edən mobil qovuşması prosesi dayanır. Burada ayrı-ayrı kontinentləri əhatəsində çoxfunksional infrastrukturun yaranışını, mühəndis qurğuları, kanallar, süni üzən adaların, körpu və tunellərin inşaası obyektlərində əhatə olunan elmi-texniki və texnoloji-inteqrasiyalı amil kimi məkan-kommunikasiya resursu çıxış edir [94].

«Kontinentlərin böyük qovuşması» layihəsinin ana xəttində konkret təcəssümdə Berinq boğazından yeraltı tunel çəkilişi ilə dəhliz yaradaraq, bütün sivilizasion areallar üzərindən keçərək planetin əksər quru parçasını birləşdirən, eni 80-100, uzunluğu 60 min kilometr olan transkontinental magistral kompleksin inşaası dayanır. Planetin inteqrasiyasında sosial-iqtisadi münasibətlərin yeni harmonik birləşmə mexanizmi olacaq «Kontinentlərin böyük qovuşması» layihəsinin reallaşması yeni texnoloji sistemlərin tətbiqilə 25 trilyon ABŞ dolları həcmində, 20-25 il müddətinə müəyyən olunmuş, özünütəminat dövriyyəsi isə tam 20 ilə hesablanmışdır.

Yeni inkişaf müstəvisinə qədəm qoymuş insan təkamülünün problemlərini yalnız qlobal kommunikasiyon layihələrlə təmin etmək mümkün olmayacaqdır. Biz indi təbiət və cəmiyyətə fərqli yanaşmanı əxzetmədə, biosferin şüur dünyası olan noosferaya keçid epoxasındayıq. Bu epoxal keçid sosium paradiqmasının yeni konstruksiyasını şərtləndirir. Belə ki, XXI əsr insanın tərəqqi strategiyasının əsas meyarını bəşəri istehlak tələbinin miqdarı müqabilində proporsional, uyğun kəmiyyətli istehsalın yaradılmasına, elmi-texnoloji məhsulların hamıya paylaşdırılmasına nailolma ifadə etmədədir. Bu yeni mahiyyətin fundomental reallaşması isə əsaslı dərəcədə qlobal axın və lokal dirçəliş konsensusu ilə mümkün olacaqdır [90].

Qloballaşma və regionlaşma münasibətləri diskutiv predmetlidir. Bir qism tədqiqatçılar onların bir-birlərinin möhkəmləndirdikləri, digərləri isə bu fenomenlərin təzadlı olduğu qənatindədirlər. Qloballaşma və regionlaşma proseslərinə birləşmə və siyasi motivləşmə kimi də baxılır. Onların qarşılıqlı şərtliliyi ***«qlokalizasiya»*** neologizmi yaratmışdır. Əslində, dəqiq interpretasiyada ambivalent strukturlu «qolkalizasiya» termini «qlobal» və «lokal» antonimlərin sintezinin ifadəsidir. Qlokalizasiya qlobal, lokal və ya regional olan siyasi-iqisadi, sosial-mədəni maraq və təməyüllərin uzlaşmasını kimi dövlət tənzimlənməsindən çox submilli və üstmilli səviyyələrlə asılılıqda cərəyan edir.

Qlokalizasiya ilə yanaşı planetdə modern konsepsiya formatında postsivilizasiyalı inqilabi meyl - mondoliziasion proseslər də sürət toplayır. Mondolizasiya bir tərəfdən sivilizasiya moderninin davamı, digər tərəfdən milli dövlətin baza formasının ayıran və dağıdan müasir dünya sistemli planetar dualiz kimi çıxış edir. Ənənəviçiliyə əks qütbdə dayanan mondinalizmin məqsədlərini qlobal ideoloji məkfurədə: irqi, milli, dini təsnifat olmayan və sonda hətta cinsi bölgüyə belə etiraz edən prinsiplər üzərində qurur. Lakin nə qloballaşma və nə də mondolizm vesternizasiya təşviqində bulunmamalı, üstün olaraq sosial və mədəni çoxnövlülüyün sintenizində daha çox yeni translokal, qlakolikazision kefiyyətlərə istinad etməlidir [125].

Sosial-texniki tərəqqi məhz inkişaf edən qlolakalizasiyadır. Ümumdünya siyasəti qlokalizasiya prosesində dövlətlərarası sistemdən daxiliqlobal şəbəkəyə transformasiya olunur. Qlokalizasiya şəbəkəsində çevik kommunikasiyalı rabitə ən böyükdən son kiçiyə, BMT-dən aula, səhradan vahəyə, dəyradan gölməçəyə nüfuz edən vektorial xətt üzərində qurulmuşdur. Müvafiq «recim» Roma klubunun *«qlobal düşün lokal hərəkət et»* prinsipinə tamılıqla adekvatdır. Elə bu baxımdan «qlobal brendlər» işləyən marketoloqlar multmilli və postmodern situasiyada öz kompaniyalarının iflas riskini artırmaq müstəvisində hərəkət etmək

məcburiyyətində qalırlar. Qlokalizasiya isə belə şəraitdə brendinq strategiyasını dəyişərək istehlakçının mədəni xüsusiyyətlərinin maksimal nəzərə alınmasını şərtləndirir. Obrazlı deylimdə qlokalizasiya strategiyasında yalnız əmtəə deyil, tam marketinq kommunikasiyası və hərdən də marketoloqların özlərinin də imici lokallaşdırılır [129].

Qloballaşma planet sakinlərinin inteqrasiya strategiyasının qanunauyğun, qaçılmaz, labüd, obyektiv bir proses olsa da o, bu gün sərbəst məqsədyönlü inkişaf vektoruna malik deyildir. Kortəbii, xaotik dinamikliyi ilə fərqlənən qloballaşmanın mərkəzləşmiş qaydada tənzimlənməsi hələki dünya ictimaiyyati tərəfindən tələb olunmamışdır. Lakin bu nisbi xotikliyi konsensusa gətirən lokal və regional indikatorları mövcuddur. Məhz müvafiq lokal və regional indikatorlar bu planetar hərəkatın hazırki məqamda qapalı tənzimləyiciləri funksiyasını yerinə yetirərək qlokalizasiya prosesləri stimullaşdırır, qlobal inteqrasiyaya nizami ahəng və düzüm gətirirlər.

## *4.5. Regional inteqrasiya prinsipləri*

Planetin yeni keosiyasi və geoiqtisadi düzümündə mühüm yer tütan regionlaşma inteqrasiyanın mühüm forması kimi əhəmiyyətini artırmaqdadır. Əslində regionlaşma və inteqrasiya bir-birini tamamlayan beynəlmiləşmənin təzahür amilləridir. Latınca *integratio* - bərpa olunma, *integrationis* - tam, vahid kimi ifadələndirilən inteqrasiyanın ali məqsədini iqtisadi artım teplərin davamlılığına rəğmən əldə olan resusurslardan maksimal dərəcədə effektli istifadə əks etdirir. Müasir dünyada ölkələrinin iqtisadiyyatlarının obyektiv birləşmə prosesi olaraq inteqrasiya milli təsərrüfatının beynəlmiləlləşməsi şərtliliyinə əsaslanır. Bu proses nəticəsində ölkə iqtisadiyyatı aktiv tempdə dünya təsərrüfatının bir hissəsinə çevrilir.

İnteqrasiyanın əlaməti kimi iqtisadiyyat sferasında ümumi siyasətin formalaşdırılması və reallaşdırılması çıxış edir. Beynəlxalq iqtisadi inteqrasiya əsas beş mərhələdən keçir: *azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, iqtisadi ittifaq* və *iqtisadi və valyuta ittifaqı*. Müvafiq inteqrasiyanın beş pilləsini hələlik AB keçmişdir [76].

İnteqrasiyanın başlıca stimullarını iqtisadiyyatın özündə axtarmaq gərəklidir. Hər bir ölkə öz coğrafi, iqlim və təbii sərvətləri baxımından fərqli səciyyə daşıyır. Bundan başqa diqqətə çəkildiyi kimi, profesional vərdişlər, dövlətçilik və iqtisadi təcrübə kimi təməl komponentləri də ölkənin sosial-iqtisadi fəaliyyətinin mühüm göstəricilərinə təyinat verir.

Ənənəvi inteqrasiya nəzəriyyəsi isə bu və ya digər faktorial reallıqlarla yanaşı başlıca olarq prosesin özünün iqtisadi faktorlarından çıxış edir. Lakin ununtmaq lazım deyil ki, inteqrasiya iqtisadi aspektli olduğu qədər də, siyasi prosesdir. Onun cəzbedici orbitinə keçməzdən öncə hər bir ölkə bu orbitdən nəyi qazanacağını və nəyi qurban verəcəyini ölçməyə məhkumdur. Bu yanaşma meyli isə dövləti istiqlalın təminatı - siyasi doktrina olaraq dövlətin şəxsiyyət, ictimai və dövlət təhlükəsizliyini xarici təcavüzlərdən, terrorizmdən müdafiə edən kompleks tədbirlər sistemi milli təhlükəsizlik və iqtisadi sistemin dinamik, balanslaşdırılmış və effektivli inkişafını təmin edərək sosial problemləri mülayimləşdirən, əhalinin həyat səviyyəsinin yaxşılaşmasını stimullaşdıran iqtisadi təhlükəsizik amililərinin təminatı ilə bağlanılır.

İnteqrasiya obyektiv bir prosesdir və onu heç kim təcrid etmək gücündə deyil. Müasir dünyanın siyasi obrazında avtarkiyalı, ən qapalı ölkə sayılan Şimali Koreya belə məxsusi reciminin mövcudluğunu cüzü də olsa inteqrasiyanın köməyi ilə saxlayır və nizamlayır.

Müasir iqtisadi inteqrasiya modeli açıq regionalizmdə tərənnüm olunur. Onun məqsədinin fövqündə azad ticari sferanın genişlənməsi, insan və kapital axının sərbəst hərəkət missiyası dayanır. Bununla yanaşı inteqrasiya növlər müxtəlifliyi əhatəsində regionlaşma institusional yaranışlalın iqtisadi, texniki, elmi və maliyyə əməkdaşlığının yeni forması kimi çıxış edərək qarşılıqlı diffuziya əsasında öz sferasını genişləndirir.

Sivilizasiyanın müasir entropik fazasında inteqrasiya qloballaşma ilə yanaşı regionlaşmanın da həyati əhəmiyyətini genişləndirərək dünya təsərrüfatının yeni obrazının müəyyənləşməsində mühüm keostrateci amilə çevrilir. İlk olaraq coğrafi birlik vasitəsi ilə təşəkkül tapan regionlaşma

meyli bir tərəfdən qloballaşma prosesinin axınına inteqrasiya qrupları arasında beynəlxalq əlaqələrin liberallaşmasını gerçəkləşdirərək daxil olur, digər tərəfdən isə dünya miqyasında iqtisadi mübadiləni məhdudlaşdıraraq bu prosesə mane olur. Qlobal kontekstdə inteqrasiya və regionlaşma inkişafın təbii vektorlarını təcəssüm etdirərək *fraqmeqrasiya* vəhdətində biri-birini təkmilləşdirir və tamalayırlar.

Qloballaşma və regionlaşma hadisələri çox uzaq tarixi köklərə malik olmasalar da onların son onilliklərdə beynəlxalq arenada təzahür yetkinliyi yeni sosial və intitusional keyfiyyətlər, çoxsaylı iqtisadi elementlər yaratmışdır. İndi müəyyən sektorlarda qloballaşma və regionlaşmanın təzahür elmentlərinin xüsüsiyyətlərini və sərhədlərini qəti müəyyən etmək belə çətinləşmişdir.

Dünyanın regionlaşmasında uzun dövr ərzində tarixən formalaşmış, obyektiv yaranmış ərazi kompleksləri daha stabil xarakter daşıyır. Belə komplekslərin yaranmasında güclü tarixi faktorlar əhəmiyyətini nümayiş etdirir. Müasir dünya makroregionları özünün kökləri ilə insan cəmiyyətinin daha dərinliklərinə gedirlər. Onların rüşeyimləri insan mədəniyyəti, sivilizasiyasının təşəkkülü və inkişafı ilə əlaqələndirilir.

Çağdaş zamanda regionlaşma prosesində mədəni-sosial komponentlər daha qabarıq nəzərə çarpır. Buraya məhsuldar qüvvələri, istehsal münasibətlərini, istehlak predmetlərini insan tərəfindən yaradılmış mədəni landşaftı əhatə edən - *material mədəniyyət*, yazı, ədəbiyyat, dil, əxlaq, adət-ənənə, etik baxışlar, din, ideologiya, fəlsəfə, hüquq, incəsənət və təhsildə ehtiva olunan - *mənəvi mədəniyyət*, sosial təminat, səhiyyə, siyasi qruplaşma, partiyalar, ictimai təşkilatlar, silahlı qüvvələr, dövlət və idarəetmə sistemini birləşdirən ictimai institutlar - *sosial mədəniyyət* daxildir [106].

Bu üç sistemaltı material, mənəvi və sosial mədəniyyət hər bir millət üçün böyük müstəqil əhəmiyyət daşıyır. Bununla belə mədəniyyətin bütün komponentlərində generator funksiyasını məhsuldar qüvvələr ifadə edir. Onun səviyyəsi və inkişafı həlledici sürətdə istehsal münasibətlərinə təsir göstərir. Bu təsir dairəsinə həm də insanların maddi və material tələbləri daxildir. Bununla belə məhsuldar qüvvələri mexanizminin əsas hərəkətverici qüvvəsi innovasiyaların tətbiqi və generasiyasının yüksək səviyyədə təsiri ilə də xarakterikdir.

Regional iqtisadiyyatın qurucuları tədqiqatlarında region xüsusi iqtisadi maraqların daşıyıcısı, iqtisadi münasibətlərin subyekti olaraq deyil, təbii və insani resursların yerləşməsi, əmtəələrin istehsal və istehlakı, xidmət sferasının cəmləşməsi məkanı kimi çıxış edir. Müasirləşən müvafiq nəzəriyyədə region çoxfunsional və çoxaspektli sistem olaraq aşağıdakı paradiqmalaşmanı təzahür etdirir:

- region-kvazidövlət;
- region-kvazikorporasiya;
- region-bazar /*bazar arealı*/;
- region-sosium.

<u>*Region-kvazidövlət*</u> nisbi ayrılmış dövlət və milli iqtisadiyyat sistemaltısı kimi çıxış edir. Bir sıra ölkələrdə belə regionlar əvvəllər mərkəzə mənsub ayrı-ayrı funksiyaları və maliyyə resurslarını akkumlyasiya edirlər. Burada başlıca olaraq regional hakimiyyətlə umumidövlət hakimiyyətinin qarşılıqlı münasibətləri zəminində, milli iqtisadiyyatın bir hissəsi kimi region iqtisadiyyatının tənzimlənməsi funksiyası dayanır.

<u>*Region-kvazikorporasiya*</u> isə iqtisadi fəaliyyətin, regional və bələdiyyə mülkiyyətinin nəhəng subyekti kimi çıxış edir. Bu keyfiyyətdə regionlar əmtəə, xidmətlər və kapital bazarında rəqabət mübarizəsinin iştirakçılarına çevrilirlər. Onlar iqtisadi subyekt olaraq milli və transmilli korporasiyalarası qarşılıqlı təsir yaradır, ərazilərində mənzil-qərərgahlar, korporativ filiallar yerləşdirməklə, iş yerlərinin bölgüsü və sifarişi, qiymətyaratma mexanizmləri, gəlirlər transfertini gerçəkləşdirməklə regional iqtisadi inkişafı təmin edirlər. Müasir korporasiyalardan fərqli olaraq daha geniş resurs sərəncamına malikliyi ilə bu tip regional sistemlər daha müstəqil inkişaf yaradırlar.

Təyin olunmuş sərhədlər, areallar çərçivəsində fəaliyyət göstərən <u>*region-bazarlar*</u> diqqət

aksentini iqtisadi fəaliyyətin ümumi şərait və şərtlərinə, müqabil investesiya iqliminin yaradılmasına, geniş seqmentli lokal bazar quruculuğuna yönəldirlər. Bazar özünütənzimini, dövlət reqlamentasiyasını və sosial nəzarəti ehtiva edən müvafiq regional sistemi çox zaman təlim fənni olaraq regional bazarçılıq da adlandırırlar.

Təyin olunmuş ərazidə yaşayan insan cəmiyyətləri forması - *region-sosium* yananmasında sosial həyatın, əhali və əmək resurslarının, elm və təhsilin, səhiyyənin, mədəniyyətin, ətraf mühitin və yerləşmə sisteminin inkişafı ilk cərgəyə gətirilir. Ayrı-ayrı sosial qrupların, onların xüsusi funksiya və maraqları konteksində əhatə olunan müvafiq yanaşma iqtisadi genişliyi aşaraq regional sosiuumu ən geniş şəbəgədə sintez edir. Bununla belə regional iqtisadi nəzəriyyə inkişaf edərək digər ixtisaslaşmaları da əhatə edir, reqiona informasiya cəmiyyətinin sistemaltısı və ya iqtisadiyyatın beynəlmiləşməsinin və qlobalizasiyasının bilavasitə iştirakçısı kimi də baxılır. Region nəzəriyyəsinin təkamülü iqtisadi inkişafda qeyri-material məqsəd və amillərin rolunun yüksəldilməsini, təlimlərarası biliklərin və regionların dayanaqlı ekoloji-sosial-iqtisadi inkişaf modelinə keçid imkanlılığını əks etdirir [76, 82].

Bir çox tədqiqatların nəticələri həmişə iqtisadi praktikada qavranılmır. Regionların ekoloji təhlükəsizliyinin və sosial-iqtisadi inkişafın səmərəli idarəedilməsi əsas məqsəd maliyyə resurslarının minimumlaşdırılması ilə əhalinin həyat səviyyəsinin yüksəldilməsini təcəssüm etdirir. Burada səmərəli idarəetmədə faktiki nəticələr proqnozlarla tam uzlaşma tapmalı, qəbul edilən qərarlar optimallıq təşkil etməlidir.

Ayrı-ayrı ölkələrin idxal və ixracatının əmtəə strukturu istehsalın təminatı və müxtəlifliyi amillərinin təsiri ilə formalaşır. Ölkələr tarixi ənənəyə, milli-mental xüsusiyyətlərə, təbii ehtiyatların miqyasına görə istehsal və xidmət sahəsində müəyyən üstünlüklərə də malikdirlər.

Məlum olduğu kimi Qərbi Avropa, Yaponiya elmi personal, kapital təminatı ilə üstün cəhətlərə malikdirlər və buna görə də onlar elmtutumlu və kapitaltutumlu məhsullar ixrac edirlər. Bunun müqabilində həmin ölkələr istehsalı təminatı üçün çatışmayan xammalı idxal etmək zorundadırlar. Lakin ölkələrin nisbi üstünlükləri, inkişaf prosesləri, reqressiv meyllər və ümumiyyətlə müxtəlif amillərin təsiri ilə dəyişiklərə məruz qalır.

Dünya bazarının qanunlarının fəaliyyət göstərdiyi dairədə bilavasitə dövlətlərarası iqtisadi regional inteqrasiya dünya ictimayətinin coğrafiyasına təsir göstərir. Hazırda müxtəlif miqyaslı regional inteqrasiya qrupları mövcuddur ki, onlar da müxtəlif parametrlərə görə bir-birlərindən fərqlənir. Bu qruplar arasında ən nəhəngi 1957-ci ildə yaradılmış 350 milyonluq əhalini və 15 dövlət əhatə edən Avropa Birliyidir. Nəhəng iqtisadi birliklər və regional ittifaqlar içərisində Beynəlxal Ticarət Təşkilatı, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Azad Ticarət Haqqında Şimali Amerika Sazişi - NAFTA, Merkosur, AND, Laplat, OPEK, ASEAN, Cənubi Asiya Assosiasiyası, Afrika Vahididliyi Təşkilat, Ərəb Ölkələri Liqası, Mərkəzi Afrikanın Kömrük və İqtisadi İttifaqı kimi regional qruplaşmalar xüsusi çəkiyə malikdirlər. Sovetlər İttifaqının süqutundan sonra onun ərazisində yaranmış müstəqil Dövlətlər Birliyi də regional qruplaşmanın yeni bir numunəsidir. Hələ möhkəmlənməyən bu birliyin strukturunda müxtəlif institutların yaranması kerçəkləşsə də hazırda o dərin böhran içərisindədir [106].

Azərbaycan Respublikasının da regional qruplaşmalarda təmsilçiliyi genişlənməkdədir. Bu inteqrasiya orbitində Qara Dənizhövzəsi Dövlətlərin Əməkdaşlıq Təşkilatı, GUAM, MDB, İslam Ölkələri Təşkilatının və EKO kimi regional birliklər daxildir.

BMT planetin çoxmilyardlı hissəsini özündə cəmləşdirən ən aparıcı dünyəvi qrum hesab edilir. Bu baxımdan onu heç də regional təşkilat adlandırmaq olmaz. Bununla belə sahə və universal çoxfunksiyalı iqtisadi qruplaşmasında BMT-yə daxil olan 40-a qədər xüsusi təyinatlı təşkilatlar özü-özlüyündə ayrı-ayrı ölkələr üçün regional ittifafqlar funksiyasını yerinə yetirirlər.

Ölkələrdə siyasi partiyaların hakimiyyətə gəlməsi və dövlətin maraqlarının dəyişməsi zamanı müəyyən ittifaqların parçalanması prosesini qaçılmaz edir. Buna misal olaraq son 10 illiklərdə Birləşmiş Ərəb Respublikaları - Misir və Suriyanın, Malaziya və Sinqapur Federasiyasının, Bütöv Hindistan Federasiyasının, Mərkəzi Afrika Federasiyasının, Yuqoslaviya və SSRİ-nin parçalanması misal ola bilər.

### *4.6. Dünya bazari və transmilli korporasiyar*

Ayrı-ayrı milli təsərrüfatların bir-bir ilə əlaqəsi dünya iqtisadiyyatında sintez olunaraq onun inkişafının əsas xüsusiyyətləri, meylləri, ictimai istehsalın fəaliyyətinin obyektiv qanunauyğunluqları ilə müəyyənləşir. Bununla əlaqədar istehsal həcminin daha da artırılması, buraxılan məhsulun nomenklaturasının genişlənməsi inkişaf etmiş ölkələrdə beynəlxalq əmək bölgüsünü dərinləşdirir. Təbəllüdadlaşan beynəlxalq əmək bölgüsü isə dünya iqtisadiyyatını yeni sistem və məzmunda konstruksiya edir.

Dünya təsərrüfatın subyektləri tərəfindən maddi nemətlərin ümumi tələb və təklifinin qlobal sistemi olaraq ticarət-iqtisadi münasibətlərlə bağlılıqda ayrı-ayrı ölkələrin milli bazarlarının məcmusu - *dünya bazarı* çıxış edir. Mürəkkəbliyi, çoxsəviyyəliliyi, çoxlu müxtəlif miqyaslı subyektlərin milli, transmilli şirkətlərin, ölkələrin, qrupların təsir sferası və spesifikliyi ilə müəyyən olunan dünya bazarı həm də, nəzərdən keçirilən interpretasiyadan da daha geniş mənaya malikdir. Bununla belə, bazarın formalaşması ictimai istehsalçıların təsərrüfat xüsusiyyətlərinin, əmək bölgüsünün inkişafı və dərinləşməsi ilə üzvi surətdə bağlı tarixi bir prosesdir.

Beynəlxalq bazarının tərkib hissəsi kimi, *maliyyə bazarı* bütün birbaşa investisiyaların təşkilatçısı və təminatçısı kimi investisiya strategiyasında aparıcı rol oynayır. Maliyyə bazarı beynəlxalq iqtisadi qarşılıqlı rabitənin o sferasını əhatə edir ki, burada kapital və maliyyə resurslarının müxtəlif formatlı aktiv mübadiləsi formalaşır. Dünya maliyyə bazarının coğrafiyasına nəzər yetirdikdə görərik ki, burada artıq mərəkzləşmə və təmərküzləşmə prosesi gerçəkləşmişdir. Artıq planetin müxtəlif qütblərində maliyyə mərkəzləri tam fuksionallıqla beynəlxalq maliyyə resurslarını inhisara almış, böyük kapital axının mümkün nəzarətə götürmüşdür. Beynəlxalq maliyyə institütları - Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidərqurma və İnkişaf Bankı və Şərq kürədə İslam İnkişaf Bankının dünya maliyyəsində rolu qətiləşmişdir. Maliyyə bazarının mobilləşməsində dünya maliyyə mərkəzlərinin, fond bazarlarının rolu da yüksəlmişdir. Hazırda 13 mühüm maliyyə mərkəzinin mindən çox filialı əhatə edən bank şəbəkəsində dünya maliyyəsinin çox mühüm hissəsi cəmləşmişdir. Syurix, Frankfurt, London və Lüksenburq bankları qızıl əməliyyatlarında liderlik edirlər. Nyu-York fond bircası isə kapital həcminə və əməliyyatlar dairəsinə görə bərabərsizdir. Bu sırada ikinci yerdə Tokio fond bircası qərar tutmuşdur.

Dünya bazarının digər mühüm daxili struktur seqmenti kimi çoxçeşidli əmtəələr sferasında tələb və təklifi balaslaşdıran *əmtəə bazarı* çıxış edir. Bu təsnifatda spesifiklik, dinamiklilik, inhisarlaşma səviyyəsi, qiymətlərin formalaşması və digər xüsusiyyətləri ilə fərqlənən dünya ticarəti də diqqəti cəlb edir. Onun strukturunun əsas hissəsini sənaye malları - 55-60% və xidmətlər - 20-25%, bərabər bölgüdə hərəyə 10% müqabilində kənd təsərrüfatı malları və xammal resursları formalaşdırır. Ayrı-ayrı əmtəələrin strukturuna baxdıqda görərik ki, burada neft, neft məhsulları, avtomobil, avadanlıqlar başlıca yer tutur. Müasir mərhələdə dünya ticarətinin strukturunda əsas xüsusiyyətlərdən biri beynəlxalq mübadilədə aralıq məhsulun, yarımfabrikatlar, komplektləşdiricilər və sairin sürətli artımıdır ki, bu da xarici investisiyaların genişlənməsi və şirkətlərdaxili beynəlxalq əməkdaşlığın inkişafı ilə əlaqədardır [120-121, 123].

Kapitalın sürətli artımının məşğulluğun məhsul vahidinə nisbətinin əhəmiyyətli ixtisarı, dövriyyə və istehsalın kompyuterləşməsi, yeni internet texnologiyalar, nəzarət və qərar qəbuletmə imkanlarının məsafə asılılığından çıxması köhnə hakim tipli iqtisadi struktura, əməyin coğrafi bölgüsünə ciddi təsir göstərir. İndiki iqtisadi təfəkkürdə informasiya iqtisadi resurs və iqtisadiyyatın son məhsulu kimi inkişaf üçün daha mühüm əhəmiyyət kəsb edir. Bitən son onilliklərin real həyat faktorlarının strateci göstəricilərində təşəkkül tapan xarakterik cəhətini müasir informasiya texnologiyalarsız təsəvvür etmək çətindir.

İqtisadiyyatın qloballaşdırılması istehsal kapitalının mobilliyinin artımında və dünya təsərrüfatının oliqopolizasiyasında görünür. Belə ki, xarici kapitalın himayəsində və nəzarətində dünya istehsalının 1973-cü ildə 13,2%-i 1988-ci ildə 16,5%-i olmuşdursa, 2004-ci ildə bu

göstərici 28%-ə çatmışdır.

Qloballaşma ölkələr arasında rəqabətin güclənməsinə aparır. Ölkələrin ərazisində yerləşmiş istehsal güclərinin və istehsalın müxtəlif alimlərinin sahəsində şirkətlər dünya bazarının subyektinə çevrilirlər. Burada aparıcı rolda xaricdə istehsalı olan transmilli korporasiyalar - TMK və ayrı-ayrı ölkələr çıxış edirlər. Konqlamerant çoxmilli, multnasional, transnasional qlobal korporativ, xüsusiyyətə malik TMK-lar təsiredici nüfuzları, çoxmilyardlıq investisiya qüdrətləri ilə qloballaşma prosesini stimullaşdırırlar. Hərtərəfli mühafizə sistemləri, yüksək madi-texniki baza ilə təchiz edilmiş elmi-tədqiqat institutları, laboratoriyaları, konstruktor büroları TMK-nın artan potensialını, rəqabət qüdrətini təmin edir. Belə strateci istiqamət milli kapitalın fəaliyyətinin beynəlmiləlləşdirilməsi, transmilli kapitalın maraqlarının qloballaşması ilə və əvəzlənməsini gerçəkləşdirir. Hazırda dünya təsərrüfatının mühüm mexanizmi kimi onlar ÜDM-in 20-25%-nə malik olmaqla beynəlmilləşmənin əsas hərəkətverici qüvvəsinin özəyində dayanırlar.

Dünya bazarının inkişaf senarisi iki başlıca amildən, TMK-ların dünya iqtisadiyyatına nəzarət səviyyəsindən və onların yarandığı ölkələr arasında əlaqənin intensivliyindən asılıdır. Onun fəaliyyətinin başlıca mexanizmi qiymətlərin qarşılıqlı münasibətindədir ki, bu zaman beynəlxalq qiymətlər daxili milli bazara nisbətdə daha sərbəstdirlər. Lakin dünya bazarı heç də mütləq sərbəst ola bilməz. Belə ki, onun subyektləri, ayrı-ayrı ölkələr beynəlxalq mübadilədə ciddi məhdudiyyətlər qoyurlar və bu məhdudiyyətlər əsasən həmin ölkələrdəki davamlı iqtisadi sabitliklə diqtə olunur. Əski proteksionizm və neoproteksionizm meyllərlə müşayət edilən belə vəziyyət həmin ölkələrin hökumətlərinin, ayrı-ayrı siyasi qüvvələrin və bu kimi müəyyən dairələrin maraqlarından da asılıdır. Elə buna görə də gömrük rüsumları, qeyri-tarif maneələri, xarici kapitalın məhdudlaşdırılması, ixracata subsidiyaların ayrılması və sair bu kimi anoloci meyllərin tətbiqinə səylər edilir [30, 48, 106].

Dünyanın liberal düzümündə TMK-lar və onların yaradan ölkələr arasında sıx əlaqələrin saxlaması təqdirdə «İmperialist modelin» yaranması ehtimalı böyükdür. Bu cəhət inkişaf etmiş ölkələrin nisbətən zəif inkişaf etmiş ölkələrə TMK-lar vasitəsi ilə təsir etməsində özünü göstərir. TMK-ları yaradan ölkələrlə onlar arasındakı əlaqələrin zəifləcəyi tədqirdə dünyanın bölgüsündə nəhəng TMK-ların bir başa hakimlik modeli formalaşar. TMK-ların öz ana ölkələri ilə rabitəsinin saxlanılması və eyni zamanda dünya qaydalarının tənzimlənməsi perspektivində isə ölkələrin xarici iqtisadi əlaqələrdən maksimal mənfəət əldə edilməsi neomerkantilist modeli kerçəkləşəcəkdir. Əgər dünya qaydalarının ümumi tənzimlənməsi reallığa çevrilərsə TMK-ların ana ölkələrlə əlaqəsi zəifləyədə bilər. Belə olan tədqirdə dünya iqtisadiyyatını koordinasiya edən «çoxmilli assosiasiyalar» qaydası yaranar ki, bu da dünya iqtisadiyyatının müvafiq beynəlxalq tərəfindən səmərəli bazar mexanizmləri vasitəsi ilə tənzimlənməsini reallaşdırar.

TMK-ların inkişafı, gücü və beynəlxalq təsir dərəcəsinin artan sürəti 1972-1975-ci illərdə BMT üzvülərini bu nəhəng qurumlarda onların fəaliyyətini izləyən, müşahidə edən və müəyyən dərəcə də nizamlamağa səy göstərən xüsusi daimi mərkəzin yaradılmasına sövq etdi. İndi TMK-ların nəhəng birliyi - «500-lər Klubu» dünyada ÜDM istehsalının 30-35%-ni, ticarətin yarıdan çoxunu, yeni texniki və texnologiyaların patentinin 80-85%-ni nəzarətdə saxlayır. Müasir mərhələdə TMK-larda ərazi diversifikasiyası güclü inkişaf etmiş çoxminli filiallar şəbəki yaradılmış və onlar öz gəlirlərinin 70-80%-ni «ana» ölkələrdən kənarda əldə etməkdədirlər. Beləliklə milli kapitalın fəaliyyətinin beynəlmiləlləşməsinin əvəzinə transmilli kapitalın maraqlarının qloballaşması gəlmişdir [82, 106].

Təbii sərvətlərin bolluğu dayanaqlı iqtisadi inkişafa nail olmuş bir sıra ölkələr beynəlxalq münasibətlərin yeni səviyyəsinə qədəm qoyaraq bu resursların reallaşması şərtlərini və qaydalarını diktə etməyə gətirmişdir. İngilis korporasiyası «Bitriş petroleum» 2003-cü ildə TNK-BP şirkətini yaratmaqla Rusiyanaın TNK və «Sidanko» neft kompaniyaları üzərində nəzarət qurmağa müvəffəq olmuşdur. Bu kompaniya fəaliyyət göstərən istismar zonası ilə yanaşı Şərqi Sibirin neft-qaz yataqlarını, ələxsus nəhəng qazkondensat stukturu «Kovıktinski»ni da əhatə edərək ölçülərinə görə Rusiyada üçüncü neft kompaniyasına çevrilmişdir. Əgər təcili olaraq

Rusiya bu sahədə təxirəsalınmaz tədbirlərə baş vurmazsa bu ekspansiya dərinləşərək digər sahələri də əhatə edəcəkdir. Qloballaşma, dünya rentasının artımı şəraitində şəraitində müvafiq təbii resursların bölgüsü TMK mexanizminə rəğmən inkişaf etmiş ölkələrinin hesabına ayrılır. Sivilizasion portnyorluqa keçid şəraitində isə müavaiq rentanın yenidən bölgcüsü qaçılmaz olacaqdır.

## *4.7. İnformasiya texnologiyalari və innovasiya nailiyyətləri*

Qloballaşma konteksində istehsalın məhdudlaşması, xidmətin artması, texniki dünyanın sosiallaşma ilə əvəzlənməsi, deindustriallaşma, şəhərdən ətraf əyalətə, təbiətin qoynuna axınla deurbanizasiya meylinin güclənməsi yeni postindustrial cəmiyyətin həyati yaşayış tərzinə çevrilmişdir. Yeni cəmiyyətin strukturun ən mühüm funksional komponentini isə vurğulandığı kimi informasiya təminatı təşkil etmədədir. İndiki iqtisadi təfəkkürdə informasiya iqtisadi resurs və iqtisadiyyatın son məhsulu kimi inkişaf üçün daha mühüm əhəmiyyət kəsb edir. İnsan sosiumunun tərəqqisi nəticəsində gerçəkləşən informasion inqilab çağdaş zamanda səmərəli kapital artımını qaynaqlandıran əsas mənbəyə çevrilmişdir. İnternet-texnologiyalar, elektron kommersiya və biznes genişliyi iqtisadiyyatın bütün sahələrinə nüfuz edərək onu yeni təbəllüdatlara uğratmış və bir qədər də virtuallaşdırmışdır.

Real bazar ölkələrində ÜDM-in dinamik hissəsi informasiya yönümlü sahələr - proqram təminatı sferasından, telekommunikasiya, kompüter mərkəzləri arealından hasil olunur. Çağdaş mərhələdə əlavə dəyər əksərən informasiya faktorları hesabına təmin edilir. Öz növbəsində qeyri-əmtəə təyinatlı informasiya: maliyyə bazarları, fyüçers, forvart, sığorta və investisiya yaranır ki, onlar da öz dövriyyəsinə görə artıq ənənəvi əmtəə bazarlarını belə üstələyirlər. Pulların demateriallaşması prsesi, onların öz material daşıyıcılarından uzaqlaşdırılaraq elektronlaşdırılması vüsət alır. Funksioner pulu virtual ödənişlər sıxışdırır. «İnformasiya iqtisadiyyatı» adlanan yeni reallıq dövriyyəyə çıxır.

Latın mənşəli istilah olan informasiya - *informatio* bilik, məlumat mənalarını təcəssüm etdirir. İlkin olaraq o insan tərəfindən yazılı, şifahi və digər üsüllar, siqnallarl, texniki vasitələrlə verilən məlumat kimi analışılmışdır. XX əsrin ortalarından başlayaraq informasiya anlayışı insanlar, insan avtomat, avtomat-avtomat arasındakı məlumat və siqnal mübadiləsi kimi intişar tapmışdır [75, 80].

*Mətn, rəqəm* və *qrafik* növlərələ malik olaraq informasiya tstifadə sferasından *iqtisadi, texniki* və *genetik* çevrədə təsnifatlandırılır. Ötrülmə spektrində informasiyanı *vizual, audial, leptik* və *maşın* informasiyalar olaraq fərqləndirirlər. Yaranış əlamətində isə informasiya cansız təbiəti əks etdirən - *elementar*, canlı təbiətdə təcəssüm olunan - *bioloji* və insan cəmiyyətini ehtiva edən *sosial* təsnifatlıdır. Təqdimat formasında isə o *fasiləsiz* və *fasiləli* olan diskret formaya malikdir. Onun əsas xassəsini həqiqilik, dürüstlük, tamlıq, qiymətlilik, aktuallıq və aydınlıq kateqoriyaları təmsil edirlər. İnformasiya vəziyyətin gerçək təəsüratında *həqiqidir*. O, zaman *tamdır* ki, qərar qəbul etməyə yararlıdır. İnformasiyanın *qiyməti* onun hansı qərarların qəbul etməsinə yardımı ilə ölçülür. Və nəhayət informasiya *aktuallığı* işin xarakteri ilə bağlanılır[52, 80].

Sosial-iqtisadi həyatın idarəetmə sferasında ən mühüm informasiya iqtisadi kateqoriyalı hesab olunur. İqtisadi informasiya dedikdə cəmiyyətdə istehsal münasibətlərini əks etdirən məlumatlar sistemi anlaşılır. Buraya iqtisadi sitemdə sirkulyasiya olunan istehsal, maliyyə proseslərin əhatə edən idarəetmə məlumatları daxildir.

İqtisadi informasiyaya dəqiqlik, həqiqilik və operativlik kimi cəhətlər xasdır. *Dəqiqlik* bütün istehlakçılar tərəfindən eynimənalı qavrayışı təmin edir. *Həqiqilik* sistemin funksional səmərəliliyini mühafizə edən daxil olan və nəticəli informasiyanın yalnışlığının buraxılış normasına təyinat verir. *Operativlik* isə dəyişən şəraitlər kontekstində lazimi hesablamalar və qərar qəbuletmənin aktuallığını səciyyələndirir.

İqtisadi informasiya idarəetmə funksionallığı və yaranış məkanı əlamətli çevrədə də təsnifatlaşdırılır. İdarəetmə funksiyasına görə informasiya plan-uçot, normativ-məlumat və hesabat-statistik bölgüdə təzahür edir.

*Plan informasiyası* direktiv xarakterli olaraq biznes planlaşdırmasının müvafiq göstəricilərinə nəzarət etmək üçündür.

*Uçot informasiyası* təyin olunmuş zaman mərhələsində planlaşdırılmış göstəricilərin faktiki əhəmiyyətini tərənnüm edir.

*Normativ-məlumat* informasiyası istehsal münasibətləri ilə əlaqədar normativ və məlumat xarakterli materialları birləşdirir.

Operativ-statistik informasiyalar isə firmanın yuxarı təşkilat üçün statistik fəaliyyətini əks etdirən məlumatları akummlyasiya edir.

İqtisadi informasiya idarəetmə səviyyəsində daxil olan - giriş və çıxan - çıxış informasiya kateqoriyalarına bölünərək menecment prosesini stimullaşdırır. *Giriş* informasiyaları iqtisadi və idarəetmə funksiyalarını realaşdırmaq üçün firma xaricində daxil olur. *Çıxış* informasiyaları isə bir sistemdən digərinə keçid edir. Bu dairədə bir informasiya həm giriş və həm də çıxış xarakterli ola bilər.

İstehsalatda, texnikada və idarəetmədə EHM vasitəsi ilə emal olunan informasiya - *informasiya* resursları adlanır. İnformasiya resursları ölkə miqyasında «milli informasiya resursları» adlandırılır [75, 80].

İnformasiya və onun resursları emalının tətbiqi fənni olan *İnformatika* elmi predmet seçmişdir. Fundomental elm kimi informatika informasiyaların xassə və strukturunu öyrənir, insan fəaliyyəti iləlı onların toplanması, emalı və ötrülməsini həyata keçirir. İnformatika təbiət və fundomental elm kimi də ayrıca predm sahəsinə malikdir. İqtisadi sferada isə informatika *İqtisadi informatika* elmi kimi tədqiqat sahəsidir. İqtisadi informatika iqtisadi informasiyanın hesablayıcı texnika vasitəsi ilə avtomatik emalını reallaşdırır [75].

Müasir iqtisadi sistemdə mahiyyətcə istənilən əmək ölçüsü maddiləşmiş xarakterli informasiya ilə təyin edilir. Bu baxımdan hər hansı texniki mexanizm, maddi prosesin reallaşdırıcısı olmaqla yanaşı, həm də digər müstəvidə təhlil və tədqiqatlar üçün informasiya mənbəyi kimi çıxış edir. İndi iqtisadi artım material istehsalının enerjisi və istehlakın kəmiyyəti ilə deyil, informasiya istehlakından asılıdır. İnformasiya prosesləri iqtisadi təfəkkürün ənənəvi stereotiplərini təftiş edərək ona çağdaş reallıqlar konteksində yanaşmağı aşlayır.

Hazırda rabitənin optik xətlərinin buraxılışı saniyədə bir qiqabitə yüksəlmişdir. Bu tendensiya artmaqda davam edir. İnternet adi hadisəyə çevrilmiş, təhsil sferasında hamıya imkanlı olan asan girişli məzmun almışdır. ABŞ və Yaponiyada praktiki olaraq bütün məktəblər «beynəlxalq hörmçək toruna» qoşulmuşlar.

Naqilsiz rabitə sistemi, rəqəmsal texnologiyalar sürətlə inkişaf etməkdədir. Bunlarla yanaşı elektronika da vüsətli tərəqqi zolağındadır. Artıq insanın bütün ömrünə kifayət edədək informasiyaları cəm edən disklər hazırlanmışdır. Texnoloji innovasiyalar cəmiyyətin inkişaf meylini üstələməkdədir. Belə reallıq isə bir sıra böhranların yaradınması ilə müşaiyət olunur. Qlobal axın neqativ təzahürlərində milli dövlətin inkişafını ləngidir.

Hər hansı bir svilizasion inkişaf texniki-texnoloji innovasiyalarsız mümkün deyildir. İnnovasiya fəaliyyətinin inkişaf etdirilməsi onun elmi-texniki potensialının durumu, keyfiyyət və kəmiyyət parametrləri ilə əlaqədardır. Texnologiya istehsalı sferasında və idarəetmədə yeni yaranışları ifadə edən latın mənşəli isim kimi ***innovasiya*** */innovation/* yeniləşmə mənasında interpretasiya olunur. İlk dəfə innovasiya termini Y.Şumpeterin 1912-ci ildə yazdığı «İqtisadi inkişaf nəzəriyyəsi» əsəri ilə dövriyyəyə çıxarılmışdır. Məqsədyönlü, dəqiqləşdirilmiş, kollektiv nəticənin məhsulu olaraq innovasiyanın məramı daha çox praktiki tətbiq səciyyəlidir. İqtisadi inkişafın ölçüsü artdıqca innovasiya anlayışı daha məzmunlu əhəmiyyət kəsb edir [51, 75, 90, 105].

Bazar iqtisadiyyatında rəqabət mübarizəsinin üsullarından birinə çevrilən innovasiyanın başlıca nəticəsi əmək məhsuldarlığını artırmaq və mənfəəti yüksəltməkdən ibarətdir. Bazar

rəqabətindən o qalib çıxır ki, lazımi zaman kəsiyində mütərəqqi texnologiyaları tətbiq etməklə irəliləyişlərə nail olsun.

İnnovasiya zamanı yeni tələb formalaşır və bunun müqabilində alıcılar mənəvi köhnəlmiş malları almaq istəmirlər. Məhsulun əmtəə növünün yaxşılaşdırılması üzərində aparılan işlər dinamik keyfiyyət yaradır, əmtəə imicini daimi diyəşən və inkişaf edən məcraya yönəldir.

İnnovasiyalar çağdaş zamanda reputasiyalı təşkilatın fəaliyyət missiyasının leytmotivinə çevrilmişdir. Bununla belə innavasiya tərəqqisi təkcə firma reytinqi hədəfi deyil, o başlıca olaraq dayanaqlı inkişafın mühafizəsində, bazar konyukturunun fəth edilməsində daim təkmilləşmən, sadiq və çevik təşkilati bir alətdir.

# V FƏSİL
# DEMOQRAFİYA VƏ MƏŞĞULLUQ

## *5.1. Demoqrafik təbəllüdatlar*

Çalışan insanlar cəmiyyətin əsas istehsal gücü hesab olunurlar. İstehsal isə bütün ictimai münasibətlərin daşıyıcı qismində çıxış edir. Bununla belə insanlar istehsalçı olmaqla yanaşı həm də istehlakçıdırlar. Ona görə də müvafiq prosesdə cəmiyyət inkişafının qanunauyğunluqları da onların subyektiv fəaliyyəti vasitəsilə dövr edir.

Yaranışlar sosial, iqtisadi və ümümi sivilizasion olmaqla bəşəri şüurun məhsulu kimi ümumilikdə insanın fiziki və mənəvi ehtiyaclarına səfərbərdir. Bu sırada insan fərdi və kollektiv fəaliyyəti ilə proseslərin fövqündə hərəkətdə olur.

Əhalinin təhlili, onun say tərkibi və yerləşməsi, sosial təşkili və təsərrüfat fəaliyyəti mühüm sosial-iqtisadi tədqiqatların fəaliyyətidir. Əhali sayı hər bir ölkənin təsərrüfat həyatının ayrılmaz hissəsidir. Müvafiq prosesləri isə demoqrafiya adlanan elm tədqiq edir.

Lakonik təqdimatda ***demoqrafiya*** */yunanca demos - xalq + qrafiya/* - əhali haqqında elmdir. Konkret olaraq isə o, əhalinin strukturu, yerləşməsi, dinamikası, miqrasiyasını və bu dipazonda baş verən sosial-iqtisadi, bioloji və cooqrafi amil, səbəb və şərtləri tədqiq edir. Demoqrafiya əhali nəzəriyyəsini, əhali siyasətini işləyib hazırlayır. Ölkə, şəhər, vilayət, region və bütünlüklə Yer kürəsi əhalisinin dəyişməsi perspektivini verir.

Demoqrafiya bir çox ictimai elmlər: sosiologiya, siyasi iqtisad, tarix, hüquq, etnoqrafiya, sosial gigiyena, statistika və digərləri ilə sıx baglılığı vardır. Elmi məzmunda «demoqrafiya» terminini ilk dəfə Fransız alimi Can Klod Aşil Qiyar /1799-1856/ dövriyyəyə çıxartmışdır /1855/. Lakin A.Qiyardan da öncə 1662-ci ildə ingilis alimi Con Qrauntanın /1620-1674/ əsərlərində demoqrafik təbəllüdatları əks etdirən mülahizələrlə çıxış etmişdir. Buna baxmayaraq demoqrafiya elminin kolubu A.Qiyar sayılır [106, 135].



Marksizm-leninizm təliminə əsaslanan demoqrafiya müvafiq proseslərdə sosial-iqtisadi amillərin həlledici, bioloji və coğqrafi amillərin isə asılı əhəmiyyətə malikliyindən çıxış edir. Burcua demoqrafiyasının xarakterik xisusiyyətini isə fərqli olaraq demoqrafik dəyişiklikləri biolojiləşdirmək, yəni hadisələri bioloji amillərlə əlaqələndirmək ifadələndirir.

Demoqrafiyada mahiyyəti müvafiq əhali qanunlarında təzahür olunan əhali nəzəriyyəsi mühüm əhəmiyyət kəsb edir. Əhali nəzəriyyəsi müəyyən demoqrafik siyasətin aparılmasına zəmin olur, əhali sayı, əmək ehtiyatları, həmçinin ayrı-ayrı kontingentlər: körpələr, məktəb yaşına çatmamış uşaqlar, pensiyaçılar və digərlərinin proqnozunu formalaşdırır, doğum, ölüm, kəbin, miqrasiya və əhalinin yerləşdirilməsi sahəsindəki əsas proseslərə tənzim verir.

İqtisadi transfomasiya qlobol proseslərin daha təsirli atributu olan demoqrafik təbəllüdatları nəzərə almadan optimal səviyyəyə yetişə bilməz. Qlobal demoqrafik proseslər dünya iqtisadiyyatının inkişaf tendensiyasını təyin edən, iqtisadi artımı stimullaşdıran mühüm resursdur. Əhalinin sayı hər bir ölkənin yaşayış durumu və təsərrüfatının vacib səciyyəvi elementidir.

Demoqrafiya haqqında nəzəri şərhləri yekunlaşdıraraq onun praktiki həyatda durumu haqqında müasir statistik tendensiyaya nəzər yetirmək zəruridir. Bu zərurət həm də nəzəri və praktiki konsensusu bir daha əyani səciyyələndirməkdən irəli gəlir.

Müasir zamanda dünya əhalisinin sayı daha çox artımla müşaiyət olunur. Bizim eranın əvvəllərində Yer əhalisi təqribən 150-200 milyon nəfər təşkil edirdi, bizim eranın 1000-ci ilinə yaxın isə 300 milyona qədər olmuşdu. yer kürəsinin əhalisi 1850-ci ildə bir milyarda, 1930-cu ildə iki milyarda, 1960-cı ildə üç milyarda, 1976-cı ildə isə dörd milyarda çatmışdı. Hazırda isə bus ay 7-ci milyona doğrü irəliləməkdədir.

Əhali artımı sürətinin yüksəlməsi istehsal üsullarının dəyişilməsi səbəbi deyil, əksinə nəticəsidir. Əhalinin artması bilindiyi kimi, ölümlə doğumun nisbətindən asılıdır. Bu proseslərin

hər ikisinə sosial xarakterli bir çox amillər, sosial və iqtisadi münasibətlər, əhalinin rifah səviyyəsi, mənzil şəraiti, təbabətin, səhiyyənin inkişafı və sair təsir göstərir. Əhalinin təkrar istehsal tipləri də sosial iqtisadi şəraitdən asılıdır. Buna görə də bir sıra demoqrafik təhillərə əsaslan proqnozlara görə bəşər əhalisinin mütəmmadi artımı davamlı olacaqdır.

Qeyd olunmalıdır ki, planetin ümumi əhalisinin 90%-i inkişaf etməkdə olan ölkələrin payına düşür. Hazırda /*2005-ci ilin əvvəlinə*/ planetin əhalisinin 60%-dən çoxu 100 milyondan çox sayı ifadə edən 10 nəhəng ölkədə yaşayır:

- Çin 1300 *milyon nəfər*;
- Hindistan 1100 *milyon nəfər;*
- ABŞ 270 *milyon nəfər;*
- İndoneziya 210 *milyon nəfər;*
- Braziliya 170 *milyon nəfər;*
- Rusiya 150 *milyon nəfər;*
- Pakistan 150 *milyon nəfər;*
- Yaponiya 135 *milyon nəfər;*
- Banqladeş 130 *milyon nəfər;*
- Nigeriyada 130 *milyon nəfər.*

Digər 13 dövlətin hər birində isə 50-100 milyon əhali sayı vardır [135].

Planetdə insanların məskunluğu bərabər ölçülü deyildir. Antarktida və mütləq əksər Qrelandiya adası daxil olmaqla planetin quru hissəsinin təxminən 10%-i oykumenə - yer kürəsinin insan tərəfindən məskunlaşmış sahələrinə aiddir. Quru hissənin yarısında 1 $km^2$-ə 1 adam, $^1/_4$ hissəsində 10 adam və qalan hissəsində isə 10 adamdan çox əhali düşür. Sıx əhali arealına 1 $km^2$-ə 50 adam düşməklə Mərkəzi Avropa, Şərqi-Çin, Yaponiya, Cənubi Amerika əraziləri və Hind-Qanq, Nil çayları vadiləri fərqlənir.

Hazırki dünyanın əhalisinin yarıdan bir qədər çoxu kənd ərazilərində yaşayır. Lakin şəhərlər siyasi-iqtisadi mədəni həyatda mühüm rol oynamaqda davam edirlər. Şəhər əhalisinin artımı, urbanizasiya prosesləri və miqrasiya ilə əlaqədar olaraq artmaqdadır. Urbanizasiya prosesləri Asiya, Latın Amerikası və Afrikada surətli tempdədir.

Bir sıra iri şəhərlər genişlərək ətraf sahələrdə yerləşən kəndləri ağuşuna alır, suburbanizasiya və reurbanizasiya proseslərlə müşayiət olunuraraq yeni aqlomerasiyalar yaradırlar. Bununla belə aqlomerasiyanın kortəbii formaşaması bir sıra neqativ nəticələr də yaradır. Belə fəsad ilk növbədə nəqliyyat kommunikasiya, sanitar-gigiyenik və su təchizatı sferasinda özünü göstərir [4].

Demoqrafik proseslərin coğrafi sferasının strukturu da mühüm əhəmiyyətlidir. Dünya əhalisinin təxminən 70%-i, quru parçasının 8%-lik sahəsində cəmləşmişdir. Onların 60%-i planetin şimal yarımkürəsində yaşayır, 30% əhali isə dəniz sahili ərazidə məskunlaşmışdır. Bir çox xalqlar və etnoslar isə dağları özlərinə məskən seçmişlər. Hazırda əhalinin məskunlaşma arealı dağlara tərəf də genişlənməkdədir. Bununla belə vurğulanmalıdır ki, dağ və qeyri-dağlıq ərazidə yaşıyanlaraın bir çox fərqli mental xüsüsiyyətləri vardır. Müvafiq fərqlilik Şimal və Cənub, Şərq və Qərb qütbülüyündəki, kimi genişdir.

*Milli mənsubiyyətinə varmadan bütün dağlılar fərdiyyətçiliyi, qonaqpərvərliyi və hətta qisasçılıqları ilə fərqlənirlər. Ona görə də məcbüri miqrasiya proseslərində və ya demoqrafik strategiyalarda təbii fərqlilik amilinin nəzərə alınması vacibdir. Bu sahədə yetərli empirizm mövcuddur. Rusiya imperiyasının və elə cə də SSRİ dövlətinin demoqrafik siyasətində bu meyl nəzərə çarpmışdır. Belə ki, sovet kosmopolitizmi ona gətirmişdir ki, bir çox dağlı xalqları möhtəşəm ölkənin iri şəhərlərinə yerləşdirilmişlər. Bu isə öz növbəsində şəhər və dağ arasındakı həyat tərzinin prinsipial fərqliliyindən irəli gələn təbii sosial tarazlığı pozaraq inkişaf proseslərinə təsir etmişdir.*

Demoqrafik proseslərdə miqrasiyanın rolu mühümdür. Müasir dünyada miqrasiya meylləri daha da güclənməkdədir. Planetar miqrasiya 1965-ci ildəki 70 milyondan 2003-ci ildə 140

milyona çatmışdır. Bu sıraya 15 milyondan çox emiqrant daxil deyildir. Digər tərəfdən qloballaşma prosesi də mühacirət axınını gücləndirir. Yaranmış situasiya isə öz növbəsində miqrasiya probleminin fenomenal xarakter aldığını göstərir.

Üçüncü ölkələrdə əhali artımının, iqtisadi inkişafla uyğunsuzluğu yoxsulluğun artımına səbəb olur, zəif inkişaf etmiş ölkədən yüksək inkişaf etmiş ölkələrə qastarbayterlərin axınını gücləndirir. Bu proses iqtisadi qanunlar görüntüsündən təbii olsa da, nəzarətə götürülməyə məhkumdur. Bununla belə, qeyd olunmalıdır ki, fərdi işçi psixologiyası da əmək prosesində mühüm yer tutur. Hətta izafi iş yerləri olduğu şəraitdə müəyyən işçilər tez-tez iş yerlərini dəyişirlər. Hərəkət yaxşı iş axtarışı ilə bağlı olsa da, təqdir edilmir. Tez-tez iş yerlərini dəyişən qastrolyorlar isə fəaliyyətin ümumi ritminə təsir edir.

Çağdaş zamanda 40 milyondan çox əhali öz ölkələri xaricində yaşayırlar. Bunun da təxminən yarısına qədərini siyasi motivlərlə bağlı qaçqınlar və fövqəladə hadisə qurbanları təşkil edir. Bəşəriyyətin inkişaf prosesi nəsillərin varisliyində həkk olunaraq insanların doğum və ölüm əlaqəliyində təyinat alır. Doğum səviyyəsinə xalis demoqrafik səbəblər təsir edir. Burada əhalinin cins tərkibi, yaş həddi və nigahlılıq cəmiyyət mühümdür. Lakin bütün bunlarla yanaşı sosial-iqtisadi faktorlar, xalqların milli və mədəni ənənələri, dini baxışları, rifah halı və savad səviyyəsi, qaçqınların ictimaiyyatdə yeri, əhali səpgisinin xarakteri, iqlim xüsusiyyətləri və ekoloji amillər doğum tempində əks olunur. Müharibələr, iqtisadi böhranlar, işsizlik isə doğum prosesinə neqativ təsir göstərir. Bu çeşidli faktorlar çevrəsində hansı amilin nə səviyyədə təsir aspektinə təyinat vermək mürəkkəb məsələdir.

Ölüm səviyyəsi isə ilk növbədə insanların rifah halı, ictimai səhiyyənin inkişafı, tibbi yardıma çıxış, əhalinin mənzil şəraiti, qidalanma xarakteri və ətraf mühitin vəziyyəti ilə bağlıdır. Qlobal miqyasda ölüm göstəricisinə planet əhalisinin bir milyarddan çoxunun yoxsulluq içərisində yaşaması, pis qidalanaraq aclıq keçirməsidir. Əslində müasir dünyanın bir sıra ölkələrində əhalinin əksər hissəsinin yarısı yoxsulluq vəziyyətindədir

Müasir dünyada ictimai inkişafa etnik proseslər milli özünü təsdiq ambisiyası, millətçiliyin artımı və digər bu kimi amillər və ondan yaranış alan konfliktlər təsir edir.

Milli tərkibi köklü - *avtoxon etnosa* və *imiqrasiyadan yaranmış etnoslara* bölürlər.

Əhali tərkibində dini faktorun nisbəti də əhəmiyyət daşıyır. Belə ki, bir sıra ölkələrdə din və dini mənsubiyyət siyasi və iqtisadi həyata ciddi təsir göstərir.

Mərkəzi Vatikanda yerləşən katolik kilsəsi sərəncamında küllü miqdarda kapital cəmləşdirərək bir sıra ölkələrin ictimai-siyasi hayatında mühüm rol oynayır. Bu vektorial gerçəklik daha çox demoqrafik proseslərdə özünü nümayiş etdirir. Katolizm doğum səviyyəsinə təsir edir.

Eynən olaraq İslam dininin də demoqrafik proseslərdə təsir və müdaxiləsi böyükdür.

Dini faktor buddizmin və induizmin məskəni olan ölkələrin, xüsusən də Hindistanın iqtisadiyyatında əhəmiyyətli mövqeyə malikdir. Analoci adekvatlıq iudaizmə də şamildir.

Dini baxışlara bağlılıq dinamikası müxtəlifdir. Müşahidələr göstərir ki, katolizm enişə meyllənir və daha çox orduda itkilərə məruz qalır. İslam və induizm isə genişlənməyə doğru istiqamətlidir. Hazırda dünya siyasətində İslamın təsiri daha çox artmaqdadır. Belə ehtimal da irəli sürülmüşdür ki, nəhəng Sovetlər İttifaqı ötən əsrin 90-cı illərində çökməsəydi, demoqrafik təbəllüdatlar 2010-2020-ci illərdə müsəlmanların hakimiyyəti tutması ilə sonunclaqacaqdı. Yəni SSRİ kimi möhtəşəm bir dövlət milli və konfessial konfiliktlər nəticəsində dağılacaqdı.

*Müasir Rusiyada hazırda da müsəlman faktoru demoqrafik prosesləri yedəyinə almışdır. Burada indi 20 milyondan çox müsəlman yaşayır. Yaxın xaricdən rusların vətənlərinə intensiv axınına baxmayaraq slavyan əhalisi azalır, müsəlmanlar isə sürətlə artırlar. Rusiyanın mühüm mərkəzlərində müsəlmanların təsirini yüksəlir. Hazırda Moskvada milyona yaxın tatarın yaşadığı qeyd olunur. Yamal-Nen muxtar vilayətinin zarafatyana Tatar-Donesk adlandırırlar.*

Dinin demoqrafik proseslərdəki rolundan danışaraq vurğulanmalıdır ki, dünya yalnız konfesial təbəqədən ibarət deyildir. Belə ki, müasir dünyada milyard yarımdan çox saylı ateist

təbəqə də mövcuddur. Hesablamalar belədir ki, planetin əhalisinin təqribən 25-30%-i ateist baxışlıdır.

Hazırda dünyada əhali sayının stabilləşməsi prosesi yaranmışdır. Belə ki, planetdə 1950-ci ildə 80-dən artıq yaşı olanların sayı 1%, 65-dən çox olanların sayı 8%, 14 yaşa qədər olanların sayı 35% olmuşdur. 2150-ci ildə isə uşaqların sayı yaşlıların sayına nisbətdə kəskin dərinləşəcəkdir. Belə ki, proqnozlara görə bu zamanda yaşlı əhali sayı ümumi əhalinin 40%-ni təşkil edəcəkdir. Bu proses ölkələrin inkişaf konfiqurasiyasından asılı olmayaraq müəyyən fərqlərlə hamı üçün eyni olacaqdır. Ümumiyyətlə götürdükdə 2006-ci ildə bütün bəşəri tarix ərzində yaşamış insanların sayı 90 milyarda çatacaqdır.

Qət edilən sivilizasiyalar ərzində insan potensialının inkişafı əhali artımı ilə həmahəng olmuşdur. İndi anoloci vəziyyət yoxdur. Belə reallıq insan həyatının motivləri ilə bağlıdır. Müasir zamanda istehsal münasibətləri, iqtisadi struktur təbəllüdatlara uğramaqdadır. Nümunə kimi göstərmək olar ki, 1900-cı ildə ABŞ-da əhali sayının təxminən yarısı 45%-i aqrar sektorda çalışırdı, sənayedə 20%-i, xidmətdə 30%-i. Hazırda bu proporsiya müvafiq olaraq 3% kənd təsərrüfatında 10%, sənayedə 80% xidmətdədir. Göründüyü kimi kütləvi problemlər yaşadığımız zamanda daha çox demoqrafik vəziyyətlərdən asıldır.

Müasirimiz olan məhşur rus alimi Sergey Kapisa /1928/ planetin demoqrafik tarixi inkişaf senarisinin tədqiqini araşdırarkən, son dörd minilliyin tərəqqi düzümünü ifadə edən dialektik sistem yaratmışdır. Aparılan təhlilin nəticələrindən biri də odur ki, alim zamanla əhali kəmiyyəti arasında simmetrik riyazi uzlaşmanı təyin edilməsinə müvəffəq olmuşdur. Bu o deməkdir ki,



əhali artımının nisbi dəyişkənliyi zaman dəyişikliyinin ciddi proporsiyasında qərar tutur. Onun fikrincə insan hər növbəti mərhələdə epoxadan-epoxaya daha tez keçid etmişdir. Öz təyinatını qrafik illistürasiyada təqdim edən alim həm də qeyd edir ki, bizim eradan 2000 il öncədən eramızın V əsri, Roma imperiyasının çökməsinə qədər əhatə olunan dövr 2500 il (I), sonrakı orta əsrlər daha min il (II), növbəti yeni tarix adlanan dövr 300 il (III) və nəhayət ən yeni tarix zamanı 120 il (IV) davam etmişdir. Belə bölgüyə nəzər etdikdə görürük ki, hər növbəti mərhələ əvvəlkinə nisbətdə 2,5-3 dəfə kiçikdir. Təyinatını tapan əmsaldan çıxış edərək alim göstərmək istəyir ki, bəşəriyyətin hədəf seçdiyi mərhələyə gedişdə zaman ölçümüz daim gödəlməkdədir. Bu sistemdən çıxış edərək məntiqlə növbəti (V) mərhələ 90 ildən artıq olmayacaqdır. Yeni zaman kəsiyini isə bəşəriyyətin milyon illik yaş durumu fonunda bir an kimi qiymətləndirmək olar. Çağdaş nəsl bu zaman məqamının qatı ortasında qərar tutmuş və həmən dövrün orta hissəsi 2000-ci ilə təsadüf etmişdir [58, 106, 135].

Bəzən sual doğur ki, Yer planeti nə qədər əhaliyə hesablanmışdır? İnsan artımının son say həddinin sərhəddi harada bitir? Demoqrafik senarinin XXI əsr proqnozları necədir?

Əhali artmımı özü-özlüyündə kortəbii prosesdir. Lakin burada dövlətin siyasəti - doğumu həvəsləndirməyə və ya, əksinə, məhdudlaşdırmaya yönəldilən hüquqi və digər tədbirlər mexanizmi tənzimləyici rolunu ifadə etmədədir.

Bəşəri sosial və iqtisadi məsuliyyətinin sərhəddi tükənməzdir. Empirizm belədir ki, say artımında «maltusçuluq» keçməmişdir. Proqnozlar isə böyük yaradana sığınan dünyamızda artıq heç nəyin olmadığını, proporsiyalarda təbiət tənzimlənməsinin məhdudlaşmasının insani şüurun və əməyin stimulu sahəsində normallaşacağı qətiyyətini verir.

XX əsrin 60-70-ci illərindən başlayaraq dünya inkişafının proqnozlaşdırılması daha aktual səciyyə daşımağa başlamışdır. Bu ərəfə energetik, ərzaq, xammal, ekoloji problemlər prioritetliyi ilə daha da qabarıqlaşmış, dünya ölkələri və xalqlarının geniş maraq dairəsinə daxil olmuşdur. Müasir texnokratik problemlər yalnız birgə səylərin səfərbərliyi ilə səmərəli həllinə qovuşur. Proqnozlar çətin, daha çox insan faktoru ilə bağlı olan məsələlərdəndir.

ABŞ professoru, kibernetik D.L.Medouza /1920/ «Dünya dinamikisı» əsərində XXI əsrdə mümkün qlobal faciələrin, demoqrafik sarsıntıların baş verəcəyini, resurslar potensialının tükənəcəyinə diqqət yönəltmiş və sonradan BMT-nin tanınmış iqtisadçı alim V.Leyontevin



başçılığı ilə ekspertlər qrupu bu ideyalara tənqidi yanaşaraq «Dünya iqtisadiyyatının gələcəyi» adlı yeni layihə işləmişlər. V.Leyontev təsdiqləmişdir ki, əhali artımı eksponensial proses və partlayış deyildir. Alimin fikrincə 2025-ci ilə qədər artım proqressiv olacaq və üçüncü dünya ölkələrində sabitləşmə 2075-ci ildə yaranacaqdır [94, 129].

Planetin məskunlaşmasının təkamülü də urbanizasiya genişliyi ilə müşahidə ediləcək. şəhər və kənd arasında əlaqəlik yenə də kommunikasiyaların inkişafın nəticələrindən asılı olacaqdır. Hesablamalara əsasən yaxın 20-25 il ərzində dünya əhalisinin yarıdan çoxu şəhərlərdə yaşayacaq və 2025-ci ildə əhali sayı 20 milyonu ötəcək 30 super şəhərdə cəmləşəcəkdir.

Gələcəkdə işçi qüvvəsi ilə bağlı problemlərinin kəskinləşəcəyi də istisna olunmur. Proqozlar belədir ki, 2025-ci ildə inkişaf etməkdə olan ölkələrdə işçi qüvvəsinin 2,5 milyarda çatacaqdır.

XXI əsr miqrasiyanın yeni artımı ilə müşayiət olunur. Bu ilk öncə bir sıra ölkələrdə istiqlalla bağlı yeni iqtisadi sistemlərin yaranışı, bütün planetdə həyatın beynəlmiləşməsi, çoxmillətli dövlətlərin süqutu, kapital mobilliyinin artımı, əmək bölgüsü ərazisinin dərinləşməsi və nəqliyyat və rabitə sisteminin təkmilliyi ilə bağlıdır. Miqrasiya prosesində dövlətin iqtisadi-siyasi sisteminin və hakimiyyət reciminin səviyyəliliyi də mühümdür. Demoqrafik proqnozlara görə yaxın gələcəkdə miqrasiya prosesləri bir qədər də artacaqır.

Məhşur macar filosofu Ervin Laslo da /1933/ mübahisə doğuran məntiqi bir sıra demoqrafik və sosioloji baxışları ilə fərqlənmişdir. Alimin fikrincə insanların müvafiq psixi keyfiyyətlərinin inkişafı gələcəkdə sivlizasiyanın material şəraitini köklü dəyişikliklərə uğradacaq, «psixologizm və subyektivizm», «elm və dində liderlik» inkişaf senarisini «həqiqət yoluna» çıxaracaqdır [129. 135].



Demoqrafik vəziyyətin inkişafının orta proqnozlarına görə yaxın 40-50 ildə dünya əhalisinin sayı 10 milyarda çatacaq və əksər əhali inkişaf etməkdə olan ölkələrdə cəmləşəcəklər. İndiki tendensiyalar bu müddət ərzində Yaponiyada 20%, Rusiyada 17%, Almaniyada 9% həcmdə əhali azalmasına proqnostik əsaslar verir. Bu sırada ABŞ-ın vəziyyəti isə inkişaf meyllidir. Belə ki, əsasən imiqrantlar hesabına burada 2050-ci ildə əhali sayının 420 milyon nəfərə yüksələcəyi gözlənilir. Planet əhalisinin yüksək artım templəri - 55% həcmində, vurğulandığı kimi daha çox inkişaf etməkdə olan ölkələrdə, ələxsus Afrikada və Cənubi Asiyada daha yüksək səviyyədə olacağı təxmin edilir. Bununla belə bir daha qeyd etmək lazımdır ki, planetin quru sahələrin 10%-də qədəri hələ də məskunlaşmamış qalmaqdadı. Əsrin sonunda planetin əhali sayı 11-12 milyard civarında sabitləşmə əldə edəcəkdir. Demoqraflar hesab edirlər ki, bu sabitlik sürəkli olacaqdır.

## *5.2. Əmək bazarı və məşğulluğun optimal təminatı*

Sosial-fəlsəfi interpretasiyada ***əmək*** tərkib hissəsində yaradıcılıq, ictimaiyyatin, insanın tarixən yaranmış və qurulmuş tələblərinin təmin olunması, təbii və sosial güclərin mənimsənilməsində məqsədyönlü fəaliyyətdir. Əmək mahiyyətcə ustalıq məsuliyyətdə ifadə olunan nəticələrin keyfiyyəti, fəaliyyət şəraiti, ümumiyyətlə isə istehsalı təmin edən bütün vasitələr əhatəsində pərvəriş tapır.

Ekonomiksdə əmək 5 əsas isteh faktorundan biri kimidəyərləndirir.

Əmək prosesi özündə üç əsas amili ehtiva edir:

- insanın məqsədəuyğun fəaliyyəti;
- əməyin istiqamət predmeti;
- əmək vasitəsi.

***Əmək və işçi bazarı*** iqtisadi sferada və ictimai sosial-siyasi həyatda mühüm əhəmiyyət

daşıyan spesifik əmtəə olan işçi qüvvəsinin alqı-satqısının iqtisadi sistemini təşkil edir. Bütün əmtəələr kimi, əmək bazarı da tələb və təklif üzərində qurulan quruluşa malikdir.

Əmək bazarı *müqabil infrastruktura* malikdir. Bu infrastrukturu əmək bazarını daha üstün səmərəli funksionallığını təmin edən normativ-hüquqi mühit təcəssüm etdirir. Əmək bazarının infrastrukturuna daxildir:

- dövlət təsisatları;
- məşquluqa yardım edən qeyri-dövlət təşkilatları;
- şirkət və müəsissələrin personalının idarə edilməsinin kadrlar xidməti;
- ictimai fond və təşkilatlar.

Əmək bazarının əsas komponentlərini aşağıdakılar ifadə edir:

- işçi qüvvəsinə tələb və təklif;
- işçi qüvvəsinin dəyəri;
- işçi qüvvəsinin qiyməti; iş təqdim edənlər, işə qəbul olunanlar və muzlu işçilər arasında rəqabət.

Əmək bazarının subyektləri isə aşağıdakı təsnifata məruz qalır:

- işə kötürənlər və onların nümayəndələri - /*ittifaqlar*/;
- işçilər və onların nümayədələri - /*həmkarlar ittifaqları*/;
- dövlət və onun orqanları - /*Əmək və sosial müdafiə nazirliyi, əmək və məşqulluqla bağlı departamentlər və sair*/.

Əmək bazarı daxili və xarici, həmçinin açıq və bağlılığı ilə də fərqləndirilir.

Əmək bazarının əsas əmtəəsi kimi işçi qüvvəsi çıxış edir. Qlobal dünyanın bir çox mələkətlərinin iqtisadi terminologiyalarında *işçi qüvvəsi* əsasən iqtisadi aktiv əhali anlamını verir. Başqa sözlə, iqtisadi aktiv əhali əmtəə və xidmətlərin istehsalı üçün işçi qüvvəsinin təminatının təklifidir. Məhz bu qrup məşğul və işsiz əhali hissəsini özündə cəm edir [17, 83].

Əksər ölkələrdə beynəlxalq statistik standartlara görə əmək potensialında işləyənlərin sayı - «işçi qüvvəsi» /*iqtisadi aktiv əhali*/ və «işləmək istəyənlər» /*əmək bircalarında qeydiyyatdan keçənlər*/ göstəricilərindən istifadə olunur. Müəyyən ölkələrdə belə uçot göstəriciləri aparılmadığı üçün müvafiq sistem müəyyənlik baxımından qüsurlu hesab edilir. Lakin bununla belə inkişaf etmiş ölkələrdə işsizliyi əsasən «işçi qüvvəsi» arasındakı mövcud işsizliklə ölçürlər. Bu göstərici Yaponiyada 2%, ABŞ-da 6%, Qərbi Avropada9%-dir. BƏT-in məlumatlarında yeni əsrin astanasında dünyada 150 milyon işsizin ölduğu bildirilir. Bununla belə müvafiq statistikaya görə inkişaf etməkdə olan dövrlətlərdə 700-800 milyon qismən işsiz mövcuddur. 2004-cü ilin məlumatlarına əsasən dünyada 2 milyard adam işçi qüvvəsi hesablanır. 2005-2007-ci illərdə bu rəqəmin 3,2milyarda çatacağı və onun da 95%-inin inkişaf etməkdə olan ölkələrin payına düşəcəyi proqnoz edilir. İşsizlikdən qurtulmaqüçün isə hər gün 130-140 min iş yerinin açılması gərəkdir.

İşsizlik müasir cəmiyyətin əsas sosial problemi olaraq qalır vəonunmikrocografiyası olduqca təzadlıdır. İşsizliyin səviyyəsi yarımfuksional, əmək bazarı nisbətən iri həcmli və müxtəlif olan mərkəzlərdə, konkret-London, Paris və Moskva kimi sosial infrastrukturlu meqopolislərdə kiçik və mulayimliyi ilə fərqlənir. Bununla belə planetin bütün qütblərində şəhər əhalisinin sayı artmaqda urbanizasiynın səviyyəsi yüksəlməkdə davam edir.

İşsizlərin və yarımişsizlərin əksər hissəsi vurğulandığı kimi, iqtisadi zəif inkişaflı ərazilərdəvə böhranlı vəziyyətli xüsusi regionlarda cəmləşir. BƏT-in son məlumatlarına əsasənişçi qüvvəsi ümumdünya əhalisinin 45%-ni təşkil edir. Buradakişilər 57,5%, qadınlar 32,3% çəkiyə malikdirlər. İnsanların fəaliyyət mövcudluğunu xarakterizə edən meyarlardan biri də onların özfəaliyyət və qəyyumluqda olan kateqoriyalara bölünməsidir. Bu meyara görə əgər pensiyaçının əmək haqqı onun pensiya məbləğini üstələyirsə o şəxsi fəaliyyət, əksinə isə qəyyumluqda olanlar qisminə aid edilir. Şəxsi fəaliyyətlə məşğul olan əksər əhali aktiv faydalı əməklə ictimai istehsalda iştirak edirlər. Spesifik olan digər aktiv əhali qrupları - psevdoəmək kateqoriyası da mövcuddur. Buraya rantyelər, professional cinayətkarlar, lümenlər, dilənçilər, türkəçarələr, falçılar, sütinyorlar və onlarla bağlı olanlar kimi neqativ peşə sahibləri də aid edilir.

Əmək potensialının hesablanması metodikası Rusiya müstəvisində bir qədər mütərəqqi sayılır Burada əmək resursları insanların sayı, əmək qabiliyyətində olanlar, böyük və kiçik işləyən yaşlılar aid edilir. Sosial və peşə strukturuna görə BMT-nin, BƏT-in statistikasında və digər beynəlxalq təşkilatlarda ictimai sinfi struktur sahibkarlar, kiçik mülkiyyətçilər, təsbit olunmamış əmək haqqı ilə işləyən ailə üzvləri, muzdlu işçilər, istehsal kooperativlərinin üzvləri, ictimai istehsal sistemində yerləri müəyyən olunmamış şəxslər kimi təsnifləşdirilir.

Əmək ehtiyatları kateqoriyasına əlillərdaxil deyildir. Əlillərtəxminən 10% əhalini təşkil edirlər və onların 80%-i inkişafetməkdə olan ölkələrin payına düşür.

Əmək ehtiyatlarını işçi qüvvəsinə nisbətdə daha dəqiq ölçməkolar Beynəxalq statistikada işçi qüvvəsi yaşı 15-dən 65-ə qədər əhali qrupuna aid edilir. Bu göstəricidən çixiş edərək müəyyənetmək olar ki, əhalinin605-dənçoxuişçi qabiliyyətlidir.

BƏT-in son məlumatlarına görə faktiki iqtisadi aktiv əhali aşağıdakı konfiqarasiyanı yaratmışdır:

- Kənd təsərrüfatında və ona yaxın sahələrdə - 48%;
- Sənaye və tikintidə - 16%;
- Xidmət sektoru və məşğulluqun digər sferalarında - 36% [83-84].

***Məşğulluq*** əhalinin əmək fəaliyyətində iştirakını səciyyələndirən iqtisadi kateqoriyadır. Buraya təhsil, orduda xidmət, ev təsərrüfatının aparılması, uşaq və ahıllara baxmaq kimi fəaliyyətlər də daxildir.

İqtisad elmində məşqulluğun aşağıdakı gstəricilər fərqləndirir:

- ictimai istehsala əhalinin aktiv hissəsinin tamılıqla daxil edilməsi;
- iş yerlərinin və əmək ehtiyatlarının balanslaşdırılmış səviyyəsi;
- məşqulluğun əhalinin sosial-iqtisadi tələbləri ilə uzlaşması.

Mümkün məşğul əhali sayının ictimaiyyətin digər kontingentlərinə nisbəti hər faktiki işçi üzrə *iqtisadi yüklənmə* göstəricisi ilə müəyyənolunur. Məşğulluq amili əmək resursları ilə harmoniya təşkil edir. *Əmək resursları* zəruri fiziki inkişaf, bilik və praktiki səriştə ilə təsərrüfatda işləmək üçün ölkə əhalisinin əsas hissəsini təşkil edir. Buraya məşğul və həm də potensial işçi qrupları aid olunur.

Qeyri-istehsal sferasında məşğul əhalinin artımı, əmək məhsuldarlığı və ümumilikdə sosial-iqtisadi tərəqqi ilə bağlıdır. İnkişaf etməklə olan ölkələrdə əhalinin əksər hissəsi istehsal sferasından kənarda fəaliyyətgöstərir. Bu da müvafiq ölkənin inkişaf səviyyəsi və iqtisadi durumu ilə xarakterixə olunur. Bununla belə, müvafiq konteksdə təəssüfedici bir faktor da mövcuddur. Beləki, dünya əhalisinin 25 milyondan çoc dinc məhsuldar əməkdən kənarda qalaraq hərbi işlərə cəlb olunmuş, bundan da artıq əhali isə bu hərbi qüvvələrin xidmətinə səfərbər edilmişlər.

Əmək bazarını təhlil edərkən iqtisadçılar işsizliyin mövcudluğunun çoxnövlüyünü diqqətə gətirirlər.

- *Friksion* - insanların regionlarda fəsli yerdəyişməsini xarakterizə edir;
- *İntitusional* - işçi qüvvəsi bazarının quruluş xüsusiyyətlərinə rəğmən hüquqi normalardan törənən, ətalət zəifliyi və informasiya qıtlıqı şəraitində transformasiya çətinliyi ilə yaranır;
- *Könüllü* - könüllü olaraq işləmək istəməyənlərə aid edilir;
- *Texnoloi* - müəyyən ölkələrdə ETT ilə yüksək gəlirlərin uzlaşması kombinasiyasında iş yerlərinin ixtisarı ilə nəticələnən işsizlik;
- *Regional* - coğrafi və təbii faktorların əlverişli olmadığı şəraitdəizafi işçi qüvvəsinin yaranması ilə baş verir;
- *Gizli* - əmək mexanizmlərinin dərin deformasiyası, stimullaşdırma və məhsuldarlığın zəif olduğu ölkələrdə baş verir;
- *Struktur işsizlər* - işçi qüvvəsinin tələb və təklif strukturunda qeyri-mütənasibliyi ifadə edir. İxtisas, demoqrafik, coğrafi və digər meyarlar struktur işsizliyinin əlamətləridir;

❋ *Tsikli işsizlik* – əməyə olan ümumi tələbin azaldılması və konyuktur təzahürlərdə özünü göstərir

Planetin sosial və professional strukturunda vətəndaşların məşğulliyyəti, onların sinfi və əmək bölgüsü də əsas şərtlərdəndir. BMT-in və BƏT-in statistikasında cəmiyyətin sinfi strukturu aşağıdakı kimi hesablanır:

- Sahibkarlar - *İstehsal vasitəsilə malik və geniş muzdçu əmək istifadəçiləri*;
- Kiçik mülkiyyətçilər - *Əsas istehsal fəaliyyətini ailə əməyi təşkil edir*;
- Mülkiyyətçilərin ailə üzvləri - *təsbit edilməmiş əmək haqqı ilə işləyənlər*;
- Muzdlu əmək insanları - *fəhlə və qulluqçular*;
- İstehsal koperativlərinin üzvləri;
- İctimai istehsalda yerləri təyin edilməmişlər - *yarımişsizlər və sairlər.*

Kürreyi əsrin müxtəlif nöqtələrində istehsalın inkişaf spesifikası cəmiyyətin sinfi strukturunda əks olunur. Cəmiyyətin sinfi differensasiyasının başlıca əlamətini mülkiyyətçilər və muzdlu əmək insanlarının nisbəti və eyni zamanda fəhlə və qulluqçuların dövlət və özəl sektorda bölgüsü ifadə edirlir [18, 108].

İnsanların qeyri istehsal sferasinda fəaliyyət genişliyini material istehsal sferasında əmək məhsuldarlığının miqyası təyin edilir. ABŞ-da və digər inkişaf etmiş ölkərdə material sferasinda iqtisadi aktiv əhalinin yarıdan azı çalışır. İnkişaf etmiş ölkələrdə isə çox az saylı əhali qeyri-material sferasında çalışır.

Əmək bazarındakı rəqabət peşəkar işçi qüvvəsini formalaşdıraraq əmək bölgüsünün yeni xarakterini stimullaşdırır. Burada vacib şərt olaraq həm qlobal və həm də lokal kontekstdə əmək təklifinin yeni sferalarını yaratmaq zəminində bazar həcminin genişləndirilməsi, iqtisadiyyatın struktur yenidənqurmasını, səmərəli investisiya proqramlarının hazırlanmasını, gizli işsizliyin, əmək bazarında qeyri-formal münasibətlərin ləğvini təmin etmək durur. Bununla belə məşğulluqla bağlı siyasətin özünün də daha aktiv formaya keçidi şərtləndirilməlidir [31].

İşçinin stasus yüksəlişinin təminatı istiqamətində mühüm addım olaraq gəlirlər sferasında islahatları dərinləşdirmək vacib amillərdən sayılır. Bu isə o deməkdir ki, əməyin ödəniş sistemi daim təkmilləşməli, onun ölçü və miqyası real insanı yaşayışla dolğun adekvatlıq təşkil etməlidir.

Bu strategiya isə daha dolğunluqla işçinin peşəkarlığı və şəxsi töhvəsində ehtiva olunan, ləyaqətli həyat səviyyəsinə təminat verən ödəniş ölçülərinin təyinatı, mərhələli olaraq büdcə sferasında işləyənlərin orta əmək haqqı ölçülərinin xalq təsərrüfatında çalışanlar səviyyəsinə qaldırılmasının təminatı, işçilərin qeyri-ödəniş qabiliyətli iş verənlərdən müdafiə edilməsi və vergi sisteminin iqtisadi reallıqlara uyğun mütəmmadi təkmilləşdirilməsi arqumetasiyası üzərində qurulmalı və təkmilləşməlidir.

## *5.3. Yoxsulluq və əhalinin marginallaşmasi problemləri*

Sosial tərəqqi problemi ümumbəşəridir. Buna görə də sosial qayğını hədəf tutan məsələlər bir sıra nüfuzlu beynəlxalq təşkilatların, başlıca olaraq isə BMT-nin fəaliyyət missiyasında əks olunur. Belə meyl daha çox özünü yoxsulluq probleminin ləğvində təzahür etdirir. BMT-nin dərc etdirdiyi yoxsulluq və minilliyin inkişaf məqsədləri haqqında faktlar silsiləsində problematik formada qeyd olunur ki, Yer üzərində 1,2 milyard insan gündə bir dollardan az vəsaitlə dolanır, dünya əhalisinin yarıya qədəri isə dolanmaq üçün gündə iki dollardan az vəsait sərf edir. Məhdud seçim imkanlarına malik olmaqla bu insanlar aclıq, xəstəliklər, savadsızlıq, işsizlik və ümidsizlik qarşısında aciz olan həyat sürməyə məhkumdurlar. Çox zaman onlar ərzaq, təmiz içməli su, kanalizasiya, təhsil, səhiyyə və müasir enerji xidmətləri əldə etməyə belə çətinlik çəkirlər.

Yoxsulluq, işsizlik, iqtisadi və sosial qeyri-stabillik, ümidlərin puç olması, planların pozulması əhalinin marginallaşması prosesini intensivləşdirən amillər cərgəsini təşkil edir. Nəticəvi olaraq bu hal çoxluğu cəmiyyətin sosial pauperlər /*hər cür yaşayış vasitəsindən məhrum*

*edilmiş yoxsul*/ qatını qalınlaşdırır, ölçüləri bilinməyən «sosial dib» adlanan təbəqəni formalaşdırır və möhkəmləndirir. Tədqiqatlar «sosial dib» təbəqəsinin dörd tip insan qrupunda ehtiva olduğu qənatini bölüşdürür:

- diləncilər;
- kimsəsiz və evsiz-eşiksizlər;
- sahibsiz uşaqlar;
- asosial həyat tərzi sürənlər.

Bu insanlar sosial eksklyuz vəziyyətində, sosial resurslardan və sosiumun dominant dəyərlərindən məhrum olunanlardırlar. Bununla belə hər bir qrup əlahiddə olaraq öz spesivik səciyyəsini xarakterizə etdirir.

İnkişaf etmiş ölkələrdə də xeyli insanın yoxsulluq içərisində yaşamasına baxmayaraq kəskin yoxsulluq səviyyəli kontur əksərən inkişaf etməkdə olan ölkələrin payına düşür. İnkişaf etməkdə olan ölkələrdə yaşayan 4,6 milyard insanın demək olar ki, 800 milyonu normal, sağlam və fəal həyat tərzi sürmək üçün kifayət qədər ərzaq əldə edə bilmir. Bu arealda 850 milyon əhali savadsızdır, bir milyarddan çoxu təmiz içməli sudan, təxminən 2,4 milyard nəfəri isə əsas kanalizasiya qurğularından istifadə edə bilmir. Hər il beş yaşınadək 11 milyon uşaq qarşısı alına bilən xəstəliklərdən tələf olur, təxminən 325 milyon oğlan və qız övladı isə məktəbə getmir. Orta hesabda təxmini olaraq 36 milyon insan HIV/AIDS-lə yaşayır. Bununla belə, bu ölkələrdə kontraseptiv vasitələrdən istifadə etmək niyyətində olan təxminən 120 milyon insan həmən vasitələri əldə etmək imkanına malik deyil [134-135].



Gerçək olan məhdudiyyətlər təxirəsalınmaz qlobal miqyaslı tədbirlərin görülməsini şərtləndirir. Bu situasiyada dövlətlər başlıca olaraq donor və ehtiyaclı qruplarda təmsil edilirlər. Burada şərtlilik ondan ibarətdir ki, yaşayış minimumunu təmin edən resurslar maksimal olaraq ehtiyaclılara çatdırılmalıdır. Məlum həqiqət belədir ki, yaşayış minimumu təkcə insanın ləyaqətli həyat sürməsinin göstəricisi kimi deyil, həm də onun fizioloci mövcudluğunu əks etdirən reallıqdır.

Yoxsulluq problemlərinin həlli sivilizasiyanın cağdaş zamanında daha aktual əhəmiyyət kəsb edir. Artıq müvafiq sferanı tədqiq edən ayrıca təlimlər, uyğun indikatorlar sistemi formalaşmışdır. Bu sırada «yaşayış minimumu», «aztəminatlılıq səviyyəsi» kimi yoxsulluqu «işıqlandıran» kateqoriyalar geniş tətbiqini tapmışdır. Bu kateqoriyalar insanın bioloji və sosial tələbləri kontekstində minimal hududları müəyyən edir. Bu göstəricilər sisteminin təşəkkül məqamları ötən əsrin əvvələrinə yönəlsə də Sovetlər İttifaqında yalnız XX yüzilliyin 60-ci illərində dövriyyəyə çıxarılmışdır. Nəhayyət ki, totolitar cəmiyyət ölkəsində bu sosial göstəricilərin mühümliyi də anlaşılmışdır. 1965-ci ildə ilk dəfə yaşayış minimumu 40 rubul, minimum əmək haqqı isə 60 rubul həcmində müəyyən olunmuşdur. İttifaqın çökməsi ərəfəsində müvafiq göstəricilərin parametrləri müvafiq olaraq 100 və 165 rubul təşkil etmişdir.

Sivilizasiyanın inkişaf trayektoriyasının genişliyi yoxsulluq kontengetinin idikatorlar sistemini daha bir neçə bənd artırmışdır. İndi bu sırada, «yaşayış minumumunun büdcəsi», «minimal yaşayış büdcəsi» kimi kateqoriyalar daha çox məhşurluq və şöhrət əldə etmişlər. Bununla yanaşı yaşayış minimumunun da strukturu dəyişikliklərə uğramışdır. Bununla belə yeni sosial reallıqlar yoxsulluğu iki - «dayanaqlı» və «üzən» formatda təzahür etdirmişdir. *Dayanaqlı* yoxsulluq daha radikal təbiətli olaraq aşağı səviyyəli material təminatlıdır. Onun davamlı mövcudluğu sağlamlığın, peşəkarlığın pisləşməsinə və son olaraq fərdi deqredasiyaya aparır. *Yzən* yoxsulluq şəriti isə nisbət aşağı ağrılıdır. Bu onun epizodik təbiətindən irəli gəlir [58, 97].

Yoxsulluğun hududlarının müəyyən edilməsi bir sıra şərtləri ehtiva edir. Bununla belə bu təyinatın məxsusi metodologiyası da mövcuddur. Bu metodologiya üç praktiki formatı sitez edir:

- mütləq;
- deprivasion;
- subyektiv.

*Mütləq* format gəlir və xərclərin yaşayış minumumuna uzlaşmasına, *deprivasiyon*

yoxsulluğun cəmiyyətin istehlak tələblərinə uyğunlüğüna və nəhayət *subyektiv* format əhalinin pul resursları fonunda özlərinin hesablamalarına əsaslanır [108].

Yoxsulluğun ləğvi probləri lokal çərçivələri aşaraq qlobal - ümümbəşəri səciyyə almışdır. İqtisadi inkişaf tapmış ölkələrdə yaxşı dərk olunur ki, əgər inkişaf etməkdə olan dövlətlərdə yoxsulluq problemləri həlini tapmazsa onların özlərinin pis aqibəti düçar olmaları reallığa çevriləcəkdir. Aclıq və səfəalət milyon-milyon kütlənin nizamsız miqrasiyüasına rəvac verəcək, əldə olunmuş sosial tarazlıq pozulacaqdır. Buna görə də müvafiq istiqamətdə təxirəsalınmaz tədbirlərə əl atılır, yoxsulluğa mübarizə ümumplanetar xarakter alır.

Bəşəri çətinliklərin məhdudlaşması istiqamətində əsrlərin və minilliklərin qovşağının ifadəsi olan 2000-ci ilin sentyabrında keçirilmiş Minillik Sammiti yoxsulluq probleminin həllində daha qətiyyətli qərarları ilə fərqlənmişdir. Dünyanın 191 dövlətini təmsil edən 147 dövlət və hökumət başçısının iştirak etdiyi sammitdə yoxsulluğun ləğvi sahəsində konkret hədəfləri müəyyənləşdirən Minillik Bəyannaməsi qəbul olunmuşdur. Bu dövlətlər 2015-ci ilədək öz üzərlərinə aşağıdakı öhdəlikləri götürmüşlər:

- gündə bir dollardan az vəsait hesabına dolanan əhalinin payını yarıbayarı azaltmaq;
- aclıqdan əziyyət çəkən əhalinin payını yarıbayarı azaltmaq;
- təmiz və münasib içməli su əldə edə bilməyən əhalinin payını yarıbayarı azaltmaq;
- bütün oğlan və qızların icbari təhsili başa vurmasını təmin etmək;
- təhsil xidmətlərinin əldə olunmasında cinslərin bərabərliyini təmin etmək;
- ana ölümü əmsalını dörddə üç dəfə azaltmaq;
- beş yaşadək uşaqlar arasında ölüm səviyyəsini üçdə iki dəfə azaltmaq;
- HIV/AIDS, malyariya və digər təhlükəli xəstəliklərin qarşısını almaq və yayılma səviyyəsini aşağı salmaq;
- 2020-ci ilədək gecəqondularda yaşayan ən azı 100 milyon insanın həyat şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına nail olmaq.

Yoxsulluq və sosial çətinliklərlə bağlı problemlərin kəskinliyinə baxmayaraq BMT hesabatlarında irəliləyiş faktorlarının mövcudluğu da diqqəti cəlb edir. Belə ki, artıq bütün dünya üzrə orta ömür uzunluğu artmış, körpə ölümü səviyyəsi hər min diri doğuşa 100 haldan 50 hala düşmüşdür. Pis qidalananların sayı təxminən 900 milyondan 800 milyona enmiş, yaşlı əhalinin savadlılıq səviyyəsi də 60%-dən təxminən 80%-dək artmışdır. İnkişaf etməkdə olan ölkələrdə kontraseptiv vasitələrdən istifadə səviyyəsi isə təxminən 50%-ə çatmışdır. Ticarət və investisiyalar, həmçinin maliyyə, idarəetmə, infrastruktur və hüquq sistemləri sahələrində islahatlar vasitəsilə dünya iqtisadiyyatına uğurla inteqrasiya olunmuş ölkələrdə 1990-ci illər ərzində adambaşına düşən gəlirin artımı ildə 5% təşkil etmişdir. Şərqi Asiyada yoxsulluq əmsalı 1990-cı ildə mövcud 28%-dən 2004-cü ildə 15%-ə enmiş və bunun nəticəsində yoxsulluq içərisində yaşayan insanların sayı 418 milyondan 267 milyona düşmüşdür. Səhradan cənuba doğru yerləşən Afrika ölkələrində yoxsulluq əmsalı 48% təşkil edərək son on il ərzində dəyişməz qalmaqdadır. Burada yoxsulluq içərisində yaşayan insanların sayı 1990-cı ildəki 220 milyondan 2004-cü ildəki 300 milyon nəfərə çatmışdır.

Çin, Hindistan, Uqanda və Vyetnam kimi ölkələr qlobal yoxsulluq səviyyəsinin azaldılmasında aparıcı rol oynamışlar. Ötən əsrin sonlarında Çin kəskin yoxsulluq içərisində yaşayan əhalinin sayını 360 milyondan 210 milyonadək azaltmağa müvəffəq olmuşdur. Uqandada yoxsulluq 40%, Vyetnamda isə yarıbayarı azalmışdır. İnkişaf etməkdə olan ölkələrin çoxu həm oğlanlar, həm də qızlar üçün ümumi ibtidai təhsili təmin etmiş və ya bunu reallaşdırmaq ərəfəsindədirlər [28, 108].

Görülən tədbirlərin nəzərə çarpacaq səmərəsinə baxmayaraq daha miqyaslı işlərin yerinə yetirilməsi gündəmdə durur. Bu çox xalqların zərb məsəlində olduğu kimi, «fəqir qonşuya gündəlik azuqə verməkdənsə, onu bu azuqələri kifayət miqdarda sərbəst qazanmaq imkanları verən vasitələrlə təmin etmək daha səmərəlidir. Bu təfəkkürdən çıxış edərək böyük dövlətlər

sosial ehtiyacların təmin edilməsində bölüşdürücü və təminatçı funksiyaları ilə yanaşı həmən dövlətlərdə mütərəqqi konseptual siyasətə əsaslanan təkmil sosial infrastruktur yaratmalıdırlar. Bu yaranışın əsas qayəsini isə avtonom fəaliyyət və siyasət təşkil etməlidir.

Tarixi təcrübə sübut edir ki, yoxsulluqla mübarizə, xüsusilə gəlirlərin bölgüsündə müxtəlif sosial qrupların rolunun dəyişilməsinə iqtisadi münasibətlər sisteminin inkişafı kontekstindən kənarda baxıla bilməz. Əhalinin sosial müdafiəsi məsələləri dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir. Vəbuna görə də müvafiq sahədəardıcıl səmərəli iş aparılmışdır.

# VI FƏSİL
# TƏKİMLLƏŞƏN MENECMENT VƏ OPTİMAL GƏLİRLƏR BÖLGÜSÜ

## *6.1. Elmi və tətbiqi menecment*

İnsanlar ilk təsərrüfatçılığı ərsəyə yetirəndə idarəetmə sistemi də onunla bərabər təşəkkül tapmış və onunla da qoşa olaraq təkamülünü gerçəkləşdirmişdir. İqtisadiyyat praktiki müstəvədə elm çevrəsinə səmt götürəndə də idarəetmə obrazlı şəkildə bütün analitik prosesin fövqündə hərəkət etmişdir. Ümumi fəaliyyəti nizamlayan əlahiddə sistem olaraq idarəetmə mürəkkəb, çoxşaxəli bir prosesdir. O, apriori və fövqəltəcrübə deyil, elmi və empirik biliklərin sistemli vəhdətində formalaşır. Struktur mükəmməlliyi, dəqiq səlahiyyət, vəzifə bölgüsü, cavabdehlik kredosu və başlıca olaraq intizam məsuliyyəti mürəkkəb situasiyalarda belə idarəetməni müvəffəq edir.

İdaretmə sistemi əmək prosesində ehtiva olunur. Məhz yaradıcı əmək idarəetməni generasiya edir, onun sistemlilik və rabitəliyini təkmilləşdirir. A.Smitdən başlamış ən yeni iqtisadi məktəb nəzəriyyəçiləri idarəetmə prosesinə xüsusi əhəmiyyət vermiş, onu iqtisadi texnologiyaları reallaşdıran sistem kimi qiymətləndirmişlər.

İdarəetmə bir elm kimi empirik topluma malik olaraq böyük inkişaf yolu keçmişdir. İdarəetmə qərarlarında riyazi və statistik metodları, o cümlədən digər fənlərin geniş tətbiqi ilə fərqlənən menecment ayrıca elm kimi II Dünya müharibəsindən sonra yaranmışdır. İngilis mənşəli mürəkkəb söz - *menecment* istehsal və insanları idarəetmə üsul və fənni kimi şərh olunur. Bazar iqtisadiyatı terminologiyasında menecment istilahının menecer - idarəçi, idarə edən, baş idarəçi-top menecer kimi paronimləri geniş yayılmışdır. Ümumilikdə götürüldükdə müasir dünyada idarəetmə elmi sadəcə olaraq elə menecment də adlanır [59, 81].

Menecment empirik əsasda ayrı-ayrı sahibkarların biznes işindəki uğurları ilə daha da zənginləşmişdir. Yeni mexaniki sistemlər istehsal tsiklinin bütün mərhələsində əhəmiyyətli idarəetmə texnologiyalarının tətbiqini qaynaqlandırmışdır.



Yüz il öncə məşhur ABŞ mühəndisi Frederik Uinslou Teylor /1856-1915/ istehsal əməliyyatlarının normallaşdırılması sahəsində dəqiq monitorinq sistemi yaratmaqla, əməyin təşkili və istehsalın idarə edilməsi sahəsində mühüm inqilabi dəyişiklik etmişdir. Teylorun sınaqları, müşahidələri onun adı ilə bağlı müvafiq *«Teylorizm»* nəzəriyyəni formalaşdırmışdır.

Kapitalist istehsal üsuluna nifrət timsalında ideologiyalarını quran kommunistlər F.U.Teylorun idarəetmə prinsiplərindən faydalanaraq anonim qaydada çox geniş aspektdə ondan yararlanmış və faydalanmışlar. Bununla belə, teylorizm klassikliyini saxlamaqla bərabər, bazar ölkələrində inkişafını tapmış, məhsuldar qüvvələrin, elmi-texniki tərəqqinin nailiyyətləri ilə təkamül etmişdir. F.U.Teylor tarixdə həm də <u>*elmi menecmentin*</u> atası kimi də daxil olmuşdur.



Bir neçə onillik nəhəng metallurci kombinatın rəhbəri işləmiş fransalı dağ mühəndisi Anri Fayol /1841-1925/ müəssisənin təşkili və idarəetmə sahəsində topladığı təcrübəsini məhşur «Ümumi və sənaye idarəetməsi» kitabında əks etdirərək idarəetmə beş qaydasını - *əvvəlcədən görmək, təşkil etmək, sərəncam vermək, razılaşdırmaq və nəzarət etmək* konfiqurasiyasında səciyyələndirmişdir.

Oricinallığı ilə seçilən *«Faylorizm»* nəzəriyyəsi teylorizmlə müqayisədə daha çox ierarxik və azfunksionallıq bağlılıqında fərqlilik nümayiş etdirmişdir. İnsan faktoruna, onun davranışına, bacarığına, psixologiyasına və sosioloji aspektlərə daha çox istinad etmək faylorizmi ayıran cəhətlərdəndir.

Faylorun fikrincə, hər hansı iri müəssisədə müxtəlif funksiya və qaydalar *texniki, kommersiya, maliyyə, təhlükəsizlik təminatı, mühasibat, müdiriyyət təsnifatlı* altı kateqoriyada ehtiva olunur. Bütün bu mühüm kateqoriyalar müvafiq funksiyaları yerinə yetirən şəxslərin

bacarıqlarına uyğun olmalıdır. Belə bölgü ilə A.Fayol idarəetmənin səmərəli aparılmasını elmi əsaslandırmışdır. Bütün bu əlamətlərlə yanaşı rəhbərin nüfuzu, əmr etmək, dəqiq ierarxiya, nəzarət və nəticələrin mərkəzləşməsi, intizam ədalətlilik, sabitlik, təşəbbüskarlıq, məsuliyyət kimi digər prinsiplərə də riayət olunması səmərəli idarəetməni şərtləndirir.



ABŞ avtomobil sənayesinin atası adını qazanmış tətbiqi menecmentin banilərindən biri Henri Ford /1863-1947/ özünün «Mənim həyatım, mənim nailiyyətlərim», «Bu gün və sabah» əsərlərində «*Fordizm*» adlanan yeni bir nəzəriyyənin əsasını qoymuşdur. «Fordizm» məğzini kütləvi fasiləsiz istehsalın təşkili ilə bağlı unifikasiya olunmuş, konveyerli quraşdırma prinsiplərinə əsaslanaraq kiçik istehsal xərclərinə rəğmən böyük əmək məhsuldarlığı təşkil edir.

İntensiv əməyi mexanikləşdirmə, onu hər cür mükafatlandırma, industriyanın yüksək ixtisaslı generallarla təminatı fordizmin əsas idarəetmə meyarlarındadır. Öz sələfləri kimi Ford da elmi biliklərin istehsalın təşkili və idarəetmədə geniş tətbiqinin carçılarından olmuşdur [81, 127].

Müasir idaretmə elminin formalaşmasında praktiki təşkilatçılarla yanaşı elmi analitiklər F.Qilbert /1868-1924/ Q.Emerson /1853-1931/, P.Draker /1909/ və digərləri əzəmətli elm tədqiqatlar aparmışlar.

Belə fikir hakim kəsilmişdir ki, müasir menecment inqilabi mərhələyə daxil olmuşdur və onun paradiqması dəyişikliyə məhkumdur. Menecment, planlaşdırma, təşkilatçılıq, liderlik və nəzarət vasitəsilə məqsədlərə nailolmanı ehtiva edir.

Səmərəli fəaliyyətin prinsip və metodlarını öyrənən prakselogiya elminin idarəetmədə tətbiqindən faydalanmaq mühümdür. İnsanların birgə, fərdi və kollektiv fəaliyyətinin, hərəkətinin motivasiyası, qərarların qəbul edilməsi onun tədqiqat predmetini təşkil edir. Bu sıradan idarəetmədə elektron quruluşlu sistemlərin, mikroprosessorların, müasir texniki vasitələrin tətbiqi, proseloci nəzəri nailiyyətlərdən istifadə səmərəlilik və çağdaşlılıq baxımından da əhəmiyyətlidir.

Liberallaşmış iqtisadiyyatın menecmenti bu sferada tarixi təcrübədən əldə edilmiş nailiyyətlərə və prinsiplərə ciddi riayət olunmanı şərtləndirir.

Prinsip idarəetmədə tərənnüm olunan ideyanın əsas qaydasıdır. Müxtəlif bazar seqmentlərinin, müvafiq iqtisadi alətlərin tətbiqi ilə yanaşı, menecmentin öncül prinsiplərindən faydalanmaq da paralel istiqamətdə inkişafını tapmalıdır.

Menecmentin təhlil prinsipi qərarın verilməsində son dərəcə əhəmiyyət kəsb edir. Hadisələrin *dinamik qanunauyğunluğu*, yəni səbəb və nəticənin eynimənalığı, zəruri və təsadüfi əlamətlərin dialektik vəhdətində dayanan eynimənalılığın pozulması - *statistik qanunauyğunluq* təhlil işində nəzərə alınan əsas cəhətlərdəndir.

Birinci prinsipə əsasən sistemin başlanğıc vəziyyətini bilməklə sonrakı inkişafı dəqiq söyləmək mümkün olsa da, ikincidə müəyyən ehtimallar ortaya çıxır. Burada imkan və gerçəkliklərin real, konkret, formal və mücərrəd bucaqlarının nəzərdən keçirilməsi də şərtlidir.

Menecmentdə *dekompozisiya metodu* - başqa sözlə, sistemin sadələşdirilməsi geniş təhlil obyekti kimi diqqəti cəlb edir. Dekompozisiyanın köməyi ilə sistem tərkib və sistemaltı hissələrə, məqsəd və məqsədaltı tapşırıqlara və digər törəmə qruplara bölünərək bir-birindən asılı olmadan həll edilir. Sonradan onlar arasında rabitə, uzlaşma aparılır. Bu sistemli təhlilin ikinci fazasında daha mühümdür. Burada sistemin elementlərinin qarşılıqlı əlaqəliliyi müəyyən edilir.

Təcrübə göstərir ki, optimal qərarvermənin universal qaydası mövcud deyil. Bununla belə, müasir menecmentdə qərarvermədə uğurlu sonluqlar yaradan həll sistemləri təşəkkül tapır və tətbiq edilir.

Qəbul ediləcək qərar alternativləri və addımları məhdudluğu sferasında iqtisadi texnoloji alət kimi həll ağacı sxemindən istifadə olunur.

*Həll ağacı* çox addımlı qərar qəbulu prosesinin optimallaşdırılmasının mütərəqqi forması kimi, struktur problemlərinin həllinin təhlilində daha çox sınanır.

Böyük istehsal komplekslərinin meydana gəlməsi yeni idarəetmə prinsiplərinin formalaşmasını şərtləndirmiş, elmi-texniki imkanlar, mükəmməl informatik təminat onu daha uzaq məsafədən yerinə yetirilməsinə şərait yaratmışdır. Mikroprosessorlarla, internet-texnologiyalarla əhatə olunuduğumuz çağdaş zamanda məsafədən nəzarət və idarəetmə nisbi sadə və təminatlı olmuşdur.

Sosiallaşan bazar iqtisadiyyatı şəraitində idarəetmədə iqtisadi metodlardan istifadənin genişləndirilməsi vacib şərt hesab edilir. Belə ki, məhdud resurslar müqabilində məhsuldarlığın artması əlavə əmək sərfi nəticəsində əldə oluna bilər. İnsan sosiumunun tərəqqisi əmək sərfini stimullaşdırır. İstehsal xərclərinin digər komponentərini sıxışdıraraq əmtəələri keyfiyyət dəyişikliklərinə uğradır və məhsulu daha çox əməkməsrəfli edir. Bu da öz növbəsində insanın artan istehlak tələblərinin daha yaxşı ödənilməsinə zəmin yaradır. Belə məhsulların istehsalı isə daha çox iqtisadi qaynaqlanmanın yüksək olduğu təşkilatlarda baş verir. Mikroiqtisadi səviyyədə iqtisadi qanunların tələbləri öz inikasını idarəetmənin iqtisadi metodları vasitəsilə gerçəkləşdirir. Göstərişlərə əsaslanan təşkilati metodlardan fərqli olaraq iqtisadi ünsürlü idarəetmə müvafiq prinsip və qanunların təbiətinə uyğun tərzdə istehsal münasibətlərində reallaşmanı əks etdirir.

Müasir mencmentin metodoloji əsasları bazar nəzəriyyəsinə istinad edir. Məhz formalaşan bazar mexanizmlərindən peşəkarcasına istifadə bacarığı ümumi toplumda idarəetmə çətinliklərinin dəf olunmasına zəmin yaradır.

Bazar iqtisadiyyatı inkişaf etdikcə idarəetmə prosesi sosial tələblərin, ictimayyətin artan təsir effekti nəticəsində yeni yaranışlarla zənginləşir, daha çevik və aşkar məzmun alır. Belə yarınışlardan biri də yaşadığımız zamanədə sosial və psixoloci menecmetin məxsusi forması, təşkilatın iqtisadi müvəffəqliyinin təminat vasitəsi olan «Pablik releyşn» texnologiyası ilə bağlıdır.

«Pablik releyşn» /*Public realations*/ ingilis dilindən tərcümədə «ictimai əlaqələr», «ictimai münasibətlər», «kütlə üçün hekayət» kimi, mənaları ifadələndirir. «Pablik releyşn» çox zaman PR abbreviaturasında qısa olaraq *piar* kimi də səsləndirilir.

PR-in yaranışı və inkişafını cəmiyyət qanunları, ictimai ənənə və müvafiq idarəetmə tələbləri şərtlənmişdir. Firma ilə cəmiyyət arasında idarə edilən kommunikasiya prosesi kimi PR, ictimaiyyatə təbliğat xarakterli olmayan, fəlsəfi qayəsi sosial luzumlu, kommersiya təyinatlı informasiya tiraclayır. Burada başlıca şərtlərdən biri də ictimaiyyatlə əlaqələrdə milli mental elementlərə müvafiq olan əlaqələr sistemini yaratmaqdan ibarətdir.

Sahibkar və firmanın personalı anlayır ki, ətraf dünya ilə yalnız mehriban münasibətlər şəraitində kommersiya məqsədlərinin maksimal reallaşması mümkündür. Mütəşəkkil PR sahibkara firmanı sezmək, dəqiq görnüşlü pəncərə açmaq imkanı yaradır, ictimai ovqatın dəyişməsini vaxtında ona bəyan edir.

Təşkilati idarəetmə sistemində daim artmaqda davam edən işgüzar reputasiyanın əldə edilməsi də olduqca vacib məsələdir. Bu sırada pozitiv reputasiyanı, səmərəli imici yaradan forma və vasitələr məcmusu kimi *repyutinq* əhəmiyyətini nümayiş etdirir. Onun prinsipial qayəsini istehsalın etik normaları istehsal və əmtəə estetikası, stilin təyinatı, qudvil və kommunikasiya effektivliyi təşkil edir. Reputasiyanın qiyməti *qudvil* daimi müştərilər dairəsi, ticari markası, personalın ixtisas dərəcəsi, istehsal üsulu, nou-xau, müəlliflik hüquqları səmərəli təşkilatın fəaliyyət atributlarını birləşdirir.

Məqsədini müştərini anlamaq, arzu və tələblərini öyrənmək məramları təşkil edən repyutinqə, həm də «*menecment – marketinq - repyutinq*» formalı bazar mexanizminin zəncirini yaradan tərkib hissə kimi də təyinat vermək olar [17].

Təşkilatın reputasiyasının qiyməti çox yüksək ola bilər. Belə ki, «Koko-Kola» firmasının ticarət nişanı 3 milyard, «Kemel» siqaret firmasının 2,5 milyard, Moskvanın Kristal zavodunun «Staliçnaya» arağının isə müvafiq markası 100 milyon dollar məbləğində qiymətləndirir. Elə sahibkarlar vardır ki, onların faksimilinin qiyməti milyon dollarlarla dəyərləndirilir və bəzən bu məbləğ məxsusi material aktivlərini belə bir neçə dəfə üstələyir.

Tarix göstərdi ki, bəşəri məqsədlərə nail olmada təşkilatın rolu, onun struktur effektivliyi nə qədər yüksəkdir. Təsərrüfatlaşan obyektə çoxşaxəli təşkilati strukturlar xasdır. Beynəlxalq təcrübədə təşkilata departamentləşmədə törəmə istehsal qurumlarını əhatə edən *xətti*, yaxud *iyerarxik*, aparıcı şöbələr prinsipində xüsusiləşən *funksional* və nəhəng təşkilatlara xas menecer idarəetməsinə əsaslanan *divizion*, xarici təsirlərə, yeniləşməyə meyli ilə fərqlənən *adaptiv* - */üzvü/* strukturlar təsnifatı formalaşmışdır. Digər bir təsnifatda adi şöbə bölgüsü - *funksional ənənəvi coğrafi* və *məhsul buraxılışı üzrə qruplaşmış divizion* və bunların vəhdətini əks etdirən *matrissa* strukturu ilə yanaşı *komandalı* - xüsusi tapşırıqları koordinasiya edən və daha çox beynəlxalq əlaqələrdə əhəmiyyətli olan *broker* tənzimli strukturlar da mövcuddur. Hər bir struktur özünəməxsus təşkilata müvafiqdir və burada müsbət və mənfi cəhətlər mümkün və yetərli ola bilər. Kiçik müəssisələrə xətti quruluş istisna olmaqla, bütün digər təşkilatlarda bu strukturların heç biri xalis şəkildə idarəetmə mexanizmə çevrilmir. Bununla belə, əksər müəssisələr qarışıq idarəetməni həyata keçirirlər [17, 59].

Ağıllı məqsədləri, amalları təqib edən optimal idarəetmə obyektiv həqiqi, tam informasiyaya arxalanır. Belə informasiyasız səmərəli idarəetmə müşkül məsələdi. İqtisadi informasiya düşündürən informasiya kimi insan şüurunda emal olunaraq iqtisadi sferaya xərclənir. O, iqtisadi maraqlar və tələblərlə şərtlənərək istehsalın təşkili prosesində dövr edir. Çağdaş zamanda iqtisadiyyatda informasiya olduqca nəhəng çəkiyə malik olaraq öncül mövqeyə çıxmışdır.

İnformasiya müəyyən mənada resursları əvəz edir, yeni texnologiyaların əhəmiyyətini artırır, ənənəvi xammal növlərinə və digər bu kimi komponentlərə tələbi azaldır. İnformasiyanın mütəmadi, tez əldə edilməsi, informasiya birinciliyi və ya ilk məlumat effekti operativliyi şərtləndirən xüsusiyyətdir. İlk məlumat effekti obyektiv həqiqətin tamamilə kənar və ya nisbi həqiqət donlu ola bilər. Nə qədər fundamental faktlara əsaslanan, şəksiz həqiqət olsa da, ustalıq və peşəkarlıqla hazırlansa da, informasiya alternativ təhlil süzgəcindən keçdikdən sonra qərar mexanizminin məhsuluna çevrilə bilər. Belə ki, məlumat blokunda yer tutan hər amil davranışı ilə bütünlükdə tam bir sistemin taleyini həll etmək imkanındadır [80].

Menecment prosesi informasiya ilə təşkilatlanmanın qarşılıqlı əlaqəliyi ilə xarakterikdi. İdarəetmə mexanizmində fundamental rolu «*geriyə əlaqə*» prinsipi tutur. Bu prinsipə görə, informasiya və idarəetmə subyekti - *mənbə* ilə obyekti - *qəbuledici* istənilən münasibətdə yerdəyişməyə məruz qalırlar. Təşkilatın rəhbəri idarəetmə subyekti kimi tabeçiliyində olanlardan informasiyalar aldıqda həm də idarəetmə obyekti kimi çıxış edir, eyni zamanda bölmə rəhbəri də direktorlardan informasiya aldıqda icra prosesində idarəetmə subyektinə çevrilir. Beləliklə, idarəetmə obyekti və subyekti ikili funksiyanı yerinə yetirir. Harada bu prinsip pozulur və ya mövcud deyil, idarəetmənin mahiyyət və nəticəliyi də təhrif olunur. Təkmil menecment strukturunun əsas məqsədini idarəetmə qərarlarının hasili və icrası təşkil edir. Burada isə əsas yeri maksimum variantlardan məqsədləri daha dolğun və tam yerinə yetirməsini təmin edən optimallıq prinsipini tutur [75, 86].

Menecment bir sistem olaraq planlaşdırmadan yan keçə bilməz Məqsəd və planlar istənilən cəmiyyətin həyat məramının məğzini təşkil edir. Müasir iqtisadi sistemlərdə planlaşdırmanın strateci aspektdə yeni tipologiyaları intişar tapmaqdadır. Plan və strategiya ayrı-ayrı anlayışlar olsa da onların qarşılıqlı təmas və oxşar cəhətləri yetərincədir. Bu baxımdan strategiya özü işlənmədə bu günkü qərarlarda gələcəkdə qəbul olunacaq qərarların nəzərə alınması planını ifadə edir. Uzunmüddətli zamanı əhatə etməklə *strateci planlaşdırma* həm də ümidli istehlakçı tələbini reallaşdırılması üçün əlverişli şəraitin yaradılmasında əks olunur [29].



II dünya müharibəsindən sonra Fransa, Almaniya və Qərbi Avropa üçün dövlətin iqtisadi həyatda aktiv iştirakını təmin edən «*indikativ planlaşdırma və idarəetmə*» sisteminin yaranması mühüm əhəmiyyətli olmuşdur. İndikativ planlaşdırma sistemi Avropa inteqrasiyasının baş təşviqatçılarından biri Fransa iqtisadçısı Can Mone /1888-1979/ adı ilə bağlanılır. Bununla belə vurğulanmalıdır

ki, fransız iqtisadçısı F.Perru çağdaş kapitalizmi əks etdirən dominant iqtisadiyyat nəzəriyyəsində indikativ planlaşdırma prinsipini işləmişdir.

İndikativ sistemdə idarəetmə və planlaşdırma indikator və reqlyator obyektli şəbəkədə formalaşdırılır. Plan qərarları və idarəetmə obyektinin təməl nöqtələrdə olan arzu edilən vəziyyətinin xarakteristikasını indikatorlar və belə vəziyyətə nailolma üsullarının xüsusiyyətlərini reqlyatorlar təmsil edir. Reqlyator və ya tənzimləyicilər indikatorun mahiyyətinə reaksiya mexanizmi funksiyasını yerinə yetirir. İndikator inteqral göstərici, multiplikator mahiyyəti daşıyaraq proses və vəziyyətin keyfiyyət xarakteristikasının kəmiyyət təyinatını verir. Yalnız kəmiyyət konstatasiyasını verən göstəricidən fərqli olaraq indikator vektorlu, istiqamətverici xarakter daşıyır. İndikatorlar məhdud astana xarakterli olaraq obyektin idarə edilməsində kritik vəziyyəti siqnallaşdırır [17, 86].

İndikativ idarəetmə və planlaşdırmanın ilk mütləq analitik mərhələsini proqnozlaşdırma təşkil edir. Proqnozlar təsnifatda obyekt və prosesin dəyişmə meylinin yazılışı, şərhi üsulu və onu xarakterizə edən parametrlərin formalaşması üslubuna görə fərqlənirlər. Təsnifatın birinci çevrəsi özlüyündə proqnoz göstəricisinin dinamikasını xarakterizə edən trendli və proqnoz göstərici-indikator, amillər prosesi-reqlyatorun qarşılıqlı rabitəsi formasında ehtiva olunan faktorlu yanaşmaya bölünür. İkinci çevrədə genetik-resurs və normativ-məqsədli yanaşma dayanır. *Genetik yanaşma* keçmiş, indiki və gələcəyin kəsişməsini xarakterizə edən dayanıqlı meyllərin proqnozlaşmasına əsaslanır. *Normativ yanaşma* isə iqtisadi artım məqsədlərinə nailolmada təkrar istehsalın parametrlərinin təyinatını əhatə edir. Ümumiyyətlə isə hər bir plan direktivlə proqnozun sintezindən ibarət olmalıdır. Başqa sözlə təyin olunmuş məqsədli quruluş /*teologiya*/ və genetik /*trendli yanaşma*/ elmi əsaslandırılmalı və onlar bir-biri ilə antiqonizm deyl, dialektik vəhdət təşkil etməlidir.

Müasir mərhələdə bazar prinsiplərini rəhbər tutaraq Devid Korten, Piter Senc, Minsberq Henri, Omaye Keniti və digərləri idarəetməni empirik və nəzəri nailiyyətlərlə zənginləşdirərək, onun səmərəliliyinin artırılmasının yeni aspektlərini təklif etmişdir [117, 135].

## *6.2. Yerli özünü idarəetmə*

Ərəb mənşəli istilah kimi *bələdiyyə* şəhər ismindən başlanğıc alaraq şəhər idarəetməsi ifadələndirir. Avroatlantik məkanda isə bu anlayış alman dilində ki, *munisipalitet* sözündən qaynaqlanaraq seçikli əsasda təşəkkül tapan yerli özünüidarəetmə sistemini xarakterizə edir. Bununla belə hər iki istilah yerli özünüidarəetmənin sinonimləri olaraq parafraz kimi işlənir.

Sovet ensiklopediyalarında yerli özünüidarəetmə sisteminin dövlətlə birgə yarandığı göstərilir. Lakin elmi araşdırmalar təstiq edir ki, özünüidaretməyə əsaslanan ilk təşkilatlanmalar dövlətdən öncəki insan cəmiyyətlərinin təşəkkül çağlarına gedib çıxır. Dövlətin yarınışının başqa səbəbləri olsa da, o yerli özünüidarəetmə sistemlərini ləğv etməmişdir. Ümümiyyətlə yuxarıdan-aşağıya - *dövləti idarəetmə* və aşağıdan yuxarıya *yerli özünüidarəetmə* kimi iki strukturda təsnifləşdirilən sosial idarəetmənin hər iki fenomeni uzun tarixi bir dövr ərzində qoşa adımlayaraq ya avtonom fəaliyyət göstərmiş və yaxud da qovuşaraq ümumi olan tam bir şəbəkə yaratmışlar.

Sivilizasiyanın inkişafı tendensiyası yerli özünüidarəetmə sistemlərinə ikinci nəfəs gətirdi. XVIII yüzilliyin sonunda feodal və burcua sinflərinin rəqabət mübarizəsində yerli idarəetmə liberal-demokratik düşüncənin məhsulu kimi yenidən geniş dövriyyə çıxış etdi. Elə bu zamanlardan da onun nəzəri prinsipləri geniş elmi çevrədə formalaşmağa başladı. Praktiki görüntüdə isə özünü idarəetmənin yerli sistemləri şəhər, əyəalət və bölgə konteksində mer, və burqomister kimi rütbələrdə Avropada baş verən burcua inqilabları zamnında möhkəmləndi.

Yerli özünü idarəetmə nəzəriyyəsinin ilk ideoloqları dövlətin iqtisadiyyatda yeri olmadığını və bu funksiyaların yerli özünü idarəetmə orqanlarına verilməsini üstün hesab etdilər. Aktiv olaraq icmanın özünüidarəetmə prinsiplərini işləmiş fransız alimləri F.Qure və A.Tokvil yalnız

icmanın gücsüzlüyü şəraitində dövlət yaradımına əl uzadılması məqbuldur fikrini irəli sürdülər. İctimai xadim Aleksis Tokvilə /1805-1859/ münisipalitetlərə elmi-nəzəri anlam verən məhşur deyilmlər xasdır. Alim təstiq edirdi ki: «Müsipalitet millətin gücünü təyin edir. Millət azad idarəetmə sistemi yarada bilər, lakin münisipalitetlərsiz o azadlıqın ruhunu qoruya bilməz». Fikrimizcə bu bələdiyyələr haqqında ən bariz fəlsəfi tezislərdən birididir. Müıvafiq interpretasiya bir daha göstərir ki, yerli özünüidarəetmə təməlcə insan azadlığı, demokratiya prinsiplərinə söykənir və enerji qidasını məhz ondan alır.

XIX əsr Avropası siyasi sistemin inkişaf istiqamətini icmanın azadlığı prinsipləri üzərində qoyaraq yerli özünü idarəetməyə rəğbətini artırdı. Elə bu vaxtlardan başlayaraq özünü idarəetmənin triada formatlı ilk klassik paradiqması təşəkkül tapdı. Bu yerli özünü idarəetmə üçbucaqına görə:

- ✧ hakimiyyətin əhaliyə və yaxud müvafiq ərazi secicilərinə mənsub olması;
- ✧ daxili həyat məsələlərinin həllində müstətəqillik;
- ✧ kənardan təyin edilən orqanların olmaması kimi - prinsiplər rəhbər tutuldu.

Qanun icmanı yaratmır, onu hazır şəkildə tapır ideyasının hakim olduğu həmən vaxtlarda yerli özünü idarəetmə sistemi öz statusunu daha da möhkəmləndirdi. 1831-ci ildə Belçika konstitutiyasında qanunverici, icara və məhkəmə hakimiyyəti ilə yanaşı özünüidarəetməyə dördüncü hakimiyyət statusu verdi. XIX-XX əsrlər salnaməsi bir sıra siyasi sistem özəllikləri ilə yanaşı həm də inkişaf trayektoriyasını yerli özünü idarəetmənin rəmzi altında keçirdi. Hazırda isə bələdiyyə institutları ABŞ, Fransa, Almaniya, İsveçrə və digər inkişaf etmiş Avropa ölkələrində geniş tərəqqiyə yetişmişdir. Bu meyl güclənməkdə davam edir və yeni-yeni sosial-siyasi texnologiyalarla zənginləşir [105, 127].

İslam təməlçiliyində də yeli özünü idarəetmə təqdir olunur. Bir çox İslam dövlətləri öz tarixi inkişaflarında bələdiyyə təsisatları yaratmışlar. Şərq dövlətinin modelinə uüğun olaraq burada icmaların idarə edilməsində təşəkkül tapmış bələdəyyə institutlu özünün tipologiyası ilə Qərbin müvafiq modellərindən fərqlənmişdir. Formalaşmaqda olan yeni İslam intibahı modern bələdiyyə sisteminin də idarəetmənin mühüm obyekti kimi qiymətləndirir. İslam aləmində bələdiyyə institunun məhsuldar formada inkişaf etdiyi ölkələr sırasında Türkiyə dövləti öncül mövqe tutur.

Dünya elmi menecmentin özünü idarəetmə şəbəkəsində bir neçə nəzəriyyəsini işləmişdir. Bu nəzəriyyələrin fövqündə ümumi olan postulat və prinsiplər yetərincədir. Eyniyyətlərlə də kifayətedici fərqliklər mövcuddur. Nəzəri-empirik spektirdə yerli özünü idarəetmənin açıq hakimiyyətin mühüm elementlərindən bir kimi ikili siyasi təbiətə malikliyi göstərilir:

*İnstitusional aspektdə* özünü idarəetmə orqanları ölkənin dövlət idarəetmə mexanizminə inteqrasiya olunmuşlar. Belə ki, burada yerli özünüidarəetmə orqanları mövcud qanunlar şəbəkəsində daxili vergi yığımında müstəqil büdcə formalaşdırır, mənsub ərazinin istifadəsində renta sahibi və ekoloji mühafizəçi qismində çıxış edir. *Funksional aspektdə* isə yerli özünüidarəetmə orqanları vətəndaş cəmiyyətinin əsas elementlərindən birinə çevrilirlər. Buna görə də yerli özünü idarəetmə sisteminə ikili muxtariyyətdə təcəssüm olunan - dövlət və dövlətdənkənar nisbi müstəçqillik xasdır. Deyilənlərə əlavə olaraq qeyd edilməlidir ki, *təşkilati planda* bələdiyyə hakimiyyəti məxsusi xüsusiyyətlərə malikdir. Buradakı toplumda idarəetmə şəbəkəsi əhalinin tarixi inkişaf, demoqrafik quruluş, siyasi sistem və inzibati-ərazi bölgüsü şərtlərini ehtiva edərək özünün elastikliyi, nisbi çoxmüxtəlifliyi də fərqlənir [127, 134].

Sisyasi elmlər metodikası tərəfindən yerli özünü idarəetmənin tədqiqi müəyyən çətinlik doğurur. İlk mürəkkəblik onunla bağıdır ki, lokal səviyyədə icmanın işlərinin idarəedilməsi hadisəsinin böyük tarixi inkişaf yolu keçməsinə baxmayaraq yerli özünü idarəetmənin dövlət idarəetməçsinə münasibətdə dəqiq və dayanaqlı mahiyyət təqdimatı yoxdur. Digər çətinlik isə ondan ibarədir ki, dövlət quruluşunun köklü dəyişinliklər keçirdiyi, siyasətin əsaslarının dəyilidiyi zamanlarda ictimai həyatın fakt və hadisələrini təsnifləşdirmək və təhlil etmək çətinliyi mövcuddur. Daha bir mürəkkəblik isə çox yaxın keçmişdə olan hadisələrin təhlil mürəkkəbliyi ilə bağlıdır. Belə ki, onların həqiqi mahiyyəti, ictimai həyat konteksində əhəmiyyəti yetkin

ölçüdə təzahür etməmiş və aprobasiya nəticəliyinə tam nail olmamışdır.

Yüksək inkişaf tapan bir sıra ölkələrin praktikası göstərir ki, yerli idarəetənin maliyyələşməsinidə dövlətin imkanları daha güclüdür. Dövlət bu sıradan daha mükəmməl institutdur. Dünya meqopolis nəhəngi Nyu-Yorkun 1976-ci ildə kəskin maliyyə böhranı keçirməsi hadisəsi bu düşüncələrə daha empirik əsaslar gətirdi. Təcrübədən bəyan oldu ki, varlı, sosial sistemli dövlətin əslində yerli özünü idarəetməyə ehtiyacı yoxdur. Belə ki, burada resurslar mərkəzi qaydada son optimallıq çərçivəsində bölgüyə məruz qalır və hamını qane edən obrazda paylaşılır. Lakin bu vektorun da bütün ölkələr üçün nüməsi qəbul edilməzdir. BMT-nin tanıdığı 200-dən çox dövlətin simasında yerli özünü idarəetmə sistemi müxtəlif rakuslarda təcrübələndirilir və inkişaf edir. Ümumi olan isə budur ki, yerli özünü idarəetmə sistemləri demokratik təsisat olaraq sivilizasiyanı inkişafa doğru aparan, bəşəri azadlıqları effektli təmin edən sosial institutdur. Buna görə də özünü idarəetmə müasir zamanda daha aktual səciyyə daşayır və o postsosialist transformasiyasının nəzəri əsaslarında, praktiki formalizasiyasında da geniş imkanlar əldə edir. MDB məkanında isə bu sıradakı irəlləyişlər daha qabarıq şəkildə özünü biruzə verir. Öndə Rusiya Federasiyası addımlayır. Lakin "Bislan hadisələri bu istiqamətli inkişafa məhdudiyyət verici korrektələr gətirmişdir. İndi ölkədə məlum olduğu kimi əyalət və şəhər rəhbərlərinin təyinatı məsələsinə yenidən qayıdış edilmişdir. Bununla belə yerli özünü idarəetmə yüksək tərrəqi qazanmış və sosial-iqtisadi inkişaf strategiyasını hədəf seçmiş əksər ölkələrdə ictimai həyat proseslərinə daha ahəngdar impluslar verən sistem olaraq qalmaqda və irəliləməkdədir.

Sovet cəmiyyəti zamanında da yerli özünü idarəetmə diqqətdən kənarda qalmamışdır. Müvafiq qurluşun əsas funksionallıq devizi xalq deputları sovetləri institutu təşkil etməsinə baxmayaraq sistemin bütün mövcudluğu dövründə yerli idarəetmə orqanları dövlət idarəetmə «maşınının» bir hissə kimi dolğun avtomluq əldə etməmişdir. Sərt totolitar recim şəraitində yerli özünü idarəetmənin açıq və geniş vüsətliyi sadəcə olaraq paraktiki cəhətdən mükün deyildi. Lakin buna baxmayaraq SSRİ-nin süqutu ərəfəsində 1980-90-cı illərdə dövlət idarəetmə sistemində islahatlar prosesi başlanmış, və nəticəvi olaraq 1990-cı ildə yeni müvafiq ittifaq qanunu yerli özünü idarəetməyə səlahiyyət genişliyi vermişdir. Bu islahatlar həm aşığıdan idarəetmənin hazırlıq səviyyəsini qeyri-mükəmməliyindən və həm də möhtəşəm dövlətin dağılması ilə əlaqədar reallaşa bilməmişdir.

Yerli özünü idarəetmə bir çox yeni müstəqil dövlətlər orbitində olduğu kimi Azərbaycan konstitusiyasında dolğun təsbitini tapmışdır. Müasir dövrdə postsosialisit ölkələrinin AB-yə inteqrasiyasında özünü idarəetmənin genişlnməsi və təkmilləşməsi, bələdiyyə institutunun inkişaf strategiyası mühüm amillərdən hesab olunur. Bu istiqamətdə gənc müstəqil dövlətləri çoxlı sınaqlar və yeni quruluşlu işləmələr gözləyir.

## *6.3. Kadr menecmenti*

Menecmentin başlıca prioritetləri sırasında presonalın idarəedilməsi mühüm əhəmiyyət daşıyır. Əslində «menecment» sadacə, müəssisə maraqları ilə işçi maraqlarını əlaqələndirən - «təşkilatda insanların idarə edilməsi» kimi də anlaşılır. Bütövlükdə presonalın idarə edilməsində iki məsələ: kadr potensialının formalaşdırılması və kadr əməyinin məhsuldar olmasını təmin etmək prinsipləri dayanır. Personalın idarəedilməsi məharətliyi tam spektrdə menecmentin əlahiddə sahəsi olan kadr menecmenti təlimində əksini tapır.

***Kadr menecmenti*** təşkilatı kadr potensialının səmərəli istifadəsi və inkişafını əhatə edir və aşağıdakı prinsipal tələblər üzərində təməlini qurur:

- kadr işinin dominantlaşdığı *idarəetmənin operativ səviyyəsi*;
- personal idarəetməsinin dominantlaşdığı *idarəetmənin taktiki səviyyəsi*;
- insan resurslarının idarəedilməsinin dominantlaşdığı *idarəetmənin strateci səviyyəsi*;

- korporasiyanın idarəedilməsi və kadr siyasətinin reallaşdığı *idarəetmənin siyasi səviyyəsi.*

Kadr menecmenti aşağıdakı mərhələləri birləşdirir:

- resursların planlaşdırılması;
- personal seçimi;
- namizədlərin qiymətləndirilməsi;
- əmək haqqı və imtiyazların müəyyən olunması;
- ixtisaslaşma və adaptasiya;
- təhsil;
- əmək fəaliyyətinin qiymətləndirilməsi;
- yüksəliş, eniş, köçürmə və işdən azad olunma.

Kadr menecmenti kadr siyasəti və seleksiyası, personal seçimi, əmək resurslarının planlaşdırılması, idarəetmə auditi, iş yerlərinin analizi, əməyin stimullaşdırılması, karyeranın planlaşdırılması, fərdi motivasiyanın qiymətləndirilməsi, kadr konsultatsiyüası kimi predmet sahələri və müvafiq vəzifələrin yerinə yetrilməsini məqsədlərində rəhbər tutur [59, 124].

İdarəetmə sisteminin təkmilləşməsi onun bazar quruluşu tərtibatında institusional formaların tətbiqini labüd edir. Empirik institusional tədqiqatlar idarəetməni keyfiyyət dəyişikliklərinə uğradaraq onun yeni yaranışlarla zənginləşməsi prosesində mühüm rol oynayır. Bazar mühitində qarşıya çıxan yeni məsələlərin həlli səmərəli idarəetmə sisteminin əsasında formalaşır. Mükəmməl idarəetmə sisteminin təşkili kadr seçimi, onların ixtisasının artırılması, attestasiyası, digər səriştə və bacarığı, peşəkarlıq və məsuliyyəti təmin edən kateqoriyalarla təchiz olunmasından faydalanır.

İdarəetmədə sahəvi-peşəkar və obyektlər üzrə struktur-mühit funksiyalarını fərqləndirirlər. *Peşəkar-sahəvi* funksiya əməyin professional bölgüsü əsasında personalın fəaliyyətinin idarəetmə sistemi kimi plan-iqtisad, uçot-statistik, kommersiya, mühəndis-texnoloji, analitik hesablama, operativ istehsal, kadr və sairi ehtiva edir. *Struktur-mühit* funksiyasına isə rəhbər və mütəxəssislərin qruplar üzrə öhdəliklərinin bölgüsü daxildir. Müəssisə və təşkilatlarda, adətən, hər iki sistem tətbiq edilir.

Menecmentin empirik tədqiqatları təşkilati rəhbərlərin kateqorik təsnifatını formalaşdırmışdır. Mərkəzi planla iqtisadiyyatın kədərli təcrübəsi ilə sübut olunur ki, müasir özəl sahibkarlıq təşəbbüsləri, torpaq, əmək və kapital «təşkilati dahisiz» nəyi isə dəyişməyə tam qabil deyil. İdarəetmədə menecer strategiyası öz mühümlüyünün təsdiqini almışdır.

Menecer öz məharətini istehsalın səmərəli təşkilində yeni ideyaların, innovasiyaların tətbiqində, işgüzarlıq və səriştəsində, daha ümumilikdə isə istehsalın məqsədəmüvafiq nəticəliyində göstərir. Liderlik menecerin işçiləri məqsədə doğru motivasiyaya cəlb etməkdə əksini tapır. Motivasiya insanın daxili və xaricində mövcud qüvvələrin ahənglikdə müəyyən hərəkətlərlə entuziazm və qətiyyətlə işin yerinə yetirməsidir.

Rəhbərin gücü ağıllı və alternativ qərar qəbul etmək xassəsində səmərəsinə çatır. Bu operativ məqam yaxın müddət üçün yetərli olsa da, geniş perspektivdə böyük təhlil və kollektiv düşüncə tələblidir.

Rəhbərlik etmək böyük bir sənətdir. Mürəkkəb texniki texnoloji proseslər şəraitində sosial nəzarətin gücləndiyi, demokratik prinsiplərin bərqərar olduğu çağdaş şəraitdə rəhbərin davranışı idarəetmənin səmərəliyində əks olunur [17, 70].

Menecment rəhbər stimuluna əhəmiyyət verərək onun motivasiyası və psixoloci görünüşü və gücünü ümümiləşdirən paradiqmalar müəyyən etmişdir:

*Transsaksion rəhbərlər:* İşçilərə tapşırıqları izah etmək, mükafatlandırma, sosial tələbləri ödəmək qayğısı transsaksion rəhbərə xas olan xüsusiyyətlərdəndir. Əməksevərlik, təmkinlilik, açıq düşüncəli səmərəli fəaliyyətlə iftixaretmə, qaydalara, normativlərə nöqsansız riayət, təşkilat qarşısında borcu fədakarlıqla yerinə yetirmək transsaksion rəhbərin xarakter arsenalını təşkil edən elementlərdəndir.

*Xraizmatik liderlər*: İmkanları transsaksion rəhbərlərdən üstün olan bu tip liderlər işçiləri

adi səviyyədən çox daha intensiv əməklə yüksəltmək bacarığına malikdirlər. Xraizmatik liderlik əsas işçilərə gələcək görünüşün dəqiq bölgüsünü vermək, kollektivin müdafiə etdiyi korporotiv dəyərlər yaratmaq və işçilərlə qarşılıqlı etibarı təlim etmək kimi üç mühüm prinsip üzərində bərqərar olur.

*Transformasiya olunan liderlər*: Menecerlər və təşkilat rəhbərləri istehsal funksiyalarını yerinə yetirməklə məşğul olsalar da, bəzən bu iki işin bir əldə cəmlənməsinə zərurətlər yaradır. Bu tələbləri transformasiya olunan liderlər yerinə yetirirlər. Bir növ xraizmatik liderləri xatırlasalar da əsasən strateci dəyişikliklər zamanı rəhbərliyə cəlb olunurlar.

*İnteraktiv lider:* Konsensus şəraitində işləməyə meylli olan interaktiv rəhbərlər əsasən qadınlar qrupunu əhatə edir. İnteraktiv rəhbər bütün komandanın işində qarşılıqlı anlaşma və konsensusa nail olma ilə fərqlənir.

*Servis rəhbərlər:* İdeya məqsədləri ilə yanaşı, daha çox öz işçilərinin tələblərini ödəməyə sərf etməklə fərqlənirlər [17].

İdarəetmə prosesində menecerin kommunaktiv səriştə və bacarığı da müvəffəq fəaliyyəti şərtləndirir. Sadəcə ünsiyyət anlamını verən kommunikasiya prosesi iki və daha çox adamın informasiya yaratmasını və mübadiləsini əks etdirir. Həqiqi professional prosesi duyur və hiss edir, düşüncəsini üstələyən bacarıq və vərdişlərə mütəmadi yiyələnir. Edilən nöqsanlar nəticəsində profesional daha da peşəkarlaşır. Diletant isə ehtiyatlılığı ilə fərqlənir. Onun müstəlilik sferasında improzizələr etməsi mümkünsüzdür. Reallıq belədir ki, dərin bilik olmadan heç bir işdə böyük müvəffəqiyyətə ümid etmək olmaz. Əslində müvəfəq kadr seleksiyasında və menecer rotasiyasından səriştəsizlər keçid etmək imkanında olmurlar. Lakin müəyyən proteksiya çərçivəsində belələrinin də şansı parlayır. İqtisad diletantları kimi seçilə bir sıra təsərrüfat rəhbərləri bu baxımdan «bazar» treninqindən keçərək attestasiya olunmalya məhkukudurlar. Bu sırada vəzifəlilərin hüquq və cavabdehlik məsuliyyəti ilə təlimatlandırılması, personifikasiyası inkişafa uyğun olaraq daim təkmilləşməlidir.

Həyatın metomorfozları bizim səyləri, düşüncə və potensialımızı daim təkmilləşməyə kökləyir. İstehsalın artımı da bu keyfiyyətlərlə səciyyələnərək mütəmadi yeniləşmədə əks olunur. Yeni formanın davamlılığı müəyyən ideyalar sisteminin, müvafiq daxili ideologiyanın iqtisadi münasibətlərlə harmonik təmasda, rəvan inkişafında ifadəsini tapır.

## 6.4 .Sosial siyasətin imperativləri

Sosial-iqtisadi həyatın tənzimlənməsində dövlətin apardığı siyasət, normativ-hüquqi mühim təminatı və təkmilliyi, beynəlxalq təcrübəyə inteqrasiya və adaptasiya meyli mühüm şərt kimi sosoial sferanın mobilliyində təcəssüm olunur. Bu funksionallıq bazar iqtisadiyyatının kompleksili sosial xarakter aldığı yeni institusional sisteminin formalaşması mərhələsində daha optimallığı və adekvatlığı ilə fərqlənir. Dövlətin sosial və iqtisadi sferanın tənzimlənməsi istiqamətində məqsədyönlü fəaliyyəti sosial siyasət prinsiplərini şərtləndirir.

Sosial siyasət dövlətin digər iqtisadi subyektlərin həyat və əmək şəraitinin dolğun təminatına yönəldilmiş fəaliyyətidir. Sosial sferada aparılan islahatlar sosial siyasət zəminində qurulur və ərsəyə yetir. Məhz analoci siyasət düzümü sosial yaşayış keyfiyyətinə yetişməni şərtləndirir. Lakonik interpretasiyada *sosial siyasət* dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir.

Sosial siyasət hər bir dövləti sistemdə iqtisadi uklad və model, siyasi quruluş və baxışlər çevrəsi, milli-mental motivasiyaya uyğun olaraq nizami mənbə alır. Belə asılılıq və əlaqəliyə baxmayaraq sosial siyasətin ümumi olan prinsipləri də mövcuddur. Bir sıra inkişaf etmiş ölkələrdə sosial siyasət özünün daha mükəmməl formasını nümayiş etdirir. Postsosialist məkanında da keçid çətinliklərinə baxmayaraq sosial sferada islahatlar universal standartlara yaxınlaşır və müəyyən ölkələr də isə yeni yaranış və modeldə intişar tapır.

Sosial bazar funksionallığını hədəf seçən ölkələrdə sosial siyasət özünün başlıca məqsədləri aşağıdakı geniş həlqədə ehtiva edir:

- ən ümdə sosial və rifahi təminatları bərqərar edən vətəndaş cəmiyyətinin formalaşdırılması və təkmilləşdirilməsini;
- vətəndaşların təhsil hüquqların reallaşmasına müvafiq şəraitin yaradılmasını;
- əhalinin ən geniş təbəqəsinə real səhiyyə yardımının göstəilməsinə, tibii xidmətin keyfiyyətinin yüksəldilməsinə, idman və bədən tərbiyyəsinin kütləfi inkişaının əldə olunmasını;
- mədəni potensialın inkişafı və ölkənini mədəni irsini qorunmasını;
- mədəni mühit vahidliyinin və mədəni dəyərlərin geniş əhali təbəqəsi istifadəsində təminatlılığını;
- effektiv və sivilizasion əmək bazarının yaranışını;
- sosial təminatlar sfırasında mütəmmadi maliyyə dayanaqlılığının təminatını;
- əhalinin ödənişqabiliyətli tələbləri əsasında sosial standartlı mənzil şəraitinin yaradılmasını;
- dövləti gəlirləri, büdcəvi vəsaitlərinin təkrar bölgüsünü sistem transformasiyasında obyektiv səbəblərdən müstəqil olaraq özlərini sərbəst təmin edə bilməyən ən ehtiyaclı əhali təbəqəsinə yönəldilməsi və əhalinin sosial müdafiəsində ünvanlılıq institutunun möhkəmləndirilməsini;
- aztəminatlı əhalinin mənzil-kommunal, nəqliyyat, təhsil, tibbi xidmətlərdən geniş istifadəsinin təminatı;
- sərbəst gəlir əldə etmək şəraiti yaratmaqla peşəkar kadr hazırlığının effektiv sisteminin formalaşdırılması;
- müxtəlif əhali təbəqələri üçün ölkə daxilində və xaricdə vakansiyalar haqqında ümumi imkanlı informasiyalara girişin təminatı və yeni peşələrə yiyələnmə proqramlarının hazırlanması.

Sosial siyasət cəmiyyətin rifahi yüksəlişində sosial sferanın tənzimlənməsində məqsədlər sistemi kimi çıxış edir. Sosial sfera ictimai münasibətlər konteksində əmək münasibətlərinin tənzimlənməsini, insanların istehsal prosesinin idarə edilməsində iştirakını, kollektiv müqavilə şəbəkəsini, sosial təminat, sosial xidmətlər kompleksini, şəxsi kapitalın sosial fondların, sosial infrastrukturun yaranışı və genişlənməsində iştirakını və həmçinin sosial ədalətin təminat prinsiplərinin əhatə edir. Uğurlu sosial siyasət ədalətli cəmiyyət quruculuğunda təcəssüm olunur.

Utopik baxışlar sistemindən fərqli olaraq müasir *ədalətli cəmiyyət* yüksək sosial qaratlı, real amal və istəklərə əsaslanır. Ədalətli cəmiyyət quruculuğu aşağıdakı prioritetləri əks etdirir:

- sosial müdafiənin ünvanlı sisteminin inkişafı;
- əlillərin cəmiyyətə inteqrasiyası;
- uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması;
- pensiya sisteminin təkmilləşdirilməsi;
- keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş;

*Sosial müdafiənin ünvanlı sisteminin* inkişafı aşağıdakıları əhatə edir:

- aztəminatlı vətəndaşları enerjidaşıyıcıların tarif yüksəlişindən qoruyan mexanizmlərin işlənməsi;
- minimal sosial standartlar metodikasının mütəmmadi təkmilləşdirilməsi;
- maddi rifahın yüksəlişi üçün əhalinin sosial səfərbərliyi.

*Əlillərin cəmiyyətə inteqrasiyasını*, onların sosial müdafiəsinə bir sıra amillər məhdudiyyətlər gətirir və bu amillər aşağıdakıları ehtiva edir:

- əlillərin sosial və əmək reabilitasiyasının qeyri-qənaətbəxşliyi;
- iştimai təyinatlı sosial-mədəni obyektlərə əlillərin giriş çətinliklərinin mövcudluğu;
- əlillərin peşəkar təhsil təminatının qeyri-qənaətbəxşliyi;
- əlillərlə bağlı işə düzəlmə çətinlikləri;
- əlillər işləyən müəssisələrin dövlət tərəfindən maliyyələşməsinin məhdud imkanlılığı.

*Uşaq fəqirliyinin aradan qaldırması* üçün tədbirlər sisteminə daxildir:

- sosial yetimlik göstəricilərinin məhdudlaşdırılması üzrə qanunvericilik bazasının formalaşdırılması və təkmilləşdirilməsi;
- neqativ proseslər təzahür edən ailələrə /*təcavüz, alkoqolizm, narkomaniya*/ dövlət qayğısının artırılması;
- ratronat /*himayəçi*/ ailələrin yaradılması.

*Pensiya sisteminin təkmilləşdirilməsi* istiqamətində əsas xətt bölgü sistemindən yığım sisteminə keçidin təmin olunması ilə bağlıdır. Pensiya fondunun artırılması üçün iş yerlərinin sayı çoxalmalıdır kı, sosial sığorta ayırmalarının diapazonu genişlənsin.

*Məşğulluğun təminatı problemi* iqtisadiyyatın struktur yenidənqurması nəticəsində əmək bazarında tələb və təklifin qeyri mütənasib yüksəlişi ilə bağlıdır. Belə hal öz növbəsində işsizliyin artmasına səbəb olmuşdur. Məşğulluğun təminatı üçün işsizlik göstəricisi dəqiqləşdirilməli, əsaslandırılmalı, əmək bazarının təhlili aparılmalı və müvafiq olaraq yeni iş yerləri açılmalıdır.

*Keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş* islahatlar tendensiyasının dərinləşməsi və təkmilləşməsi ilə müşayiət olunmalıdır. Məktəbə qədər təhsil sistemi qorunmalı və inkişaf etdirilməli, aztəminatlı ailələrin bütün uşaqların oxunmasına qayğı artırılmalı, xüsusən də ali məktəblərdə pullu təhsil sistemində bu kateqoriyalı ailələrə güzəşt edilməlidir. Təhsil sferasında islahatlarda peşələrin kəmiyyət və keyfiyyətinin əmək bazarının tələblərinə müvafiqləşdirilməsi də mühüm addımlardandır. Keyfiyyətli səhiyyə xidmətinə giriş, səhiyyə infrastrukturunun inkişafı, tibbi sığortanın genişləndirilməsi ilə təmin olunacaqdır [58, 134].

Sosial siyasət əhalinin minimal gəlirlərinin qorunmasına, onların xəstəlik, əlillik, qocalıq və işsizlikdən sosial müdafiə olunmasına təminatlıdır. Burada prinsip ondan ibarətdir ki, dövləti yardımlar əhalinin özünü sərbəst təmini etmək iqtidarında olmayan hissəsinə yönəldilməlidir.

Sosial siyasətdə sosial səmərəliliyə qovuşma mühüm rifahi təzahürlərdəndir. Həyati keyfiyyəti ehtiva edən *sosial səmərəlilik* cəmiyyətin xidmət və sosial sferasında tələblərin dolğun ödənilməsini səciyyələndirir. Məhsulun keyfiyyəti, əmək məhsuldarlığı, əməyin fond təminatı, fondhəcmi, fondverimi, mənfəət və zərərlər, aktivlərin rentabelliyi, həyat səviyyəsi göstəricilərini xarakterizə edən sosial səmərəlilik iqtisadi səmərəliliklə qarşılıqlı rabitə, təmas və asılılıqdadır.

Bəşəriyyətin iqtisadi fəaliyyət sferası maddi nemətlər istehsalında insanlarla münasibətləri əks etdirən iqtisadi qanunlara tabedir. Bu qanunlardan biri də dövlətin təsərrüfat həyatına, iqtisadiyyata müdaxiləsi, onun tənzimləyici funksiyalara malikliyində ifadə olunur. Müasir mərhələdə bazar iqtisadiyyatı şəraitində iqtisadçılar dövlət tənzimlənməsini qanunvericilik, icra və nəzarət ölçüləri sistemi kimi xarakterizə edirlər. Yüksək səviyyəli dövlət tənzimlənməsi strateci düşünülmüş iqtisadi problemlərdə təyinatını tapır. Onun mahiyyətini bazar iqtisadiyyatının qlobal məqsədlərə müvafiq kompleks istifadəsi təşkil edir. Dövlət mövcud bazar mexanizmlərinin normal vəziyyətinin təmin olunması ilə yanaşı həmçinin qanunların yaranışı, ədalətliliyin qarantı, hüquq-məhkəmə sisteminə nəzarət, maliyyə kredit siyasəti funksiyalarını da yerinə yetirir. Bazar iqtisadiyyatının müxtəlif imkanları şəbəkəsində dövlət üç vəzifəni:

- rəqabəti dəstəkləməklə səmərəliliyin artırılmasını;
- vergi və bölgü recimi ilə ədalətin təminatı;
- fiskal və maliyyə-kredit siyasəti vasitəsi ilə makroekonomik sabitlik yaratmaq, işsizliyi, inflyasiyanı azaltmaq və iqtisadi artıma nail olmanı həll edir.

İslahatlar konteksində hər üç vəzifə struktur baxımdan təkmilləşir, aparılan strategiyaya uyğunlaşdırılır. İqtisadi plyüralizm, islahat tendensiyasına praktiki və tətbiqi aspektdə utlitar yanaşma, sosial və iqtisadi məsuliyyətin artırılması dövlət siyasətinin prioritet baxışlar sistemini təşkil etməlidir. Resurs parametrindən asılı olmayaraq ayrıca götürülmüş hər hansı bir ölkədə aparılan sosial və iqtisadi islahatların uğuru təkcə onların taktikası ilə deyil, həm də siyasi recimin xarakteri ilə bağlıdı. Digər bir reallıq isə ondan ibarətdir ki, islahatlar strategiyası çoxmüddətli təcrübəyə, təyin olunmuş dəyərlər sisteminə əsaslanan aydın sosial məqsədlilikdə

daha səmərəli və nəticəlidir. Fikrimizcə sosiallaşan bazar iqtisadiyyatı kontektinidə dövlətin əsas sosial məqsədlərini aşağıdakılar təşkil etməlidir:

- bütün hakimiyyət və hüquqi institutlar tərəfindən vətəndaş azadlığını ehtiva edən sosial təhlükəsizliyin təminatı;
- effekli mülkiyyətçi, təşəbbüşkar sahibkar qismində iqtisadi münasibətlərin yeni subyektlərinin formalaşdırılması;
- iqtisadi, sosial, siyasi, əsaslar yaratmaqla başlıca prinsipləri varlının kasıba, güclünün zəifə, sağlamın xəstəyə qarşılıqlı yardımları üzərində qurulan təminatlarla cəmiyyətdə sosial konsensusa, barışa nailolma;
- birləşmə hüququ əsasında müxtəlif sosial təbəqə və əhali qruplarının geniş və fəaliyyətli nümayəndəliklərinin yaradılması.

«Xalqların sərvətlərinin təbiəti və səbəblərinin tətbiqi» əsərində klassik iqtisadi irsin lideri kimi tanınan A.Smit müəyyən etdiyi «görünməz əl» prinsipinə görə, insan öz xudbin maraqlarını təqib edərək görünməz əllə ictimai maraqlara xidmət edir, dövlətin isə bazar rəqabəti mexanizminə müdaxiləsi neqativ nəticələrə gətirir. Onun fikrincə, bazarın görünməz əli ictimaiyyati optimal iqtisadi nəticələrə gətirməsinə baxmayaraq, ayrı-ayrı adamlar öz eqoist maraqlarının hayındadırlar. Real dünyada heç bir iqtisadiyyat həqiqətdə özünün ideal aləminə müvafiq deyildir. Bütün hərəkətlərə bazar iqtisadiyyatının qeyri-mükəmməlliklərdən və onun nəticələrindən doğan ətraf mühitin çirklənməsinə, işsizlik, kasıb və zənginləşmədə artım yaranışlarına görünməz əl rəhbərlik edir [127].

İnstitusional struktur bazarın mühüm elementidir. Bütünlükdə iqtisadiyyatda iqtisadi islahatlar institusional təməli dəyişikliklərlə müşaiət olunmaya məhkumdur. İqtisadiyyatın bir sahəsi əski inzibatçılıq, digər hissəsi psevdobazarçılıqla işləyə bilməz. Dünya təcrübəsi göstərir ki, bazar iqtisadiyyatı keçid mərhələsində bütün sulları cavablandırmır. Sistemin bazar stasionarlığı bütün seqmentlərin vahid orbitdə nizamlı düzlüşü ilə effektlidir. Sosial və iqtisadi məsuliyyətin artırılması isə burada vacib şərtlər sırasındadır. Xalq təssərrüfatının dövlət diricorluğu ilə idarə edilməsi keçid dövründə xüsüsi zəruriliklə fərqlənir. Burada dövlətin qəti müdaxiləsi labüddür. Biz üç əsr öncə məşhur iqtisadçı A.Smitin görünməz əl prinsipini diqqətə çəkməklə heç də hər şeyi kor-koranə olmaqla bazarın ixtiyarına verilməsini təqdir etmirik. Ötən çoxəsrlik müddət ərzində xeyli emprik nailiyyət əldə olunmuş, yeni iqtisadi tənzimləmə mexanizmləri sınanmışdır. Çağdaş iqtisadiyyat quruculuğu prinsipləri iqtisadi həyata dövləti müdaxiləni labüd edir. Lakin bu müdaxilə vurğulandığı kimi bazarın reallıqlarının nəzərə alınması fonunda əhəmiyyətlidir. Bazar iqtisadiyyatının müxtəlif imkanları şəbəkəsində rəqabəti dəstəkləməklə səmərəliliyin artırılması, vergi və bölgü ilə ədalətin təminatı, işsizliyi, inflyasiyanı azaltmaqla iqtisadi yüksəlişin, makroekonomik sabitliyin əldə edilməsi məsələləri dövlət fiskal və maliyyə kredit siyasəti vasitəsilə həyata keçrilir [67].

Sosial siyasət həmrəylik ideyalarını özündə birləşdirir. Cəmiyyətdə həmrəylik ideyaları pensiyaçılara, əlillərə, kiçik gəlirlərə malik uşaqlı ailələrə, öz künahı üzündən olmadan əmək qabiliyyətinini itirənlərə maliyyə dəstəyində reallaşır.

Sosial infrastrukturun yaradılması, müvafiq iqtisadi resursların bölgüsünü sosial siyasət xəttinin tələbləri əsasında qurulur. Dövlətin digər iqtisadi subyektlərin həyat və əmək şəraitinin dolğun təminatına yönəldilmiş fəaliyyət kimi, sosial siyasətin fövqündə əhalinin sosial müdafiəsi dayanır. İstiqaməti sosial təyinatlı sosial siyasət iqtisadi azadlıq, iqtisadi artım, iqtisadi təhlükəsizliyə istinad olunan tam məşğulluq, qiymət stabilliyi, sosial sabitlik və ədalətli vergiqoyma kimi mühüm komponentləri cəmləşdirir. Sosial siyasətin özəkləri dövlətin bu istiqamətdə formalaşdıraraq reallaşdırdıqi sosial-iqtisadi alət və mexanizmlərdə əks olunur. Empirik və nəzəri aspektdə dövlətin sosial-iqtisadi fəaliyyəti iki sistemaltıda təzahür edir:

- *proaktiv model* - əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını təmin edən kompleks ölçülər sistemi;
- *reaktiv model* - bazar iqtisadiyyatı şəraitinin dəyişkənliyi və adaptasiyasına nisbətən bağlı sosial qrupun müdafiə sistemi.

Bazar şəraitində hərəkət edənlər və sosiallaşma oriyentasiyasını hədəf seçən dövlətdə sosial siyasət bir sıra müqabil ictimai-iqtisadi infrastruktur elementləri üzərində qurülaraq reallaşır. Bu çevrədə ən zəruri elementlər düzümü aşağıdakıları atributları komplektləşdirir:

- ❋ adekvat normativ-hüquqi mühitin formalaşması;
- ❋ ictimai xidmət və rifahın formalaşdırılması;
- ❋ xarici effektlərin tənzimlənməsi;
- ❋ rəqabətin qorunması;
- ❋ təbii inhisarın əsas elmentlərinin sosial-iqtisadi sistemin stabilləşdirilməsi üçün birbaşa dövlət nəzəratinə keçrilməsi;
- ❋ bazarın qeyri-təkmilliyindən əhalinin sosial müdafiəsi;
- ❋ gəlirlərin yenidən təkrar bölgüsünə rəğmən sosial-transfert funksiyası;
- ❋ məşğulluq şəraitinin optimal təmin mexanizminin tənzimlənməsi;
- ❋ minimum yaşayış həddinin ölkə üzrə təyinatı;
- ❋ fundamental elmin müdafiəsi, ümumi elmi-texniki, innovasion siyasətin aparılması;
- ❋ ekoloji funksiya [97, 108].

Müasir Qərb iqtisadi təfəkkürü nəzəriyyəsində keçid iqtisadiyyatı mərhələsinin qaçılmazlığına və mövcudluğuna da yer verir. Keçid mərhələləri prinsipcə həmişə özünü neqativ özəlliklərdə büruzə verir. İqtisadi qanunların kortəbii fəaliyyəti şəraitində təsərrüfatın plansızlığı nizamsızlığa, ictimai əmək bölgüsünün proporsionallığına pozucu təsir edir. Tələb və təklif arasında uyğunsuzluq yaranaraq dərinləşir. Belə gerçəkliklər orbitində olan dövlətin, millətin, ictimaiyyatin halı məmnunluq doğurmur. Keçid iqtisadiyyatı ölkələrində sosial siyasət aparılan sosial islahatlar vasitəsi ilə reallaşır. Bu islahatlar üstün konservativ meyarlar və həm də yeni yaranışlar üzərində təşəkkül tapır. Transformasiya mərhələsindən keçən dövlətləri üçün labüd sosial islahatların əsas elementlərini aşağıdakılar səciyyələndirir:

- *dəqiq anlamlı olaraq iştimai nəzarətin şəffaflıq meyarları əsasında yoxsul əhali təbəqəsinə ünvanlı maliyyə yardımı edilməsi sisteminə keçid.* Ünvanlı maliyyə sosial çətinliklər keçirən təbəqənin marketinqinin qurulası və dəqiq ünvanlıq əsasında yardımın gerçəkləşməsini hədəf seçir;
- *qanunvericilikdə «yoxsul», «sosial müdafiə olunmayan vətəndaş», «yoxsulluq həddi» kateqoriyaların tətbiqi.* Bu kateqoriyalar yaş həddi, cari gəlir, məşğulluq, yaşayış mənzil təminatlılığı, qohumlar və qəyyumların mövcudluğu, himayəsində olanlar, əmanətlərin akkumlyativ həcmi, professional hazırlıq səviyyəsi, sərbəst iş tapma imkanı, daşınmaz əmlaka və torpağa sahiblik indikatorlarını əhatə edir. Sosial müdafiə olunmama indeksi nəzərdə tutulan hər bir komponentin müvafiq metodika ilə hesablanmasını şərtləndirir. Ünvan təminatlı əhali siyahısında vətəndaşın ümumi gəliri BMT-nin yoxsulluq həddi meyarlarından ən azı 50% yüksək olmalıdır;
- *dövlət yardımı alan əhali kateqoriyasının dürüst siyahısının tərtibi.* Müvafiq informasiya mətbuatda nəşr edilir və ya ictimai auditlə yerli icrayyə orqanlarının sərəncamına verilir. Onlar proses üzrə daimi monitorinq təşkil edir və hər rüb korrektələr aparır. Yuxarı orqanlar isə müvafiq təftiş və nəzarəti həyata keçirirlər. Belə quruluş öz növbəsində müxtəlif dövlət proqramlarının dublikasiyasını təcrid edir və sosial sistemin admistrativ xərclərini gödəldir;
- *subsidiyaların real xərclərə uyğunluğunun təminatı.* Subsidiya siyasətinidə ödənişləri real xərclər kateqoriyasının optimal uzlaşdırılması əsas götürülür.

Beləliklə sosial siyasət ədalətli vətəndaş cəmiyyətini, rifahi yüksələişləri kommulyativ birləşdirərək özünün imperativləri ilə çıxış edir.

Sosial bazar funksionallığını hədəf seçən ölkələrdə sosial siyasət özünün başlıca məqsədləri geniş həlqədə ehtiva edir. Bu imperativlər aşağıdakı düzümdə formalaşdırılır:

- ⇪ dövləti gəlirlərin, büdcəvi vəsaitlərinin optimal və ədalətli təkrar bölgüsününün reallaşdırılması;
- ⇪ vətəndaşların təhsil hüquqların gerçəkləşməsi şəraitinin yüksəldilməsini;

- tibii xidmətin keyfiyyətinin və real səhiyyə yardımının artırılmasını;
- aztəminatlı əhalinin mənzil-kommunal və nəqliyyat sferasında imtiyazlılıq hüquqlarının təmin olunmasını;
- sivilizasion irsin qorunmasını, mədəni potensialın inkişaf etdirilməsini;
- tibii xidmətin keyfiyyətinin və real səhiyyə yardımının artırılmasını;
- bədən tərbiyyəsi və idman və kütləfi inkişafına nail olunmanı;
- sosial infrastrukturun keyfiyyət təkmilliyinin əldə edilməsini;
- əhalinin imkanlı informasiyalara girişin yüksəldilməsini və yeni peşələrə yiyələnmə proqramlarının hazırlanmasını
- sosial təminatlar sfırasında mütəmmadi maliyyə dayanaqlılığının təminatınının artırılmasını;
- əhalinin sosial müdafiəsində ünvanlılıq institutunun möhkəmləndirilməsini [134].

## *6.5. Gəlirlər funksional bölgüsü*

Bazar iqtisadiyyatı əhalinin müxtəlif təbəqələri arasında gəlirlərin bölgüsündə əhəmiyyətli qeyri-bərabərliyə yol verir. Elə bu məqsədlə də dövlət apardığı müvafiq sosial siyasətlə müvafiq bölgü prosesinə mülayimlik gətirir.

Əhalinin gəlirləri müəyyən zaman kəsiyində alınmış və ya ev təsərrüfatında istehsal olunmuş material rifah və pul vəsaitlərini əks etdirir. Əhalinin istehlak səviyyəsi birbaşa gəlirlər ölçülərinə müqabildir və bu reallıq gəlirlər mahiyyətini səciyyələndirən başlıca funsionallığı xarakterizə edir.

Gəlirlər pul və natural formada təsnifləndirilir:

*Əhalinin pul gəlirləri* əmək haqqları, sahibkar mənfətini, təqayüd, müvainət, dividend və faizlər, renta, xidmət haqları, sığorta ödənişləri və sair bu kimi valyuta ifadəli gəlirlər toplumundan ibarətdir.

*Natural gəlirlər* isə öncə olaraq ev təsərrüfatında şəxsi istehlak üçün hazırlanmış nemətlərlə əhatə olunur.

Gəlirlər həmçinin məcmui, nominal, real və sərəncamda olan düzümdə də müvafiq təsnifatdan keçir. *Məcmui gəlirlər* bütün mənbələrdən daxil olan natural və pul gəlirlərinin ümumi məbləğini, *nominal gəlirlər* vergiqoyma və qiymətlər dəyişməsindən asılı olmayan pul gəlirlərinin səviyyəsini, *real gəlirlər* pərakəndə satış qiymətlərini və tarif dəyişkənliklərini nəzərə alan nominal gəlirləri, *sərəncamda olan gəlirlər* silsiləsi isə vergilər və digər ödənişləri çıxılmış nominal gəlirləri ifadə edir [67. 84].

Əhalinin gəlirlər məcmui istehsal, bölgü, təkrar bölgü və istifadə prizmasında əhatə olunur.

Gəlirlərin bölgüsü istehsal faktorlarının sahiblərinin gəlirlərinin formalaşması mərhələsində ərsəyə yetir. Nominal gəlirlərin fərdi bölgüsü təkrar bölgünün nəticəsi kimi qiymətləndirilir. Ailə budcəsindən keçərək adambaşına düşən gəlir onun struktur və ölçüləri fonunda dəyişmələrə məruz qalır. Real gəlirlərin ölçüləri həm də infilyasiya proseslərdən asılı olur. Təkrar bölgünün başlıca kanalı isə prosesin dövlət tənzimlənməsi ilə müəyənləşir. Vergi sistemi, dövlət trasfertləri, sosial təminat və sığorta şəbəkəsi müasir dövlətin gəlirlərin təkrar bölgüsünə səfərbər olunduğunu dəyərləndirir.

Əhalinin gəlirlər toplumu, onun səviyyəsi, strukturu, əldə edilmə üsulu və differensasiyası cəmiyyətin iqtisadi və sosial firavanlıq göstəricisi qismində çıxışda bulunur. Onların bölgüsü isə əmlak və sosial differensasiyanı təyin edən sosial-siyasi mahiyyət daşayır.

Gəlirlərin bölgüsü resursların bölgüsü ilə sıx təmaslıdır. İctimai həyatda gəlirlərin differensasiyası vasitəsi ilə resurslar bölgüsündə daldalanan qapalı qarşılıqlı rabitəliyə aydınlıq gəlir.

Bütün iqtisadi proseslər təyin olunmuş sosial mühitdə cərəyan edir. Buna görə də ictimai qarşılıqlı əlaqənin iqtisadi və sosial tərəfləri şərti və mücərrəd olaraq ayrılmışlar.

Gəlirlərin bölgüsü kontekstində istehsal nəticələrinin paylaşmasının təhlili imkan verir ki, cəmiyyət «*kim üçün*» məsələsinin düzgün həllini tapa bilsin.

Gəlirlərin bölgüsü sferasında dövlət tənzimlənməsinin tərəfdarları və əlehidarları arasındakı ənənəvi mübahisə səmərəlilik və bərabərlik arasındakı əlaqəlik problemi ilə uzlaşır. Bərabərlik probleminin qoyuluşu özü-özlüyündə normativ iqtisadi nəzəriyyəyə çağırış edir.

*Normativ iqtisadi nəzəriyyə* müxtəlif dünyagörüşlü çevrədən ictimai quruluşun ideal modelinin şərhini məqsəd olaraq qarşıya çıxarır.

*Pozitiv iqtisadi nəzəriyyə* isə mövcud olan münasibətlər sistemini tədqiq edir. Normativ və pozitiv nəzəriyyənin vahidliyi və fərqliliyi daha böyük dairədə bərabərlik və səmərəlilik münasibətlərinə köklənmiş debatlarda özünü biruzə verir.

Gəlirlərin vətəndaşlar arasında funksional bölgüsü müzdlu əməyin və kapital sahibinin də iştirakçısı olduğu sosial statusun birmənalı identifikasiyası şəraitində daha real məntiqlidir. Müasir şəraitdə sosial statusun sərhədlərinin hesablanmasında çətinlik törədən faktor, muzdlunun eyni zamanda, həm də kapital mülkiyytçisi kimi çıxış etməsi ilə bağlanılır.

Əhalinin məcmui gəlirləri müxtəlif mənbələrdən formalaşaraq ölçü və tərkibindən asılı olaraq ailələr arasında bölüşdürülür. Bərabərlik və qeyri-bərabərlik səviyyəsinə rəğmən statistik təyinatda gəlirlərin personal - fərdi bölgüsü ailələr, ayrı-ayrı əhali kateqoriyası arasında gəlir bölgüsü ilə ölçülür. Gəlirlərin fərdi bölgüsü özünün qeri-bərabərliyi ilə fərqlənir və bu qeri-bərabərliyin ölçülməsi Pareto-Lorens-Cini metodologiyası əsasında aparılır.

İtalyan iqtisadçısı Lozan riyazi məktəbinin məhşur nümayəndəsi Vilfred Paretonun /1848-1923/ bazar tarazlığı konsepsiyasının inkişafında mühüm rolu olmuşdur. O, faydalılığın ölçülməsində şübhələr olduğunu yəqin edərək qaydalı faydalıq ideyasını irəli sürmüşdür.



F.Edcuortun «biganələr əyrisi»ni V.Pareto bazar tarazlığının təhlili üçün istifadə etmişdir. O, bazarın elə vəziyyətini tapmışdır ki, bu zaman heç kəs digər bir sövdə tərəfdaşının vəziyyətini pisləşdirmədən özünün şəraitini yaxşılaşdıra bilməz. Elmdə bu vəziyyət «*Pareto optimumu*» adlanır [72, 100]. Bununla belə XX əsrin əvvəllərində V.Pareto gəlirlər bölgüsünün faktiki məlumatları əsasında öz adı ilə bağı olan müvafiq qanun formalaşdırmışdır. «*Pareto qanununa*» uyğun olaraq gəlirlər səviyyəsi ilə onların alıcıları arasında geriyə asılılıq mövcuddur. Başqa sözlə gəlirlərin fərdi bölgüsü dayanaqlı olaraq qeyri-bərabərdir. Bu qeyri-bərabərliyin səviyyəsi isə alimin yenə də adı ilə bağı «*Pareto əmsalı*» ilə ölçülür. Pareto konsepsiyasında gəlirlər diferensasiyasına ölçünün sosial və siyasi faktorlarından asılı olmayan rakursunda baxılır.



Amerikan iqtisadçısı və statistiki Maks Otto Lorens /1876-1959/ cəmiyyətdə gəlirlər bölgüsündə qeyri-bərabərliyi ifadə edən qrafik interpretasiya müəllifidir. «*Lorens əyrisi*» adlanan bu qrafik təyinat gəlirlər qeyri-bərabərliyinin bölgüsündə faydalı bir alət kimi istifadə olunur. O, gəlir ölçüləri əsasında formalaşan müxtəlif əhali qruplarına düşən müvafiq gəlir payının təcəssüm etdirir. «Lorens əyrisinin» köməyi ilə konkret olaraq mütləq hipotetik bərabərlikdən fərqli əhaliyə hansı faizdə məcmui gəlir düşdüyü müəyyənləşir.

İtalyan iqtisadçısı, statistik və demoqrafı Korrado Cinni /1884-1965/ sələfi Maltus kimi əhali artımının tsiklilik nəzəriyyəsi ilə məhşurdur. K.Cinnini tskilik nəzəriyyəsinə görə hər bir əhali qrupu iqtisadi inkişafla bağı üç - *sürətli artım, stasionar vəziyyətə qədər yavaşıma* və *ixtisarlaşma* fazalarından keçir. Üçüncü fazaya keçiddə K.Cinni xarici iqtisadi faktorlardan istifadəni məsləhət bilir. O, bu yanaşmanın normal iqtisadi inkişafı patoloci vəziyyətdən ayırmağa yardım etdiyi qənaətini bölüşür.

K.Cinninin elmi fəaliyyəti gəlirlərin bölgüsü şəbəkəsində formalaşdırdığı «Cinni əmsalı» ilə inkişaf tammışdır. «*Cinni əmsalı*» 0-1 intervalında gəlirlərin faktiki bölgüsünü mütələq bərabərlik və qeyri-bərabərlik bölgüsündən kənarlaşması göstəricisi kimi xarakterizə olunur.

Əgər butun vətəndaşların gəlirləri eynidirsə «Cinni əmsalı» sıfıra bərabər olur. Hipotezə edilsə ki, bütün gəlirlər bir adamın əlində cəmləşmişdir, onda bu göstərici vahidə bərabər olacaqdır. Əmsalın vahidə yaxınlığı müvafiq ölkədə gəlirlərin qeyri-bərabr bölgüsündən xəbər verir [53, 83, 86].

*Yaşadığımız müasir dünyanı varlı hesab etmək olar. İndii qlobal bəşəri gəlir 31$ trilyonu aşmışdır. Kürreyi ərzin bir qütbündə orta insan ildə 40000$ qazanır. Digər qütbündə isə 2,8 milyard insan il ərzində 700$ -də az gəlirə malikdir ki, onların da 1,2 milyardı gün ərzində 1$-da az qazanc əldə edir. Bunun nəticəsidir ki, inkişaf etməkdə olan ölkələrdə hər gün 33 mindən çox uşaq, hər dəqqiqə doğum vaxtı bir qadın tələf olur. Yoxsulluq 100 milyon uşağı, əsasən qızların məktəbə getməsini məhdudlaşdırır.*

Gəlirlər differensasiyası şəxsi nailiyətlər və onlardan asılı olmayan iqtisadi, demoqrafik sosial-biolocı və siyasi səciyyəli müxtəlif amillərin təsir altında qatlaşır və onların qeri-bərabər bölgüsü səbələri aşağıdakı faktorlarla müəyənləşir:

- ★ fiziki və intellektual, təhsil səviyyəsi və peşə bacarığı fərqlililiyi;
- ★ təşəbbüskarlığı və riskə meyllilik;
- ★ əməksevərlik və motivasiya;
- ★ peşə oriyentasiyası;
- ★ ailənin mənşəyi, ölçü və quruluş xarakteristikası, bazardakı mövqeyi, onun uğur və diskriminasiya əlamətliliyi;
- ★ əmlaka sahiblik diapozonu.

Gəlirlərin yığım mənbəyi kimi fərdi qənətçilik, sahibkar fəaliyətdən qazanc, və vərəsliklə əldə olunmuş kapital çıxış edir. Əksər insanlar gəlirlərinə qocalıq zamanında məsrəf etmək üçün qənaət edirlər. Tədqiqatlar göstərir ki, şəxsi gəlirin çox az hissəsi - təxminən 20%-i həyat boyu yığılan hissəyə əsaslanır. Bunula belə əmək haqqının mühüm hissəsini illərlə ayrıca sərvət kimi toplamaq müşkül bir işdir. Bu sırada sahibkar fəaliyyət daha uğurlu vasitə sayılır. Tədqiqatlar göstərir ki, əksər varlı adamlar məhz həyatlarını riskə ataraq kapital sahiblərinə çevrilmişlər. Gəlir toplamının irsi keçməsi faktoru isə o qədər də formalizə olunmur. Bununla belə bütün gəlir differensasiyaları şəxsi səylərin hesabına akkumlyasiya olunur.

İctimaiyyatin gəlirlər məcmusu hər bir cəmiyyət üzvü üçün ədalətli olaraq rifahın iqtisadi göstəricisi kimi qiymətləndirilir. Əhalinin əldə etdiyi gəlirlər isə qabarıq şəkildə onun həyat səviyyəsini ölçüləndirir. Həyat səviyyəsi göstəriciləri BMT tərəfindən tədqiq edilən konsepsiyaya malikdir və bu silsilədə indikatorlar sistemi geniş diapozonludur:

- ❑ əhalinin doğum, ölüm və digər demoqrafik göstəriciləri;
- ❑ həyatın sanitar-gigeyenik şərtləri;
- ❑ ərzaq mallarının istehlakı;
- ❑ yaşayış, əmək və məşğulluq şəraiti;
- ❑ əhalinin gəlir və xərcləri;
- ❑ həyat dəyəri və istelak qiyməti;
- ❑ nəqliyyat vasitələrinə maliklik;
- ❑ istirahətin təşkili;
- ❑ sosial təminat;
- ❑ insan azalığı

Vurğulandığı kimi gəlirlərin ədalətli bölgüsü və təkrar bölgüsü dövləti tənzimləmə strategiyasından keçir. Sosial siyasətin tərkib hissəsi olan dövlətin gəlirlər siyasəti aşağıdakı iki mühüm məsələnin həllini hədəf seçir:

- ❋ sosial təminat sistemi vasitəsi ilə əhalinin ehtiyaclı təbəqəsinə birbaşa yardımların göstərilməsi;
- ❋ əhalinin gəlir və əmanətlərinin infilyasion qiymətsizləşməsinin neytrallaşmasını.

İstənilən dövlət tənzimlənməsi material, institusional və konseptual strukturda ehtiva olunur. Qeyd olunmalıdır ki, sosial tənzimləmə dövləti müstəsna imtiyazı hesab edilmir. O,

gəlirlərin bölgüsü və digər həyat səviyyəli göstəricilərlə əhatə olunur. *Sosial tənzimləmənin* obyektini ətraf mühitin mühafizəsi və istehlakçı hüquqlarının müdafiəsi kimi məsələlər təşkil edir. Sosial tənzimləmə həmkarlar ittifaqları, dini təşkilatlar və digər qeri-hökumət təsisatlarına da sirayət olunur [67].

Dövlət tənzimlənməsinin *material əsasları* milli istehsalın həcmi və onun dövlət büdcəsidən keçən təkrar bölgüsü ilə aparılır. *İnstitusional əsas* isə təkrar bölgü prosesinin təşkili və müvafiq təsisatların fəaliyyəti ilə əlaqələndirilir. Dövlət tənzimlənməsinin *konseptual əsasları* dövlət doktrinasının nəzəri status alması ilə formalaşır.

Gəlirlərin dövlət tərəfindən təkrar bölgüsünün büdcə-maliyyə tənzimlənməsi mexanizmi ilə həyata keçirilir. Dövlət sosial siyasətin prioritetləri və məxsusi proqramlar vasitəsi ilə sosaial ödənişləri pul, natural transfertlər və digər xidmətlər formatında ünvanlaşdırır. *Pul ödənişləri* əmək qabiliyyətinin, ailə başçısının itirilməsi, doğum, işsizlik, yenidən ixtisaslaşma və sair bu kimi vəziyyətlərin kompensasiyaları ifadə edir. *Sosial transfertlər* tam və qismən səhiyyə, təhsil, mənzil və nəqliyyat sektorlarının xidmətləri ilə əhatə olunur. Bütün sosial transfertlər əsasən birdəfəlik xarakter daşıyır və ya təsbit olunmuş zaman çevrəsində verilir. Sosial transfertlər həm də vergi güzəştləri formasında tətbiq olunur. Sosial ödənişlər tam olaraq dövlət xeyriyyəçiliyinin institutları - sosial təminat və sosial sığorta sisteminin sferasını əhatə edir [55, 84].

İnkişaf etmiş ölkələrdə dövlət tənzimlənməsinin formalarından bir kimi əhali gəlirlərinin indeksasiyası çıxış edir. Bir neçə gəlir növü üzrə indeksasiya prosesi II Cahan savaşından sonra Böyük Britaniya, ABŞ, Norveç, Avstriyada qiymətlərin sıçrayışlı artımı ilə tətbiq olunmağa başlanılmışdır. İndi bu sistem Avroatlantik məkanın əksər ölkələrində intişar tapmışdır. Bu ölkələrdə bütün sosial yardımlar təqaüdlərdən başqa indeksasiya süzgəcindən keçir. Təqaüdlər isə bir qayda olaraq korrektivləşməyə məruz qalır. Lakin bütün bunlara baxmayaraq pensiyalar əksər ölkələrdə istehlak qiymətlərinə müqabil olaraq indeksasiya da olunur. Bir sıra ölkələrdə gəlirlər indeksasiyası təşkilatdaxili səviyyədə həmkarlar təşkilatları ilə mövcud müqavilələrdə tətbiqini tapır.

Sosial-iqtisadi mobillik ictimai tərəqqinin yedəyinə alır. Əməyin mobilliyi zaman və məkanlı, funksional və məzmunlu olaraq müasir bazar zəruri əlamətinə çevrilmişdir. Mobillik anlayınşı digər istehsal resurslarına da şamil oluna bilər. Sosial mobillik isə cəmiyyətin sosial-iqtisadi ierarxiyasının hərkətlilik səviyyəsini xarakterizə edir. Cəmiyyətin sosial-iqtisadi differensasiyasının bütün formaları əhalinin əmlak gəlirləri differensasiyasında fokuslaşır. Hər bir cəmiyyətdə onun inkişaf səviyyəsi və funksionalığından asılı olmayaraq varlı və kasıb təbəqə mövcuddur. Obrazlı deylimdə bu vəziyyət elə əmlak /gəlir/ statusunu mənalandırır. Sosial mobillik yüngülləşdirici bir səviyyə olaraq insanın ictisami statusunun dəyişməsinə yardımçı olur, ictimai status bazar sistemində əsas struktur komponenti keyfiyyətində əmalak statusu alır.

Mobilliyin çağdaş situasiya şəraitdə mühüm forması kimi sosial statusun diversifikasiyası çıxış edir. Vətəndaş cəmiyyətinin sosial subordinasiyasının elastik sisteminin formalaşması təzadlı və qeri-bərabər ahəngdə keçir. Belə ki, ictimai tərəqqi, iqtisadi artım mülahizələrində yaşlı nəsil keçmiş xoş əyyamlara nastalci çağırış verir

Gəlirlərin tənzimlənməsi bütün iqtisadi sistemlərdə sosial-iqtisadi siyasətin öncül məsələlər sistemini təşkil edir. Bununla belə müasir cəmiyyətdə gəlirlər siyasətinin reallaşması bank sisteminin mükəmməlliyi ilə də bağlanılır. Hazırkı məqamda banklar və eləcə də bütün maliyyə-kredit sistemi qarşısında mühüm məsələ kimi əhalinin pul vəsaitlərini bu institutlarda akkumlyasiya olunmasını təmin edən etibarlılığın qazanılması strategiyası dayanır.

Müasir ümumi rifaf dövlətinin məramı müəqqəti və dövrü özünü adekvat gəlirlərlə təmin etmək iqtidarında olmayanalara yardımlar etmək fəlsəfəsi və reallığı təşkil edir. Bu məram geniş əhali kütləsi arasında yaşanan qeyri-bərəbərlik mövcudatı səbəblərindən irəli gəlir. Belə gerçəklik isə sosial yönümlü dövlət quruculuğuna keçid niyyətli ölkələri daha çox düşündürməyə vadar edir, onu müvafiq istiqamətdə sosial proqramlar və konsepsiyalar işləməyə səfərbərliyə çağırır.

Demekrativ təşəkküllü ölkələrdə gəlirlərin qeyri-bərabərlik sindromunun təcridinə *bərabər*

*siyasi hüquqlar* prinsipi əsasında cəhd edilir. Bu prinsip söz, vicdan azadlığı, səs vermək şüqüqu kimi konstitusiya şərtlərini əhatə edir.

Ötən əsrin 60-cı illərində bir sıra filosoflar insanların hamısının *eyni iqtisadi imkanlara malik* olması konsepsiyası ilə çıxış etdilər. Başqa sözlə kospetual prinsip bütün insanların meydanlarda eynən qaydalarla oynaması şərtliliyini mənalandırırdı. Bu isə o demək idi ki, dini və irqi mənsubiyyətindən asılı olmadan hər bir fərd yüksək ixtisaslı təhsil və iş almaya hüquqludur.

Bərabərliyin bərqərar olmasının üçüncü bucağında isə *iqtisadi nəticə* prinsipi dayanır. Bu «utopik baxışı» ideal cəmiyyət üzvülərinin hamısının - ağlından, fiziki və mənəvi enerjisindən asılı olmadan eyni səviyyəli istehlak imkanları qazanması ideallaşdırılır. Müqabil ideya marksizm fəlsəfəsində «hər kəsin bacarığı və istehlakına görə» prinsipi kimi də çıxış edir.

İqtisadi ədəbiyyatlarda «bölgü iqtisadiyyatı» adlanan konseptual istiqamət də geniş yayılmışdır. Bununla yanaşı bu sferada paralel «paylaşdırıcı» iqtisadiyyat anlayışından da istifadə olunur. Paylaşdırıcı iqtisadiyyatda iqtisadi sistem aşağıdakı əlamətlərə görə verilir:

- mülkiyyət ictimai xidmət xarakteri daşıyır.
- iqtisadi təşkilatın əsasını xidməti əmək təşkil edir.

Gəlirlərin bölgüsünün hər tərəfləri qaneedici optimal sistemi və forması bəşər övladı tərəfindən icad olunmamış qalır. Ümumi qənaət belədir ki, son dərəcə qətiyyətli və kəskin bərabərlik istənilən iqtisadi sistemdə iqtisadiyyatın funksionallığına xələl gətirmiş olar. Lakin bütün bunlara baxmayaraq sosiallaşan iqtisadiyyatı hədəf seçmişlər bu sahədə elmi axtarışlarını, riyazi və kompyuter model qurmalarını insaların rifahı və sosial bərabərliyinin təmin olunmasına rəğmən davam etdirirlər [83, 84, 134].

## *6.6. Sosial təminatlar şəbəkəsi və əlverişli sosial infrastruktur*

Sosial aspekt müasir zamanda sivilizasiyanın ən mühüm qaynaq elementlərinin ümumi favoritinə çevrilmişdir. Hər bir nemət və sərvətin bəşəri ehtiyacların artan tələblərinin dolğun təmin edilməsində əks olunan çağdaş cəmiyyət quruculuğu məhz sosial sferanın son dərəcə təkmil strukturda təşəkkülünə əsaslanır. İnsanın təbii, ictimai hüquq və azadlığını tam bərqərar etmək səyləri sosial dirçəliş vektorunda genişlənərək tərəqqi edir. Artan bəşəri tələblər sosial təminatlar sisteminin daim təkmilləşən çevrədə, adekvat konstruksiyada inkişafını şərtləndirir. Bu baxımdan sosial təminatlar sisteminin müasir paradiqmasının mahiyyət və motivasiyasını təhlil edərək inkişaf senarisinə uyğun onun yeni indikatorlarının müəyyən olunması aktual səciyyə daşayır.

Əhalinin sosial təminatlar sisteminin əsasını aşağıdakı struktur komponentləri təşkil edir:

- ümumi sosial transfertlər;
- əmtəə və xidmətlər üzrə subsidiyalar;
- istelak mallarının hədli indeks qiymətləri;
- pərakəndə ticarətin mühüm əmtəələrinin mütləq normativlərinin təyinatı;
- kvotalaşdırma kimi müxtəlif kateqoriyalı imtiyazlar həlqəsi;

Bununla belə müvafiq sistem prinsip etibarı ilə ən ehtiyaclı əhalinin problemlərini resursların təkrar bölgüsü kontekstində tam həll etmir. Sosial təminatlar büdcə sistemində yüklü vahə tutaraq real sektorun özünün rəqabətqabiliyyətini məhdudlaşdırır.

Keçid sisteminin yaşayan postsosialist ölkələrinin bir qismində ətalətli olaraq davam edən pulsuz təhsil və səhiyyənin formal mövcudluğu isə heç də yüksək sosial təminatlılığı əks etdirmir. Yeni sosial təminatlar sistemi isə daha konkretlik tələbində bulunur. Bu istiqamətdə aztəminatlı vətəndaşların say tərkibini azaltmaq üçün xüsusi dövlət proqramlarının hazırlanması, yoxsul təbəqənin ehtiyaclarını ödəmək üçün ünvanlı qayğını təmin edən sosial-iqtisadi konturlu mexanizmin yaradılması vacib amil hesab edilir. Yeni sosial islahatlar strategiyasında isə ünvanlı sistemə keçid mühüm rol oynayacaqdır [67, 97].

Sosial təminatlar sisteminin obyektiv görüntüsünü və inkişaf perspektivlərinin təhlili onun struktur və mahiyyətinin, mühüm indikatorlar şəbəkəsinin araşdırılması diapazonunda səmərəlidir. Bu araşdırma isə sosial siyasətin məqsəd və məramının müqayisəli təhlil kontekstində elmi interpretasiyasına əsaslanır. Burada həmçinin lokal çevrədə sosial islahatların gedişini açıqlamaq, mütərəqqi sayılan xarici dövlətlərdə intişar tapmış müvafiq sosial modellərlə paralellər aparmaq, sosial prioritetləri rəhbər tutan, vətəndaşlıq mövqelərinə istinad edən ədalətli cəmiyyət quruculuğunda ictimai təminatın təkmil və daim mütəmmadi təkmilləşən optimal sistemini - sosiallaşan bazar strukturu yaratmaq tələbi dayanır.

Yeni sosial təminatlar sisteminin təşəkkül quruculuğunda daha yetərli konkretlik tələb olunur. Vurğulandığı kimi aztəminatlı vətəndaşların say tərkibini azaltmaq istiqamətində xüsusi dövlət proqramlarının hazırlanması, yoxsul təbəqənin ehtiyaclarının dolğun ödənilməsi üçün ünvanlı qayğını təmin edən sosial-iqtisadi konturlu mexanizmlərin yaradılması vacib şərtlər sırasında dayanır. Sosial təminatlar sisteminin əsasını sosial müdafiə təşkil edir. Ayrıca götürülmüş ölkə çevrəsində sosial müdafiə problemləri müxtəlif cür həllini tapır. Burada mühüm şərt dünyəvi qəbul olunmuş hüquqi dövlət prinsiplərinə əsalandırılır, insan haqqları bəyannaməsinin rəhbər tutulmasıdır. Sosial təminatı yetkinləşdirən şərtlər olaraq sosial müdafiənin ünvanlı sisteminin inkişafı, əlillərin cəmiyyətə inteqrasiyası, uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması, pensiya sisteminin təkmilləşdirilməsi, əhali məşğulluğunun təminatı və yeni iş yerlərinin açılması və keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş kimi priortitetlər təşkil edir. Burada daha mühüm cəhət pensiyon tarazlığın əldə olunmasıdır.

Sosial praqmatizmin əsas sosial məqsədlərini bütün hakimiyyət və hüquqi institutlar tərəfindən vətəndaş azadlığını ehtiva edən sosial təhlükəsizliyin təminatı, effekli mülkiyətçi, təşəbbüşkar sahibkar qismində iqtisadi münasibətlərin yeni subyektlərini formalaşdırılması, iqtisadi, sosial, siyasi, əsaslar yaratmaqla başlıca prinsipləri varlının kasıba, güclünün zəifə, sağlamın xəstəyə qarşılıqlı yardımları üzərində qurulan təminatlarla cəmiyyətdə sosial konsensusa nailolma və birləşmə hüququ əsasında müxtəlif sosial təbəqələrın geniş və fəaliyyətli nümayəndəliklərinin yaradılması təşkil etməlidir.

İqtisadiyyatın bazar sferasında inkişafını təmin edən mühüm amillərdən biri də məşğulluğun mülayimləşdirilməsi, effektli əmək bazarının təşkili və əməyin ödəniş sistemi təkmilləşməsi ilə bağlıdır. Əməyin ödəniş sistemi ilə bağı tədqiqat nəticələri belədir ki, işçinin peşəkarlığı və şəxsi töhvəsində ehtiva olunan, ləyaqətli həyat səviyyəsinə təminat verən ödəniş ölçüləri təyin edilməli, mərhələli olaraq büdcə sferasında işləyənlərin orta əmək haqqı ölçülərinin xalq təsərrüfatında çalışanlar səviyyəsinə qaldırılmalı, işçilər qeyri-ödəniş qabiliyətli iş verənlərdən müdafiə olunmalı və vergi sisteminin iqtisadi reallıqlara uyğun mütəmmadi təkmilləşdirilməsi həyata keçirilməlidir.

Bazar iqtisadiyyatının inkişaf etdiyi müasir mərhələdə əməyə münasibət əsaslı dəyişiliklərə məruzqalmalıdır. Bu sahədə həmkarlar ittifaqları xüsusilə fərqlənməli,əməyin təşkili, mühafizəsi, iş rejimi, işçilərin istismarının yolverilməzliyi, istirahət, əmək haqqı və ümumiyyətlə bütün sosial müdafiə məsələlərin həllində aktiv iştirak etməlidirlər. Həmkarlar təşkilatları təsərrüfat subyektlərinin bir şöbəsinə çevrilməməli, klassik bazar ölkələrində mövcud tələblərə, standartlara uyğun olaraq sosial müdafiənin yardımçısı olmalıdırlar.

Bir sıra Qərb ölkələrində tibbi və pensiya sığortası əmək haqqından və mənfəətdən eyni ölçüdə götürülür. ABŞ-da muzdlu işçilərin əmək haqqında bu məqsədlər üçün 7,5% vergi tutulur. İsveçdə sosial fondlar tam olaraq dövlət tərəfindən formalaşdırılır. Yaponiyada isə sosial sığorta ödənişləri orta əmək haqqının 7%-i həcmindədir [127, 134].

Əldə olunan mənfəət hesabına müxtəlif fondlar, iqtisadi həvəsləndirmə, sabitləşmə, sosial iqtisadi inkişaf və digər fondların yaradılmasına ehtiyaclar vardır. Bu fondlar hesabına personalın sosia vəziyyətini mümkün qədər yaxşılaşdırmaq, məhsuldarlığım artırılmasında stimullar əldə etmək mümkündür. Bununla beləbu fondların məzmununda da dəyişikliklər aparılmalı, onların funksional qayəsi bazar prinsiplərinə adaptasiya olunmalıdır. ETT-nin yüksək inkişafetdiyi qayğı ilə yanaşılmalı işçilərin təhsil və ixtisas səviyyəsinin yüksəldilməsinə

müəssisə və təşkilatlarda müntəzəm attestasiyaların keçirilməsinə diqqət artırılmalıdır. İqtisadiyyatın maksimal dövlətsizləşdirilməsi və onun struktur yenidənqurmasının təminatı, mülkiyyət və təsərrüfat formalarının iqtisadi bərabər hüquqluluğu, maliyyə, kredit, pul infrastrukturunun sağlamlaşdırılması, inflyasiya proseslərinin təcridi, qiymətyaratmada xərclər modelindən mərhələli uzaqlaşma, iqtisadiyyatın elmi təminatının inhisarsızlaşdırılması, milli bazarın yenidən təşkili, təhsil və peşə hazırlığında qeyri-bazar təzahürlü oriyentasiyanın ləğvi kimi aspektlər bu çevrənin özəklərini təşkil edir.

Sosial infrastruktur elementlərini sosial siyasətin əsas məqsədlərində ifadə olunan əhalinin həyat keyfiyyətinin yüksəlişi, onun rifahı və uzunömürlülük səviyyəsinin artımı, sağlam, aktiv yaradıcı nəslin formalaşması və təkrar istehsalı səciyyələndirir. Sosial infrastruktur problemləri həmçinin insanın artan sosial tələblərinin dolğun təminatı fonunda mənzil şəraitinin keyfiyyət yüksəlişi, kommunal məskunlaşmanın ləğvi, məqsədyönlü fəaliyyətə, həyat və əməyin ekoloji və erqonomik şəraitinin yaxşılaşmasına rəğmən yeni mədəni sferanın təşkili, məhsuldarlığın artımında peşəkar təhsilin yüksəlişi, əmtəə və xidmətlərin həcm genişliyi, əhalinin ödənişqabiliyyətinin artımı, gənclərə və təqaüdçülərə qayğının və həmçinin əhalinin bütün qrupları üzrə sosial müdafiənin gücləndirilməsində ehtiva olunur [12, 55, 67].

Bazar iqtisadiyyatı şəraitində aztəminatlı əhali qruplarının həyat səviyyəsinin yaxşılaşdırılmasında dövlətin, ictimai təşkilatların rolu daim artmaqdadır. Bu baxımdan hər iki istiqamətdə sosial çətinliyin mülayimləşdirilməsi sahəsində işlər davam etdirilməlidir. Kiçik biznesi təşviq edən bazar iqtisadiyyatında çoxfunksiyalı işküzar mərkəzlərin yaradılması, sosial oriyentasiyalı praqramların işlənib hazırlanması da əhəmiyyətlidir. Dövlət öz vətəndaşların həyat ömrünün artırılmasına yardım edən ən çətin tədbirləri hədəf seçməli və onun reallaşmasında əlindən gələni əsirgəməməlidir.

Sosial təminatın yaxşılaşdırılması, təqaüdlərin artırılması yaşlı əhali nəslinin ümümi problemlərinin önündə gedir. Həyati sağlam normal yaşayış ahıl əhalinin uzun illər aktiv çalışdığına rəğmən təqayüdə çıxdıqda da əsaslı çətinlik çəkməməsində sosial təminatın yüksəlişini şərtləndirir. Təqyüdçülərin sosial problemlərinin öyrənilməsi, arşdırılması ilə dövlət orqanları ilə yanaşı ictimai təşkilatlar da səylər göstərirlər. Sosial yüksəliş kortəbii faktorlar çevrəsində təşəkkül tapmır. Burada ön yerdə iqtisadi imkanlar, resurslar faktoru və qayğı konteksində dövlətin tənzimləyici funksiyaları qərar tutur. Dövlət sərəncamında olan bütün resursları dəyrləndirməli və səfərbər edərək səmərəli reallaşmaya nail olmalıdır. Sosial rifah məşğulluq probleminin tam həll etmədən yüksəliş tapa bilməz. Yeni iş yerlərini açılması, inkişaf tendensiyasına uyğun olaraq hər il nə qədər yeni iş obyektlərinin açılması və onu kerçəkləşdirən şarait və şərtlər müəyyən olunmalıdır. İndiki aktiv resurslar müqabilində diqqət və qayğı əhalinin pul və digər maddi gəlirlərin artırılmasına yönəlməlidir.

Sosial infrastruktur komponentləri sosial sferanın yüksəliş templəri ilə ahəngdarlıq təşkil edir. Bu baxımdan sosial sferanı xarakterizə edən mühüm iqtisadi göstəricilərin artımına nail olunmalıdır. Sosial sferanın əsas iqtisadi göstəriciləri sırasında adambaşına düşən mənzil və sosial obyektlərin normal və optimal səviyyəyə çatdırılması, ticarət, xidmət və servisin yüksəlişini səciyyələndirən komponentlər durur. Bununla belə konret olan xarakterik xüsusiyyətlər də diqqət mərkəzində olmalıdır. Mənzil-kommunal təsərrüfatının, məişət xidmətinin, bədən tərbiyyəsi və idmanın, səhiyyənin, nəqliyyatın keyfiyyət yüksəlişini daha irəli plana çıxaramaq kərəklidir. Əhalinin komfortunun qayğısına qalmaq, onun yüksək sosial şəraitli həyatını təmin etmək vətəndaş cəmiyyəti quruculuğunun ayrılmaz prinsiplərindəndir [67].

Bəşəri yaşayışın müasir zərurətləri və inkişaf təmayülü rifahi tələblər yeni sosial sferanın formalaşmasını şərtləndir. Bütün mütərəqqi ölkələrdə sistem oriyentasiyasından aslı olmayaraq insan yer üzünün əşrəfi kimi ön cərgədə qərar tutur. Böyük yaradanın himayəsi altında heç nə insan varlığından irəli deyildir və yaranışlar insanın təbii tələblərinin dolğun tərənnümünə xidmət etməlidir.

## *6.7. Sosial müdafiə və effektivli pension təminat*

Sosial müdafiə problemləri konkret ölkə və sosial-iqtisadi formasiya kontekstində müxtəlif cür həll edilir. Burada mühüm şərt dünyəvi qəbul olunmuş hüquqi dövlət prinsiplərinə əsaslandıran insan haqqları bəyannaməsinin rəhbər tutulmasıdır. Bununla belə sosial müdafiəni dövlətlə yanaşı sahibkar və müəssisələr, həmkarlar təşkilatları və muzdlu işçilər özləri də təmin etməlidirlər.

Əhalinin sosial müdafiəsini ümumiləşmiş nəzəri və praktiki kontekstdə aşağıdakı təsnifatda qrupları əhatə edir:

- *işsizlər;*
- *məcburi köçkünlər;*
- *əlillər;*
- *təqaüdçülər;*
- *qaçqınlar;*
- *təbii fəlakətlə üzləşənlər;*
- *veteranlar;*
- *uşaqlı analar;*
- *yetim uşaqlar.*

BMT-nin konvensiyalarına uyğun olaraq bu göstəricilərin hər hansı optimal konfiqurasiyası dolğun qarantlı sosial təminatlarda təsbit olunduqda dəyərli hesab edilir. Maddi nemətlər və xidmətləri əhatə edən sosial müdafiə obyektləri dövlət və vətəndaşların simasında onun subyektləri ilə uzlaşır. /*Əlavə 6-də əyani təsvirdə sosial müdafiənin obyekt və subyektlərininin sxemi verilmişdir*/.

Cəmiyyətin sosial strukturunu dayanaqlı, differensiallaşmış qrupların vəhdəti təşkil edir. Hazırkı çağdaş məqamda struktur diferensiasiyası ierarxik xarakter alır və proses sosial stratifikasiya ilə müşayiət olunur [58. 108]. Sosial təminat problemi vətəndaş cəmiyyəti qurmuş hər bir sivil ölkədə həyati əhmiyyətli məsələ kimi çıxış edir. İqtisadi quruculuğun sosial prioritetliyi də məhz yüksək təminatlı sosial mudafiə və dayanaqlı pensiya təminatı ilə ölçülür. Buna görə də sosial strukturun ən mühüm tərkib elementini kimi pensiya təminatı çıxış edir.

Uzun illər Sovetlər İttifaqının vahid pensiya strukturu üzrə formalaşmış sistem böyuk bir məkanı əhatə etmişdi. Hesab olunurdu ki, bu sistem ən mütərəqqi və kamil bir sitemdir. Əslində müvafiq zaman və məkan orbitində total və alternativsiz yaşanan bu sistem daha sosial təminatlı olmuşdur. Burada pensiya sisteminin təkmilləşməsi bir sıra illərdə davamlı islahatlar prosesi ilə müşayiət olunmuşdur. Lakin cəmiyyətin artan tərəqqi meylləri daha mütərəqqi sosial təminatlı pensiya strategiyasını şərtləndirmişdir. İndi dünyanın əksər inkişaf etmiş məmləkətlərində pensiya fondunun akkummuliasiyasında fərdi yığım meyli güclənir. Yeni cəmiyyət quruculuğunun məntiqi belədir ki, hər kəs öz pensiyasını sərbəst olaraq yaratmaq imkanını təmin etməlidir. Qarşıda strateci vəzifə kimi pensiya sığortası institutunun əsaslı formalaşması prinsiplərinin bərqərar olması vəzifəsi də dayanmaqdadır. Müvafiq təsisatın səmərəli fəaliyyəti inkişaf etmiş ölkələrdə artıq aprobasiya olunmuşdur.

Sosial və baza, könüllü, kollektiv və şəxsi sığorta üzrə təqayüdlər beynəlxalq təcrübədə pensiya təminatı növləri kimi çıxış edir. Pensiyaların vurğulanan növləri ümümi toplumda mövcud üç səviyyəvi pension şəbəkəni əks etdirir.

Sosial və baza pensiyalarını ehtiva edən *birinci səviyyə* yoxsulluqdan müdafiə funksiyasını yerinə yetirir. Sığorta stacının davamlığından və qazancın həcmindən asılı olmayaraq baza pensiyası bütün məşğul əhaliyə universal xarakterli təqayüdün yaşayış minimumu ilə tutuşdurulmasına rəğmən eyniölçülü pensiyanı ifadə edir. Onun maliyyə mənbəyi kimi vahid sosial verginin bir hissəsi müəyyən edilir.

Mütləq pensiya sığortası prinsipləri ilə təşkil olunan baza pensiyalarına əlavə və həmən təqayüdü sığorta komponenti ilə tamamlayan, statistik yaşayış dövrünə uyğun yığım pensiya hüquqlarını ifadə edən pensiyalar isə *ikinci səviyyəli* koteqoriyanı səciyyələndirir.

*Üçüncü səviyyəni* təşkil edən pensiyalar qeyri-dövlət pensiya sığortası prinsiplərinə əsaslanır.

Pensiya təminatının əsas göstəriciləri aşağıdakılarda ehtiva olunur:

- pensiyaçıların sayı;
- bir pensiyaçıya düşən məşğul əhali sayı;
- qocalığa görə minimal pensiya həddi;
- qocalığa görə minimal pensiya ilə minimal əmək haqqının nisbəti;
- təyin olunmuş pensiyanın orta aylıq ölçüsü;
- pensiyaçının yaşayış minimum həddi;
- təyin olunmuş pensiyanın orta aylıq ölçüsü ilə pensiyaçının yaşayış minimum həddinin nisbəti;
- ÜDM-ə nisbətən faizlə pensiya fonduna sığorta ödənişlərin daxil olunması;
- ÜDM-ə nisbətən faizlə dövlət pensiya və müavinətlərinin pensiya fondundan ödənişi;

Təsərrüfatçılığın bazar mexanizmlərinin tam inkişaf etməməsi, real əmək bazarının olmaması şəraitində işçi nə qədər qazanacağını, əməyinin dəyər ölçüsünün hədlərini dəqiq bilmir. Gerçək bazar iqtisadiyyatında əmək haqqı işçi qüvvəsinin qiyməti kimi çıxış edərək əmək bazarında formalaşır, İşə götürən isə bu reallıqla hesablaşmağa məhkumdur. Müasir təsərrüfatçılıq sistemində qiymətlər nə qədər məlum olsa da, əməyin, işçi qüvvəsinin dəqiq qiymət sistemi tam aydın deyil [108].

Bir çox ölkələrdə hazırda pensiya sisteminin problemlərindən əsası maliyyə vəsaitinin çatışmamazlığı ilə bağlıdır. Hüquqi və fiziki şəxslər tərəfindən həyata keçirilən ayırmaların yığımı, vəsaitlərin toplanması, vətəndaşların pensiya hüquqlarının qeydiyyatı, uçotu və pensiyaların təyinatı, ödənilməsi məramlarını yerinə yetirən pensiya sisteminin yeni, daha sosial srukturlu təbəlludatlara ehtiyacı vardır. Gerçəkləşmiş dayanaqlılıq hər an dəyişir, təbii ahəngdə əhalinin qocalma prosesi kedir. Yaşlı əhalinin aktiv əhaliyə nisbətən artması meyli nəzərə çarpır. Proses isə şübhəsiz ki pensiyaçıların sayının artması, eyni zamanda onların işlək əhaliyə olan mövcud proparsional nisbətinin dəyişməsi ilə davam edir.

Pensiya sistemində geniş yayılmış və artıq klassikləşmiş - nəsillərlin pensiyaçılar qarşısında milli mənəvi öhdəlikləri olan *həmrəylik* prinsipi çıxış edir. Müvafiq prinsipə görə çağdaş nəsil əvvəlki nəslin pensiya təminatını maliyyələşdirməlidir. Mərkəzçi səciyyə daşıyan bu sistemi Rusiyada *bölüşdürücü* adlandırırlar. Müvafiq prinsip Fransa pensiya sistemində də möhkəm yer tutmuşdur. Mürəkkəb sxemli olan bu sistemin Fransa modeli 100-dən çox baza və 300-dən çox əlavə recimli pensiya ödənişlərini birləşdirir. Baza recimi sənaye, ticarət, kənd təsərrüfatının muzdlu işçilərinə şamil edilir. Xüsusi sahələrin işçiləri, hərbiçilər, dövlət məmurları, dənizçilər, şaxtaçılar, dəmiryolçular və müvafiq kateqoriyalı digərlərinə fərqli pensiya təminatı recimi tətbiq olunur. Ölkədə pensiya orta aylıq əmək 80%-i həddində müəyyən edilir. Bununla yanaşı Fransada mutləq və könüllü əlavə recimli pensiya təyinatı da tədbiq olunur. İstənilən ölkənin pensiya sistemində müvafiq fondların səmərəli təşkili və fəaliyyətləndirilməsi mühüm əhəmiyyət daşıyır. Resursların zəruri həcmdə, maksimal ölçüdə yığımı və optimal bölgüsü xüsusi vacib şərt hesab olunur. Dünya ölkələrinin bir qismində pensiya fondunun vəsaitlərinin qiymətli kağızların alınması və səhmlərdə yerləşdirilməsi təcrubəlindirilir. Sosial təminatda nailiyyətlər əldə etmiş müvafiq Qərb ölkələri mütəxəssisləri hesab edirlər ki, pensiya ayrımalarının *kapitallaşma* sisteminə keçidi 30-40 il müddətli aprobasiyasından sonra özünü doğrulda bilər [98, 101].

Gələcəkdə mövcud bölgü sisteminə alternativ olan qarışıq pensiya təminatlı sistem də tədbiq oluna bilər. Sosial müdafiə sisteminin gücləndirilməsində işverənlərin könüllük əsaslı köçürmələri də mühüm və səmərəli olacaqdır. Bu sistemdə isə daha çox əmək pensiyasına diqqət yetirilməli və müvafiq əmək pensiyasının ölçüləri sığorta əlamətləri olan yaş həddi, işçinin bütün əmək fəaliyyəti dövründə sığorta ödənişlərinin məbləği olan sıgorta staci, pensiya yığımı üzrə hesablanmalıdır. Bununla bekləç vurğulanmalıdır ki, pensiya islahatlarını səmərəli həyata keçirilmək üçün ümüdlü nəzarət sistemi də yaradılmalıdır.

# VII FƏSİL
# SOSİALLAŞAN BİZNES STRATEGİYASI

## *7.1. Əlverişli biznes mühitinin adekvat şərtləri*

Mülkiyyət azadlığı və bazar subyektinin gerçək müstəqilliyinə əsaslanaraq iqtisadi, təşkilati, sosial səbəb və tələblərin təsiri qaynaqlanan yüksək risk dəhlizindəni keçən biznes fəaliyyətində başlıca prinsipial cəhət mənfəət götürməkdir. Mənfət aspekti başlıca olsa da biznesin məqsəd və məramının kordinatları daha geniş müstəvini əhatə edir. Bu müstəvini cəmiyyətə lazımı əmtəə və xidmətlərin təqdim etmək, sahədə və bazarda qabaqcıl mövqelərə nail olmaq, istehlakçıların tələblərini optimal reallaşdırmaq, biznesin inkişafı üçün zəruri vəsait tədarükü qılmaq, öz işçilərinə fəallıq və səriştə yaratmaq imkanları yaratmaq kimi ümumi prinsipial oriyentirlər tamalayır.



Məşğuliyyət və qayğı kimi ingilis məfhumu ***biznes*** */business/* kapital formasında dövlət, fərdi, korporativ, miqyasında kiçik, orta, iri, həmçinin beynəlxalq və digər subsektorial kommersiya funksionallığını əhatə etdirərək fəaliyyət məqsədini keyfiyyət və kəmiyyət çevrəsində təyin olunmuş zamanla bağlı tapşırıqlara kökləyir.

Hər bir biznes qrupu öz maraqlarından çıxış edərək müvafiq iqtisadi davranış münasibətləri və strategiya əsasında fəaliyyətini tənzimləyir.

*Böyük biznes* dövlətin iqtisadi və texniki gücünü nümayiş etdirir.

*Orta biznes* daxili iqtisadi konyukturadan asılı olaraq qrupu daxilində rəqabətə istinad edən prinsiplər əsasında təşəkkül tapır.

*Kiçik biznes* isə əsasən daxili bazara köklənən əmtəə və xidmətləri reallaşdırır.

Sahibkarlıq potensialı yüksək olan ölkələrdə kiçik və orta biznes aparıcı mövqedə dayanaraq iqtisadi inkişafın mühüm təminatçısı rolunda çıxış edir.

Biznes istehsal, kommersiya və maliyyə tipində növ müxtəlifliyinə görə müvafiq bölgüyə məruz qalır:

- *İstehsal biznesinin* siyasi və iqtisadi stabillik şəraitində və real bazar iqtisadiyyatı sferasında məxsusi mövqeyi vardır;
- Məramını əmtəə, pul, ticarət mübadilə əməliyyatlarını təşkil edən *kommersiya biznesi* isə ölkə iqtisadiyyatının inkişafında mühüm təminatçısı rolunda çıxış edir. İstehsal biznesindən fərqli olaraq kommersiya biznesində mühüm əlamət olaraq nəyi almaq və harada yenidən satmaq əhəmiyyət daşayır;
- *Maliyyə biznesi* kommersiya fəaliyyətinin xüsusi növü olaraq mənfəət əldə etmək üçün alqı-satqı obyekti kimi spesifik əmtəələr, pul, valyuta, qiymətli kağızlar ticarətini əhatə edir.

Biznes fəaliyyətinin səmərəliliyi onun mühit kompozisiyasının dəyərləndirməsindən keçir. Bu baxımdan biznes mühiti həm daxili və həm də xarici mühit əlamətləri üzrə təsnifləşdirilir.

Biznesin *xarici mühit* anlayışı ətraf mühitin amil və şərtlərində əhatə olunaraq, firmanın fəaliyyətinə təsir göstərir və ondan qarşılıqlı reaksiya tələb edərək aşağıdakı xassələrlə səciyyələnir:

- faktorların qarşılıqlı əlaqəsi;
- mürəkkəblik;
- dinamiklik;
- qeyri-müəyyənlik.

Biznesin xarici mühitinin təsirini - birbaşa və dolayı olan iki qrup amillər müəyyən edir. Birbaşa təsir faktorlarına qanunlar, dövlət tənzimləyici təsisatlar, əmək ehtiyatları, təchizatçılar, istehlakçılar, rəqiblər dolayı təsir faktorlarına isə iqtisadi durum, elmi texniki tərəqqi, cəmiyyətdə sosial mədəni dəyişikliklər təbii coğrafi və demoqrafik göstəricilər aiddir.

*Biznesin daxili mühitinə* daxili planlaşdırma və idarəetmə prosesində istehsal və satış ilə

bağlı şərait təsir edir. Bununla da biznesin daxili və xarici mühit fərqləri yaranır. Belə ki, təşkilati struktur məqsəd və məramlar, istehsal texnologiyası, insanlar və onların bacarığı, tələblər və ixtisas kimi faktorlar daxili biznesin mühitini təşkil edir [17, 99, 122].

Biznesin fəaliyyətinin növ müxtəlifliyinin sahəvi məkanı daha genişdir. O, adi ticari əməliyyatlardan başlamış müxtəlif tipik biznes «assortimentlərini» və hətta hərbi biznesidə özündə əhatə edir. Bununla belə biznes fəaliyyətinin strukturu yuxarıda qeyd olunan üç əsas istiqamət üzərində qurulur.

Biznes fəaliyyəti risk amilindən xalis formatda «sığortalanmamışdır». Bu mənada risk fenomeni biznes işində ayrıca bir istiqaməti - vençur biznesini formalaşdırmışdır. Risketmə mənasını ifadələndirən *vençur biznesi* fəaliyyət orbitinə ötən əsrin 60-cı illərində ABŞ-da qovuşmuşdur. Növbəti onillikdə onun çevrəsi Avropaya bazarlarını da əhatə etmişdir.

Yüksək biznes riskliliyi ilə fərqlənən vençur kapitalı məxsusi sxematik hərəkət strukturuna malikdir. Bu sxematik quruluşa görə vençur kapitalisti özəl kompaniya yaradaraq investorlardan pul yığımı təşkilini təmin edir. Sonra isə cəlbedici biznes layihəsi və onu gerçəkləşdirməyə müqabil sahibkar axtarışı aparılır. Müvafiq layihə ekspertizasından sonra investora nizamnamə fondu və ya səhmlər paketi müqabilində, bir neçə il müddətinə mübadilə zəminində fəaliyyət təklif olunur, nəticədə biznes riskini bölüşdürən tərəflər uğur perspektivində mənfəət sahibinə çevrilirlər. Empirik olaraq məhdud zaman kəsiyində yüksək riskli mənfəət üçün hesablanan vençur biznesi alim potensialı və mühəndis istedadını sintez edərək ən geniş mənada elmi-texniki işləmələrin kommersiyalaşmasının sürətləndirilməsi xidmətində bulunur, mürəkkəb strukturlu biznes layihələrinin reallaşmasına zəmin yaradır.

Biznesin mənsub olduğu məxsusi subyektləri vardır və o, ictimai-iqtisadi sistemin tələbləri əsasında quruluş alaraq insan cəmiyyətinin bütün tarixi formalarında kateqoriya xarakterlidir. Biznes subyekti istənilən sövdələşmənin aktiv tərəfidir. O, sövdələşməyə hazırlıq və reallaşma prosesində hüquq və məsuliyyətlərin məcmusu təşkil edir. «Biznes subyekti» termini hər bir ölkənin normativ-hüquqi sisteminə müvafiq olaraq müxtəlif cür şərh edilə bilər. Lakin bu şərhin hamı üçün mumkün ümumi olan cəhətləri vardır. Belə ki, biznes subyekti qismində fiziki və hüquqi şəxslər, bələdiyyələr və sair bu kimi təsisatlar çıxış edə, işküzar maraqları rəhbər tutaraq müvafiq ərazi qanunverigiliyi şəraitində istənilən kommersiya fəaliyyəti ilə məşğul ola bilərlər.

İşgüzar münasibətləri ümumi məxrəcə gətirən təşkilati hüquqi formalar məcmu kimi biznes infrastrukturu çıxış edir. *Biznes infrastrukturu* kredit, gömrük sistemi, kommersiya bankları, fond, valyuta, əmtəə, xammal, əmək bircalarında vasitəçilik təşkilatlandırılması, qeyri-birca vasitəçiliyi, auksionlar, vergi sistemi, sığorta, reklam, auditor, konsaltinq kompaniyaları, informasiya, agentlikləri və kütləvi informasiya vasitələri, ticarət palataları, fondlar və digər müvafiq təsisatlarla əhatə olunur.

Məlum olduğu kimi, bazar iqtisadiyyatı rəqabət azadlınqlı sahibkarlıq, korporativ və xüsusi mülkiyyət, liberal qiymətlər və başlıca olaraq iqtisadiyyatın idarəedilməsində dövlətin rolunun məhdud, lakin effektli nizamlayıcı funksiyasına əsaslanır. Səmərəli istehsal, keyfiyyətli xidmətlər, çevik idarəetmə strukturu, dayanaqlı maliyyə recimi, optimal kredit siyasəti və digər iqtisadi kateqoriyalar mükəmməl bazar funksiyalı iqtisadiyyatın atributları sırasındadır [9, 17].

Bazar iqtisadiyyatının müxtəlif imkanları səviyyəsində dövlət biznes fəaliyyətinin inkişafına fiskal, maliyyə-kredit siyasəti ilə üç istiqamətdə yardımçı olur:

**A.** Rəqabəti dəstəkləməklə səmərəliliyin artırılması;

**B.** Vergi sistemi və bölgü prinsipi ilə ədalətin təminatı;

**C.** İnflyasiyanı sabitləşdirmək, işsizliyi mülayimləşdirməklə makroekonomik sabitlik və iqtisadi artımın təminatı [99, 124, 127].

Tarixi təcürbə göstərir ki, biznes fəaliyyətin bazarın son dərəcə azadlığı olduğu şəraitdə belə dövlət dəstəyinə ehtiyaclıdır. Bu ehtiyaclar təkcə normativ-huquqi sferanı əhatə etmir. Dövlətin dəstəyi dünya bazarında çıxışda da özünü göstərir. Ən nəhəg biznes layihələri dövlət dəstəyi olmadan kerçəkləşməsi çətindir. Dövlətin maraqları olmadığı yerdə biznes fəaliyyəti heç bir səmərə verməz.

## *7.2. Sahibkarliq fəaliyyətinin prinsipal tələbləri*

Biznes strategiyası haqqında mülahizələrə vargən sahibkar fəaliyyətin təşkilati missiyasının da təhili önə çəkilməlidir. Vurğulanmalıdır ki, «biznes» və «sahibkarlıq» anlayışları sıx əlaqəli olsalr da fərqləndirici cəhətlərə malikdirlər. Belə ki, kommersiya fəaliyyəti kimi biznes sahibkarlığa nisbətdə daha geniş mahiyyət daşıyır. Məxsusi struktura malik sahibkarlıqdan əhatəli olaraq biznesin subyektini qeyri-sahibkarlıq təşkilatları və təsisatları da ehtiva edir. Bu xüsusda epizodik kommersiya sövdələşmələri də istisna olunmur.

Sahibkar çox geiş həlqədə «biznes» sözünün paronimi olan «*biznesmen*» anlayışında da tətbiqini tapır. Bazar iqtisadiyyatı şəraitində formal surətdə mülkiyyətçi olaraq biznesmen və ya sahibkar öz kapitalını artırmaqla yanaşı, eyni zamanda mənsub olduğu ölkənin də milli sərvətini yüksəldən fəaliyyətə qatışır. Azadlığın, riskin və imkanların məhz bu tərzdə təşəkkülü müasir bazar iqtisadiyyatında işgüzarlıq ruhunun qorunması ilə müşaiyət olunaraq insanların maddi rifah yaxşılaşmasına ən geniş imkanlar açır.

Biznes və sahibkarlıq nəzəri, praktiki və etimoloci kökləri bəşər sivilizasiyasının dərinliklərinə gedir çıxır. Əmtəə-pul, ticari münasibətlərinin erkən yaranışları əsaslı olaraq məhz biznes işi və sahibkarlıq fəaliyyəti zəminində qurulmuşdur. Böyük təkəmül dövrü keçmiş bu oxşar proseslər iqtisadi fikir tarixinin yetkinləşən orta əsrlər zamanında özünün sistemli formalaşma mərhələsinə qədəm qoymuşdur.

İlk dəfə iqtisadi ədəbiyyatlarda *«sahibkar»* anlayışına 1723-cü ildə Parisdə kommersiya lüğətində rast gəlinmişdir. Bu lüğətdə «sahibkar» istehsal və ya tikinti üçün öhdəlik götürmüş insan obrazı mahiyyətində göstərilmişdir. Elmi termin olaraq isə «sahibkar» ilk dəfə XVIII əsrin əvvəllərində ingilis iqtisadçısı, demoqraf və bankir Riçard Kantilonun /1680-1734/ əsərlərində işlənmişdir. R.Kantilon hesab edirdi ki, bazarda tələb və təklif arasında fərqlilik ayrı-ayrı bazar subyektlərinə əmtəələrin ucuz alınıb baha satılması üçün imkanlar açır. Məhz bu subyektləri o, fransız dilindəki «vasitəçi» sözünü ifadələndirilən sahibkar adlandırmışdır. R.Kantilon diqqət yetirmişdi ki, belə insanlar tədavül və istehsal sferasında fəaliyyət göstərirlər və burada onların istehsal vasitələri üzərində mülkiyyətçi olması mütləq deyildir [127].

A.Smit tədqiqatlarında sahibkarı fəaliyyətində gəlir əldə etmək istəyən müəsissə mülkiyyətçisi kimi göstərirdi [127].

C.Sey sahibkar fuksionallığını istehsal şərtlərinin kombinasiyalı uzlaşmasının təşkil ilə bağlayırdı[127].

A.Marşal və onun davamçıları isə sahibkarın təşkilatı funksiyalarına daha çox diqqət yetirərək hesab edirdilər ki, müvafiq niyyəti arzu edən hər bir kəs sahibkar ola bilər. Bunun üçün yalnız xüsusi sahibkarlıq bacarığına malikliklik yetərlidir [88].

Sahibkarlığa Y.Şumpeter də məxsusi şərh vermişdir. Onun hesabınca sahibkar kimi ayrıca insanla yanaşı, həm də müxtəlif şəxslər qrupu da çıxış edə bilər. Burada şərt deyildir ki, sahibkar mütləq istehsal şəraitinin mülkiyyətçisi olsun [127].

Sahibkarlara neqativ münasibəti ilə fərqlənən C.Keynizin fikrincə insanların «pozitiv fəallıqı» riyazi hesablamadan deyil, daha çox özüyaranışlı optimizdən asılıdır. Burada iqtisadi qərarlar intiutiv olaraq qəbul edilir [11].

Sahibkar fəaliyyətinin daha çox bəxtə, uğura istinad etməsi dahi Azərbaycan şairi Nizami Gəncəvinin əsərlərində əksini tapmışdır. «Bu cinayət mənə çox eyləyir kar, hünərlə yox bəxtlə qazanılır var» [27, səh. 32].

Biznes və sahibkarlıqla bağlı tədqiqatlar P.Drakerin tətqiqatlarında müasirlik qazanmışdır. O, biznes menecmentdə situasion yanaşmanın əsaslarını formalaşdırmış, düzgün idarəetmə qərarlarının verilməsində mövcud vəziyyətin təhlilinə arxalanmasını tövsiyə etmişdir. Alimin qənaətincə müasir industrial cəmiyyətin inkişafı biznes və sahibkarlığın yüksəlişi ilə bağlıdır [124].

Müasir bazar iqtisadiyyatının tələbləri belədir ki, sahibkarlar öz fəaliyyətlərini dəqiq və səmərəli planlaşdırmadan, müvafiq informasiyalar akumlyasiya etmədən, marketoloci tədqiqatlar

aparmadan stabil uğura nail ola bilməzlər.

İqtisadi aktivlilin xüsusi forması kimi sahibkarlıq iqtisadiyyatın həm dövlət və həm də özəl sektorunda reallaşır. *Dövlət sahibkarlığının* və biznesinin əsasını geniş mənada informasiya, intellektual əmək məhsulları, qiymətli kağızlar, pul resursları, istehsal vasitələri üzərində dövlət mülkiyyəti təşkil edir. Dövlət sahibkarlığı dövlət və bələdiyyələ orqanları tərəfindən onların əmlakı əsasında təsis olunan müəssisələri əhatə edir. Belə müəsissələrin xarakterik xüsusiyyəti ondan ibarətdir ki, onlar yalnız tabeçiliyində olan əmlakla öhdəlidirlər.

*Özəl sahibkarlıq* isə iqtisadi fəallığın özəl əmlak əsasında qeydiyyatdan keçmiş fərdi əmək fəaliyyəti formasından ibarətdir.

Yetərli fərq xüsusiyyətlərinə malik olsalar da dövlət və özəl sahibkarlıq bir sıra prinsip və əlamətlərinə görə ortaq oxşarlıqları bölüşürlər. Bununla belə hər iki situasiyada dövlət sahibkarlığqla qarşılıqlı rabitədədir. O, konyektur düzümdən asılı olaraq sahibkarlıq prosesinə maneçilik köstərər, prosesdə müşahidəçi qismində çıxış edər və ya işə təkan verme ilə müxtəlif cür təsirlərə qatıla bilər.

Sahibkarlığın ideya reallaşmasında muzdlu işçilər çıxış edir. Onlar sahibkarlıq prosesinin subyektlər qrupuna aid olaraq məqsədlər reallaşmasının səmərəliliyini və keyfiyyətini təmin edirlər. Məlumdur ki, hər bir iqtisadi subyekt öz maraqları çevrəsindən çıxış edir. Sahibkar və muzdlu işçinin də kommersiya fəaliyyətində planları üst-üstə düşməlidir. Lakin burada fərqli anlar da istisna deyildir. Belə vəziyyətdə isə kompromis variantlar axtarışına təşəbbüs olunur. Ümumiyyətlə isə kollektiv əməkdaşlıq olmadan heç bir texnologiya faydalı və heç bir tapşırıq yerinə yetirilmiş sayıla bilməz. Sahibkar qarşıya qoyulan məqsədləri iasanlar vasitəsi ilə reallaşdırır və buna görə dənsanlar uğurun mərkəzi amilini təşkil edirlər.

Real bazar ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi dirçəliş, investisiyon axın, texnoloji tərəqqi, yeni yaranışlar sahibkarlıq potensialının qüdrətindən qaynaqlanır. Əmək, kapital, torpaq, bilik kimi iqtisadi resurslar sahibkarlığın unikal mahiyyətində dayanan təşəbbüskarlıq, risk və səriştəyə rəğmən, bazar mexanizmi toplumunda maksimal səmərəli istifadəsini taparaq iqtisadi artımı təmin edir. Sahibkarlığı hərtərəfli təqdir edən iqtisadi kurs dövlət xərclərinin, onun tənzimləyici yükünün azalması xidmətində bulunur. Məhz buna görə də stasionar sosial təminatlılıq əldə etmiş məmləkətlərdə biznes işi və sahibkarlıq fəaliyyəti yüksək qiymətləndirilərək daim dövlət tərəfindən stimullaşdırılır.

## *7.3. Yeniləşən biznes strategiyası*

Biznes işləmə və reallaşma kontekstində fəaliyyət istiqamətini müvafiq strategiyanın qurulmasından qaynaqlandırır. Çox zaman rəqabət strategiyası da adlanan biznes strategiya altı element və ya istiqamət əsasında təyin olunur. Onlardan dördü istənilən biznes növünə tətbiq olunandır. Digər ikisi isə bir neçə biznes vahidinə malik təşkilatda icrasını tapır:

I. Biznesini rəqabət aparacağı <u>əmtəə bazarı</u>. Əmtəə bazarı müvafiq biznes sferası ilə uzlaşır. *Biznes sferası* kompaniyanın planlaşdırdığı təklif və istehsalından imtina etdiyi əmtəələrlə, səy göstərdiyi və ya xidmət etmək istəmədiyi bazarlarla, mübarizə aparacağı rəqiblərlə, yayınmaq istədiyi konfiliktlərlə və şaquli inteqrasiyanın səviyyəsi ilə təyin olunur. Bəzən biznes sferasının nisbi mühüm qərarı yayınmaq istdəyiyi əmtəə və seqmentlər seçiminə müqabil olur. Belə seçim ona resursların digər bazarlarda rəqabətində zəruri qənaətin əldə olunmasına imkanlar açır.

II. <u>İnvestisiyaların səviyyəsi</u>. Burada aşağıdakı məqsədyönlü variant və yanaşmalar konsepsiyalaşdırılır:
- əmtəə bazarına çıxış;
- əldə edilmiş mövqelərin möhkəmlənməsinə yönələn investisiyalaşma;
- investisiyaları minimumlaşdırmaqla biznesin istisması;
- biznesin divestisiya /*satış*/ və ləğvetmədən mümkün maksimal aktivlər həcminin

qaytarılması.

III. Seçilmiş əmtəə bazarında rəqabət üçün zəruri olan funksional strategiya. Rəqabətin konkret üsulu adətən bir və ya bir neçə funksional strategiyalarla xarakterizə olunur:
   - əmtəə strategiyası;
   - kommunikativ strategiya;
   - qiymət strategiyası;
   - bölgü strategiyası;
   - istehsal strategiyası;
   - informasiya strategiyası;
   - seqmentləşmə strategiyası;
   - qlobal strategiya;
   - internet.

IV. Biznes strategiyanın strateci aktivləri və kompetensiyalarına əsaslanan dayanaqlı rəqabət üstünlüyünün təyinatı. *Strateci kompetensiya* biznes vahidlərinin mümkün güclü olduğu istiqamətlərdə strateci əhəmiyyətlidir. *Strateci aktivlər* isə öz parametrləri ilə rəqibləri analoci resurslarında üstün resurslrı ehtiva edir.

V. Resursların biznes vahidlər arasında bölgüsü. Firmadaxili strukturlarda resursların mütəşəkkil bölgüsü hətt a kiçik ölçülü biznesin strateci planında da əhəməiyyətli mövqedə dayanır.

VI. Kompaniyalar arası sinerqetik effektlərin mövcudluğu. Bir neçə biznes növü üzrə optimal fəaliyyətin sinerqetik səmərəsinə əsaslanır.

Biznesin strateci istiqamətlərinin təyinatı biznes strategiyasının mühüm səciyyəvi xüsusiyyətləri sırasındadır. Qəbul olunmuş konsepsiyaya görə biznesin aşağıdakı prioritet strateci istiqamətləri müəyyən edilir:

- innovasiya;
- qloballıq;
- sahibkarlıq;
- qabaqcıl informasiya və istehsal texnologiyalarının istifadəsi.

Biznesin konsepsiyasında diferensasiya və kiçik xərclər strategiya tipləri əhəmiyyətli istiqamətlərdən hesab edilir.

*Differensasiya* strategiyasına görə istehlakçılar üçün firmanın əmtəə təklifi rəqiblərin müvafiq təklifindən özünün dəyərlər və effektivlik diapozonu ilə fərqlənməlidir.

*Kiçik xərclər* strategiyası əmtəənin və xidmətin hər hansı bir mühüm elementində dayanaqlı rəqabət üstünlüyünə nail olmanı təxmin edir.

Biznes əksər strateci istiqamətləri diferensasiya və kiçik xərclər strategiyaları və ya da onların sintezi əsasında qurulur. Bununla belə biznes strategiyasının tipologiyasında fokslaşma /*fokusu tapmaq*/, qabaqlamış manevr və sinerqik tipləp daha qabarıq səciyyəli hesab olunurlar.

*Fokuslaşma* strategiyası təşkilati fəaliyyətin miqyas məhdudluğunun ehtiva edir. Burada firma fəaliyyətini dar assortimentli və ya böyük olmayan alıcılar qrupuna istiqamətləndirir.

*Qabaqlamış manevr* strategiyasında kompaniya ilkin tipik məhsul və xidmətlər yaradaraq dayanaqlı rəqabət üstünlüyü əldə edir və özünün biznes sferasında pionerə çevirir.

*Sinerqizm* strategiyası firmadaxili vahidlərlə optimal və davamlı rabitə yaratmanı əks etdirir.

Biznes aqreqasiyasının səviyyəsi həm də *oxşarlıq* və *ölçü* amillərindən asılıdır. Əgər iki biznes əhəmiyyətli oxşarlıqla istehsal və bölgü sferasında səciyyələnirsə. Onda onlar üçünuüğun gəlməməyə yol verməmək mühüm fəaliyyət məsələsinə çevrilir. Onların bir biznes vahidində qovuşması strategiyanın işlənməsi və tətbiqinin kordinasiyasını təminatlı edir. Ölçü amili avtonom fəaliyyətin funksionallığını əhəmiyyətli edir. Geniş həcmlilik avtonom səviyyəyə miqyasına təyinat verir [38, 99].

Biznes fəaliyyətinin planlaşdırılmasında marketinqin əhəmiyyəti danılmazdır.

***Marketinq*** menecmentin yaradıcılıq funksiyası olmaqla firma xaricində yaranan meyllərin, onun istehsal tələblərinə təsir edən amillərin məcmusudur. Bir sənət kimi, marketinq istehlakçıya yüksək tələbli əmtəə və xidmətlərin təklifini verməklə, qiymətin düzgün təyin olunmasını, satış kanalını seçmək və reklamı təşkil etməni gerçəkləşdirir. Marketinq tədqiqatlarında isə informasiya təminatlılığının əhəmiyyəti müstəsnadır. Marketinqdə informasiya sistemi, təşkilatın inteqrasiyasını təmin edən müxtəlif informasiyaların qəbulu işlənməsi və qərar üçün menecerlərə ötrülməsini əhate edir [59, 72].

Biznesin planlaşdırılmasında loqistikanın da xüsusi yeri vardır. Material təminatının bütün sferasını - qablaşdırma, hazır məhsul, istehlakçıya çatdırma və sair əhatə edən ***loqistik*** təlim, nəqliyyat, təchizat, ehtiyatlara nəzarət informasiyaların işlənməsi sahəsində planlaşdırılmanın tərkib hissəsini təşkil edir. Loqistik xərclər, loqistik zəncir, loqistik əməliyyat, informasiya axını loqistikanın əsas tədqiqat obyektlərindəndir [100].

Hər hansı konkret bir biznes əməliyyatının həyata keçirilməsində biznesmen əvvəlcədən düşünülmüş hərəkət proqramı hazırlamalıdır. Biznesmenin hazırladığı əməliyyat proqramı *biznes-planda* ehtiva olunur. Yalnız real və ümüdlü, bütün mümkün xərcləri və nəticələri vaxt resursunda əhatə edərək yaradılan biznes-plan həmən işin başlanmasına zəmindir. Biznes-plansız heç bir partnyor, kompanyon, sponsor tapmaq və həmçinin müvəffəqiyyət əldə etmək mümkün deyil.

Bazar iqtisadiyyatında biznes plan sahibkarlığın bütün sferalarında işçi alət rolunda çıxış edir. Keyfiyyət və əhəmiyyətli tərtib olunmuş biznes-plan firmaya bazarda yeni mövqelər fəth etməyə imkanlar açır. O, firmanın inkişaf strategiyasının şərtləndirən daimi bir sənəd olaraq müvafiq korrektələrə məruz qalarır, sistematik təzələnərək, bazar konyekturasına müqabil təkmilləşərək manevriliyini artırır.

Biznes-plan aşağıdakı məsələlərin həllini reallaşdırır:

★ firmanın inkişaf strategiyasının iqtisadi məqsədyönlüyünü əsaslandırır;
★ fəaliyyətin maliyyə nəticəliyinin cəbri hesabını formalaşdırır;
★ strateqiyaya uyğun olaraq maliyyə mənbəyini təyin edir;
★ planı müvəffəq reallaşdırmaq imkanlı kadr seçimi gerçəkləşdirir.

Burada hər bir məsələ digəri ilə qarşılıqlı asılılıq və rabitədədir. Məhz biznes-plan vasitəsi ilə kapital artımını qaynaqlandırmaq mümkündür. O, biznes sövdələşmələrinin əsas protokol predmeti, partnyorlarla iş birliyi qurmanın konseptual sənədi olaraq mühüm birləşdirici keyfiyyətdə çıxış edir. Buna görə də o, yalnız firmadaxili sənəd kimi qəbul olunmur. O, həm də investorların cəlb olunmasının mühüm stimullaşdırıcısı kimi də əhəmiyyətni nümayiş etdirir [99, 122].

İstənilən firmanın həyatı canlı orqanizmi xatırladır. Özünün mövcudluğu dövründə bu orqanizm yaranır, erkən, kamillik, və həyatı qeyb etmə zamanlarını yaşayır. Köklü dəyişikliklər zamanı modernizasiya və rekonstruksiya dövründə firmanın inkişafı üçün yeni mərhələ açılır. Göründüyü kimi, firmanın fəaliyyəti təyin olunmuş tsiklindən ibarətdir. Bu həyat daxili və xarici mühitin dəyişənlikləri ilə şərtlidir. Hadisələrin sürətli inkişafı dəyişkənlik tempi nə qədər güclü olursa, həyatı tsiklin və onun ayrı-ayrı mərhələlərinin davamiyyəti də o, qədər gödək olur. Aydındır ki, hər bir mərhələ özünün strategiya və taktikasını hasil edir. Hər bir təşkilat dövrü olaraq bazar tələblərinə uyğun istehsalını modernləşdirir. Əgər belə proses baş vermirsə fəaliyyətin səmərəliliyi aşağı düşür, firma tənəzzülə uğrayır və iflasa düçar olur.

Biznes aşağıdakı tsikli mərhələləri təşkil edir.

❋ işgüzar tsikl;
❋ məhsulun həyatı tsikli;
❋ biznes növünün həyatı tsikli;
❋ firmanın həyatı tsikli;

*İşgüzar tsikl* - biznesin bir sıra davamlı vəziyyətlərini əhatə edir. Buraya bazarın öyrənilməsi, məhsul istehsalı və satışı daxildir. Firmanın təşkilatı strukturunun formalaşması onun ştatının komplektləşdirilməsi özü bir sıra funksional mərhələləri əhatə edir. Tsiklin

davamiyyəti onun mərhələlərini dövriyyəsi ilə uzlaşır. Hər bir tsiklin gerçəkləşməsi təyin olunmuş mənfəətlə nəticələnir.

*Məhsulun həyatı tsikli* - geniş yayılmış model kimi işgüzar aktivliyin sonrakı mərhələsini əhatə edir. Bu tsik özü-özlüyündə aşağıdakı dörd mərhələdən ibarətdir:

- bazara tətbiq olunma mərhələsi;
- artım mərhələsi;
- yetkinlik mərhələsi;
- enmə mərhələsi;

Bütün bu mərhələlər qrafik illüstrasiyalarda şişuclu prabolik əyri təsəvvürü verir.

*Biznesin həyatı tsiklinin növləri* beş mərhələdən ibarətdir.

- başlanğıc mərhələ;
- genişlənmə və artım mərhələsi;
- optimal fəaliyyət mərhələsi;
- işgüzar əməliyyatların məhdudlaşması mərhələləri;
- biznes növünün dəyişməsi;

Biznes növünün dəyişilməsi, yeni fəaliyyət növünə keçidi digər başlanğıc mərhələni ifadə edir. Burada diversifikasiya, fəaliyyətin ixtisaslaşması, biznesin coğrafiyasının dəyişkənliyi, onun transformasiya və modernizasiyası variantları nəzərdən keçirilir.

*Təşkilatın həyatı tsikli* də dörd mərhələdən keçir:

- yaranış;
- artım;
- yetkinlik;
- eniş.

Təşkilatın fəaliyyəti həyatı tsiklin ayrı-ayrı mərhələlərində dəyişkənliyə uğrayır. Burada fiziki aşınma ilə yanaşı mənəvi aşınma da özünü göstərir. Əgər firma həyatı tsiklin ayrı-ayrı mərhələrinin tələblərinə reaksiya vermirsə, bu zaman ressesiya prosesi başlayır və o, iflasa yaxınlaşır. Biznesdə iflas nadir hadisə deyildir. O, heç də sahibkar fəaliyyətinin dayandırılması və təşkilatın ləğvi ilə sonunclanmır. Sahibkarı müəssisəni qorumaq şansı və cəhdləri müşayiət edir. Bu zaman böhranlı vəziyyətdən çıxış üçün müvafiq plan hazırlanıb gerçəkləşdirilir [53, 99, 113].

İnkişaf tapan hər hansı bir biznes fəaliyyəti öz strategiyasını daim təkmilləşdirməyə məhkumdur. Proses isə biznes strtegiyasının kommersiya paradıqmasını təbəllüdatlara uğradaraq daha çox sosial xarakter alma ilə müşayiət olunur. Əslində bazarın özünün soçsiallaşması biznes fəaliyyətini sosial atributlarla təchizini tələb edir. İqtisadiyyatın sosiallaşması biznes fəaliyyətinin də sosializasiyası ilə eyni ahəngdə tərəqqi edir. Biznes sosiallaşan bazar iqtisadiyyatının əsas generasiya mənbələrindən birinə çevrilir.

## *7.4. Biznes diversifikasiyasi və genişlənən inkubasiya prosesləri*

ETT-nin artan surəti, genişlənən innavasiya nailiyyətləri müasir zamanda biznesin diversifikasiyasında, yeni biznes texnologiyalarının inkişafında da əks olunmaqdadır. Bu sırada mütərəqqi iqtisadi-texnoloji mexanizm kimi Biznes İnkubatorları adlanan təsisatlara əhəmiyyətli yer ayrılır.

İnkubasiya */inkubator/* quşlar fəsiləsinə aid olan latın mənşəli anlam kimi «kürt düşmək» mənasını ifadələndirir. Lakin iqtisadi sferada kommersial fəaliyyət - biznes məfhumu sintezində inkubator əski interpretasiyasını dəyişərək sahibkarlığın davamlı inkişafına yardım edən xüsusi tədbir və xidmətlər kompleksi formatında yeni institusional keyfiyyət donu alır.



***Biznes İnkubatorları*** - /Bİ/ ön təyinatda fəaliyyət başlanğıcında çətinliklər çəkən kiçik sahibkarlığa ilkin dəstək olaraq icarə əsasında

kommunikasiya vasitələri, kompüter, ofis texnikası, inventarlar, iş və istehsal otaqlarını konturagentin sərəncamına vermək missiyasını yerinə yetirir. Sahibkarlar, alim və ixtiraçılar öz ideyaları əsasında kommersiya fəaliyyətini gerçəkləşdirmək istədikdə Bİ-lər onlara lazimi informasiya, incirinq və konsaltinq xidməti göstərirlər.

Bir qayda olaraq Bİ-lər bazarda potensial tələbli, məlum texniki həllini tapmış, müasir texnoloji proseslər və nou-xaular əsasında qurulan yeni, təkmil məmulatlar istehsalı və xidmətlər qoyuluşunu əhatə edir. Onların xidmətindən innavasiya formatlı ideyalara əsaslanan kommersiya layihələrinin ilkin və riskli mərhələsində, təcrübi və seriyalı istehsal tsiklinin təşkilində istifadə olunur.

Beynəlxalq praktikada Bİ-lər ilk olaraq 1959-cu ildə ABŞ-da görünməyə başlanmışdır. Bu məkanda fəaliyyətini dayandırmış fabrikdə işsiz insanlar boş qalmış otaqlarda özlərinin Bİ oxşarlı ilk kiçik müəssisələrini yaratmışlar. Müvafiq təcrübədən qaynalanaraq artıq dünya təsərrüfatında məhdud çevrədə olsa da, 1985-ci ildə 70, 1992-ci ildə isə 470 Bİ-lər fəaliyyət göstərmişdir. Statistik proqnozlara görə yaxın beş il ərzində qlobal kontekstdə Bİ-lərin sayının 5-6 min civarını aşacağı gözlənilir. Müasir dövrdə Avropa qitəsində Bİ-lər şəbəkəsi genişlənərək əhəmiyyətli coğrafi bir dairəni əhatə etməkdədir. AB ölkələrində Bİ-ləri «İnnovasiya və sahibkarlıq mərkəzləri» /*Centro de Emperesas and Innavacon - CEI və ya Business and Innavacon Centre - BIC*/ adlandırırlar. Belə şəbəkəli mərkəzlərin yaranışı AB-nin kiçik biznes formatında iqtisadi artımı və xüsusən də regional inkişafı sürətləndirməyin əsas prinsiplərindədir.

Bİ-lər konsepsiyası regional spektrdə başlıca olaraq elm-təhsil müəssisləri ilə industrial potensiallı şirkətlərin dərin inteqrasiyası və müvafiq mobil infrastrukturun formalaşdırılması məqsədi daşıyaraq bölgələrdə ənənəvi iqtisadiyyat sahələrinin bərpasını, elmi nəticələri kommersiyalaşdıran müvafiq pilot qurumlarının yaradılmasını, staqnasiya keçən müəssisələrin sanasiyasının təşkilni nəzərdə tutur [99, 127].

İşgüzar fəaliyyətin mikro mühitini, erqonomikasını dolğunlaşdıraraq Bİ-lərin yardımı ilə müəssisənin funksional sferası inkişaf edir, dinamikləşdirərək genişlənir, diversifikasiyaya məruz qalır. İqtisadi keyfiyyət yükünün kütləsinə baxmayaraq müasir zamandakı say məhdudiyyəti fərqliliyi Bİ-lərin iqtisadiyyatın inkişafına əsaslı makro təsir göstərməsini imkansız edir. Lakin bu reallıq onun da keçici-dəbli yeni biznes aksessuarları sırasında qatıldığı düşüncəsinə gətirmir. Beynəlxalq təcrübə informasiyaları bəyan edir ki, Bİ-lərin texnoloji stilistik keyfiyyəti geniş arealda, dəstəkli tətbiqini tapdıqda davamlı regional sosial-iqtisadi artımla müşayiət olunur.

Məxsusi xüsusiyyətlər kontekstində texnopark, sənaye şəhərciyi, azad iqtisadi zona kimi biznes formaları Bİ-lər sferasının varyasiyalarını təşkil edirlər. Sahibkarlığın texnoloji növlərin yaradılması, kiçik biznes sferasının genişləndirilməsi və diversifikasiyası, rəqabətədavamlı istehsalın və xidmətin qurulması, yeni iş yerlərinin yaradılması Bİ-lər strategiyasının leytmotivini təşkil edir.

Hər bir strategiya olduğu kimi Bİ-lər də fəaliyyəti zaman parametrləri çərçivəsində məhdudlaşır. Burada müəssisələrin təşəkkülü üçün orta göstəricidə 2 ildən 4 ilədək vaxt resursu ayrılır. Bİ-lərin spesifik işçi heyəti də azsaylıdır və adətən tipik konfiqurasiya ştat düzümü 3-4 əməkdaşla əhatə olunur. Struktur özəllikdə Bİ-lər orları təsnifatı aşağıdakıları əhatə edir:

- sosial funksiyanı yerinə yetirərək spesifik məntəqə probleminin həllində müvafiq kommersiya layihəsini reallaşdıran yerli təşəbbüs cəmiyyətləri;
- bazara müqavimətdə özlərinin zəifliyi ilə xarakterik olan xüsusi qruplara: gənclər, qadınlar, milli azlıqlara xidmət göstərənlər;
- kommersiya layihələri üzrə icarəni təmin edənlər;
- innavasiya texnologiyalarının yaranışına və yeni obrazlı məhsullar istehsalına dəstək olanlar;
- bütün adi xidmətlərlə yanaşı, xüsusi olaraq informasiya təminatlı və konsaltinq xidməti göstən virtual Bİ-lər.

Müəssisələrin formalaşması və inkişafını hədəf seçən Bİ-lərin reytinq göstəricisi

buraxılmış firmaların sayı və yeni iş yerlərin açılışı ilə xarakterizə olunur. İlk dövriyyədə Bİ-ləri yerli orqanların, sənaye korporasiyalarının, müxtəlif fondların vəsaitləri hesabına fəaliyyət göstərir və sonradan icarə haqları müqabilində öz müstəqilliyinə təminatçı olurlar [50, 74].

İqtisadi kömək, informasiya yardımı funksiyalarını yerinə yetirən Bİ-lər özləri də kömək və yardımlarsız keçinə bilməzlər. Təcrübi reallıqlar belədir ki, Bİ-lər nizamnamə fondu, təsisat investisiyası qısamüddətli rentabelliyi formalaşdırmaq gücündə deyildir. Buna görə də ilk dövriyyədə Bİ-lər elm, təhsil müəssisələri, icmalar, korporasiyalar və müxtəlif fondların dəstəyi ilə fəaliyyət cığırı açaraq geniş prospektə çıxış edirlər. Güvənc rolunda isə məxsusi əhəmiyyətli funksiyanı dövlət və bələdiyyə orqanları həyata keçirirlər. Məhz onların yardımları əsasında imtiyazlı şərtlərlə rəğmən torpaq sahələri, maşın və avadanlıqlar, bina və tikililər və digər zəruri biznes sahibkar fəaliyyət atributlarının alınması reallığa çevrilir. Sahibkarlığın mətinləşən sonrakı mərhələsində xidmət və icarə haqqları, pay köçürmələri, biznes inkubasiyasından çıxaraq uğur qazanmış müəssisələrin mənfəətləri Bİ-lərin fəaliyyət davamlılığını təmin edir. Təcrübə göstərir fəaliyyət uğuru qazanmış Bİ-lər təsisat prezentasiyasından yalnız orta hesabla 5-6 illik müddət ötdükdən sonra müsbət saldolu balansı formalaşdıra bilirlər.

Bİ-lərin fəaliyyəti müvafiq nomativ-hüquqi aktlara istinad edərək formalaşmış ənənəvi müqavilə şərtləri ilə uzlaşdırılır. Bu cəhət Bİ-lərin yaradılmasının xüsusi texniki-iqtisadi əsaslandırma tələbli olması, bahalı və mürəkkəb layihə quruluşuna və digər bu kimi spesifik şərtlərə malikliyi ilə izah edilir. İnkubasiyaya giriş və çıxış müddəti bir qayda olaraq 1 ildən 3 ilədək müəyyənləşdirilir və bu dövr tərəflərin razılığı əsasında daha geniş diapazonda təyin oluna bilər.

Biznes inkubasiyası ehtiyaclı müəssisələrin də partnyorluq münasibətləri qurmasının müvafiq standart və normativləri mövcuddur. Buraya namizədin sahibkarlıq bacarığı və ciddiyyəti, əməkdaşlıq etmək əzmi, əsaslandırılmış biznes-plana malikliyi başlıca şərtlərdəndir. Bununla belə, novatorluq göstərərək bölgə təsərrüfatının möhkənləndirən potensiala çıxış etmək, innavasiyalı ideyalar daşıyıcısı olmaq, mövcud fiksal tələbləri yerinə yetirmək, ekoloji normalara riayətdə bulunmaq və azı 5 nəfərlik iş yerinin açılışına təminat vermək də mühüm şərtlər sırasında hesaba alınır.

Müasir məqamda kiçik biznes əyani olaraq nəhəng bizneslə müqayisədə özünün üstünlüyünü nümayiş etdirir. Mütərəqqi və mükəmməl regional inteqrasiya əldə etmiş ölkələr sosiallaşan iqtisadiyyat quruculuğunu yetərli hissəsini məhz kiçik sahibkarlığın tərəqqisi ilə əlaqələndirirlər. Bu əlaqəliyin empirik kökləri vardır. Belə ki, son onilliklərdə Avroatlantik məkanda iqtisadi yüksəlişin mühüm hissəsini və başlıca olaraq 80% yeni iş yerlərinin açılışını mikrosektor təmin etmişdir. Böyük Britaniyada kiçik biznes firmaları krallığın bütün şirkətlərinin 95%-ni təşkil edərək məşğul əhalinin $^1/_3$ hissəsini özündə cəmləşdirir. Analoci tutum Fransa, Almaniya, Belçikada və digər AB ölkələrində də yüksək həcmə malikdir. Kiçik bizneslə bağlı bu dövlətlərdə aparılan siyasətin ana xəttinin sahibkarlıq mədəniyyətinin kütləviləşməsi ilə yeni iş yerlərinin yaradılması və məşğulluğun təminatına nailolma təşkil edir. Praqmatizmə köklənən iqtisadi gerçəkliklər spektri postsovet müstəvisində kiçik biznesin əhəmiyyət diapazonun mühümlüyünü yenidən önə çıxartmışdır.

Bu çərçivədə kiçik biznesin inkişafında uğuru subuta yetmiş yuxarında nəzəri-praktiki təfərrüatları təhlil edilən Bİ-lər sferasının dünya təsərrüfatında tətbiq meydanının genişlənməsinə də diqqət artır. Tam və tutarlı inkişafda kiçik müəssisələr məhz Bİ-lərdən əməli dəstək alırlar. Bu meyl artıq aparıcı qlobal təsisatlar çərçivəsində üçüncü ölkələrə də «ixrac» olunmaqdadır. MDB məkanında isə Bİ-lərin yerləşməsi və möhkəmlənməsi liderliyində Rusiya və Ukrayna çıxış edirlər. Daha çevik planda Bİ-lər strategiyası BMT-nin İnkişaf Proqramı çərçivəsində Özbəkistan Respublikasında genişlik əldə edir. Burada tətbiq edilən layihədə kiçik və orta sahibkarlığa yardım üzrə səmərəli işləyən regional institutlar şəbəkəsinin yaradılması başlıca yer tutur. Normativ-hüquqi məhdudiyyətlərə baxmayaraq Bİ-lər konsepsiyası ilə bağlı fəaliyyət məhdud lokal həlqədə Azərbaycanda da reallığa çevrilməkdədir.

Sahibkarlığa kömək üçün regional aspektdə institusional infrastrukturun inkişaf planında Bİ-lərlə eyni sırada müxtəlif texnoloji parkların /*texnopark*/ yaranış ideyası da dayanır. İnfrastrukturun əlverişli inkişafını təmin edən texnoparkın əsas fəaliyyət məramı regional spektrdə industriyanın qabaqcıl sahələrinin formalaşdırılması, yerli elmi-texniki və istehsal potensialının yüksəldilməsi şərtliliyindən çıxış edir.

Müasir dunya iqtisadiyyatında texnoparklar ETT-nin lokomotivi hesab olunurlar. Burada müvaiq siyasət seçiminin taktiki və starteci prinsiplərinin öncüllüyü mühüm amil sayılır. İqtisadi islahatlar sferasıda mühüm nailiyyətlər əldə etmiş Çində 20 ilə yaxındır ki, texnopark şəbəkəsinin genişləndirilməsi regional siyasətin əsas prioritetlərindən biri kimi tətbiqini tapır [28, 50].

Texnoparklarda kiçik müəssisələr üçün Bİ-lər yaradırlar. Texnopark sahibkarlıq və Bİ-lər vəhdətində innovasiya mərkəzlərinin struktur modelini ehtiva edir Bu uzlaşmadan çıxış edərək bəzən doğru interpretasiya olmunmasa da Bİ-ləri texnoparklar da adlandırırlar.

## *7.5. Azad iqtisadi zonalar, ofoşor və onşor*

İqtisadiyyatın sosiallaşması prosesində uğurlu, dayanaqlı iqtisadi inkişafın təmin olunmasında milli dövlət ərazisinin məhdud hissəsini təşkil edərək xüsusi iqtisadi şərt və şərait imkanlarına malik Azad İqtisadi Zonalar /AİZ/ arealı üstün səmərəliliyi ilə fərqlənir. Bu iqtisadi təyinatlı spesifik zonada sahibkarlar öz biznes fəaliyyətlərini geniş imkanlar çevrəsində: vergi, gömrük, icarə, vizit, əmək recimi və digər bu kimi normativ-hüquqi oriyentasiyalı güzəştlər şəraitində qururlar.

Yaranışı bazar iqtisadiyyatının dərinləşməsi tələblərindən qaynaqlanaraq sosiallaşmaya doğru gedən yolu genişləndirən AİZ-lər industrial inkişafın investisiyalaşması, xarici ticari, ümumi sosial-iqtisadi, elmi-texniki və texnoloji problemlərin həlli məqsədləri üçün təşkil olunur, dünya təsərrüfatında iqtisadi artımın sürətlənməsini və beynəlxaq əmtəə dövriyyəsinin aktivləşməsini təmin edirlər.

AİZ-lərin quruculuğu sferasında nəqliyyat və kommunikasiya imkanlarının genişliyi, bazarlara münasibətdə əlverişli coğrafı mövqe, mineral-xammal resurslarına maliklik, inkişaf etmiş istehsal potensialı, münbit infrastruktur kimi bir sıra mühüm spesifik tələblər əsaslandırılır.

AİZ-lərin yaranışında ümumi konkret olaraq aşağıda təqdim edilən məqsədlərə nail olmaq nəzərdə tutula bilər:

- məşğulluğun təmin edilməsi;
- xarici investisiyaların cəlb olunması və mobilləşməsi;
- xarici bazarlara çıxarıla biləcək məhsul istehsalının mənimsənilməsi;
- müvafiq zonanın mövcud resurslarından daha dolğun istifadə olunması;
- ekoloji mühiti sağlamlaşdırılması;
- iqtisadi artımın sürətləndirilməsi;
- xarici əmtəə dövriyyəsinin aktivləşdirilməsi;
- iqtisadi inteqrasiyanın dərinləşdirilməsi;
- innovasiyaların, qabaqcıl istehsal və menecment texnologiyalarının zonaya cəlb olunması.

AİZ-lərin spesifik xüsusiyyətləri sırasında yaranış şərtləri də vacib səciyyəvidir. Belə ki, burada AİZ-lərin yaranması sferasında bir sıra tələblər formalaşmışdır. Bunlar tələblər arasında muhumlərinə aşağıdakıları aid etmək olar:

- nəqliyyat və kommunikasiya imkanlarının genişliyi;
- bazarlara münasibətdə əlverişli coğrafı mövqe;
- inkişaf etmiş istehsal potensialı;
- münbit istehsal və sosial infrastrukturu;
- mineral xammal resursları potensialına maliklik.

Dünya təsərrüfatıda AİZ-lərin funksional cəhətlərinə aşağıdakılar şamil olunur:

I. İqtisadi artımın sürətlənməsi;
II. Beynəlxaq əmtəə dövriyyəsinin aktivləşməsi;
III. İnvestisiyaların mobilləşməsi;
IV. İqtisadi inteqrasiya prosesinin dərinləşməsi.

Son onilliklərdə AİZ-lərin inkişafı dünya iqtisadiyyatında nəzərə çarpan hadisələrdən biri kimi qiymətləndirilir. Təcrubə göstərir ki, dövlətlərin beynəlxalq təsərrüfata səmərəli inteqrasiyası, ölkənin və onun regionları qarşısında duran aktual sosial-iqtisadi problemlərin həlli üçün müvafiq iqtisadi zonaların təşkili mühüm rol oynamaqdadır. Bu əhəmiyyətli funksionallıq ötən əsrin sonlarında planetdə məşğulluq şəbəkəsi 3 milyon insanı əhatə edərək 25-dən çox çeşiddə fəaliyyət göstərən 1200 AİZ-in simasında daha da dolğunlaşmış və genişlənmişdir [18, 120].

AİZ-lər növ müxtəlifliyi fərqi ilə spesifik cəhət və xüsusiyyətlər şəbəkəsinə malikdirlər. Onların spesifik xüsusiyyəti bu bazar strukturunun anlayış və kateqorik tərəfində əksini əsasən tapır.

Kioto konvensiyasının 1973-cü il qərarına görə AİZ-lər ölkənin elə bir ərazi hissəsidir ki, burada əmtəələrə milli gömrük teritoriyasının sərhədləri kənarındakı obyektləri kimi baxılır. Başqa sözlə AİZ-lər anklav ərazi təcəssümünü ifadə edir. Bu şərtiliyidən irəli gələrək həmin əmtəələr adı kömrük nəzarətinə və vergiqoymaya məruz qalmır. Bu vəziyyət «gömrük eksteritoriyalı» prinsipi adlanır.

İnvestisiyaların mobilləşməsini, iqtisadi inteqrasiya proseslərinin dərinləşməsini stimullaşdıran AİZ-lərə çağdaş zamanda dünyanın əksər ölkələrində rast gəlinir. Avtarkiyalı iqtisadi sistemə malik qonşu İran İslam Respublikasında, kommunist recimli Çin Xalq Respublikasında, Latın Amerikasının əksər ölkələrində AİZ-lər təşəkkül taparaq tərəqqi edir. Bir çox ölkələr məhz AİZ-lərin inteqrasiya effektinə istinadən onların mili iqtisadiyyatda formalaşdırılmasını və genişləndirilməsini şərtləndirirlər. AİZ-lərin inkişaf məsələsi MDB ölkə liderlərinin axırıncı üç sammitində də diqqət mərkəzində olmuş, nəticədə AİZ-lərin formalarından biri olan «Azad ticarət zonaların yaradılması haqqında» saziş imzalanmışdır.

AİZ-ləri şərti olaraq aşağıdakı çoxsaylı spesifik növlərə təsnif edirlər:

<u>Güzəştli gömrük rüsumu strategiyasında ifadə olunan</u>.

1. *azad ticarət zonaları;*
2. *valyuta portları;*
3. *rüsumsuz anbarlar.*

<u>Milli və xarici kapitalın güzəştli vergi, gömrük rüsumu strategiyasında ifadə olunan</u>

1. *eksport sənaye zonaları;*
2. *isehsal zonaları.*

<u>Güzəştli recimli əməliyyatlara əsaslan xidmət təyinatlı.</u>

1. *bank zonaları;*
2. *sığorta zonaları.*

<u>Yeni texnoloji nailiyyətləri gerçəkləşdirən</u>

1. *texnopolistlər;*
2. *texnoloji zonalar.*

<u>Kompleksli və çoxfunksiyalı</u>

1. *azad şəhərlər;*
2. *azad zonalar.*

AİZ-lərin fərqləndirici xüsusiyyəti kimi onların digər təsərrüfat ərazilərindən təcrid olunması funksiyası çıxış edir.

AİZ-lərin nəzərdən keçrilən növ təsnifatında güzəştli gömrük rüsumu strategiyasında ifadə olunan zonalar fərqli mahiyyət daşıyır. Burada xüsusi olaraq azad ticarət zonalarına fikir yönəltməsi ehtiyacı vardır. Belə ki, azad ticarət zonaları inteqrasiyanın ilk pilləsində qərar tutur. Topluma sərhəd ticarəti şəbəkəsində əməliyyatların aparılması daxildir. Regional ölkələr qrupu

inteqrasiya və qarşılıqlı faydalı əməkdaşlığı ifadə edən azad ticarət zonaları yaradır və burada gömrüksüz ticarət təşkil edirlər. Belə əməkdaşlıq müvafiq ticari infrastrukturun yaranması və təşəkkülünü genişləndirir.

AİZ-lər yaranış strategiyasında məxsusi konseptual yanaşma sisteminə də malikdirlər. Praktiki və nəzəri prinsiplər çərçivəsində AİZ-lərin yaradılmasında əsas iki - *ərazi* və *funksional* öaşlıca konseptual yanaşma mövcuddur. Ərazi sistemində müəssisə - rezidend təsərrüfat fəaliyyətində imtiyazlı recim əldə edir. İkincili yanaşmada isə imtiyazlı recim sahibkar fəaliyyətinin müəyyən növünə şamil olunur. Birinci yanaşma sistemində AİZ-lər bir sıra inkişaf etməkdə olan ölkələrə, xüsusən də Çin və Braziliya aiddir. «Dəqiqlər» adlanan ikincilərə isə ayrı-ayrı ofoşor firmalar aid edilir.

İnkişaf etmiş ölkələrdə AİZ-lərın fəaliyyətində mühüm aspekt kimi onların dünya və daxili bazara işləməsi önəm daşıyır. Bu ölkələrdə AİZ-lərin inkişaf strategiyası bir sıra spesifik cəhətləri ilə fərqlənir və aşağıdakı şəbəkəni əşatə edir:

I. İstehsal eksport zonaları.
II. Təsərrüfatcılığın xüsusi recimi.
III. Funksionallıq və difersifikasiya.

AİZ effekti təsərrüfatçılığın diversifikasiyasında da əhəmiyyətini nümayiş etdirir. Əmtəə çeşidinin artmasına sürət verir. AİZ-lərin yaranışında bütün bu spesifik xüsusiyyətlər bir amala xidmət edir. Bu amalın fövqündə isə biznes fəaliyyətinin genişləndirilməsi, sahibkarlığın inkişaf missiyası dayanır [18, 82].

İngilis mənşəli istilih olan *ofoşor* hərfi tərcümədə sahil, sahildən kənar, açıq dənizdə, dəniz kənarındakı kimi mənaları ifadələndirir. Bu termin əsaslı olaraq II Cahan savaşından sonra ictimai-iqtisadi elmi-parktiki dövriyyə çıxmışdır. Öncə bu termindən Qərb Avropaya beynəlxalq yardım təyinatlı «Marşal» planının gerçəkləşməsində - xaricdən edilən dövlət tədarük anlamında istifadə olunmuşdur. Məlumdur ki, «Marşal» planını həyata keçirərək ABŞ Avropa ölkələrinin iqtisadiyyatlarını və dövlət büdcəsini müdafiə etməklə onlarla aktiv iqtisadi təmaslar qurmuşdur. Belə ki, ABŞ dövləti bir çox əmtəələr üzrə Avropalı sənayeçilərə sifarişlər verərək dollar ekvivalentində həmən məhsulları almışdır. Eyni zamanda bu sferanı təmsil edən müəssisələr əvəzsiz olaraq borc və subsidiyyalar da əldə etmişlər.

Müasir dövürdə ***ofoşor*** termini ən geniş iqtisadi sərhədləri belə aşaraq beynəlxalq biznes fəaliyyətinin əsas funksional sistem elementinə çevrilmişdir. İndi ofoşorluq iqtisadi mahiyyət olaraq kontinental şelfdə neft-qaz hasilatında geniş istifadə olunan fəaliyyət paradiqmalarından biridir.

Ofoşor vergi planlaşdırılmasının ən məhşur və səmərəli metodlarından biri sayılır. Bir çox ölkələrdə bu metodun əsasını qeyri-rezident kompaniyaların tam və ya qismən vergidən azad etmə mexanizmi təşkil edir.

Ofoşor zonada fəaliyyət göstərən müəssisə və ya biznes qurumu müvafiq saziş əsasında mənfəətdən vergi ödəməyə öhdəli deyildir. Bu vergi növünü adətən qeydiyyat rüsumları əvəz edir. Belə firmaların qeydiyyat prossedurası da çox asan və istək olduqda hətta sahibkar görüntüsünün sənədləşmədə anonimliyi qorunur. Ofoşor zonada kapital ixracı məhdudiyyətləri yoxdur və yalnız burada vergi güzəştləri hakimdir.

Ofoşorluq ümümi və əlahiddə normativ-hüquqi bazası vardır. Çalar müxtəlifliyinə baxmayaraq müasir zamanda əksər ofoşor ərazilərə ingilis qanunverici sistemi və ya onun nümunsi əsaslı normativ hüqüqi müstəvi hakimdir.

Ofoşor kompaniya qeydiyyatdan keçdiyi ölkədə təsərrüfat fəaliyyətini reallaşdırmır, onun sahibləri isə həmən ölkə üçün qeyri-rezidentlər hesab olunurlar. Bu kompaniyalar praktiki olaraq istənilən təşkilati-hüquqi - ümumi /*tam*/, partnyorluq /*yoldaşlıq*/, məhdud /*komandit*/, açıq və qapalı tipli səhmdar cəmiyyət, şəxsi kompaniya və korporasiya formasında yaradıla bilərlər.

Beynəlxalq sahibkarlıq kompaniya və korporasiyası məhdud məsuliyyətli formatda ofoşor biznesdə ən geniş yayılmış təşkilati-hüqüqi formalardandır. Bu cərgədə demək olar ki, «fərdi təşkilat» yaradılması imkanları sınanmır. Ofoşor kompaniyalar sırasında son zamanlar daha çox

məhdud məsuliyyətli komaniyanın hibrid /LLC - *Limited Liability Company*/ partnyorluq forması geniş intişar tapmışdır. O təsisçinin gəlirindən vergitutmanın partnyoluq və səhmdarların məhdud mülkiyyət məsuliyyəti prinsiplərinə əsaslanır. Praktiki olaraq yalnız ofoşor zonada təsadüf edilən beynəlxalq sahibkarlığın digər hüquqi-təşkilati forması - IBC-də /*International Business Company*/ geniş yayılan fəaliyyət mexanizmlərindəndir. O, təsisçinin məhdud məsuliyyəti və buraxılan səhmlərdən vergi tutulması forması ilə fərqlənir.

Ofoşor zonaların areal genişliyinə «İkili vergitutmadan təcrid sazişi» institutu təsir göstərir. Bu prinsip mövcud sazişlərə gəlmiş vətəndaşların yalnız gəlir yaradıqları ölkələrdə vergiyə cəlb olunması huququnu təsbit edir. İkili vergitutmadan yayınmanın iki - İƏİT və BMT modelləri vardır. *İƏİT modelinə* rezidentlik prinsipi dominantdır. Burada mənfəət repatriasiyasında /*aktivlərin, kapital və dividedlərin investorun gəldiyi ölkəyə qaytarılması*/ aşağı vergi stavkaları təsbit edilir və gəlir rezidentə mənsud ərazidə tutulur. Alternativ *BMT model* kimi ərazi prinsipi çıxış edir. Yəni gəlir vergiyə onun yarandığı ölkədə cəlb olunur. Bu sistemdə isə repatriasiya stavkalaraı bir qayda olaraq yüksək həddə nəzərdə tutulur [18, 50, 99].

Praktiki olaraq bütün Avroatlantik məkanın nəhəng bankları öz müştəriləri üçün ofoşor strukturlar yaratmışlar. ABŞ, Kanada və Böyük Britaniya bankları xarici trast fəaliyyəti həyata keçirmək məqsədi ilə ofoşor filiallar açmışlar. Hətta Vatikan ölkəsi belə özünün kommersiya bankı - «*Instituto per le Opere di Religione*» vasitəsi ilə ofoşor əməliyyatlar reallaşdırmaqdadır.

Bir qayda olaraq ofoşor zonada öz ölkələrindəki vergi pressinqindən çəkinən firmalar toplaşırlar. Çox zaman burada qeyri-qanuni, kölgə iqtisadiyyatında peşələşmişlər də toplaşırlar. Nəhəng pulların, müasir statistikaya görə isə $3 triliyon kapitalın dövr oluduğu ofoşor zonalarda «çirkli pulların» yuyulmasının qarşısını almaq məqsədi ilə ayrı-ayrı dövlət, beynəlxalq iqtisadi və maliyyə qurumları müvafiq tədbir və sanksiyalar həyata keçirirlər. Bu çevrədə «zərərli vergi metodlarına» qarşı mübarizə ən məhsuldar fəaliyyəti İƏİT reallaşdırır. Onun «vergi sığınacları» olan qara siyahısına 35 ofoşor ərazinin adısalınmışdır. Bir sıra ofoşor yuristiksiyalar yalnız İƏTT sistemində deyil, bu məqsədlə əlahiddə yaradılmış pulların yuyulması üzərə beynəlxalq kommisiyanın - FATF /*Financial Action Task Force on Money Launderin*/ siyahısında da yer tutmuşlar. Monako, Marşal adaları, Nauru kimi ofoşorluqlar hər iki sıyahıda fiqurantlıq edirlər. Ofoşorluqlar onlara tətbiq edilən bu diskriminasiyalara cavab olaraq öz müqabil asosisiyalarını yaratmışlar.

Vergi və investisiyalar üzrə beynəlxalq təşkilat olan bu qurm - ITIO 13 ofoşor zonanı özündə birləşdirsə də, hazırda, o qədər də nüfuz sahibinə çevrilməmişdir. Vergi rəqabəti ilə mübarizəyə dünyanın tanınmış iki yüzdən çox iqtisadçısı da qoşulmuşdur. Onların arasında Nobel laureatları M.Fredmen və C.Byukenenin də adlarına rast gəlinir.

Müasir zamanda ofoşor biznesi iki - hüquqi və fiziki şəxsi oriyentasiyaları istiqamətlərində cərəyan edir. Ofoşorlar özünümaliyyələşdirmədə, tədiyyə stabilliyində, qiymətlərin tənzimlənməsində, keptiv /*firmadaxili*/, sığorta, müəllif hüquqlarının satışında, lizinq, trast əməliyyatlarında, maliyyə bazarlarında investisiya və ticari fəaliyyətdə, sadəcə olaraq bank seyfi formatında çox əlverişli və səmərəli alət rolunu ifa edirlər.

Ofoşor zonalar hüquqi baxımadan praktiki olaraq üç qrupa ayrılır:

- yüzfaizik ofoşorlar;
- vergi güzəşti ölkələr;
- inzibati-ərazi yaranışları.

Yüzfaizlik ofoşor zonalar «vergi körfəzləri» və «vergi sığınacaqları» /*tax haven*/ formatı ilə məhşurdular. Vergi güzəşti ölkələrə sırası müəyyən güzəşt recimlərinin tətbiqi ilə fərqlənirlər. İnzibati-ərazi yaranışlarında isə məxsusi ofoşor recim bərqərardır. Müqabil sistem daha çox federal qurluşlu ölkələrə daha çox ABŞ, Rusiya, Kanada, Böyük Britaniyaya xasdır. Ofoşor yaranışlar postsovet məkanınıda fəth etməkdədir. Bu sırada Baltikyanı blkələr və Rusiya Federasiyası fərqlənirlər.

FATF və İƏTT-nin ofoşorluq istiqamətində yaradıqları məhdudiyyətlər beynəlxalq orbitdə fəaliyyət göstərən bir sıra biznesmenlərin digər vergi güzəşti şərtli ərazilərə üz çevirməsi ilə

müşaiyət olunmaqdadır. Bu kontekstdə vergidən tam deyil, qismən azad olma və ya müvafiq vergi güzəştli şərtləri ehtiva edən ***onşor*** /*onshore*/ ölkələr seçimə məruz qalır. Bununla belə bu tipik formatda onşor ölkələrdə vegi yükünün ağırlığı nəzərə çarpa bilər. Əgər səmərəli fəaliyyət və düzgün sənədləşmə aparılarsa bu yükü kifayət qədər azaltmaq mümkündür. Onşor ölkələrdə kompaniya haqqında informasiyalar bir qayda olaraq açıq səciyyə daşıyır. Burada vergi və rusümların mütəmadi ödənişi, direktor və səhmdarların qeydiyyatı tələb edilir [99].

Praktikada ofoşor və onşor sərhədləri yuyulmuş obraz görüntülüdür. Bir tərəfdən beynəlxalq ictimaiyyatin təziqləri ilə ofoşor qanunvericilik mürəkkəbləşdirilir və sərtləşdirilir, digər tərəfdən Avropanın onşor ölkələri vergi qoymada onşor fəaliyyəti rəqabət kürsüsünə çıxararaq biznesi cəlbedən qanunvericilik kurusu ilə təkmilləşdirirlər. /*Əlavə 7-də dünyan 15 məhşur ofoşor zonasının xarakteristikası verilmişdir*/.

Aparlılan araşdırmalar göstərir ki, iqtisadiyyatın sosiallaşması prosesində AİZ-lərin rolü inkar edilməzdir. Bütün iqtisadi seqmentlər kimi, onlar da bəşəri sivilizasiyanın irəliləyişlərinin təmin edilməsində aktiv iqtisadi funksiyanı yerinə yetirməkdədirlər.

# VIII FƏSİL
# SOSİUM SOFTLAŞMA ORBİTİNDƏ

## *8.1. Açiq cəmiyyət ideyasi və softizasiyaya keçid zərurətləri*

İqtisadiyyatın sosiallaşması istiqamətində mühüm institusional oriyentirlərdən biri ekimi «Açıq cəmiyyət» məkfurəsi fərqlənir.



İlk dəfə «Açıq cəmiyyət» anlayışını 1932-ci ildə elmi dövriyyəyə fransız filosofu Anri Berqson /1859-1941/ çıxartmışdır. Onun açıq cəmiyyət haqqındakı ideyaları ötən əsrin ən nəhəng sosial mütəfəkkirlərindən olan avtriya mənşəli ingilis filosofu Karl Raymund Popperin /1902-1994/ «Açıq cəmiyyət və onun düşmənləri» kitabında daha radikal tərzdə inkişaf etdirilmişdir. K.Popper «Açıq cəmiyyət» anlayışını totolitar cəmiyyətə antiteza olarq qabartmışdır. Bu anlayış həmçinin siyasi və iqtisadi səciyyəvi «konstitusiya azadlıqları» prinsipinə də sosial ekvivalentdir. Digər tərəfdən müvafiq kitab II Cahan savaşı illərində yazıldığına görə antifaşist xarakteri daşımışdır [61, 87, 125].



Sir Karl Popper (1902-1994)

K.Popperin tədqiqatları «Açıq cəmiyyət» nəzəriyyəsinin daha da inkişaf etməsinə zəmin yaratmış və bu arenanın yeni ideloq və təşviqatçılarını yetirmişdir. Müvafiq çevrdə məhşur iqtisadçı F.Xayek elmi çalışmaları ilə daha üstün fərqlənmişdir[134].



Müasir mərhələdə açıq cəmiyyət konsepsiyasını məhşur maliyyəçi və filantrop Cörc Soros /1930/ daha müfəssəl inkişaf etdirilmiş və bu diapozonda onun tərəfindən praktiki çevrədə Açıq Cəmiyyət İnstitutu /*Soros fondu*/ adlanan ayırca qlobal xeyriyyçilik təşkilatı yaradılmışdır. Çoxsaylı elmi kittabları ilə geniş ictimaiyyatə C.Soros, həm də iqtisadçı və sosial mütəfəkkir kimi də tanışdır. Onun yaratdığı müvaiq institut təhsil, mədəniyyət, incəsənət, səhiyyə, vətəndaş təşəbbüsləri sahəsində açıq cəmiyyətin ideya və mexanizmlərinin inkişaf etdirilməsi istiqamətində müvafiq proqramları müdafiə edir və stimullaşdırır. Rəhbər orqanları Nyu-Yorkda yerləşən Açıq Cəmiyyət İnstitutu 30-dan çox ölkədə müvafiq təsisatlarını yaratmışdır.

Müasir «Açıq cəmiyyət» haqqında C.Soros özünün «Soros Soros haqqında» kitabında geniş və aydın şərh verir: «Mənim fəlsəfəmdə açıq cəmiyyət hamımızın hərəkət etdiyi qeyri-təkmil anlam ideyalarına əsaslanır. Burada heç kim son həqiqətə hakim deyildir. Bizim müxtəlif düşüncə və maraqları ilə birgə yanaşı yaşamaq istəkli insanlara, geriyə rabitəli, səhvlərin düzəlişinə imkanlar açan demokratik formalı dövlət və bazar iqtisadiyyatına və milli azlıqlara hörmət əsaslı kritik düşüncə tərzinə malikliyə ehtiyacımız vardır. Bununla yanaşı bizə daha bütöv olaraq qanun hakimiyyətinə sahiblik gərəklidir. Faşizm və kommunizm kimi ideologiyalar şəxsin və fərdin kollektivə tabeçiliyi, son həqiqət kimi qəbul edilən cəmiyyət üzərində ehkamlarda qurulmuş dövlətin dominantlığını yaradan qapalı cəmiyyət formalaşdırırlar. Bu cəmiyyətdə azadlıq yoxdur» [95, 104].

İnsan mövcudluğunun mütərəqqi sosial konstruksiyada birləşdirən böyük dayanaqlı açıq və sosial yönümlü cəmiyyət *sosium* paradiqmasında ehtiva olunur.

Sosiumun inkişaf meyli yeni sosial-iqtisadi reallıqları şərtləndirir. Onun genişlənən tərəqqi trayektoriyasında müvafiq sosial-iqtisadi reallıqlar sistemləşərək ictimai fondun sərəncamına qatılır.

Sosiumun inkişafı hazırda iqtisadi həyatda yeni bir meylin təzahürü - qeyri-material resurslarının ÜDM-də pay yüksəlişinin artması müşaiyət olunur. Belə tendensiya bolluğu daha çox elm-texniki və industrial inkişaf etmiş ölkələrdə xarakterikdir. İndiki tərəqqi mərhələsində iqtisadiyyatlarında yüksək sosial-iqtisadi nəticələr əldə edərək inqilabi dəyişikliklərə nail olmuş bu dövlətlərdə qeyri-material resurslarının xüsüsi çəkisi ümümistehsal xərclərinin təxmini yarıya

qədərinə bərabər həcmə yaxınlaşmışdır. Formalaşmış vəziyyət paralel olaraq yüksək tərəqqi müstəvisində sosiumun mühüm qaynaq elementlərindən birinə çevrilmişdir. Buna görə də yeni mütərəqqi iqtisadi inkişafı dəyərləndirən vektorial dövləti indikatorlor sırasında bu və ya digər ölkədə sosiumun tərqqəsində iqtisadiyyatın softlaşması səviyyəsi mühüm hesab ediləndir.

Softizasiyanı - *softlaşmanı* bir hadisə kimi qeyri-material resurslarının, o cümlədən, müxtəlif servis xidməti, cəmiyyətin intellektual potensialı, işçi qüvvəsi və kadr hazırlığı, konsaltinq, inciniriNq, ekspert xidmətlərini, idarəetmə sənətkarlığının, menencmentin iqtisadi inkişafın mühüm sivilizasion amilinə çevrilməsi kimi xarakterizə etmək olar. Bu proses daha çox ikinci və üçüncü sektorun inkişafında özəl mənbəyini tapır.

Formalaşmış təsnifata görə iqtisadiyyatın sektorial bölgü palitrasında ilk iki sıranı dövlət və kommersiya sektorları tuturlar. Bu iki sektorun vəhdət və antivəhdəti softizasiyanın daha çox əhatə olunduğu yeni üçüncü sektoru, formalaşdırmışdır.

Softizasiyanın inkişaf prosesləri isə öz növbəsində üçüncü sektoru da sonuncu etməmişdir. Əmək məhsuldarlığı postindustrial cəmiyyət sferasına keçidin ilk indikator kimi çıxış etmişdir. Bu istiqamət inkişaf etmiş ölkələrdə, istehsal sferasında məşğulluğun azaldılması, onun yeni təyinatı, təşkilatlı sferalarına keçidinə səbəb olmuşdur. İqtisadiyyatın sektorlara bölgüsü və onun yeni formalarda təzahürü müasir mərhələdə inkişaf etmiş ölkənin sosial gücünü, iqtisadi potensialını xarakterizə edən göstəriciyə çevrilmişdir. *Sosial sfera* boz, *fəhlələr* mavi, *qulluqçular* ağ yaxalıqlı olmaqla çalarlı sosial təsnifata məruz qalmışlar.

Liberal iqtisadiyatın intişar tapdığı ölkələrdə qeyri-hökümət və qeyri-kommersiya profilli təşkilatlar və ya onların birliyini ehtiva edən üçüncü sektor şərtsiz olaraq makroiqtisadi səciyyə daşımaqdadır. Mənfəət əldə etməməyi məqsəd və məramlarında ifadə edən müvafiq təşkilatların sayı müasir dünyamızda milyon saylarla ölçülmədədir. Artıq 50 yaşına qədəm qoymuş üçüncü sektor ABŞ və Yaponiyada iki milyon civarını aşaraq ümümi məşğul əhalinin 12-14%-ində əhatə olunur. Burada inkişafın illik sürəti 40-50 min kontur təşkil edir. Milli mənafelərə xidmət etməklə yanaşı bu ölkələrdə üçüncü sektor həm də ictimaiyyatin dövlət quruculuğu prosesində fəal iştirakının təminatçısına, inteqrasiya proseslərinin inkişafının mühüm alətinə çevrilmişdir.

Sivilizasiyanın inkişafının hər yeni mərhələsində olduğu kimi, müasir inkişaf prosesləri də texniki-texnoloji nailiyyətlərdə, innovatikada geniş iştirakı ilə xarakterikdir XX əsrin son onilliklərində dünyanın aparıcı, iqtisadi mütəşəkkil ölkələrində istehsal demək olar ki, tamlıqla yenidən texniki təchizatlanmış və modernləşmiş, yeni sivilizasion mərhələ - postindustrial cəmiyyət quruculuğu erası təşəkkül tapmışdır. Postsindustrial inkişafın təşəkkülü əmək məhsuldarlığının surətli artımı və müvafiq istehsal sferasında məşğulluğun çəkisinin azalması ilə səciyyəvi olmuş, xidmətlər sferasının diapozonun genişlənərək iqtisadi inkişafın mühüm göstəricisinə çevrilmişdir. Genişlənən həlqə çaxdaş zamanda üçüncü sferadan da ayrılaraq müstəqil məzmunda biliklər dövriyyəsini - elmi informatikanı, mədəniyyəti, məencerlər və məmurlar, kadr hazırlığını əhatə edən *dördüncü* «ağ yaxalıqlar» və hətta idarəçilik aparatları, yüksək peşəkarlar, sahibkarlıq istetadları, alim və mütəxəsisləri, konsaltinq firmalarını əhatə edən «qızıl yaxalıqlar» - «*desicenmeykers*» adlanan *beşinci* sferanı da formalaşdırmışdır [106].

İstehsalçı və istehlakçının münasibətlərində yeni oriyentir və motivasiyanı yaradan, daha çox «Açıq cəmiyyət» quruculuğuna xidmətdə bulunan, iqtisadiyyatın sosiallaşması meylini artıran softizaziya intişar sferasını genişləndirməkdədir. O, müasir mərhələdə üfiqi olaraq əhali məşğulluğunun sahəvi strukturunda və şaquli olaraq isə qeyri-istehsal sahələrində çalışın personal artımında inkişaf tapır. Proses əsasən kreativ - intelektual fəaliyyət dairəsini - yeni növ əmtəələrin istehsalı, təsərrüfat prosesinin təkmilləşdirilməsi, idarəetmə sisteminin optimallaşdırılması üzrə personalı əhatə edir.

Softlaşma müasir inkişaf prosesində xidmət tutumlu olaraq informasiyalı, sosiallaşan cəmiyyətin həyat modelinə çevrilir. Məhz buna görə də dünyanın iqtisadi inkişaf templəri yalnız Avroatlantik məkaqda, Yaponiya, Cənubi Koreya və Çin üçbücağı arealında deyil, iqtisdi inkişafı, sosial dirçəlişi dövləti amal seçmiş bütün məmləkətlərdə soft təşkilatların, şirkətlərin yaradılması ehtiyacı şərtləndirmişdir. Belə yüksəliş müasir sivilizasion modelli dövlətin

mənafelərinə tamamilə cavab verir. Bu mütərəqqi inkişaf istiqamətini stimullaşdırmaq üçün dövlət öz imkanlarından, xüsusən imtiyazlı kreditlər, əlverişli vergi prosedurаlarından istifadə edir və daha çox diqqətini elmin, təhsilin subsidiyalaşmasına yönəldir. İnkişaf etmiş ölkələrdə qeyri-material resurslarının, xüsusən də intelektual kapitalın yüksəlişi vergi güzəştləri ilə də stimullaşdırılır [105-106].

Softlaşmanın inkişafı Rusiyada da diqqət və qayğı ilə müşaiyət olunmaqdadır. Ölkədə elmin kommersiyalaşması, intelektual mülkiyyətin qorunması və tərəqisi sahəsində dövlət normativ-hüquqi bazasını genişləndirir və proteksiyasını artır. Müvafiq tendensiyanın həyatiliyi bütün post sovet məkanında da inqilabi güc toplanışını təcəssüm etdirir. Sosiumun tərqqi vektoru müasir sivil cəmiyytlərin hamısında softizasiya kontekstində akkumlyasiya olunur.

Sosiallaşan iqtisadiyyat və açıq cəmiyyət quruculuğu sosiümun tərəqqisi ilə daha dinamik inkişaf tapacaqdır. Açıq cəmiyyət ideyası mükəmməl gerçək həllinə qovuşduqca sofitizasiyaya keçid zərurətləri də qlobal dünyanın hər bir guşəsində inqilabiləşcək, sosium softlaşma orbitində iqtisadiyyatın sosiallaşmasına təkan verəcəkdir.

## *8.2. Konstitusiya iqtisadiyyatı*

Sosiallaşan iqtisadi sistem və modellər içərsində konstitusiya iqtisadiyyatı paradiqmasının da məxsusi yeri vardır.

***Konstitusiya iqtisadiyyatı*** bir elmi istiqamət kimi iqtisadi məqsədəuüğunluqlara nail olunmuş konstitutsiyalı inkişafın optimal uzlaşmasını öyrənir. Burada iqtisadi hüquq və normalar konstitusiya çərçivələri içərsində təyinat tapır.

Konstitusiyalı iqtisadiyyatın elmi yaranışı amerikan iqtisadçısı Ceyms Byukenin /1919/ adı ilə bağlıdır. 1986-cı ildə C.Byukenin «Ekoloji və siyasi qərarların qəbul edilməsi nəzəriyyəsi əsaslarının müqavilə və konstitusiyalı tədqiqinə» görə konstitusiya iqtisadiyyatı təməlçiliyində Nobel laureatı titulunu qazanmışdır [49].

Konstitusiya iqtisadiyyatının mahiyyətinə varmazdan öncə «*konstitusiya*» məfhumunun özünə elmi şərhinə aydınlıq gətirlməsi kərəklidir.

Latın mənşəli istilah konstitusiya *constituto* quruluş, təsisat mənalarını ifadə edir [47, 103].

Konstitusiya ölkənin hüquqi və iqtisadi sisteminin əsaslarını müəyyənləşdirən dövlətin ali hüquqi qüvvəyə malik başlıca qanunudur. Formasına görə yazılmış və yazılmamış konstitusiyalar fərqləndirilir. Yazılmış konstitusiya vahid normativ-hüquqi aktdır və bir neçə üzvi konstitusiya və qanundan ibarətdir. Yazılmamış konstitusiya isə bir çox qanunlardan, konstitusiyalı adətlər və presedentlərdən ibarətdir.

Bir qayda olaraq konstitusiyada cəmiyyətin sonrakı inkişafı haqqında proqram müddəalar verilir.

Zəmanəmizə qədər konstitusiya iqtisadiyyatı Qərb iqtisadçılarının səyləri sayəsində tərəqqi etmişdir. Hüqüqşünanslar bu mövzuya çox nadir hallarda müraciət etmişlər. Buna baxmayaraq vurğulanmalıdır ki, konstitusiya iqtisadiyyatının tədqiqinin iqtisadi sferada olduğu qədər də huquqi sferada əhəmiyyəti yeterlidir. Bu baxımdan qətiyyətlə demək olar ki, konstitusiya iqtisadiyyatının tədqiqi böyük praktiki əhəmiyyət kəsb edir. Belə ki, o hüquqşünaslar üçün ənənəvi iqtisadi sistemlərin hüquqi anlaşılmasına və iqtisadçıların konstitusiya hüquqları məsələsində bilgilərinin artırılmasına yeni müfəssəl materiallar verir. Konstitusiya iqtisadiyyatı hüquqşünaslar və iqtisadçıların tədqiqat obyektlərin sistemləşdirir.

Konstitusiya iqtisadiyyatının elmi quruluşunda C.Byukenin tədqiqi nəticələrinə əsaslandıqda görərik ki, konstitusiyalı iqtisadi analiz iqtisadi subyektlərin və siyasətçilərin seçim və fəaliyyətlərini məhdudlaşdıran qanunverici, institusional və konstituasion qaydaların məcmusunun alternativ xassələrinin izahına cəhd edir. Onun əsas istiqamətlərdən bir kimi iqtisadiyyatın, sosial sferanın dövlətə təsirinin təhlili fərqlənir.

Elmi çevrədə konstitusiya iqtisadiyyatının predmetini iqtisadi böhranların dövlətə və

konstitusiya böhranlarının iqtisadiyyata təsiri sferası da əhatə edir. Konstituasiya iqtisadiyyatı həmçinin qloballaşmanın konkret ölkələrdə konstituasiya qurluşa təsir aspektini də tədqiqat predmeti seçir.

Tarixi təcrübə göstərir ki, bazar iqtisadiyyatı demokratik recimlərin əsas həyat mənbəyi olsa da onun labüdlüyünü bu sistem heç də tamılıqla bərqərar etmir. Demokratiya üçün bərabər ölçüdə azad sahibkarlıq fəaliyyətinin qeyri-məhdud inkişafı və eyni zamanda təcridi paralel təhlükə yaradır. Bu təhlükənin real mövcudluğuna rəğmən ABŞ-da antitrest qanunvericiliyinə keçid edilmişdir. Göründüyü kimi demokratik azadlıqlar və sərbəst bazar iqtisadiyyatı heç də dayanaqlı, dövləti milli və iqtisadi təhlükəsizliyin qarantı hesab olunmur.

Bütün dövlətlərin konstitusiyası məhdudiyyətsiz olaraq iqtisadi məsələlərə, onların əhəmiyyət və prioritetliyinə yer ayırır. Bu xarakterik əlamət yalnız yeni konstitusiyalara deyil, ən əski dövlət konstitusiyalarına da şamil olunur. Lakin müasir dövlət modelinin konstitusiyalarında sosial və iqtisadi aspektə daha çox önəm verilir. Xüsusən II Cahan savaşından sonra yaranmış dövlət konstitusiyalarında sosial və iqtisadi məsələlər sərt reqlamentasiya predmetinə çevrilmişdir. Bu konstitusiyalarda iqtisadi fəaliyyəti ehtiva edən ayrıca fəsillər təsbit olunmuş, iqtisadi sistemin mahiyyət və prinsipləri konkrent interpretasiyada əksini tapmışdır.

Müasir inkişaf etmiş konstituasiya iqtisadiyyatı amilinin növbəti təyinatverici vektorunu dövlətlərarası birliklər formasının yaranışı təşkil edir. Belə konstitusiyalar əsasən daha geniş inteqrasiyanı təmin etmiş AB ölkələrinə xasdır. Onlar iqtisadi, siyasi və eyniliklə də sosial sistemin mühafizəsini təmin etsələr də, bir sıra iqtisadi istiqamətləri ümumi assosiativ fonda yönəldir. Əslində bütün konstitusiyalar siyasi recimin və onun sosial-iqtisadi bazisinin üzərində pərvəriş tapır. Totolitar konstitusiya totolitarizmi, demokratik konstitusiya demokratiyanı, avtarkiya konstitusiyası isə özünə qapılmanı ehtiva edir.

Konstitusiya iqtisadiyyatının başlıca məsələsi mülkiyyət və ondan irəli gələn münasibətlərdə bərqərar olur. Mülkiyyət münasibətlərinin həll aspektinin düzülüşü yalnız hüquqi konfiqurasiyanı deyil, bütövlükdə iqtisadi sistemin təbiətindən irəli gəlir. Burada milli mental dəyərlər əsas təməl sütunlarını təşkil edir. Dövləti konstitusiya düzümü fonunda ideolci faktorların yetərliyi və mövcudlüğü da istisna olunmur.

Konstitusiya iqtisadiyyatı də başlıca olaraq sosial ədalət prinsiplərini rəhbər tutur. Sosial ədalət prinsipləri əksər ölkələrin konsitusiyalarında təsbit edilsə də, o hər bir ölkədə ümumi və əlahiddə fenomenallıqla müşaiyət olunur. Lakin onun həqiqi və həyati yaşayışlı reallığı və tamlığı demokratik qurluşlu inkişaf etmiş dövlətlərin əsas yaşayış prinsipinə sırasındadır.

Konstituasiya iqtisadiyyatının bərqərar olunması deklorativ səciyyə daşımır. Onun işlək mexanizminin formalaşması və dövriyyəsi dövləti idarəetmənin bir sıra qolları və alətləri ilə ərsəyə yetir, tənzimlənir və təkmilləşdirilir.

Konstituasiya iqtisadiyyatının stimulizasiyasında, onun möhkələndirilməsində aparıcı funksiyanın realaşması parlementlərin üzərinə düşür. Məhz parlament ölkənin mövcud iqtisadi sisteminin qanuni bazasını, büdcə sistemini, ali auditini yaradır və tənzim edir.

Konstituosiya iqtisadiyyatının inkişafını güclü, səlahiyyətli, geniş resrur bazalı məhkəmə sistemi olmadan təsəvvür etmək çətindir. Məhz demokratik konstituasiya dirçəlişə nail olmuş ölkələrdə məhkəmə hakimiyyəti konstitusiya iqtisadiyyatının mühafizəçisi və təminatçısı rolunu ifa edir. O, iqtisadi münasibətlərə, mülkiyyət evalyusiyasına stabillik və möhkəmlik aşlayır, iqtisadi və dövləti təhlükəsizliyi möhkəmləndirir [54, 113].

Konstitusiya iqtisadiyyatında digər dövləti təsisatların da rolu əhəmiyyətlidir. Bu sırada milli bankların rolu və fəaliyyət yetkinliyi daha mühüm iqtisadi əhəmiyyət kəsb edir.

Konstitusiya iqtisadiyyatı haqqında bilgilərmizə yekun vuraraq qeyd olunmalıdır ki, o heç də iqtisadi sistem modellərini təkrarlamır. Sadəcə və əzəli olaraq konstitusiya iqtisadiyyatı seçilən iqtisadi modelin, aparılan sosial-iqtisadi siyasətin konstitusiyada təsbit olunmuş iqtisadi konturları üzərində, daha çox dövləti və milli mənafelər bağlı ladlar üzərində qurulmasını təmin edir. O, həm də geniş mənada iqtisadiyyatın sosial vektorunun irəliləyişlərini təmin edir.

### 8.3. Sosial ekologiya və ekologiyalaşan iqtisadiyyat

Sivilizasiyanın yeni inkişaf mərhələsində sosiumun tərəqqi arsenalında sosial məsuliyyətlə yanaşı ekoloji məsuliyyət aspekti də əsaslı təşəkkül taparaq sosial sistemin insan tələblərinin dolğun təminatına, onun həyati yaşayışının yüngülləşməsinə, yüksək erqonomik və təbii gigiyenik şəraitdə fəaliyyət göstərməsinə istiqamətlənən strategiyası formalaşmışdır. Konkret olaraq çağdaş siyasi-iqtisadi situasiyada dünya təsərrüfatının inkişafına ekstensiv amillərin təsiri əsaslı dərəcədə mülayimləşmiş, o öz əvvəlki gücünü itirmişdir. Ekoloji tarazlıq problemləri bu konfiqurasiyada daha ciddi və kəskin mövqe tutmuşdur. Yaşamaq uğrunda mübarizədə ətraf mühitə rəğbətlə yanaşma, maksimal qənaətçillik meyarları üstün gəlmiş, innovasiya amilləri beynəlxalq əmək bölgüsündə təbii ehtiyatların və məhsuldar qüvvələrin yerləşməsində yeni gerçəkliklər gətirərək dünya iqtisadiyyatının və sosial sitemin struktur dəyişkənliyində əks olunmuşdur [18, 26].

Cəmiyyətin uzun tarixi inkişaf mərhələsində insanın təsərrüfat fəaliyyətindən törənən zərər yüksək olmamamışdır. Ümumilikdə təbiət özü pozulmuş tarazlığı düzəltmişdir. Lakin entropiya qanunlarının hakim kəsildiyi, sərvətlərin mütəmadi tükənişi şəraitinin kəskinliyi təbiət və cəmiyyət münasibətlərinin yeni obrazını ərsəyə yetirmişdir. İnsanlar təbiətlə daha rasional ünsiyyət qurmağa, nemət və sərvətlərdən maksimal effektivliklə istifadəyə səfərbər olunmuşlar Ətraf mühitə məsuliyyətsiz yanaşmasını elmi əsaslandırılmış tənzimləmə mexanizmləri əvəz etmişdir. Bununla belə, bəşər övladı hələ də fəaliyyətinə rəğmən ümüdlü, mütəşəkkil özünüqoruma «çətiri» icad edə bilməmişdir.

Yaşadığımız məkanda ekologiyanın son bir neçə onillikdə meydanı genişlənsə də, elmi sferada onun ilk görüntüləri XIX yüzillikdə təzahür etmişdir.



Yunan mənşəli ev, yaşayış yeri və bu kimi analoci anlamları ifadələndirən «ekos» məfhumunu ilk dəfə - 1866-cı ildə klassik darvinizm nümayəndəsi alman təbiətşünansı və filosofu Ernest Henrik Hekkel /1834-1919/ elmi dövriyyəyə gətirmişdir. Öncə bitkilərin, canlı orqanizmlərin həyat birliklərinin, ətraf mühit problemlərini tədqiqat predmeti seçən ekologiya, karbohidrogen erasının XX əsrdə yüksəliş tapan templəri və bu əsnada insanın təbiətə təsirinin artması fonunda ekosistemin və biosferin bütün qatlarını inhisara alan çağdaş bir elmə çevrilmişdir. Ötən əsrin 70-ci illərində Avroatlantik məkanda sənaye yenidənqurması epoxası ərəfəsində ekologiya predmet spektrini genişləndirərək daha dolğun bəşəri və sosial mahiyyət kəsb etmişdir [105, 134].

Ekoloji problemlərin artan təsir gücü əksər elmlərin ekologizasiyasına gətirmişdir. Bu sırada sosiologiyanın da ekologiya ilə çarpazlaşması prosesi baş vermiş və sosial ekologiya adlanan yeni məzmunlu növbəti bir təbiyyəat elmi formalaşmışdır.

***Sosial ekologiya*** elmi təlim olaraq cəmiyyətin cöğrafi, sosial və mədəni mühitlə münasibətlərini təbqiq edir. Sosial ekologiya daha çox antropoloji məqamları hədəf götürür. Belə ki, insan cəmiyyətləri sosial orqanizm kimi yaranışı antropoloqlarla yanaşı sosioloq-ictimaiyyatçılər tərəfindən də öyrənilir.

Antropoloqiya *qominidlər* fəsliləsindəki cinslərin növ və növlük xüsüsiyyətlərinin daxili dəyişkənliyini tədqiq edir. Araşdırma obyekti olaraq biologiya və molekulyar biologiyanın, genetika, kimyəvi palegenetika, palecöğrafiya arxelogiya, geologiya və digər bu kimi həmcins elmlərin məhsulu antopoloci tədqiqatların materialına çevrilir. O, daha konkrent olaraq *Homo sapiens* - ağıllı insanın bioloji, morfoloci və fizioloci xüsusiyyətlərinin öyrənilməsini özündə cəm edərək insan haqqında təbii və sosial elmlər sistemində xüsüsi mövqe tutur.

İnsan mənşəyinin tarixi, sosial yaranışı və Homo cinsinin sistematikası probleminin aranması yeni anlaşılma mərhələsinə qədəm qoymuşdur. Alimlər, antorpoloqlar və paleqeoqraflar arasında insanın yaranış zamanı və tarixini qəti müəyyən edən konsepsiya formalaşmamışdır. Biloqlar isə insana məməlilər sinfinin primatlar fəsiləsinin bir tipik növü kimi

yanaşırlar. Erəkən miosendə XI-XII milliyon il bundan öncə *Australiopithecusi* homo cinslərindən ibarət olan antopoid xətt ayrılmışdır.

Homo qominidlər ailəsinə mənsub ali primatların təkəmülünün son həlqəsini təkil edir, hansı ki, müvafiq proses nəticəsində müasir insanın formalaşması təşəkkül tapmışdır.

İnstiktləri zəif inkişaf edən, təbiətlə tam ram olunmayan insan şərtlənmiş idraka və öyrənmə xüsüsiyyətinə malik olmasaydı bioloji varlıq kimi məhvə məruz qala bilərdi. Məhz öz zəkası sahəsində o, digər canlılardan üstün olaraq sosial sistem yaradaraq yer üzünün əşrəfinə çevrilmişdir. Təkamül nəticəsində insanla real varlıq arasında mədəniyyət adlandırdığımız nəhəng bir məkan ərsəyə yetmişdir.

Genetik tətqiqatlar göstərmişdir ki, neqroid, monqoloid, avropid, avstraloid və amerikan irqlərinin 97% genləri identikdir. Bu fakt isə onlaraın vahid və eyni cinsli olduğunu bir daha təstiqləyir. İrqlərə bölünmə isə daha çox ideoloji məkfurədən çıxış edir.

*İnsan həyatının mərhələliyi bir gerçəklikdir. Formalaşmış nəzəriyyəyə görə /Fibonaççi rəqəmlər şkalası/ insanın yaş mərhələləri bir yaşa qədər körpəlik, 1-dən 8-ə qədər uşaqlıq, 8-dən 13-ə qədər yeniyetməlik, 13-dən 21-ə qədər erkəni cavanlıq, 21-dən 34-ə qədər gənclik, 34-dən 55-ə qədər ahıllıq, 55-dən 89-a qədər isə qocalıq dövrünü əhatə edir. Bu zaman kəsiklərində isə müəyyən kritiklik məqamları yaşanır. İnsan həyatının kritik yaş məqamları 1, 3, 5, 8, 13, 21, 34, 55, 89 yaş hədlərinə müqabildir. Qadınların yaş mərhələsi isə /Lyük silsiləsi/ bir yaşa qədər körpəlik, 1-dən 7-ə qədər uşaqlıq, 7-dən 11-ə qədər yeniyetməlik, 11-dən 18-ə qədər erkən cavanlıq, 18-dən 29-a qədər gənclik, 29-dən 47-ə qədər ahıllıq, 47-dən 123-ə qədər isə qocalıq dövrlərini əhatə edir və 1, 3, 4, 7, 11, 18, 29, 47, 76, 123, yaş hədləri böhranlı sayılır. Qadınlar kişilərə nisbətdə 6-8 il tez qocalmaya məruz qalırlar.*

Əmək həmişə olduğu kimi insanın şüurlu fəaliyyətini əks etdirir. Onun subyekti də məhz insanın özüdür. İnsanın bioloji tərəfi isə şəxsiyyətdir. Sosial varlıq olaraq insan material-mənəvi və fizioloci tələblidir. Birincilər qida məhsulunun, material və mənəvi dəyərlərin istehsalıda əmək məsrəfləri nəticəsində yaranır, digərlərini isə insan hava, günəş enerjisi kimi mövcudatda məsrəfini çəkmdən mənimsəyir. Daha yumuşaq anlaşılan mənada birincilər sosia-iqtisadi, ikincilər isə ekoloji nəticəli hesab olunurlar [134, 135].

Müasir dünyada sivilizasiyanın hər bir guşəsinə ekoloji prioritetlər hakim kəsilmişdir. Son bir neçə onillik ərzində ekoloji aspektin önəmliliyi planetar xarakter alaraq ölkələrin dövlət siyasətində əksini tapmış, müxtəlif lokal, regional və qlobal ekoloji təsisatların formalaşmasına zəmin olmuşdur.

Qlobal ekoloji problemlərin tədqiqini aparan çoxsaylı beynəlxalq miqyaslı təşkilatlar içərsində Roma klubu beynəlxalq ictimaiyyatdə böyük nüfuz sahibinə çevrilmişdir. «Qlobal düşün lokol hərəkət et» prinsipini 30 ildən çox rəhbər tutan klubun məqsəd və məramı resurslarının fiziki məhdudluğu ilə bağlı bəşəri çətinliklərin elmi təhlilini aparmaq, planetar kritik situasiyalarda həyacan təbili səsləndirmək, işlərin idraklı gedişinə nailolmada ictimaiyyatə qlobal tarazlığın əldə edilməsində hansı ölçü və tədbirləri gerçəkləşdirmək yollarını göstərmək və habelə ümumilikdə problemlərin həllində müvafiq metodika vermək dayanır.

Müəlliflər qrupu tərəfindən hazırlanaraq Roma klubunun qəbul etdiyi 1995-ci ildə dövriyyəyə buraxılan «Faktor dörd» adlanan məruzə daha rəğbətli olmuşdur. Yüksək sivlizasion qənaətçilik və səmərəlilik amillərini təsərrüfat həyatının bütün guşələrində rəhbər tutan kitab halına salınmış məruzə həqiqi mənada əsl elmi bestsellərə çevrilmişdir. *«Xərclər yarı - verim ikiqat»* prinsipli «Faktor dörd» anlamı resurslardan rasional istifadədə uğurlu həll metodikasıdır.



Ekoloji səhnədə dominant insan faktorudur və cəmiyyət sferasında bütün olaylar onun davranışı, məsuliyyəti və səylərindən asılıdır. Müasir ətraf mühitin qorunması konsepsiyası dövlətin ekoloji prinsipli siyasəti ilə bağlanılır. Ətraf mühitin çirklənməsi, zərərləşmiş ərazilərin bərpası böyük xərclər tələb edir və bu xərclər əksərən kompensasiya ödənişləri hesabına gerçəkləşdirilir. Belə bərpa prinsipi isə profilaktik və yetərli maliyyə imkanlı olmur. Bunun üçün

də dünyanın yeni maliyyə arxitekturasında ekoloji xərclərin, müvafiq tədiyyə və vergilərin elmi normalizasiyasının işlənməsi və habelə əmək-ekoloji vergi islahatlarının aparılması mühüm strateci fəaliyyət xətti olaraq tətbiqini tapmalıdır [126].

Əmək-ekoloji vergi islahatları qlobal çevrədə ilk dəfə Avropada 1970-ci ildə nəzəri olaraq Danimarkada müzakirə olunmuş və 1990-cıı illərin əvvələrində artıq bu ölkə ilə yanaşı, Niderland, İsveç və Finlandiyada da müvafiq normativləşmələr real tətbiqini tapmışdır. Sonradan şəbəkəyə İspaniya, İtaliya Fransa və Almaniya da qoşulmuşlar. Müasir zamanda sahədəki uğurları ilə isə Almaniya daha çox öyünə bilər. 1999-2002-ci illər ərzində ölkənin «Yaşıllar» və «Sosial-demokratlar» partiyasının koalisiyası milli iqtisadiyyatın tənzimlənməsində müvafiq eko-maliyyə mexanizmləri tətbiq etməklə ekoloji vergi islahatlarının ilk mərhələsini başa çatdırmışlar. Burada qismən əmək vergiqoymasından təbii resurslar və zərərli maddələr tullantısı axınında vergi ödəmələrinə keçidə aksent edilmişdir. Nəticədə pensiya sığortasının yükü 22%-dən 19,5%-ə enmiş və ölkə 20$ millyard məbləğində müvafiq toplum əldə etmişdir.

Ətraf mühitin çirkələnməsi probleminin iqtisadi həll yolları müasir sivilizasiya mərhələsində daha çox təhlil və reallaşma predmetinə çevrilmişdir. İingilis iqtisadçısı professor A.Piqu cəmiyyətin ətraf mühitin çirkələnməsindən əziyyət çəkdiyini müşahidə etmişdi. O, apardığı təhlillər əsasında müəyyən etmişdir ki, cəmiyyət təbiətin tarazlığının pozulmasının bərpası ilə bağlı yaranan xərcələri öz üzərinə götürür. Vəziyyətdən çıxış yolu kimi alim təklif etmişdir ki, ətraf mühiti çirkləndirən firma xarici xərcləri beynəlmiləşdirsin, yəni müvafiq məsrəflər istehsal olunan məhsulun maya dəyərində nəzərə alınsın. Tədavül edilən vəsait isə pozulan tarazlığın bərpasına yönəldilsin. Əlbəttə belə prossedur məhsulun maya dəyərinin yüklənməsi ilə müşaiyət olunacaqdır. Lakin müqabildə cəmiyyətin sağlamlığı və əmək məhsuldarlığı səviyyəsi ilə təbiətin pozulmuş tarazlığından aldığı zərərlərin kompensasiyası təmin ediləcəkdir. Belə olan təqdirdə həm də, firma daim ictimai xərclər üzrə informasiyalara malik olacaq, istehsal ekoloji təminatlı texnologiyaların tətbiqi ilə müntəzəm yeniləşdirəcəkdir.

Müasir dünyada dayanaqlı inkişafının meyar və indikatorlarının aktiv işlənməsi prosesi gedir. Bununla bir sıra beynəlxalq təşkilatlar məşğul olurlar.

I. BMT /*ekoloji və iqtisadi hesabların inteqrir sistemi*/;

II. Dünya bankı /*həqiqi əmanətlər göstəricisi*/;

III. İƏİT və Avropa Birliyi /*GARP 1, GARP 2, TEP 1 layihələri*/.

Belə yanaşmanın prinsipial anların makroiqtisadi səviyyədə ətraf mühitin çirklənməsi və təbii resursların tükənməsindən vurulan zərər təşkil edir [17, 106].

Cəmiyyət təbiətə sosio-texnosfera vasitəsi ilə təsir edir. Lakonik interpretasiyada *sosio-texnosferanı* «ikinci təbiət» də adlandırmaq olar. Sosio-texnosferin miqyası haqqında təəsürratlara vararkən qeyd olunmalıdır ki, müasir mərhələdə bir il ərzində insan tərəfindən istehsal edilən texniki kütlə təbii istehsal olunan biokytlədən on və bəzən də yüz dəfələrlə yüksəkdir. Bunlar azmış kimi insanın texnogen fəaliyyətinin təbətə təsiri onun tarazlığının bərbasını müddətsiz və çox zaman isə mümkünsüz edir. Təzahür edən neqativlər bəşəriyyətin davamlı sivil yaşayışının təmin edilməsində dünyanın iqtisadi inkişaf strategiyasının dəyişkənliyini şərtləndirir. Bu baxımdan təbii və sosial-humanitar vəhdəti ifadə edən antrokosmik biosferin yeni keyfiyyətli, canlı və ağıllı mərhələyə *neosferaya* keçidi cəmiyyətin təbiətə daha dərin təsirində xüsusi reallıq kimi çıxış edir. Təbii sərvətlərdən istifadədə sürətli inkişaf templəri ekoloji tarazlığın pozuntulu təzahürlərini artıraraq təbiətin özünü tənzimləmə və təmizləmə xassəsinin məhdudlaşmasında əks olunur. Texnoloji inqilablar cəmiyyətin rifahının yüksəlişinə əsaslı təsir etdiyi qədər də, müəyyən nisbətdə ətraf mühitin çirklənməsində mənfi meylli amilə çevrilmişdir.

İnsanın fəaliyyəti nəticəsində təbii maddələr və enerji yaranışılarının idarəolunması məhz, təbii proseslər və mexanizmlərlə vasitəsi ilə reallaşmalı, yeni elmi və mühəndis konstuksiyalı, resursqoruyucu texnika və texnologiya əsaslı təkrar istehsala üstünlük verilməlidir. Bu strategiyada əsas məsələlərdən biri də istehsalda təbiət proseslərindən istifadəni təmin edən prinsipcə yeni texnlogiyalar yaradılmalı, mənimsənilməlidir ki, cəmiyyətlə təbiətin harmonikliyi

daha kamil formatda təmin edilsin. Bütün bu gerçəkliklər isə kosmik və geoloji güc ahəngdə biosferin şüur sferası olan noosfera keçidin bərqərar olunmasını və bu konteksdə sosial ekologiyanın təkmilləşməsi və iqtisadiyyatın ekologiyizasiyasının dərinləşməsi labüdlüyünü şərtləndirir [18, 51, 134].

## *8.4. Seçim rasionalliği və onun sosial-iqtisadi səmərəsi*

Ötən əsrin sonlarında sosial elmlər çevrəsində rasional seçim nəzəriyyəsi intişar tapdı. Daha əhatəli dairədə onun tətbiq meydanına ABŞ, Yaponiya və skadinaviya ölkələri, xüsusən də Norveç giriş etdilər.

***Rasional seçim nəzəriyyəsi*** üzrə yanaşma fərd və qrupların davranışının gerçək proqnozuna əsaslanır. Mövcud paradiqmaya görə sosial mühit, sosial situasiya aktorlar /*induvid və ya qruplar*/ qarşısında alternativlər strukturlar yaradararaq qərar qəbuletməyə öz kəmiyyətli təsirini göstərir. Bu zaman seçilmiş davranış strategiyası həmən konkrent strategiyanın əsaslı olaraq məhdud və imkanlı seçiminin reallaşması çərçivəsində izah edilir.

Rasional seçim nəzəriyyəsinin kökləri XVIII əsrin ortalarında, XIX əsrin əvvələrində formalaşmağa başlamışdır. İlk dəfə olaraq insanların rasional davranışının fərdiyyətçi konsepsiyasını irəli sürən şotlad əxlaq məktəbinin nümayəndələri olmuşlar. A.Smit bu konsepsiyadan istifadə edərək onu bazar münasibətlərinin izahında tətbiq etmişdir. Yeni nəzəriyyənin yaranış mənbəyinin digər qütübünü utilitarizm məktəbinin nümayəndələri təmsil etmişlər. Onlar insanların davranışlarına müxtəlif mənbəli aprior ideyalar və götürülmüş mənbələr kontekstində baxmışlar. Daha konkret interpretasiyada hərəkət və davranışlara nəticəlik baxımından yanaşılmış, yaxşı və pislik mövqeyliyinə üstünlük verilmişdir. Utilitarizm məktəbinin banisi İ.Bentam isə daha çox insan qisminin xoşbəxtliyə nail ounan etik prinsipi ilə çıxış etmişdir. Onun fikrincə təyin edilmiş davranış çərçivəsində rahatlıq və iztirab balansında xoşbəxtiliyi riyazi olaraq hesablamaq belə mümkündür.

Rasional seçim nəzəriyyəsinin çağdaş yaranış məkanı ABŞ-dır. Onun təməlçiləri isə Ceyms Koulmen /1926-1995/ və Yon Elster /1940/ hesab olunurlar. Rasional seçim





nəzəriyyəçiləri iqtisadi və sosial nəzəriyyələri inkişaf etdirərək fərd və qrupların hərəkətlərinin nümunələrinin davranışı və inkişaf senarisinin tədqiqini qarışılarında məqsəd qoymuşlar. Bir sıra digər rasional seçim nəzəriyyəçiləri ayrıca səs verənin deyil, bütöv elektratın davranış nümunəsinin izahına meyl edirlər. E.Dyurkqeym isə rasional hesablaşan yanaşmalara sosial həyatın spesefik sferalarının məhdudluğu kontekstində baxırdı. Uzun illər bu yanaşma metodu sosioloqlar arasında dominantlıq təşkil etmişdir. Hətta veber nəzəriyyəçiləri də iqtisadi reduksionizmin istənilən forması ilə məsəfə uzaqlığı tutmağı üstun bilmişlər [129, 134].

Son onilliklər rasional seçim nəzəriyyəsi təbəllüdatlara uğrayaraq «İctimai seçim nəzəriyyəsi» kimi inkişaf etmiş, politologiyada, sosiologiyada, tarixdə və digər ictimai elmlərdə tətbiqini tapmışdır. Çağdaş zamanda rasional seçim nəzəriyyəsinə bütün sosial-humanitar elm sahələrində universal tədqiqat paradiqması kimi baxılmışdır.

Rasional seçim nəzəriyyəsinin əsas məziyyətini intensional və rasionallıq arasında buraxılış, tam və natamam informasiya, risk və qeyri-müəyyənlik, strateci və parametrial hərəkətlər arasında fərqlər təşkil edir.

*İntensional* izah fərdin məqsədyönlü hərəkəti ilə yanaşı onun sosial praktikaya əsaslanan istəkləri üzərində qurulur. Burada iki neqativ sosial təzad - əkstamamlama və suboptimallıq təzahürü də mövcuddur. Əkstamamlama hər zaman baş verən kompazisiyanın süqütü ilə xarakterikdir. Burada insanlar optimal seçim fərqində səhvli oriyentirlərdən çıxışedirlər. Suboptimallıq isə fərdin qarşılıqlı seçimlilik şəraitində konkret strategiyaya istinad edir. Rasional

seçim nəzəriyyəsi *rasionallığı* intensional izahların ümumiləşdirilməsi kimi izah edir. Rasionallıq fərdin mümkün məsrəflərini minumumlaşdırimaqla öz istəklərinin maksimallaşdırmaq cəhtində təmin olunmanın planını ehtiva edir. Rasional seçim aspekti informasiyalarsız ötüşməz. Məhz informasiya təminatı hərəkət seçiminin optimallığını zəmanətli edir. Lakin müvafiq çevrədə intəhasız informasiya toplumu da özü-özlüyündə irrosionallığa yol açmış olar. Bu hal xüsusən fövqalədə situasiyalarda daha ciddiliylə nəzərə alınandır.

*Risklə* üzləşənlər ehtimal edilən nəticənin atributlaşdırmağa məhkumdurlar. Lakin *qeyri-müyəyyənlik* şəraitində belə atributasiya aparmaq mümkün olmur. Buna görə də rasional seçim nəzəriyyəsində qeyri-müəyyən situasiya ya mövcud olmur və yaxud da onun neyütrlalaşdırılmasına kömək mexnizmi işlənmir. *Strateci* və *paremetrik* seçimlər də fərqli səciyyə daşıyırlar. Lakin bu fəqlilik alternativlik doğurur.

Rasional seçim nəzəriyyəsinə rəğmən sosial davranışların iqtisadi yanaşmada tətbiqi sahəsində bir sıra yeni nailiyyətlər əldə olunmuşdur. ABŞ iqtisadçısı «İctimai seçim nəzəriyyəsinin» banisi Heri Stenli Bekker /1930/ 1992-ci ildə layiq görüldüyü Nobel mükafatını da müvafiq sahədə əldə edilən tədqiqatlara görə almışdır H.Bekker «iqtisadi imperializminin» qatı tərəfdarı olaraq iqtisadi yanaşmaya insan davranışının anlaşılmasının unifikasiyası kimi baxır.

İqtisadi yanaşmanın mərkəzi qütbü keyfiyyətində H.Bekker aşağıdakı buraxılış və mümkünatları ayırır:

- ✦ insanların üstüntutma meyli stabildir və bu meyl digər əhali kateqoriyalarından kəskin fərqlənmir;
- ✦ insanlar optimal informasiya mübadiləsi əsasında maksimal davranış nümayiş etdirirlər;

Əksər sosioloqlar cəmiyyətin fərdi insan hərəkətlərindən ibarət olduğu qənaətini bölüşürlər. Lakin rasional hərəkət nəzəriyyəsini digər sosial nəzəriyyə və ehtimallardan onu məsrəflər və mənfəət arasında rasional aktorun maksimallığı görüntüsü ilə fərqləndirirlər.

Rasional seçim situasilarala əlaqədardır. Burada aktorlar biri-birlərindən asılıdır və hər bir fərdin hərəkəti digərinin hərəkəti ilə uzlaşır.

Rasional seçimin həm də məhşur «*Oyun nəzəriyyəsi*» ilə bağılığı vardır. Ümumilikdə «Oyun nəzəriyyəsi» tətbiqi riyaziyyatın bir sahəsi olaraq iqtisadi tədqiqatlarda metodik keyfiyyətdə çıxış edir. O, macar əsilli amerikan riyaziyyatçısı və iqtisadçısı Con Neymanla /1903-1957/, amerikan iqtisadçısı Oskar Morqenştrennın /1902-1977/ 1944-cü ildə «Oyun nəzəriyyəsi və iqtisadi davranış» əsərində geniş görünüş meydanı əldə etmişdir [127].

Oyun minimal olaraq nəticə və uduşa əsaslanan ən azı iki oyunçu tələbində bulunur. Burada uduş yalnız ayrıca bir oyunçunun seçim strategiyasından deyil həmçinin bütövlükdə digər oyunçuların seçim strategiyasından asılı olur. Çox zaman əməkdaşlıq /*kooperativ*/ və qeyri-əməkdaşlıq aspekti oyün nəzəriyyəsində fərqləndirilir. Qeyri-əməkdaşlıq versiyası insanların şəxsi maraqları çevrəsindən çıxışı nəzərdə tutaraq oyun nəzəriyyəsinin təməlinin fövqündə dayanır. Oyunçular yalnız maraqların toqquşduğu məqamlarda partnyorluqa meyl edirlər. Bu an hər bir fərd qrupun müvəfəq nəticəsini bəsləyir.




İki tip - strateci və ekstensiv oyun taktikası mövcuddur. Normal oyun hesab edilən *strateci oyunda* oyunçular eyni strategiyanı seçim edirlər. *Ekstensiv oyunda* isə seçim və informasiya ardıcıllığı hər dəfə oyunçular tərəfindən təyin olunur. Geniş sosial hadisələr kəhkəşanında oyun nəzəriyyəsi /*informasiyalı tələblə alınan məlumatın düşüncəvi uzlaşması*/ relevantdır. Belə ki, burada oyunçular fərdlər deyil ayrı-ayrı qrum və orqanlar da ola bilər. Orqanlar qismində isə ayrı-ayrı dövlərin iştiraki nəzərdə tutulur.

Çağdaş zamanda oyun nəzəriyyəsi inkişaf edərək daha yetkin səviyyə əldə etmişdir. 1994-cü ildə ABŞ iqtisadçısıları Con Xarsani /1920-2000/, Con Neş /1928/ və alman iqtisadçısı Reynxard Selten /1930/ «Oyunlar nəzəriyyəsi»nin əks maraqlarında tarazlığın yenilikçi təhlilinə

görə Nobel laureatı oldular. Müvafiq inkişaf amilləri isə öz növbəsində rasional seçim nəzəriyyəsinin təkmilləşməsinə də təsir etdi. Bununla belə rasional seçim ideyasının iqtisadi nəzəriyyədə və digər ictimai elmlər sferasında ön plana çəkilməsi həqiqətdə fərdlərin mikrosəviyyədə tam və dəqiq diapozonda öyrənilməsinin real mexanizminə çevrilmişdir. Belə ki, istənilən seçim o zaman rasional xarakter alır ki, o dərin və keyfiyyətli, hadisə və prosesin bütün səciyyəvi cəhətlərinin nəzərə alsın.

## *8.5. Futuroloji məntiq və sosial proqnozlar*

Müasir elmi proqnostikanın araxasında çoxminilli tarix və onun materiallar toplumu dayanmaqdadır. Buraya konfessional, utopik, dünyanın sonu haqqında esxatoloci konsepsiya, müxtəlif fəlsəfi təlimlərlə yanaşı və digər öncənin müəyyən olunmasına cəhd edilən ehkamçı baxışlar sistemi də daxildir. Sosial poqnostika varlığın mahiyyəti təlimi - *ontologiya*, idrak nəzəriyyəsi - *qnoseologiya* və rabitəli, ardıcıl təfəkkür formaları haqqında - *məntiq* elminin energetik gücü əsasında şütüyür. Bəşəri psixoloci struktur genetik olaraq gələcəyin necəliyi: rəvan-firavan və ya çətin-acı olacağı sintementallığına köklənmişdir. Bu görüntüdən irəli gələrək sosial proqnotika texniki-texnoloji proqnozlaşmanı daim izləməkdə və üstələməkdədir.

Müasir sosial proqnostika *konvergensiya, texnisizm, ekologizm* və *sosmədəni* nəzəriyyələri ehtiva edən futuroloji konsepsiyaya əsaslanır. Latın mənşəli isim *futurum* gələcək mənasını iafdələndirən Yer kürəsinin və bəşəriyyətin sonrakı aqibəti haqqında elm olan *futurologiyanın* əsas mahiyyət komponentini təşkil edir. Sosial proqnostika dar kontekstdə iqtisadi və siyasi çərçivədə sosial münasibətilərin, geniş dairədə isə humatir və texniki elmlər sferasını da əhatə olunan proqnozlaşma kateqoriyasını ifadə edir [43, 98].

Sosial proqnozlaşdırsanın tədqiqat praktikasında bir sıra statistik-riyazi hesablamalar, modellər və tipik metodoloji qaydalar alət olaraq geniş istifadəsini tapır. Bu sırada zaman xətti təhlil metodikası bir qədər populyarlıq qazanmadadır. *Zaman xətti* zamanın ardıcıl anlarının ölçmə mexanizmidir. O, xronoloci qaydada yerinə yetirilmiş müşahidələr toplumu olmaqla trend dəyişikliklərini tapan, avtoreqresiya modelini müəyyən edən xüsüsiyyətlərə malikdir. Zaman xətti təhlili zaman sırasının təbiətinin təyini və bu xüsusda müvafiq proqnozloşmanı məqsəd seçərək bir sıra tədqiqat metodlarında kommulyasiya olunur. Bu məqsədlər xətti modeli identifikasiya etməyə və onu müəyyən formatda şərhləndirməyə hesablanmışdır. Zaman xətti nəzəriyyənin ədalətlilik və dərinlik diapozonuna varmadan model təyinatı tapıldıqdan sonra onun köməyi ilə, daha dəqiq isə hadisənin bir hissəsindən digər hissəsinə müşahidə mataerallarından alınan nəticənin paylaşması və ya reallığın gələcək zamanına aid edilməsi kimi strukturlaşan elmi-tədqiqat metodu *ekstrapolyasiya* qaydasında dəyişkənliklərin proqnozu müəyyənləşdirilir.

Sosial proqnozlar mənbəyini emprik çevrədən qaynaqlandıraraq məhsulunu elmi müstəvidə təhlil orbitində reallaşdırır. Empiriklik biliyin elə səviyyəsidir ki, o öz məzmununu başlıca olaraq müəyyən dərəcədə rasional işləməyə məruz qalmış təcrübə, müşahidə və eksperimenlərdən qidalandırır. Buna görə də empirik gerçəkliklərdən proqnozlaşdırmada təhlil materialı kimi istifadə əvəzsizdir.

Proqnostikada elə iqtisadiyyatda da olduğu kimi, versiya quraşdırmaqda məntiqi və deduktiv metodan da istifadənin əhəmiyyətli genişdir. Bu metodologiya daha çox təhlil və nəticəlik aspektində fayda gətirir.

*Deduktiv təhlil və məntiqilik prosesi ingilis yazıçısı Artur Konon Doylun romanlarının məhşur qəhrəmanı Şerlok Holms dedektivliyinin əsas prinsiplərini təşkil edir. Ş.Holms məntiqli adam səciyyələndirərək qeyd edir ki, «ona damla su lazımdır kı, Niaqara şəlaləsi və ya Atlantik okean barədə heç nə bilmədən bu mövcudat haqqında nəticə çıxararaq müvafiq mülahizələr yürüdsün».*

*A.K.Doyl «Al qırmızı çaların etyüdləri» əsərini çox zaman «nəticə çıxarmaq haqqında*

*sənət» adlandırırlar. Onun qəhrəmanı Ş.Holms deyir «Mən heç vaxt fərz və gümanlar qurmayıram. Bu pis əlamət intelektin məntiqi bacarığına dağıdıcı təsir edir. Mən heç zaman istisnalar etmirəm. İstisnalar qaydaları təkzib edir. Doğru nəticə sərəncamınızda olan faktların kəmiyyətindən aslıdır. Nə qədər k, onlar səhihdir versiyanı quraşdırmaq mənasızdır. Faktları nəzəriyyə üstündə qurmaq deyil, nəzəriyyəni faktlar altında yaratmaq daha məqsədə müvafiqdir. Sizdə versiya yaranmışdır. Qalır onun möhkəmliyini yoxlamaq. Bunu etmək çətin deyildir. Baxın o, mövcud faktların hamısını əhatə edirmi? Əgər belədirsə, onu sizi haraya aparacağına baxmadan belə versiyanı quraşdırın. Həqiqətdə bəzən nəticənin bir neçə izahı yarana bilər. Zamandan qorxmadan onun hər bir fraqmentini tədqiq edin. Haçan kı siz əldə etdiklərinizin nəticəni doğruluğundan aslı olmayaraq büsbütün qeyri-mümkünləri atacaqsınız yerdə həqiqət qalacaqdır»* [36].

Sosioloji proqnozlara daha çox «Edip effekti» təzahürləri xasdır. Lakin buna baxmayaraq sosial proqnozlaşdırma aparılmalı, insan sosiumunun və cəmiyətin inkişaf qanunlarına uyğun olaraq perspektivlər təyin edilməlidir. Buna görə də, hər bir proqnoz ciddi təhlil və praktiki testlər hesabına ərsəyə yetməlidir [43].

Ötən əsrin ən nəhəng sosial mütəfəkkirlərindən olan K.Popper həm də, Edip faciəsinindən doğan sosial proqnostikada «Edip effekti» adlanan sindromu elmi dövriyyəyə çıxaran müəllif kimi də tanınır. Bu effektin mənası isə ondan ibarətdir ki, qabaqcadan deyilmə hədəf tutulan qabaqcadan deyilən hadisəyə təsir göstərir. Belə ki, alının nəticə ondan ibarətdir ki, ictimai elmlərdə təbiət elmlərindən fərqli olaraq hadisə baş verə də bilər və ya əksinə baş verməyə də bilər. Çünki məntiqi olaraq o əvvəlcədən söylənilmişdi. Bu məntiqilik də şərhi verilən «Edip effekti» ilə bağlanılır. Konkret olaraq «Edip effektinə» görə bir sıra qabaqcadan xəbər vermələrin icrasının reallaşması ona görə baş verir ki, o elə qabaqcadan da söylənilmişdi.

*«Edip effekti» adlanan fenomen öz kökünü qədim yunan əsatirlərindən alır: Yunan mifologiyasında Fiva padşahı Laya qabaqcadan verilən xəbərə görə onu oğlu öldürəcəkmiş. Doğulan övladı - Edipi La dağlara atdırmış və bir çoban onu xilas etmişir. Sonradan boya-başa çatan Edip bilmədən atasını öldürmüş və anası ilə evlənmişdir. Sofokulun «Çar Edip» və Volterin «Edip» əsərlərinin baş qəhrəmanına çevrilmiş Edip macaraları fonunda təzahür edən gerçəklik klassik psixoanalizdə subyektin sosial və mənəvi instansiyası /Super Eqo - yuxarıda mənəm/ - «Edip kompleksi» kimi psixoloci aspektə çevrilmişdir. Bu cəhət isə «Edip kompleksini» «Edip gffektindən» ayırmaq gerçəklikdir.*

Sosial roqnostikada və ümumiyyətlə proqnozlaşmanın ən geniş həlqəsində senari adlanan proqnostik metod unikallığı ilə fərqlənir. Senari metodunüun məntiqi, elmi və bir qədər də intuitiv, virtual olması onu furturoloqların əlində effektli proqnoz alətinə çevirir. Xronoloci düzümdə bu metoda öncə proqnozlaşdırılan obyektin genetik köklülüyü məsələsi aydınlaşdırılır, sonra bütün aspektlər qammasında inkişaf senarisinin hərəkətverici qüvvələrinin müasir durumu və potensial imkanlığı müəyyənləşdirilir. Növbəti mərhələdə oyunçular və məhdudlaşdırıcılar tədqiq edilir və bu əsasda müvafiq senarilər kompleksi işlənilir. Burada senari çoxvariantlığı mühüm məqamlardan sayılır və varyasiya müxtəlifliyi proqnoz modelinin kaskadını təşkil edir. Bu metodologiyaya istinad edərək «Rusiya iyirmi il sonra» əsərinin müəllifləri D.Erqin və T.Qustafson Rusiya və ümümilikdə dünyanın gələcək inkişafı ilə bağlı müvafiq proqnozlar sistemi işləmişlər. Rusiyalı alim Viktor Feller bu metodologiya və senarilər əsasında dünyanın gələcəyi haqqında daha geniş proqnozlar tərtib etmişdir [30, 65].

V.Feller proqnozlarına görə yaxın 30 il ərzində Çin təsir dairəsi ərəb dünyası və qara Afrika istisna olmaqla planetin bütün guşələrində praktiki olaraq inkişaf tapacaq, yaxın prespektivin mübarizə meydanlarında Çin və ABŞ yarısmasınınnın gərgin mübarizəsi seyr olunacaqdır. XXI əsrin ilk onilliyində Çin Şərq və Cənubda, ikinci onillikdə Qərb istiqamətində aktiv olacaq, üçüncü onillik ərəfəsində o, Avrasiya kontinentində tam hegemonluğa da cəhtlər göstərəcəkdir. Avropa XXI əsrin iyirminci illərində tam birləşəcəkdir. Elə bu illərdən başlayaraq

rüsuslarının tükənməsi və neftin ucuzlaşması kontekstində Ərəb dünyasına qeyri-sabitlik hakim kəsiləcək. Böhran məcrası üçüncü onillikdə ərəb dünyasını müharibələrdən keçirəcək. Nəticəvi olaraq Çinin müttəfiqi və Qərbin rəqibi olan güclü və möhtəşəm, konfedirisial strukturlu yeni ərəb dövləti yaranacaqdır. Qara Afrikada da antiqərb oriyentasiyalı bir İslam imperiyasının yaranması da təxmin edilir.

XXI əsrin iyirminci illərində gözlənilən dünyəvi iqtisadi böhran əsasən qlobal liberal iqtisadiyyatın sonunculanmasını müyəssər edəcək, Birləşmiş Avropa 2040-ci ildən başlayaraq super etnik və milli əlamətlərə görə parçalanacaqdır. Liberal iqtisadiyyatın effektiv modelləri xalis formatda Cənubi Amerika, Böyük Britaniya, Avstraliya, Yeni Zellandiya və bir sıra böyük olmayan Amerika və Avroasiya ölkələrində qalacaqdır. Korporasiya güclənərək transmilli oliqopoliya ilə yanaşı, həm də dövlət obrazlı qurumlara çevriləcək, iqtisadi sfera ilə yanaşı sosial münasibətləri də tənzimlənməsinə varid olacaqdır. Bu proqnostikaya görə əsrimizin ikinci yarısında dünya energetik sistemində inqilabi dəyişikliklərin baş verəcəyi ehtimal edilir. Müvafiq inqilabilik bir-birini doğuran və tamamlayan elmi-texniki çevrilişlərlə müşayiət olunacaqdır. Öncə effektli nüvə istilik energetikası təşəkkül tapacaq və onun məhsuldarlağa nəqliyyat sferasında inqilabları şərtləndirəcəkdir. Nəqliyyat sferasında çuğlaşan inqilablar insanlara sutkanın günəşli çağında dünyanın bir qütbündə səhəri açmaq, digər qütbündə işləmək və nahar üçün daha əl çatmaz başqa bir ərazi seçmək imkanı yetişdirəcəkdir.

Müvaiq proqnostikaya əsaslandıqda körərik ki, inkişaf prosesi konfesial və demoqrafik təbəllüdatları da gerçək edəcəkdir. İtaliyanın şimalında katolizim hegemonluğu güclənərək təsirin dairəsini İspan və Latın Amerikan blokunun Avroatlantik məkanda genişlənəcəkdir. Yeniləşən katolik kilsəsi protestantlıqın himayəsində olacaqdır. İslam XXI əsr boyunca əsas Afrikanı və Amerikanın zənci əhalisini təsir sferasına salacaq, Avropada, Çində və Hindistanda ciddi yüksəlişlər əldə edəcəkdir.

Müvafiq proqnozlar silsiləsi planetar böhranın qaçılmaz olduğu qənaətini bölüşür. XXI əsrin ikinci onilliyi öncəsinə təsadüfi təxmin olunun ümumidünya böhranının qara buludları artıq 2005-2007-ci illərdən başlayaraq ABŞ və Avropa üzərində qatılaşacaqdır. Qedonizm /*yunanca hedone-həzz, yüksək rifah və bəşəri davranış haqqında mənəvi-etik doktorina*/ bu ölkələrdə obrazlı deyilimdə təkcə gövdənin piylənməsi deyil, həm də beyin piylənməsinə də vəsilə olacaqdır. Səbəb isə ABŞ-ın siyasi-iqtisadi və hərbi hegemonluğunun təzahürü ilə bağlıdır. Ehtimal edilir ki, əsrin ilk onillik sonluğunda Amerikan cəmiyətinin fond bazarına olan etimadı dağılma mərhələsindən keçəcəkdir. Böhranda tələb istehsal və istehlakçı münasibətləri son dərəcə önəm daşıyacaqdır. Bununla belə böhran nəticələri təcrid olunacaq və insanlara anladılacaqdır ki, prinsip etibarı ilə qorxulu heç nə baş verməmişdir. Özünün mütərəqqi texnologiyaları və professional menecerləri ilə seçilən yüksək Amerikan iqtisadiyyatı yeni mərhələdə xidmətlərin virtualizasiyasını və xidmətlər təsərrüfatının qlobalizasiyasini genişləndirəcək və bu prosesdə bazarın monopol və oliqopollıq dilenması mühüm əhəmiyyət daşıyacaqdır [44, 112].

Yeni təbəllüdatlar beynəlmiləl bürokratiyanın və texnokratiyanın yeni tipinin yüksəlişi ilə müşayiyət olunacaq, ənənəviçilər isə öz növbəsində rəqabətli başlanğıcların qorunmasına qayğı göstərəcəklər. Bu sırada sahəvi parlamentlərlə adi hakimiyyətlərin balanslaşdırılmasına və eyni zamanda mülkiyyətçilərlə həmkarlar təşkilatlarının münasibətlərinin tənzimlənməsinə cəhtlər göstərəcək, liberal alternativlik çevrəsində mərkəzi Avropa olmaqla bir sıra ölkələrdə korporativ partiyalar və müvafiq sahəvi şuralar yaradılacaqdır. Korporasiyalar daimi dostları deyil, yalnız daimi maraqları rəhbər tutan möhtəşəm dövlət bənzərli qurumlara çevriləcəklər [112].

Dünyanın inkişaf senarisi haqqında müxtəlif variantlar işləmək və müvafiq mülahizəlr sürmək imkanları intəhasız ola bilər. Lakin burada daha ümumi olan bir inkişaf modeli yaratmaq olar. Planetik qlobal və lokal güşələrində hakim kəsilən iötimai-siyasi və sosi al-iqtisadi təzahürləri və prosesləri bir araya gətirdikdə yaxın gələcəyin ümumi bir modelini formalaşdırmaq mümkündür. Proqnozlaşma variatlarını cəm olunduqda bu model aşağıdakı konfiqurasiyanı yaradacaqdır:

- ✦ *iqtisadiyyatda* - kapitalizm;
- ✦ *bölgüdə* - sosializm;
- ✦ *idarəetmədə* - demokratiya;
- ✦ *mənəvi və siyasi həyatda* - plyuralizm.

Planetin sosial-iqtisadi tərəqqisi haqqında konseptual proqnozlar verilərkən xüsusi olaraq vurğulanmalıdır ki, bu məqsədlər yaxın müddət üçün götürüldükdə daha uğurludur. Bu reallıq isə çətin məsuliyyətli və daha mükəmməl təhlil və tədqiqatların aparılmasını şərtləndirən proqnoztikanın təbiətindən irəli gəlir. Lakin bizim istəyimizin ölçülərindən asılı olmadan inkişaf prosesi daim dinamik orbitdədir.

## *8.6. Sosial bazar iqtisadiyyatı*

İqtisadiyyatın qlobal modernizasiyası istiqamətində planetin sosial enerjisi yeni akkumlativ toplom əldə bulmuşdur. İctimai-iqtisadi tərəqqi tendensiyası insanın təsərrüfat həyatının və sosial təminatlar sferasının dolğun erqonomik mobilləşməsi prosesi ilə müşaiyət olunaraq daha qlobal-bəşəri xarakter almış, sosiumu yeni ampulalı sivilizasion mərhələyə yuvarlatmışdır. Sivilizasiyanın yeni çağdaş bəndinə keçid isə empirik təməldə adekvat elmi-metodoloji konsepsiyasınının qurulmasını əsaslandıraraq aktuallaşan məzmun və mahiyyət kəsb etmişdir. Yeni iqtisadi quruculuq prosesi sosiallaşan bazar iqtisadiyatına adaptasiya üzərində təşəkkül taparaq bütün ictimaii sferada mütərəqqi struktur dəyişikliklərini stimullaşdıracaqdır. Onun fundomental dairəsini isə ədalətli, sosial mühafizəli, dinamik vektrolu, iqtisadi dayanaqlı seqmentlər formalaşdıracan və proses kardinal permnentliyi ilə fərqlənəcəkdir.

Mülkiyyət forması və mənsubiyyət fərqinə varmadan *bazar iqtisadiyyatı* təsərrüfat subyektlərinin iqtisadi azadlığına əsaslanaraq cəmiyyətdə sosial-iqtisadi tərəqqiyə nailolmada əmtəə istehsalının güclü tərəflərini reallaşdırmağa imkanlar yaradır. İqtisadi və sosial planda mütləq ən yüksəklik olmasa da o, səmərəli təşəbbüskar və məsuliyyətli iqtisadi davranışın optimal sistemini formalaşdırır. Bununla belə sosial planda bazar iqtisadiyyatı bərabərləşməni, proporsional paylaşmanı bərqərar etməyərək xroniki qeyri-stabillik doğuran məxsusi sərtliliyi ilə fərqlənir. Belə ki, o cəmiyyət gəlirləri və sərvətlərinin paritet bölgüsünü istisna edərək xroniki sosial qeyri-stabil vəziyyəti səciyyələndirir. Bu reallıq isə öz növbəsində böhranların və işsizlikin yaranışına, istehsal güclərindən qeyri-dolğun istifadəyə zəmin olur [29, 102].

XX əsrin iqtisadi kataklizmləri, xüsüsən də böyük depressiya yeni iqtisadi modellərin işlənməsini şərtləndirdi. Bu ərəfədə iqtisad nəhəgi C.Keynizin şəxsi maraqları ictimai maraqlarla uzlaşdıran, kapitalizmin özünü tənzimləyən sistem olmadığı çevrədən çıxış edən keyniziyan iqtisadiyyat adlanan yeni iqtisadi konsepsiya formalaşdırdı. Bu konsepsiya isə dar arealda, kapitalizin yüksək və geniş intişar tapdığı ABŞ-da və bir sıra Qərbi Avropa ölkələrində ekspremеnt olundu.

Bazar iqtisadiyyatı ilə qoşa hərəkətdə irəliləyən iqtisadi sistemin marksist modeli də şəbəkədaxili böhranlardan yan keçə bilmədi. Bu sistem özünün gücünü tam məsərəf edərək geriyə - yenidən bazar iqtisadiyyatına girişdə iflasa düçar oldu. Kommunist recimlərin silsiləvi total çökməsindən sonra postsosialist ölkəlirinin əksəriyyətində, o cümlədən MDB məkanının geniş müstəvisində də iqtisadi proseslərdə bazarın rolunun təyinatına müxtəlif yanaşmalar təzahür etdi. Burada makroiqtisadi tənzimləmə Qərb monetaristlərinin ultraliberal konsepsiyaları əsasında ilk olaraq rasional gözləmələr və təklif iqtisadiyyatına əsaslanaraq dövlətin iqtisadiyyatda yerinin sıxışdırılması, qiymətlərinin liberallaşması, milli əmlakının kütləvi özəlləşdirilməsi, pul kütləsinin sıxmaqla makroiqtisadi sabitliyə nail olmaq kimi radikal mahiyyətli proseslər baş verdi. Lakin bazar hər şeyi yerinə qoyacaq prinsipli istiqamət bir neçə liberal təyinatlı islahatlar arealından keçərək sonrakı mərhələdə neqativ sosial-iqtisadi nəticələr yaratdı. Yeni zamanın dünya təcrübəsi inandırıcı olaraq göstərdi ki, istehsal güclərinin müasir inkişaf məqamında elastik, effektli funksional iqtisadiyyat sosial təmayüllü bazara və üzvi

bağlılıqla adekvat sosial-iqtisadi modelə istinad etmədən reallaşa bilməz. Bununla belə sosial oriyentasiya öncə bazar iqtisadiyyatı tam sınaqdan keçirildikdən sonra səmərəli reallaşma imkanlı olacaqdır.

Vurğulandığı kimi liberal iqtisadiyyatının nəzəriyyə və praktika sahəsindəki müasir mütəxəssisləri bazar sosiallaşmasına keçidi təbii proses olaraq qəbul etmişlər. Bu mənadə hesab olunmuşdur ki, məhz sosiallaşan bazar iqtisadiyyatı şəraitində resurslar bölgüsünün paritetliyi müvafiq normalarda daha qətiyyətli təmin edilir. Bu sistemin nəzəri və iqtisadi təməl bazası da əsaslı olaraq liberal fundomentalizmdə, keynizçiliq və neoliberalizmin modifikasiyasında götürülür. Bununla belə, bir daha qeyd olunumalıdır kı, bazar iqtisadiyyatının sosial modelinə keçidi sadə bir məsələ deyildir. Çətinliklərlə dolu istiqamət mütləq bazar iqtisadiyyatının özünün ən ümdə prinsiplərinin bərqərar olması şəraitində pərvəriş taparaq bir sıra köklü və kompleks problemlərin həllini şərtləndirir:

- iqtisadi paritetlik və iqtisadiyyatın mümkün dövlətsizləşdirilməsi kontekstində mülkiyyətin və təsərrüfatçılığın müxtəlif formalarının bərbərhuquqlu iştirakının təminatını;
- iqtisadiyyatın struktur yenidənqurmasının reallaşdırılması və onun defisitlik xarakterinin aradan qaldırılmasını;
- maliyyə-kredit və pul infrastrukturunun sağlamlaşdırılması, infilyasiya proseslərinin təcridini;
- qiymətyaratmanın xərclər modelindən mütəmmadi uzaqlaşma, sənaye, kənd təsərrüfatı və xidmətlər sferasının əsas məhsulunun qiymət azadlığına keçidini;
- tədavül sferasının demonopolizasiyasını, əhalinin və müəssisələrin kredit, iqtisadiyyatın isə elmi təminatlığının bərqərar olmasını;
- qeyri-bazar təmayüllü təhsil və peşə hazırlığının yenidənqurulmasını.

Sosial bazar konsepsiyasının bir qrup tədqidatçıları makroiqtisadi tənzimlənməyə neqativ münasibət bəsləyərək onu dövlətin iqtisadiyyata intervensiyası kimi qiymətləndirirlər. Belə istiqamət bazar sisteminiə yeni qədəm qoymuşlar arasında yarımbazar strukturlu görüntü və təsürat yaradaraq onu daha qabarıq obrazda nəzərə çarpdır. Yaranan dissonansı elə başlanqıc nöqtədə də aradan qaldırmaq üçün dövlət və özəl sektor arasında proporsiyalar ikincinin üstün hesabına dəyişdirilməlidir. Prosses şübhəsiz ki, uzunmüddətlilik tələblidir. Lakin bütün obyektiv və sübyektiv çətinliklərə bağmayaraq sosial bazar modeli liberal zəmində qarışıq iqtisadi sistem paradiqmasının formalaşmasından keçir.

Zaman tutumlu təcrübə fundomental empirik iqtisadi material verərək göstərir ki, bazar bütün hallarda tənzimləyici funksiyasını yerinə yetirə bilməz. Bu reallıq müəyyən fərqliliklərlə sosiallaşan iqtisadiyyat modelinə də xasdır. Sosial bazar iqtisadiyyatında dövlət tənzimlənməsi iştimai istehsalın bütün sferalarında özünü qorumalı və belə tənzimlənmə həm iqtisadi, həm də inzibati metodlar əsasında aparılmalıdır. Burada makroiqtisadi planlaşdırmanın qurulması da şəksizdir. Belə planlaşdırmaya isə klassik sovet iqtisadiyyatı direktiv sisteminin apoloqiyası kimi baxılmamalı, o məqsədlərə nailolmada tarazlı, razılaşdırılmış məxsusi iqtisadi bir siyasət olaraq dəyərləndirilməlidir.

Servis təyinatlı yeni sferanın hakimliyi ilə xarakterik bazar iqtisadiyyatının yüksək fazası, ***sosial iqtisadiyyatın*** fövqündə bəşəri dəyərlər və haqlarda təcəssüm olunan insan varlığı durur. Burada təsərrüfatın bazar metodları iqtisadiyyatın sosialyönümlü dövlət tənzimlənməsi ilə uzlaşır.

Səhiyyə, elm, təhsil, incəsənət, mədəniyyət, bədən tərbiyəsi və idmanın da daxil olduğu sosial bazar iqtisadiyyatının predmetini məhz azad bazara və sosial tərəqqiyə köklənən iqtisadiyyat təşkil edir. Sosial təyinatlı bazar iqtisadi modeli iqtisadi azadlıq, iqtisadi artım, iqtisadi təhlükəsizliyə istinad edən tam məşğulluq, qiymət stabilliyi, sosial sabitlik və ədalətli vergiqoyma kimi mühüm komponentlərdən ibarətdir. Sosial bazar iqtisadiyyatı həyati keyfiyyəti ehtiva edərək cəmiyyətin xidmət və sosial sferasında tələblərin dolğun ödənilməsini səciyyələndirən geniş təzahürünü sosial səmərəlilikdə tapır [61, 101].

Göstərildiyi ki, AB ölkələrində, xüsusən də Almaniyada bazar iqtisadiyyatı əslində sadəcə olaraq sosial atributlu sosial bazar iqtisadiyyatı kimi anlaşılır. Bu iqtisadiyyatın genoloci kökləri də məhz fundomental olaraq Almaniyada təşəkkül tapmışdır. Belə ki, ötən əsrin iyirminci illərində müvafiq istiqamətdə ölkənin Frayburq şəhərində *Frayburq məktəbi* adlanan ənənəvi nəzəryriyyəçilik təcrübəsi formalaşmışdır. V.Oykenin başçılığı ilə görkəmli alman iqtisadçılar ıməhşur illik məcmuyə «Ordo» curnalı ətrafında birləşərək liberializmin alman qolu olan *ordoliberializm* konsepsiyasını işləmişlər. İqtisadi proseslərə müdaxilə edərək planlaşdırmanı tənqid atəşinə tutan ordoliberalistlər azad bazar iqtisadiyyatının XIX əsrdəki nümünəsini XX yüzillik üçün məqbül hesab etməmişlər. Onlar qarışıq iqtisadi sistemdə mərkəziyyətçiliklə rəqabəti uzlaşdıran dövləti idarəetmə sisteminə tənqidi yanaşmış, rəqabətin sosial bazar iqtisadi modelində təkmilləşməsi və tərəqqisinə üstünlük vermişlər. Ordoliberalistlər həm də dövlət iqtisadi siyasətinin iki istiqamətini: təsərrüfat quruluşunun formalaşması və təkrar istehsal prosesinə təsir aspektini irəli sürmüşlər. Birinci istiqamət inhisarlaraın tənzimlənməsi, rəqabətin təminatı, şəxsi və dövlət mülkiyyətinin uzlaşması və təsərrüfatçılığın hüquqi normalarının yaradılması kimi elementləri birləşdirir. İkinci istiqamətdə isə iqtisadi artımı təmin edən bütün dövlət tənzimlənməsinin kompleks tədbirlər sistemi əsaslandırılır.

Farburq məktədinin təlimləri və başlıca olaraq onun lideri V.Oykenin müvafiq konsepsiyası II Cahan müharibəsindən məğlub çıxmış Almaniyanın yeni iqtisadi siyasətinin leytmotivinə çevrilmişdir. O zaman AFR-in rəhbərləri: przident K.Adenaur və baş nazir L.Erxartın apardıqları effektli iqtisadi siyasət nəticəsində artımın yüksək templərini təmin edən sosial bazar təsərrüfatı oriyentasiyasına keçidə istiqamət götürülmüş və reallıqda da bu səylər bariz nəticəsini vermişdi. Burada dövlətin sosial-iqtisadi həyatda xüsusi rolu önə çəkilərək sistem düzümünün başlıca amili kimi rəqabətin hərtərəfli inkişafı təmin olunmuşdu. Sonrakı çağlarda humanist obrazı səciyyələndirən sosial-iqtisadi sisteminin yeni reallıqları təzahür olundu və sosiallaşan iqtisadiyyat konsepsiypası Avropa çevrəsində sərhədlərini genişləndirərək yeni modifikasiyalara uğradı. Bu sırada bazar iqtisadiyyatının «İsveç modeli» adlanan nümunəsi daha çox müqayisə predmetinə çevrilmişdir.

II Cahan savaşından sonra nisbi varlı olmayan ölkə İsveçdə sosial-iqtisadi inkişaf istiqamətində radikal islahatlar aparılaraq kəskin sıçrayışlar əldə olundu. Bu model ölkə və onun əhalisi üçün beynəlxalq bazardan yaranan xarici konyuktur nəticələri mülayimləşdirmək oriyentasiyasına köklənir.

«İsveç sosial-demokratik modeli» xarakterizə edərkən iqtisadi sistem modellərinin tipoloci xüsüsiyyətləri nəzərədən keçirilməlidir. İqtisadi nəzəriyyədə iqtisadi sistemin dörd tipini fərqləndirirlər:

I. **Ənənəvi** /*primitiv*/. Bu tip demək olar ki, sıradan çıxmış, qtsmən primitiv formada Avstraliya cəmiyyətlərində və bir sıra Afrika ölkələrində qorunmuşdur;

II. **Dövlət** /*mərkəzi*/. Müasir zamanda dövlət iqtisadiyyatı artıq yoxdur. Hətta kommunist recimli Çində, Şimali Koreyada da görünən bazar mexanizmləri meydana çıxmışdır;

III. **Bazar**. Müvafiq sistem təsərrüfat həyatının uzun sürən təkamülünün nəticəsidir. Latın Amerikası, Afrika və Asiya ölkələrində mövcuddur;

IV. **Qarışıq**. Bu tipə çox zaman bazar iqtisadiyyatının variyasiyası kimi də baxılır və bəzən onu çoxukladlılıq da adlandırırlar. Üç sistemaltı: bazar, ənənəvi və komandalı iqtisadiyyatı birləşdirən qarışıq iqtisadiyyat müasir postindustrial cəmiyyətin əsas iqtisadi formasını təşkil edir. Burada birincilik bazar tipinə verilsə də digər formaların da əhəmiyyəti iqtisadi sistemdə mühüm əhəmiyyət daşıyır. Qarışıq iqtisadiyyat özü-özlüyündə ictimaiyyatin sosial problemlərinin həlli istiqamətində bir sıra məxsusi tipoloci modelləri ehtiva edir:

- ✧ *Liberal* - əsasən ABŞ üçün xarakterikdir;
- ✧ *Sosial oriyentasiyalı* - model Almaniya üçün xrakterikdir;
- ✧ *Sosial-demokratik* - onun parlaq nümunəsi «İsveç sosial-demokratik modeli» təşkil edir.

İsveç iqtisadi modeli ümumilikdə çoxukladlı bir iqtisadi sistem kimi görüntülüdür. Onun əsasını dövlətin aktiv tənzimlənmə aspektində rəqabət başlanğıclı bazar münasibətləri by iqtisadi bazis təşkil edir. Burada bir sıra mülkiyyət formaları qarşılıqlı rabitə və təmasdadırlar. Bununla belə dünya təcrübəsində iqtisadi sistemin formalaşmasının digər mütərəqqi modelləri də mövcuddur. İnkişaf etmiş Avropa ölkələrində mülkiyyət bərabərsizliyini milli gəlirin təkrar bölgüsü hesabına azaldan standartlar daha çox sosial təminatlığı ilə fərqlənirlər. Bütün bunlar fiziki şəxslərdən yüksək səviyyəili vergiqoyma ilə əldə olunur. Müvafiq model «funksional sosiallaşma» adlanır. Şərh belədir ki, istehsal funksiyaları rəqabətli bazar əsasında özəl təşkilatların üzərinə düşür. Həyat səviyyəsinin, məşğulluq, təhsil, elm, sığorta və sairin yüksək təminatını dövlət özü həyata keçirir. Digər tərəfdən itisadadiyyatın sosial oriyentasiyasına keçiddə heç də tamılıqla dövlət sektorunun liberallaşması təqdir olunmur. Əslində müvafiq sistem çərçivəsində bu sayaq sərt addımlar atmaq mümkün də deyildir. Təcrübə göstərir ki, iqtisadiyyatın dövlət sektoru bazar konyukturunun tsikllik titrəyişlərini hamarlamaq, iqtisadi artım dinamikasını sabitləşdirmək bazası rolunu oynayır və onun gerçək sağlığı hamaıya gərəkli və şəfavericidir [29, 61].

İqtisadi mühütin modernizasiya problemini və strategiyanın reallaşması mexanizlərini ehtiva edən sosial bazar iqtisadiyyatı quruculuğu üç prinsip əsasında təşəkkül taparaq inkişafını davam etdirir:

- ✦ effektivli, ədalətli rəqabət və sosial müdafiə;
- ✦ fərdi azadlıq, iqtisadiyyatın azadlığı və məsuliyyət;
- ✦ özünü maraqlar və bazar nəzarəti.

Sosial bazar sisteminə keçid iqtisadiyyatın modernizasiyası kimi dəyərləndirilən iqtisadi islahatlar prosesini reallaşdırmadan mümkün deyildir. Bu sırada yeni iqtisadi modelin işlənməsi və gerçəkləşməsi çeşidli tədbirlər sistemini əhatə edir:

- ⇨ uzunmüddətli perspektivdə əksər vətəndaşların dayanaqlı rifah halının təminatı;
- ⇨ dünya iqtisadiyyatının yüksəliş templərin üstələyən lokal iqtisadi artım teplərinin stimullaşdırılması;
- ⇨ vətəndaşlara peşə və yaradıcılıq imkanlarını reallaşdırmaq, sahibkarların biznes istedadını daha geniş sferada açmaq şəraiti verilməsi;
- ⇨ beynəlxalq rəqabətli əmtəə və xidmətlər istehsalı yaratmaq və genişləndirmək.

Sosial bazar iqtisadiyyatına keçidin çərçivə elementlərinin yaradılması dövlət kompetensiyasına daxildir. Bu çərçivə başlıca olaraq ümüdli hüqüqi, ədalətli vergi, dayanaqlı sosial təminat şəbəkələrinin yaradılmasından keçir. Sosial bazar iqtisadiyyatına trasformasiyanın formalaşmasında dövlət aşağıdakı vəzifələrin yerinə yetrilməsi tələblidir:

- ✧ istehsal üçün təminatlı investesiya iqliminin yaradılması;
- ✧ sərt antiinhisar siyasətinin aparılması, müvafiq nəzərtin ictimai fonda ötrülməsi;
- ✧ rəqabəti müdafiə etmək və mükafatlandırmaq, kiçik biznesin inkişafı üçün əlverişli şəraitin yaradılması;
- ✧ iqtisadiyyatın real debürokratikləşməsini keçirmək;
- ✧ dövlət öhdəlikləri ilə onun maliyyə resursları, yığım və investisiyalar, vergi yığımları ilə təqdim olunan dövləti xidmət keyfiyyəti arasındakı fərqliliyi təcrid etmək;
- ✧ pul-kredit və valyuta siyasətinin dəyişməklə onu istehsal templərinin maksimal yüksəlişi sferasına yönəltmək;
- ✧ təbii resursların istismarından yaranan artıq gəlirin dövlət büdcəsinə yönəldilməsinin elastik mexanizmlərinin yaradılması;
- ✧ bank islahatlarının təkmilləşdirmək, sivilizasion fond bazarı formalaşdırmaq;
- ✧ daşınmaz əmlakın alınmasınfın vicdanlı müdafiəsinin təminatı, tədricən torpaqların vətəndaş dövriyyəsinə keçidi ilə səmərəli əmlak bazarının yaradılması;
- ✧ iqtisadiyyatın «kölkədən» çıxışını təmin edən vergi sisteminin formalaşdırılması;
- ✧ bütün səviyyələrdə büdcə kirişi, açıqlığı və şəffavlığının təminatı.

Sosial bazar iqtisadiyyatının mühüm cəhətlərindən bir də *bazar uçurumlarının* təcrid

olunması və bu səpgidə resurslar bölgüsünün ədalətliliyinin təminatı ilə bağlanılır. Bu istiqamət ilk növbədə özünü təbii inhisar sferası olan, enerji sistemi, dəmir yolu, boru magistralları və ümumiyyətlə bütün nəqliyyat və rabitənin kommunikasiya şəbəkəsində göstərir. Bazar uçrumlarının kənarlaşdırılmasında «xarici effektlərin», xüsüsən də ətraf mühitin çirklənməsində təcridi də mühüm əhəmiyyət daşıyır. Pis informasiya təminatı da bazar uçrumlarının yaranmasına şərait yaradan aspektlərdəndir. Bu vəziyyətdən yayınmada dövlət ilk növbədə apardığı iqtisadi siyasətin, büdcənin maksimal və eləcə də firmaların hesabatlarının şəffavlığını təmin etməli, vətəndaşların iqtisadi biliklərini mükafatlandırmalıdır [61, 106].

Sosial bazar iqtisadiyyatı quruculuğunda digər mühüm istiqamətlərdən biri də dövlətin bazar iştirakçılarına bərabər hüquqlu şəraitin yaradılmasından, azad sahibkarlığın hərtərəfili müdafiə olunmasından keçir.

Sosial bazar iqtisadiyyatı mənəvi və əxlaqi bir sistemdir. Məhz yüksək tələbli normativ-hüqi müstəvi azad rəqabəti və inkişaf edən sahibkralığın mobilliyinə, onun manevrliyinə təminatçı olur. Əks halda - qənaətçilik, patriotizm, düzlük kimi keyfiyyətlər istisna olduqda obrazlı deylimdə sahibkar vəhşi, yırtıcı məxluq libası geyinir, azad biznes bütövlükdə bandit kapitalizminə çevrilir və açıq demokrativ cəmiyyətin özünün mövcudluğuna təhlükə yaradır.

# IX FƏSİL
# SOSİAL KONSENSUS: İSLAM İQTİSADİYYATI

## *9.1. İslam iqtisadiyyati nəzəriyyəsi tarixindən*

İslamın iqtisadi tarixinin tədqidi əsasən Avropa şərqşünaslarının əsərlərində şərh olunan kompazisiyada qlobal ictimai fonda buraxılmışdır. Bu elm əsərlərin fundomentallığına və sanbalına baxmayaraq alternativlik nöqteyi-nəzərindən onların mövcud reallıqları tamılıqla əks etdirməsi mübahisəlidir. Fikrin fundamentallığı Avropa şərqşünaslığının genişlənən müstəmləkiçilik epoxasında və avrosentrist çevrədə yaranışı ilə bağlanılır. Digər başqa bir amil isə Qərbi Avropa şərqşünaslarının baxışlarına təsir göstərən Orta Şərq və müsəlman xalqları haqqında yalnış təsəvvür steoritiplərinin formalaşması olmuşdur. Belə təsəvvürlər Asiya və Afrika xalqlarının təbiətcə geriliyi, tənbəlliyi, ətalətliliyi, müstəqil inkişafa qabil olmaması haqqında kalonialisit ideoloqlarının düşüncə tərzindən qaynaqlanmışdır. Bir sıra Avropa şərqşünasları və sosioloqlarının Maks Veberin /1864-1920/, Arnold Cozef Toynbi /1889-1975/, Lui Massinyon /1883-1962/, Anri Masse /1886-1969/ və başqalarının tədqiqatlarında müvafiq meylliliyin səciyyəvi cəhətlərini sezmək mümkündür.



İslam tarixini tətbiq edənlər sırasında İsveçrəli şərqşünas Adam Mesin /1869-1917/ araşdırmaları da məxsusi yer tutur. Lakin onun tədqiqatları da bir sıra məşhur tarixçilər və şərqşünaslar tərəfindən tənqidə məruz qalmışdır. Bu tənqidlərdə A.Mesin qarşıya qoyduğu məqsədli araşdırmaları terretorial və xronoloci cəhətdən məhdudlaşdırması daha çox vurğulanır. Digər tənqid hədəfli cəhət isə sələflərindən fərqli olaraq A.Mesin müsəlman dünyasının müxtəlif həyati tərəflərinə detallı xarakteristika verməməsi, tədqiqatlarını daha geniş olaraq tarixi mənbələr sferasında işıqlandırmaşı olmuşdur.

Qeyd olunmalıdır ki, A.Mes İslam tarixinin geniş tədqiqinə həsr olunmuş möhtəşəm «Müsəlman intibahı» əsəri ilə məhşurlaşmışdır. Bu tarixi əsərdə müsəlman mədəniyyətinin mümkün geniş spekterial elmi şərhi ilə yanaşı İslam təsərrüfatçılığı və maliyyəsi haqqında araşdırmalar da əksini tapmışdır [35].

İslam iqtisadiyyatından bəhs edərkən onun elmi şərhini verən orta əsr ərəb və müsəlman intibahi dövründə yaşamış islamşünans alimlərin, ayrı-ayrı mütəfəkkir və filosofların əsərlərinə diqqət yetirmək zəruridir.

Məlumdur ki, İslamın ilk daşıyıcıları ərəblər bəşər elmi və mədəniyyətinə bənzərsiz tövhələr vermişlər. Bu alimlər sırasında İslamın iqtisadi və sosial məkfurəsinin elmi sistemdə paylaşdırıcıları da yetərli olmuşlar. Böyük ərəb alimi Əl-Müqəddəsi /946 - XX əsrin sonu/ İslam cəmiyyətinin erkən çağlarının təmsil edən ilk fundomental tədqiqatçılardan olmuşdur. Alimin əsasən coğrafi biliklər sferasını əhatə edən araşdırmalarında, xüsüsən də 985-ci ildə yazdığı «İqlimin tədqiqi» əsərində dövrün sosial-iqtisadi situasiyasını əks etdirən reallıqlar təhlil olunmuşdur. Öz sələflərindən fərqli olaraq Əl-Müqəddəsi cəmiyyət həyatına məxsusi metodologiya ilə yanaşmışdır. Burada bazarlaraın öyrənilməsi, iqtisadi qalxınma və enmə tendensiyası, gəlirlər və onların bölgüsü, şəhər təsərrüfatının idarə edilməsi kimi məsələlərin tədqiqinə geniş yer verilmişdir [127].



Zəmanəsinin tələblərinə görə astronom, riyaziyyatçı, filosof və ümumiyyətlə ensiklopedik biliklər sahibliyinə yetişmiş dahi Azərbaycan alimi Mühəmməd Nəsirəddin Tusinin /1201-1274/ İslam iqtisadi fikir tarixindəki rolu da yetərli və əhəmiyyətli səciyyə daşamışdır. M.N.Tusinin iqtisadiyyat sahəsində apardığı elmi araşdırmalar klassik İslam iqtisadi düşüncəsinin bariz elmi tövhələri sırasındadır. Alim məhşur «Maliyyat barəsində» əsərində İslam cəmiyyətinin inkişafı tarixində ilk dəfə olaraq dövlətin mədaxil və məxaricini

hökmdarın şəxsi kapitalından ayırmağı, çoxsaylı vergilərin unifikasiyasını, yoxsullara, əlillərə, kendr sferasında kimsəsizlərə və dul qadınlara sosial təminatlar verilməsi kimi təkliflərlə çıxış etmişdir. Onun digər əsərlərində də idarəetmə sisteminin və təsərrüfatçılıq qaydalarının təkmilləşdirilməsi istiqamətindəki araşdırmaları da elmi və tarixi baxımdan yüksək dəyərləndirilir [134].

İslam iqtisadiyyatı və sosial fəlsəfəsinin nəhəng simalarının ön sırasında İbn Xaldun /1332-1406/ dühası dayanır. Parlaq ərəb sivilizasiyasının eniş məqamlarının şahidi bu məhşur alim sadəcə olaraq hadisələrin zahiri görüntlərini deyil, onların sistemli rabitəlik, funksional əlaqəlik çevrəsində izahını vermişdir. Bu izahlar xüsusən onun 1375-1378-ci illərdə qələmə aldığı «Müqəddimə» əsərində əksini tapmışdır. Cəmiyyət və dövlətə, bəşər toplumunun tərəqqi mərhələlərinə elmi münasibəti ifadə edən bu traktatda İbn Xaldun insan birliklərinin inkişaf fazasına mövcud istehsal vasitələrinin xarakterində və bölgü ilə istehlakda təyinat tapan təsnifat vermişdir. «Bədava» adlanan birinci fazada həyat heyvandarlıq və əkinçiliklə, «xədara» adlanan sonrakı - inkinci fazada isə şəhər mərhələsi ilə tərəqqi etmişdir. İlk fazada istehsal zəruri tələblərə söykənərək, əmək primitiv vasitələlə məhdudlaşmış, icmalara tən kollektiv bölgü hakim kəsilmişdir. Bolluq və izafilik şəraiti isə mülkiyyət münasibətlərinin inkişafı ilə müşaiyət olunaraq ticarət-sənətkarlıq tipinin yaranışını və bununla da dövlət, şəhər sivilizasiyasının törənişini qaynaqlandırmışdır [19, 89, 127].



İbn Xaldun aşağıdakı mühüm istiqamətləri özündə birləşdirən «Sosial fizika» konsepsiyasını irəli sürmüşdür:

- ✦ əməyə idraklı münasibət;
- ✦ təsərrüfatsızlıq və xəsisliklə mübarizə;
- ✦ əmlak və sosial bərabərliyin mümkünsüzlüyünün dərki.

Klassik İslam iqtisadiyyatı ilə bağlı tədqiqatlar digər müsəlman mütəfəkirləri, alim və filosoflarının da əsərlərində əksini tapmışdır. Lakin dahi İbn Xaldun İslam mədəniyyəti tarixinə sosial həyat və iqtisadiyyatın elmi-empirik interpretasiyasını, onun elmiləşməsini təmin edən öndər iqtisadi nəzəriyyəçi alim kimi qovuşmuşdur.

Müasir Azərbaycan elmi kontekstində də əlahiddə olmasa da İslam iqtisadiyyatının intepretasiyasını və tədqiqini şərtləndirən çoxəsrilik tarix toplum mövcuddur. Bu şərhə ilk öncə Azərbaycan poetik fəlsəfəsində və XIX əsr mütəfəkkirlərinin əsərlərində rast gəlinir. Daha geniş səpkidə elmi-tədqiqi interpretasiyalar XX əsr Azərbaycan şərqşünaslığı və tarixçilik məktəbinin formalaşması zamanlarına təsadüf edir [127].

Azərbaycanda İslam iqtisadiyyatını ilk dəfə ayrıca nəzəri formatda, kompleks şəkildə tədqiqini professor Hacı Məhəmməd Həsən Xanlar oğlu Meybullayev /1948/ reallaşdırmışdır. Onun geniş həcmli «İslam iqtisadiyyatı» adlanan monoqrafiyası büsbütün İslami təsərrüfat həyatının müasir elmi şərhinə həsr olunmuşdur. Bu əsər orcinallığı və İslam iqtisadiyyatının bütün elmi çevrədə təhlili ilə bütün arealda üstün mövqedə dayanır. Bununla belə qeyd olunmalıdır ki, İslam iqtisadiyyatının elmi tədqiqi hələ də tələbli fundamentallığı ilə böyük araşdırıcılarını gözləyir. Hesaba gətirilir ki, yeni qlobal İslam intibahı ərəfəsində müvafiq konfessial iqtisadiyyatının tədqiqat sferası ən geniş üfiqlərdə təcəssümünü tapacaqdır.



## 9.2. *Müsəlman təsərrüfat etikasi*

Qərbin bir sıra din tədqiqatçıları qeyd edirlər ki, konfessial iqtisadiyyat mümkünatsız bir şeydir. Buna görə də əlahidə İslam iqtisadiyyatı da mövcud deyildir. Bu iqtisadiyyata da baza olaraq ümümi ənənəvi iqtisadi qanunlar hakimdir. Fərq isə yalnız onun etikasındadır. Tətbiqi

sferada isə müvafiıq iqtisadiyyat şəriət tərəfindən təsbit olunmuş maliyyə menecmentinin reallaşması fərqindədir. Beləliklə bu məntiqdən çıxış etdikdə «İslam iqtisadiyyatı» termini altında mənəvi kodeks fərqliliyində standart olan təsərrüfat sistemi anlaşılmalıdır. Lakin irəli sürülən hipotezə məntiqilik və elmilik baxımından heç də dolğun görünmür. Ən sadə əks fikir onu göstərir ki, dinlər bölgüsü mövcuddursa, onun sosial və iqtisadi ayrılığı da reallıqdır. Burada dolaşıqlıq yalnız ondan ibarətdir ki, müasir iqtisadi nəzəriyyə və praktika müstəvisində bu bölgü qəti təsbitini tapmamışdır.

Bir məxsusi sistem olaraq İslam iqtisadiyyatı təsərrüfat müstəvisində İslam dövlətlərinin yarandığı və müsəlman ekspansiyası zamanlarında formalaşmışdır. Bu məqamlarda artıq İslam etikasına uyğun mükəmməl dövləti iqtisadi strukturlar yaradılmış və fəaliyyətləndirilmişdi. Əyalətlərə geniş inzibati və maliyyə muxtariyyətləri verilərək, şaquli idarəetmə, maliyyə rabitəsi və vergi-büdcə sistemi təşkil edilmişdi.

İslam iqtisadiyyatının təcrübələndirilməsindən öncə onun «Qurani Kərimə» istinad edən nəzəri-metodoloji prinsipləri formalaşmışdır. Bu iqtisadiyyatın üç əsas fundomental dayaq yzərində pərvəriş tapmışdır:

- ✦ təsərrüfatçılıqda İslam etikasının ideoloji dominantlığı;
- ✦ zəkat prinsipinə istinad edən vergi sistemi;
- ✦ investisiya prosesində partnyorluğa əsaslanan faizsiz, müamiləsiz düzümdə funksionallığı.

İqtisadi münasibətlərin qətiyyətli və dayanaqlı tənzimlənməsi İslam qanunvericiliyinin mühüm əlamətdar cəhətlərindən biridir. Bu sırada inhisara qadağa verən, maliyyə intizamsızığını təcrid edən, yalana şanslar buraxmayan, əqli və idraklı iqtisadi münasibətlər yaradan tam bir elm formalaşmışdır.

Ticarət azaddır və o, öz azadlığını müvafiq qanunlar kadastrında tənzimlənən sferadan qaynaqlandırır. Dövlət sosial-iqtisadi prosesləri nəzarətə götürür. Onun nəzarət dairəsinə xüsusi olaraq ümumsosial qayğı və çoxşəbəkəli sosial təminat məsələləri daxildir.

İnsan təbii resursların sahibi deyildir. Bütün sərvətlər allaha məxsusdur. Bu isə bir daha o deməkdir ki, bəşər övladı yaşayışı zamanında müəqqəti olaraq bu resursların sahibi, istifadəçisi və istehlakçısına çevrilir və dövlət də təbii sərvətlərin satışından əldə edəilən gəlirləri öz vətəndaşları arasında bərabər bölməyə borcludur.

İslam iqtisadiyyatın fundomental fərqləndirici mühüm cəhətlərindən birini də faizsiz maliyyə sisteminə maliklik canlandırır. Qurani Kərimdə buyrulur ki, bütün müsəlmanlar qardaşdırlar. Buna görə də onlar arasında istismar ola bilməz. Faiz isə birbaşa istismardır.

İslam gözlənilməz riskə davam verən asimmetrik informasiyaya qadağa qoyur və bununla belə o riski mühakimə etmir.

İslamda istehsal resurslarının məsrəfi ilə yaranan əmək haqqından deyil, təsadüfü situasiyadan faydalanma ilə əldə edən gəlir - «meysir» - /*ehtiraslı oyun*/ - qumar qadağalıdır.

Göründüyü kimi İslam iqtisadiyyatı empirik çevrəyə keçməzdən öncə onun mükəmməl biçimli, zəngin etik davranışlı nəzəri-metodoloji əsasları formalaşmışdır. Professor M.Meybullayev qeyd edir ki, «İslam iqtisadiyyatının nəzəri əsasını mənəvi dünyagörüşün formalaşmasından irəli gələn dəyişilməz İlahi hökmlə müəyyən olunan ədalətli və müvazinətli davranış qaydaları təşkil edir» [19. səh. 103].

İlkin İslam iqtisadiyyatında mühüm cəhət dövlət xəzinəsinin /*büdcə sisteminin*/ idarəedilməsi ilə bağlı olmuşdur. Tədqiqatlar göstərir ki, erkən müsəlman dövlətlərində optiamal fiskal siyasət aparılmış, dayanaqlı büdcə və uçot sistemi yaradılmışdır. Müsəlman mühasibatlığını və vergi sisteminin mükəmməliyini xarakterizə edərək A.Mes yazır ki, «Burada hər bir uçot elementini məxsusi terminoloci adlarla xarakterizə edən təsisatlar yaradılmışdır. Vergi hesabatları */abaraç/,* gəlir və xərc curnalları */rusnamac/,* kassa kitabı */taric/,* hesabatlar */arida/* və digərlər mövcud idi» [32. səh 100]. Qeyd olunanlardan aydın görünür ki, müsəlman Şərqində xəzinədarlığın idarə edilməsində müasir mühasibatlığın ən ümdə aksesuarlarının: vergi

hesabatları, gəlir və xərc curnalları, xüsusi olaraq kassa-xəzinə kitabının olması ikili yazılış sisteminin real görüntüsünə və mövcudluğuna əsaslar yaradır.

İslam iqtisadiyyatı ilə İslam maliyyəsinin qırılmaz vəhdəti vardır. Maliyyə faktoru bütün iqtisadi sistemlərdə olduğu kimi, İslamı təsərrüfatının da iqtisadi əsasında dayanır. İslam maliyyəsinin özəyini isə müsəlmanlığın beşinci taəti zəkat təşkil edir. Şəriətə görə, *zəkat* icmanın ehtiyaclarına sərf edilmək, yoxsullar və maddi imkanları məhdud olanlar arasında bölüşdürülmək üçün əmlakdan və gəlirdən tutulan icbari vergidir. Bundan əlavə, hər bir müsəlman gəlirlərindən könüllü surətdə *sədəqə* - ianə və ya pay da ayırmalıdır. İslam icması daxilində bərqərar olan ədalətin müvafiq sosial-iqtisadi tənzimləyiciləri zəkat və sədəqə müsəlmanların qurduqları bütün dövlətlərin təsərrüfat həyatının inkişaf mərhələlərində aparıcı etik normaya kimi geniş tətbiqini tapmışdır. Zəkat adi dövlət vergisinə çevrilmiş, sədəqə pulları isə sosial ehtiyaclara sərf olunmuşdur.

Anri Masse yazır ki, «Quranda tamamilə aydın şəkildə əmr edilir ki, cismən və ruhən sağlam olan hər bir müsəlmanın heyvan sürüləri, illik müəyyən gəliri varsa, əgər o, kənd təsərrüfatından, sənətdən və ya ticarətdən qazanc əldə edirsə, sədəqə verməyə məcburdur. Lakin əmlak sahibindən ancaq o halda sədəqə alına bilər ki, onun gəliri müəyyən edilmiş ən aşağı həddən */nisab/* artıq olsun. Müəyyən edilən bu ən aşağı gəlir həddi sənətkar və alverçilər üçün - 5 unsiya gümüşdən, əkinçilər üçün - 5 yük xurma və ya taxıldan, maldar üçün - 5 dəvə, ya da 30 baş qaramal və ya 40 baş qoyun-keçidən ibarət idi. Nəticə etibarı ilə bütün mətləb varlılardan alınıb yoxsullar arasında bölüşdürülən gəlir vergisi və ya daha doğrusu, «onda bir» vergisi üstündədir. Əksər hallarda gəlirin onda bir hissəsi alınır; gəlir ağır iş nəticəsində əldə edilmişə bu vergi gəlirin iyirmidə bir hissəsinə endirilə bilər» [2. səh 138].

Erkən orta əsrlərdə ərəb müsəlman dünyasının torpaq fondunun böyük hissəsi bilavasitə dövlətin əlində idi və o əkinçidən rentanı vergi şəklində tuturdu. Sonrakı mərhələlərdə iqtisadi həyat dəyişikliyə uğradı və torpağın xüsusi mülkiyyətə keçməsi artdı. Torpağa şərti feodal xüsusi mülkiyyəti - *iqta* sistemi geniş yayıldı. Səlcuqilər /XI-XII əsrlər/, Əyyubilər /XII-XIII əsrlər/, Məmluklər /XIII-XVI əsrlər/ dövlətlərində *hərbi-len* sistemi qəti formalaşdı.

Səlcuq sultanlarından Alp Arslan /1063-1072/ və Məlikşahın /1072-1092/ vəziri olmuş Əbu Əli Həsən İbn Əli Xoca Nizamülmülk /1019-1092/ Azərbaycanın da daxil edildiyi möhtəşəm dövlətinin iqtisadi qüdrətinin artırılmasında, genişlənib möhkəmlənməsində, ordunun qüdrətlənməsində, elm və mədəniyyətin yüksəlməsində yetərli xidmətləri olmuşdur. Özünün məhşur «Siyasətnamə» əsərində Nizamülmülk İslamın vergi-büdcə sistemi haqqında qeyd edir ki, «Bütün şahların iki xəzinəsi olmuşdur: biri əsl xəzinə, o biri xərc xəzinəsi. Alınan malların çoxu əsl xəzinəyə toplanar, onun az hissəsi isə xərci xəzinəyə verilərdi. Zərurət olmayınca əsl xəzinədən xərclənilməzdi. Bir şey götürüldükdə borc kimi görürürlər, əvəzinə nə isə bir şey qoyulurdu. Bu barədə ehtiyat lazımdır ki, gəlir ilə çıxar eyni olmasın. Birdən mala ehtiyac hiss edildikdə ürəyə tappıltı düşməsin, o işdə tələsməyə və gecikməyə, əyər-əskiyə yol verilməsin. Xəzinə üçün vilayətlərdən yığılan malları heç vaxt dəyişmək, təxirə salmaq, həvalə etmək olmaz. Elə etmək lazımdır ki, vergilər vaxtında çatdırılsın, bəxşişlər, hədiyyələr, maaşlar, muzdlar yubadılmasın, həmişə xəzinə öz qaydasında olsun» [7. səh 185].

İslam iqtisadi etikasının klassik mahiyyətdə məzmununu təhlil edərkən vurğulanmalıdır ki, bu etika müasir İslam dövlətlərinin iqtisadi modellərində də əksini tapmışdır. Ayrı-ayrı İslam ölkələrinin təsərrüfat və sosial həyatında bu klassizm sərtliyi və liberallığı ilə seçilsə də mahiyyətcə köklü müsəlman etikası bütün sferalarda dominant mövqedə dayanmışdır.

### *9.3. Müasir islam iqtisadi konsepsiyası və islam maliyyəsi*

İslamın ***müasir iqtisadi konsepsiyasının*** əsasları XX əsrin ikinci yarısında təşəkkül tapmışdır. Bu konsepsiya əslində mövcud Qərb iqtisadi düşüncəsindən təcrid olunaraq İslam kanonlarına oriyentasiya edilmişdir. Məlumdur ki, İslama dini inancın bölünməzliyi və sosial

qaydalılıq xarakterikdir. Bu məqam isə öz növbəsində mövcud Qərb iqtisadi modellərinin adekvat istifadəsini imkansız edir. Elə əslində də «İslam iqtisadiyyatı» konsepsiyası İslamın kapitalist iqtisadi sisteminə uyğunlaşdırmaq cəhdlərinə qarşı qoyulmuşdur.

*İslam iqtisadiyyatının iqtisadi prinsiplərinin daha geniş çevrədə reallaşması ötən əsrin 70-ci illərinin ortalarına təsadüf edir. Məhz o, zamanlar qlobal İslam institutları: «İslam İnkişaf Bankı», «Ərəb İqtisadi və Sosial İnkişaf Fondu» təşəkkül tapmışdır. İslam institutlarının təsisatı və onların sonrakı fəaliyyəti isə beynəlxalq təsərrüfat münasibətlərinin yenidən qurulması uğrunda müsəlman hərəkatının çağdaş mərhələsinin təməlinə çevrilmişdir. Bu sırada ən mühüm təsisat olaraq isə İslam Konfransı Təşkilatı fərqlənir. İKT-nin üzvü olan dövlərin maliyyə-iqtisadi inteqrasiyanın səhmana salınan mexanizmin ilki kimi isə İİB digər təsisatların formalaşmasında detanator rolunu oynamışdır. İndi bu təsisatların sırasında İslam Texniki Peşə Təhsili və Tədqiqatlar Mərkəzi /Dəkkə - 1977-ci il/, Statistik, İqtisadi və Sosial Tədqiqatlar Mərkəzi /Ankara - 1978-ci il/, İslam Ticarət Sənaye Ralatası /Kəraçi - 1978-ci il/ və Qarşılıqlı Sığorta Məsələləri İnstitutu /Xartum - 1978-ci il/ vardır. Bundan əlavə bir sıra ofoşor zonalarda təsis olunan çoxsaylı İslam investisiya şirkətləri də fəaliyyət göstərirlər. Bütün bu təsisatlar müasir İslam maliyyəsinin özəklərinin və aparıcı qüvvəsini təşkil edirlər [127, 134].*

Müvafiq təmayüllü təşkilatların yaradılması müsəlman dövlətlərinin maliyyə-təsərrüfat inteqrasiyasının işgüzar əsaslarını da ərsəyə yetirmiş, onların ayrı-ayrı komponentlərinin: ticarət bağlaşmaları sistemi, mənfəətin bölünməsi, birgə sahibkarlıq, əmək münaqişələrinin tənzimlənməsi və bu və ya digər seqmentlərinin yeni elmi izahının verilməsini zərurətə çevirmişdir.

***İslam maliyyəsi*** müvafiq iqtisadi konsepsiyaya əsaslanaraq yeni sosial-iqtisadi quruluşun təməlini təşkil edən İslamın rəvac verdiyi «əməklə əldə olunan mülkiyyət» ideyasını irəli sürməklə dövlət, koperativ və xüsüsi bölmənin balanslaşdırılmış qarşılıqlı fəaliyyət sistemi üzərində pərvəriş tapır. Bu maliyyə konsepsiyasında ənənəvi müsəlman vergiləri İslam iqtisadi sisteminin bir hissəsi elan olunur. Borc müamiləsi üzərində qadağa qalaraq iqtisadi həyatın tənzimləyicisi kimi faizsiz işləyən İslam bankları, o cümlədən vahid İslam İnkişaf Bankı təşəkkül tapır. İlk cərgəyə kapitalı deyil, sahibkar keyfiyyətini çıxaran İslam maliyyə-iqtisadi sistemi layihənin reallaşması zamanı mümkün zərərləri investorun üzərinə qoyaraq mənfəətin biznes tərəfdaşları arasında keyfiyyət müstəvisində bölüşdürür.

İslam maliyyəsinin ilkin artım məqamları 1973-1974 və 1979-1980-cı illərdə İslam ölkələrinin ticarət balansının neft eksportundan əldə olunan nəhəng müsbət saldosu hesabına təzahür etmişdir. Növbəti illərdə neft gəlirlərinin azalmasına baxmayaraq İslam maliyyəsinin ekspansiyası digər faktorlar üzərində intişar tapmışdır. Bu perspektiv ilk əvvəl İslam prinsiplərinə əsaslanan sosial-siyasi sistemlərin bərqərar olunmasına istinad etmiş, sonradan Ərəb neftdollarları Qərb komponiyaların səhmlərinə, banklarının depozitlərinə çevrilməyə istiqamət götürmüşdür. Belə situasiyada Yaxın Şərq ölkələri daha çox portfel investorlar qismində çıxış etmişlər.

*Dünyaya hakim kəsilən müasir ictimai-iqtisadi situasiya göstərir ki, maliyyələr korporasiyalar və banklardan çıxaraq ayrıca dövlətlər qismində qlobal olmuşlar. Bəzən isti pullar adlanan fövqəlləşən belə kapitalın maliyyə gücünü dövlətlərin və hətta planetin bütöv bir regionunun maliyyə güvvəsi ilə fərqləndirilir.*

*Müasir zamanda qlobal maliyyə özünün bir başa investisiya funksiyasından daha çox hərbi təyinatlıq funksionallıqa cəlb olunur. Yeni ortodoksal islamçılıq meylinə də ənənəvi müsəlman cəmiyyətlərinə müasir dünyada İslam hakimiyyətini təcəssüm etdirən aktiv maliyyə-siyasi ekspansiya xarakterikdir.*

İslam iqtisadi konsepsiyası və onun yeni formalı maliyyə sistemi bir sıra dövlətlərin iqtisadi siyasətinin əsasını təşkil edir. Hazırda dövlət səviyyəsində İslamın iqtisadi prinsipləri bir

neçə ölkədə həyata keçirilir. Bu sırada mütərqqi liderlik Malaziyaya məxsusdur.

Ənənəvi müsəlman cəmiyyətləri Qərbin texnoloji gücünün iqtisadiyyatının və mədəniyyətinin müasir üstünlüyünə iki aspektdə cavab verirlər.

*Birincisi aspektdə* müasir Qərb mədəniyyətinə adaptasiya olunmaqla məsafə fərqini aşaraq inkişafa nail olmaq. Bu istiqaməti İslamın trasformasiyası kimi xarakterizə etmək olar.

*İkinci aspekt* isə fundomental və ya İslamçı mövqeylidir. Belə ki, onun məqsədini Qərbin mədəniyyətinin mənimsəməklə deyil, öz inkişafını İslam mədəniyyətinin dəyərləri əsasında möhkəmlətməkdən ibarətdir.

Ən müasir tarixi dövrdə İslam ölkələri daha çox yüksək texnologiyalar sferasında genişlənən tədqiqatlara üstünlük verirlər. Müasir maliyyə qoyuluşları bu ölkələrdə birbaşa investisiyalar şəbəkəsində mütərəqqi texnologiyalara, o cümlədən hərbi sferaya yönəlir. İslam ölkələri iqtisadi azadlıqlarının təmin edilməsində öz hərbi qüdrətlərini artırmaqda da daha qətiyyətli görünürlər. Belə istiqamət isə qısqanclıqlar hədəfinə çevrilir. Sadəcə olaraq Türkəiyənin müasirləşən texnoloji hərbi qüdrəti, Pakistanda nüvə silahının yaradılması sevdalı hisslər yaratmır.

Müsəlman dünyasında İslam maliyyəsinə arxalanan ETT-nin genişlənən vüsəti, digər tərəfdən informasiya texnologiyalarının inkişafı həmən ölkələrdə müasir sivilizasiyanın yeni bucaq altında təşəkkülünü görüntülü edir. Bir sıra Qərb siyasətçiləri İslami dünyagörüşün mühüm aspektlərindən olan cihad konsepsiyasının da informasiya texnolojiyaları şəbəkəsində inkişaf tapdığını diqqətə çəkirlər. Bu baxımdan onlar çağdaş qloballaşma və vurtuallaşma şəraitində İslam iqtisadi ekspansiyasının mühüm təzahürlərindən biri olaraq müasir elektoron cihadının /*e-cihad*/ kiber məkanda irəliləyişini misal çəkirlər. Müvafiq yanaşmada sirli məqamlar və ehtiyatlı əsaslar istisna olunmur. Təsəadüfü deyildir ki, informasiya texnologiyalarının ən yüksək inkişaf templərinə mənsub 10 ölkənin 6-sını Yaxın Şərq dövlətləri təşkil edirlər. BƏƏ isə bu siyahıda yalnız Çindən geri qalaraq ikinci yerdə qərar tutur. Görumdüyü kimi İslam maliyyəsinin virtual cihad funksiyasını yerinə yetirmək və şəriət qanunlarının bu prosesə qoşulması imkanları yüksəlir [127].

## *9.4. İslam banklari yeni tərəqqi müstəvisində*

İslama sosialist sisteminin eqalitarizmi /*fransızca bərabərlik - kiçik burcua utopiyası*/ yaddır, fərdin işküzar uğuru isə salamlanır və mükafatlandırılır. İslam maliyyəsi və onun konfessial bank sistemi məhz bu cəhəti ilə fərqlənir. İqtisadi sferada ədalət prinsiplərin uca tutan İslam biznesinin təşkili formaca müştərək sahibkar partnyorluğa istinad edir. Bu çevrədə İslam bank sistemi aparıcı mövqedə dayanaraq biznes işinə və səmərəli sahibkar fəaliyyətə tənzim verir.

*İslam ideyalarına əsaslanan prinsiplər əsasında işləyən ilk tipik banklar ötən əsrin 60-70-ci illərində ABŞ-da təşəkkül tapmış və sürətlə İslam iqtisadiyyatlı dövlətlərinə: öncə Misir, sonra isə Yaxın Şərq və digər Asiya məmləkətlərinə keçid edərək coğrafiyasını genişləndirmişlər.*

Ərəb monarxiyasının bərqərar olduğu ölkələrdə neftdolları bazası əsasında dünya maliyyə məkanına inteqrasiya olunan yeni tipik bank sistemi formalaşmışdır. Bu bakların səciyyəvi xüsüsiyyəti onunla bağlanılır ki, burada depozit cəlbetmə prosesi və faizli kreditvermə sistemi yoxdur. Bu reallıq sərvətin şəxsi əmək, sahibkar səylər və irsi keçidlə əldə olunan İslamın etik normalarından irəli gəlir. Oxşar təzahürülü proses qismən Yapon bank sistemində də mövcudur. Belə ki, ölkənin Milli Bankı kommersiya banklarını sıfır faiz altında refinansə edir. Lakin bu heç də İslam bankinqi ilə tam üst-üstə düşmür.

Müsəlman aləmində şəriət prinsiplərinin bank işində geniş tətbiq məkanı olaraq Misir dövləti fərqlənmişdir. Ötən əsrin 60-cı illərində bu ölkədəki mövcud recim ictimai-iqtisadi həyatın bütün sferalarında İslam funtomentalizminin bərqərar olunması təşəbbüsləri və səyləri ilə

çıxış etmişdir. Burada 1963-cü ildə Mit Qəmr şəhərində iqtisadçı Əhməd əl-Nəcər tərifindən yerli əhalinin xidmət göstərən ilk tipik İslam bankı «*Mit Qəmr Benk*» yaradılmışdır. Bank istifadəçilərə üç növ hesabda - əmanət, investesiya və zəkat formasında xidmətlər təklif olunmuşdur. Əmanət qoyluşları faizsiz prinsipdə - tələbin istənilən anında məhdudiyyətsiz qaytarılmasını şərtləndirmiş, investesiya hesabından reallaşmalar mənfəət və zərərin pay bölgüsü şərtliliyinə əsalanmışdır. Zəkat gəlirləri isə yoxsul və məzlumlar arasında bölüşdürülmüşdür. Belə təmayüllü bankın isə öz növbəsində kommersiya maraqlarına deyil, sosial məqsədləri hədəf seçən prinsiplərə xidmət etdiyi aydın görünür.

«Mit Qəmr Benk»la eyni zamanda - Asiya qitəsində, 1963-cü ildə konstituasiyalı olaraq özünü İslam ölkəsi elan etmiş Malaziyada da müvafiq tipik İslam bankı prezentasiyadan keçmişdir. 1973-cü ildə Fillipində də İslam bankı təsis olunmuşdur.

XX əsrin 70-80-ci illərində İslam bankinqinin inkişafı daha intensiv xarakter aldı. Artıq 1971-ci ildə Misrin paytaxtı Qahirə şəhərində insanlara dəfn, toy mərasiləri və digər «xeyr-şər» məqsədli tədbirlərdə maliyyə yardımları verən «*Nasr Souşl Benk*» adlı ilk İslam bankı təsis edildi. 1974-cü ildən müvafiq bank kiçik sahibkarlara şəxsi bizneslərin formalaşdırmaq məqsədi ilə sudalar verməyə başlamışdır. Bu bank artıq 1980-ci ildə 10$ milyon, 1982-ci ildə 13$ milyon mənfəfət əldə edərək 14 min sayda kiçik sahibkarlara xidmət göstərmişdir [127, 134].

İslam bank sisteminin dünyəviliyi 1973-cü ildə möhtəşəm İslam İnkişaf Bankının təsisinə rəvac verdi. Müsəlman ölkələrinin maliyyə nazirlərinin konfransında yaradılan bank 1975-ci ildə tam funksional fəaliyyətə keçdi. Onun məqsədlərini İslam qanunlarına əsaslan sistemdə müsəlman dünyası ölkələrinin sosial-iqtisadi inkişafına yardım mənafeləri ifadə edir. İİB-nın 55 üzv ölkənin vəsaitindən ibarət kapitala malikdir. Burada əməkdaşlıqda iştirakçılıq prinsipal olaraq qayəsini İKT üzvlüyündən götürür. Səudiyyə Ərəbistanının Ciddə şəhərində mənzil qərəgahı yerləşən İİB-nın valyutası bankın şərti pul vahidi olan dinardır. Bir İİB dinarı hazırda təxminən 1,33$ ekvivalentdir. İİB-nin rəsmi dili ərəb dilidir. Bununla belə ingilis və fransız dillərindən işçi dil kimi istifadə edilir. İİB-nin bir sıra ölkələrində regional təsistatları və müvafiq çoxsaylı filialları fəaliyyət göstərir.

Hazırda müasir İslam bankları bütün ənənəvi bank əməliyyatlarını həyata keçirirlər. Bununla belə faizsiz, spekulyativ olmayan İslam xarakterli müvafiq banklar üstün əməliyyat sistemi ilə də fərqlənirlər. İslam banklarının əsas əməliyyatlar sistemində geniş formalarına aşağıdakılar aid edilir:

I. **Müşarəkə** - /*ərəçbcə - şəriklilik*/ şəriklilik, yoldaşlıq, layihənin bank və sahibkarla bircə reallaşdırılması. Bu əməliyyatda faiz aspekti mənfəətin bölgüsündə paylar, səylər, bacarıq keyfiyyətləri miqyasında təzahür edir. Zərər isə iştirakçılar arasında maliyyələ qoyuluşunda proporsiyalar nisbətində bölünür. Burada bank əməliyyatın və onun nəticələrinin bütün mərhələlərində real iştirakçı kimi çıxış edərək maliyyələşmə və nəzarət funksiyalarını da müştərək yerinə yetirir. Müşarəkə tipli sövdələşmədə partnyorların müsəlman olması tələb edilmir. Lakin tərəflərdən birini müsəlman olması, onun nəzarət funksiyalarına rəhbərliyini şərtləndirir. Burada hər bir partnyor eyni zamanda etibar edən və zamin olan ikili funksiya daşayır. İnvestisiyalaşan vəsait azad dövr etməli, onun ölçüləri və mənsübiyyəti şəffav olmalıdır ki, bölcü və ləğetmə prosesində konfiliktlər yaratmasın.

II. **Müdaraba** - etibarlılıq oriyenasiyalı maliyyələşmə. Müsəlman təsərrüfatçılığının əsas prinsiplərinə istinad edən müdərəba sazişində mahiyyət onunla bağlanılır ki, bir tərəf kapital təqdim edir, dögər tərəf isə onu idarə edərək biznesə investisiyalaşdırır. Burada mənfəət öncədən təsbit olunmuş proposiyalar müqabilində bölüşdürülür.

III. **Mürabaha** - /*ərəbcə - alqı-satqı*/ kommersiya və ticari əməliyyatların maliyyələşdirilməsi prisipinə əsaslanır. Burada bank bütün riski öz üzərinə götürərək kommersiya əməliyyatını maliyyələşdirməklə müvafiq miqdarda mənəət əldə edir. Konkret olaraq bu əməliyyat çevrəsində əmtəələr alınır və müvafiq faizlər əlavə etməklə yenidən reallaşdırılır. Fərq isə mənfəət yaradır. Bir sıra islamşünansları bu əməliyyatın

İslamın faizsizlik prinsiplərinə zidd olduğunu qeyd edirlər. Hətta Pakistanın Ali Məhkəməsini son qərarlarında mürəbaxanın və bai-müdcəllədə /*vaxtı keçmiş tədiyyənin satışı*/ riba elementləri olduğundan qeyri-müsəlman maliyyə əməliyyatı kimi elan edilmişdir.

IV. **İcar** - lizinq əməliyyatlarına oxşar üzünmüddətli icarə.

V. **İcar va-İktina** - müştərinin icarəyə götürdüyü avadanlıq və qurğunun tam alışın hüqüqna əsaslanan saziş.

VI. **Zəkat** - mütləq vergi. Bank İslam prinsiplərinə uyğun olaraq 2,5% həcmində zəkat üçün müvafiq zəkat evi yaradır. Toplanan zəkatlar yoxsullara yardıma, ictimai işlərə və məişət şəraitinən yaxşılaşdırılması layihələrinin maliyyələşməsinə yönəldilir. Bununla belə zəkat evinə mütləq zəkatdan savayı gönüllü ianələrdə qəbul olunur.

VII. **Kərd-əl-əhsan** - faizsiz suda. Bank fiziki şəxsə və təşkilata təsbit olunmuş vaxt ərzində qaytarılan suda verir. Bu vəsaitlər banların xüsusi fondlarından ayrılır. Belə banklar hətta dövlətə də müvafiq layihələrin həyata keçirilməsində faizsiz sudalar təqdim edirlər.

İslam bankı müştəriləri üçün üç növlü faizsiz hesab açır:

- **Cari hesab** - faiz stavkasını istisna edən konversional banklarda olan əmanət və çek hesabının analoqu. Burada banka müştəri xcidmətindən ödəniş tütülməsi icazəlidir. İnfliyasiya zamanı isə bank nominal faiz xüsusunda əmanətçilərə kompensasiyalar verir;
- **İnvestisiya hesabı** - əmanətçi bankın icra etdiyi mənfəət və zərərlərin sazişdə nəzərdə tutduğu qaydada müxtəlif əməliyyatlar üzrə vəsaitləri investisiyalaşdırır;
- **Kredit hesabı** - ehtiyacı olan sahibkarlara uzun və ya qısamüddətli kredit təqdim olunur. Varlı müsəlman vəsaitlərini depozitə qoyaraq öz dindaşlarına kredit yardımı göstərir. Bank isə öz növbəsində həmən vəsaitin təsbit olunmuş vaxt ərzində əmanətçiyə qaytarılmasını təmin edir.

Bununla belə vurğulanmalıdır ki, İslam bank xidmətlərin struktur formatı sadəlövh görüntülü deyildir. Burada iddiaçıdan öz sahəsi istiqamətində müəyyən menecment bacarığı və səriştə tələbləri sorum edilir, mütələq qaydada onun maliyyə vəziyyəti, ödənişqabiliyyətliliyi yoxlanılır və bəzəi hallarda girov qlyuluşları da tələb olunur [19, 127].

İslam banklarının kredit-suda və əməliyyat fəaliyyəti yuxarıda diqqətə çəkilən forma və mexanizmlərlə məhdudlaşmır. Bu əməliyyatlar sistemi İslam profilli bakların əsas mahiyyət məramını təşkil etsə də, onların fəaliyyət çevrəsi şəriət pratikasına uyğun olaraq təkmilləşir, yeni reallıqlara adaptasiya olunur. Belə yanaşma bankları iqtisadiyyatın real sektoruna getməyə və müvafiq layihələrə rəhbərliyə labüd edir.

İslam profilli banklar müsəlman ölkələri coğrafiyasından çıxaraq Avroatlatik məkanı, Cənub-Şərqi Asiyanı ağuşuna alır.

*Qərbdə ilk İslam bankı - 1978-ci ildə Lyuksenburqda yaradılmışdır. Sonradan müvafiq bank sistemi Cenevrədə təşəkkül taparaq əksər Avropa ölkələrinə yayılmışdır. Hazırda dünyanın 40-dan çox ölkəsində İslam bankları, 200-dən çox İslam maliyyə institutları böyük səmərəliklə fəaliyyət göstərirlər. Onların aktivlər toplumu artıq yüz millyard ABŞ dolları ilə ölçülür. Bu gerçəklik isə İslam banklarına olan tələb genişliyi ilə bağlıdır.*

Planetin bir sıra bank nəhəgləri artıq İslam dünyasının bank sistemi ilə sıx partnyorluq təmasları qurmaqdadırlar. Məhşur dünyəvi «Sitibank» da artıq ötən əsrin sonlarından İslam bank sisteminə inteqrasiyaya qoşularaq Yaxın Şərq ölkələrində özünün müvafiq qurumlarını yaratmışdır.

İslam banklarının idarə edən bakirlər, iqtisadçılar, menecerlər qətiyyətlə qeyd edirlər ki, yaxın gələcəkdə dünyanın əksər bankları eyni zamanda İslam oriyentasiyalı xidmətlər göstərilməsinə keçid edəcəklər. Digər tərəfdən belə bir hesablamada aparılmışdır ki, İslam bank sistemi müsəlman aləmində son etibarlılıq həddinə çatacağı təqdirdə o, dünya bank sisteminə sarsıdıcı zərbə vuracaqdır. Belə ki, müsəlmanlar öz pul vəsaitlərini Qərb banklarından çıxarıb özlərinin İslam banklarında yerləşdirsələr bu ehtimal gerçəkliyə çevriləcəkdir.

### *9.5. «Üçüncü yol» fenomeni və ya islam sosializasiyasi*

Qloballaşmadan fərqli olaraq «Üçüncü yol» fenomeni nisbi gənc səlnamə tarixinə malikdir. İlkin yaranış mərhələsində o, sosialist və kapitalist təlimlərini bir araya gətirmək istəyində olanlara minnətdərdır. Sonrakı inkişaf trayektoriyasında «Üçüncü yol» Almaniyada təftişçilik, İngiltərədə fabinizm, Fransada sindikaliz konsepsiyalarda təşəbbüs olunmuşdur. «Üçüncü yol» konsepsiyasını geniş intişar prosesini əsaslı olaraq II Sahan savaşından sonrakı illərdə əldə etmişdir. Bu zamanlar artıq Avropa sosial-demokratiyası köklü olaraq ictimai-siyasi, sosial-iqtisadi proqramlarda demokratik sosializm və qarışıq iqtisadiyyat mövqelərində və müəyyən qədər də kapitalist və sosialist konvergensiyasında ehtiva olunan inkişaf modelində çıxış etməyə başlamışdır.

Nailiyyətlərə baxmayaraq Avropa sosial bazar modeli XX əsrin səksənici illərində öz potensialını gerçəkləşdirərək enişə məruz qaldı.

Yeni dövriyyə toplayaraq müvafiq model ötən əsrin 90-cı illərinin ortalarında «kommunist alternativliyinin» tükənməsi şəraitində, qloballaşma kontekstində optimal funksional bazar sistemi xətt üzrə istimamət götürdü. Bu zamanlardan etibarən «Üçüncü yol» əsasən milli və qlobal iqtisadiyyatın bazar sistemi çərçivəsində alternativlərinin axtarışı kimi qavranılmağa başlanıldı.

«Üçüncü yol» fenomenin köklərində bir sıra islahatçı təlimlərin: etik, xristian sosializminin, daha yeni səpkidə ideyalı konstruksiyalar - kommunitarizm kimi cərəyanların dayandığı diqqətə gətirilir.

Yeni interpretasiyada «Üçüncü yol» inkişafın postindustrial mərhələsinə keçid edən dövlətlərdə daha çox müvəffəqiyyətlə irəliləməkdədir.

«Üçüncü yol» modeli klassik «solçulardan» və yeni «sağçılardan» fərqli olaraq, onların pozitiv cəhətlərini yeni kateqoriyalarda formalaşdırmaqla müstəqil ideya sisteminə iddia edir. Birincilər sırasında o, sosial-demokratik korporatizmi, steytizmi və keyniziyançılığı, inkincilər sırasında isə neoliberallar, neokonservatorlar, tetçerizm və reyqanomika fenomenlərində təcəssüm olunur.

İlkin olaraq bir sıra təşəbbüslərdə müstəqil «Üçüncü yol» ideologiyasının kiçik işsizlik səviyyəli və yüksək sosial təbəqəli amerikan bazar iqtisadi modelinin, tarixi dövləti rifah ənənələri və xroniki işsizlik stukturlu kontenintal Avropa modeli ilə sintezinə əsaslan formatda reallaşdırılması nəzərdə tutulmuşdu. Sonradan Qərbi Avropanın bir sıra siyasətçiləri belə qənaətə gəldilər ki, «Üçüncü yol» axtarışında ABŞ təcrübəsinin öyrənilməsi gərəkli deyil. Daha müqabil kapitalizmin anqlo-saks və reyn-alpik modelləridir və bu axtarışda həmən təcrübəyə istinad edilməlidir. Müvafiq yanaşmada «Üçüncü yol» konsepsiyası liberal demokratiyanın baza dəyərlərinin qəbul etməklə sosial-demokrat ideologiyasının modernləşməsi prinsiplərini rəhbər tutur. Belə prinsipiallıq bir tərəfdən sol yükün əhəmiyyətli hissəsini atmaq, digər tərəfdən isə qloballaşan bazar iqtisadiyyatı çərçivəsində islahatlar aparmağı hədəfə çəkir. «Üçüncü yolün» əksər iddiaçıları da məhz bu istiqamətli inkişafı müdafiə edirlər. ABŞ və İngiltərə isə daha çox anqlo-saks bazar iqtisadi modelinin modernizasiyasına, digərləri isə sosial bazar və keynisiyanlıq ənənəlrini birləşdirən kontenetlal Avropa modelinə üstünlük verirlər [127-134].

«Üçüncü yolün» digər variantlarında sosial-demokratiyanı əvəzləyən yeni postsosial-demokratik sistem quruculuğuna keçid nəzərdə tutulur. Əslində ***«Üçüncü yol»*** konsepsiyasının mahiyyəti açıq interpretasiyada yeni epoxial mərhələnin ictimai-siyasi və sosial-iqtisadi çərçivədə struktur düzümünün, stabil və dayanaqlı inkişafını təmin edən qlobal modelin axtarışı ideyası və reallaşmasının təminatı ilə bağlanılır. Bazar iqtisdiyyatı və demokratiyanı gerçək sınamışlar yəqinliklə bilirlər ki, bu modellər də tarixi tsiklikə malikdirlər və onlar daim bütün tərəfləri qane edə bilməzlər. Yaşantısının bir neçə əsirlik tarixi ərzində liberal iqtisadiyyat dəfələrlə qlobal böhranlarla üzləşmiş, bir sıra məmləkətlər də isə geniş tətbiqə belə vəsiqə qazanmamışdır. Bu günkü reallıqlar isə daha dərinləşən qlobal axın proseslərini, təkmil və

mükəmməl olaraq bəşəri sivilizasiyanı daha uzaqlara apara biləcək model istəyindədir. Bu istəyin enerji toplumu öz akkumlyatorlarını artıq yetərli gərginliklərlə təmin etmişdir.

İqtisadi inkişafın tarixi göstərir ki, hər bir epoxial sivilizasion mərhələnin ehtiyaclarını mədəni, dini ənənələrdən qaynaqlanan kapital tipi təmin edir. Belə ki, vurğulandığı kimi ticarətin inkişafı üçün vacib olan kapital əməliyyatları - pullardan istifadə etdiklərinə görə əcnəbilərdən alınan faizlər, iudey faiz kapitalının yaranışına səbəb olmuşdur. İndustrial epoxa isə fərqli kapital tipinin yaranışını tələb etmişdir. Protestant etikası müvafiq tələblərə yeni dini əsaslar vermiş və nəticədə sənaye protestant kapitalı yaranmışdır. Bununla belə kapitalın bu yeni tipi tam olaraq öz sələfini inkar etməmişdir. İslam təsərrüfat etikası isə *sosial paylaşma, hamıya mümkün diferensial yetişə* üzərində qurulan kapitalı bərqərar etmişdir. Bu baxımdan xristian kapitalı özəl sahibkarlığa əsaslanan aksentdə industriala, iudey kapitalı isə ilk növbədə ticari-bank kapitalının faizliliyinə istinad edir. İslam kapitalı isə investitsiyalı dünyagörüş təyinatı alır.

Müasir mərhələdə dünya iqtisadiyyatı postindustrial mərhələyə qədəm qoymuşdur. Nəzərə alınmalıdır ki, industrial kapital industriala qədərki kapitaldan frəqləndiyi kimi, postindutrial kapital da industrialdan fərqlənməli və gerçək olaraq da fərqlənəcəkdir. Lakin yeni epoxial mərhələnin konkret etik motivasiyası da formalaşmaya məhkumdur. İslama bağlı olanlar vurğulayırlar ki, postindustrial kapitalın etik və hüquqi prinsipləri məhz bu dini təməlin qaynaqlarına əsaslanmalıdır. Bu fikir əsaslı olaraq ondan irəli gəlir ki, dünyanın «yaddan çıxmış» Şərq qütbündə müsəlman qanun və ənənələrinə istinad edən, İslam iqtisadiyyatı adlanan yeni ictimai-siyasi, sosial-iqtisadi bəşəri təsərrüfat sistemi formalaşımaqdadır. Aydınlıqla artıq hiss olunmaqdadır kı, çağdaş zamanda İslam dünyasında tarixi revanşın ideoloji gücü yüksəliş mərhələsinə qədəm qoymuşdur. Bu ideoloji gücün fövqündə isə bəşəri sivilizasiyanın həyati tələbli yaranışlarının istinası deyil, onlardan istifadənin ən optimal etik normallarını birləşdirən İslam təsərrüfatçılığının əxlaqi prinsipləri dayanmaqdadır. Yeni təsərrüfat sisteminin təşəkkül aspektində ideoloji tələb heç də təsadüfü sayılmamalıdır. Buraya ilk növbədə çağdaş sivilizasiyanın sosial-iqtisadi potensial tükənişi, qloballaşma prosesi və antiqlobal müqavimət, demoqrafik situasiya, təbii resursların kalonial istismarının güclənməsi, regional bərabərsizlin dərinləşməsi, iqtisadi intervensiyalar, dini diskriminasiyalar, milli şüurun resenansı və yeni rəqabət mübarizəsi kimi faktorlar daxil edilir [134].

Qərb mədəniyyətinin mütərəqqi texnoloji və iqtisadi üstünlüyünü inkar etməyən müsəlmanlar kapitalizm və kommunizmin bəşər cəmiyyətinin inkişafını dalana saldığını tez-tez vurğulayırlar. Onların qətiyyətincə həqiqi inkişafa vahid olan düzgün istiqaməti yalnız İslam verir. Elə buna görə də planet əhalismin 25%-ni təşkil edən müsəlmanlar daha sivil sosial-iqtisadi normaları, mənəvi-əxlaqi təsərrüfatçılıq prinsiplərini bərqərar edəcək yeni İslam intibahının astanasında oldüğü qətiyyətindədirlər. Bu qətiyyət XXI əsrin bir saylı fövqəl dövləti olamaq istəyi ilə çarpışan Çinin xalqının milli şüuruna hakim kəsildiyi kimi, müsəlman xalqlarının da idarakında köklü qərar tutmuşdur. Əksər müsəlmanlar indi yeni sivilizasiyanın daşıyıcı olacaqları əzminə köklənmiş və sosiallaşan iqtisadiyyatın müsəlman intibahıçevrəsində təşəkkülünə isralıdırlar.

# NƏTİCƏLƏR

Bəşəri sivilizasiyanın iqtisadi strukturunun təkamülünün araşdırılması ön plana çəkilmiş monoqrafik tədqiqatda iqtisadiyyatın sosiallaşmasının empirik-nəzəri aspektləri və yeni inkişaf oriyentirləri mümkün elmi təhlil obyektinə çevrilmişdir. Burada əsas aksent insanın təsərrüfat mədəniyyətinin sosiallaşmasını şərtləndirən amil və meyllərin təsir çevrəsinə istiqamətləndirilmişdir.

Sistemli və tredli yanaşmada, elmi deduktiv metodla aparılan tədqiqat işində nəticəvi olaraq iqtisadiyyatın sosiallaşması konsepsiyasına yeni təzahürdə təyinat verilmişdir. Bu təyinatı elmi əsaslandırmaq üçün iqtisadi fikir tarixi konsepsiyalarının sosial strukturluğu, cəmiyyət quruculuğunun tarixi-fəlsəfi reallıqları təhlil olunaraq dəyərləndirilmişdir.

İlkin təsərrüfatçılıq kompozisiyası, iqtisadiyyatın konfessiallığı, nəzəri-iqtisadi şəcərənin elmi təşəkkülü və sivilizasiyanın inkişaf mərhələlərinin təhlili əsasında aparılan araşdırmalar göstərmişdir ki, bəşər cəmiyyəti mədəni quruluş aldığı çağlardan başlayaraq onu sosial təməl daim müşayiət etmişdir. Yaşadığımız indiki sivilizasion mərhələdə isə sosial faktor iqtisadi inkişafın bütün şəbəkəsində əsas qaynaq mexanizminə çevrilmişdir. «İqtisadiyyat» bir elm olaraq sosial diapazonda sienerji effektivində yeni elm sahələrinin yaranışını - «İqtisadi sosiologiya» və «Sosial iqtisadiyyat»ın təşəkkülünü labüd etmişdir.

Aparılan araşdırmalarla müəyyən olunmuşdur ki, iqtisadiyyatın sosial xarakter alması istinasız olaraq insan faktoru üzərində pərvəriş tapır. Sosiallaşma demokratik irəliləyişlərin bazisinə çevrilir. İnsan kapitalı rifahı yüksəlişin təminatında daha qəti məşğulluq əldə edir, yoxsulluğu, əhali marginallaşmasını tamamilə aradan qaldırılağı başlıca iqtisadi səy kimi qarşıya qoyur. İqtisadiyyatın sosialaşması prosesi bütövlükdə planetin mineral-xammal bazasının, material və mənəvi resurslar şəbəkəsinin səmərəli istifadəsi imkanlığından qaynaqlanır. Bu sırada enerji problemi daha kəskin və üstün mövqedə dayanır. Tədqiqat araşdırması ilə müəyyən olunmuşdur ki, enerji amili bütün yaranışların fövqündə dayanaraq çeşidli müvafiq sivilizasiya paradiqmalarını ərsəyə yetirmişdir. Bu baxımdan bəşər sivilizasiyası daş, tunc, dəmir dövrlərinə bölündüyü kimi, oduncağın, bio kütlənin, karbohidrogen resursları və nüvə sintezli enerji epoxolarına da təsnifləşdirilir.

Tədqiqat prosesində iqtisadiyyatın sosiallaşması istiqamətində idarəetmə və tənzim vermənin üstün obrazı, dövlətin, korporasiyaların, ayrı-ayrı subyektlərin rolu dəyərləndirərək texnoloji və kadr menecmentinin əhəmiyyət yükü yeni və klassik səpkidə araşdırılmışdır. Əsaslandırılmışdır ki, gəlirlərin optimal bölgüsü, adekvat sosial infrastruktur, əlverişli pension təminat, yüksələn servis ümumi sintezdə, bəşəri həyat sferasının dolğun səmərəli idarə olunmasında sosial siyasətin imperativlərini təcəssüm etdirir.

Beynəlxalq inteqrasiyanın dərinləşməsi, qlobal axın, regionlaşma meyli və qlokolizasiya gerçəklikləri rifahı yüksəliş istiqamətlində bir sıra mühüm cəhətlərin nəzərə alınmasını şərtləndirir. Sosiallaşan iqtisadiyyat harmoniyasını coğrafi sosial-iqtisadi modelləşmə, modern informasiya texnologiyaları, yeni innovasiya nailiyyətləri müstəvisində qurur. Bu baxımdan tədqiqat araşdırması hər hansı bir arealda iqtisadiyyatın sosial istiqamətinin dinamikliyinin təyinatı verilən mühüm bəşəri nailiyyətlər sferasından kənarda mümkünsüzlüyünü əsaslandırır.

Əlverişli işgüzar mühit formalaşdırmadan, real biznes strategiyası qurmadan, azad və səmərəli təşkilati iqtisadi zonalar yaratmadan iqtisadiyyatın sosiallaşması gerçək görünmür. Sosiumun inkişaf tendensiyası, biznesin struktur dəyişikliylərini şərtlilik verə də, bununla paralel qeyri-kommersial yaranışların da tərəqqisini diqtə edir.

Sosiallaşan iqtisadiyyat sofitizasiyanın inkişaf perspektivləri, açıq icma və vətəndaş cəmiyyəti quruculuğu, konstitusiya iqtisadiyyatını, rasional seçim konsepsiyasını önə çəkir. Futuroloji məntiq göstərir ki, noosferaya keçiddə iqtisadiyyatın sosiallaşması ilə yanaşı sosial ekologiyanın da inkişafı labüddür. Bununla belə yeni perspektivlərin təyinatında da yalnız retrospektiv elmi təməlçilik deyil, həm də təkmil sosial-iqtisadi proqnoztik şəbəkə yaradılmalıdır.

İqtisadiyyatın sosiallaşmasının alternativləri sırasında tədqiqat araşdırmasının əsas hədəfi kimi yeni dövriyyə və güc toplumu əldə etmiş İslam iqtisadiyyatına ehtiram göstərilir. Belə münasibət onunla əsaslandırılır ki, əksər müasir iqtisadi modellər əslində yəhudi-xristian məkfurəsinin zəminində formalaşmışdır. Və onların sosial bazası infilyasiyaya məruz qalmaqdadır. Buna görə də ən inkişaf etmiş ölkələrdə belə müvafıq modellər yetərli ədalətli gəlirlər bölgüsünü və real sosial paritetliyi dolğun təmin etməkdə imkanlarını tükəndirmişlər.

Təhlili araşdırmalar bir daha göstərir ki, yeni mükəmməl sosial-iqtisadi model axtarışında - «Üçüncü yol» konsepsiyası müstəvisində İslam maliyyəsi və sosializasiyası mühüm alternativ konsensus olaraq möhkəmlənir.

# ƏLAVƏLƏR

***Əlavə 1***

## İQTİSADİYYAT SAHƏSİNDƏ NOBEL LAUREATLARI
## /1969-2004-cü illər/

### 1969
**/müştərək/**

İqtisadi proseslərin təhlili üçün dinamik modellərin yaradılması və tətbiqi



**İsveç iqtisadçısı**
**Raqnar**
**FRİŞ**
**/1885-1973/**



**Holland iqtisadçısı**
**Yan**
**TİNBERQEN**
**/1903-1994/**

### 1970

Statik və dinamik iqtisadi nəzəriyyənin inkişafındakı və iqtisadiyyat elmi sahəsində ümumi təhlil səviyyəsinin yüksəlişinə tövhələr verdiyil elmi işlərə görə



**ABŞ iqtisadçısı**
**Rol Entoni**
**SAMUELSON**
**/1915/**

### 1971

İqtisadi artımın, sosial və iqtisadi strukturun, eləcə də inkişaf prosesinin yeni və daha dərin anlaşılmasına gətirmiş empirik əsaslandırılmış interpretasiyasına görə



**ABŞ iqtisadçısı /*Rus əssili*/**
**Saymon**
**KUZNES**
**/1901-1985/**

## 1972

**/müştərək/**

Ümumi iqtisadi tarazlıq və rifah nəzriyyələrini yenilikçi tövhələrlə zənginləşdirdiyinə görə



**İngilis iqtisadçısı**
**Con Riçard**
**XİKS**
**/1904-1989/**



**Amerikaniqtisadçısı**
**Kennet Cozef Yan**
**ERROU**
**/1921/**

## 1973

«Xərclər-buraxlış» metodunun inkişafı və onun mühüm iqtisadi problemlərdə tətbiqinə görə



**ABŞ iqtisadçısı /*Rus əsilli*/**
**Vasiliy**
**LEYONTYEV**
**/1906-1990/**

## 1974

**/müştərək/**

Pul və iqtisadi titrəyiş nəzəriyyələrinin, həmçinin iqtisadi. ictimai və institutisional hadisələrin qarşılıqlı rabitəli dərin təhlili üzrə yerinə yetrilmiş başlıca işlərə görə



**İsveç iqtisadçısı**
**Qunar**
**MYURDAL**
**/1898-1987/**



**İngilis iqtisadçısı**
***/Avstriyalı/***
**Fridrix Fon**
**XAYEK**
**/1899-1992/**

## 1975
**/müştərək/**

Resursların optimal bölgüsü nəzəriyyəsini
zənginləşdirdiklərinə görə




**Sovet-rus iqtisadçısı**
**Lionid Vitalyeviç**
**KONTOROVİÇ**
**/1912-1986/**

**ABŞ iqtisadçısı**
**Tyallinq Çarliz**
**KUPMANS**
**/1910-1986/**

## 1976

İstehlak analizi sahəsində və pul tədavülü tarixində
nailiyyətlərə, monetar nəzəriyyə işlədiyinə, həmçinin iqtisadi stabilləşmə siyasətinin
mürəkkəbliyini göstərdiyi üçün



**ABŞ iqtisadçısı**
**Milton**
**FRİDMEN**
**/1912/**

## 1977
**/müştərək/**

Beynəlxalq ticarət və kapitalın beynəlmiləl hərəkəti nəzəriyyəsinə ilk keçid tövhələrinə görə




**İsveç iqtisadçısı**
**Bertil Qottxard**
**OLİN**
**/1899-1979/**

**İngilis iqtisadçısı**
**Ceymis Eduart**
**MİD**
**/1907-1995/**

**1978**

İqtisadi təşkilat çərçivəsində qərar qəbuletmə prosesinin
yenilikçi tədqiqatlarına görə



**ABŞ iqtisadçısı**
**Qerbert**
**SAYMON**
**/1916/**

**1979**
**/müştərək/**

İqtisadi inkişafın, xüsüsəndə inkişaf etməkdə olan ölkələrin problemlərində tətbiq edilə bilən pioner tədqiqatlara görə





**ABŞ iqtisadçısı**
**Teodor Ulyam**
**ŞULS**
**/1902/**

**İngilis iqtisadçısı**
**Artur**
**LYUİS**
**/1915-1991/**

**1980**

İqtisadi modellərin yaradılması və onların iqtisadi
titrəyişlərdə və iqtisadi siyasət təhlili tətbiqinə görə



**ABŞ iqtisadçısı**
**Lornes**
**KLEYN**
**/1920/**

## 1981

Maliyyə bazarlarının vəziyyətinin və onların xərclər, işsizlik, istehsal və qiymət sahəsində qərar qəbul etmə siyasətinə təsirinin təhlilinə görə



**ABŞ iqtisadçısı**
**Ceyms**
**TOBİN**
**/1918/**

## 1982

Sənaye strukturlarının, bazarların funksionallığı, dövlət tənzimlənməsinin səbəb və nəticələri üzrə yenilikçi tədqiqatlara görə



**ABŞ iqtisadçısı**
**Corc**
**STİQLER**
**/1911-1991/**

## 1983

Ümumi tarazlıq nəzəriyyəsi və onun bir sıra mücərrəd iqtisadiyyatlarda mövcudluq şərtlərinin anlaşılmasını zənginləşdirən tədqiqatlarına görə



**ABŞ iqtisadçısı /*Fransız əsilli*/**
**Cerard**
**DEBRE**
**/1921/**

## 1984

Empirik iqtisadi analizin əsaslarını əhəmiyyətli dərəcədə yaxşılaşdıran dövlət hesabat sisteminin inkişafındakı fundomental tövhələrə görə



**İngilis iqtisadçısı**
**Riçard**
**STOUN**
**/1913-1991/**

## 1985

Əmanətlərə münasibətlərdə insanların davranışlarının təhlilinə görə



**ABŞ iqtisadçısı /*İtalyan əsilli*/**
**Franko**
**MODİLYANİ**
**/1918/**

## 1986

İqtisadi və siyasi qərar qəbuletmədə sazişçilik və konstitutsion təməlli nəzəriyyənin əsaslarının işlənməsi tədqiqatlarına görə



**ABŞ iqtisadçısı**
**Ceyms Makdcil**
**BYUKİNEN**
**/1919/**

## 1987

İqtisadi artım nəzəriyyəsini zənginləşdirdiyinə görə



**ABŞ iqtisadçısı**
**Robert**
**SOLOU**
**/1924/**

## 1988

Bazarlar nəzəriyyəsi və resursların səmərəli utilizasiyası istiqamətində yenilikçi tövhələrə görə



**Fransız iqtisadçısı**
**Moris**
**ALLE**
**/1911/**

## 1989

Ekonometriyanın ehtimal əsaslarının sübutuna və müştərək iqtisadi strukturların təhlilinə görə



**Norveç iqtisadçısı**
**Tryuqve**
**XAVELMO**
**/1911/**

## 1990
**/müştərək/**

Maliyyə nəzəriyyəsində yenilikçi tədqiqatlara görə



**ABŞ iqtisadçısı**
**Xarii**
**MARKOVİS**
**/1927/**



**ABŞ iqtisadçısı**
**Merton**
**MİLLER**
**/1923-2000/**



**ABŞ iqtisadçısı**
**Uilyam**
**ŞARP**
**/1934/**

## 1991

Transaksiyon xərclərin, institusional strukturun və iqtisadiyyatın funksionallığının hüquqi mülkiyyətçiliyinin açlışı və əhəmiyyətlərinin izahına görə



**ABŞ iqtisadçısı**
**Ronald**
**KOUZ**
**/1910/**

## 1992

İnsan münasibətləri, qeyri-bazar və insan davranışlarının geniş dairəvi məsələlərinin makroekonomik analiz sferasında yayılması tədqiqatlarına görə



**ABŞ iqtisadçısı**
**Qari**
**BEKKER**
**/1930/**

**1993**

İqtisadi nəzəriyyə və kəmiyyət metodlarının tətbiqi ilə iqtisadi və institusional dəyişiklikləri izah edən iqtisadi tarix tədqiqatlarının dirçəlişinə görə





**ABŞ iqtisadçısı**
**Rober Uilyam**
**FOQEL**
**/1926/**

**ABŞ iqtisadçısı**
**Duqlas Sesil**
**NORT**
**/1920/**

**1994**
**/müştərək/**

Oyunlar nəzəriyyəsinin əks maraqlarında tarazlığın yenilikçi təhlilinə görə







**ABŞ iqtisadçısı**
***/Macar əsilli/***
**Con**
**XARŞANİ**
**/1920-2000/**

**ABŞ iqtisadçısı**
**Con**
**NEŞ**
**/1928/**

**Alman iqtisadçısı**
**Reynxard**
**SELTEN**
**/1930/**

**1995**

Makro analiz olunan və iqtisadi siyasət anlamını dərinləşdirən rasional gözləmə hipotezinin işlənməsi və tətbiqi görə



**ABŞ iqtisadçısı**
**Robert**
**LUKAS**
**/1937/**

## 1996

**/müştərək/**

Assimetrik informasiya şəraitində stimulların iqtisadi nəzəriyyəsində fundomental tövhələrə görə



**İngilis iqtisadçısı**
**Ceyms**
**MİRRLİZ**
**/1936/**



**Kanada iqtisadçısı**
**Uilyam**
**VİKRİ**
**/1914-1996/**

## 1997

**/müştərək/**

Törəmə qiymətli kağızların /*derivativlər*/ gəlirlərinin yeni hesablama metodikasının işlənməsinə görə



**ABŞ iqtisadçısı**
**Robert**
**MERTON**
**/1944/**



**ABŞ iqtisadçısı**
**Mayron**
**ŞOULZ**
**/1941/**

## 1998

Əhalinin rifah halının iqtisadi təhlilinindəki
apardığı tədqiqatlara görə



**Hind iqtisadçısı**
**Amartya**
**SEN**
**/1933/**

## 1999

Müxtəlif mübadilə kursları recimlərində pul-maliyyə siyasətinin və optimal maliyyə sferalarının təhlilinə görə



**Kanada iqtisadçısı**
**Robert**
**MANDEL**
**/1932/**

## 2000

**/müştərək/**

Yeni ekonometrik nəzəriyyənin və
empirik iqtisadiyyatın mikroiqtisadi analiz metodlarının
firmaların, ev təsərrüfatları və fərdlərin davranışına aid
yaranışı və öyrənilməsi istiqamətindəki tədqiqatlarına görə



**ABŞ iqtisadçısı**
**Cemes**
**HEKMAN**
**/1944/**



**ABŞ iqtisadçısı**
**Daniel**
**FADDEN**
**/1937/**

## 2001

**/müştərək/**

Bazarlarda assimetrik informasiya probleminin işlənməsi və tədqiqinə görə




**ABŞ iqtisadçısı**
**Corc**
**AKRLOF**
**/1940/**



**ABŞ iqtisadçısı**
**Maykl**
**SPENS**
**/1943/**



**ABŞ iqtisadçısı**
**Cozef**
**STİQLES**
**/1943/**

## 2002
**/müştərək/**

İqtisad elmində psixoloci metodun tətbiqi, insan faktorunun tədqiqi və qeyri-müəyyənlik şəraitində qərar qəbul etməyə /*D.Kaneman*/ və iqtisadi analizin, məxsusi olaraq alternativ bazar mexanizmlərrinin öyrənilməsi /*V.Smit*/ üzrə tədqiqatlara görə



**ABŞ və İsrail iqtisadçısı**
**Daniel**
**KANEMAN**
**/1934/**



**ABŞ iqtisadçısı**
**Vernon**
**SMİT**
**/1927/**

## 2003
**/müştərək/**

İqtisadiyyatda müvəqqəti sıralar təhlil metodunun işlənməsinə görə




**ABŞ iqtisadçısı**
**Robert**
**ENQEL**
**/1942/**




**İngilits iqtisadçısı**
**Klayv**
**QRENCER**
**/1934/**

## 2004
**/müştərək/**

İqtisadi siyasətin müvəqqəti tərkib hissələri və biznes-tsikllər daxilində hərəkət edən qüvvələr zəminində dinamik makroiqtisadiyyata verdiyi tövhələrə görə





**Norveç iqtisadçısı**
**Finn**
**KİDLAND**
**/1944/**

**ABŞ iqtisadçısı**
**Edvard**
**PRESKOTT**
**/1941/**

**2005**
**/müştərək/**

Oyunlar nəzəriyyəsinin köməkliyi ilə konfliktlərin yaxşı anlaşılması və əməkdaşlıqa görə



**Norveç iqtisadçısı** **Robert AUMAN** **/1930/**

**ABŞ iqtisadçısı** **Tomas ŞELLİNQ** **/1921/**

***Əlavə 2***

# İQTİSADİYYAT SAHƏSİNDƏ NOBEL LAUREATLARI STATİSTİKASI
**/1969-2005-cü illər/**

***LAUREATLARIN SAY XARAKTERİSTİKASI***

| | |
|---|---|
| Ümumi mükafat sayı | 34 |
| Fərdi alanlar | 20 |
| İki nəfər arasında bölgü | 14 |
| Üç nəfər arasında bölgü | 3 |
| Cəmi laureat sayı | 57 |

***LAUREATLARIN VƏTƏNDAŞLIĞI VƏ MİLLİYYƏTİ***

| | |
|---|---|
| Amerikan | 35 |
| Britaniyalı | 8 |
| Kanadalı | 2 |
| Norveçli | 4 |
| İsveçli | 2 |
| Fransalı | 1 |
| Holland | 1 |
| Hindistanlı | 1 |
| Alman | 1 |
| SSRİ - Rus | 1 |
| İsrail | 1 |

*Əlavə 3*

## AYRI-AYRI DÖVLƏTLƏRDƏ ADAMBAŞINA VƏ MÜVAFİQ ƏRAZİ VAHİDİNƏ DÜŞƏN NEFT HASİLATI /1901-1930-cu illər/

| ÖLKƏLƏR | Adambaşına düşən neft hasilat (ton) | | | Ərazi vahidinə düşən neft hasilatı (min ton/min km$^2$) | | |
|---|---|---|---|---|---|---|
| | 1901 | 1920 | 1930 | 1901 | 1920 | 1930 |
| Azərbaycan | 3,944 | 1,35 | 4,120 | 94,25 | 33,33 | 118,39 |
| ABŞ | 0,121 | 0,539 | 0,975 | 3,14 | 6,09 | 12,78 |
| Meksika | 0 | 3,515 | 0,423 | 0,33 | 13,08 | 2,69 |
| Venesuella | 0 | 0,125 | 6,815 | - | 0,08 | 20,18 |
| Kolumbiya | 0,498 | - | - | - | - | - |
| Peru | 0,045 | 0,245 | 0,459 | 0,19 | 0,06 | 1,25 |
| İndoneziya | 0,017 | 0,076 | 0,116 | 0,17 | 1,89 | 3,41 |
| İran | 0 | 0,510 | 0,813 | - | 1,33 | 3,64 |
| Polşa | 0,103 | 0,061 | 0,039 | 4,47 | 2,24 | 1,92 |
| Rumıniya | 0,085 | 0,158 | 0,585 | 0,06 | 4,62 | 23,11 |
| Kanada | 0,038 | 0,003 | 0,019 | - | - | 0,02 |
| Argentina | 0 | 0,024 | 0,087 | - | 0,008 | 0,43 |
| Ekvador | 0 | 0 | 0,129 | - | - | 0,70 |
| Misir | 0,3 | 0 | 0 | 0,026 | - | 0,25 |
| Yaponiya | 0,004 | 0,005 | 0,005 | 0,01 | 0,02 | 0,81 |

*Əlavə 4*

## QLOBAL NEFT SİVİLİZASİYASININ ƏN MÜHÜM TARİXİ MƏQAMLAR XRONOLOGİYASI

**Bizim eradan əvvəl IV-II miilliklər:** Fərat çayı ətrafında görüntü və istehlak;

**Bizim eradan əvvəl III miillik:** Asfaltdan Mesopotamiya və Misirdə inşaat materialı kimi istifadə;

**Bizim eradan əvvəl V-III əsrlər:** neft haqqında ilk xatiratların antik yunan tarixçiləri Herodotun, Plutraxın əsərlərində və Bibliya yazılarında əks sədası;

**Bizim eradan əvvəl IV əsr:** Makidoniyalı İsgəndərin Şərq yürüşündə qədim Azərbaycan ərazisində neftlə yanan çırağın ona təqdim olunması;

**Bizim eradan əvvəl IV-II əsrlər:** Çində təbii qazın istehlakı;

**Bizim eradan əvvəl III-II əsrlər:** Hərbi döyüşlərdə «yunan atəşi» adlanan neftli məhsuldan istifadə;

**Bizim eradan əvvəl III əsr:** Atəşpərəstlərin təbii yanar qazların yerin təkindən özbaşına çıxış arealı - Azərbaycanda ərazi-coğrafi kontekstli toponium yaranışı;

**X-XII əsrlər:** Ərəb və fars alimləri Əbdül Həsən Məsudi, İbn Misqəveyh, Əbu Dulaf əsərlərində Azərbaycan ərazisində quyu üsullı neftçıxarmanın intensiv mövcudluğu qeydləri;

**XIII əsr:** İtalyan səyyahları Marko Pola, İosafat Barbaronun Şərq səyahətlərində Abşeronda neftçıxarmanın mövcudluğu bir daha təsdiqi və xatırlanması;

**XIII-XVI əsrlər:** Azərbaycanda neft quyularının qazılması və istismarının peşə səviyyəsinə yüksəlişi, neftdən geniş tikinti materialı və fiskal mexaniz kimi istifadə;

**1594-cü il:** Balaxanılı usta Allahyar Məhəmmədnur oğlunun inşa etdiyi quyunun 64 metrlik dəyrinliyə malikliyi faktı;

**1629-cu il:** misyoner Delya Roşdalonun Azərbaycanda təbii neft fontanı haqqında qeydləri;

**1719-cu il:** Rus çarı I Pyotrun Bakı və Şirvan neft mədənlərinin ələ keçirilməsinin məqsədlərinin Şərq yürüşü planlarına daxil etməsi;

**1723-cü il:** Bakı mədənlərinin Rusiyanın ələ keçirməsi ilə dünyada ilk neft uğrunda dövləti mübarizə;

**1729-cu il:** Bakı neftinin geniş çeşiddə Peterburq apteklərində satışı;

**1729-cu il:** Abşeronda neft quyularının xəritəsinin tərtib olunması;

**1733-cü il:** Peterburq EA-nın akademiki S.Q.Qemelin qeydlərində Bakıda 52 neft quyusunun mövcudluq təəssüratları;

**1804-cü il:** Xəzərin Bibi-Heybət sahilində neft quyusunun inşaa edilməsi;

**1806-cı il:** Bakıda neftçıxarmanın intensivləşməsi və onun hasilatının uçot-hesabat göstəricisinə çevrilməsi;

**1826-cı il:** ABŞ-da düz axtarışı görə qazılan quyudan neft tapıntısı;

**1831-ci il:** ABŞ-da Kanaua manufakturasında təbii qazdan ilk istifadə hadisəsi;

**1848-ci il:** Bakıda dünyada ilk neft quyusunun mexaniki üsulla qazılışı;

**1848-ci il:** Kanada Geoloji Xidmətinin direktoru Ser Uilyam Loqanın antiklinal strukturlardan neftin təbii çıxışına təsadüf etməsi ilə neft-qaz yataqlarının axtarış və kəşfiyyatının nəzəri əsasının qoyulması;

**1854-cü il:** Rumuniyada neft hasilatının intensiv başlanğıcı;

**1854-cü il:** Qalsiyada kerosin sənayesinin təşəkkülü;

**1854-cü il:** Şüşə kolbalı məşhur «Vyana lampası»nın görünməsi;

**1857-cı il:** Rumuniyada iri neft yatağının aşkarlanması;

**1859-cü il:** ABŞ-da Qərbi Pensilvaniyada polkovnik Dreykin artezan üsullu qazmada nəhəng neft yatağının aşkarlaması ilə ilk dünyəvi neft həyəcanının başlanğıcı;

**1865-ci il:** ABŞ-da ilk neftnəqletmə kəmərinin inşaası;

**1870-ci il:** Amerikalı Con Rokfellerin dünyada ilk neft kompaniyası «Standart Oil»u yaradılması

**1871-ci il:** ABŞ-da Pensilvaniyada ilk neft bircasının açılışı;

**1871-ci il:** Azərbaycanda neft sənaye epoxasının başlanğıcı;

**1872-ci il:** Neftin qiymətlərində ilk titrəyişlər, «Standart Oil» kompaniyasının neft industriyasının strateci seqmentləri emal və nəqliyyatın əlinə keçirməsi;

**1873-cü il:** Norveçli iş adamları Nobellərin Bakıda neft işinin təşkilinə başlamaları;

**1879-cı il:** Nobellərin Bakıda 1879-cu ildə dünya neft tarixinə ilk şaquli inteqrasiyalı şirkət «Nobel qardaşları» kompaniyasının təsisi;

**1886-cı il:** Rusiyada ilk dövrü neft nəşriyyatının */«Trudı Bakinskoqo Otdelenia İmperatorskoqo Russkoqo Texniçeskoqo Obhestva» /* təşəkkülü;

**1887-ci il:** Meksikada neft hasilatının başlanğıcı;

**1888-ci il:** Sankt-Peterburqda neft istehsalını tərənnüm edən ilk ÜmumRusiya sərgisinin açılışı;

**1890-cı il:** «Royal Datç» kompaniyasının təsis edilməsi;

**1890-cı il:** Bakı tərsanələrində ilk neft tankerinin inşaası;

**1892-ci il:** «Şell» neft kompaniyasının təsis edilməsi ilə kerosin bazarının oliqopolizasiyasının başlanması;

**1892-ci il:** «Mureks» kompaniyasına mənsub tankerin Bakı benzini ilə Suveyş kanalını keçərək Sinqapur və Bankonq limanlarına göndərişi;

**1892-cı il:** Rusiyanın maliyyə naziri İ.Vitte rəhbərliyi zamanında imperiya bubcəsinin mədaxil hissəsinə neft gəlirlərini daxil etmişdir.

**1893-cı il:** İndoneziyada neft hasilatının başlanğıcı;

**1898-cı il:** Bakıda neft hasilatı həcminin ABŞ-ı ötməsi;

**1897-1906 cı illər:** limanlar arası ən uzun magistral «Bakı-Batumi» neft kəmərinin inşaası və açılışı;
**1904-cü il:** Pirallahı adası sahilində neft hasilatına başlanğıc;

**1904-cü il:** Britaniya donanmasının daş kömürdən neft yanacaqlı sistemə keçidi;.

**1907-ci il:** ABŞ-ın Missuri ştatında ilk avto yanacaq doldurma stansiyasının açılışı;

**1908-ci il:** İranda neft hasilatının başlanğıcı;

**1909-cü il:** İraqda neft hasilatının başlanğıcı;

**1909-cü il:** Bibi-Heybət buxtasında ilk dəniz mədənin yaranışı;

**1909-cü il:** İngilis-Fars neft kompaniyasının təsisi */1954-cü ildə «Bitriş Petrolium»/*;

**1911-ci il:** ABŞ Ali Məhkməsinin qərarı ilə «Standart Oil» kompaniyasının Standart Oil New Cersy */hazırda Exxon/,* Standart Oil New York */hazırda Mobil/,* Standart Oil Californiya */hazırda Chevron/,* Standart Oil Indiana */hazırda Amoco/,* Standart Oil Ohio */hazırda BP America/* şirkətlərinə parçalanması;

**1911-ci il:** İlk dəfə benzin tələbinin kerosini üstələməsi;

**1911-ci il:** ABŞ-da Pensilvaniyada ilk dəfə su vurumu metodu ilə layveriminin artırılmasının tətbiqi;

**1920-ci il:** Rusiyada dünyada ilk dəfə olaraq neft sənayesinin milliləşdirilməsi və bu səbəblə də Qərbin rus neftinin alınmasını boykot etməsi;

**1920-ci il:** İlk tam dövlət mülkiyyətli «Azərineft» neft şirkətinin təsisi;

**1926-cı il:** İlk dəfə dünya neft ehtiyatlarının tükənməsi haqqında proqnozların dövriyəyə çıxışı;

**1928-ci il:** Dünyanın aparıcı nəhəng neft kompaniyalarının prezidentlərinin neft qiymətlərini sabitləşdirmək məqsədi ilə bir araya gəlməsi;

**1929-cü il:** Azərbaycan Neft Sənayesi Elmi Tədqiqat İnstitutunun təsisi;

**1930-cı il:** Şərqi Texasda açılan nəhəng neft yatağı izafi istehsal yaradaraq neftin qiymətinin aşağı düşməsi ilə müşayiət olunaraq qiymətlərin tənzimlənməsinə rəvac vermişdir.

**1930-cı il:** Moskvada İ.M.Qubkin adına neft-qaz institutunun açılışı;

**1934-cü il:** Küveytdə neft hasilatının başlanğıcı;

**1938-ci il:** Səudiyyə Ərəbistanında neft hasilatının başlanğıcı;

**1938-ci il:** Meksikada neft sənayesinin milliləşdirilməsi;

**1939-cu il:** Pirallahı adası sahilində açıq dənizdə metal dirəklər üzərində ilk qazma qurğusunun inşaası;

**1941-ci il:** Bakıda İliç buxtasında dünyada ilk maili trubinli quyu inşaası;

**1947-ci il:** Meksika körfəzi şelfində neft yatağının aşkarlanması

**1948-ci il:** Neft daşlarında neft-qaz yataqlarının açılışı;

**1948-ci il:** ABŞ-ın neft idxalçısına çevrilməsi;

**1950-ci il:** Ərəb-Amerikan neft şirkəti «Aramko» Səudiyyə Ərəbistanıından Aralıq dənizinin Suriya və Livan sahillərinə yetişən nəhəng neft kəmərinin inşaası;

**1950-ci il:** İngilis-İran kompaniyasını milliləşdirilməsi, Britaniyanın İran neftini boykot etməsi, müharibədən sonrakı ilk neft böhranı;

**1953-cü il:** Səudiyyə Ərəbistanı ilə İraqın neft sənayesinin vəziyyəti haqqında informasiya mübadiləsi. */Neft tarixində bu qəbildən dövlətlərarası ilk saziş/*;

**1956-cı il:** Neft daşımaları mühüm arteriyası Suveyş kanalının bağlanması, İkinci neft böhranı;

**1956-cı il:** Əlcəzair və Nigeriyada neft hasilatının başlanğıcı;

**1959-cu il:** Liviyada neft hasilatının başlanğıcı;

**1959-cu il:** Avropa qaz sənayesinin təməlini qoyan dünya qaz nəhəngi «Qroningen» */Niderland/* yatağının açılışı;

**1960-cı il:** Qərbi Sibirdə ilk neft yatağı «Şaimsk»in açılışı;

**1960-cı il:** OPEK-in təsis edilməsi;

**1964-ci il:** Şimal dənizində kəşfiyyat işlərinin başlanması;

**1964-cı il:** Sıxılmış təbii qazın kontinentlərarası təchizatının müntəzəmləşməsi;

**1967-cı il:** Ərəb-İzrail müharibəsi ilə «Aramco»nın ABŞ və Böyük Britaniyaya neft satışına embarqo qoyması, Üçüncü neft böhranı;

**1969-cu il:** Qərbi Sibirdə nəhəng «Samotlar» yatağının açılışı;
**1969-cu il:** Şimal dənizində neft hasilatının başlanğıcı;

**1969-cu il:** Liviyada neft sənayesinin milliləşdirilməsi;

**1973-cü il:** 20 ildən sonra ilk dəfə yenidən neft tələbinin təklifi üstələməsi;

**1973-cü il:** OPEK hasilatı azaldıb, neftin 70% qiymətini artıraraq İzraillə müharibədə Misir və Suriyanı dəstəkləməsi, Dördüncü neft böhranı;

**1973-cü il:** İxracat potensialı ildə 22 milyard $m^3$ olmaqla Qərbi Sibir qazının Avropaya nəqlini reallaşdıran nəhəng qaz kəmərinin inşaası;

**1974-1976 cı illər:** Səudiyyə Ərəbistanının «Aramco»nu mərhələli olaraq milliləşdirilməsi;

**1975-ci il:** Küveytin «Gulf-BP» konsessiyasının milliləşdirilməsi;

**1976-cı il:** Venesuelanın «Shell», «Exxon» və başqa xarici kompaniyaların konsessiyasını milliləşdirməklə onların milli «Petroleos de Venesuela» şirkətinə qatması;.

**1979-1981cı illər:** İran inqilabı, İran-İraq müharibəsi, ABŞ-da, Qərbi Avropada və Yaponiyada neft rezervləri yaradılması praktikasına keçid, neft qiymətinin bir barrelinin 40$-a yüksəlişi, Beşinci neft böhranı;

**1982-ci il:** OPEK-in ilk dəfə hasilata kvotalar tətbiq etməsi;

**1986-cı il:** Neftin bir barrelinin 10$-a qədər enişi;

**1987-ci il:** Başlıca Səudiyyə Ərəbistanı olmaqla OPEK ölkələrinin birgə səyləri ilə neft qiymətlərinin bərpası;
**1990-1991-ci illər:** İraqın Kuveytə intervensiyası, BMT-nin İraqa sanksiyalar tətbiq etməsi;

**1991-ci il:** SSRİ-nin süqutu;

**1993-1994-cü illər:** Rusiyada neft kompleksinin özəlləşdirilməsinə başlanğıc;

**1993-cü il:** Xəzər neft həyacanının başlanğıcı;

**1994-ci il**: «Əsrin müqaviləsinin» bağlanması, Bakı-Ceyhan ideyasının yaranışı**;**

**1995-ci il:** «Petro-Canada» şirkətinin özəlləşdirilməsi;

**1997-ci il:** Kiotoda CO2 emissiyasının azaldılması və neft-qaz istehsalına ekoloji pressinqin gücləndirilməsi üzrə beynəlxalq deklorasiyanın imzalanması;

**1998-ci il:** Neftin bir barrelinin yenidən 10$-a qədər enişi, kiçik neft kompaniyalarının iflası, nəhənglərin birləşməsi, ilk dəfə OPEK-in müstəqil neft ixracatçıları ilə hasilatın məhdudlaşdırılmasına rəğmən sövdələşmələrə girməsi;

**1999-cü il:** İqtisadiyyatın dirçəlisi, neftin bir barrelinin 25$-a yüksəlişi, Avropa qaz və enerji bazarlarının geniş liberallaşma, ABŞ-da elektrik və qaz kompaniyalarının konvergensiyası, Latın Amerikası, Yaxın Şərq və Afrikada xarici investorlar üçün neft-qaz sahəsində özəlləşmə tendensiyalarının güclənməsi.

**2003-2004-cü illər:** İrakın ABŞ tərəfindən işağalı neft qiymətlərinin yüksəlişinin rekord səviyyədə qeydə alınması.

**2005-ci il:** Neftin bir barelinin rekord 70$ həcminə yetişməsi

*Əlavə 5*

# PLANETİN RESURSLAR BAZASI

| | |
|---|---|
| **ENERGETİK RESURSLAR** | |
| **1.Neft** | Ehtiyatlar - 270-300 milyard ton. İllik məsrəf 3 milyard ton. Perspektivlik imkanları 40-50 il. |
| **2.Təbii qaz** | Ehtiyatlar - 151 trilyon $m^3$. İllik məsrəf 2,2 trilyon $m^3$. 30-50 illik perspektiv. |
| **3.Daş kömür** | Ehtiyatlar 10 trilyon ton. İllik məsrəf 5 milyard ton. Mənimsəmə imkanlığı 100 ildən çox. |
| **4.Yanar şistlər** | Ehtiyatlar 40 trilyondan çox. Zəif istifadə olunur. Yüksək əmək tutumludur. Tullantılıq bolluğuna ğörə məhdud perspektivlidir. |
| **5.Torf** | Ehtiyatlar 150 milyard ton. Ekoloji pozuntuluğuna ğörə məhdud perspektivlidir. |
| **6.Çayların hidroenerjisi** | Ehtiyatlar 150 milyard ton. Ekoloji problemliyə baxmayaraq aktiv istifadə olunur və perspektivliyini itirilməmişdir. |
| **7.Atomun parçalanması və nüvə sintezi enerjisi** | Fiziki olaraq ehtiyatlar tükənməzdir. Ekoloji təhlükəli olmasına baxmayaraq son illərdə bu sahədə mühafizəldi keçid əldə edilmişdir. |
| **8.Qeotermal enerji** | Yetərli ehtiyatlıdır. Zəif istifadə olunur. Perspektivlidir. |
| **9.Dənizlərin qabarma və çəkilmələri, okean axınları enerjisi.** | Yetərli ehtiyatlıdır. Zəif istifadə olunur. Perspektivlidir. |
| **10.Günəş radiasiyaı.** | Praktiki tükənməzdir. Məhdud istifadə olunur. Perspektivlidir. |
| **11.Külək enerjisi** | Çoxdan istifadə olunur. Yerli əhəmiyyətlidir və dokal keyfiyyətdə də perspektivlidir. |
| **SU RESURSLARI** | |
| **1.Okean və dəniz suları** | Keyfiyyət miqdarı mahiyyətcə dəyişməsə də bir qədər dayazlıqlarda turşulaşma gedmişdir. Qlobal olaraq agır metallarının həcmi artmışdıir. Hesağb olunur ki, çirklənmə mümkün normaları aşmışdır. |
| **2.Göllər və su anbarları** | Ehtiyatlar 5000 $m^3$ su həcmindədir. Turşulaşma və çirkləşmə müşahidə olunur. |
| **3.Axar sular -çaylar** | Çox hallarda dərin antropoqen transpormasiya olunmuş. İntensiv istifadə edilir. |
| **TORPAQ RESURSLARI** | |
| **1.Torpaqlar** | Qlobal olaraq pozuntuludur, əkin sahələrinin 20% duzlaşmışdır. Ekstrimal tənzimləmə tələb olunur. |
| **2.Relyefin qeomorfoloji strukturu** | Faydalı qazıntıların hasilatı və insanın təsərufat fəaliyyəti nəticəsində lokal dəyişmişdir. Diqqət tələb edir. |
| **3.Geomorfoloci dərin strukturlar** | Yeraltı su sorumları su hövzələrinin doldurulması nəticəsində lokal dəyişmişdir. Diqqət tələb edir. |
| **MİNERAL RESURSLAR** | |
| **1.Metal filizlər qeyri-metal faydalı qazıntılar** | Müntəzəm olaraq tükənir. Tənzimləmə tələb edir. |
| **BİTKİ VƏ HEYVANAT DÜNYASININ RESURSLARI** | |
| **1.Bitki biokütləsi** | Qlobal azalmışdır. Diqqət və tənzimləmə tələb edir. |
| **2.Bitki örtüyünün təsərrufat istehsalı** | Yalnız məhdud miqyaslarda artım mümkündür. |
| **3.Bitki aləminin qenetik növ quruluşu** | 10% bitkilərin məhv olması təhlükəsi vardır. Qorunma tələb edir. |
| **4.Heyvanat aləminin biokütləsi** | Ümumiyyətlə stabildir. Diqqət və tənzimləmə tələb edir. |
| **5.Heyvanat aləminin təsərrufatarlıq istehsalı** | İstənilən səviyyədən bir qədər azdır. Artım imkanlıdır /xüsüsən lokal olaraq/. Perspektivlidir. |
| **6.Heyvanat aləminin qenetik növ quruluşu** | 1000-dən çox iri heyvanların və naməlum sayda kiçikləin də itməsi təhlükəsi. Labüd qorunma və himayətçilik ehtiyasındadır. |

| İQLİM VƏ REKREASİYA-TƏNƏFFÜS RESURSLARI | |
|---|---|
| **1.Təbii iqlim resursları** | Antropoloji faktorların təsiri altında kəskin dəyişmə təhlükəsinin mövsudluğu. Zəruri tənzimləmə ehtiyaslıdır. |
| **2.Ümumi ekooci balans resursları** | Tükənməyə yaxındır. Geomühitin dönməz dəyişkənlik təhlükəsi vardır. Zəruri diqqət və tənzimləmə üzrə təcili tədbirlər ğörülməsi ehtiyaclıdır. |
| **3.Rekreasion resurslar** | Tükənmə və itmə sürəti yüksəkdir. Diqqət tələb edir. |
| **MƏKAN VƏ ZAMAN RESURSLARI** | |
| **1.Ərazi, su, kosmik məkan resursları** | Qeyri-qənaətçilik, qeyri-səmərəlik və çirklənmə müşahidə olunur. Artıq məskunlaşma və tullantıların yüksək konsentrasiyası mövcüddur. Diqqət və tənzimləmə tələb olunur. |
| **2.Zaman resursları** | Ən defisit resurslardan biridir. Bəşəriyyət hələ ki, sistemli resurs düşüncəsinə keçid etməmişdir. Hər an və zaman zaman çatışmamazlıqı mövcüddur. |

*Əlavə 6*

**SOSİAL MÜDAFİƏNİN OBYEKT VƏ SUBYEKTLƏRİ**
# SXEMİ



*Əlavə 7*

# DÜNYANIN TANINMIŞ OFOŞOR ZONALARI

| Sıra № | OFOŞOR ZONA | OFOŞORLUĞUN GÖSTƏRİCİLƏRİ |
|---|---|---|
| 1. | ***Seyşel adaları*** | Ofoşorluğun ən münbit məkanları sırasındadır. Burada qeydiyyat prosesi sadəliyi ilə fərqlənir. Verci və hesab sistemi yoxdur. Konfedisiallıq tam təmin olunmuşdur. |
| 2. | ***Cəbəllüdtariq*** | Böyük Britaniya. Güzəştli vergi. |
| 3. | ***Dominika*** | İnkişaf edən ofoşor mərkəz. Vergilərdən tam azad. |
| 4. | ***Panama*** | Vergilərdən tam azad. |
| 5. | ***Beliz*** | Vergilərdən tam azad. |
| 6. | ***Virqin adaları*** | Böyük Britaniya. Vergilərdən tam azad. |
| 7. | ***Men adası*** | Böyük Britaniya. Avropa biznesi üçün maraqlı yuristiksiya. Vergilərdən tam azad. |
| 8. | ***Mavriki*** | Hind okeanında ofoşor zona. Vergilərdən tam azad. |
| 9. | ***Baham adaları*** | Vergilərdən tam azad. |
| 10. | ***Sent-Kits və Nevis*** | Karib hövzəsində ofoşor zona. Elastik və aydın qanunvericilik Vergilərdən tam azad. |
| 11. | ***Cersi və Qrensi adaları*** | Böyük Britaniya Vergilərdən tam azad. |
| 12. | ***Terksi və Kaikos adaları*** | Böyük Britaniya. Vergilərdən tam azad. |
| 13. | ***Qonkonq*** | Çin Xalq Respublikasının prefekturasında. Vergilərdən tam azad. |
| 14. | ***Kayman adaları*** | Böyük Britaniya. Ofoşor maliyyə mərkəzi. Valyuta nəzarəti yoxdur. Vergilərdən tam azad. |
| 15. | ***Bəxreyn*** | Vergilərdən tam azad. |
| 16. | ***Sinqapur*** | Vergilərdən tam azad. |
| 17. | ***Panama*** | Vergilərdən tam azad. |
| 18 | ***Atil adaları*** | Hollandiyaya məxsudur.<br>Vergilərdən tam azad. |
| 19. | ***Lixtenşteyn*** | Güzəştli vergi. |
| 20. | ***Luksenburq*** | Güzəştli vergi. |
| 21. | ***Kipr*** | Güzəştli vergi. |
| 22. | ***İsveçrə*** | Güzəştli vergi. |
| 23. | ***ABŞ, Delever ştatı*** | Güzəştli vergi sistemi və asan qeydiyyat prosseduru. ABŞ-dan kənarda biznes fəaliyyətinidə kompaniya vergilərdən tam azad olunur. |
| 24. | ***ABŞ, Nevada ştatı*** | Güzəştli vergi. |
| 25 | ***Böyük Britaniya*** | Ofşor və onşor sxem üzrə biznes fəaliyyətinin qeydiyyat məkanı. |

## SOSİAL İQTİSADİ VƏHDƏTDƏ ANLAŞILAN

**Asiya istehsal üsulü** - Qədim Şərqdə dövlətin təsərrüfat həyatında, xüsusən də əkinçilikdə irriqasiyanın tənzimlənməsində iştirakı formasında yaranan istehsal ukladı. Əsas əlamətlərini təsərrüfat həyatının nizamlanmasında dövlətin aparıcı rolu, səxsi əmlak toxunulmamazdığı, ticarət məhdudluğu kimi xüsusi istismar üsullu komponentlər təşkil edir. Bununla belə Asiya istehsal üsulunun mahiyyəti fundomental konteksttdə tam açılmamış qalmaqdadır.

**Açıq cəmiyyət** - insanların bir ölkədən digərinə yerinə dəyişməsi rəsmi məhdudlaşmamışdır.

**«Ağ yaxalıqlar»** - yüksək texnologiyalı iş prosesində çalışanlar, intelegensiya.

**Agent** - /*latınca agent - mövcud hərəkətdə olan*/ praktikada agetlər sövdələşmələri, kommersiya əməliyyatlarını yerinə yetirən icraçılardır. Agent konkret hüquqi və fiziki şəxs ola bilər. Hüquqi şəxs qisimli agent *prinsipal*, əmtəənin satışını reallaşdıran kommersiya agenti *delkredere* adlanır.

**Aksiya** */səhm/* - aksioner cəmiyyəti kapitalına məlum payın daxil edilməsini göstərən və qazanc payı - divident şəklində gəlirin hissəsini almağa ixtiyar verən qiymətli kağızdır.

**Aksiz vergisi** - */lat. accidepe - kəsmək, biçmək/.* Xüsüsi istehlak mallarının satıcıları tərəfindən dövlətə ödənilən vergi növüdür. Bu verciyə vətən və xarici mallar cəlb edilirlər.

**«Aktiv yoxsullar»** - aşağı material imkanlı olaraq bu səviyyətdən çıxmaq üçün həyat güclərini səfərbər edənlər.

**Aktorlar** - sosial hərəkətin subyekti.

**Alternativ xərclər** - təsərrüfat fəaliyyətini həyata keçirmək üçün mövcud xərclərin sərf olunmasının iqtisadi cəhətdən nə dərəcədə əlverişli olub-olmamasının müəyyənləşdirilməsi zəruriliyindən irəli gələn fərqli variasiya.

**Alturizm** - /*fransızca* altruisme - *başqa*/ başqasının naminə təmənnasız olaraq öz mənafeyini qurban verməkdən ibarət əxlaqi prinsip.

**Amalqamisiya - icmaların**, korporasiyaların, birliklərin və digər təsərrüfat subyektlərinin vahid aksioner cəmiyyətində birləşməsi.

**Amplituda** - uzaqlaşma, vüsət, genişlik ölçü mənalarını ifadənləndirir. İqtisadi termin kimi də işlədilir - İqtisadi inkişafın amplitudası.

**Amortizasiya** - əsas vəsaitlərin və digər aktivlərin köhnəlməsinə rəğmən istehsal olunan məhsulun xərclərinə hissəvi qatılması metodu ilə onların sonrakı istifadəsi üçün istehlak əvəzlənməsini təmin edən iqtisadi proses.

**Antik iqtisadiyyat** - Qədim Yunanstan ərazisində təhəkküd tapmış iqtisadi quruluş. Antik iqtisadiyyat ilə Asiya istehsal üsulu mahiyyətcə fərqli səciyyə daşıyırlar. Quldarlıq quruluşunu təşviq və təqdir etməsinə baxmayaraq antik iqtisadiyyat «despotlu» Asiya cəmiyyətindən demokratik hesab edilir.

**Anderklas** /*andersinif*/ - sosial iyerarxiyanın dibində olanlar, insanı simasını itirmişlər /*narkomanlar, əyyaşlar və sair./*

**Anomiya** - /*fransızca* anomia – *qanunun olmaması*/ qanunsuzluq, cəmiyyətdə böhran zamanı təsbit olunmuş normalara zidd davranış.

**Arbitraj** - qiymət fərqinə rəğmən mənfəətin alınması prosesi. Eyni səhmlər müxtəlif bircalarda eyni vaxtda fərqli dəyərdə satılır. Alış və satış fərqi isi digər bircaya nisbətdə mənfəət imkanlıdır.

**Artefakt** - /*latınca artefactum süni düzəldilmiş*/ insan tərəfindən yaradılan predmet.

**Asudə vaxt** - özünü reallaşma vaxtı.

**Attityud** - köhnəlmiş sosial təcrübənin təsiri ilə yeni sosial hərəkətə hazırlıq.

**Audit** - /*latınca auditus - qulaq asmaq*/ predmetini maliyyə-mühasibat hesabatlarının faktları, əsas aparıcı qayəsini müstəqillik prinsipi təşkil edən audit, material-texniki, intellektual və mənəvi əlamətləri özündə cəmləşdirərək optimal dayanaqlı nəzarəti həyata keçirən təftiş təyinatlı fəaliyyət sistemi.

**Auksion** /*hərrac*/ - /*latınca auctbo - onis – artırma, qiymətin artırılması yolu ilə satış*/ əvvəlcədən müəyyən edilmiş yerdə və dövrdə bir sıra əşyaların ayrı-ayrı hissələrlə, şifahi ticarət yolu ilə ümumi aşkarlıq şəraitində satılması nəzərdə tutulur.

**Autsayderlər** - heç bir inhisarçı birliklərə daxil olmayan kiçik və orta müəssisələr.

**Avizo** - bank, kommersiya, mühasibat təcrübəsində əsasən bir kontragentdən digərinə göndərilən hesablama əməliyyatlarının yerinə yetirilməsi haqqında rəsmi məlumatdır.

**Avtarkiya** - öz gücünə istinadən iqtisadiyyat qurma. İqtisadiyyat model spektrində - avtarkiya, açıq iqtisadiyyat və dünya bazarı kimi konfiqurativ sistemə malikdir.

**Bağlı cəmiyyət** - insanları sosial yerdəyişməsinin məhdudlaşdıran sərt sosial struktur.

**Banklar** - /*italyanca banko – masa, oturacaq mənasını ifadə edir*/ pul vəsaitlərinin toplanılması, kreditlərin verilməsi, pulla hesablaşmaların həyata keçirilməsi, dövriyyə üçün kredit vəsaitlərinin emissiyası, müxtəlif qiymətli kağızların buraxılması kimi funksiyaları yerinə yetirən xüsusi iqtisadi institut.

**Bazar** - ayrı-ayrı əmtəələr və xidmətlər üzrə satıcılarla alıcıların birgə fəaliyyəti mexanizmi olmaqla iqtisadi münasibətlərdə tələblə-təklifin məcmusu, hər hansı əmtəə üzrə bir qrup adamların sövdələşməsi ilə baş verən sıx fəaliyyət münasibətləri və əmtəə-pul mübadiləsi forması. Bazarın əmtəələr və xidmətlər, istehsal vasitələri, iş qüvvəsi, elmi-texniki işləmələr, innavasiya və patent, valyuta, maliyyə-qiymətli kağızlar, mənzil, informasiya məhsulları bazarı kimi növlərini fərqləndirirlər.

**Bazar iqtisadiyyatı** - bazar subyektlərinin sərbəstliyini təmin edən azad təsərrüfatçılıq forması.

**Bazar infrastrukturu** - iqtisadiyyatın ümumi quruluşunun bazar sisteminə xidmət edən və onun fəaliyyəti üçün zəruri şərait yaradan tərkib hissəsi.

**Biznes** - /*ingiliscə bisinesse – məşqul, qayğılı*/ gəlir götürməyə yönəldilmiş iqtisadi fəaliyyət. Miqyasına rəğmən nəzəri və praktiki təsnifata görə biznes kiçik, orta və böyük fəaliyyət qruplarına ayrılır. Böyük biznes dövlətin iqtisadi və texniki gücünü nümayiş etdirir. Orta biznes daxili iqtisadi konyukturadan asılı olaraq qrupu daxilində rəqabətə istinad edən prinsiplər əsasında təşəkkül tapır. Kiçik biznes isə əsasən daxili bazara köklənən əmtəə və xidmətləri reallaşdırır. Biznes istehsal, kommersiya və maliyyə növlərinə də ayrılır.

**Bomj** - /*rusca - Bez Opredelennoqo Mesta Citelğstva sözlərinin abbervaturası*/ yaşayış yeri olmayan, sərsəri həyat sürən fərd.

**Birca** - /*almanca pul qabı, pul kisəsi mənasını ifadələndirir*/ əmtəələrin alqı-satqı prosesi ilə məşğul olan bazarın təşkilati forması. Burada alqı-satqı əməliyyatları brokerlər və dilerlər tərəfindən həyata keçirilir. Bircanın əmtəə, fond, valyuta və əmək növlərini fərqləndirirlər.

**Broker** - /*ingilis və fransızca brocour vasitəçi, kiçik ticarətçi*/ bircada əmtəə, qiymətli kağızlar və valyuta bircasında vasitəçilik edən şəxs.

**Büdcə** - /*latıca bulga, fransızca bougette - hər iki dildə kisə, sandıq*/ cari il üçün gəlir və xərclərin pul ifadəsində hesablanmış nisbətdə bölgüsü sistemidir.

**Bürokratiya** - idarəetmə aparatı, məmurlar.

**Cini əmsalı** - İtalyan iqtisadçısı K.Cininin yaratdığı bütün gəlirlər məbləğinin əhalinin ayrı-ayrı qrupları arasında bölgüsünü xarakterizə edən gəlirlər konsentrasiyası indeksi.

**Cəmiyyət** - sosial tip və sosial münasibətləri əks etdirən insanların birgə yaşayış və fəaliyyətinin tarixən yanamış forması.

**Depopulyasiya** - məşqulluq populyasiyasının dinamik prosesləri.

**Devasiya** - qeyri mənəvi və qanundan kənar hərəkət.

**Depersonallaşm**a - insan şəxsiyyətinin dağılmaı vəziyyəti.

**Deprivasiya** - lazimi həyat normasından məhrum olma və ya müvafiq şərit məhdudluğu.

**Desil** - əhalinin məcmui gəlirlərinin həcmcə 10 bərabər qrupa bölən rancir variantı.

**Defisit** - qıtlıq, nəyinsə azlığı, maliyyə sahəsində gəlirlər üzrə xərclərin artması nəticəsində zərər, çatışmama deməkdir.

**Deflyasiya** - /*latınca deflatio - genişlənmə, şişirtmə*/ artıq kağız pulların tədavüldən çıxarılması ilə pul kütləsinin azaldılmasıdır. Proses əksər hallarda pul islahatlarından öncə baş verir.

**Depressiya** - /*latınca depressio - kiçilmə, dərinləşmə*/ iqtisadi eniş prosesi İqtisadi tsikl dörd fazanı: eniş, depressiya, canlanma və yüksəlişi əhatə edir. Yüksəliş iqtisadi inkişaf əyrisinin yüksək nöqtəsi depressiya isə onun aşağı həddidir.

**Deklarasiya** - /*latınca ərizə, bəyannamə*/ məlumat elanı. Deklarasiyanın gömrük, poçt, vergi kimi növləri vardır.

**Dekompozisiya metodu** - idarəetmə nəzəriyyəsində sistemin sadələşdirilməsinin geniş təhlil obyekti kimi şərh olunur. Onun köməyi ilə sistem tərkib və sistemaltı hissələrə, məqsəd və məqsədaltı tapşırıqlara və digər törəmə qruplara bölünərək bir-birindən asılı olmadan həll edilir. Sonradan onlar arasında rabitə, uzlaşma aparılır.

**Dempinq** - /*ingiliscə dompen, dumpen - atmaq, düşmək, əldən salmaq*/ qəsdən ucuzlaşdırılmış eksport malların xaricdə bazarda daxili bazara nisbətən öz dəyərindən ucuz qiymətə satılması.

**Depozit** - müəssisələrin və ayrı-ayrı fiziki şəxslərin, kredit banklarının müvəqqəti sərəncamına həvalə olunan pul məbləği və ya qiymətli kağızlar.

**Dəqiq** /*birdəfəlik*/ **tədqiqatla**r - informasiya yığımı və ya sosial hadisənin öyrənilmə anından kəmiyyət xarakteristikası.

**Diversifikasiya** - /*latınca - diversificatio dəyişkənlik, müxtəliflik, fəaliyyət*/ obyektlərinin bölünməsi və məhsul namenklaturnun genişləndirilməsi, istehsalın bir-biri ilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafı.

**Diler** - birca agenti olan ayrıca şəxs və firma. Əgər broker alqı-satqıda yalnız vasitəçilik edir və buna görə gəlir əldə edirsə, diler həm də sonradan daha baha qiymətə satmaq məqsədilə qiymətli kağızlar alır. Bundan başqa, dilerlər bir-birilə, brokerlərlə, bilavasitə alıcı və ya satıcılarla sövdələşmələrə girə bilərlər.

**Diaspor** - etnosun bir hissəsinin mənşəyi məntəqəsindən kənarda, digər ölkələrdə yaşayışı və yaratdığı icması.

**Disfunksiya** - sosial institutun funksionalığının pozulması.

**Dilənçi** - yalnız özünün fiziki, bioloji tələblərinin ödəyən, məcmuii gəliri yaşayış minimumunda 2 dəfə aşağı olan, sədəqə diləyən insanlar.

**Divident** - /*latınca dividendus - bölgüyə düşən*/ vergiləri ödədikdən, istehsalın genişləndirilməsi üçün məbləğləri ayırdıqdan, ehtiyatlar doldurduqdan, istiqraz faizləri verildikdən və direktorları mükafatlandırdıqdan sonra hər il səhmdarlar arasında bölüşdürülən xalis mənfəət.

**Dotasiya** - gəliri cari məsrəflərini ödəyə bilməyən müəssisələrə dövlət büdcəsindən ayrılan təxsisatlardır. Planlı-zərərlə işləyən müəssisələrin sayının azalması dotasiyanın həcmini azaldır.

**Doktrina** - nəzəriyyədən fərqli olaraq əvvəlcə qoyulmuş prinsiplərdən real hadisə, proses, faktorlardan irəli gəlir.

**Dövriyyə vəsaitləri** - istehsal dövriyyə fondları ilə tədavül fondlarının cəmindən ibarətdir. Bu nisbət 4:1-ə bərabərdir.

**Dövlətsizləşdirmə** - iqtisadiyyatda dövlətin rolunun azaldılması ilə mülkiyyətin xarakterində heç bir dəyişiklik etmədən şaquli təsərrüfat əlaqələrinin üfüqi təsərrüfat əlaqələri ilə əvəz olunması prosesi.

**Duopsoniya** - iki tərəfli inhisarçılıq.

**Dübarə yoxsulluq** - vəsaitlərin qeyri-səmərəli məsrəfi nəticəsində əsas istehlak tələblərinin ödəyə bilməyən ailə kateqoriyası.

**Ehtiyac** - yoxsulluğun orta səviyyəsi.

**Ekologiya** - son bir neçə onillikdə meydanı genişlənsə də, elmi sferada onun ilk görüntüləri XIX yüzillikdə təzahür etmişdir. Yunan mənşəli ev, yaşayış yeri və bu kimi analoci anlamları ifadələndirən «ekos» məfhumunu ilk dəfə klassik darvinizm nümayəndəsi E.Hekkel 1866-cı ildə elmi dövriyyəyə buraxmışdır. Öncə bitkilərin, canlı orqanizmlərin həyat birliklərinin, ətraf mühit problemlərini tədqiqat predmeti seçən ekologiya, karbohidrogen erasının XX əsrdə yüksəliş tapan templəri və bu əsnada insanın təbiətə təsirinin artması fonunda ekosistemin və biosferin bütün qatlarını inhisara alan çağdaş bir elmə çevrilmişdir. Ekoloji problemlərin artan təsir gücü əksər elmlərin ekologizasiyasına gətirmişdir.

**Ekonometriya** - iqtisadi obyekt və proseslərin qarşılıqlı rabitəsini riyazi-statistik və model kontekstində öyrənən elmi təlim.

**Eksport** /ixrac/ - /*latınca exporto - aparıram*/ beynəlxalq ticarətin tərkib hissəsi olaraq əmtəələrin xaricə göndərişi. Müasir dünyada eksport prosesi əmtəə ilə yanaşı kapital, investisiya, xidmət sferalarını da əhatə etmişdir.

**Ekzo** - /*yunaca bayıra*/ xaricə açılan.

**Eqalitarizm** - dövlətdə yaşayan bütün vətandaşların faktiki material bərabərliyin yaradılması cəhdi kimi baxılır.

**Elmi-texniki potensial** - cəmiyyətin qarşısında duran elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusunu xarakterizə edir.

**Empirik tədqiqatlar** - elmin sərt tələbləri əsasında yeni biliyi keyfiyyətə rəvac verən nismi genişmiqyaslı təlqiqat metodu.

**Emissiya** - dövriyyədə pul kütləsinin artmasına gətirib çıxaran pul nişanlarının dövriyyəyə buraxılması mənasını daşıyır.

**Enbarqo** - dövlət hakimiyyəti tərəfindən qızılın, valyutanın, malların, sərvətlərin ixracı və idxalının qadağan edilməsi və ya digər dövlətə məxsus olan əmlakların saxlanılması, xarici gəmilərin öz ölkəsinin limanına daxil olmasının qədağan edilməsi deməkdir.

**Endo** - /*yunanca içəri*/ daxilə açılan.

**Enqel qanunu** - bu qanuna görə gəlir artıqca ərzaq xərcləri azalır, ikinci dərəcəli şeylərə - xidmətə olan xərclər artır.

**Elita** - /*fransızca –elite ən yaxşı, seçilmiş*/ cəmiyyətin yüksək təbəqəsi

**Etatizm** - /*fransızca «eta» sözündən yaranan dövlət mənasını ifadə edən məfəhum*/ siyasi-iqtisadi müstəvidə «dövlətçilik» anlamı. İlk başlanğıcda dövlət mərkəziyyətçiliyi prinsipi mənasında, sonradan, imperializm dövründə burcua dövlətinin iqtisadi funksiyalarının güclənməsi ilə əlaqədar olaraq kapitalist ölkələrinin təsərrüfatının inkişafında dövlətin iqtisadi siyasətinin rolunu səciyyələndirən istilah kimi istifadə olunmuşdur.

**Ev təsərrüfatı** - birgə yaşayan ailə, bir adam və ya insanlar qrupu.

**Ədalətli cəmiyyət** - yüksək sosial qaratlı, real amal və istəklərə əsaslanır. Sosial müdafiənin ünvanlı sisteminin inkişafı, əlillərin cəmiyyətə inteqrasiyası, uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması. pensiya sisteminin təkmilləşdirilməsi, keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş, əhali məşğulluğunun təminatı və yeni iş yerlərinin açılması kimi prioritetləri əks etdirir.

**Əlavə dəyər** - istehsal prosesində yaradılmış məhsulun dəyərinə mövcud müəssisənin real payı. Müəssisənin işçilərinin əmək haqqı, mənfəəti və əsas fondların amortizasiyası əlavə dəyərin həcmini müəyyən edir.

**Əmək resursları** - müəssisənin potensial fəhlə qüvvəsini, *personal* muzdla işləyən daimi, qeyri-daimi, ixtisaslı və qeyri-ixtisaslı tam, *kadrlar* isə əsas ixtisaslı ştat və daimi işçi heyətini əhatə edir.

**Əmtəələr və xidmətlər bazarı** - müxtəlif ərzaq məhsulları, şəxsi istehlak əmtəələri, məişət, kommunal, nəqliyyat xidmətləri, mədəniyyət, təhsil, səhiyyə üzrə pullu xidmət bazarları.

**Ənənəvi cəmiyyət paradiqması** - neolit epoxasındakı aqrar inqilablar zamanında yetişərək kapitalizmə qədər dövrü əhatə edən cəmiyyət formasiyası.

**Əsas istehsal fondları** - istehsal potensialını təyin edən mühüm göstərici kimi, əmək vəsaitlərinin dəyərində əks olunur. Milli sərvətin çox dəyərli hissəsini təşkil edən əsas fondlar, həm də ümumi təkrar istehsal prosesinin həlledici şərti, əmək məhsuldarlığını, istehsalın səmərəliliyini, iqtisadi qüdrəti artıran mühüm amil kimi də çıxış edir. Onun spesifik əlaməti müəyyən istehsal tsikli ərzində aşınma ölçüsünə istinadən dəyərini tədricən hazır məhsulun üzərinə köçürülməsindədir.

**Faktorinq** - maliyyə sistemidir, bu sistemə müvafiq olaraq, mal tədarükçüsü ödəmənin böyük hissəsini dərhal almaq, borcların tam ödəməsinə zəmanət vermək, hesabların idarə olunması xərclərini azaltmaq məqsədilə ilə faktorinq kompaniyalarının ticarət sazişləri üzrə qısamüddətli tələblərdə başqasına güzəştə gedir.

**Fenomen** - qeyri-adi hadisə. İqisadi hadisələrə hissi qavrayış. /*məsələn, pul münasibətləri*/.

**Feodal** - /*latınca feodum əmlak*/ orta əsrlərdə feodun sahibi, iritorpaq mülkiyytçisinə verilən ad.

**Feodalizm** - torpaq üzərində şərti olaraq mülkiyyt formasını ehtiva edən ictimai-iqtisadi formasiya. XVII əsrdə elmi dövriyəyə çıxarılmışdır.

**Feodal iqtisadiyyatı** - bazisini kəndli və sənətkarların xırda istehsalı, feodalların torpaq mülkiyyəti və xarici iqtisadi əlaqələr zərurəti təşkil ediən natural təyinatlı təsərrüfat.

**Fiziokratlar** - /*yunanca physis - təbiət, kratos - qüvvə*/ başlıca ideyasını təbii ahəngdən qaynaqlanan liberalizm təşkil edən XVIII əsrdə yananmış iqtisadi təlim. Görkəmli nümayəndələri F.Kene, A.Türqo, V.Mirabo.

**Fluktuasiya** - iqtisadi piramidanın titrəyişi.

**Fond bircası** - qiymətli kağızların alqı-satqısının həyata keçirildiyi bazar.

**Formal nəzarət agentləri** - nəzarət funksiyalarını yerinə yetirmək üçün xüsusi olaraq təlim görmüş və məvacib alan şəxslər.

**Fors-macor** - müqavilələrə daxil olan və nəzərdə tutulmayan səbəblər üzündən öhdəliyi yerinə yetirmədiyinə görə məsuliyyətdən azad olmağı öncədən nəzərdə tutan şərtdir.

**Forvard** - çatdırılma müddətindən asılı olmayaraq qiymətləri təsbit edilən müqavilə forması.

**Franşiza** - sığorta müqaviləsinin şərti, buna əsasən sığortaçı müəyyən məbləqdən yuxarı olmayaraq zərərin əvəzini ödəməkdən azad edilir.

**Friksion işsizlik** - zəruri və müəyyən mənada arzu olunan işsizlikdir. Adətən, iş axtaranlar və əmək qabiliyyətli olanlar aid edilir.

**Fri-rayderlik** - vicdansız müştəri, pul ödənişini gecikdirən.

**Fyuçer sazişi** - çatdırılma müddətləri müəyyən edilən müqavilə forması olaraq real malın mütləq alınmasını nəzərdə tutmayan əmtəə bircasında bağlanan razılaşma.

**Gendr** - sosial cins.

**Gəlirlər** - təsbit olunmuş təqvim mərhələsində daxil olan pul vəsaitləri /*əmək haqqı, təqayüd, renta, müavinət, aliment, qononar və sair*/.

**Gəlirlərin diferensasiyası** - məcmui gəlirirn adambaşına düşən orta ölçüdə əhali arasında bölgüsü.

**Hetro** - /*yunanca - özgə, yad*/ başqa.

**Həyatın dəyəri** - müvafiq vaxt çevrəsində orta ev təsərrüfatında fəktiki istehlak olunan xidmət və nemətlərin pul dəyəri.

**Həll ağacı** - qəbul olunacaq qərar alternativləri və addımları məhdud olduqda tətbiq edilir. Çox addımlı qərar qəbulu prosesinin optimallaşdırılması həll strukturu, sxemi. Struktur problemlərin həllin təhlilində qəbul olunur.

**Hipoteza** - tam əsaslandırılmamış ehtimal.

**Holdinq** - vahid strukturun birləşməsi, müəssisələrin səhmlər paketinə nəzarəti həyata keçirən idarəetməni təmin edən təşkilat formasıdır. Belə təşkilatın səciyyəvi xüsusiyyəti onun çoxamilli, kompleksli təsisat olunmasındadır. Holdinq dövləti və qeyri-dövləti sistem əsasında yaradılır.

**Holland sindromu** - Xekşer-Olinin nəzəriyyəsinə əsaslanan iqtisadi fenomen. Praktik müstəvidə böyük neft hasilatçısı olan bir sıra ölkələrdə, daha qabaritli formada isə Niderlandda empirik sınaqdan keçmişdir. İzafi qaz potensialını ixracata yönəltməklə büdcəni və iqtisadiyyatını

bilmərəkdən müvafiq resursun inhisarına buraxan Hollandiyada gəlir artımı qeyri-ticari əmtəənin istehsal tələbinin genişlənməsinə gətirmiş, ənənəvi ixracatyönümlü emal sənayesi sahələrində isə istehsalın məhdudlaşmış və nəticə ölkədə çatışmayan əmtəələrin idxalının yüksəlişinə səbəb olaraq davamlı böhranla müşaiyət olunmuşdur. Holland sindromu gerçəkdən ayrı-ayrı zamanlarda müxtəlif səviyyədə Norveç, İngiltərə, Meksikada yaşanmışdır.

**Xalis Milli Məhsul /*XMM*/** - milli iqtisadiyyatın real göstəricisi kimi il ərzində istehsal və istehlak etdiyi əmtəə və xidmətlərin dəyərini əks etdirir.

**Xarici effektlər** - üçüncü tərəfə xeyir və zərər gətirən fəaliyyət.

**Xarici ticarət balansı** - müəyyən müddətə ölkəyə ixrac və idxal edilən malların dəyərinin nisbətini xarakterizə edir.

**Xecirləmə** - valyuta riskinin sığorta edilməsinin müxtəlif metodlarını qeyd etmək üçün bank, birca və kommersiya təcrübəsində istifadə olunan termindir.

**Xərclər-buraxlış** - riyazi-iqtisadi modeli istehsal və məhsul bölgüsünün sahələrarası balansına, konkret olaraq isə məhsulun dəyəri ilə onun buraxlışının pul ifadəsində xərclər məbləğinin müqayisəsinə əsaslanır.

**Xraizmatik liderlər** - imkanları transsaksion rəhbərlərdən üstün olan bu tip liderlər işçiləri adi səviyyədən çox daha intensiv əməklə yüksəltmək bacarığına malikdirlər. Xraizmatik liderliyin mənbəyini əsas üç prinsip təşkil edir ki, bunlar da aşağıdakılardır: işçilərə gələcək görünüşün dəqiq bölgüsünü vermək; kollektivin müdafiə etdiyi korparotiv dəyərlər yaratmaq; işçilərlə qarşılıqlı etibarı təlim etmək.

**İdarəetmə uçotu** - maliyyə uçotunun genişləndirilmiş forması. İdarəetmə uçotunun məqsədi rəhbərliyi idarəetmə qərarlarının qəbul edilməsində lazımi informasiyalarla təmin etməsi təşkil edir.

**İctimai təkamül** - sosial dəyişmələr yolü, hansı kı, rəqiblər təbii ölümlə məhv olurlar.

**İqtisadi artım** - həyat səviyyəsinin yüksəldilməsinə imkan verən, kəmiyyətcə çox və keyfiyyətcə yaxşı əmtəə və xidmətlərin istehsalı nəzərdə tutulur. İqtisadi artım mahiyyətcə müəyyən müddət ərzində istehsal edilmiş ümumi milli məhsulun və ya xalis milli məhsulun faizlə artımını və ya onların adambaşına düşən kəmiyyətini əks etdirir.

**İqtisadi nəzəriyyənin tarixi məktəbi** - induktiv tarixi itədqiqat metodlarına əsaslanaraq milli iqtisadi inkişaf konsepsiyasına üstünlük verən XIX əsrin ortalarında Almaniyada yaranmış iqtisadi fikrin mühüm cərəyanlarından biri. Görkəmli nümayəndələri A.Müller, F.List, V.Roşer, K.Knist, B.Qildebrant.

**İqtisadi sistem** - iqtisadiyyatın başlıca probleminin həllinin təşkili və idarə edilməsinə görə, mövcud məhdud resurslardan istifadə olunması səviyyəsinə görə, həmçinin cəmiyyət və onun üzvlərinin tələbatının ödənilməsinə görə, bir-birindən fərqlənən iqtisadi şəraitin və amillərin məcmusudur. İqtisadi sistemin dörd növünü - bazar, inzibati-amirlik, qarışıq və ənənəvi növlərini fərqləndirirlər.

**İqtisadiyyatın sektorları** - 1.Kənd, meşə təsərrüfatı, ovçuluq, balıqçılıq. 2.Sənaye və tikinti. 3.Xidmətlər, ticarət, nəqliyyat, rabitə, təhsil, elm və sair. Çox vaxt birinci və ikinci sektorlar material istehsal sektoru adlanır. Bunula belə sektorlar real və maliyyəyə bölünür. Real sektor əmtəə və xidmətləri əhatə edir. Beynəlxalq çevrədə iqtisadiyat digər 3 sektorda tərənnüm olunur. 1.Dövlət. 2.Özəl-kommersiya. 3.Mənfəət götürməyən üçüncü sektor adlanan qeyri-hökumət təşkilatları qrupu.

**İmitasiya** - bədəl, bənzətmə, saxta.

**İmport** */İdxal/* - */latınca importo - daxil edirəm/* əmtəə və xidmətlərin idxalı, Görünən, görünməyən və kapitalın importu adlanan üç böyük kateqoriyaya ayrılır.

**İmic** - şəxsiyyətin və ya təşkilatın ictimai portreti -reputasiyası.

**İmperativ** - */latınca –imperativus təsiredici/* vacib və mühüm, qeyri-şərtsiz tələb.

**İndustial cəmiyyət** - XIX əsrin 40-cı illərində yaranan sosial-iqtisadi nəzəriyyə. Lideri amerikan iqtisadçısı və sosioloqu P.Draker hesab olunur. Nəzəriyyə görə industrial cəmiyyətin yaranışını XX əsrdə korparasiyanın yüksəlişi ilə bağlıdır. XIX əsr kapitalist cəmiyyəti isə industrialdan qabaq adlandırılır.

**İnstitusiya** */norma/* - əhalinin münasibət bəsləməsindən asılı olmayaraq parlamentlər və digər qanunverici orqanlar tərəfindən formal olaraq qəbul edilmiş yeni normalar.

**İnteraksiya** - qarşılıqlı hərəkət.

**İndividualizm** - latın mənşəli bölünməzlik mənasını ifadə edərək Azərbaycan dilinə tərcümədə fərdiyəçilik anlamını verir. Mahiyyətcə son hesabda cəmiyyətə qarşı qoyulmuş ayrıca fərd mövqeyini şərtləndirən dünyagörüşüdür. Onun nəzəri əsasını şəxsiyyətin muxtariyyəti və hüquqlarının tanınması təşkil edir.

**İndustrial cəmiyyət paradiqması** - ənənəvi ictimai quruluşu əvəz etmiş, əl əməyini sıxışdıran maşın mexanizmlərin əmələ gəlməsi, genişlənən və çoxçeşidli emal prosesi, texnoloji inqilablar və kapital dünyasının hakim kəsildiyi cəmiyyət tipi.

**İntelliqensiya** - ziyalı, yüksək təhsil və mədəniyyət ölçülü sosial qat.

**İmmiqrasiya** - başqa ölkəyə daimi yaşayış və ya uzunmüddətli yaşayış üçün gediş.

**İndunsiya** - xüsüsi mülahizələrdən ümumi nəticə çıxarmaq.

**İndeks metodu** - indekslərin köməyi ilə sosial-iqtisadi hadisələri ölçüləndirərək vahidliyə gətirən statistik tədqiqat usulu. Öyrənilən hadisənin dinamikasının təsir edən faktorları müəyyən etmək üçün tətbiq edilir. Əsas analitik tələbləri: xarakterlilik, transiztlilik və daxili anlaşma.

**İnhisar** */monopoliya/* - */yunanca monos - vahid, + poleo - satıram/* rəqabət meydanında tək hakimiyyətlik.

**İndeksasiya** - inflyasiya şəraitində pul tələblərinin və müxtəlif gəlirlərin real miqdarını saxlama xüsusiyyətdir.

**İnnavasiya** - */latınca innovare yeniləşmə/* texnika və texnologiyanın yeni növlərini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi.

**İnsan kapitalı** - insanın gələcək əmək gəlirlərinin çıxılmış dəyəri. Bilik, ixtisas, səriştə, təhsil insan kapitalının indikatorlarıdır.

**İnstitutsional** - */latınca institut» cəmiyyətdə qəbul olunmuş, həmçinin qanun formasında məhkəmləndirilmiş müəyyən adətlər, qaydalar və təsisatlar sistemi/*. müasir institut anlayışı olduqca genişdir, o həm dövlət, korporasiya, həmkarlar təşkilatı və həm də rəqabət, inhisar, vergi, sabit təfəkkür tərzi, hüquqi normalar kimi şərh edilir.

**İnstitusionalizm** - iqtisadi qərarların qəbulunda institutlar, dövlət, qanunçuluq, ictimai təşkilatlar, strukturlar, ənənə və sair iqtisadi, qeyri-iqtisadi xarakterli təsisatlar mühüm rol oynadıqı sfera. İqtisadi münasibətlərin subyektlərini, şəxsi maraqlarını öyrənməyə etiraz edən institusionalizm ictimai motivlərə, insanların davranışlarına üz tutur və bazarın avtomatik tənzimlənməsi konsepsiyasını tənqid edir.

**İnstitutsional işsizlik** - əmək bazarının qeyri-səmərəli fəaliyyəti zamanı əmələ gələn işsizlik.

**İnteqrator** - inteqrasiya qurğusu.

**İnteqrasiya** - /*latınca integratio - bərpa olunma, integrationis - tam, vahid*/ müasir dünyada ölkələrini təsərrüfatlarının obyektiv birləşmə prosesi. Məqsədini iqtisadi artım templərin davamlılığına rəğmən əldə olan resusurslardan maksimal dərəcədə effektli istifadəni təminatı təşkil edir. Beynəlxalq iqtisadi inteqrasiya əsas beş mərhələdən keçir: azad ticarət zonası, gömrük ittifaqı, ümumi bazar, iqtisadi ittifaq və iqtisadi və valyuta ittifaqı. Müvafiq inteqrasiyanın beş pilləsini hələlik AB keçmişdir.

**İntervensiya** - /*latınca interventre - qarışmaq*/ təsərrüfat və iqtisadi həyata məqsədyönlü təsir, dövləti müdaxilə.

**İnflyasiya** - /*latınca inflatio - şişirtmə*/ dövriyyədə olan kağız pul kütləsinin artımı nəticəsində pulların dəyərinin kəskin aşağı düşməsi prosesi. Hiperinfilyasiya inflyasiyanın son kəskin tuğyanıdır.

**İnsayder** - maliyyə və digər bu kimi informasiyalara girişi olan fərd.

**İnteraktiv lider** - konsensus şəraitində işləməyə meylli olan interaktiv rəhbərlər əsasən qadınları əhatə edir.

**İnvestisiya** - /*latınca investment geyindirmək mənasında*/ ən ümumi formada pulların daha böyük pullar əldə edilməsinin məqsədili istifadəsi. Pulların daşınmaz əmlaka, sənaye və xidmətlər sferasına qoyuluşu birbaşa investisiya adlanır. Belə hal investora müəssisənin idarə edilməsi və nəzarətinə imkan verir. Portfel investisiyalar isə müəssisələrə bir başa nəzarət etməyə imkan vermir. Belə halda investor səhm sahibi olmaqla mənfəət dividenti əldə edir.

**İnvariant** - dəyişməz kəmiyyət, miqdar.

**İnzibati-amirlik sistemi** - iqtisadiyyatın idarə edilməsində və planlaşdırılmasında sərt inzibatçılığa üstünlük verilən, təsərrüfat subyektlərinin hüquqları məhdudlaşdırılılan iqtisadi sistem. Əvvələr keçmiş SSRİ və Şərqi Avropa ölkələrində, hazırda isə Kubada və bir sıra Asiya dövlətlərində fəaliyyət göstərir.

**İpoteka** - əmlakın, yəni torpağın, evlərin və digər tikililərin girov qoyulması olub borc pul üçün təminat rolunu oynayır.

**İsteblişment** - cəmiyyətdə dayanaqlı, möhkəm vəziyyət. İqtisadi, ictimai institutların və təşkilatların cəmiyyətdə üstün hakimiyyəti.

**İstehsal faktorları** - istehsal xərcləri.

**İstehsal xərcləri** - məhsul /*iş, xidmət*/ hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin məcmusu. Əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir.

**İstehsal dövriyyə fondları** - istehsal ehtiyatları, bitməmiş istehsal, özü ehtiyacları üçün istehsal edilmiş yarımfabrikatlar /*detal, yığma, konstruksiya və sair*/ və gələcək dörün xərclərinin /*yeni məhsul istehsalı üçün xərclər-bu xərclər gələcəkdə istehsal olunacaq məhsul xərclərinə aid edilir*/ cəmində ehtiva olunur.

**İstehlak minimumu** - elmi nöqteyi-nəzərdən fərdin və ailənin minimal insani tələbdərini ödəyən real alış qiymətlərində əmtəə və xidmətlər çeşidi.

**İstehlak səbəti** - orta statistik vətəndaşın fiziki qüvvəsini bərpa etmək üçün zəruri ərzaq çeşidi. Buraya həm də ərzaq çeşidi ilə yanaşı qiymətləri əhəmiyyətli olmayan qeyri-ərzaq məhsulları və xidmətlər də daxildir.

**İşsiz** - əmək qabiliyyətli və əmək yaşlı olub ictimai istehsalda iştirak etməyən əhali qrupu.

**Kampaniya** - hər hansı bir aksiya keçirməyin tədbirlər kompleksi.

**Kapital** - latın və alman dilində baş əmlak mənasını ifadələndirir.

**Kapitalizm** - /*latınca capitalis - baş, əsas, başçı*/ şəxsi mülkiyyət və azad rəqabətin hökm sürdüyü iqtisadi sistem. Daha çox Avropa, ABŞ, Yaponiya, Avstraliyada intişar tapmışdır. Kapitalizm termini digər iqtisadi termin *kapitaldan* başlanğıc alır. Onun ilk əlamətləri Qədim Romada müşahidə olunmuş və ticarətin, sənayeləşmənin, bank işinin təşəküllü ilə XV əsrdə daha təzahürlü gerçəkliyə çevrilmişdir. XVII əsrin sənaye inqilabı kapitalist münasibətlərinin inkişafında yeni amil olmuşdur. Kapitalizm azad sahibkarlıq və yaxud «xalis kapitalizm» formasında nisbətən XIX əsrdə Böyük Britaniya iqtisadiyyatında görünmüşdür.

Karbohidrogen erası - karbohidrogen resurslarının texnikanın qaynaq elementinə çevrildiyi sivilizasion mərhələ.

**Klassik məktəb** - iqtisadi nəzəriyyənin kamilləşdiyi, metodoloji prinsip aldığı təlimlər sistemi. adlanan istiqamət formalaşdı. Klassik məktəbinin ümumi xarakteristikasına görə iqtisadi proseslər insan təbiətindən və onun şəxsi maraqlarından doğur və cəmiyyət ayrı-ayrı fərdlərin məcmusu olaraq onların maraqlarını əks etdirir. Tarixin hərəkətverici qüvvəsi təbii güclərdən qaynaqlanır. Əmək bütün iqtisadi proseslərin əsası, istehsal nəzəriyyəsi mübadilə nəzəriyyəsini doğurur. İqtisadiyyatın inkişafı prosesində demoqrafik faktora istinadən sərvətlər özləri sərhədləri müəyyən edirlər. Klassik məktəbi A.Smit, və D.Rikardo təlimləri də adlandıraırlar.

**Kliring** - qarşılıqlı tələb və öhdəliklərin hesablanması yolu ilə nağdsız hesablamalar sistemi. Ölkə daxilində kliring, hesablama ödəmələri vasitəsilə yerinə yetirilən banklar arasında nağdsız hesablamalar sistemini özündə əks etdirir.

**Kobba-Duqlas funksiyası** - Amerikan alimləri Ç.Kobb və P.Duqlasın ABŞ-ın XX əsrin 20-ci illərində emal sənayesinə hesablanaraq - istehsal həcminin istehsalın əsas faktorları: əmək və kapitaldan aslılığını ifadə edir. Bu funksiyaya görə istehsal həcmi iki faktorla istifadə olunan istehsal vasitələri kapital və əməyin miqdarı ilə təyin olunur.

**Kommersiya** - /*latınca com - birlikdə, əlaqəli merx/mercisrı*/ əmtəə və xidmətlər ticarəti.

**Kommunizm** - tam bərabərlik, istehsal vasitələri üzərində ictimai mülkiyyət üzərində qurulan hipotetik ictimai-iqtisadi cəmiyyət. Əsas prinsipi «hər kəsə bacarıq və tələbinə görə».

**Kompaniya** - /*latınca som-s, birlikdə + panis - çörək*/ iqtisadi termin, firma təşkilat.

**Konsaltinq** - satıcı və alıcılara müəssisələrin iqtisadi fəaliyyəti haqqında məsləhət vermə mənasında işlədilir.

**Konsorsium** - kommersiya iştirakçılarının təşkilati-hüquqi birlikləri formalarından biri.

**Konsessiya** - dövlət və bələdiyyəyə mənsub təbii sərvətlərin, müəssisə və digər təsərrüfat obyektlərinin təsibit olunmuş müddətdə müqavilə əsasında istismara verilməsi forması.

**Konturagent** - partnyor, sazişin digər üzvünə əks olan tərəfdaş.

**Kommersiya** - əmtəə və xidmətlər ticarəti.

**Konformist** - həqiqətə yaxın olan yanılmağı, onu təkzib etməkdən təhlükəli bilən insan.

**Korrelyasiya** - iki təsadüfü ölçünün qarşılıqlı aslılıq səviyyəsi.

**Köləlik** - tam hüqüqsuzluq və son qeyri-bərabərliklə ölçülən insan təhkimçiliyinin soial, iqtisadi və hüquqi forması.

**Kredit** - */latınca creditum - o, inanır, o borc verir/* faiz ödəmək şərtilə pul və ya əmtəə formasında verilən borc.

**Qartal effekti** - yaxın insanları az tanış olan insanlara nisbətdə pis anlamaqın psixoloci paradoksu.

**Qaçqınlar** - məcburi miqrasiya kateqoriyası.

**Qarışıq iqtisadiyyat** - çoxukladlılı, əksərən bazar iqtisadiyyatının variyasiyası. Qarışıq iqtisadiyyat özü-özlüyündə ictimaiyyətin sosial problemlərinin həlli istiqamətində bir sıra məxsusi tipoloji - liberal, sosial orientasiyalı və sosial-demokratik modelləri ehtiva edir.

**Qeyri-bazar sektoru** - bazar sferasına istinad olunan qeyri-səmərəli təşkilatlar, zərərlə işləyənlər mənfi yönümlü əlavə dəyər yaradanları əhatə edir.

**Qeyri-formal nəzarət agentləri** - dostlar və tanışlar.

**Qeyri-maddi aktivlər** - uzun müddətli istifadə üçün nəzərdə tutulmuş hər bir material-əşya mahiyyətinə malik olmayan, lakin dəyər qiymıəti olan gəlir gətirən hüquqi vəsaitlər: elmi nailiyyət, ədəbiyyət, incəsənət üzrə müəlliflik və şəriklilik hüququ, elektron-hesablayıcı kompyter proqramları, patent ixtira, seleksiya nailiyyətləri, faydalı modelləşdirmə hüququ, ticarət-xidmət nişanları, lisenziyalar, «Nou-xau» torpaq sahələrindən, təbii ehtiyatlardan istifadə hüquqları, təşkilatı xərclər, firmanın qiyməti və sair.

**Qiymət** - əmtəənin dəyərinin pulla ifadəsidir.

**Qızıl əsr** - 1870-1914-cü illəri əhatə edir. Məzh bu zaman kəsiyində neft sənayesi, dəmir yollarının geniş çəkilişi, avtomobil industriyası məhşur maliyyəçi və inhisarçılar Rokfeller, Qould, Ford, Vanderbilt, Karneqi, Morqan, Friq Rotşild kimlərin əzm və səyləri nəticəsində yüksək inkişaf tapmışdır. Bu sərmayçilər Vəhşi Qərb çöllərində intəhasız investisiyalar qoyaraq öz rəqiblərini sıradan çıxarmış xələfləri üçün saysız-hesabsız kapital qoyub getmişlər.

**Qızıl kəsim** - «ilahi proporsiya». Parçanın bütün uzunluğunun onun böyük hissəsinə olan nisbəti, onun da böyük hissəsinin kiçiyinə nisbətinə bərabərdir. 0,618 və ya təxminən 5\8. Appollon Belvoderskiyin heykəli Parfeon və ümumiyyətlə əksər kitabların perepletu qızıl kəsimdədir.

**Qloballaşma** */kürəsəlləşmə/* - */latınca globus - kürə/* beynəlmilləşmənin yüksək fazası, dünya təsərrüfatının, əmtəə və xidmətlərin, kapital və işçi qüvvəsinin, biliyin təcəssümündə vahid bazara çevrilməsi prosesi.

**Qlobalistika** - qloballaşmanı tədqiq edən elm sahəsi.

**Qlokoloizasiya** - qlobal və lokal */regional/* vəhdət.

**Qreşman qanunu** - XVI əsr ingilis dövlət və maliyyəçisi Qreşmanın adı ilə bağlı qanun. Pis keyfiyyətli pullar yaxşı keyfiyyətliləri dövriyyədən çıxarır.

**Qrant** - /*qrant – ingiliscə dotasiya, subsidiya və hətta təqayüd*/ müvaiq layihələri gerçəkləşdirmək üçün ayrılan pul və material vəsaiti.

**Qudvil** - firmanın işgüzar reputasiyası və ya onun bazar qiyməti ilə balans dəyərinin fərqi.

**Laq** - vaxt etibarı ilə bir hadisənin onunla bağlı digər hadisəyə nisbətən geridə qalmasını, yaxud onu ötüb keçməsini əks etdirən göstəricidir.

**Leveric** - təsbit olunmuş və olunmamış gəlirlərdə, qiymətli kağızlara kapital qoyuluşuna, əmtəə ehtiyatlarının kapital məbləğinə, xüsusi kapitalın borc kapitalına nisbəti. Praktiki prizmada leverica istehsal-maliyyə fəaliyyətinin nəticələrinin nisbi dəyişməsinə təsir edən iqtisadi alət kimi də yanaşılır. Çoxnövlü olmasına baxmayaraq, əsasən üç - *istehsal, maliyyə* və *maliyyə-istehsal* formasında çıxış edir.

**Loqistika** - material təminatının bütün sferasını: qablaşdırma, hazır məhsul, istehlakçıya çatdırma və sair əhatə edən nəqliyyat, təchizat, ehtiyatlara nəzarət informasiyaların işlənməsi sahəsində planlaşdırılmanın tərkib hissəsini olan təlimdir. Loqistik xərclər, loqistik zəncir, loqistik əməliyyat, informasiya axını, loqistikanın əsas tədqiqat obyektlərindəndir.

**Liberal, Liberalizasiya** - /*latınca libiral liberalis - azad, libiralizm liberalis müstəqil*/ latın mənşəli liberal isminin paronimləri liberalizasiya və liberalizm bir başa tərcümədə azad mənasını ifadə edir. Lakin bu istilahlar iqtisadi sferada ayrı-ayrı anlayışlarda təcəssüm olunur. Liberalizasiya azad ticarətdə meyl artımını, liberalizm isə bazar iqtisadiyyatının bazisi olmaqla bu prosesləri öyrənən iqtisadi nəzəriyyəni tərənnüm edir. Müasir zamanda liberalizm anlayışı əhəmiyyətli dərəcədə təbəllüdatlara uğramışdır. Lakin onun şəxsi mülkiyyət, azad sahibkarlıq və azad rəqabət kimi əsas prinsipləri dəyişməz olaraq qalır.

**Liberal iqtisadiyyat** - xüsusi mülkiyyətin iqtisadiyyatda payının çox olması və üstün mövqe tutması, təsərrüfat qanunvericiliyinin onların dövlət tərəfindən ola biləcək təsirindən qorunması, dövlət tənzimlənməsinin məhdud xarakter daşıması və əsasən makroiqtisadi prosesləri əhatə etməsi, əhalinin bir çox zəruri yaşayış problemlərinin həll edilməsindən dövlətin təcrid edilməsi, sosial məqsədlərin həyata keçirilməsinə yönəldilən xərclərin qalıq xarakter daşıması, ümumi milli məhsulda dövlət büdcəsinin payının az olması və sair bu kimi prinsiplərlə xarakterizə olunan təsərrüfat sistemi.

**LİBOR** - London banklararası depozitlər bazarında dollar təklifləri dərəcələrinin orta ədədi qiyməti kimi hesablanan faiz dərəcəsi. Bu dərəcə hər gün Londonun «Faynenşl Tayms» qəzetində dərc edir.

**Likvidlik** - mövcud borcların vaxtında ödənilməsi, balans aktivlərinin pul öhdəliklərinə çevrilməsi bacarığı ilə ölçülür və qısa müddətli borcların, onun dövriyyə aktivləri ilə ödəniş ölçüsünü əks etdirir. Təşkilatın real vəziyyəti ümumi göstəricilər üzrə illik yekunlar - mühasibat balansı əsasında təhlildə qiymətini alır.

**Lizinq** - /*latınca laxare - azad etmək*/ istehlakçının sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya vermək məqsədilə həyata keçirilən xidmət növü. Lizinq müqaviləsinin obyekti kimi istehsal vasitələri - istehsal təyinatlı binalar, maşınlar, dəzgahlar, nəqliyyat vasitələri və digər əmlak ola bilər. Lizinq iştirakçısı kimi üç tərəf - satıcı, lizinq müəssisəsi və icarəçi çıxış edirlər.

**Lisenziya** - /*latınca ixtiyar, icazə deməkdir*/ ayrı-ayrı şəxslərin və təşkilatların patentlə mühafizə olunan ixtiralardan, texniki biliklərdən, təcrübədən, istehsal sirrindən, ticarət markasından istifadə etmələrinə verilən icazə.

**Lobbizm** - mahiyyətcə lobbizmi vəzifəli şəxsi ələ almaqla bağlı olmadan dövlət hakimiyyət orqanlarında normativ hüquqi aktların, qərarların qəbul edilməsində, iqtisadiyyatın müəyyən sahəsinin maraqlarını ifadə edən fəaliyyət kimi səciyyələndirmək olar. Bütün iri təşkilatlar,

birliklər, assosiasiyalar inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində lobbizmlə məşğul olurlar və o, iqtisadi qanunvericiliyin ayrılmaz hissəsini təşkil edir. ABŞ-da lobbizm qanunu 1946-cı ildə konqres tərəfindən qəbul edilərək qüvvədədir.

**Lornes əmsalı** - gəlirlərin qeyri-bərabər bölgüsünün nisbi xarakterizə edən biçim.

**Lornes əyrisi** - qruplar üzrə toplum ayrı-ayrı elementlərinin konsentrasiyasının qrafik illiustrasiyası. Lornes əyrisi əyani olaraq ailələr üzrə faktiki gəlir bölgüsünü bərabər bölgüdən ayırmaq təhliilində istifadə də tətbiq edilir.

**Lyumpen** - kasıb, avara, cəmiyyətin dibində olaraq onu inqilabi çevrilişlə devirmək istəyindəki sosial təbəqə.

**Maastrix meyarları** */maastrix sazişləri/* - AB-yə daxil olmaq istəyən dövlətlər üçün yerinə yetirilməsi zəruri olan iqtisadi şərtlər kompleksini ifadə edir. Şərtlər kompleksinə aşağı inflyasiyaya nailolma, dövlət maliyyəsinin normallaşdırılması, dayanaqlı valyuta kursları və müvafiq kiçik faizlər şamildir. Bunlar AB sazişinin təsbit olunmuş tələblərində və onun protokollarında əksini tapmışdır.

**Marginallar** - aşağı və yuxarı sosial vəziyyətdə olanlar arasındakı sosial təbəqə.

**Marginallıq zonası** - cəmiyyətin, xalq təsərrüfatı sahələrinin, əmək bazarını seqmentinin və sosial qrupların sosial-peşə marcinallığının yüksək səviyyəsi ilə müşahidə olunan sferası.

**Makroekonomika** - lakonik interpretasiyada milli iqtisadiyyat. Hər bir ölkənin və regionun iqtisadiyyatının bütövlükdə öyrənilməsi, araşdırılması və təhlili. Makraiqtisadiyyat səviyyəsində cəmiyyətin, ölkənin, milli iqtisadiyyatın, ən başlıca iqtisadi normaları dayanır. Burada ictimai məhsulun məcmuu, milli gəlirin kəmiyyəti, onların artımı və bölgüsü, sosial tələbatların ödənilmək səviyyəsi kimi problemlər öyrənilir.

**Maliyyə** - */fransızca financia əldə olan vəsait, kəlir/* pul vəsaitləri fondlarının bölgüsü, yenidən bölgüsü və istifadəsi ilə əlaqədar yaranan münasibətlər sistemidir. Bu münasibətlər dövlətlə hüquqi və fiziki şəxslər, hüquqi şəxslər, həmçinin dövlətlər arasında baş verə bilər.

**Maliyyə dayanaqlığı** - səmərəli ödəniş sisteminin yaradılması, kreditorlar. büdcə ilə hesablaşmalarının optimal sxem üzrə aparılması əsas konturagentlərlə operativ qarşılıqlı təmas, iqtisadi alətlərindən rasional istifadə maliyyə möhkəmliyini gücləndirən şərt.

**Maliyyə resursları** - təşkilatın cari və geniş təkrar istehsal xərclərini və maliyyə öhdəlikləri, iqtisadi stimullaşdırmanı nəzərdə tutan sərəncamda olan pul vəsaitləri.

**Maliyyə uçotu** - maliyyə-mühasibat hesabatlarının tərtibi üçün lazımı məlumatların alınması uçotu. Bu üçot məlumatları həm daxili və həm xarici informasiya istifadəçiləri üçün də gərəkli hesab olunur. Maliyyə uçotunda təsərrüfat əməliyyatları yalnız pul ifadəsində mühasibat uçotu hesablarında baş verən tarixə yazılır.

**Marketinq** - */latınca mercare - ticarət, alış veriş etmək/* menecmentin yaradıcılıq funksiyası olmaqla firma xaricində yaranan meyllərin, onun istehsal tələblərinə təsir edən amillərin məcmusu. Bir sənət kimi, marketinq istehlakçıya yüksək tələbli əmtəə və xidmətlərin təklifini verməklə, qiymətin düzgün təyin olunmasını, satış kanalını seçmək və reklamı təşkiletməni gerçəkləşdirir. Konkret bazarın problem və perspektivlərini, tələblərini kompleks öyrənmək, müəssisənin imkanları çərçivəsində əmtəə assortimentini planlaşdırmaq, bazar tələbi ilə müəssisə imkanlarının üst-üstə düşməsinin formalaşdırmaq, satış əməliyyatlarını təmin etmək, planlaşdırmaq marketinqin əsas funksiyalarıdır.

**Marja** - malların qiməti, qiymətli kağızların kursu və sair göstəricilər arasındakı fərqi qeyd etmək üçün ticarət, birca sığortası və bank təcrübəsində işlədilən termin. Ticarət təcrübəsində marja dedikdə, adətən, malların alınma qiyməti ilə satılma qiyməti arasındakı fərqi nəzərdə tutulur.

**Marcinalizm** - /*farsızca - marginal son hədd, limit*/ İqtisadi qanun və kateqoriyaları tədqiq edərkən limit kəmiyyət təhlilindən istifadəyə əsaslan XIX əsrdə yaranış tapan iqtisadi təlim. Görkəmli nümayəndələri K.Menqer, F.Vizer, E.Bem-Baverk, U.Cevonos, F.Ecuort, L.Valras, C.Klark.

**Marksizm** - K.Marks, F.Engels və onların ardıcılları tərəfindən işlənilən təlim, nəzəriyyə, metodoloji analiz və praktiki hərəkat üsulu. İzafi dəyər konsepsiyüası və tarixi materializ metodoloji prinsiplərinə əsaslanır. Marksizm iqtisadi-siyasi konsepsiyası XX əsrdə çox geni məkanda inqilabi dəyişikliklərə səbəb olaraq miqyaslı ölkələr silsiləsinin konstituasiyon ideologiyasına çevvrilmişdir.

**Mavi yaxalıqlar** - fəhlə sinfi.

**Meqa** - /*yunaca - böyük*/ nisbi böyüklük mənasını ifadə edir.

**Meta** - /*yunaca - sonra, arasında*/ aralıq mövqe.

**Metan epoxası -** təbii qazla bağlı sivilizasiya paradiqması.

**Metod** - göstəricilərin yığım, emal və təhlilinin əsas üsulü.

**Metodika** - texniki fənn və üsüllar məcmusu.

**Metodologiya** - tədqiqat prossedurları, texnika və metodlar məcmusu.

**Memorandium** - xarici ticarət təcrübəsində yaddaş qeydiyyatı.

**Menecer** - /*mürəkkəb ingilis sözü istehsal və insanları idarəetmə fənləri ifadə edir*/ idarəetmə mənasını daşıyır. Top menecer isə baş menecer.deməkdir.

**Meqaekonomika** /*interekonomika*/ - dünya təsərrüfatı.

**Merkantilizm** – /*italyanca - tacir*/, milli ticari kapitalı təmin edərək xaricdən pul axınını şərtləndirən, güclü mərkəzi dövlət yaranışında ehtiva olunan XVI-XVII əsrlərin iqtisadi təlimi. Erkən və son merkantalizmə bölünür. Görkəmli nümayəndələri U.Stafford, A.Monkretyen, C.Kolber, T.Man.

**Mezoekonomika** - sahələrin və regionların iqtisadiyyatı. Makroiqtisadiyyatın yarımsistemləri olub, bir-biri ilə üzvi bağlı sahələr kompleksi /*aqrar-sənaye kompleksi, aqrar-biznes, hərbi-sənaye kompleksi və sair*/.

**Mənfəət** - gəlirlərlə xərclərin fərqi. Fəaliyyət nəticəliyindən asılı olaraq mənfəət əsas və ondan kənar reallaşmadan əldə edilən sair daxilolmalar kontekstində cərimələr, müamilələr, valyuta məzənnəsi kimi, kateqoriyalarda da ehtiva olunur.

**Məzlumçuluq** - sağlamsızlıq, çox uşağlılıq, əyyaşlıq nəticəsində material-mənəvi nemətlərə girş imkanlığının olmaması, uğursuzluq, nəsibsizlik.

**Mikroekonomika** - ukladlar iqtisadiyyatı, istehsal və xidmətin müəssisə, firma səviyyəsində araşdırılması, təşkili və idarəedilməsi.

**Miqrasiya** - /*latınca migratio - köçmə, yerləşmə*/ insanların bu və ya digər səbəblərdən bir yerdən başqa yerə köçməsi prosesi. Öz ölkəsindən getmə *emiqrasiya* əks proses isə immiqrasiya adlanır. Miqrasiya daxili və xarici növlərə malikdir. Onun səbəbləri müxtəlif ola bilər. Əksərən iqtisadi vəziyyətlə bağlıdır.

**Monitarizm** - müasir neokonservatizmin əsas istiqamətlərindən bir. Lideri nobel laureatı M.Fridmandır. Monetraiz konsepsiyası pul kəmiyyətinə istinad edir və ilkin vəzifə olaraq inflasiyanın tənzimlənməsi prosesi qarşıya qoyulur.

**Motivasiya** - stimul və motivlər toplumu. Stimul adətən, maddi təminatla əmək haqqında ifadə olunur. Motivə isə daxili təhriketmə gücü, istək, orientasiya və sair aiddir.

**Monoqram** - müəssisənin müəyyən institutların standartlarına uyğun müvafiq icazəsi ilə məhsul istehsal etmək səlahiyyəti verilən imtiyaz və reytinqdir. O, istehsal məhsulunun birbaşa beynəlxalq bazara çıxışında əhəmiyyət kəsb edən sertifikat nümunəsidir.

**Monoqrafik tədqiqatlar** - yeni bilik verən, fyıretmə və praktiki məqsədli, dioqnostik xarakterli olan bir və ya bir neçə obyektin yaxşı işlənmiş nəzəriyyə əsasında tədqiqai.

**Monopsoniya** - qeyri-təkmil rəqabətdə bir alıcıya qarşı çoxlu satıcının durması və ya yalnız bir istehlakçının bazarı forması. Bu zaman qiyməti alıcı qoyur. Onun maraqlı cəhəti isə monopoliya ilə monopsoniyanın eyni vaxtda, eyni məkanda görünməsidir. Praktikada xalis monopoliya və xalis monopsoniya uzlaşması nadir hadisədir.

**Muzdlu əmək** - mülkiyyətçisi olmayan təşisatda müqavilə əsasında muzdla işləyən işçi.

**Mühasibat uçotu** - /*ərəbcə saymaq*/. müəssisənin təsərrüfat fəaliyyəti və onun nəticələri, vəsaitilər və onların mənbəyi, hesablaşma, kredit və maliyyə münasibətlərini özündə əks etdirən uçot sistemi. Mühasibat uçotu statistik və operativ uçotdan uçot məlumatlarının işlənməsi və istifadə edənə ötürülməsi ilə fərqlənir. Mühasib termini bir sıra dillərdə, o cümlədən rus dilində buxqalter kimi işlənir /*buxqalter alman dilində «kitiab saxlayan» mənasını verir*/.

**Mütləq yoxsulluq** - fərdin yalnız minimal istehlak tələblərində bioloji varlığını qorumaq iqtidarlı ən aşağı yoxsulluq səviyyəsi.

**Neft sivilizasiyası**. - neftlə balı sivilizasiya paradiqması.

**Neoinstitusionalizm** - institusionalizmin metodoloji texnoloji determinizm əsaslı müasir çaları. Neoistitusionalizm K.Eyrosun mədəniyyətin və təsərrüfat fəalliyətinin qarşılıqlı rabitəsi prinsipi, C.Qelbreytin nəhəng korporasiyaların təsiri ilə bazar sisteminin modifikasiyası, Q.Myürdalın sosial sistemlərin təhlili və Y.Kornainin tarazlıq prinsipinin tənqidinə yönəlmiş tədqiqatlarda daha mütəşəkkil vəhtəd tapmışdır.

**Neokeynizianççılıq** - keyinizian nəzəriyyənin metodoloji bazası əsasında müasir iqtisadi fikirin formalaşmış istiqaməti. *Soçlçu keynizçilik* və *neoklassik sitez* yanaşmalı təzahür formalarına malikdir. C.Robinson, K.Kurrixar neokeynizianççılıq nəzəriyyənin təməlçiləri hesab olunurlar.

**Neoklassik məktəb** - marcinal inqilabdan bəhrələnərək iqtisadi fikrin əsas magistral istiqamətlərindən biri. Son faydalıq və son məhsuldarlıq konsepsiyalarının yaranması neoklassik məktəbin mükəmməl rəqabət sferasında bazar sahibkarlığı təsərrüfatının nəzəriyyəsinin işlənməsinə zəmin olmuşdur. Xüsusən azad rəqabət və qiymət yaranışı mexanizmlərinin təkmilləşən xətti neoklassikləri şəxsi və ictimai tarazlıq konsepsiyasını formalaşdırmağa müəssər etmişdir. Neoklassik məktəb XX əsrin 30-cu illərinə qədər iqtisadi nəzəri və praktiki həyatda hakim mövqedə dayanmışdır.

**Neoklassik sintez** - ilk dəfə 1937-ci ildə C.Xiks tərəfindən elmi dövriyyəyə çıxaraılmışdır. O, makronəzəriyyəni neoklassik mikronəzəriyyə ilə vahid nəzəri sistemdə birləşdirməklə kompromis variantlı «neoklassik sintez» adlanan ideya irəli sürmüşdür.

**Neokonservatizm** - əsas struktur komponentləri təklif nəzəriyyəsi və monetarizm oaraq ötən əsrin 70-ci illərinin sonunda 80-ci illərinin əvvəllərində formalaşmış iqtisadi fikrin neoklassik sistem istiqamətlərindən biri. Dövlət funksionallığına xüsusi önəm verən neokonservatizm problematik mərkəzə bazar iqtisadiyyatının optimallaşması üçün antiinfilyasiyon siyasəti və ETT-ni qoyur. Məhşur ABŞ prezidenti R.Reyqan administrasiyası iqtisadi təbəlludatlar konsepsiyası neokonservativ prinsiplərindən qaynaqlanmışdır.

**Neoliberalizm** - iqtisad elmində iqtisadiyyatın özünün tənzimlənməsi və artıq nizamlanmasını rədd edən prinsip əsaslı istiqamət. Neolibiralizm istehsal vasitələri üzərində şəxsi mülkiyyəti möhkəmləndirən fərdi azadlıq ideyalarını tərənnüm edən, iqtisadiyyatın özünün tənzimlənməsi prinsipi ilə məhdud dövlət tənzimlənməsinin vəhtədi əsaslı iqtisadi inkişaf modelidir.

**Neokantçılıq** - XIX əsrin sonu XX əsrin əvvəlārində məşhur alman filosofu İmmanuel Kantın təliminin yeniləşdirilmiş şəhrinə köklənən idealist fəlsəfi cərəyan.

**Neopozitivizm** - subyektiv fəlsəfi idealist cərəyan pozitivizmin XX əsrin əvvələrində təşəkkül tapmış müasir forması. Neopozitivizm fəlsəfənin əsas predmeti və məsələsini nəzərə almır, onu yalnız təfəkkür nəticələrinin ifadə edildiyi dilin təhlili ilə məşğul olan fəaliyyətə kökləyir.

**Noumen** - ağılla dərk edilən hadisələr. */məsələn, qanunlar, trend, meyllər hansı ki konkrent siması yoxdur/.*

**Nou-Xau** - beynəlxalq sazişlərin obyekti olan texniki biliklərin müxtəlifliyini səciyyələndirən ifadədir. Geniş mənada «nou-xau» - texniki biliklərin, istehsalatın xüsusi bacarıq və sirlərinin məcmusudur və patent müdafiəsi ilə təmin edilməmiş ixtiraların həyata keçirilməsidir.

**Nominal qrup** - sosial heyəti ölçüləndirən statistik kateqoriya

**Ofoşor** - */ingiliscə of/off - ordan, schore - sahil, tam mənada sahildən kənar/* termin II Cahan savaşından sonra Qərbi Avropa ölkələrinə ABŞ-ın «Marşal» planı üzrə yadımı nəticəsində yaranmışdır. Bu plana görə ABŞ-la aktiv əməkdaşlıq edən ölkələrə yardım edilmiş, istehsal etdikləri mallar dollar hesabı ilə alınmış və onların büdcə təsisatları subsidiyalar, istiqrazlar vasitəsi ilə müdafiə olunmuşdur. Müasir zamanda offoşor terminindən kontinetal şelfdə neft-qaz hasilatını reallaşdıran kompaniyalar daha çox istifadə edirlər. İqtisadçılar isə geniş mənadə offoşor terminindən azad iqtisadi və maliyyə zonaları kontektsində istifadə edirlər.

**Onşor** - vergidən tam deyil, qismən azad olma və ya müvafiq vergi güzəştli şərtlər əhatəsi.

**Oliqopsnoiya** - pay bölgüsü genişliyi bazar qiymətlərinin dəyişməsində əks olunan bir neçə alıcının iştirak etdiyi sahəvi bazar tipi.

**Operativ uçot** - daxili üçot sistemidir. O, təsərrüfat proseslərinə nəzarət və onları operativ idarə etmək üçün aparılır. Muqavilə prosesi və öhdəlikləri marketinq, iş və xidmətlərin hazırlanması operativ uçotu səciyyələndirən cəhətlər sırasındadır.

**Optimallaşma** - ən yaxşı seçim.

**Ödənişqabiliyyətlilik** - mühüm maliyyə iqtisadi amil kimi daha çox çəkiyə malikdir. O, operativlik, manevrliliyin təminatçısı kimi çıxış edərək istehsalın fasiləsizliyini, səmərəliliyi, uzun və qısa müddətdə öhdəliklərin reallaşdırılmasını gerçəkləşdirir və maliyyə riski, iflas ehtimallığını ölçüləndirən əlavə kapitalın cəlbedilməsi imkanlarını səciyyələndirir.

**Ödəməmələr** /«qeyri-ödənclər»/ - sürəkli maliyyə-pul borcları.

**Özəlləşdirmə** /privitizasiya/ - /*latınca privatus - şəzsi*/ dövlət mülkiyyətini şəxsi əllərə verilməsi. Milliləşdirmə prosesinin əksi.

**Orto** - /*yunanca - düz*/ duz, ardıcıl.

**Paritet İstehlak Qabiliyyəti** /*PİQ*/ - müxtəlif ölkələrin valyutalarının, pul vahidlərinin müqabil nisbəti. Əsas əmtəə və malların alışı üzrə təyinat tapır.

**Paradiqma** - biliyin sərbəst sahəsi və nəzəri yanaşma çərçivəsində elmi birliyin bölüşdüyüü nəzəri və metodoloji prinsiplər, empirik nəticələr və metodik fənnlərin vahid sistemi.

**«Passiv işsizlər»** - sosial təminat proqramları əsasında uzun müddət yardımlar alaraq iş axtarmayan və ya daha axtarmaq iətəməyən işsizlər qrupu.

**Pauperizasiya** - yoxsullaşma, səfəalətə qədəm qoyma.

**Para** - /*yunanca - əksinə*/ əks istiqamətlilik.

**Pareto qanunu** - gəlirlər səviyyəsi ilə onun alınması kəmiyyəti arasında əks asılılıq.

**Paretonun elitanın sirulyasiya qanunun** - aristokratiya heç zaman tarixi səhnədən çıxmır. Onun bir hissəsinin əvəzinə digərlər gəlir, nəticədə elitanın daimi özünüyeniləşməsi baş verir.

**Patent** - ixtiraya verilmiş və mühafizə obyektinin müəyyən müddət ərzində istifadəsində patent sahiblərinin qeyri-adi hüququnu təsdiq edən mühafizə sənədidir.

**Panel tədqiqatlar** - eyni proqramada və vahid metodologiyada tədqiqat aparmaq üçün seçilmiş insanlar qrupu. Burada mahiyyəti ondan ibarətdir ki, müəyyən zaman kəsiyində fasiləsiz olaraq hər bir komanda üzvündən fasiləsiz informasiya alınsın.

**Pablik releyşn** /*PİAR*/ - /*ingiliscə rublic realations - «ictimai əlaqələr», «ictimai münasibətlər», «kütlə üçün hekayət»*/ ictimaiyyətə sosial lüzumlu, təbliğat xarakterli olmayaraq kommersiya və digər məqsədləri informasiya verən firma ilə cəmiyyət arasında idarə edilən kommunikasiya prosesi. «Pablik releyşn» çox zaman PR abbreviaturasında qısa olaraq *piar* kimi də səsləndirilir.

**Pollsterlər** - seçicilərin kütləvi sorğusü üzrə ixtisaslaşmış sosioloqlar.

**Postindustrial cəmiyyət paradiqması** - qloballaşma kontekstində formalaşaraq mühüm mənəvi energetik resursu insan biliyi və informasiyada ehtivada bulunan, xidmətin sferasının genişlənməsi, istehsalın müəyyən məhdudlaşması, deindustrializasiya, deurbanizasiya ilə müşayiət olunan yeni cəmiyyət tipi.

**Pul** - istehsal olunan əmtəələrin dəyərinin və xidmətlərin ifadə olunması forması. Pul vasitəsilə əmtəələr və xidmətlər dəyişdirilir.

**Prinsip** - latınca əsas, başlanğıc.

**Prinsipal** - fiziki və hüquqi şəxs.

**Proaktiv model** - sosial-iqtisadi fəaliyyəti sistemaltılarından biri kimi əhalinin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasını təmin edən kompleks ölçülər sistemini ehtiva edir.

**Proqmatik metod** - hər bir mövqeyin praktiki izlilik cəhətdən şərhini verir. Fəlsəfədə ilk dəfə praqmatizm 1878-ci ildə Çarliz Pirs tərəfindən dövriyyə buraxılıb Empirizmdən fərqli olaraq praqmatizm faktlara köklənmir. Lakin, o bizim ruhumuz və təcrübəmizdən hasil olan nəticələri qəbul edir. Əgər dini ideyalar dəyərlidir və praqmatizm onları qəbul edir.

**Proteksionizm** - /*latınca protectio - himayəçilik, müdafiə*/ iqtisadi himayəçilik. Milli biznesin xarici bazarlarda genişlənməsi şəraitinin yaradılması, xarici malın birbaşa və vasitəli məhdudlaşdırılmasının müxtəlif formalarından istifadə edilməklə milli iqtisadiyyatın sahələrini xarici rəqabətlərdən mühafizə məqsədi ilə aparılan siyasət.

**Rayt qanunu** - gəlir səviyyəsi nə qədərdirsə onların əmanətlilik və xərclənmə səviyyəsi də yüksəkdir.

**Reaktiv model** - /*latınca re nşəkilçi hərəkətin dönüşü, yenləşməsi, əks hərəkət*/ sosial-iqtisadi fəaliyyəti sistemaltılarından biri kimi bazar iqtisadiyyatı şəraitinin dəyişkənliyi və adaptasiyasına nisbətən bağlı sosial qrupun müdafiə sistemini ehtiva edir.

**Reputasiya** - nüfuz, ictimai rəydə formalaşmış statusa hörmət.

**Reytinq** - sinfə, dərəcəyə aid olan qiymətdir.

**Reklam** - malların satış bazarlarında alıcılara təsir vasitəsi.

**Rekvizit** - saziş və ya sənədin tərkibində formal elementlərin yekunu. Bu elementlər olmadıqda onların hüquqi qüvvəsi itir.

**Renovasiya** - təzələmə, yenidən başlama.

**Renta** - iqtisadi təbiətini kəndlinin izafi məhsulveriminin torpaq mülkiyyətçisinin mənimsəməsi forması təşkil edən feodal cəmiyyətində təşəkkül tapan iqtisadi kateqoriya. Renta mükafat olmaqla xərclərin dəyəri ilə bazar qiymətləri arasında fərq kimi, böyük səylərin, ustalığın nəticəsi deyil, sadəcə səxavətli irsiyyətdən qaynaq alır.

**Repyutinq** - istehsalçının kompleks hərəkətlər və ya işgüzar reputasiya mexanizminin yaratmağı repyutinq adlanır. Repyutinq stil, imic, işgüzar reputasiya və qudvil kimi komponentləri əks etdirir.

**Restruktizasiya** - strukturun dəyişməsi, yenidən təşkili. İqtisadi səmərəni və bazar rəqabətinin yüksəldilməsi istiqamətində geniş dairəli tədbirlər sistemi kimi anlaşılır.

**Respondent** - sosioloqun sorğu apardığı şəxs.

**Rəqabət** - /*latın «toqquşma» və ya «bəhsləşmə»*/ iqtisadiyyatda istehsalçı və istehlakçılar bərabər imkanlara malik olmalarına baxmayaraq, bu imkanlardan daha səmərəli istifadə etməklə qalib gəlmək əzmi.

**Rielter** - daşınmaz əmlak satan.

**Risk** - /*portuqal sözüdür - dənizçilər gəmidə təhlükə yaranda, qaya və rifiləri görəndə risk deyiblər*/ təssərrüfat həyatında müəyyən qərar və hərəkətlər nəticəsində mənfi təzahürlü hadisələrə qarşılaşma ehtimalını şərtləndirir. Uğuru əldən vermək, çətin vəziyyətlə rastlaşmaq, mənfəət əvəzinə zərər çəkmək riski səciyyələndirən cəhətlərdəndir. Siyasi, maliyyə, iqtisadi, bank, kredit, valyuta, faiz və dicər bü kimi növləri vardır.

**Royalti** - lisenziya razılaşmalarının fəaliyyəti dövründə lisenziat tərəfindən hazır məhsulun qiymətindən ayırmalar şəklində, ya da məhsul vahidindən yığım formasında verilən mükafatdır.

**Roma klubu** - 1968-ci ildən fəaliyyət göstərir. Məqsəd və məramı kürreyi ərzin resurslarının fiziki məhdudluğu ilə bağlı «bəşəri çətinliklər»in elmi təhlilini aparmaq, planetar kritik situasiyalarda «həyəcan təbili» səsləndirmək, «işlərin idraklı gedişinə» nail olmada ictimaiyyətə «qlobal tarazlığın» əldə edilməsində hansı ölçü və tədbirləri gerçəkləşdirmək yollarını göstərmək və habelə ümumilikdə problemin həllində müvafiq metodika vermək dayanır. Siyasi doktrinalar

formalaşdırmayan elm, təhsil, ətraf mühit və iqtisadiyyatla bağlı aktual məsələlər üzrə dialoqa çağırış edən Roma klubu bəşəriyyət qarşısında dayanan çətin problemləri aşkarlaması və onun həlli strategiyasını işləmək kimi, şərəfli missiyanı həyata keçirir.

**Sanksiya** - sərəncam, təlimat və göstərişə riyayət olunmanı stimullaşdıran mükafatlandırma və cəzalandırma aksiyası.
**Sanasiya** - müəssisənin maliyyə durumunun sağlamlaşdırılması.

**Sertifikat** - bu və ya başqa faktı təsdiqləyən sənəd.

**Servis rəhbərlər** - ideya məqsədləri ilə yanaşı, daha çox öz işçilərinin tələblərini ödəməyə sərf etməklə fərqlənirlər.

**Setsesiya** - dövlətin tərkibindən çıxma.

**Səfalət** - fizioloci miniumdan aşağı olan yaxsulluq, kasıblıq son aşağı həddi.

**Səyyar** */müsətəvi, sahəvi/* **tədqiqatlar** - sosial hadisələrin gerçək həyat situasiyaları əsasında bilavasitə müşahidə metodu ilə tam miqyaslı öyrənilməsi.

**Servis sinfi** - təhsil, səhiyyə və sosial təminat sferasında fəaliyyət göstərən peşəkarlar.

**Səhmdar Cəmiyyət** - öz səhmləri müqabilində məsuliyyəti nəzərdə tutan geniş əməkdaşlıq forması.

**Sxolastika** - */latınca scholastica elmi söhbət, məktəb/* dini fəlsəfə tipi. Ehkamçıilğin şərtlərini rassionalist metodika ilə birləşdirmək, teologiyaya üstünlük vnrmək sxolastikanın məntiq prinsilərini təşkil edir.

**Sinif** - spesefik gəlir əldə etməyi ilə xarakterizə olunaraq cəmiyyətdə məxsusi yer tutan sosial qrup.

**Sindikat** - sahibkarlar birliyidir. Bu birliyə daxil olan müəssisələrin istehsalat və hüquqi sərbəstliyini saxlamaqla, bütün kommersiya fəaliyyətini həyata keçirir.

**Sığorta bazarı** - maliyyə-pul münasibətlərinin xüsusi bölməsi. Burada bazar münasibətlərinin obyekti kimi spesifik bir əmtəə alqı-satqı əməliyyatlarının iştirakçılarına göstərilən sığorta xidməti çıxış edir.

**Svilizasiya** - anlayışını XVIII əsrdə varvarlıq anlayışına əks olaraq fransız mütəfəkkirləri yaratmışlar. Bu zamanlar düşüncə obyekti olaraq svilizasiya ilk interpretasiyada qədim tarixin vəhşilik, varvarlıq mərhələsindən sonrakı - III dövrü ifadə edirdi. Müasir zamanda sivilizasiya termini özünün ilkin mənasını praktiki olaraq itirmiş və o, hazırda yüksək tarixi və coğrafi mədəniyyətlər məcmusunu ifadə etməkdədir. Bu baxımdan yeni reallıqlardan çıxış edərək ismin tək halında «*svilizasiya*» anlayışı ilə cəm hallı «*svilizasiyalar*» məfhumlarını da fərqləndirmək gərəklidir. Svilizasiyon cəmiyyət primitivdən oturaq, şəhər və maarifli cəhətləri ilə fərqlənmişdir. Sonradan svilizasiya haqqında müxtəlif svilizasiyaların yaranışı ilə bağlı olaraq cəm halında danışmağa başlamışlar. Sivilizasiyon yanaşma cəmiyyət inkişafıeı ənənəvi. İndustrial və postindustrial olan formatda ehtiva edir.

**Solçu keynizçilik** - keynizian nəzəriyyənin yeni islahatçı variantlarından biri. Solçu keynizçilər müasir kapitalizmin acılarının köklərini «effektiv tələbin» çatışmasızlığında görür bu səbəblərdən də işsizlik və böhranlar yarandığını göstərir, iqtisadi mexaniz kimi hərbi xərclərin sosial ehtiyac məsrəfləri ilə əvəzlənməsini tələb edirdilər. Bir sıra solçu keynizçilər K.Marksın bəzi baxışlarını da bölüşərək maksizmlə keynizçiliyi birləşdirməyə cəhd etmişlər.

**Sosial-demokratik bazar iqtisadiyyatı** - sosial bazar iqtisadiyyatı modeli ilə eyniyyt daşayaraq dövlət mülkiyyətinin həddən artıq çox olması xarakterik iqtisadi sistem. Ən çox İsveçrədə tətbiq olunduğundan İsveç modeli adlanır.

**Sosial iqtisadiyyat** - predmetini insanların rifah halının artımının, sistemli olaraq onların potensialından iqtisadiyyatın və sosial sferanının dayanaqlı inkişafının təmin edilməsindəki rolunun öyrənilməsi təşkil edir. Müvafiq konturlar konteksində «Soisal iqtisadiyyatın» nəzəri və metodoloji formalaşması problemləri tədqiq olunur, sosial-iqtisadi inkişafın təşkilati, kadr, sahibkarlıq, sosial-iqtisadi proseslərin idarəedilməsinin texnoloji və resurs faktorları və onların proqnozlaşdırılması şərhini tapır. Sosial-əmək potensialından istifadə problemləri. Yeni iş yerlərinin açılması, iqtisadi aktiv əhalinin işküzar və yaradıcı təşəbbüskarlıqnın artırılması, əməyin sosial təşkili, kimi məsələlər də «sosial İqtitisadiyyatın» tədqiqat sferasını əhatə edir.

**Sosial səmərəlilik** - həyati keyfiyyəti ehtiva edən sosial səmərəlilik cəmiyyətin xidmət və sosial sferasında tələblərin dolğun ödənilməsini səciyyələndirir. Məhsulun keyfiyyəti, əmək məhsuldarlığı, əməyin fond təminatı, fondhəcmi, fondverimi, mənfəət və zərərlər, aktivlərin rentabelliyi, həyat səviyyəsi göstəricilərini xarakterizə edən sosial səmərəlilik iqtisadi səmərəliliklə qarşılıqlı rabitə, təmas və asılılıqdadır.

**Sosial siyasət** - dövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemi.

**Sosioloji tədqiqatlar** - bir sosial hadisənin digər sosial hadisə ilə izahını verən tədqiqatlar.

**Sosial deprivasiya** - alilərə nisbətdə cəmiyyətin aşağı qatının sosial nemətlərə çıxış imkanlığı məhdudluğu.

**Sosial qrup** - eyni sosial mövqeydə dayanan və adekvat rollar ifa edən insanlar toplumu.

**Sosial dezinteqrasiya** - ictimai tamın parçalanması.

**Sosial inteqrasiya** - sosial hadisələrin harmonik vahid tam altında birləşmə prosesi.

**Sosial mobillik** - fərdin və ya qrupun öz statusunun digər qrupa keçməsi.

**Sosial sistem** - cəmiyyətin əsas elementlərinin və sosial institutların nisbi möhkəm bağlılıq məcmui.

**Sosial alt** */dib/* - aşağı sinfin aşağı təbəqəsi.

**Sosial tədqiqatlar** - sosial faktların qeyri-sosial tədqiqat fənləri üzrə izahını verən elmi araşdırma sistemi.

**Sosial-iqtisadi formasiya** - nəzəriyyəsi XIX əsrin ortalarında gənc hegelçilər və digər idealistlərə zidd olaraq K.Marks və F.Engels tərəfindən işlənmişdir. Formasiyon paradiqmanın əsasında ictimai-iqtisadi formasiya kateqoriyası dayanır. O özündə müvafiq struktur çərçivəsində material nemətlərin istehsal üsulunu, istehsal gücləri, istehsal vasitələri olan - bazisi və və müvafiq siyasi orentasiya - üstqurumu birləşdirir. Mahiyyətcə bu yanaşma *ibtidai icma*, *quldarlıq*, *feodalizm*, *kapitalizm* və *iki fazalı kommunizmi* ehtiva edən beş ictimai iqtisadi formasiyada təcəssüm olunur.

**Sosial institut** - cəmiyyətin fundomental istehlak tələblərinin təmin olunmasına istiqamətlənmiş birgə fəaliyyətin ənənə, adə və normalarla tənzimlənməsinin dayanaqlı təşkilati forması.

**Sosiallaşma** - mədəni norma və sosial rolların həyat boyu mənimsənilməsi.

**Sosioqrafiya** - ərazi və profesional ümümiliklərin monoqrafik şərhi.

**Sosium**. böyük dayanaqlı sosial cəmiyyət /daxildir insanların ümumi fəaliyyət şərtləri, mədəniyyət, irsiyyət, ənənə.

**Sosiologizm** - spesefikliyin və sosial reallığın avtonomluğunun təsdiqi, onun fərddən üstünlüyü.

**Softlaşma** - bir hadisə kimi qeyri-material resurslarının, o cümlədən, müxtəlif-servis xidməti, cəmiyyətin intellektual potensialı, işçi qüvvəsi və kadr hazırlığı konsaltinq, ekspert, idarəetmə sənətkarlığının iqtisadi inkişafın amilinə çevrilməsi kimi xarakterizə etmək olar.

**Spot** - əmtəənin təcili verimi və ona müvafiq ödənişi əks etdirir.

**Suda** - rus sözü olub elə kredit deməkdir.

**Staqnasiya** - iqtisadiyyatada, ticarətdə sıfır, mənfi iqtisadi artım və ya durğunluq deməkdir.

**Staqflyasiya** - iqtisadiyyatda istehsal səviyyəsinin inkişafının dayanmasının və hətta aşağı düşməsinin arasıkəsilməz qiymət artımının sürətləndirilməsi ilə əlaqələndirilməsidir.

**Statika** - sükunət, dinamika.

**Statistika** - /italyanca *stato,* latınca *status* - dövlət/ iqtisadi informasiya və göstəricilərin toplanması, emali və təhlili prosesi.

**Statistik uçot** - kütləvi müşahidə, müqayisə, qruplaşdırma, təhlil, statistik məlumatların alınması və işlənməsini ifadə edir. Burada ölçü sistemi çoxşaxəli və genişdir.

**Statistik fakt** - kütləvi müşahidə zamanı alınan tipik məcmui rəqəm xarakteristikası.

**Stratifikasiya** - /*latınca – stratum, hərfi tərcümədə təbəqə*/ yeni əhali təbəqələrinin yaranışı prosesi olan sosial təbəqələşməni ifadələndirərək bəşəri qütbləşmənin imtiyazlı və qeyri-imtiyazlı, kasıb və varlı, təhsil səviyyəsi, hakimiyyət möqeyi kontekstində bölgüsünü təcəssüm etdirir. Stratifikisiyanın başlanğıc nöqtəsini əmlak və sosial vəziyyətlərinə görə fərqlənməyən eynicinsli cəmiyyət təşkil edir.

**Strateci planlaşdırma** - statistik, normativ, balans və ekspert metodlarını əks etdirən planlaşdırma strateci aspektdə komplekslilik, sistemlilik kimi prinsipal əsaslarda qurulan təyinatı ilə seçilir. Proses üç əsas mərhələdə: diaqnostika, məqsədlərin müəyyənləşdirilməsi və təyinatı, tədbirlərin - strategiyanın işlənməsi və reallaşmasında ehtiva olunur.

**Struktur** - möhkəm pərçimlənmiş qarşılıqlı rabitəli elementləri məcmui.

**Struktur işsizlik** - istehlak tələbinin tərkibində və istehsal texnologiyasında baş verən dəyişikliklər nəticəsində əmələ gəlir. Çünki belə dəyişiklik bəzi ixtisaslara olan tələbi azaldır və ya ümumiyyətlə heç tələb olmur.

**Subsidiya** - /*latınca subsidium - kömək, yardım*/ milli istehsalın müdafiəsi və inkişafı üçün dövlətin ayırdığı vəsait. Dotasiya və qrant kimi növləri vardır.

**SVİFT** - beynəlxalq ödəmələri kompyüter şəbəkələri vasitəsilə həyata keçirməkdə avtomatlaşdırılmış sistemdir.

**Svop** - /*ingiliscə dəyişmə*/ müəyyən intervalda tədiyyə mübadiləli kontraktın xüsusi tipi. Mərkəzi banklar arasında həyata keçirilən müəyyən müddətdən sonra geriyə dəyişmək öhdəçiliyi ilə milli valyutanın xarici valyutaya dəyişməsi üzrə aparılan əməliyyat.

**Şaquli İnteqrasiya olunan Təşkilat** ***/ŞİT/*** - axtarış və kəşfiyyatdan son istehlakçıya - yanacaq doldurma məntəqəsinədək tsikli əhatə edən konqlomerat təşkilat. 1879-cu ildə Bakıda «Nobel qardaşları yoldaşlığı» Neft Şirkəti ilk ŞİT hesab olunur. 1882-ci ildə ABŞ-da «Standartoyl» timsalında bu nümunə təkrar olunmuşdur. Bir çox xüsusiyyətlərinə görə ARDNŞ-də ŞİT təyinatlıdır.

**Tarixi sosiologiya** - insan cəmiyyətinin mənşəyi və təkamülü haqqında elm.

**Tender** - müəyyən malın tədarükü və ya potensial iştirakçılara ticarət təşkilatları tərəfindən göndərilən müəyyən xidmətlərin yerinə yetirilməsi barəsində təklifləri əks etdirən sənəddir.

**Tədiyyə balansı** - əmtəə, kapital və xidmət ixracı idxal ilə birlikdə ölkənin tədiyyə balansını təşkil edir.

**Tətbiqi tədqiqatlar** - konkret sosial problemi öyrənərək onun həlli və tətbiqinə tövsiyyələr verən kiçik miqyaslı, prezentasiya olunmayan tədqiqatlar.

**Təklif** - satıcının müəyyən dövr ərzində hər hansı bir əmtəəni müəyyən qiymətə, müəyyən kəmiyyətə satmaq arzusu və imkanı. Təklifin əsas hissəsini əmtəə təklifi təşkil edir və o, bazarda əhalinin ödəmə qabiliyyətli tələbinə qarşı durur. Təklif istehsalla bağlı olsa da, o, öz həcminə görə istehsaldan azdır.

**Tələb** - alıcının müəyyən dövr ərzində hər hansı bir əmtəədən müəyyən qiymətdə və kəmiyyətdə əldə etmək arzusu və imkanı. Tələb alıcıların tədiuyə qabiliyyəti ilə məhduddur, o müəyyən pul vasitələri ilə təmin olunur və əhali lazımi hallarda həmin pul vasitələrini əmtəə və xidmətlərin alınması üçün sərf edir. Tələb istehsalla bilavasitə əlaqədar olduğundan, istehsaldan əvvəl mövcud olmur.

**Təşkilati struktur** - təsərrüfatlaşan obyektə çoxşaxəli təşkilati strukturlar xasdır. Beynəlxalq təcrübəyə müvafiq departamentləşmədə törəmə istehsal qurumlarını əhatə edən *xətti,* yaxud *iyerarxik,* aparıcı şöbələr prinsipində xüsusiləşən *funksional* və nəhəng təşkilatlara xas menecer idarəetməsinə əsaslanan *diviziyon,* xarici təsirlərə, yeniləşməyə meyli ilə fərqlənən *adaptiv* - yaxud *üzvü* strukturlar təsnifatı vardır. Digər bir təsnifatda adi şöbə bölgüsü - *funksional ənənəvi coğrafi* və *məhsul buraxılışı üzrə qruplaşmış diviziyon* və bunların vəhdətini əks etdirən *matrissa* strukturu ilə yanaşı *komandalı* - xüsusi tapşırıqları koordinasiya edən və daha çox beynəlxalq əlaqələrdə əhəmiyyətli olan *broker* tənzimli şəbəkəli strukturlar da mövcuddur.

**Tədavül sferası** - kapital və istehsal fondlarının dövriyyəsidir. Merkantelizmə görə sərvətlər tədavül sferasında ticarətdə baş verir.

**Tədavül fondları** - anbarda hazır məhsul, yüklənmiş və yolda olan məhsul, pul vəsaitləri və məhsul istehlakçılarının hesablarında olan vəsaitlərin cəmindən ibarətdir.

**Ticarət balansı** - əmtəə və xidmətlərin ixracı və idxal birlikdə ölkənin ticarət balansını təşkil edir.

**Tomizm** - Aristotel fəlsəfəsinin xristianlıq dinin tələblərinə uüğunlaşdırmağa köklənən teoloq Foma Akvinatın adı ilə bağlı katolik fəlsəfəsində mühüm cərəyan.

**Transsaksion rəhbərlər** - işçilərə tapşırıqları izah etmək, mükafatlandırma, sosial tələbləri ödəmək qayğılı rəhbərlik prinsipi. Əməksevərlik, təmkinlilik, açıqdüşüncəli səmərəli fəaliyyətlə iftixaretmə, qaydalara, normativlərə nöqsansız riayət, təşkilat qarşısında borcu fədakarlıqla yerinə yetirmək transsaksion rəhbərin xarakter arsenalını təşkil edən elementlərdəndir.

**Transformasiya olunan liderlər** - menecerlər və təşkilat rəhbərləri istehsal funksiyalarını yerinə yetirməklə məşğul olsalar da, bəzən bu iki işin bir əldə cəmlənməsinə zərurətlər yaradır. Bu tələbləri transformasiya olunan liderlər yerinə yetirirlər. Bir növ xraizmatik liderləri xatırlasalar da əsasən strateci dəyişikliklər zamanı rəhbərliyə cəlb edilirlər.

**Transfert** - pulun bir maliyyə idarəsindən başqasına və ya ölkədən ölkəyə köçürülməsi deməkdir.

**Transmilli Korporasiyalar /*TMK*/** - /*latınca trans dolayı, sərhəddən kənar, natio - irq, millət, corporatio - birlik*/ konqlamerant, çoxmilli, multnasional, transnasional qlobal korporativ, xüsuslu nəhəng beynəlxalq qurumlar. Təsiredici nüfuzları, çoxmilyardlıq investisiyon qüdrətləri ilə qloballaşma prosesini stimullaşdırırlar. Hərtərəfli mühafizə sistemləri, yüksək maddi-texniki baza, elmi-tədqiqat institutları, laboratoriyaları, konstruktor büroları TMK-nın artan potensialını, rəqabət qüdrətini təmin edir.

**Tranzit** - /*latınca transitus - keçmə*/ sərnişin, yük və əmtəələrin bir məntəqədən digərinə üçüncü məntəqə vasitəsi ilə daşınması.

**Trend tədqiqatlar** - eyni metodika ya riayət etməklə müvafiq vaxt məsafəsi çərçivəsində aparılan tədqiqatlar.

**Tsiklik işsizlik** - istehsal durğunluğu zamanı özünü büruzə verir. Əmtəələrə və xidmətlərə olan məcmu tələb azaldıqda məşğulluq ixtisara salınır, işsizlik isə artır. Bəzən bu növ işsizliyi tələb defisitliyi işsizliyi də adlandırılır.

**Uçot** - təşkilatın təsərrüfat həyatında bütün sisteminin ümumi görünüşünü səciyyələndirən vasitə. Uçotun təşkilində hazırda dördpilləli: birinci pillə *qanunlar,* ikinci *standartlar,* üçüncü *metodik göstərişlər,* dördüncü işləmə sənədlərini əhatə edən *normativ sənədlər* məcmusu mövcudur. Bazar iqtisadiyyatı sistemində uçotun əsas beş növü və foması maliyyə. idarəetmə, statistik, operativ və mühasibat uçotu.

**Unifikasiya** - müxtəlif növ məhsulların, hissələrin, qovşaqların və digər konstruksiya elemetlərinin, tətbiq edilən materialların, texnoloji proseslərin səmərəli şəkildə eyni hala salınmasının təmin edilməsidir.

**Ümumi gəlir** - maddi istehsal xərcləri ilə mədaxil arasındakı fərqdir. Əmək haqqını və təmiz gəliri özündə birləşdirir.

**Ümumi daxili məhsul /*ÜDM*/** - ümumi milli məhsul kimi, istehsal və xidmət sferasının nəticəsini əks etdirir. O, il ərzində iqtisadiyyatda son məhsul və xidmətlərin həcminin dəyərini göstərir.

**Ümumi milli məhsul /*ÜMM*/** - ölkə və onun xaricində öz daxili resursları hesabına il ərzində istehsal olunan bütün son hazır əmtəə və xidmətlərin dəyər məcmusu.

**Urbanik mədəniyyət** - /*latınca urbnus şəhərlə bağlı olan*/ şəhər mədiyyəti.

**Urbanizasiya** - şəhərlə bağlı olan cəmiyyətin inkişafında şəhərlərin rolunun artmasını göstərən tarixi proses olaraq əhalinin sosial-peşə, demoqrafik strukturunu, həyat tərzini, mədəniyyətini, məhsuldar qüvvələrin yerləşdirilməsini, məskunlaşması məsələlərini özündə birləşdirir.

**Utlitar yanaşma** - faydalılıq nöqteyi nəzərindən yanaşma.

**Utopik sistem** - /*yunanca «u» - qeyri və «topos» - torpaq sözlərinin birləşməsini nəticəsində heç harada olmayan torpaq*/ elmi cəhətdən əsaslandırılmayaraq iqtisadi nəticələri nəzərə almayan humanist baxışları ifadə edən ictimai quruluş.

**Valyuta** - hər hansı dövlətin pul nişanəsi. Valyutalar işlənmə qaydasından asılı olaraq tam çevrilən, qismən çevrilən və çevrilməz valyutalara ayrılır. Yevro, ABŞ dolları supervalyuta hesab olunur.

**Valyuta və qiymətli kağızlar /*maliyyə*/ bazarı** - valyutaların, səhmlərin, istiqrazların, çeklərin, akkreditivlərin, veksellərin və digər pul öhdəliklərini yerinə yetirən bilən qiymətli kağızların sərbəst alqı-satqısı.

**Veksel** - qanunauyğun formada tətbiq olunmuş və onun sahibinə müəyyən müddət keçdikdən sonra üzərində göstərilən məbləği ödəməyi öhdəsinə götürən şəxsdən şəksiz tələb etmək hüququ verən xüsusi yazılı borc öhdəliyidir.

**Verifikasiya prinsipi** - biliyi təcrübə, müşahidə və eksperimentin verdiyi məlumatlarla tutuşdurmaq yolu ilə yoxlamaq.

**Vətəndaş cəmiyyəti** - dövlətin vətəndaşa üstin qayğı göstərdiyi cmiyyət.

**«Yeni agentlər»** - kiçik biznesi əhatə edərək özümüşğul əhali

**«Yeni yoxsullar»** - özünün sosial, demoqrafik, peşə statusu.

**Yoxsulluğun feminizasiyası** - yoxsullar arasında qadınların, ələxsus da tək anaların artamı tendensiyası.

**Yoxsulluq** - insanların minimal pul, təhsil, hakimiyyət və nufuz malik sosial və iqtisadi vəziyyəti.

**Yoxsulluq zonası** - yoxsullaraın yüksək konsentrasiyalı ərazisi. Burada yoxsulluq əmsalı orta ğlkə göstəricisindən də yüksəkdir.

**Yoxsulluq astanası** - minimal gəlirin rəsmi təsbit olunmuş ölçüsü.

# SOSİAL-İQTİSADİ HƏYATI TƏCƏSSÜM ETDİRƏN AFORİZMLƏR

Allah alış-verişi halal, sələm almaqı isə haram etmişdi.

**Qurani Kərim**
**Əl-Bəqərə sürəsi. 275-ci ayə.**

Allah sələmlə qazanınılan malın bərəketinin mehv edər, sədəqəsi verilmiş malın bərəketini ise artırar.

**Qurani Kərim**
**Əl-Bəqərə surəsi. 276-ci ayə.**

İnsanlar elə bir sədəqə verə bilməzlər ki, öyrənilən elmdən üstün ola.

**Həzrəti Məhəmməd Əleyhissalam**

Sədəqə, onu verənin qəbir odunu söndürər, mömin adam qiyamət günündə öz sədəqəsinin kölgəsinə sığınar.

**Həzrəti Məhəmməd Əleyhissalam**

Yalnız iki adama həsəd aparmaq olar: Birincisi Allahın verdiyi mal-dövləti haqq yolunda sərf edənə, ikincisi Allah verdiyi hikməti başqalarına öyrədənə.

**Həzrəti Məhəmməd Əleyhissalam**

Xərclədikcə elm artır, mal isə əksilir.

**Əli Əleyhissəlam**

Mal sərxoşluğu, içki sərxoşluğudan daha şiddətlidir.

**Əli Əleyhissəlam**

Şöhrət tapacaqsan, ya həyatın yoxsulluqla keçəcək - fərq etməz. Keçmiş və gələcəyinin səndən asılı olmadığı yəqinliyi ilə fikir savaşını boşla və öz-özünü daim təkmilləşdir.

**Konfusi**

Mənə yaxşı siyasət verin və mən də maliyyə verim.

**Ann Robber Can Tyurqo**

İnsanlar varlı olmaq istəmirlər, insanlar digərlərindən varlı olmaq istəyirlər.

**Con Styuart Mill**

Tarix iki dəfə təkrarlanır: birinci dəfə faciə, ikinci dəfə məzhəkə şəklində

**Karl Marks**

Bütün başlanğıclar çətindir - bu həqiqət hər elm üçün ədalətlidir

**Karl Marks**

Əgər cəmiyyətdə texniki tələb yaranırsa onda o elmi onlarla universitetdən də artıq irəli aparır.

**Fridrix Engels**

Rəqabət çoxlu müstəqil fərdlər tərəfindən reallaşdırılan -mərkəzləşdirilmiş planlaşdırmadır.

**Fidrix fon Xayek**

İnfilyasiya qanuni əsası olmayan yeganə cəza formasıdır.

**Milton Fridmen**

Bərabərliyi azadlıqdan üstün qoyan cəmiyyət nəticədə nə bərabərlik, nə də azadlıq qazanır.

**Milton Fridmen**

Azad bazarın əlehinə əksər etirazların əsasında ümumiyyətlə inam və azadlığın olmaması dayanır.

**Milton Fridman**

Bir qayda olaraq tanınmış müəllifin qələmindən çıxmayan yeni ideyaların təqdim edən işlər tənqidlərə məruz qalmır.

**Yozef Şumpeter**

XX yüzilliyin başlanğıcında iqtisad elmi müstəqil akademik elm kimi təsdiqini tapmışdı. Riyazi yanaşmalarla silahlanaraq məhdud bilikli insan üçün o, fizika, kimya kimi az anlaşılan oldu və buna görə də ictimaii elmlər arasında daha qabaqcıl reputasiya əldə etdi.

**Vasiliy Leyontyev**

İqtisadi məsələlərdə əksəriyyət düz deyil.

**Con Qelbreyt**

Əgər siz kifayət qədər və uzun müddət təbiətə işkəncə verəcəksiniz, o dərk olunacaq.

**Ronald Kouz**

Mən təmailə əminəm ki, iqtisadi nəzəriyyə bir elmi fənn olaraq digər ictimai elmlərdən daha çox predmeti ilə deyil, özünün yanaşma tərzi ilə fərqlənir.

**Henri Bekker**

## QAYNAQLAR

1. Qurani Kərim
2. Anri Masse. «İslam». Bakı. Azərbaycan Ensiklopediyasnın baş redaksiyası. 1992. 256 s.
3. «Bhaqavad-qita olduğu kimi». BHAKTİVENDATA BUK TRAST. 1991. 896 s.
4. Balayev R.Ə. Urbanizasiya zonalarının ərzaq problemi Bakı: Azərnəşr. 1998. 168 s.
5. Daniel Defo «Rabinzon Kruzo». Bakı. Gənclik. 1979. 480 s.
6. Engels F. «Təbiətin dialektikası». Bakı. Azərbaycan Dövlət nəşriyyatı. 1966. 360 s.
7. Əbu Əli Həsən İbn Əli Xoca Nizamülmülk «Siyasətnamə». Bakı. Elm. 1989. 212 s.
8. Əhmədov H.Q. «Politologiya» Bakı. N.Tusi adına ADPU-nin nəşriyyatı. 1997. 201 s.
9. ƏliyevA.Ə., Şəkərəliyev A.Ş. «Bazar iqtisadiyyatına keçid: Dövlətin iqtisadi siyasəti». Bakı. «İqtisad Universiteti» nəşriyyatı. 2002. 440 s.
10. Əliyev H.Ə. «Azərbaycan nefti dünya siyasətində». Bakı. 1997. 478 s.
11. Əliyev İ.H., Muradverdiyev A. «Azərbaycan nefti dünya siyasətində». IV cilddə. Bakı. 1997-1998.
12. Əlirzayev Ə.Q. «İqtisadiyyat: düşüncələr, baxışlar». Bakı, 2002. 211. s.
13. Hacızadə E.M. «Azərbaycanın quruda neftqazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri». Bakı. Elm. 1998. 144 s.
14. Hacızadə E.M. «Energetik kompleks yeni islahatlar ərəfəsində». Bakı. Elm. 2000. 257 s.
15. Hacızadə E.M., Paşayev T.Ə. «Neft-qaz sənayesində yeni bazar mexanizmlərinin formalaşdırılması istiqamətləri». Bakı. Elm. 2000. 200 s.
16. Hacızadə E.M. «Azərbaycanın təbii qaz potensialı: reallıqlar və virtual cizgilər». Bakı. Elm. 2001. 186 s.
17. Hacızadə E.M. «Neftqazçıxarma kompleksinin iqtisadi inkişaf modeli». Bakı. Elm. 2002. 472 s.
18. Hacızadə E.M., Abdullayev Z.S. «Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası». Bakı. Elm. 2003. 512 s.
19. Hacı Məhəmməd Meybullayev. «İslam iqtisadiyyatı». Bakı. 2001. 666 s.
20. «İncil». Stokolm. Bibliya tərcümə institutu. 1993. 612 s.
21. Keyniz C.M. «Məşğulluq mənfəət və pulun ümumi nəzəriyyəisi». Bakı. Qanun. 2001. 380 s.
22. Lenin V.İ. Əsərlərin tam külliyyatı. 55 cilddə. Bakı. 1976-1988.
23. Marks K. «Kapital». IV cilddə. Bakı. Azərbaycan Dövlət Nəşriyyatı. 1974.
24. Marks K. «Fəlsəfə yoxsulluğu». Bakı. Azərbaycan Dövlət Nəşriyyatı. 1975. 184 s.
25. Marks K. və Engels F. Seçilmiş əsərləri. III cilddə Bakı. Azərbaycan Dövlət nəşriyyatı. 1978-1981.
26. Nəbiyev N.Ə. «İqtisadiyyat, cəmiyyət və ekoloji mühit» Bakı. 2000. 696 s.
27. Nizami Gəncəvi «Yeddi gözəl» Bakı. Azərbaycan dövlət nəşriyyatı. 1941. 311 səh.
28. Səmədzadə Z.Ə. «Dünya iqtisadiyyatı. Çin iqtisadi möcüsəsi» Bakı. «Gənclik», 2001. 322 s.
29. Аакер Дэвид «Стратегическое рыночное управление» Санкт-Петербург. Питер. 2002. 467 с.
30. Абалкин Л.И. «Россия-2015: Оптимистический сценарии». М: ММВБ. 1999. 426 с.
31. Абрамов С И «Управление инвестициями в основной капитал». М: Экзамен. 2002. 343 с.
32. Адам Мец. «Мусульманский ренессанс». М: Наука. 1973. 473 с.
33. Алиев И.Г. «Каспийская нефть Азербайджана». М: Известия, 2003. 798 с.
34. Антология мировой политической мысли. в 5 томах М: МЫСЛЬ. 1997.
35. Аристотель. «Политика: Наука об управлении государством». М: Наука. 2003. 124 с.
36. Артур Конан Дойл. Собрание сочинений в 8 томах. Т1. /*Этюда в багровых тонах*/ М: Правда. 1966. 235 с.

37. «Артхашастра» М: Наука. 1993. 226 с.
38. Аршинов В.И. «Синергетика как феномен постнеоклассической науку». М: 1999. 348 с.
39. Асмус В.Ф. «История античной философии». М: 1965. 455 с.
40. Бекаев Л.С., Марченко С.В., Пинегин С.П. и другие. «Мировая энергетика и переход к устойчивому развитию». Новосибирск: Наука. 2000. 433. с.
41. Белл Даниел. «Грядущее постиндустриальное общество. Опыт социального прогнозирования» М: Academia. 1999. 356 с.
42. Бессонова О.Э. «Раздаток: институциональная теория хозяйственного развития России». Новосибирск: ИЭ и ОПП СО РАН. 1999.152 с.
43. Бестужев-Лада И.В. Г.А.Наместникова «Социальное прогнозирование». М: Педагогическое общество России 2002. 392 с.
44. Бжезинский З. «Великая шахматная доска: Господство Америки и его геостратегические императивы». М: 1999. 230 с.
45. Блауг М. «Экономическая мысль в ретроспективе». М: НП «Журнал вопрос экономики». 2004. 416 с.
46. Блауг М. «Методология экономической науки и как экономисты обясняет». М: Дело ЛТД. 1994. 435 с.
47. Большой толковый социологический словарь. В двух томах. М: Вече. 1999. 528 с.
48. Бочаров В.В. «Корпоративные финансы». Санкт-Петербург. Питер. 2001. 480 с.
49. Бьюкенен Дж. Конституция экономической политики. М: МЫСЛЬ. 208 с.
50. Вериан Х.Р. «Микроэкономика». М: ЮНИТА. 1997. 767 с.
51. Вернадский В.И. «Научная мысль как планетарное явление». М: Наука. 1977. 145 с.
52. Винер Роберт. «Кибернетика». М: Наука.1983. 344 с.
53. Войтов А.Г. «Экономика». М: Маркетинг. 2000. 584 с.
54. Волконский В.А. «Институциональное проблемы Российский реформ». М: Диалог-МГУ. 1998. 432 с.
55. Гайдар Е. «Государство и эволюция». М: Евразия, 1995. 434 с.
56. Гитман Л.Д., Джонс М.Д. «Основы инвестирования». М: Дело. 1999. 1008.
57. Голуб А., Струкова Е. Экономика природных ресурсов, М: Аспект-Прес. 1998, 416. с.
58. Гринберг Р., Рубинштейн А. «Экономическая социодинамика». М: ИСЭ-ПРЭСС. 2000. 237 с.
59. Дафт Л.Р. «Менеджмент» Санкт-Петербург. Питер. 2000. 832 с.
60. Делепляс Г. Лекции по истории экономической мысли. М: TEMPUS. 2000. 543 с.
61. Доминик Сальваторе. «Международная экономика». М: Риа «ПК». 1998. 714 с.
62. Доугерти Кристофер. «Введение в эконометрику». М: ИНФРА-М. 1999. 402 с.
63. Дугин А. «Основы геополитики: Геополитические будуще России». М: АРКТОГЕЯ-центр.1999. 928 с.
64. Ергин Д. «Добыча. Всемирная история борьбы за нефть, деньги и власть». М: Де Нова. 1999. 968 с.
65. Ергин Д., Густафсон Т. «Россия: двадцать лет спустя. Четыре сценария». М: МО. 1995. 288 с.
66. Забелин С., Кортен Д., Медоуз Д., Норберг-Ходж Х., Шуберт К. «Глобализация или устойчивое развитие». М: СоЭС. 1998. 85 с.
67. Иванов В.Н. «Основы современного социального управления. Теория и методология». М: 2000. 534 с.
68. «Изложение учения». Сен-Симона М: Издательство Академии Наук СССР.1947. 211 с.
69. История Азербайджана. В трех томах. Баку. Издательство АН Азерб. ССР. 1958-1963 гг.
70. Карнеги Д. «Как завоевать друзей и окозовать влияние на людей». Екатеренбург «ЛИТУР». 2000. 720 с.

71. Кауз Р.Г. «Природы фирмы». М: 1995. 346 с.
72. Кемпбелл Р.Маконнел., Стенли Л.Брю. «Экономикс». М: ИНФРА-М. 1999. 974 с.
73. Кларк Д.Б. «Распределение богатства». М: Гелиос АРВ. 2000. 368 с.
74. Козырев В.М. «Основы современной экономики». М: Финансы и статистика. 2000. 367 с.
75. Козырев А.А., Юдин А.П. «Информационные технологии в экономики». Санкт-Петербург. Издательство Михайлово. 2000. 64 с.
76. Козьева И.А., Кузьбожев Э.Н. Экономическая география и регионалистика. М: КНОРУС, 2005. 336 с.
77. Коллон М. Нефть, PR, война: Глобальный контроль над ресурсами планеты. М: Крымский мост-9Д. 2002. 414 с.
78. Корнаи Я. «Дефицит». М: Наука. 1990. 356 с.
79. Корнаи Я. «Социалистическая система: Политическая экономика коммунизма». М: 2000. 469 с.
80. Костельс М. «Информационная эпоха. Экономика, общества и культура». М: У ВШЭ. 2000. 608 с.
81. Кочетков А. «Основы экономической теории». М: Дашков и К 2004. 492.с.
82. Кругман А. Обстфельд М. «Международная экономика: Теория и политика». М: ЮНИТИ. 1997. 567 с.
83. Кулинцев И.И. «Экономика и социология труда». М: Центр экономики и маркетинга.1999. 396 с.
84. Левашов В.И. Социальная политика доходов и заработной платы. М: Центр экономики и маркетинга. 2000. 360 с.
85. Леонтев В.В. «Межотреслевая экономика». М: Экономика. 1997. 621 с.
86. Лютенс Фред. «Организационное поведение». М: ИНФРА-М. 1999. 692 с.
87. Мангейм Дж.Б., Рич Р.К. «Политология: Методы исследования». М: Издат. «Весь Мир». 1997. 544 с.
88. Маршал А. «Принципы экономической науки». В трех томах. М: Дело. 1993.
89. Мень А. «История религии». В 7 томах. М: Наука.1992.
90. Мирзаджанзаде А.Х. «О пути в XXI век». Баку. ИПП «ОСКАР». 2001. 570 с.
91. Норт Д. «Институты, институциональные изменения и функционирование экономики» М: Начала. 1997. 289 с.
92. «Очерки истории российской экономической мысли». */под ред. акад. Л.И. Абалкина/*. М: Наука. 2003. 366 с.
93. «Панорама экономической мысли конца XX столетия». */под ред. Д.Гринэуэя, М.Блини, И.Стюарта/* М: Наука. 670 с.
94. «Повестка дня на XXI век». М: СоЭС. 1998. 218 с.
95. Поппер К. «К эволюционной теории позанния». М: МЫСЛЬ, 1999 278 с.
96. «Природный газ». */под ред. Р.Басби/* М: ЗАО "Олимп-Бизнес". 2003. 240 с.
97. Радаев В.В. «Экономическая социология». М: Аспект-Пресс. 2000. 368 с.
98. Салин В.Н., Шпаковская Е.П. «Социально-экономическая статистика». М: Юристъ. 2001. 461 с.
99. Самоухин А.И., Шишов А.Л. «Теория и практика бизнеса». М: «РДЛ». 1997. 320 с.
100. Самульсон П.Э., Нордхаус В.Д. «Экономика». М: «Вильямс». 2000. 688 с.
101. Слезингер Г.Э. «Социальная экономика». М: Издательство Дело и Сервис. 2001. 368 с.
102. Сорвина Г.Н. «Экономическая мысль XX столетия». М: РОССПЭН. 2000. 324 с.
103. Социологический энциклопедический словарь. Под редакции Г.В.Осипова М: ИНФРА. 1998. 488 с.
104. Сорос Дж. «Сорос о Соросе. Опережая перемены» М:ИНФРА-М. 1996 398 с.
105. Сорокин П.А. «Человек. Цивилизация. Общество». М: ИНФРА-М 1992. 344 с.

106. «Социального-экономическая география зарубежного мира». М: Крон-Пресс. 1998. 592 с.
107. Статистика. М: ИНФРА-М. 2000. 310 с.
108. Тавокин Е..П. «Социальная статистика» М: РАГС, 2001. 278 с.
109. Уильямсон О. «Экономические институты капитализма». Санкт-Петербург: Ленииздат. 1996. 582 с.
110. «Уроки мудрости: Сочинения». Конфуций М: Издательство: ЭКСМО. 1998. 234 с.
111. «Утопический роман XVI-XVII веков». М: Художественная литература. 1971. 496 с.
112. Феллер В. В смуту XXI века. Очерки движущих сил и предопределенных исходов кризисного развития 2000-2030. Самарский Дом печати. 2002. 416 с.
113. Фишер С., Дорнбуш Р., Шмалензи Р. «Экономика» М: ИНФРА-М. 1999. 864 с.
114. Фома Аквинский «Сумма теологии». М: Эльга-Н. 2002. 560 с.
115. Фридмен М. «Количественная теория денег». М: 1996. 544 с.
116. Хакен Г. «Синергетика». М: Мир. 1980. 374 с.
117. Хей Ф., Моррис Д. «Теория организации промышленности». В двух томах. Санкт-Петербург: «Экономическая школа». 1999.
118. Холина В. Н «Основы экономики природопользования». СПБ: Питер. 2005. 672 с.
119. «Экономика». /*под редакцией д.э.н.* А.С.Булатова./ М: Юристь. 2000. 896 с.
120. «Экономическая теория зарубежных стран». /*под общий редакции В.И.Голубовича*/ Минск. Ип «Экопреспектива» 1998. 432 с.
121. Эрнст Джонс. «Деловые финансы». М: ЗАО. Олимп-бизнес. 1998. 416 с.

122. Black, Angela & Fraser, Patricia & MacDonald, Ronald. Business Conditions and Speculative Assets. RePEc:bla:manch2:v:65:y:1997, p.379.
123. Dale, Spencer & Haldane, Andrew G. Interest Rate Control in Model of Monetaru Polis RePEc:bla:manch2:v:66: y:1998, p.354.
124. Draker Peter .F. Management during large changes, NY: Truman Taiiey Books, 1995, p.654
125. Mosca G. The Ruling Class // The Logic of Social Hierarchies. Chicago. 1971. P. 252.

126. ttp://www.demvv.narod.ru
127. http://www galleru. economicus.ru.
128. http://www. lham-aliev. com
129. http://www.ptpu.ru/issues.
130. http://www.pravoslavie.org.
131. http://econ-om.narod.ru
132. http://www.tomsk.ru/Books/Toffler/thirdw.htm.
133. http://nuclearno.ru
134. http://socilogos.narod.ru
135. http://www.demoscope.ru

# İXTİSARLA YAZILMIŞ SÖZLƏR

| | | |
|---|---|---|
| **ABŞ** | □ | *Amerika Birləşmiş Ştatları* |
| **AB** | □ | *Avropa Birliyi* |
| **ADR** | □ | *Azərbaycan Demokratik Respublikası* |
| **AES** | □ | *Atom Elektrik Stansiyası* |
| **AŞ** | □ | *Avropa Şurası* |
| **AYİB** | □ | *Avropa Yenidənqurma və İnkişaf Bankı* |
| **AMEA** | □ | *Azərbaycan Milli Elmlər Akademiyası* |
| **AFR** | □ | *Almaniya Federativ Respublikası* |
| **BVF** | □ | *Beynəlxalq Valyuta Fondu* |
| **BEİR** | □ | *Beynəlxalq ekspermental istilik nüvə reaktoru* |
| **ARDNŞ** | □ | *Azərbaycan Dövlət Neft Şirkəti* |
| **BİA** | □ | *Beynəlxalq İnkişaf Assosiasiyası* |
| **BMT** | □ | *Birləşmiş Millətlər Təşkilatı* |
| **BMK** | □ | *Beynəlxalq Maliyyə Korporasiyası* |
| **BƏƏ** | □ | *Birləşmiş Ərəb Əmirlikləri* |
| **BƏT** | □ | *Beynəlxalq Əmək Təşkilatı* |
| **DB** | | *Dünya Bankı* |
| **DYİB** | □ | *Dünya Yenidənqurma və İnkişaf Bankı* |
| **ETT** | □ | *Elmi-Texniki Tərəqqi* |
| **EHM** | □ | *Eektron Hesablayıcı Maşın* |
| **ƏDV** | □ | *Əlavə Dəyər Vergisi* |
| **ƏİF** | □ | *Əsas İstehsal Fondları* |
| **IAEA** | □ | *BMT-nin atom enerjisi üzrə agentliyi* |
| **İTSA** | □ | *İnvestisiya Təminatları üzrə Çoxistiqamətləi Aqentlik* |
| **İMTM** | □ | *İnvestisiya Mübahisələrini Tənzimləyən Mərkəz* |
| **İİB** | □ | *İslam İnkişaf Bankı* |
| **İKT** | □ | *İslam Konfransı Təşkilatı* |
| **İES** | □ | *İstilik Elektrik Stansiyası* |
| **MDB** | □ | *Müstəqil Dövlətlər Birliyi* |
| **RF** | □ | *Rusiya Federasiyası* |
| **PR** | □ | *Pablik releyşn* |
| **SSRİ** | □ | *Sovet Sosialist Respublikaları İttifaqı* |
| **SC** | □ | *Səhmdar Cəmiyyət* |
| **ŞİT** | □ | *Şaquli inteqrasiya olunan təşkilat* |
| **SES** | □ | *Su Elektrik Stansiyası* |
| **TASİS** | □ | *MDB və Monqolustan İqtisadi Yardım Təşkilatı* |
| **TMK** | □ | *Transmilli korporasiya* |
| **ÜDM** | □ | *Ümumi Daxili Məhsul* |
| **YEK** | □ | *Yanacaq Energetika Kompleksi* |
| **YEN** | □ | *Yanacaq və Energetika Nazirliyi* |

**Гаджизаде Эльшан Махмуд оглы**

## СОЦИАЛИЗИРУЮЩАЯСЯ ЭКОНОМИКА

# РЕЗЮМЕ

В монографическое исследование превратилось в предмет научного анализа эволюции экономической структуры цивилизации, эмпирико-теоретические аспекты и новые ориентиры развития социализирующейся экономики. В результате провёденном системном и трендовым подхода, методом научной дедукции отражены новые векторы концепции социализирование экономики.

Анализируя в новом ракурсе первичную хозяйственную композицию, конфессиальность экономики, научное формирование генеалогии экономической теории и ступеней развития цивилизации определено, что начиная со становления и развития человеческой общественности её хозяйственная жизнь сопровождалась социалным уклоном. А на нынешнем периоде цивилизации социальный фактор превратился в основной движущий компонент во всех сетях экономического развития и демократического прогресса. Определено, что энергетический фактор находясь на высоте всех образований, выявило соответствующие разносторонные парадигмы цивилизации. В этом контексте разделённые на каменный, бронзовый и железный век цивилизации, также классифицируются на биомассаво-дровяные, углеводородно ресурсный и ядерно синтезные энергетические эпохи.

В процессе исследований обосновано, что на нынешнем этапе человеческого развития оптимальное распределение прибыли, адекватная социальныя инфраструктура, совершенное пенсионное обеспечение, возрастающий сервис в общем синтезе конкретизирует императивы социальной политики. Экономика в социализирующемся аспекте строит свою гармонию в пространстве социально- географического моделирования, рациональным информационным обеспечением и достижением новых инноваций.

Обуславливая твёрдость структурных изменений бизнеса тенденция социума, параллельно диктует и развитие некоммерческих образований. Социализирующаяся экономика в своём движении на передний план выдвигает перспективы развития софтизации, создание гражданского общества, конституционной экономики, социальной экологии и консепцию рационального выбора.

В переходе к более совершенной социально-экономической модели как важный альтернативный консенсус укрепляется Исламская экономика. Настраивание перспективном парадигмы цивилизации на Исламское финансирование и социализацию - главный результат проведённого научно-аналитического исследования.

В книге представлены портреты научных деятелей, отражены иллюстрации, таблицы, графические материалы, а также олицетворяющихся единство экономики и социальной науки афоризмы, словарь общих соответствующих терминов и понятий.

Монография предназначена для использования в сфере научного исследования, образования и для широкого круга читателей.

**Hacizadeh Elshan Mahmud oglu**

## SUMMARU

# SOCIALIZATION ECONOMY

In monographic research has turned to a subcect of the scientific analysis of evolution of economic structure of a civilization, empirik-theoretical aspects and new reference points of development socialization economy. In result carried out system and тrend the approach, the method of scientific deduction reflects new vectors of the concept socialization economy.

Analyzing in a new foreshortening a primary economic composition, faiths economy, scientific formation genealogy the economic theory and steps of development of a civilization is determined, that since becoming and development of the human public its economic life was accompanied social by a bias. And on the present period of a civilization the social factor has turned to the basic driving component in all networks of economic development and democratic progress. It is determined, that the power factor being on height of all formations, has revealed corresponding versatile paradigms of a civilization. In this context shared on stone, bronze and the Iron Age of a civilization, also are classified on bioweight-wood, hydrocarbon resource and nucleus synthesis power epoch.

During researches optimum distribution of the profit is proved, that at a present stage of human development, adequate social the infrastructure, the perfect provision of pensions, growing service in the general synthesis concretizes imperatives of social policy. The economy in socialization aspect builds the harmony in space of socially geographical modelling, a rational supply with information and achievement of new innovations. Causing hardness of structural changes of business the tendency sosium, in parallel dictates also development of noncommercial formations. Socialization the economy in the movement on the foreground puts forward prospects of development softwaretion creation of a civil society, the constitutional economy, social ecology and the concept of a rational choice.

In transition to more perfect social and economic model as the important alternative consensus becomes stronger Islamic economy. Will adcust perspective paradigms of a civilization on Islamic financing and socialization - the main result of the the carried out scientific - analytical research.

In the book portraits of scientific figures are submitted, illustrations, tables, graphic materials, and also personified unity of economy and a social science aphorisms, the dictionary of the general corresponding terms and concepts are reflected.

The monography is intended for use in sphere of scientific research, formation and for a wide range of readers.

TEXNİKİ REDAKTORU *MƏMMƏDOVA FƏXRİYYƏ*
KOMPUTER TƏRTİBÇİLƏRİ *HACIZADƏ FATİMƏ*
*HACIZADƏ NURLAN*

MONOQRAFİYA

ELŞƏN MAHMUD oğlı HACIZADƏ

# SOSİALLAŞAN İQTİSADİYYAT

***Müəllif kitabın ərsəyə yetməsində hərtərəfli maddi və mənavi dəstək vermiş istəkli Sabir Təvəkkül oğlı Əhmədova və professor Həsən Abid oğlu İsrafilova dərin təşəkkürlərini bildirir.***

Yığılmağa verilmişdir: 20.02.2006. Çapa hazırlanmışdır .25.03.2006. Formatı 60x84 $^{1/}{}_{16}$ Həcmi 32 ç.v.
Sayı 300. «Nurlan» NRM-də çap edilmişdir